MEHMAN SÜLEYMANOV

# MEHMANDAROV

## Ön söz

X1X əsrin əvvəllərində Azərbaycanın Rusiya tərəfindən işğal edilməsi xalqımızın tarixinin nisgilli səhifələrindən biridir. Həmin işğalla xalqımız uzun əsrlərdən bəri mövcud olan müstəqil dövlətçiliyini itirdi və təxminən bir əsrə qədər çar səltənətinin həm siyasi, həm də iqtisadi və mənəvi buxovlarında qaldı. Çünki böyük imperiyanın ideoloqları Azərbaycan xalqının siyasi müstəqilliyinə bir dəfəlik son qoyulması və bu istiqamətdə başlaya biləcək hərəkatların qarşısının alınması üçün onun milli və mənəvi dəyərlərinin də məhvinə cəhd göstərirdi. Bu məqsədlə Azərbaycan ərazilərinin bir hissəsi erməniləşdirir , sərhədyanı bölgələr isə ruslaşdırılırdı. Xalqın hərbi vərdişlərinin unutdurulması üçün isə azərbaycanlı əhali əsgəri xidmətə cəlb edilmirdi. Belə bir tədbirə əl atılması sadəcə olaraq rus çarizminin azərbaycanlıları etibar etməməsi və onlara silah tapşırılmasının nə vaxtsa çarizmə təhlükə törədə biləcəyi qorxusu ilə bağlı deyildi. Həmin addımı atmaqla imperiya ideoloqları həm də xalqın milli-mənəvi əhval-ruhiyyəsini məhv etmək istəyirdilər. Məlumdur ki, hər bir xalqın milli-vətənpərvərlik hisslərinin formalaşmasında və həmin hisslərin milli hərəkatların mərkəzində dayanmasında hərbi işin böyük əhəmiyyəti vardır. Hərb işi hər bir xalqın, o cümlədən də Azərbaycan xalqının qəhrəmanlıq keçmişi, onun qürur mənbəyi idi. Bu işin davam etdirilməsi, hərbi ənənlərin inkişaf etdirilməsi milli şüurun mübarizlik ruhunda formalaşmasında ciddi əhəmiyyət kəsb edir. Bütün bunlar nəzərə alındığı üçün çarizm azərbaycanlıları əsgərliyə çağırmırdı. Yalnız xan-bəy nəslinin övladları istisna hallarda hərbi xidmətə cəlb edilirdi. Bu da ondan irəli gəlirdi ki, çarizm azərbaycanlıların xan və bəy nəslini özünün yerlərdəki dayağı hesab edirdi və inanırdı ki, həmin nəslin övladları da çarizmə sədaqətlə xidmət edəcəkdir. Qeyd etmək lazımdır ki, onlar da elə kütləvi şəkildə hərbi xidmətə cəlb edilmirdilər. O şəxslər hərbi xidmətə qəbul edilirdilər ki, onlar özləri hərb işinə meyl göstərirdilər. Fəxrlə anılmalıdır ki, həmin şəxslərin də çoxunda milli keyfiyyətlər son dərəcə yüksək səviyyədə idi və onlar düşdükləri ən mürəkkəb mühitlərdə belə azərbaycanlılara xas olan keyfiyyətləri qoruyub saxlamışdılar. Naxçıvanskilər nəslindən olan generallar və zabitlər, vitse-admiral Aslanbəyov, tam artillerya generalı Səməd bəy Mehmandarov, general-leytenant Əliağa Şıxlinski və s. kimi zabitlər bu gün Azərbaycan xalqının fəxri olan şəxsiyyətlərdir. Onlar Azərbaycan xalqı öz siyasi müstəqilliyin itirdiyi illərdə xalqın hərbi ənənlərini layiqincə davam etdirmiş və bu xalqda hərb işinə marağın məhv olmadığını nümayiş etdirmişlər. Eyni zamanda onlar azərbaycanlılarda hərbi bacarıq və istetadın da çox yüksək olduğunu təsdiqləmişlər. Yəni, öz fədakar xidmətləri ilə adları çəkilən və çəkilməyən azərbaycanlı zabitlər xalqın hərbi ənənlərinin qırılmasına imkan vermədilər və yeni şəraitdə bu işi yeni bir səviyyəyə qaldırdılar.

Məlumdur ki, çar ordusunda uzun xidmət yolu keçmiş zabitlərdən çoxu, o cümlədən Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski və digərləri XX əsrin əvvəllərində Azərbaycan öz müstəqilliyini qazandıqdan sonra onun ordusunun yaradılmasında çox əhəmiyyətli xidmət göstərmişlər. Nəzərə alsaq ki, bu günkü

Azərbaycan ordusu Cümhuriyyət ordusunun varisidir və onun yaranma tarixi də Cümhuriyyət ordusunun yaranma tarixindən götürülür onda həm Cümhuriyyət ordusunun tarixinin, həm də Cümhuriyyət ordusunun təşkilində böyük xidməti olan şəxsiyyətlərin tarixinin öyrənilməsi istər hərb tariximizin öyrənilməsi, istərsə də milli-hərbi ənənlərin canlandırılması baxımından əhəmiyyət kəsb edir.

Səməd bəy Mehmandarov haqqında işıq üzü görən hazırkı kitab da həmin zərurətdən irəli gəlir. Şübhə etmirik ki, bu kitab oxucular və ictimaiyyət tərəfindən maraqla qarşılanacaqdır.

Səfər Əbiyev
Azərbaycan Respublikasının
Müdafiə naziri
general-polkovnik

## SƏMƏD BƏY MEHMANDAROV

## GİRİŞ

Cəmiyyət quruculuğunun bütün sahələrində olduğu kimi hərb işinin təşkilində də şəxsiyyətlərin böyük rolu vardır. Bu, əslində hərb işinin mahiyyətindən və xüsusiyyətlərindən irəli gəlir. Məsələn, indiyə kimi tarixdə elə bir ciddi müharibə olmamışdır ki, ondan hərbi sərkərdələrin xidməti və rolu olmadan çıxmaq mümkün olsun. Heç şübhəsiz ki, hərbi sərkərdələrin, görkəmli hərb xadimlərinin fəaliyyətlərinin hərb tarixindəki rolu mütləqləşdirilərək mənsub olduğu xalqın həyatından təcrid edilməsi doğru olmazdı. Ancaq nəzərə almaq lazımdır ki, xüsusi bir orqanizm olan ordu cəmiyyətin başqa qurumları ilə müqayisədə mərkəzləşdrilmiş rəhbərliyə, mürəkkəb vəziyyətlərdə bütün ordunu düzgün istiqamətləndirə və onun uğurlarını təşkil edə biləcək şəxslərə daha böyük ehtiyac duyur. Müxtəlif xarakterli, keyfiyyətli insanların məcmusu olan çoxsaylı ordulara rəhbərlik edilməsi, onların fəaliyyətinin səmərəli şəkildə istiqamətləndirilməsi çox böyük məharət tələb edir. Məhz belə bir məharətə malik olan hərbi xadimlər, sərkərdələr ən m.xtəlif şəkildə hərb işinin təşkilinin düzgün mexanizmini tapa bilir, igidlik, qətiyyət, iradə, məharət, yüksək işgüzarlıq, təşkilatçılıq, dönməzlik, sabitlik, mənəvi güc və s. kimi keyfiyyətləri üzvü şəkildə özündə birləşdirir və bununla da onlar ən mürəkkəb şəraitlərdə belə uğurlu çıxış yolu taparaq qarşılarına qoyduqları məqsədlərə nail olurlar. Görkəmli hərb xadimlərə, hərbi sərkərdələrə xas ola biləcək keyfiyyətlər sadəcə fərdi qapalılığında qalan keyfiyyətlər deyildirlər.Bu keyfiyyətlər xalqın öz hərbçilərində görmək istədiyi, xalqın arzu və istəklərini əks etdirən keyfiyyətlərdir. Tarixinin dönüş anlarında hər bir xalq istəyir ki, başlıca ümid yeri olan ordusu, bu ordunun rəhbərləri onun arzu-istəklərini həyaa keçirsin və xalqın ümidində olduğu yaşayışı təmin edilsin. Məhz bunun üçündür ki, hər bir xalq özünün görkəmli hərbi

xadimlərini,sərkərdələrini yüksək qiymətləndirir, onları fəxrlə anır, adını əbədiləşdirir, nəsillərə nümunə göstərir. Gizli deyil ki, hər bir xalq öz tarixi keçmişinə müraciət edərkən daha çox sərkərdələrini xatırlayır, ondarın qəhrəmanlıqlarını anır və gələcəkdə də qürur mənbəyi olacaq belə insanların yetişməsini arzulayır.

Azərbaycan xalqının tarixində də belə görkəmli hərbi xadimlər, nəsillərn fəxrlə xatırladığı sərkərdələr çoxdur. Bu barədə söhbət düşəndə hər bir azərbaycanlının gözləri qarşısında neçə-neçə sərkərdənin adı və əməlləri canlanır. Onlardan biri də tam artilleriya generalı,Azərbaycanın nizami hərb tarixində özünə şərəfli yer tutan Səməd bəy Mehmandarovdur. Müxtəlif hərbi ədəbiyyatda xidməti həyatında bu və ya digər şəkildə fərqlənən hərbçilərin adlarının qarşısında «sərkərdə» sözünün işlədilməsi, «sərkərdə» sözünün yeri gəldi-gəlmədi hallandırılması bu sözün mahiyyət və məzmununa yüngül münasibətə sövq etməməlidir. Hər bir hərbçinin göstərdiyi igidlik və şücaətindən, təşkilatçılıq məharətindən asılı olmayaraq onun sərkərdə adlandırılması düzgün deyildir. Sərkərdə adlandırıla biləcək şəxs hərb işinin təşkili sahəsində xüsusi talanta malik olmaqla bərabər həm də yüksək səlahiyyətləri, konkret olaraq isə yüksək siyasi və hərbi səlahiyyətləri özündə birləşdirən şəxsdir. Səməd bəy Mehmandarovun nümunəsində bunu qeyd etmək olar ki, 1918-1920-ci illərdə o, hökumətin üzvü idi və hökumət tərəfindən ona çox böyük səlahiyyətlər verilmişdi. Hökumətin üzvü kimi S.Mehmandarov Cümhuriyyətin siyasi rəhbərliyinə daxil idi və hökumətin hərbi sahədəki siyasətinin həyata keçirilməsində geniş səlahiyyətləri və məsuliyyəti öz üzərinə götürmüşdü. Yəni o, dövlətdə stratiji bir vəzifəni tutmuşdu və onun qarşısında dayanan dövlət və ümumxalq əhəmiyyətli vəzifələrin necə həyata keçirilməsi dövlətin və xalqın gələcəyinin müəyyənləşdirilməsinə çox ciddi təsir göstərə bilərdi. S.Mehmandarovun qarşısında dayanan vəzifələrin miqyası o qədər böyük və önəmli idi ki, onların uğurla yerinə yetirilməsi yüksək sərkərdəlik keyfiyyətləri tələb edirdi.

Geniş hərbi və siyasi səlahiyyətləri özündə birləşdirmək isə hələ sərkərdəlik demək deyildir. Həmin səlahiyyətlərə malik olmaq sərkərdəlik qabiliyyətlərini üzə çıxarmaq üçün mövcud olan imkanlardır. Bu imkandan düzgün istifadə edilə də bilər, edilməyə də bilər. S.Mehmandarov Azərbaycan xalqının o dəyərli şəxslərindəndir ki, bu imkandan məharətlə istifadə etmiş və bir hərbçi kimi sərkərdə səviyyəsinə yüksəldiyini nümayiş etdirə bilmişdi. S.Mehmandarovun sərkərdəlik keyfiyyətinin, bütünlükdə isə təşkilatçılıq qabiliyyətinin və hərbçilik məharətinin ətraflı təsəvvür edilməsi üçün onun fəaliyyəti, hərbi xidmət yolu dərindən öyrənilməlidir. Hazırkı kitab da bu istiqamətdə atılan addımlardan biri hesab edilə bilər.

S.Mehmandarovun həyatının və xidmət yolunun öyrənilməsi Azərbaycan xalqının qəhrəmanlıq tarixinin öyrənilməsi baxımından da maraqlıdır. S.Mehmandarov şəxsən özü Azərbaycanın qəhrəmanlıq tarixinin öyrənilməsini, gənclərin bu tarix üzərində tərbiyələndirilməsini çox vacib sayırdı. O özü də bu qəhrəmanlıq tarixinin şanlı səhifəsini təşkil edir və onun həyat yolunun ətraflı öyrənilməsi gələcək nəsillərə bir örnək ola bilər. Bununla həm də xalqın hərbi və

qəhrəmanlıq ənənələrində bir bağlılıq yaradılmış olardı.

S.Mehmandarovun həyatının və xidmət yolunun öyrənilməsi həm də elmi və metodoloji baxımdan əhəmiyyətlidir. Xidmət həyatı boyu tutmuş olduğu bütün vəzifələrdə S.Mehmandarov özünün yüksək hərbçilik məharətini yümayiş etdirmiş, müasirləri və həmkarları tərəfindən təqdir edilən keyfiyyətlər nümayiş etdirmişdir. Onun özünə və tabeçiliyindəkilərə qarşı prinsipial tələbkarlığı, hadisələrin inkişafının öncədən görmək qabiliyyəti, verilən vəzifələrin icrasına məsuliyyətlə yanaşması, təşkilatçılıq incəlikləri, insanlarla iş üsulları və s. keyfiyyətləri hələ uzun müddət hər bir hərbçi üçün örnək ola bilər. Bu keyfiyyətlərin öyrənilməsi, onların əməli şəkildə tətbiq edilməsi və zənginləşdirilməsi hərbçiliyi özünə peşə və həyat yolu seçmiş insanlar üçün əsil təcrübə məktəbidir. Başqa sözlə S.Mehmandarovun xidmət yolu və təcrübəsi Azərbaycanın hər ibr hərbçisinə nümunə olacaq qədər zəngindir.

S.Mehmandarovun hərbçilik istedadı və qabiliyyəti hələ onun sağlığında ikən çoxlarının diqqətini özünə cəlb edirdi. Yazılı mənbələrin demək olar ki, hamısında S.Mehmandarovun adı yalnız müsbət cəhətdən çəkilir və onun yetişmiş bir hərbçi olmasından xəbər verilir. Ancaq qeyd etmək lazımdır ki, beyə qeydlər çox azdır və onlar S.Mehmandarovun həyat yolunun lazımi şəkildə öyrənilməsi üçün yetərli deyildir. Azərbaycanın milli mücadiləsinin fəalları da bu və ya digər yazılarında S.Mehmandarovun Cümhuriyyətin hərbi naziri vəzifəsini yerinə yetirməsinə çox böyük hörmət və ehtiramla yanaşırlar. Ancaq həmin qeydlərin də çoxu yalnız S.Mehmandarova olan səmimi ehtiramın ifadəsidir və onlar da bu böyük sərkərdənin insani və hərbçi keyfiyyətlərinin ətraflı şəkildə açıqlanmasına kifayət etmir.

S.Mehmandarovun xidmət həyatı ilə bağlı daha geniş məlumatlar Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi Nazirliyinin arxivlərində saxlanılır. Məlumdur ki, həmin arxiv də yaxın vaxtlara kimi bağlı idi və ondan istifadə edilməsi mümkün deyildi. Cümhuriyyətin hərbi naziri olması S.Mehmandarovun hərbi fəaliyyətinin zirvəsini təşkil edir. Bu baxımdan Cümhuriyyətin Hərbi Nazirliyinin elmi dövrüyyəyə buraxılması Səməd bəy Mehmandarovun həmin illərdəki fəaliyyətinin daha ətraflı öyrənilməsinə şərait yaradıo. Hazırkı kitabda da məhz elə bu dövrə xüsusi diqqət yetirilmiş və onun geniş təhlilinə cəhd göstərilmişdir.

S.Mehmandarovun həyatının diər dövrlərinə dərindən toxunulmaması, bir-sıra məqamların üzərindən ötəri keçilməsi isə həmin dövrlə bağlı tarixi mənbələrin azlığı ilə bağlıdır.

Əslində S.Mehmandarovun Cümhuriyyətə qədərki və sonrakı hərbi xidməti rus və sovet ordusunun tərukibində keçdiyindən həmin dövrlərlə bağlı mənbələr də Rusiyanın arxivlərində saxlanılmaqdadır. Sovetlər dövründə imkan olduğu halda həmin arxivlərdən təəssüf ki, lazımınca istifadə edilməmiş və Sovetlər birliyi dağıldıqdan sonra isə bu arxivlərdən istifadə etmək xeyli çətinləşmişdir. Ona görə də S.Mehmandarovun Cümhuriyyət dövrünü istisna edən xidmət yolu əsasən işıq üzü görmüş kitablarda mövcud olan məlumatlar əsasında izlənilmişdir. Müxtəsər olmasına baxmayaraq diqqətlə izlənilərsə elə bu məlumatlardan da

S.Mehmandarovun şəxsiyyətinin işıqlı portretini yaratmaq mümkündür.

S.Mehmandarovun həyatı və xidmət yolu bir-sıra tarixi-publisistik əsərlərin də mövzusu olmuşdur.Bu günə kimi onunla bağlı üç kitab işıq üzü görmüşdür. «Səməd bəy Mehmandarov» (Bakı, 1946) adlanan birinci kitabın müəllifi Hacı ağa İbrahimbəyli də hərbçi idi. Birinci dünya müharibəsi illərində hətta S.Mehmandarovun komandir olduğu korpusda xidmət etmiş, burada şəxsən onunla görüşə bilməsə də fəaliyyətinin ümumi nəticələrinin şahidi olmuş və bu barədə təəssüratlarını qələmə aldığı kitabçasında da bölüşmüşdir. Müəllif yalnız sonralar Azərbaycanda S.Mehmandarovla görüşmüş və bu barədə də müvafiq qeydlər etmişdir. H.İbrahimbəylinin əsəri çox müxtəsər bir əsərdir. Kitabın mətni cəmi 14 səhifədir. Bununla belə S.Mehmandarovun sovetlər dövründə şəxsiyyətinin unudulmaması və onun həyatı ilə bağlı maraqlı məlumatların, habelə müxtəsər xatirələrin ictimaiyyətə çatdırılması baxımından lazımi əhəmiyyət kəsb edir.

H.İbrahimbəylidən sonra S.Mehmandarovun həyat və xidmət yoluna toxunan müəllif istefada olan polkovnik Əli Abbasov olmuşdur. Onun «Qeneral Mexmandarov» kitabı (Bakı, 1977) bu böyük sərkərdənin həyat yolunun öyrənilməsi və təhlili baxımından irəliyə atılmış uğurlu addımlardan biridir. Doğrudur, müəllif S.Mehmandarovun Cümhuriyyət dövrü fəaliyyətinə toxunmamışdır. Kitabın yazıldığı dövrdə bu heç mümkün deyildi. Bununla belə Ə.Abbasov seçdiyi mövzu ilə bağlı xeyli faktlar, məlumatlar toplaya bilmiş və nəticədə S.Mehmandarovun bir hərbçi kimi daha əhatəli portretini yarada bilmişdir. Kitabın müxtəsərliyinə baxmayaraq mərhum Əli Abbasov həm Azərbaycanın böyük hərbçisini xalqa daha yaxından tanıtdıra bilmiş və həm də dəyərli əsəri ilə özündən bir xatirə qoymuşdur.

S.Mehmandarov mövzusu daha sonralar isə yazıçı jurnalist Şəmistan Nəzirlinin diqqətini özünə cəlb etmişdir. Bu insanın həyat yolunun ardıcıl olaraq araşdırılmasında, S.Mehmandarovun adının və xidmətlərinin kütləviləşdirilməsində, ictimaiyyətə daha ətraflı çatdırılmasında Ş.Nəzirlinin xidmətləri böyükdür. Onun bir-neçə kitabında, habelə respublika mətbuatında S.Mehmandarovla bağlı yazılar çap olunmuşdur. 1997-ci ildə isə müəllif bu sahədəki araşdırmalarını ümumiləşdirərək «Tam artilleriya general Səməd bəy Mehmandarov» adlı kitabını nəşr etmişdir. Həmin kitabın qiymətli tərəflərindən biri budur ki, müəllif burada S.Mehmandarovun Cümhuriyyət dövrü fəaliyyətinə də toxunmuş və onun bu dövrkü fəaliyəti ilə bağlı bir-sıra sənədləri də oxucuların diqqətinə çatdırmışdır.

Ancaq elə bu əsərlərlə tanışlıq göstərir ki, S.Mehmandarovun zəngin həyatı daha dərin təhlil və araşdırmanı tələb edir. Son zamanlar əldə edilmiş məlumatlar və xüsusilə də Cümhuriyyət dövrü hərbi arxivinin ictimai dövrüyyəyə gətirilməsi buna imkan verir.

S.Mehmandarovun həyat yolunun izlənilməsində bir-sıra müasirlərinin xatirələrindən də istifadə edilmişdir. Bu xatirələr içərisində Larenklnun «Stardnıe dni Port-Artura» və Əliağa Şıxlinskinin «Xatirələrim» kitabları xüsusilə maraq doğurur. Çünki bu xatirələr S.Mehmandarovu həyatda izləmiş insanların canlı təəssüratlarıdır.

# 1.CÜMHURİYYƏTƏ QƏDƏR YAŞANMIŞ ÖMÜR

## Zabitlik həyatının ilk addımları. S.Mehmandarov və maarifçilik

Səməd bəy Sadıq bəy oğlu Mehmandarov 1856-cı il oktyabr ayının 16-da anadan olmuşdu. Onun atası əslən Qarabağlı olsa da tale onu Azərbaycanın cənubuna atmışdı. O burada çar üsuli-idarəsinin ona etibar etdiyi vəzifəni icra edirdi. Səməd bəy imkanlı bir şəxs idi. İllik gəliri ailəsinin ehtiyacsız dolanmasına imkan verirdi. O eyni zamanda çar rejiminin çinovniki idi. H.İbrahimbəyilinin yazdığına görə o, Lənkəranda meşəçilik idarəsində çalışırdı. Ə.Abbasovun qeydlərinə görə isə o, quberniya katibi idi. Bəyliyi və çinovnikliyi heç şübhəsiz onu göstərir ki, Sadıq bəy ciddi xarakterə malik idi və oğlu Səməd bəyi də ciddi tələblər üzərində tərbiyə edirdi. Sadıq bəy həm də kifayət qədər dünyagörüşlü bir insan olmuşdu və ona görə də oğlunun savadlanmasına, təhsil almasına ciddi diqqət yetirirdi.

Səməd bəyin özündə də elmə və təhsilə qarşı dərin bir maraq olmuşdu. Çünki təhsil aldığı ocaqların hamısını uğurla başa çatdırmışdı və özünün bütün həyatını da aldığı bu biliklər üzərində qurmuşdu.

Səməd bəy ilkin təhsilini Bakıda Əddadiyyə (realnı) məktəbində almışdı. Buradakı təhsili zamanı rus dilini kifayət qədər dərindən öyrənmiş və bununla da gələcək təhsilini Rusiyanın ali məktəblərində davam etdirmək üçün zəruri bir şərti yerinə yetirmişdi. Bakıdakı təhsil dövrü gənc Səməd bəyin dünyagörüşünün formalaşmasında həlledici təsirə malik olmuşdu. Məhz burada oxuyarkən o, təhsilini Rusiyada davam etdirməyi, özü də hərbçi olmağı qərara almışdı. Ailəliklə hərb işindən uzaq olan Səməd bəyin belə bir qərara gəlməsinə görünür çox ciddi bir səbəb təsir göstərmişdi.Bu, Səməd bəyin həyatının bizim üçün hələlik qaranlıq qalan çoxsaylı məqamlarından biridir. Həmin təsir o dərəcədə güclü olmuşdu ki, Səməd bəy hətta atasının da iradəsinin əksinə getmişdi. Tipik azərbaycanlı ailəsinin başçısı olan Səməd bəy övladının öz nəzarəti altında , yaxınlığında olmasını, ailə ocağını qorumasını istəyirdi. Ancaq onun ciddiyyəti, xarakterinin kəskinliyi Səməd bəyi öz fikrindən döndərə bilməmişdi. Gələcək sərkərdənin qətiyyəti, dönməzliyi hələ gənc yaşlarında özünü göstərmişdi və hərbçi olmaq yolunu özü üçün birdəfəlik seçmişdi.

Beləliklə, Səməd bəy Mehmandarov 1871-ci ildə Peterburqa yollanaraq Konstantin hərbi məktəbinə daxil oldu. Məlumdur ki, X1X əsrin əvvəllərində Azərbaycan Rsiyaya birləşdiriləndən sonra bütün milli qoşun hissələri ləğv edilmiş və azərbaycanlıların çar ordusuna çağırılması qadağan edilmişdi. Yad məzhəbin üzvləri olan azərbaycanlılara çar rejimi tərəfindən etibar edilmirdi və buna görə də onlara silah tapşırılması məqsədəuyğun bilinmirdi. Azərbaycanın yalnız ayrı-ayrı bəy və zadəgan ailələrinin üzvləri Rusiyanın hərbi məktəblərinə daxil ola bilmək imkanı qazanırdılar. Bu da ondan irəli gəlirdi ki, rejim həmin ailələrin çarizmə sədaqətinə inanır və bu ailələri rejimin yerlərdəki dayaqları kimi qəbul edirdi. Məhz buna görə də Səməd bəy elə bir çətinliklə rastlaşmadan Peterburqda

arzu etdiyi hərbi məktəbə daxil ola bilmişdi.

2-ci Konstantin hərbi məktəbini bitirərək ilkin zabit rütbəsi olan praporşik rütbəsini alan Səməd bəy 1876-cı ildə 1-ci Türküstan topçu briqadasında batareya komandiri təyin edildi. Sonralar Səməd bəyin özünün yazdığı kimi 18 yaşından əsgər çəkmələrini daşımağa başladı. Zabit həyatının ilk sınaqları ilə də Səməd bəy burada rastlaşdı. Xidməti və fəaliyyəti ilə bu peşəyə olan marağını və qabiliyyətini sübut etdi. Onun az vaxtdan sonra növbəti rütbəyə layiq görülməsi də bunu təsdiq edir.

Səməd bəyin xidmət etdiyi briqada 1876-78-ci illərdə çar Rusiyasının Orta Asiyaya qarşı işğalçılıq planlarının həyata keçirilməsində iştirak edirdi. Səməd bəy bu kampaniyada ilk dəfə hərbi əməliyyatlara qatılmış, ona və onun batareyasına həvalə olunmuş vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdi. Bu xidmətlərinə görə o, üçüncü dərəcəli Stanislav ordeni ilə təltif edilmişdi.

X1X əsrin sonun kimi olan dövrü Səməd bəy Mehmandarovun xarakterinin tam formalaşması, zabit və insani görüşlərinin bütövləşməsi, seçdiyi peşəyə münasibətin saflaşması və sabitləşməsi dövrü kimi də xarakterizə etmək olar. Həmin dövr ərzində onun cavanlıq çılğınlığı ilə həyat müdrikliyi üz-üzə durmuşdu. Ancaq rastlaşdıqları, mütaliələri onu günü-gündən insani prinsipiallığa doğru istiqamətləndirirdi. Zabit tələbkarlığı ilə insani keyfiyyətləri üzvü şəkildə birləşdiyi üçün idi ki, sonradan xidmət etdiyi ikinci topçu briqadasında onu zabit məhkəməsinin üzvü seçmişdilər. Burada o, səhv etmiş, çıxılmaz vəziyyətə düşmüş həmkarlarına mümkün olan qayğını göstərməklə bərabər onlara qarşı tələbkar mövqe tutmaqdan da çəkinmirdi.

Həmin dövrdə S.Mehmandarov Azərbaycanla da əlaqəsini kəsmirdi, Azərbaycan xalqının ictimai həyatı ilə sıx əlaqə saxlayırdı. Rusiyanın elmi-texniki tərəqqisi, qabaqcıl fikirləri ilə az-çox tanış olan Səməd bəy öz xalqının, ümumən müsəlman xalqlarının cəhalətdə saxlanılmasını ürək ağrısı ilə qəbul edirdi. Maraqlıdır ki, Səməd bəy bu istiqamətdəki fikir və düşüncələrini ümumiləşdirərək mətbuat səhifələrində çap etdirirdi. S.Mehmandarovun publisistik yazıları barədə tədqiqatçı A.Feyzullayevanın «Maarif carçıları» (Bakı, 1988) adlı kitabında maraqlı qeydlər vardır. Həmin qeydlərdən görünür ki, Səməd bəy Azərbaycandan uzaqlarda olmasına baxmayaraq Azərbaycanın ictimai fikrini narahat edən məsələlərin müzakirəsində fəallıqla iştirak edirdi. Özü də o, ictimai fikirdə canlanmaya səbəb olan bir-sıra maraqlı təkliflər və mülahizələr irəli sürmüşdü. Ancaq nəzrə almaq lazımdır ki, həmin mülahizələr Səməd bəyin xarakterinin və şəxsiyyətinin ilkin formalaşma dövrünün məhsulları idi və sonralar da həmin fikirlərin üzərində qaldığını iddia etmək olmaz. Bütünlükdə publisistikaya meyllik S.Mehmandarovun gənclik dövrünə aiddir.

A.Feyzullayeva S.Mehmandarovun məqalələrində öz əksini tapmış fikirləri maarifçilik ideyaları kimi qiymətləndirərək bu ideyaların təbliği sahəsində onu R.Əfəndiyev, P.Vəlibəyov,T.Bayraməlibəyov, F.Köçərli, Ə.Cavanşir və digər ziyalılarla bir sıraya qoymuşdu. Bu da X1X əsrin sonunda Azərbaycanın ictimai fikir həyatında S.Mehmandarovun yerini göstərir.

S.Mehmandarovun bu dövrdə yazdığı məqalələri Tiflisdə nəşr olunan

«Novoye obozreniye» qəzetində çap olunurdu. Bu qəzetdə onun ilk məqaləsi 1892-ci ildə çap olunmuşdu. Həmin məqalə «Müsəlmanların geriliyinin səbəbləri» adlanırdı. 1894-cü ildə bu qəzetdə onun daha üç məqaləsi çap olunmuşdu. Onlar «Nə etməli?», «İbtidai qiraət dərsləri» və «Müsəlman mühafizəkarlığı əleyhinə» adlanırdılar. Bunlardan başqa S.Mehmandarovun «Novorossiyskiy teleqraf» qəzetində də yazıları dərc olunurdu. Eyni zamanda onun İsmayıl bəy Qasparlının təsisçisi və redaktoru olduğu «Tərcüman» qəzetində də yazılarının çap olduğu güman edilir. Çünki S.Mehmandarovun qaldırdığı məsələlər də bu qəzetdə də geniş müzakirələrə səbəb olmuşdu.

«Müsəlmanların geridə qalmasının səbəbləri» adlı məqaləsinin məzmununu müsəlmanların geridə qalmasının səbəbləri barədə mülahizələr təşkil edirdi. Səməd bəyin bu məsələ ilə bağlı özünəməxsus fikirləri var idi və heç şübhəsiz ki, həmin fikirlər Rusiyanın ictimai həyatında rastlaşdığı elmi dəyərlərin təsiri altında formalaşmışdı. S.Mehmandarov bu məsələ ilə bağlı nəzərlərini bir növ Avropaya dikir və orada dini ehkamçılığın şərqdəki qədər güclü olmadığını, onun ictimai bəlaya çevrilmədiyini və nəticədə ictimai tərəqqiyə əngəl olmadığı ifadə etməyə çalışırdı. Buna görə də S.Mehmandarov bir tərəfdən müsəlman xalqlarını bürümüş olan cəhalətə, fanatizmə qarşı çıxıx edir, digər tərəfdən də təhsilin və maarifin davam etdirilməsini, xalq arasında elmi biliklərin və ona marağın artırılmasını zəruri bilirdi. Səməd bəy təkcə oğlanların deyil, qızların da təhsilə, maarifə cəlb edilməsini vurğulayırdı və onun fikrincə bu yolla geriliyin aradan qaldırılmasına nail olmaq olardı.

Bu fikirlərində S.Mehmandarov doğrudan da maarifçilikdən irəli getmir və ictimai tərəqqinin əldə edilməsində maarifçiliyi başlıca yol sayırdı. Bununla belə Səməd bəy islam dəyərlərinin üzərindən də heç də tamamilə xətt çəkmirdi. Ancaq o, bu dəyərlərlə mövhumatın və ehkamçılığın arasındakı sərhəddin düzgün müəyyənləşdirilməsinə çağırırdı.

Adı çəkilən məqalədə S.Mehmandarovun mənəvi dəyərlərlə bağlı maraqlı qeydləri də vardır. O yazırdı: «Cəmiyyətin mənəvi inkişafı həmin cəmiyyətdə bəşəriyyətin qədim əcdadlarının irs qoyub getdikləri böyük mənəvi başlanğıclara nə dərəcədə əməl olunması ilə müəyyənləşir. Həmin vaxtdan çoxlu minilliklər ötüb keçib.Lakin bu mənəvi başlanğıclar dəyişməz qalıblar və insan fikrinin əsrlər boyu gördüyü iş onlara nə isə yüksək, ülvi yeni bir şey əlavə etməyib» (Sitat A.Feyzullayevanın adı çəkilən kitabından götürülüb).

Bir qədər irəli gedərək qeyd etmək lazımdır ki, Azərbaycan Xalq Cümhuriyəəti dövründə hərbi nazir olarkən S.Mehmandarov əcdadlarımızın miras qoyub getdikləri qəhrəmanlıq ənənlərini, mənəvi dəyərləri dərindən öyrənilərək xalq arasında yayılmasına, hərbi qulluqçuların da bu dəyərlər üzərində tərbiyələndirilməsinə çağırırdı. Yuxarıdakı sətirlərdə göstərir ki, hələ gənclik illərində Səməd bəy insanların mənəvi formalaşmasına və bu formalaşmanın mənəvi irs üzərində aparılmasına xüsusi diqqət yetirirdi.

«Novoye obozreniye» qəzetində S.Mehmandarovun növbəti çıxışı bir də iki ildən sonra olmuşdu. Ola bilsin ki, xidmət qayğıları ona uzun müddət publisistik düşüncələrini ümumiləşdirməyə imkan verməmişdi. Bu da ola bilər ki, həmin

qəzetdəki iki yazının geniş müzakirələrə səbəb olması, qaldırılan məsələ ilə bağlı ən müxtəlif fikirlərin ortaya atılması S.Mehmandarovu yenidən həmin mövzuya qayıtmağa sövq etmişdi.

Onu da qeyd etmək lazımdır ki, «Nə etməli» adlanın həmin məqalənin yazılması ərəfəsində Səməd bəy «Tərcüman» qəzetinin redaktoru İsmayıl bəy Qasparlı və Firudin bəy Köçərli tərəfindən yazılmış olan «Müsəlman» imzalı bir müəllifdən məktublar almışdı. Onların hər ikisi S.Mehmandarovu Qafqaz müsəlmanlarının dini baxışlarını ifratcasına tənqid etməkdə günahlandırırdılar. «Müsəlman»ın (F.Köçərlinin) fikrincə isə müsəlmanların dini baxışlarının belə sərt tənqid edilməsi əcdadlarımızın baxışlarına hörmətsizcəsinə yanaşmaq demək idi.

Ancaq, S.Mehmandarov bu qiymətlə razılaşmırdı və məqalədə yazırdı:«Yer üzərində insanların mövcud olduğu vaxtdan bəri mövhumat bütün xalqlarda və sivilizasiyanın bütün mərhələlərində hər cürə istismara xidmət etmiş və indi də xidmət etməkdədir. Ayrı-ayrı şəxslər və bütöv silklər əksər hallarda eqoist niyyətlərlə xalq kütlələri içərisində mövhumatın qorunub saxlanmasına və inkişaf etdirilməsinə çalışmışlar. Çünki onlar öz nüfuzlarını, qüdrət və sərvətlərini həmin mövhumat hesabına əldə etmişlər. Bunun da nəticəsində dini təmayüllər amansız təhriflərə məruz qalmışdır... Müsəlmanların bikar, müftəxor, pozğun, intriqa azarına tutulmuş, geniş hüquq və güzəştlərə malik olan, hökumət yanında sözləri keçən, lakin buna baxmayaraq heç bir işdən yapışmayaraq öz şəxsi mənafelərini güdən, ictimai və dövlət mənafeyini də öz xeyirləri ilə ölçən, azad fikrin hər bir təzahürünə qarşı çıxan ləyaqətsiz qəyyumların pəncəsindən xilas edə biləcək qüvvəni haradan tapmalı? Müsəlmanları uzun əsrlərdən bəri boğulub qaldıqları, lakin xilas olmaq üçün qurtuluş yolu tapmadıqları bu pozğun mühitdən çəkib çıxara biləcək qüvvəni harada axtarmalı?» ( Sitat A.Feyzullayevanın adı çəkilən kitabından götürülmüşdür).

Bu məqalədə Səməd bəy cəmiyyətin inkişafdan qalmasında, xalqın cəhalətdən uzaqlaşa bilməməsində, ictimai tərəqqinin hiss edilməməsində dini ehkamçılığı və bu ehkamçılığı saxlamaqda maraqlı olan qüvvələri başlıca səbəblərdən biri sayırdı. Onun fikrincə əsrlərdən bəri boğulub qalan müsəlmanların pozğun mühitdən qurtuluş yolu cəhalətin və onun qorunub saxlanmasına çalışan ləyaqətsiz qəyyumların məhv edilməsi idi. Buna nail olmaq üçün S.Mehmandarov elə islam dininin özünə müraciət etməyi lazım bilirdi. Onun yazdığına görə islam dinində mövcud olan ictimai dəyərlər diqqətlə öyrənilməli və geniş şəkildə yayılmalıdır.

S.Mehmandarovun bu məqaləsi də dövrün qabaqcıl maarifçiləri arasında böyük əks-sədaya səbəb oldu. «Tərcüman» qəzetinin təsisçisi və redaktoru İ.Qasparlı əvvəlcə elə öz qəzeti səhifələrində S.Mehmandarovla bağlı yazı çap etdirmiş və həmin yazıda S.Mehmandarovun fikirlərinə bu və ya digər dərəcədə öz münasibətini bildirmişdi. Sonra isə o, «Novoye obozreniye» qəzetinin redaksiyasına məktub gətirmiş və Səməd bəyin məqaləsindəki bəzi fikirlərə tərəfdar çıxdığını bildirmişdi. Yəni, İ.Qasparlı da müsəlmanlar arasında geriliyin mövcudluğunda mövhumatı əsas səbəblərdən biri sayırdı və bu məsələdə Səməd bəyin çox sərt mövqe tutmasını müdafiə edirdi.

Ancaq maarifçi ziyalıların heç də hamısıbu mövqedə dyanmırdı. Məsələn, Firudin bəy Köçərli Səməd bəyi yenə ifrat sərtlikdə təqsirləndirir və onun yazdıqlarını sadə müsəlmanların hissinə və heysiyyətinə toxuna biləcəyini qeyd edirdi və onu bundan çəkindirməyə çalışırdı. Firudin bəy İ.Qasparlının «Nə etməli?» məqaləsinə qarşı yumşaq mövqe tutması ilə də razılaşmırdı. Bütün bu fikirlərini ümumiəşdirərək Firudin bəy «Novoye obozreniye» qəzetinə «Müsəlman» imzası ilə məktub göndərmişdi. Həmin məktub qəzetin səhifələrində çap olunandan sonra S.Mehmandarov da növbəti məqaləsini yazdı və həmin məqalədə yenə polemikanı davam etdirdi. Səməd bəy «İbtidai qiraət dərsləri» adlanan bu məqalədə «Müsəlman»ın da fikirlərinə cavab verməyə çalışırdı.

Səməd bəyin bu məqaləsi «Novoye obozreniye» qəzetində redaksiyanın xüsusi qeydləri ilə çap olunmuşdu və həmin qeydlər də göstərir ki, S.Mehmandarovun qaldırdığı məsələlər ictimai marağa səbəb olmuşdur. Bu qeyddə bildirilirdi ki, redaksiya S.Mehmandarovun məqalələrində qaldırılan məsələlərə daha çox rəğbət bəsləyir. Bununla belə həmin məsələlər lazımi şəkildə öyrənilmədiyindən əks tərəflərin fikirlərinin də qezetdə çap olunmasına yer ayırırdıü

S.Mehmandarovun «Şiələrin dini misteriyaları» , «Şiələrdə dini misteriyaların mənşəyi», «Müsəlmanların öz-özlərinə işgəncə vermələri haqqında» adlı yazıları da olmuşdur. Adlarından da göründüyü kimi həmin yazılar Kərbala müsibəti ilə bağlı müsəlmanların, xüsusən də şiələrin təziyə mərasimlərinə həsr edilmişdi. Burada müsəlmanların təziyyə günlərində özlərinə fiziki işgəncə vermələri və bu əməllərin uşaqlar tərəfindən də kor-koranə təkrarlanaraq fanatizmə çevrilə bilməsi narahatçılıqla qeyd olunurdu.

1894-cü ildə Səməd bəy Mehmandarov artıq Varşava hərbi dairəsində xidmət edirdi. «Novoye obozreniye» qəzetində çap olunan məqalələrin də burada yazıldığı güman olunur. Lakin bu barədə qəti bir fikir söyləmək çətindir.

S.Mehmandarov burada da özünü savadlı, qabiliyyətli və işgüzar zabit kimi tanıtdıra bilmişdi. Həmin keyfiyyətləri nəzərə alınaraq Səməd bəy həm qarnizon zabit məhkəməsinin, həm də dairə hərbi məhkəməsinin üzvü seçilmişdi. Bu xidmət illəri həm də ildən-ilə Səməd bəyin peşəkarlığını artırırdı.

## Uzaq Şərqdə və Port-Arturda xidmət

Yeni əsrin əvvəllərində Səməd bəy artıq Zabaykal əlahiddə topçu divizionunda xidmət edirdi. Komandiri polkovnik Şivilin olan bu divizion iki batareyadan ibarət idi. birinci batareyaya podpolkovnik Engelman , ikinci batareyaya isə podpolkovnik Səməd bəy Mehmandarov komandirlik edirdi Səməd bəy podpolkovnik rütbəsini 1898-ci ildə almışdı. Elə bu diviziondakı xidməti zamanı Səməd bəylə Əliağa Şıxlinskinin həyat yolları kəsişmişdi. Ə.Şıxlinski də Zabaykal divizionuna təyin edilmişdi. Ancaq o, Səməd bəyin batareyasında deyil, birinci batareyada xidmət edirdi.

Zabaykal divizionunda xidmət edərkən Səməd bəy yenidən hərbi əməliyyatlarda iştirak etdi. 1899-1901-ci illərdə Çində baş verən antiimperialist

üsyanlar bir-sıra böyük dövlətləri ciddi təşvişə salmışdı. Ona görə də birgə səylərlə bu üsyan yatırıldı. Üsyanın yatırılmasında Amerika, İngiltərə, Fransa, Almaniya, İtaliya, Yaponiya, Avstriya-Macarıstanla birlikdə Rusiya da yaxından iştirak edirdi. Çünki Rusiyanın hakim dairələri bu üsyanın genişlənərək Rusiya ərazisinə keçməsindən qorxurdular. Həmin təhlükəni elə yerindəcə məhv etmək üçün Çin ərazisinə hərbi qüvvə göndərilməsi qərara alınmışdı. Bunun üçün xüsusi dəstə yaradılmış və general-mayor Rennenkampf onun komandanı təyin edilmişdi.

Zabaykal topçu divizionu da bu dəstənin tərkibinə daxil edilmişdi. Divizion 1900-cu il iyunun əvvəllərində döyüş bölgəsinə doğru hərəkətə başladı. Sretenskə qədər divizion qatarla hərəkət etdi. Oradan isə divizion və bir-sıra piyada bölmələri üç çay gəmisinə mindirildi və yola salındı.

Əliağa Şıxlinski sonralar yazırdı ki, baş verməkdə olan hadisələrin mənasını mən o zaman hələ başa düşmür və Rusiyanı bu yürüşə vadar edən səbəblərin kökünü bilmirdim. Mən bu yürüşə bir əsgər kimi baxır, lakin Çinin dinc əhalisinə zərər verəcək heç bir əməliyyata yol vermirdim.

Heç şübhəsiz ki, S.Mehmandarov da Çinə yürüşdə həmin mövqedə dayanırdı. Baş verən siyasi proseslərə münasibətdə Səməd bəy fərqli mövqedə dayanmasa da icra edilən tapşırığa yalnız hərbi fəaliyyət kimi baxırdı və bu zaman silahsız və günahsız insanlara xətər yetirməyi mümkün saymırdı. Elə döyüş zamanı baş verənlər də bunu sübut edirdi.

Amur çayı ilə hərəkət zamanı hərbi qüvvələrə, o cümlədən də S.Mehmandarovun batareyasına verilən ilk tapşırıq sağ sahildəki Maxo şəhərinin tərksilah edilməsi oldu. Burada tərəflər arasında başlanan döyüş elə də uzun çəkmədi. Çin üsyançıları anladılar ki, onların rus qoşunlarına müqavimət göstərəcək qədər qüvvələri yoxdur. Ona görə də şəhəri tərk edərək geri çəkildilər.

İyul ayının 19-da Blaqoveşşensk şəhəri də ələ keçirildi. Rus qoşunlarının rəhbərliyi silahlı üsyançıları döyüşə cəlb edərək məhv etmək istəyirdi. Ancaq bunun üçün elə bir çevik taktika nümayiş etdirə bilmirdilər. Qoşunlar hər hansı bir yaşayış məntəqəsinə çatanda ona döyüş düzülüşü almaq, mövqe tutmaq əmri verilirdi. Bu əmr yerinə yetirilənə kimi Çin üsyançıları məntəqəni tərk edə bilirdilər.

Qoşunlar Blaqoveşşenskdə dayanarkən general Rennekampf 400 kazakla və S.Mehmandarovun batareyasından olan iki ədəd topla bərabər irəli hərəkət etdi. Bu qüvvə Zürə çayında bir üsyançı dəstəni məğlub edərək Kiçik Xinqan dağının ətəklərində yeni bir döyüşə girmişdi. Ancaq burada məlum olmuşdu ki, arxadan topçu qüvvələri və süvari bölmələri gəlməsə üsyançıların müqavimətini qırmaq mümkün olmayacaqdır. Belə olanda arxada qalan qüvvələrdən S.Mehmandarovun batareyası bütünlüklə, birinci batareyanın bir hissəsi və bir süvari taboru Rennenkampfın köməyinə yollandı.

Avqustun 3-də üsyançılarla növbəti döyüş baş verdi. Bu döyüşdə S.Mehmandarovun batareyası da iştirak etməli idi. Döyüş zamanı onun batareyasının etibarlı və üsyançıların görə bilməyəcəyi mövqelərdə gizlədilməsi qərara alındı və bunun üçün yaxınlıqdakı meşələr seçildi. Üsyançılar əvvəlcədən

güman ediblərmiş ki, rus toplarının gizlədilməsi üçün həmin ağaclıq ən münasib yerdir və ona görə də oranı minalayıblarmış. S.Mehmandarovun batareyası ora yaxınlaşanda güclü partlayış baş verdi və nəticədə batareyanın dörd atı və iki əsgəri həlak oldu.

Bir-neçə gündən sonra qoşunlar Tsitsikara şəhərinə yetişdilər. Döyüşə başlamamışdan əvvəl general-mayor Rennenkampf çinli general Şeunun yanına adam göndərərək şəhər qapılarının açılmasını və təslim olmalarını tələb etdi. Ancaq çinli general bu tələblə razılaşmadı. Onda Rennenkampf şəhəri mühasirə etmək və oradakı silahlı dəstələri məhv etmək barədə mər verdi. Bu barədə S.Mehmandarova da göstəriş verildi. Səməd bəyin batareyası ilə bərabər iki süvari bölüyü dolama yolla şəhərdən çıxmağa cəhd göstərən üsyançıların qarşısını almalı idi. Görünür üsyançılar müqavimət göstərməyin mənasızlığını anlamışdılar. Ona görə də onların çoxu silahı ataraq şəhərdən çıxmağa çalışırdılar. S.Mehmandarov da təyin olunan yerdə məhz silahsız üsyançılarla rastlaşmışdı və buna görə də onların hərəkətinə mane olmaq fikrində deyildi. Rennenkampf bunu eşidib hirslənmiş və S.Mehmandarova əmr etmişdi ki, üsyançılara atəş açsın. Ə.Şıxlinski xatirələrində bu hadisə ilə bağlı yazırdı: «Çin qoşunları silahsız olaraq Mehmandarovun yanından ötüb keçirdilər. Rennenkampf Mehmandarova əmr etdi ki, onlara atəş açsın. Mehmandarov isə cavab verib dedi ki, silahsız adamlara o, atəş aça bilməz. Lakin bunun ardınca ikinci bir əmr gəldi. Bu əmrdə deyilirdi ki, əgər komandir bu əmri yerinə yetirməsə məhkəməyə veriləcəkdir.

Mehmandarov silahsız çinlilərin başı üstündə bir-neçə dəfə atəş açdırdı. Çinlilər dərhal qayıtdılar».

Görünür bununla rus komandanlığı üsyançıların dağılmasını və üsyan dalğasının qarşısını almaq istəyirdilər.

Şəhər tamamilə ələ keçirildikdən sonra rus əsgər aə zabitləri Şeunun evinə axışaraq onun qiymətli əşyalarını taran etməyə başladılar. S.Mehmandarov da həmin yerə gəlib çıxdı. O, generalın evindən çox bahalı qumaşdan tikilmiş al-qırmızı rəngli gözəl bir xələt götürdü. Bu xələtin arxa hissəsində çiyinlərindən tutmuş ətəklərinə qədər qızılı güləbətinlə işlənmiş böyük bir əjdaha şəkli var idi. Onun astarı isə açıq sarı atlasdan idi. Bundan əlavə Mehmandarov general Şeunun evindən qırmızı rəngli şiş təpə qalpaq da götürdü. Bu qalpağın təpəsinə çox böyük bir yaqut taxılmışdı. Mehmandarov götürdüyü həmin əşyaları özündə saxlamaq fikrində deyildi və onların hər ikisini Xabarovskdakı muzeyə göndərdi. Görünür S.Mehmandarov bu əşyaların rus zabitləri tərəfindən mənimsəniləcəyinə şübhə etmirdi və ona görə də onların kimlərinsə şəxsi kolleksiyasına çevrilməkdənsə muzeydə saxlanılmasına üstünlük vermişdi.

Çin ərazisində verilən döyüş tapşırıqlarının icrası, S.Mehmandarovun göstərdiyi yüksək peşəkarlıq və məharət yuxarı komandanlıq tərəfindən layiqincə qiymətləndirildi və o, 3-cü dərəcəli Vladimir ordeni ilə təltif edildi.

Döyüş tapşırıqları yerinə yetirildikdən sonra S.Mehmandarovun komandir olduğu ikinci batareya Xarbin qarnizonunda saxlanıldı. 1902-ci ildə Səməd bəy artıq polkovnik rütbəsində idi. Həmin ilin may ayında o, məzuniyyətə buraxılması barədə yuxarı komandanlıq qarşısında vəsatət qaldırdı. Həmin vəsatət müsbət

qarşılandı və ona altı aylıq məzuniyyət verildi. S.Mehmandarov öz məzuniyyətini Peterburqda keçirdi. Elə məzuniyyət dövründə də Jitomirli Yelizaveta Nikolayevna Teslavla ailə həyatı qurdu. Tədqiqatçı-jurnalist Ş.Nəzirlinin yazdıqlarından aydın olur ki, ailə həyatı qurarkən Yelizaveta Nikolayevna çox gənc idi. Onun 20-21 yaşında olduğu güman edilir. Zadəgan ailəsindən olmaqla Kiyev qadın gimnaziyasını bitirmişdi. Məlumatların qıtlığı üzündən Səməd bəyin ailə həyatı barədə geniş məlumat vermək mümkün deyil. Səməd bəylə onun həyat yoldaşı arasında böyük yaş fərqi var idi. Bununla belə o da məlumdur ki, Səməd bəylə Yelizaveta Nikolayevnanın çox səmimi ailə həyatı var idi. Sonralar onların İqor adlı bir övladları olmuşdu.Hərbi xidmətdə prinsipial və qayğıkeş olan Səməd bəy ailədə də prinsipial və
qayğıkeş idi.

Məzuniyyət müddəti bitdikdən sonra S.Mehmandarov zabitlər üçün topçu kurslarına göndərilməsini xahiş etdi. Səməd bəyin bu xahişi də qəbul olundu və məzuniyyətdən sonrayeddi ay da topçu kurslarında təhsil aldı.

Mərhum polkovnik Əli Abbasov öz kitabında Səməd bəy Mehmandarovun göstərilən müddət ərzində nəzəri və praktiki biliklərini təkmilləşdirməsinə xüsusi diqqət yetirdiyini yazırdı. Doğrudan da belə idi və şübhəsiz ki, bu da təsadüfi deyildi. Özünə tələbkarlıqla yanaşan S.Mehmandarov topçuluq sahəsində qabaqcıl elmi- texniki nailiyyətlərə yiyələnmədən hərtərəfli zabit kimi yetişə bilməzdi. Buna görədə S.Mehmandarov topçuluğun taktiki-texniki imkanlarını, mövqe döyüşlərində topların zərbə qüvvəsindən istifadə edilməsi taktikasını, möhkəmləndirilmiş mövqelərin müdafiəsi zamanı piyada ilə topçu qüvvələrinin qarşılıqlı fəaliyyətini dərindən öyrənirdi. XX əsrin əvvəllərində rus ordusunun istifadəsinə verilmiş üçdüyməli toplar, minaatanlar, qaubitsalar, habelə topların müxtəlif növləri S.Mehmandarov tərəfdən kifayət qədər peşəkarlıqla öyrənilmişdi. Səməd bəy bütünlükdə topçuluğun döyüşdə istifadəsində çox geniş əməli vərdişlər əldə etmişdi və ona görə də mahir bir topçu kimi hörmət və ehtiram qazanmışdı.

1903-cü ilin noyabrında yenidən geri, öz batareyasına qayıdanda onun həyatında böyük dəyişikliklər baş vermişdi. Əvvəla, ailə həyatı qurmuşdu, sonra təhsil alaraq nəzəri və praktiki biliklərini təkmilləşdirmişdi. Hissədə isə onu başqa bir sevinc gözləyirdi. Çin ərazisindəki döyüşlərə görə S.Mehmandarov üzərində «İgidliyə görə» sözləri yazılmış Qızıl qılıncla mükafatlandırılmışdı.

S.Mehmandarov Peterburqda olarkən onun batareyasına komandanlıq etmək Əliağa Şıxlinskiyə həvalə olunmuşdu. O bu vəzifəni təxminən il yarım icra etmişdi. Səməd bəy geri qayıdandan sonra Ə.Şıxlinski gördüyü işlər barədə ona məlumat verdi və pul qalığını, habelə onun qəbul edilməsi barədə aktları təqdim etdi. Ə.Şıxlinskinin təmizliyinə əmin olan Səməd bəy pul qalığını saymadan aktlara qol çəkdi. Onun Ə.Şıxlinskiyə bu dərəcədə etibar etməsini ətrafındakıları təəccüb içərisində qoymuşdu. Ə.Şıxlinski həmin hadisəni öz xatirələrində bu cür təsvir edirdi: « 1903-cü ilin noyabrında Mehmandarov öz hissəsinə qayıtdı. Həyata keçirdiyim bütün tədbirlərimlə tanış olaraq çox razı qaldı. Tədbirlər isə bunlardan ibarət idi: bizim kiçik hissəmizdə qənaət edilmiş xeyli pul vardı, yuxarı idarələr bu pulları bizim əlimizdən ala bilərdilər. Mən bu pulun bir hissəsini öz batareyamız

üçün xərcləyib bütün topların və arabalırın atları üçün qoşqu ləvazimatı aldırmış, sonra bütün şəxsi heyət üçün bahalı, çox isti yorğanlar gətirtmişdim. Moskvada hazırlanmış gözəl bir fayton və s. almışdım. Bu faytonun özünün akkumulyatoru, elektrik fonarı var idi. Bunların hamısına 21 min manat xərcləmişdim. 17 min manatımız yenə qalırdı.

Mehmandarov batareyanı qəbul etdi, bütün dəftərlərdə və pulun qəbul edilməsi aktında qol çəkdi, amma pulları saymadı. Mən təəccüb edərək pulları niyə saymadığını soruşduqda gülümsəyərək:

-Siz ki saymısınız, mənim samağa ehtiyacım yoxdur- deyə cavab verdi.

Mehmandarov həmişə kefi saz olanda etdiyi kimi indi də şapkasını yan qoyaraq açarı cibinə saldı və evinə getdi. Kiçik rütbəli yoldaşlarım bu işə çox təəccüb etmişdilər, çünki komandirlərimizin dövlət pulu üçün necə can yandırdığını yaxşı bilirdilər. Mən onlara başa saldım ki, Mehmandarov kimi adamlar bir adama bir dəfə inandılarmı, hər cəhətdən inanarlar, məni isə Mehmandarov 1888-ci ildən tanıyır».

Tezliklə batareyanın müvəqqəti komandanlığını Ə.Şıxlinski yenidən öz üzərinə götürməli oldu. Çünki 1904-cü il yanvar ayının sonlarında Port-Artur döyüşü başlayanda Səməd bəy başqa bir vəzifəyə təyin edildi və yeni komandir gələnə kimi batareya Ə.Şıxlinskiyə tapşırıldı.

Rus-yapon müharibəsinin başlanması ilə Səməd bəy Mehmandarov üçün çox da uzun sürməyən dinc həyat sona çatdı. Bu müharibə iki dövlət arasında imperialist və işğalçılıq niyyətlərinin bariz nümunəsi idi. Öz sərhədlərinə sığışmayaraq nüfuz dairələri üstündə mübarizə aparan dövlətlər minlərlə insanların qırılmasına baxmayaraq bu üzücü müharibəyə rəvac verdilər.

Port-Artur Uzaq Şərqdə çox əlverişli bir coğrafi məkanda yerləşirdi. İlk növbədə onun strateji əhəmiyyəti hər iki dövlətin diqqətini özünə cəlb edirdi. Bu şəhər Kvantun yarmadasının qurtaracağının cənub-şərq hissəsində yerləşirdi. Şəhər az qala dörd tərəfdən quru ilə əhatə olunmuş geniş körfəzin sahilində qərar tutmuşdu. Sakit okeana açılan Sarı dənizlə bu körfəzi dar bir boğaz birləşdirirdi və ona görə Port-Arturu dəniz qüvvələrindən asanlıqla qorumaq mümkün idi. Port-Artur Sibir dəmiryolu ilə birləşdirildiyindən nəqliyyat əlaqələri baxımından da strateji bir məntəqə idi.Digər tərəfdən burada su heç vaxt donmurdu və orada həmişə hərbi donanma saxlamaq mümkün idi. Port-Artura sahib olmaqla Kvantun yarmadasının böyük bir hissəsini, o cümlədən də dəniz hövzəsini nəzarət altında saxlamaq mümkün idi.

Yarmada və Port-Artur üzərində nəzarəti ələ keçirmək üçün Yaponiya X1X əsrin sonlarında Çinlə müharibəyə başlamışdı. Tərəflər arasında 1955-ci ildə bağlanmış müqaviləyə görə Yaponiya yarmada ilə Port-Artur üzərində nəzarəti ələ keçirirdi. laikn Rusiya və digər dövlətlərin təzyiqi ilə Yaponiya bu niyyətindən əl çəkdi. Əvəzində isə Rusiya Çinlə razılaşaraq Port-Arturu 25 illik müddətə kirayəyə götürdü. Bununla bağlı 1898-ci ilin martında iki dövlət arasında müvafiq sənəd imzalandı. Yaponiya isə belə bir vəziyyətlə razılaşa bilmirdi və bölgədə öz nüfuzunu bərpa etmək üçün 1904-cü il yanvar ayının 27-də rus gəmilərinin üzərinə hücum etdi. Bununla da təxminən bir davam edən müharibənin başlanğıcı

qoyuldu. Səməd bəy Mehmandarov da həmin müddət ərzində bu üzücü müharibənin sınaqlarına sinə gərdi, bir zabit və hərbçi kimi nəyə qadir olduğunu nümayiş etdirməklə bərabər zəngin təcrübə də əldə etdi.

Səməd bəy Mehmandarovun xidmət həyatında xüsusi yer tutan rus-yapon müharibəsi ilk növbədə rus ordusunda mövcud olan zabitlərin xarakterinin mübarizəsi idi. Bu mübarizənin bir qütbündə general Kondratenko , general Nadein, general İrman, genaral Menhmandarov kimi zabitlik şərəfinə sədaqət göstərən şəxslər dayanırdısa, digər tərəfdə bölgənin canişini admiral Alekseyev, qala komandanı Stessel, onun köməkçisi general Fok kimi iradəsiz, əszər və zabit zəhmətinə laqeyd yanaşan şəxslər dayanmışdı. Belə şəxslərin fərsizliyi, hərbi kütlüyü, komandirlik duyumuna malik olmamaları müharibənin uduzulmasına gətirib çıxardı.

İstər S.Mehmandarov, istərsə də onun digər zabit həmkarları əlbətdə ki, bu müharibənin siyasi motivlərinə müdaxilə etmək imkanına malik deyildilər. Onlar bir hərbçi kimi tapşırılan vəzifənin peşəkarlıqla icrasını, daşıdıqları paqonların məsuliyyətini doğrultmağa çalışırdılar və tarixdən də məlumdur ki, Səməd bəy bu sınaqlardan uğurla çıxdı. Prinsipial, iradəsindən dönməyən bir zabit kimi çoz böyük şücaətə və əqidə bütövlüyünə malik olduğunu göstərdi.

Rus-yapon müharibəsi haqqında ən çox yazılan müharibələrdən biridir. S.Mehmandarovun adı çəkilən əsərlərdə o, igid, qorxmaz, istedadlı, digərlərinə nümunə olacaq bir zabit kimi təsvir edilmişdir. Bütün əsərlərdə o, prinsipiallığı təmsil edən zabit kimi göstərilmişdir. Onun ən ağır vaxtlarda əsgərlərlə dil tapması, onları səfərbərliyə ala bilməsi və onlara qayğısı da zabitliyə məxsus olan ən müsbət keyfiyyətlər kimi qabardılmışdır.

Port-Arturun məğlubiyyətindən danışarkən heç şübhəsiz bu şəhər ətrafında aparılan müdafiə işlərinin sona çatdırılmadığını, qoşun hissələrinin maddi-texniki təminatının aşağı olduğunu, qala komandanlığı tərəfindən müdafiə döyüşlərinin düzgün uzlaşdırılmadığını da qeyd etmək lazımdır.

Port-Artur qalasını qurudan müdafiə edən qüvvələrin 4-cü Şərqi Sibir diviziyası ilə 7-ci Şərqi Sibir diviziyası təşkil edirdilər. Bunlardan əlavə döyüş bölgəsində 5-ci Şərqi Sibir nişançı alayı, 3-cü Şərqi Sibir nişançı diviziyasının kiçik bölmələri, habelə iki sərhəd bölməsi olsa da əsas ağırlıq adları çəkilən diviziyaların üzərinə düşmüşdü. Səməd bəy Mehmandarov 7-ci Şərqi Sibir nişançı diviziyasının tərkibində idi. Bu diviziyanın yaradılması barədə 1903-cü ilin iyununda əmr verilmişdi. Əslində ilk vaxtlar tərkibində dörd nişançı alay, üç topçu batareyası və bir istehkam taboru olan briqadanın yaradılması və onun Kvantun yarmadasının müdafiəsinə cəlb edilməsi məqsədəuyğun bilinmişdi. 1904-cü ilin yanvar ayının 17-də 4-cü və 7-ci briqadaların diviziyaya çevrilməsi barəsində əmr imzalandı. 7-ci Şərqi Sibir diviziyası yeni yaradılmış bir ibrləşmə idi. Onun tərkibinə daxil olan nişançı alaylar Rusiyanın müxtəlif dairələrindən gətirilmişdi.

Qalanı müdafiə edəcək artilleriya qala və səhra toplarına bölünmüşdü. Qala topları ayrıca bir hissədə birləşdirilmişdi. Səhra topları isə nişançı diviziyalara verilmişdi. 1904-cü ilin yanvar ayının 22-də alınan əmrə müvafiq olaraq topçu hissələrə də tərkibinə daxil olduqları diviziyaların nömrələri verildi. 4-cü Şərqi

Sibir diviziyasının tərukibində 4-cü Şərqi Sibir topçu briqadası, 7-ci diviziyanın tərkibində isə 7-ci Şərqi Sibir topçu divizionu yaradıldı. 4-cü Şərqi Sibir topçu briqadası 4 batareyadan ibarət idi. Onlardan ikisi  ikisi S.Mehmandarovun və Ə.Şıxlinskinin xidmət etdikləri  Zabaykal divizionunun iki batareyası idi. Ə.Şıxlinski də 4-cü Şərqi Sibir topçu briqadasında xidmət edirdi.

Səməd bəy Mehmandarov isə yeni yaradılmış 7-ci Şərqi Sibir topçu divizionunun komandiri təyin edilmişdi. Bu divizionda isə üç batareya var idi. Divizionun sərəncamında 26 ədəd səhrav topu var idi. Divizionun 1-ci və 2-ci batareyaları 37-ci topçu briqadasından alınmışdılar. Həmin batareyalar Port-Artura aprel  ayının3-də və 4-də gəlib çatmışdılar. Divizionun 3-cü batareyası isə vaxtilə Port-Arturda yaradılmış topçu batareyası idi.

7-ci Şərqi Sibir nişançı diviziyasının komandiri general-mayor R.İ.Kondratenko idi. General Kondratenko kifayət qədər prinsipial, vəziyyəti ayıqbaşla qiymətləndirməyi bacaran bir şəxs idi. Bütün tarixi ədəbiyyatda R.Kondratenko Port-Arturun müdafiəsində böyük zəhməti və rolu olan bir komandir kimi qiymətləndirilir.

S.Mehmandarovla general Kondratenko arasında çox işgüzar və mehriban münasibətlər mövcud idi. Onların birgə fəaliyyəti Port-Artur qarnizonunun müdafiə nabiliyyətini xeyli artırmışdı.

S.Mehmandarovun 7-ci Şərqi Sibir topçu divizionunun 1-ci batareyasına podpolkovnik Dobrov, 2-ci batareyasına podpolkovnik Skrıdlov, 3-cü batareyasına isə podpolkovnik knyaz Çxeidze komandirlik edirdi. Bu batareyalardan hər biri S.Mehmandarov üçün yeni batareyalar idi.  Əvvəldən onların heç biri ilə tanışlığı yox idi. Həmin batareyaların hansı döyüş potensialına malik olmasından da Səməd bəy xəbərsiz idi. Özü də divizionun müharibə şəraitində təşkili, 1-ci və 2-ci batareyaların isə yalnız aprel ayında onun sərəncamına gəlib çıxması şəxsi heyətin döyüş hazırlığı ilə məşğul olmaq imkanını aradan qaldırırdı. Ona görə də Səməd bəy Mehmandarov hər kiçicik imkandan istifadə edərək topçuların hazırlığını təkmilləşdirməyə, onlara döyüşgən əhval-ruhiyyə aşılamağa çalışırdı. Top mövqelərinin lazımi şəkildə hazırlanmaması isə topçuların vəziyyətini daha da çətinləşdirirdi. Cəbhə xətti boyu mövcud olan istehkam tikililərinin çoxu düşmən müşahidəsindən gizlədilməmişdi. Bir-çox mövqeləri və müşahidə məntəqələri müdafiə xəttindən kənarda qalmışdı. Toplar çox vaxt yaxşı yerləşdirilmədiyindən yaxın ətrafı atəşə tuta bilmirdi, cinahlar isə çox vaxt topların atəşindən kənarda qalırdı. Bundan başqa bir-sıra digər amillər də qoşunların və o cümlədən də konkret olaraq topçuların səmərəli fəaliyyətinə çətinlik yaradırdı.  Bütün bunlar isə qoşunların şəxsi heyətindən daha artıq zəhmət və enerji tələb edirdi.

S.Mehmandarov da mövcud olan bu çətinliklərin, habelə silah və sursat çatışmazlığının əlavə çətinliklər kimi qarşıda dayandığını görürdü və divizionun şəxsi heyətini çətin vəzifələrin yerinə yetirilməsinə səfərbər etməyə çalışırdı. Qeyd etmək lazımdır ki, Səməd bəy buna  nail ola bilmişdi. Onun topçuları igidliyi, məharəti və iradəliliyi ilə Port-Artur döyüşlərində ad çıxarmışdı.

Rus-yapon müharibəsi haqqında iki cildlik tarixi «Port-Artur» romanının müəllifi Aleksandr Stepanov əsərinin bir yerində Səməd bəy Mehmandarovun

divizionunun hələ zahiri baxımdan necə yaxşı təəssürat bağışladığını belə təsvir edirdi. 28-ci piyada alyının ümumi görünüşündən razı qalmayan diviziya komandiri general Kondratenko topçu divizionunda tamam başqa mənzərənin şahidi olmuşdu: «Tezliklə o, topçu divizionunu haqladı. Yaxşı yemlənmiş güclü atlar səhra toplarını asanlıqla çəkirdilər. Uca boylu, şax görkəmli topçular topların yanı ilə gedirdilər.General dəstənin sonuncu arabasına çatmamış əsgərlər səsləri ilə divizion komandirinə diviziya komandirinin gəlməsi barədə xəbər çatdırdılar. Bir-neçə dəqiqədən sonra general Kondratenko çaparaq ona doğru gələn polkovnik Mehmandarovu gördü.

Uzanmış gur qara saqqalı başının saçları və bığları ilə bir-birinə qarışmış polkovnik özünün nəhəng qara atı üzərində sürətlə irəliləyirdi. Qılınc ilə təmtəraqlı salam verdikdən sonra o, atını generalın bir-neçə addımlığında saxladı və hündürdən nizami raport verdi. Generalın irəliyə kəşfiyyat göndərilibmi sualına, polkovnik məruzə etdi ki, divizion yavərinin rəhbrəliyi altında bütün süvari kəşfiyyatçılar çoxdan irəli göndərilmişlər və elə bu anlarda onlardan xəbər gözləmək olar.

Hissənin gözəl görünüşünə görə Mehmandarova təşəkkür edən Kondratenko irəlidə gedən 25-ci nişançı alaya doğru üz tutdu».

Port-Arturun özünün müdafiəsi iki zonaya bölünmüşdü. Şərq və Qərb cəbhələri. Şərq cəbhəsi şimaldan Port-Artura gələn dəmir yolu xəttinin şərq tərəfini və Port-Arturun şimal-şərq ətəklərini əhatə edirdi. Qərb cəbhəsi isə dəmir yolu xəttindən qərbə olan əraziləri əhatə edirdi. Həmin cəbhəni 4-cü diviziya müdafiə edirdi. Ə.Şıxlinski də bu cəbhədə idi. Şərq cəbhəsini isə 7-ci diviziya müdafiə edirdi. Mehmandarovun divizionu da bu cəbhədə idi. Onlar başqa-başqa cəbhələrdə olduqları üçün az təmasda olmuşdular. Buna görə də Ə.Şıxlinskinin xatirələrində Port-Artur döyüşləri ilə bağlı S.Mehmandarovun adı çox az çəkilir. Buna baxmayaraq onların görüşdüyü vaxtlar, habelə Səməd bəyin topçularının Qərb cəbhəsində döyüş tapşırıqlarını yerinə yetirdiyi vaxtlar da olurdu.

Port-Artur uğrunda quruda gedən gərgin döyüşlərin başlanması 1904-cü ilin aprel-may aylarına təsadüf edir. Özü də bu döyülər Port-Arturun ətrafında deyil, Kvantun yarmadasının şimalında başlamışdı. Bununla yaponlar bir tərəfdən rus ordusunun quru ilə olan əlaqəsini kəsməyə, həm də onun qüvvəsini tədricən zəiflətməyə çalışırdı. Namünasib dağ şəraitində qüvvələr nisbətində xeyli üstünlüyə malik olan yaponlara müqaviəmt göstərmək elə də asan deyildi. Ona görə döyüşə girmiş olan hissələr yavaş-yavaş Port-Artura doğru geri çəkilmək məcburiyyətində qalmışdılar.

Rus ordusu üçün heç də uğurla başlamayan döyüşlərdə S.Mehmandarovun topçuları da iştirak edirdilər. May ayının 14-də Malan kəndi yaxınlığında piyada hissələri ilə bərabər 7-ci topçu divizionunun bölmələri də hündür dağ yollarını aşaraq geri çəkilməli idi. Bu dağ yolları ilə topları dartıb aparmaq nə qədər ağır olsa da günün sonuna topçular Şinintsı kəndinə yetişə bildilər.

Divizionun 3-cü batareyası 28-ci piyada alayı ilə bərabər İnçənzı yarmadasını qoruyurdu. İrəlidən əsas qüvvələr geri çəkiləndə 28-ci alayla 3-cü batareyaya göstəriş verildi ki, Suantsayqou kəndi yaxınlığında mövqe tutsunlar və

dağ yolları ilə geri çəkilən əsas qüvvələrin mühafizəsini təşkil etsinlər.

Ancaq yaponlar da rus qüvvələrini təqib edirdilər. Onların süvariləri rus hissələrinin 3 verstliyinə qədər gəlib çatmışdı. Bunun daha təhlükəli nəticələrlə bitəcəyindən ehtiyatlanan general Fok mayın 15-də də geriyə hərəkəti davam etdirməyi qərara aldı. Bu zaman ilkin olaraq 7-ci diviziyanın topları hərəkətə başlamalı idi.General Kondratenkonun təklifi ilə general Fok yaponlara müqavimət qərarına gəlsə də o, daha çox geri çəkilmək barədə düşünürdü. Ona görə də may ayı ərzində yaponlara ciddi bir müqavimət göstərilmədi.

Lakin belə geriləmə nə Kondratenkonu, nə də bir çox zabitləri qane edirdi. Yaponlar qüvvələr nisbətində böyük malik olsalar da döyüşlərin düzgün təşkil olunmaması üzündən rus qoşun hissələri qarşı bacardığı müqaviməti göstərə bilməmişdi. İyun ayının 13-də Litanqou kəndi yaxınlığında general Kondratenko bütün tabor komandirlərini toplayaraq onlarla yapon qoşunlarına müqaviəmt göstərilməsi məsələsini müzakirə etdi. Müqavimət göstərilməsi qərara alınnandan sonra hər bir bölmənin döyüş mövqeyi müəyyənləşdirildi. Sonra da general kondratenko qəbul edilən qərar barədə general Foka məlumat verdi. Ancaq general Fok qəbul edilən bu qərarın bir nəticə verəcəyinə inanmadığından yenidən geri çəkilmək əmri verdi. O tələb edirdi ki, əvvəlcə topçular geri çəkilsin, onların ardınca da digər hissə və bölmələr.

Rus qoşunlarının geri çəkilməsi qala komendantı general Stesseli də narahat edirdi. Müqavimətin gücləndirilməsi üçün sağ cinahı Lunvantun buxtası yanında olan cəbhə xəttinə polkovnik Seiyonovun rəhbərliyi altında yığma qoşun dəstəsi göndərdi. S.Mehmandarovun topçu divizionundan da polkovnik Semyonovun dəstəsinə 3-cü batareya və bir də 2-ci batareyanın yarısı verildi. 2-ci batareyanın yarısı isə hündür dağ keçidlərində idi. 1-ci batareya isə Daquşan dağında yerləşdirilmişdi. Bu dağ cəbhə xəttindən bir qədər arxada yerləşirdi. Batareyaların belə dağınıq olması Səməd bəyin vəziyyətini xeyli mürəkkəbləşdirsə də o bir an da olsa dinclik bilmir, daim öz topçuları ilə əlaqə saxlayır və yapon qoşunlarına qarşı göstərilən müqavimətin artırılmasına çalışırdı. Qeyd etmək lazımdır ki, bu döyüşlərdə yuxarı komandanlığın fikir və tələbləri liə razılaşmayan general Kondratenko S.Mehmandarovun şəxsində özünə igid bir silahdaş tapmışdı. Lunvantun hövzəsi və buxtası ətrafındakı döyüşləri «Port-Artur» romanında təsvir edən A.Stepanov Səməd bəyin və onun topçularının da fəaliyyətinə toxunmuşdu. Qeyd etmək lazımdır ki, A.Stepanov uşaq yaşlarında Port-Arturun bir-çox hadisjələrinin şahidi olmuş və sonradan romanı yazmağa hazırlaşarkən çoxlu arxiv sənədlərini də diqqətlə öyrənmişdi. Buna görə də onun romanında tarixi reallıqlar xeyli çoxdur. General Kondratenkonun yuxarıda qeyd edildiyi kimitabor komandirləri ilə müqavimət göstərmək qərarının general Fok tərəfindən bəyənilməməsi, onun tərəfindən əvvəlcə topçuların, sonra da piyadaların geri çəkilməsi barədə əmr verməsi səhnəsi romanda da vardır. General fok hissələri və topları geri çəkməklə general Kondratenkonu ağır vəziyyətə salacağını anlayan Əliağa Şıxlinski bildirir ki, polkovnik S.Mehmandarovla danışmaq lazımdır. O razı olmaz ki, general Kondratenko çıxılmaz vəziyyətdə qalsın və buna görə də topların geri çəkilməsini ləngitmək üçün bir şey düşünər.

Romanın başqa bir yerində Luvantun vadisində gedən döyüşlərdə S.Mehmandarovun və onun topçularının fədakarlığı təsvir edilir. Həmin səhnə aşağıdakı kimidir:

«...-Əlahəzrət, bütün qaolyan yaponlarla doludur-deyə postun böyüyü yerində qalmış matros məlumat verdi.

Səhra batareyaları ilə əlaqəyə girmək pis olmazdı, qoy onları atəşə tutsunlar-Zvonaryov fikrini bildirdi.

-Topçular bax o daşların arxasında özlərinə məntəqə düzəldiblər- matros solu göstərdi.

Miçman praporşiklərlə ora yollandı və tezliklə bir-neçə zabitin yanında olan polkovnik Mehmandarovu gördü. Zvonaryov özünü təqdim etdi və ona həvalə olunmuş vəzifələr barədə məlumat verdi.

Polkovnik dərhal qaolyana atəş açdı  və on dəqiqədən sonra bütün minadaşıyan gəmilər və kanonerkalar da qaolyanı atəşə tutdular. Yaponlar tələsik oradan qaçmağa başladılar. Səhra topları onları şrapnellə vururdu və tezliklə bütün vadini partlayış tüstüsü və havaya qalxmış toz bürüdü.

Bir-neçə mərmi Mehmandarovun qrupunun yaxınlığında partladı. Polkovnik özü yüngülcə yaralanmışdı, yanındakı iki topçu ölmüş və bir matros da yaralanmışdı».

Cəbhə xəttinin sağ cinahını möhkəmləndirməyə göndərilmiş polkovnik Semyonov iyunun 17-də yaponların üzərinə hücuma keçmək istədi. Ancaq həmin plan da general Fok tərəfindən bəyənilmədi. Bəhanə də bu oldu ki,topçular hələ lazım olan mövqeni tutmayıblar.

İyunun 18-də nəhayət hücum etmək qərarı razılaşdırıldı. Sağ cinahdakı qüvvələr yaponların üzərinə hücum edərək semafor və Xuinsan yüksəkliklərini ələ keçirmişdilər. Bir-neçə gün ərzində burada gərgin döyüşlər davam etdi və bir-sıra əlverişli mövqelərin ələ keçirilməsində Səməd bəyin topçuları da yaxından iştirak etdi. Onun topçuları sağ cinaha göndərilmiş olan polkovnik Semyonovun dəstəsinin əçsas zərbə qüvvəsini təşkil edirdi.

Luvantun  vadisində mövqe döyüşləri iyul ayının ortalarına kimi davam etdi. Bu müddət ərzində tərəflərin heç biri ciddi uğur qazanmasalar da üstünlük yaponların tərəfində qalmaqda davam edirdi və onların irəliyə hərəkətinin qarşısının alınmasında S.Mehmandarovuntopçularının da böyük rolu var idi.

İyulun 13-də gedən döyüşlərdə S.Mehmandarovun divizionundan knyaz Çxeidzenin və Skrıdlovun batareyaları yenə fəallıq göstərdilər. Bu batareyalar irəliyə hərəkt etmək istəyən yaponlara böyük itkilər verdilər. Bu vəziyyət yaponları çox narahat edirdi. Səməd bəyin toplarının susdurulması üçün yaponlar bütün imkanlarını sərf edirdilər. Onların səhra topları rus piyadalarına qarşı istiqamətləndiyi halda, daha uzaq təsir sahəsinə  malik olan 120 mm mühasirə topları Səməd bəyin toplarının susdurulması tapşırığı almışdılar. Yaponlar yaxşı anlayırdılar ki, irəliyə asanlıqla hərəkət etmək üçün Səməd bəyin toplarını neytrallaşdırmaq lazımdır. Onlar hətta yaxın yüksəkliklərdə yerləşdirilmiş müşahidəçilər  vasitəsiylə atəşləri tənzimləyirdilər. Lakin göstərilən bütün cəhdlərə baxmayaraq yaponlar həmin gün  Səməd bəyin toplarına ziyan yetirə

bilmədilər. Çünki divizionun topları kifayət qədər etibarlı şəkildə gizlədilmişdi və bu məsələ Səməd byəin xüsusi nəzarəti altında idi.

İyulun 14-də davam edən döyüşlərdə yaponların əsas hədəfi topçular idi. Sağ cinahda yerləşmiş olan S.Mehmandarovun batareyaları və digər topçu bölmələri bütün gün ərzində yapon toplarının atəşlərinə məruz qaldılar. Təhlükəli vəziyyət yaxınlaşanda rus topçuları daldalanacaqlarda gizlənir, azacıq sakitlik yaranan kimi onlar da yaponları atəşə tuturdular. Bu minvalla topçuların döyüşü axşama kimi davam etdi. Ancaq yaponların bir-sıra əlverişli yüksəkliklərinin ələ keçirilməsi Səməd bəyin topçularını, eləcə də digər topçuları çıxılmaz vəziyyətə sala bilərdi. Ona görə də rus qoşunları yenildən geri çəkilmək barədə əmr aldılar. İyulun15-də rus qüvvələri Qurd (Volçi) dağı boyu müdafiə mövqeləri tutdular. Buradakı cəbhə xəttinin sağ cinahının Daquşan və Syaoquşan yüksəklikləri təşkil edirdilər. Həmin yüksəkliklər Port-Arturun müdafiəsi üçün strateji əhəmiyyət kəsb edirdi. Ayın 15-də verilən döyüş əmrində sərhəd bölmələri ilə 7-ci topçu divizionunun 1-ci batareyası Daquşan yüksəkliyini qorumalı idi. Bu istiqamətdə Səməd bəyin 8 topu yerləşirdi. Divizionun digər iki batareyası isə ümumi ehtiyatda saxlanılmışdı. İyulun 16-na olan döyüş əmrində isə S.Mehmandarovun bütün divizionu ümumi ehtiyatda saxlanılmışdı. İyulun 17-də yaponlar çox güclü hücuma keçdilər. Bəzi mənbələrdə mövcud olan məlumatlara görə Qurd dağındakı mövqeləri qoruyan 17 minlik rus ordusu üzərinə 50 minlik yapon ordusu hücum etmişdi. Yaponlar toplara görə də üstünlüyə malik idilər. Rus qoşunlarında yalnız səhra topları ollduğu halda, yapon ordusunda uzaqvuran mühasirə topları var idi. Buna görə göstərilən bütün cəhdlərə baxmayaraq yaponların hücumunun qarşısını saxlamaq mümkün olmadı. Döyüşləin gedişində Səməd bəyin divizionunun 2-ci batareyası ümumit ehtiyatdan cəbhə xəttinin mərkəzinə göndərildi. Lakin bu da döyüşün gedişində bir dəyişiklik yaratmadı. Yaponlar Daquşan və Syaoquşan yüksəklikləri istisna olmaqla Qurd dağı üzərindəki bütün mövqeləri ələ keçirdilər. Bununla da Port-Artur uğrunda döyüşlərin 1-ci mərhələsi başa çatdı və həmin gündən Port-Artur artıq mühasirədə hesab olundu.

A.Stepanovun «Port-Artur» romanında hələ Qurd dağı mövqelərində olarkən Səməd bəyin divizionu ilə bağlı bəzi səhnələr təsvir edilmişdi. Onlardan biri aşağıdakı kimi idi: «Generallar Skalisti Kryaj adlanan qonşu yüksəkliyə qədər getdilər. Onun arxasında ehtiyat qüvvə və atlara qoşulmuş səhra batareyası dayanmışdı.

7-ci nişançı-topçu divizionunun komandiri enlikürək və qara sıx saqqalı olan polkovnik Mehmandarov generalları görüb onlara yaxınlaşdı:

-Əlahəzrət, biz səhər tezdən burada dayanmışıq, bilmirik nə üçün. Su yoxdur. İsti, toz. Həşəratlar da ki, atları incidirlər-polkovnik məlumat verdi.

-Bura sizi kim göndərib?

-General Smirnov həyəcan işarəsi ilə bizi bura çağırıb- polkovnik Qafqaz ləhcəsi ilə cavab verdi.

-Onun harada olduğunu bilirsinizmi?

-Yüksəkliyin arxasındadır. Böyük daşın arxasında oturub. Elə hey nə isə yazır, heç nəyə fikir vermir.

-Mən indi onunla danışaram-deyə Kondratenko vəd etdi».

Bununla Mehmandarov əslində mənasız gözləmələrlə barışa bilmirdi və bir-sıra generalların mövcud vəziyyətdə şüurlu təşəbbüskarlıq göstərə bilməməsi onu narahat edirdi. Romanda olan başqa bir səhnədə də buna oxşar bir vəziyyət təsvir edilmişdir:

«Mehmandarov yaxınlaşdı və yenidən batareya atlarının sulamağa aparılması üçün icazə istədi.

-Artıq atlardan ikisi susuzluqdan heysiz olubdur-deyə əlavə etdi

-Yox,yox. Siz bununla mənim yaponların geri oturdulması üçün üçüncü variantımı alt-üst etmiş olarsınız. Axşama qədər gözləyin-deyə Smirnov əmr etdi.

-Həmin vaxta kimi mən qoşmağa at tapa bilməyəcəyəm.

-Səhra topları bu saat bizə lazım deyil. Heç yerdə hücuma hazırlıq görünmür- Kondratenko sözə başladı- Zənnimcə divizionu buraxmaq olar.

-Mən əmr verəndə xahiş edirəm etiraz etməyəsiniz-Smirnov hirsləndi.

-Baş üstə -Roman İsidoroviç cavab verdi,-Vasili Fyodoroviç, gedək.

-general Belıy mənim yanımda qalmalıdır.

Belıy tabe olmaq məcburiyyətində qaldı. Kondratenko heç kəslə salamatlaşmadan bayıra çıxdı.

-Bir batareyanı yerində saxlayın. Qalan iki batareyanı isə yaxınlıqdakı su mənbəyinə aparın-deyə Mehmandarova göstəriş verdi.

-Sağ olun, Roman İsidoroviç- polkovnik həyəcanla səsləndi- bu inadkarla onsuz da heç nə həll etmək mümkün deyildir.-Sevincək hala düşən divizion komandiri irəli hərəkət etdi».

Qurd dağındakı mövqelərin tutulması iləhəm yaponlar, həm də ruslar əsas diqqəti Daquşan və Syaoquşan yüksəkliklərinə yönəltdilər. İndi bu yüksəkliklər Port-Artura doğru ən strateji y üksəkliklər idi. S.Mehmandarovun divizionu da bu bölgədə yrləşdirilmişdi. Bütünlükdə Şərq cəbhəsi Port-Artur uğrunda son döyüşlərin qaynar nöqtəsi idi. Sonralar Şərq cəbhəsinin artilleriya rəisi vəzifəsi də S.Mehmandarova həvalə olundu. Bu cəbhədə olan divizion topçuları, habelə başqa topçular Səməd bəyin rəhbərliyi altında fəaliyyət göstərirdi və Səməd bəyin üzərinə çox böyük məsuliyyət düşmüşdü. Buradakı döyüşlərin taleyi də əslində elə topçuların necə işləməsi ilə bağlı idi.

Yüksək gərginlik və məsuliyyət Səməd bəyi nəinki qorxutmur, əksinə daha böyük iradə ilə fəaliyyət göstərirdi. Döyüş şəraitini duyma qabiliyyəti, topların atəşindən dəqiqliklə istifadə edə bilmək məharəti qalanın müdafiə imkanlarını daha da artırırdı. Döyüşlərdə Səməd bəyin nümayiş etdirdiyi iradə və mübarizlik bütün topçulara sirayət etmişdi və buna görə onlar döyüş keyfiyyətlərinə görə başqa qüvvələrdən fərqlənirdilər.

Ancaq toplar sahəsində də obyektiv üstünlük yaponlar tərəfində idi. Ona görə bu üstünlüyü aradan qaldırmaq heç də asan deyildi. Port-Artur döyüşlərinin iştirakçısı olmuş P.Larenko da «Stradnıe dni Port-Artura» adlı xatirələrində yazırdı ki, yaponların artilleriya cəhətdən üstünlüyünü topçular özləri də bilirdilər. Ordu strukturunda artilleriyaya verilən yer də topçuları qane etmirdi. Döyüşlərdə topların rolunun artdığı bir vaxtda bir piyada diviziyasına bir topçu briqadasının

verilməsi kafi sayılmırdı. Onlar ən azı hər diviziyaya iki topçu briqadasının verilməsini məqsədəuyğun bilirdilər. Lakin bu cəhət Rusiya ordusunun strateji komandanlığı tərəfindən dəqiqliklə qiymətləndirilə bilməmişdi. Bu azmış kimi Port-Arturda olan topçular, o cümlədən də Səməd bəyin topçuları lazımi miqdarda mərmilərlə də təmin edilmirdi. Ona görə də topçular bir-çox hallarda yapln toplarının partlamamış mərmilərini toplayır, onları atışa uyğunlaşdırır və onlardan istifadə edirdilər. Bütün bunların nəticəsi idi ki, iyul ayının sonlarında Daquşan və Syaoquşan yüksəklikləri də yaponlar tərəfindən ələ keçirildi və onlara qarşı layiqli müqavimət göstərmək imkanı olmadı.

Avqust ayının 6-da yaponlar bütün cəbhə xətti boyu ümumi top hazırlığına başladı. Top atəşləri Şərq cəbhəsində xüsusilə güclü idi. Belə anlarda Səməd bəy öz topçularının yanında olmağa, onların bütün gücünü səfərbər etməyə çalışardı. Mərhum polkovnik Ə.Abbasov öz kitabında göstərirdi ki, belə güclü döyüşlərin birində Səməd bəy özünü sürünə-sürünə ön xəttə yerləşmiş topçuların yanına yetirdi və onların döyüşünə rəhbərlik etməyə başladı. Çox hallarda Səməd bəyi at belində görərdilər. Bununla da o çalışırdı ki, qısa zaman ərzində öz topçuları ilə əlaqə yarada bilsin və onların fəaliyyətinin səmərəliliyini daha da artırsın.

Səməd bəy belə çətin anlarda öz vətənini də yaddan çıxarmırdı və öz döyüş yoldaşlarının yanında cavanlığını keçirdiyi yerləri səmimiyyətlə xatırlayırdı. Port-Artur döyüşlərində cəbhə jurnalisti olmuş Y.Nojin öz xatirələrində bununla bağlı maraqlı qeydlər etmişdi:«Blindaja girdim. General Nadein həmişəki kimi sakitdir. Onun qərargah rəisi Stepanov yorğundur. Burada bir-neçə zabit var. Polkovnik Mehmandarov da buradadır. Biz həmişəki kimi çox səmimi görüşdük. Mehmandarov heyranlıqla Vətəni Qafqazı yad edirdi:

-Qafqaz çox yaxşıdır, çox gözəldir,-deyirdi-Təbiət hər şeyin keyfiyyətinə zəmanət verərək ona öz möhürünü vurmuşdur. Amma bədbəxtlik ondadır ki,bəzən daş lazım olan yerdə bir dənə də daş tapmazsan, lazım olmayan yerdə isə sayı-hesabı yoxdur. Su ehtiyac olan yerdə bir damla da su olmur, ehtiyac olmayan yerdə dərya qədərdir.-Ani olaraq dayanan Mehmandarov sözünü davam etdi,-Bəs islam?Yaxşı nə varsa onu sonrakı həyatın verəcəyini vəd edir. Hər şey çox yaxşıdır,amma bizə cənnətdə yeddi mələk boyun olublar, yeddisinin də gözü girdə. Sizcə bu nə olan işdir? Peşimançılıq deyilmi? Bilirsinizmi, mən indi heç nə istəmirəm- nə cənnəti, nə də mələkləri. Mən yalnız bir azca istirahət istəyirəm.

Ətrafda hər yanda mərmilər partlayırdı, onların ikisi blindajın tavanına düşdü. Zabitlər qorxu hissi ilə ayağa durdular. İgid polkovnik Mehmandarov isə heç tövrünü belə pozmadı. Onun iri, ağıllı gözlərində zərrəcə qorxu hissi yox idi» (Sitat Ş.Nəzirlinin «Tam artilleriya generalı Səməd bəy Mehmandarov» kitabından götürülüb).

Səməd bəyin belə qorxmaz xarakterə malik olmasına başqa yazılarda da rast gəlmək mümkündür. Belə anlarında o, yenilməz qaya parçasını andırırdı ki, heç nə , o cümlədən ölüm qorxusu da ona təsir göstərə bilmirdi. H.İbrahimbəyli öz kitabında Ə.Şıxlinskiyə istinadən aşağıdakı səhnəni təsvir edirdi: «...Qala topa tutulan zaman Səməd bəy Mehmandarov mənim mövqeyimə gəldi. Həmin mövqe yaponlar tərəfindən iki düyməli toplardan 37 mm-lik xırda dəniz topuna qədər

müxtəlif toplar ilə atəşə tutulmuşdu. Eyni zamanda bu mövqe yaponların tüfəng və pulemyot atəşi altında idi. Bu zaman Mehmandarovun yaxınlığında altı düymə qumbara partlamış və yerdən qalxan qara palçıq onun üstünü bulamış, lakin yaralamamışdı.

Mehmandarov buna əsla əhəmiyyət verməyərək böyük bir soyuqqanlıqla cibindən ağ dəstmalını çıxarıb gözəl, təzə paltosunun üzərinə sıçrayan çalçığı silməyə başlamışdı».

Bu sonsuz soyuqqanlılıq Səməd bəyin xarakterinin ayrılmaz xüsusiyyəti idi və həmin xüsusiyyət çoxlarını heyrətə salmışdı.Ancaq Səməd bəy soyuqqanlı olduğu qədər də qətiyyətli idi və belələrini çox sevərdi. Sözləri də əməlləri kimi konkret olardı və tabeçiliyində olanlardan da belə olmağıf tələb edərdi. Onun fikrincə orduda xidmət edən insanlar məhz belə xarakterə malik olmalı idilər. Qorxaqlara, iradəsizlərə, başqalarının arxasında gizlənməyə çalışanlara Səməd bəyin fikrincə orduda yer olmamalı idi. Mərhum polkovnik Ə.Abbasov Səməd bəyin xarakterini təhlil edərkən A.Stepanovun əsərində mövcud olan aşağıdakı səhnəyə də müraciət etmişdi. Bu səhnə Port-Artur rayonunun komendantı general-leytenant Stesselə 22-ci batareyanın (möhkəmləndirilmiş mövqenin) komandiri kapitan Vamenzonla onun arasında olan söhbət barəsində idi.Syaoquşan yüksəkliyi ələ keçiriləndən sonra 22-ci batareya Şərq cəbhəsi müdafiə xəttinin sağ cinahının qurtaracağında, dəniz sahilində yerləşirdi.

«...-Bütün mühasirə müddətində biz aşağı çinlərlə bütün əziyyət vəzəhmətləri birgə bölüşmüşük,-deyə kapitan Vamenzon səsləndi.-Bəs onlar bunun əvəzini necə çıxdılar? Təhqirlərlə, hədələrlə, hətta üstümüzə atılmaqla. Dünən və srağagün biz şəhərdə bunların şahidi olduq. İfadəmə görə bağışlayın, yalnız ana söyüşlərini və diş qıcartmağı anlayan bu heyvanlarla mənim aramda oxşar nə ola bilər? Yox, cənablar, mən belə hesab edirəm ki, bu nanəcib heyvan bandası ilə bizi heç nə bağlaya bilməz və mən əlbətdə ki, Rusiyaya yollanacağam.

-Doğrudur,biz öz taleyimizi bu ədəbsizlərlə bağlaya bilmərik.-digər zabitlər də dilləndilər.

-Kapitan, sizin kimi zabitlərə orduda yer olmamalıdır,-polkovnik Mehmandarov dərhal cavab verdi.-Siz bizim ətrafımızı biabır edirsiniz,- deyə yumruqlarını havada oynatdı

-Əlahəzrət,-hirsindən qıpqırmızı olmuş Vamenzon Stesselə müraciət etdi,-xahiş edirəm məni bu təhqirlərdən qoruyun.

-Sakit olun , cənablar. Polkovnik Mehmandarov, sizdən sakit olmağı tələb edirəm.

Qızğın mübahisələr başlandı. Zabitləri n fikirləri qoşalaşdı. Onların bir hissəsi Vamenzonu, bir hissəsi isə Mehmandarovu müdafiə etdi».

Bu söhbət Port-Artur döyüşlərinin son günlərnə aiddir. Bununla belə Səməd bəyin daxili xarakterini üzə çıxarmaq baxımından xarakterikdir. Ən başlıcası isə o da xarakterikdir ki, «Port-Artur» romanının müəllifi rus ordusunda xidmət edən rus zabitlərinə çiynində daşıdığı paqonlara, xidməti vəzifələrin icrasına sədaqətli olmaqda qeyri-rus olan Səməd bəy Mehmandarovu nümunə göstərir və onun prinsipiallığını vəsf edirdi.

İnsan şəxsiyyətinə hörmət və ehtiram Səməd bəyin mənəvi ucalığı idi. O həddən artıq tələbkar idi. Özü tapşırılan işə biganə yanaşmadığı kimi, başqasının da xidməti vəzifəsinə biganə yanaşmasının qarşısını qətiyyətlə alırdı.Beləlirinə qarşı sərth cəzalar tətbiq etməkdən çəkinmirdi. Lakin bu cəza, xidməti cəza idi. Kiməsə cəza versə belə Səməd bəy onun şəxsiyyətini alçaltmazdı. Tabeçiliyində olan əsgərə Səməd bəy yuxarıdakı rus zabitləri kimi münasibət bəsləməzdi. Hər bir əsgərdə Səməd bəy insan şəxsiyyətini, canlı bir insanı, ordunun aparıcı qüvvəsini görürdü. O yaxşı anlayırdı ki, ordunun əsas ağırlığını və bununla da xalq qarşısındakı məsuliyyətin əsas yükünü çiyinlərində məhz əsgərlər daşıyırlar. Ona görə də Səməd bəy istər əsgər olsun, istər zabit olsun heç kimə həqarətlə yanaşmaz, onlara üstdən aşağı baxmazdı. Bir insan kimi kimsəni kimsədən üstün tutmazdı. Ona görə də o, həm zabitlər, həm də əsgərlər tərəfindən dərin məhəbbətlə sevilərdi. Cümhuriyyət dövründə hərbi nazir işləyərkən də Səməd bəy bu keyfiyyətləri ilə seçilər və sevilərdi.

P.Larenkonun «Stadnıe dni Port-Artura» kitabının ikinci hissəsində də S.Mehmandarovun xarakterinin bir-çox cizgiləri ilə bağlı qeydlər vardır. Bu kitabda da Səməd bəy igid, cəsur, qətiyyətli, heç bir çətinlikdən qorxmayan bacarıqlı və istedadlı bir zabit kimi xarakterizə olunur. Diqqət yetirin: «S.daxil oldu və danışdı ki, hücuma məruz qalmış topçulardan polkovnik Mehmandarov (Şərq cəbhəsinin bütün artilleriyasının komandanı) və podpolkovnik Stolnikov şəxsi təhlükəsizliyə qarşı qeyri-adi nifrətlə yanaşırlar. Bombardman zamanı batareyaları gəzirlər, sanki partlayan mərmiləri heç görmürlər və bununla da başqalarını toxdadırlar. Birincisi qafqazlı olaraq cəngavər kimi qəhrəmandır, ikincisi isə dindar bir şəxs kimi taleyinə yazılanlara mütidir» ( s. 597)

P.Larenkonun başqa bir qeydində isə müharibədən qorxanlara, onun tələbləri ilə barışa bilməyənlərə qarşı Səməd bəyin münasibəti ifadə olunmuşdu. Müəllifin fikrinə görə Səməd bəyin haqqında danışılan keyfiyyətləri topçular tərəfindən də rəğbətlə qarşılanırdı: « Yaralı zabitlərlə söhbət zamanı polkovnik Mehmandarov haqqında daha bəzi şeyləri öyrəndim. O özünü sevən, cəsur, tabeçiliyndə olanlara qarşı ən tələbkar bir insan imiş. tabeçilikdə olanlardan tələb edir ki, şəxsi igidliyi ilə nümunə göstərsin. Qaynar temperamentli bir adam olaraq kifayət qədər kəskin danışır. Söyləyirlər ki, hünər göstərməyə qabil olan və özünə şüurlu münasibət bəsləyən insanları daha çox qiymətləndirir. Onun fikrincə karyerist zabitlərin əsas arzusu isə öz həyatını qorumaq, layiq olmadığı halda orden almaqdır. L.N.Tolstoyun zülmə boyun əymək, öldürməkdən uzaq olmaq kimi ideyalarına özünü müti göstərməklə qorxaqlığını pərdələmək istəyin insanları görməyə gözü yoxdur. Hirslənir ki, belələri özlərini hətta hərbi xidmətə də soxurlar. Ştabs-kapitan B.yə o bir dəfə belə demişdi:

-Çox yaxşı. Sən əgər tolstoyçusansa bombardman vaxtı özün üçün otur kazematda. Fortun qarnizon gözünə görünməyə və özününü tör-töküntü görünüşünlə başqalarının ovqatını pozmağa cəsarət etmə. Güman edirəm ki, müharibə qurtaran kimi öz əqidənizə sadiq qalaraq dərhal hərbi xidməti tərk edəcəksiniz» (s.606-607)

Səməd bəy Mehmandarovun xarakteri və işgüzar keyfiyyətləri , peşəkarlığı

bir-birini tamamlayırdı. Buna görə də o, bütöv bir şəxsiyyət komandan kimi hamının rəğbətini qazanırdı.

Avqust ayının əvvəllərində Şərq cəbhəsinin sol cinahının önündə olan bir və iki nömrəli redutlar da yaponların əlinə keçdi. Bununla da bu redutların sağında və solunda yerləşən 2-ci və 3-cü fortlar topların himayəsindən məhrum oldular.Bu isə müdafiə qabiliyyətini zəiflədə bilərdi. Ona görə general Kondratenko istehkam rəisi polkovnik Qriqorenko, Şərq cəbhəsinin artilleriya rəisi polkovnik Mehmandarov sahənin müdafiə rəisi podpolkovnik Razdolski ilə müşavirə keçirərək yeni top mövqelərinin hazırlanmasını lazım bildilər. Mehmandarovun razılığı ilə həmin mövqelər 2-ci və 3-cü fortların arasında seçildi. Elə mövqelər seçilmişdi ki, oradan daha böyük sahəni top atəşləri nəzarəti altında saxlamaq mümkün olsun. Bu mövqelər avqustun axırına kimi hazır olmalı idi.

Avqust ayının 11-də Port-Arturun qurudan müdafiə zolağı çü cəbhəyə bölündü. Şərq cəbhəsi, Şimal cəbhəsi və Qərb cəbhəsi. Şərq cəbhəsinin sahəsi demək olar ki, dəyişilməz qaldı. General Kondratenko Port-Arturun qurudan müdafiəsinin ümumi komandanı təyin edildiyindən Şərq cəbhəsinin komandanı 4-cü diviziyanın briqada komandiri olmuş general-mayor Nadein , cəbhənin qala artilleriyasının rəisi podpolkovnik Stolnikov təyin edildilər. Polkovnik S.Mehmandarov isə Şərq cəbhəsi qala və səhra artilleriyasının ümumi rəisi idi.

Avqust ayının sonu və sentyabr ayının əvvəllərində döyüşlər əsasən Qərb və Şimal cəbhələrində aparılırdı. Sentyabrın ortalarında isə yaponlar Şərq cəbhəsinin ərazisində də yenidən fəallaşmağa başladılar. Bu döyüşlər ciddi mövqe dəyişikliyi yaratmasa da rusların qüvvəsi getdikcə tükənməkdə idi. Həmin döyüşlərdə həm də rus ordusunun qoşun hisslələri yaponlara qarşı daha nizamlı müqavimət göstərirdilər.

Sentyabr ayında baş verən döyüşlərdə Mehmandarovla necə rastlaşması barədə Ə.Şıxlinskinin xatirələrində də maraqlı qeydlər vardır. Bu görüş 3-cü istehkamda olmuşdu. Həmin istehkam 3-cü fortun sol cinahında yerləşirdi. Sentyabrın 13-də bu istehkama hücum edən yapon qüvvələrinin qarşısını necə alması barədə Ə.Şıxlinski belə yazırdı:

« Sentyabrın 13-də yaponlar 3-cü istehkama qərb tərəfdən hücum etməyə başladılar. Baxıb gördüm ki, örtülü mövqedə duraraq bu istehkamın piyada hissələrini hücumdan qorumaq mümkün olmayacaqdır. Buna görə də dağın zirvəsinə iki top çıxartdım. Bu zirvə mənim müşahidə məntəqəm idi. Tamamilə açıqda duran toplarımın atəşi hücum edən yapon piyada qoşununu geriyə oturtdu. Atışma səsini eşidən polkovnik Mehmandarov general Nadeinin yeraltı qazmasından çıxaraq yanıma gəldi. Mən tamamilə əmin idim ki, ehtiyatsızlığıma görə o həmişəki kimi indi də mənim abrımı alacaqdır, lakin bu dəfə vəziyyətlər yaxşı tanış olduqdan sonra dedi:

-Yaxşı eləmisiniz. Mən birinci batareyanın bir vzvodunun buraya gətirilməsinə əmr edərəm ( bu vaxta kimi həmin batareya aşağıda, nisbətən təhlükəsiz yerdə dururdu).

Mən xahiş etdim ki, topların yerini dəyişdirtməsin, ancaq yarımbatareyanın ikinci vzvodunu irəli çəkməyimə icazə versin.

-Mən özüm təkbaşıma onların öhdəsindən gələrəm,-dedim. O dərhal buna razılıq verdi.

-Doğru deyirsiniz, bu daha yaxşı olar».

Oktyabr ayının 13-14-də Şərq cəbhəsinin sol cinahında döyüşlər yenidən canlandı. Sonradan bu döyüşlər cəbhənin digər sahələrinə də yayıldı. Ə.Şıxlinskinin xatirələrində bu döyüşlərin gərginliyi və həmin günlərdə S.Mehmandarovla görüşməsi barədə də qeydlər vardır. Bu qeydlər həm dəj döyüşlərin nə dərəcədə gərgin getməsi üçün xarakterikdir:

«Oktyabrın 13-də mənim yerləşdiyim zirvə yenə də tüstülənməyə başladı Hər tərəfdən qranatlar yağır, başımızın üstündə şrapnellər partlayırdı. Bu atışma bir-neçə gün davam etdi. Yaponlar əlbətdə tək mənim mövqelərimi atəşə tutmamışdılar, onlar bütün şərq bölməsini (Şərq cəbhəsini-M.S.) başdan-başa atəş altında saxlayırdılar. Batareyanın üstündə 11 düməlikdən tutmuş 1,5 düyməlik (37 mm) xırda mərmilərə kimi hər cür mərmi yağırdı. Bundan əlavə Drakonovıy Xrebet dağının zirvəsində yerləşən düşmən piyadası bizi oradan pulemyot və tüfəng atəşinə tutrdu. Beləliklə mənim batareyam son dərəcə ağır bir vəziyyət içərisinə düşmüşdü. Yaponların atəşinin gücünü aşağıdakı misaldan görmək olar-Mən papağımı batareyanı gizlədən daş divarın üstünə qoymuşdum, beşcə dəqiqənin içində güllələr bu papağı deşik-deşik etdi.

Nəhayət hücum başlandı. Düşmən toplarının və bizim topların gurultusundan, düşmən mərmilərinin vıyıltısından qulaqlar batırdı. Adamlar hətta lap yaxından verdiyim komandnı belə eşitmirdilər. Buna görə də mən növbə ilə hər bir topun yanına gəlib onun hədəfini özüm düzəltməyə məcbur olurdum.

İkinci topun yanında partlayan 6 düyməlik yapon qranatı topun sol təpərini dağıtdı, qalın nişangahı parça-parça etdi,tuşlayıcı-topçu Arşinskinin qollarını və ayaqlarını apararaq onu bir anda öldürdü, Balaşevin başını və boynunu qopardı. Korbuşevin sol gözünün altına dəyən bir qəlpə onu ardınca yerəs sərdi. Pulemyot gülləsi ehtiyat tuşlayıcının başını dəldi. Bu yalnız bir topun xidmətçiləri idi.Məni isə ancaq qaynar bir hava bürüdü (mən oradaca durmuşdum).

Mənim yarımbatareyam bir-neçə saat bu cür ağır vəziyyətdə qaldı, lakin toplardan heç biri atəşini dayandırmadı. ancaq sınmış təkərini və parça-parça olmuş nişangahını dəyişdirmək lazım gəldiyi üçün ikinci top atəşini bir qədər dayandırdı və yarımca saatdan sonra yenə də atmağa başladı.

Birdən 3-cü istehkamın yanındakı təpədən həmin istehkam xəndəyinə xırdaca itlərin keçdiyini gördüm. Onların sayı hesabı yox idi. Bu qəribə hadisəyə diqqətlə baxdıqdan sonra müəyən etdim ki, yaponlar xalis torpaq rəngli örtü altında gizlənərək təpədən keçirlər.Örtü altında onların qara ayaqqabıları görünürdü. Toplarım dərhal həmin yeri vurmağa başladı və yaponların hərəkəti dayandı. Özlərini çatdırıb xəndəyin bu tayına aşmış olan yaponlar mənim atəşim altına, o biri hissəsi isə 3-cü istehkam toplarının atəşi altına düşdülər. Odur ki, səngərdən çıxıb əvvəlki yerlərinə çəkilməyə məcbur oldular.

Beləliklə, Sui-Şin kəndi yanında Drakonovıy Xrebet dağının zirvəsindən atılan yapon pulemyotlarının atəşi kəsildi. Axşam saat 5-ə yaxın yaponların hücumu dəf edildi.Düşmən toplarının da atəşi demək olar ki, tamamilə kəsildi.

Adamlarımıza istirahət verdik.

Yerləşdiyimiz təpədə baş verən hadisələri demə divizion rəisi seyr edirmiş, topçu hissəsi rəisi polkovnik Mehmandarov isə şəxsən mənim batareyama gəldi .O mənim tədbir və sərəncamlarımı bəyəndiyini söyləyib öz məntəqəsinə qayıtdı».

Oktyabr ayında Şərq cəbhəsinin komandanı general-mayor Qorbatovski təyin edildi. General Qorbatovski də cəbhə xəttinin müdafiəsində toplardan düzgün və səmərəli istifadə edilməsinə böyük əhəmityyət verirdi. Ona görə də o, Səməd bəy Mehmandarovun fəaliyyətinə xüsusi diqqət yetirirdi. General çalışırdı ki, piyada qoşunları ilə topçuların fəaliyyətini uzlaşdırsın və bununla da müdafiə imkanlarını daha da artırsın. Noyabr ayının 13-də yapon qüvvələrinin Şərq cəbhəsi üzərinə olan hücumu gərginliyinə görə ən ağır döyüşlərdən biri idi. Yaponlar göstərdiyi bütün səylərə baxmayaraq bu hücumla irəliləyə bilmədilər. Onlar çoxsaylı itki verərək geri çəkilməyə məcbur oldular.Yaponların müqavimətinin qırılmasında heç şübhəsiz ki, Səməd bəyin topçularının da böyük xidməti var idi. Port-Artur döyüşü haqqında «Oborona Port-Artura»(Sankt-Peterburq, 1910) iki cildlik samballı kitab yazmış Y.Romanovski və A.fon Şvars 13 noyabr döyüşlərində S.Mehmandarovun komandanlığı altında artilleriyanın çox səmərəli göstərdiyini yazırdılar: «Eyni zamanda polkovnik Mehmandarovun və podpolkovnik Stolnikovun müstəqimən rəhbərliyi altında olan qala toplarımız fəal surətdə düşmənə cavab verdi və onların batareyalarını, habelə ələ keçirdikləri istehkamları atəşə tutdu» (Adı çəkilən kitab, 2-ci cild, s.432).

Müəlliflər onu da təsdiq edirdilər ki, rus komandanlığı topların döyüşdəki rolunu daha düzgün qiymətləndirməyə başlamış və noyabr ayındakı döyüşlər zamanı onların gücündən daha səmərəli istifadə etməyə başlamışdı. Səməd bəy Mehmandarov da bütün məharətini və istedadını nümayiş etdirərək komandanlığı altında olan topların və topçuların daha səmərəli fəaliyyətinə nail olmuş və bununla da çox böyük sayda hücuma keçən yapon qüvvələrinin qarşısını saxlamaq mümkün olmuşdu. Yuxarıda adları çəkilən müəlliflər onu da qeyd edirlər ki, çox böyük arzularla bu hücuma başlamış yaponlar heç nəyə nail olmadıqda həddən artıq qəzəblənmiş və öz qəzəblərini uzaqvuran toplarla şəhəri atəşə tutmaqla sakitləşdirmişdilər.

Noyabr döyüşlərindən yazarkən P.Larenko öz kitabında Mehmandarovla bağlı başqa bir hadisəni xatırlayır: «Hələ avqust bombardmanı zamanı yaponlar hiss etmişdilər ki, haradansa , fortlar xəttinin arxasından onları çox sərrast atəşə tuturlar. Polkovnik Mehmandarovun komandanlığı altında 7-ci Şərqi Sibir divizionunun (yəni səhra artilleriyasının) Şərq cəbhəsinin hücuma məruz qalmış sahəsinin istehkamlar xəttinin arxasındakı örtülü yerdə mövqe tutmuşdu və müdafiə işinə çox böyük fayda verirdi. Belə ki, bombardmanın ilk günlərində qala toplarına böyük tələfat verilmişdi. Səhra artilleriyası ən şiddətli hücumların qarşısını alır və yaxınlıqda olan yapon batareyaları ilə kifayət qədər uğurla mübarizə aparırdı».

Noyabr ayının sonlarında Port-Arturu müdafiə edən qoşunların vəziyyəti xeyli ağırlaşdı. Canlı itkilərin əvəzinə köməyin gəlməməsi, sınqa xəstəliyinin artması şəxsi heyətin gücünü zəiflədirdi. Topçuların isə ehtiyatı tükənməkdə idi.

Mərmilər çox az sayda qalmışdı. Bu ehtiyat o qədər az idi ki, qarşı tərəfdə müşahidə edilən yaponlar atəşə tutlmurdular. Mərmilər yalnız yapon hücumlarının qarşısının alınması üçün saxlanılırdı. Belə vəziyyət şühhəsiz ki, Mehmandarovun komandanlığı altında olan artilleriyanın fəaliyyətinə ciddi əks-təsir göstərirdi. Rusiyadan gələ biləcək köməyə bağlanılan ümidlər isə günü-gündən puça çıxırdı.

Bunlar azmış kimi dekabrın 2-də qurudan müdafiə komandanı general-mayor Kondratenko həlak oldu.Port-Arturun müdafiəsinin təşkilində sonsuz enerji və zəhmət sərf edən bu insanın ölümü qoşun hissələrinin şəxsi heyətinin mənəvi əhval-ruhiyyəsinə olduqcapis təsir göstərdi. Onun ölümü ilə Port-Arturun müdafiəsinə bağlanan bütün ümidlər də qırıldı.

General Kondratenko ilə bərabər başqa 7 zabit də həlak olmuş, 7-si isə ağır yaralanmışdı. Bu hadisə Şərq cəbhəsi ərazisində, 2-ci fortun yaxınlığındakı istehkamların birində cəbhənin yüksək vəzifəli şəxslərinin müşavirəsi keçirilərkən baş vermişdi.Yapon mərmisi düz müşavirə keçirilən yerə düşmüşdü. Maraqlıdır ki, Şərq cəbhəsinin yüksək rütbəli və vəzifəli zabitlərindən biri kimi S.Mehmandarov bu müşavirədə olmamışdı.Bunun nə ilə bağlı olduğunu indi söyləmək çətindir. Ola bilsin ki, o, ciddi bir tapşırığın icrası ilə məşğul imiş.

P.Larenkonun general Kondratenkonun ölümünün əsgər və zabitlərdə yaratdığı təəssürat barədə belə yazırdı : «Kimsə belə bir söhbət açdı- General Kondratenkonun şəxsində biz kimi itirmişik? Bu sual çox canlı bir fikir mübadiləsinə səbəb oldu. Bütün təfərrüatlar götür-qoy edildi. Belə qərara alındı ki, Kondratenkonun bütün müdafiənin ruhu adlandırılması bəlkə də dəqiq olmazdı... O da qərara alındı ki, bu barədə mübahisə aparılmasın. Çünki burada müdafiənin çox mürəkkəb gedişinə müxtəlif mövqedən və müxtəlif nöqtədən yanaşmaq olar. Faktlarla razılaşmaq daha doğru olardı. Hamı razılaşdı ki, Kondratenko müdafiənin ən yaxşı komandanı idi.Onun ən yaxın köməkçisi isə sağda genearl Qorbatovski və polkovnik Mehmandarov, solda isə polkovniklər İrman və Tretyakov idlər...»

Kondratenkonun ölümündən sonra qalanın qurudan müdafiəsinin komandanı general-leytenant Fok təyin edildi. Bacarıqsızlığı ilə yaxşı tanınan bu generalın belə məsul vəzifəyə təyin edilməsi çəkilən bütün zəhmətləri səmərəsiz etdi və Port-Arturun təslim edilməsini daha da yaxınlaşdırdı.

Qalanın təslim edilməsi ərəfəsində əsas döyüşlər Şərq cəbhəsinin ərazisində, 2-ci və 3-cü fortlar istiqamətində baş verdi. Cəbhə komandanı general Qorbatovski dəfələrlə polkovnik Mhmandarovla birlikdə istehkamları, səngərləri gəzmiş, müdafiənin mümkün qədər möhkəmləndirilməsi imkanlarını nəzərdən keçirmişdilər.

Dekabr ayının 15-də kapitan Əliağa Şıxlinskinin olduğu 3-cü istehkam ətrafında şiddətli döyülər getdi. Y.Romanovski və A.fon Şvars adı çəkilən kitablarında bu döyüşü geniş təsvir etmişlər. Onlar yazırlar ki, bu istiqamətdə vəziyyət gərginləşdiyi anlarda cəbhənin bütün toplarının fəaliyyətinə polkovnik Mehmandarovla podpolkovnik Stolnikov şəxsən rəhbərlik edirdilər. Mehmandarov bu zaman Laperovski yüksəkliklərində idi. Həmin istiqamətdəki döyüşlər bir-neçə gün davam etdi. Bu istiqamətdə 3-cü fort yaponların əlinə keçdikdən sonra rus qoşunları komandanlığında müqavimətin davam etdirilməsinin mənasızlığı

qənaətinə gəlindi. Qurudan müdafiənin komandanı general Fok qala komendantı Stesselin bu mövqeyini müdafiə edirdi. Yəni əslində ən yuxarı komandanlıq canlarının qorxusundan müqaviməti dayandırmaq üçün yolla axtarırdı. Ancaq Stessel öz fikirlərini açıq şəkildə bildirməkdən çəkinirdi. O bilirdi ki, zabitlərin çoxu, o cümlədən Port-Arturun ətrafındakı döyüşlərdə göstərdiyi hünər və igidliklərə görə general-mayor rütbəsinə layiq görülmüş Mehmandarov da döyüşlərin davam etdirilməsinin tərəfdarı idilər. Ona görə də Stessel dekabrın 17-də hərbi şuranın iclasını çağırdı. Axşam saat 6-da çağırılmış iclasda polkovnik Reys, general Fokun yaxınları olan zabitlər birmənalı şəkildə bildirdilər ki, qalanı təslim etmək lazımdır. Bunu onlar onunla izah edirdilər ki, əsgərlər yorulub, mərmi ehtiyatı tükənib və buna görə də müdafiəni davam etdirmək mənasızdır.Ancaq general kondratenkonun komandir olduğu 7-ci diviziyanın zabitləri,istehkamçılar, dənizçilər qətiyyətlə bildirdilər ki, son nəfəsədək müqaviməti davam etdirmək lazımdır. Onlar bildirdilər ki, mərmi ehtiyatı hələ yaponların iki hücumunu da dayandırmağa bəs edər.P.Larenko öz xatirələrində yazırdı: «3-cü fortun alınması ilə bizim artilleriyanın vəziyyəti pisləşibmi?-sualına Mehmandarov cavab verdi ki, heç bir pisləşmə görmür və 3-cü fortun alınması artilleriya vəziyyətinə heç bir təsir göstərməmişdir».

«Oborona Port-artura 1904-1905» (Moskva, 1952) kitabının müəllifi A.İ.Sorokin də göstərir ki, adı çəkilən müşavirədə xüsusilə döyüş polkovnikləri Semiyonov və Mehmandarov ciddi cəhdlə müdafiənin davam etdirilməsinin tərəfdarı idilər.

Bu müşavirədə müqavimətin davam etdirilməsinin tərəfdarları üstün gəldilər və döyüşün hələlik davam etdirilməsi qərara alındı. Ancaq bu qərar bir-çox zabitləri, o cümlədən də general Foku qane etmirdi. Ona görə dekabrın 18-də general Fokla Mehmandarov arasında ciddi mübahisə baş verdi. Bu mübahisədə Fok Mehmandarovu inandırmağa çalışırdı ki, artıq qalanı qorumaq mümkün deyil. Mehmandarov isə bildirirdi ki, ayrı-ayrı müdafiə mövqelərinin itirilməsi heç də tam məğlubiyyət demək deyil. İkinci müdafiə xəttində hələ müqavimət göstərmək olar.

Həmin gün Mehmandarovun topçuları çox ağır bir döyüşdə iştirak etdilər. Onlar itirilmiş olan 3-cü fortu , habelə yaxınlaşmaqda olan yaponları çox güclü atəşə tutdular. Y.Romanovski və A.fon Şvars həmin döyüşü belə təsvir edirlər: «...Eyni zamanda polkovnik Mehmandarov bizim bütün batareyalarımıza əmr etdi ki, 3-cü istehkamın daxilini, 3-cü fortu və 3-cü istehkama yaxınlaşan yapon dəstələrini mükün qədər güclü atəşə tutsunlar. Ancaq düşmənin çoxsaylı toplarına Kurqan batareyasındakı və 4-cü fortdakı toplardan başqa yalnız 2 ədəd 6 düyməlik top cavab verə bildi. Onlardan biri Laperovski, o biri isə Zaredutnı batareyasında idi. Digər salamat toplar kiçik kalibrli idi. Ona görə bizim toplar düşmən tərəfdən böyük ziyan gördülər. Tezliklə bizim bir-neçə topumuz da sıradan çıxarıldı. Laperovski yüksəkliyində olan polkovnik Mehmandarov və podpolkovnik Stolnikov yaxınlıqda partlayan bombadan özlərini ayaqüstə saxlaya bilmədilər. Ancaq xoşbəxtlikdən onlar salamat qaldılar».

Dekabrın 19-da Şərq cəbhəsində olan »Bolşle orlinoe qnezdo» adlı

yüksəkliyin yaponlar tərəfindən ələ keçirilməsindən sonra general Stessel təslim olmağı qərara aldı. Sapbahısı gün, yəni dekabrın 20-də rus və yapon ordusunun nümayəndələri arasında danışıqlar aparıldı və rus ordusu  komandanlığı yaponların irəli sürdüyü bütün tələbləri qəbul etdilər. Kapitulyasiya şərtlərinə görə Port-Artur yaponlara təslim edilir və bütün əsgərlər əsir alınırdılar. Zabitlərə qarşı münasibətdə isə bir qədər fərqli tələb irəli sürülürdü. Port-Artur döyüşləri bitsə də Mancuriya ərazisində  rus və yapon ordularının döyüşləri davam edirdi. Yaponiya tərəfi qorxurdu ki, Port-Artur qarnizonundakı zabitlərin Mancuriyadakı rus ordusuna qoşulub yaponlara qarşı vuruşan hissələri qüvvətləndirə bilər.Ona görə də belə bir tələb irəli sürülürdü ki, gələcəkdə yaponiyaya qarşı vuruşmayacağı barədə yazılı razılıq verən zabitlər Rusiyaya buraxıla bilərlər. Belə bir ənədə qol çəkməyən  zabitlər isə əsir götürüləcəklər.

Bu tələb zabitlərin heç də hamısı tərəfindən birmənalı qarşılanmadı.General Stessel və onun ətrafındakılar bildirdilər ki, əsir düşməkdənsə Rusiyaya qayıtmaq, xidməti davam etdirmək və bununla da dövlətə fayda vermək yaxşıdır.Yaponlar da əslində bunu istəyirdilər. Belə bir addımı atmağa məcbur etməklə yaponlarrus əsgərləri ilə zabitləri arasında parçalanma yaratmaq və onları bir-birinə qarşı qoymaq istəyirdilər. Ancaq zabitlərin heç də hamısı belə bir mövqedə dayanmırdı.Mehmandarov kimi zabitlər  bir tərəfdən öz gələcək xidmətlərini yaponların diqtəsi altında qurmağı həqarət sayırdılar, digər tərəfdən dəartilleriya döyüşlərində əsas ağırlığı çəkmiş olan əsgərləri tək buraxmağı, onlardan ayrı düşməyi, onların həyatını italeyin ixtiyarına buraxmağı mənəviyyatlarına sığışdırmırdılar. Mehmandarov belə hesab edirdi ki, hər cürə sevinci birgə bölüşdükləri kimi,onlar hər cürə əziyyətləri də birgə bölüşməlidirlər. Bu proseslərin şahidi olmuş P.Larenko öz xatirələrində yazırdı ki,ikinci mövqenin tərəfdarları, başda Mehmandarov, Taxotelov olmaqla cavan topçular dayanırdılar və onlar alicənablıq hisslərini, cəngavərlik keyfiyyətlərini özlərinə əsas tuturdular: «Deyəsən topçular (zabitlər nəzərdə tutulur-M.S.) hamıdan qabaq əsir düşməyə razı olmuşdular və az qalahamılıqla aşağı çinlərlə bərabər Yaponiyaya getməyə hazırlaşırdılar. Onlar bunu əsas tuturdular ki,mühasirə vaxtı zabitlərdən daha çox əziyyət çəkmiş qarnizonu atmaq  belə ağır gündə nə düzgündür, nə də yoldaşlığa cavab verir».

Dekabrın 21-də qarnizon bütün müqavimətini dayandırdı.Dekabrın 23-də isə yaponlar şəhərə daxil olmağa başladılar. Həmin günlərdə Mehmandarov və onun topçuları hər şeyi təhvil verərək yaponlara təslim oldular. 7-ci Şərqi Sibir nişançı topçu divizionundan 544 əsgər və onlarla birlikdə 14 zabit də könüllü olaraq yaponlara əsir düşdülər. Bu zabitlərin arasında Səməd bəy Mehmandarov da var idi. Bir-çox cəsur zabitldər kimi Səməd bəyin Port-Artur epopeyası da yapon əsirliyində başa çatdı.Bu igid topçunun və komandanın Port-Artur  döyüşlərində göstərdiyi igidlik və istedad təkcə öz həmkarlarını deyil, hətta yaponları da valeh etmişdi. Bu barədə P.Larenkonun xatirələrndə maraqlı qeydlər mövcuddur: « S.mənə xəbər verdi ki,dünən yapon artilleriyasının rəisi qərargahı ilə birgə qalaya gəlmişdi və qalanın sağ cinahının artilleriya  rəisini,və həqiqətdə avqustun ortalarından orada artilleriyaya rəhbərlik edən polkovnik Mehmandarovu (mühasirə

zamanı general-mayor olmuşdu) axtarırdı. O cavab verdi ki, bəlkə möhtərəm qonaqlar səhv edirlər və ola bilsin ki, onlar qala artilleriyasının rəisi general Belını görmək istəyirlər. Ancaq yaponlar ona cavab verdilər ki, mübarizə aparılması çətin olan hörmətli düşmənləri ilə tanış olmaq onlar üçün daha maraqlıdır. Onun şəninə çoxlu xoş sözlər söylədilər. Etiraf etdilər ki, Port-Artur ətrafında yapon artilleriyasının itkiləri çox böyükldür- 25 minə qədərdir və yapon toplarının çoxu məhv edilmişdir və onların vəziyyəti Port-Arturda mərmi qıtlığı hiss olunanda yaxşılaşmışdı.

Qalanın təslim edilməsinin və iltizam verərək evə getməyin kəskin əlehdarlarından biri olan general Mehmandrov əsirliyə yollandı».

Port-Artur döyüşlərində göstərdiyi şücaətlərə görə Mehmandarov general rütbəsindən əlavə həm də Müqəddəs Georgi ordeninin 4-cü dərəcəsinə layiq görbldü. Ancaq P.Larenkonun yazdığına görə Port-Artur döyüşçülərinin çoxu Mehmandarovla bərabər heç bir xidməti olmayan zabitlərlə bir sıraya qoyulmasına təəccüb edirdilər. Çünki onlar Mehmandarovu bənzərsiz bir zabit hesab edirdilər.

Beləliklə, Mehmandarov öz topçuları ilə bərabər əsir düşməyi həqarətoli azadlıqdan üstün sayaraq yaponların hərbi əsirinə çevrildi. O digərləri ilə bərabər Naqaya şəhərinə gətirildi. Bir də 1905-ci ilin avqustunda Portsmut sülh müqaviləsi bağlandıqdan sonra Rusiyaya qayıtdı.

Mehmandarov Rusiyada öz həmkarları tərəfindən əsir kimi yox, Port-Artur döyüşlərində igidlik göstərmiş bir zabit kimi qarşılandı. Dərhal da fəal hərbi xidmət həyatına başladı. O öz taleyini başqa cür də təsəvvür edə bilmirdi. Savadı, təcrübəsi, peşəkarlığı ona daha məsuliyyətli vəzifələri icra etməyə imkan verirdi. Ona görə Mehmandarov daha yüksək vəzifəyə təyin olundu. O, təxminən iki il ərzində 75-ci topçu briqadasına komandirlik etdi. Sonradan bu briqada 7-ci Şərqi Sibir topçu briqadası adlandırılmışdı. 1917-ci ildə isə S.Mehmandarov 3-cü Sibir ordu korpusunun komandiri təyin edildi. Həmin vəzifəni üç il icra etdi və elə bu vəzifədə ikən 1908-ci il iyulun 13-də general-leytenant rütbəsinə layiq görüldü.

## Birinci dünya müharibəsi cəbhələrində

Birinci dünya müharibəsi ərəfəsində çalışdığı vəzifələrdə Səməd bəy Mehmandarov nəzəri və praktiki biliklərini xeyli artırdı. Mərhum polkovnik Ə.abbasov öz kitabında yazır ki, bu illərdə Mehmandarov öz vəzifələrini icra etməkdən əlavə həm də elmi-praktiki işlərlə məşğul olurdu. X1X əsrin sonu və XX əsrin əvvəllərində rus yapon müharibəsi Rusiyanın apardığı müharibələr içərisində artilleriyanın ən çox işləndiyi və döyüşdəki yeri daha çox görünən müharibələrdən idi. Port-Artur uğrunda gedən döyüşlər artilleriyanın işlədilməsi taktikasını, onun material hissəsinin təkmilləşdirilməsi barədə böyük dərslər vermişdi. Uzaq Şərqdə olan hisə və birləşmələrdə təşkil edilən zabit dərnəkləri bu təcrübənin toplanması, ümumiləşdirilməsi və tətbiqi üçün təkliflər hazırlayırdılar. Səməd bəy Mehmandarov da 3-cü Sibir ordu korpusunda təşkil edilmiş zabit dərnəyinə rəhbərlik edirdi. Mehmandarov Port-Artur döyüşlərində aldığı təcrübəni ümumiləşdirərək yayılmasında və xidmət zamanı nəzərə alınmasında zabitlərə

kömək edirdi. Bütünlükdə Birinci dünya müharibəsi ərəfəsində Port-Artur döyüşçüləri rus ordusunun keçmiş olduğu ən böyük praktiki dərs idi və onun təcrübəsinin ümumiləşdirilməsi qoşunların döyüş hazırlığının artırılması baxımından da böyük əhəmiyyət kəsb edirdi.

Port-Artur döyüşlərinin dərsləri təkcə hərbçiləri maraqlandırmırdı. Burada gözlənilməz məğlubiyyət bütün cəmiyyəti hərəkətə gətirmişdi. Genişlənməkdə olan bolşevizm hərəkatı bu məğlubiyyətdən çarizmə qarşı narazılığın genişlənməsində istifadə etməyə çalışırdısa, müəyyən qüvvələr də Port-Arturun təslim edilməsinin araşdırılmasını, onun məğlubiyyətində günahkar olan şəxslərin cəzalandırılmasını tələb edirdilər. Port-Arturun müdafiəsində iştirak etmiş Mehmandarov kimi prinsipial zabitlər də bu döyüşlərin nəticələrinin ciddi təhlil edilməsinin tərəfdarı idilər.Çünki onlar əmin idilər ki, Port-Arturun müdafiəsi strateji plandadüzgün təşkil edilsəydi həqarətli məğlubiyyət də onların qarşısına çıxmazdı.

1907-ci ildə Sankt-Peterburqda Port-Arturun məğlubiyyətində təqsirkar bilinən şəxslərin məhkəməsi oldu. Başqa zabitlər kimi Mehmandarov da şahid qismində bu məhkəməyə dəvət olundu və o öz ifadəsində Port-Arturun son anadək müdafiəsi üçün yuxarı komandanlıq tərəfindən buraxılmış səhvləri açıb göstərdi. Məhkəmə Port-Arturun müdafiəsinə rəhbərlik edən şəxsləri həqiqətən də bu şəhərin əldən verilməsində təqsirkar bildi və onları ciddi cəzalara məhkum etdi.

Əldə edilmiş praktiki təcrübə topçu qüvvələrinin strukturlarının da təkmilləşdirilməsi üçün istifadə edildi. 1910-cu ildən başlayaraq rus ordusunda aparılan shruktur dəyişiklikləri zamanı topçu briqadaları və əlahiddə topçu divizionları piyada diviziya və briqadaların tərkibinə verildi. Güman edilirdi ki, bu addımınq atılması piyada qüvvələrinin zərbə gücünü daha da artıra bilər.

Birinci dünya müharibəsi ərəfəsində Mehmandarovun təyin edildiyi başqa bir vəzifə 1-ci Qafqaz korpusunun topçu rəisi idi. O bu vəzifəyə 1910-cu il may ayının 24-də təyin edilmişdi. Burada Mehmandarovun çiyinlərinə daha ağır yük düşürdü. İndi o bütün korpusun artilleriyasının fəaliyyətinin təşkilinə rəhbərlik etməli idi. Korpusun tərkibində isə topçu qüvvələri çox idi.Hər piyada diviziyasında topçu briqadası, hər piyada briqadasında topçu divizionu, habelə digər yardımçı hissə və bölmələr var idi. Birinci dünya müharibəsi ərəfəsində rus ordusunun korpuslarında iki piyada diviziyası və ayrıca mortir-topçu divizionu var idi. Piyada diviziyasına daxil olan topçu briqadasında hər biri üç batareyadan ibarət olan iki divizion var idi. Hər batareyada da 8 top var idi. Mortir-topçu divizionu isə hər birində 6 top olan iki batareyadan ibarət idi. Korpusda 108 ədəd top var idi. Onlar da əsasən 76 mm-lik toplar idi. Bu toplar hamısı yüngül toplar idi. Ağır toplar yox idi. Mehmandarov artilleriyanın istifadəsində əldə edilmiş yeni taktiki bilikləri rəhbərliyi altında olan topçu hissələrinə tətbiq etməklə bərabər həm də topçu hissələri ilə piyada hissələrinin birgə səmərəli fəaliyyətinin təşkilinə nail olmalı idi. Bu isə böyük zəhmət tələb edirdi. Korpusun artilleriya qüdrətinin artırılması topçu hissələrinin maddi-texniki hissəsinin yaxşılaşdırılmasını tələb edirdi. Bu isə elə də ürəkaçan deyildi. Birinci dünya müharibəsi ərəfəsində rus

ordusunun topçu hissələri maddi-texniki təchizat baxımından qərb ölkələrindən geridə qalırdı.

Birinci dünya müharibəsi ərəfəsində korpusun sərəncamına ağır toplar da verilməyə başladı. Həmin topların miqdarı az olsa da onların öyrənilməsi və atəş imkanlarının digər topların atəş imkanları ilə əlaqələndirilməsi tələb olunurdu.

Mehmandarov bu topların korpusun zərbə qüdrətinin artırılması üçün böyük əhəmiyyətə malik olduğunu yaxşı anlayırdı və dərhal da onların öyrənilməsinə başlamışdı. Ağır topların tez və sürətlə öyrənilməsi baxımından Mehmandarovun xidmət etdiyi korpusda vəziyyət digər korpuslara nisbətən daha yaxşı idi. Bunu Ə.Şıxlinski də təsdiq edirdi. H.İbrahimbəyili kitabında Ə.Şıxlinskiyə istinadən belə yazırdı: « O zaman rus ordusunda yeni bir silah olan ağır səhra toplarının vəziyyətini yoxlamaq və bu sahədə fəaliyyətə istiqamət vermək üçün qərb cəbhəsinə çağrıldıqda mən yeddi korpusu gəzdim və müəyyən etdim ki, yalnız Mehmandarovun korpusunda ağır topların vəziyyəti düzgün başa düşülmüş və bu toplar həmin vəzifələrə uyğun yerləşdirilmişdir.Bu iş korpus top müfəttişinin təşəbbüsü nəticəsi deyil, mahir topçu olan Mehmandarovun şəxsi təşəbbüsü nəticəsi idi».

Ə.Şıxlinskinin bu qənaəti Mehmandarovun korpus komandiri olduğu vaxtlara aid idi. Ancaq Səməd bəy bütün vəzifələrdə topların müharibədəki yerini düzgün anlayır və onların atəş imkanlarından daha səmərəli istifadə edilməsi üçün qabaqcıl taktiki fikirlərin tətbiqinə çalışırdı.

Birinci dünya müharibəsi başlananda Səməd bəy Mehmandarov artıq piyada diviziyasının komandiri idi. Bu müharibə hərbi təcrübə baxımından Mehmandarovu həyatında silinməz səhifələr açdı. Dünya müharibəsinin siyasi mahiyyətinə varmadan sırf peşəkarlıqbaxımından yanaşılarsa Səməd bəy bir hərbçi kimi nəyə qadir olduğunu bu müharibənin gedişində sübut etdi. Mehmandarovun Birinci dünya müharibəsi illərindəki xidmət yolu barədə də hazırda kifayət qədər məlumat əldə olmasa da bir-sıra məqamlara diqqət yetirmək yaxşı olar. Əvvəla, S.Mehmandarovun akademiya təhsili yox idi. Buna baxmayaraq O, savadı, istedadı və bacarığı ilə çox yüksəklərdə dayanırdı. Mehmandarovun özü canlı bir akademiya sayılırdı və xidmət həyatına tələbkarlıqla yanaşan zabitlər həmişə ondan öyrənməyə çalışırdılar.Birinci dünya müharibəsi illərində göstərdiyi təşkilatçılıq qabiliyyəti də nümayiş etdirdi ki, Mehmandarovun istetadı onun təhsil səviyyəsi ilə deyil, komandirlik istedadı və duyumu ilə qiymətləndirilməlidir. Bu məsələ ilə bağlıH.İbrahimbəyli öz kitabında maraqlı qeydlər etmişdir: «Rəsmi akademik təhsili olmayan bir zabit yalnızböyük bacarıq sahəsində, ümumiyyətlə hərbi xidməti çox sevdiyinə, döyüşdə misilsiz qoçaqlıq və hərbi məharət göstərdiyinə, işinə can yandırdığına və son dərəcə təmiz adam olduğuna görə bu qədər böyük rütbə sahibi ola bilərdi. Mehmandarov məhz belə bir zabit idi. Əla səviyyəli topçu olan Mehmandarova rəsmi topçu akademik təhsili olan bir topçu,həmçinin görkəmli qoşun generalı olmaq etibariylə ona hər bir ərkani-hərb zabiti həsəd apara bilərdi».

Akademik təhsilini almaması heç də o demək deyildi ki, Mehmandarov təhsil almağa biganə yanaşırdı. Əsla yox. Sadəcə tale elə gətirmişdi ki,

akademiyada təhsil almaq ona qismət olmamışdı. Ancaq Mehmandarov həmişə öz biliklərini təkmilləşdirirdi, yeni elmi biliklərlə tanış olmağa, onları dərindən öyrənməyə çalışırdı. Elmi səviyyəsini təkmilləşdirməyi, daim öyrənməyi Mehmandarov hər bir zabit üçün vacib tələb hesab edirdi və bu tələb riayət etdiyi üçün idi ki, özü də yüksək biliklərə malik idi. Ona görə də Mehmandarov digərlərindən heç də geri qalmırdı.

Birinci dünya müharibəsi illərində Səməd bəy Mehmandarov tam artilleriya rütbəsinə layiq görülmüşdü. Qatı şovinizmin  mövcud olduğu və azərbaycanlıların etibar edilməiyi üçün xidmətə çağırılmadığı bir orduda azərbaycanlı hərbçi Səməd bəy Mehmandarovun tam artilleriya generalı rütbəsinə layiq görülməsi də onun istedad və şücaətinin  nümayişidir. Mehmandarov milliyyətcə qeyri-rus olmasaydı heç şübhəsiz ki, rus ordusunun ən yüksək rütbəsi olan general-feldmarşal rütbəsinə dəlayiq görülə bilərdi. Ancaq elə tam general rütbəsinə layiq görülməsi də onu göstərdi ki,  çar ordusu rəhbərliyi  onun komandanlıq istedadını, hərbçi məharətini qiymətləndirmək məcburiyyətində qalmışdı.

Nəhayət bir məqama da diqqət yetirmək lazımdır ki, Birinci dünya müharibəsi illərində Səməd bəy Mehmandarov sırf topçu vəzifəsində deyil, ümumqoşun komandanlığı vəzifələrində xidmət etmişdir. Əvvəlcə, 21-ci piyada diviziya komandiri, sonra operativ dəstə komandiri və nəhayət 2-ci Qafqaz korpusunun komandiri olmuşdur. Həmin vəzifələri də bacarıqla yerinə yetirdiyi üçündür ki, ona pillə-pillə daha məsuliyyətli vəzifələr tapşırılmışdı. Bu da Mehmandarovun komandanlıq məharətinin yeni bir tərəfi idi.

Birinci dünya müharibəsi cəbhəsində Mehmandarovun komandir olduğu 21-ci piyada diviziyasının iştirak etdiyi ağır əməliyyatlardan biri Varşava-İvanqorod əməliyyatı idi. H.İbrahimbəyl yazır ki, Lodz şəhəri ətrafında hərbi vəziyyətin xeyli mürəkkəb olmasına baxmayaraq Mehmandarov bu istiqamətdə almış olduğu tapşırığın icrasına bütün qüvvəsini səfərbər etdi. Mehmandarovun diviziyasının döyüşə qatılması və bütünlükdə qəbul edilən tədbirlər Lodz ətrafındakı döyüşlərin rus qoşunlarının uğuru ilə bitməsinə imkan vermişdi. Həmin uğurun əldə edilməsində Mehmandarovun diviziyasının öz rolu var idi.

Mehmandarovun diviziyası ilə iştirak etdiyi  digər əməliyyatlardan biri də 1914-cü ilin sentyabrında İvanqorod ətrafında aparılan əməliyyat idi. Bu əməliyyat barədə Ə.Abbasovun  Mehmandarov haqqında yazdığı kitabda daha əhatəli məlumat verilmişdir. Müəllif yazır ki,21-ci piyada diviziyası 3-cü Qafqaz korpusunun, həmin korpus isə 4-cü rus ordusunun tərkibinə daxil idi. İvanqorod ətrafındakı əməliyöyatda 3-cü Qafqaz korpusu 4-cü ordunun sağ cinahında olmaqla, rus qoşunlarının 9-cu ordusunun geri çəkilməsi zamanı təhlükəsizliyi təmin etməli idi. Əməliyyatın gedişində Mehmandarovun 21-ci diviziyası İvanqorodun cənubunda idi.Öz sahəsində diviziya geri çəkilməkdə olan qüvvələrin mühafizəsini lazımi şəkildə təmin etdi və sonra geri çəkilmiş olan 47-ci piyada diviziyasının yerini tutdu.

3-cü korpusun tərkibində operativ komandanlığın yüksək tələblərə cavab verməməsi, birləşmələr arasında əlaqələrn düzgün qurulmaması üzündən Mehmandarovun diviziyası heç də həmişə uğurlar qazanmırdı. Diviziyanın

mürəkkəb şəraitə düşdüyü, ağır itkilər verdiyi anlar da olmuşdu.Bununla belə Mehmandarovun çevik rəhbərliyi, hadisələri irəlicədən duyma qabiliyyəti ona heç də az uğur gətirməmişdi. Kozenitse ətrafındakı döyüşlərdə bir-sıra başqa diviziyaların hissələri də Mehmandarovun komandanlığı altına verilmişdi. Say tərkibi etibarilə Mehmandarovun komandanlığı altında olan qoşunların şəxsi heyətinin sayı az qala bir korpusun şəxsi heyətinin sayı qədər idi Mehmandarovun birləşməsinin də fəal iştirak etdiyi Kozenitse ətrafındakı əməliyyatda ru ordusu növbəti bir uğur əldə etdi.

Mehmandarov 1914-cü ilin sonuna kimi 21-ci piyada diviziyasının komandiri oldu. Həmin müddət ərzində diviziya başqa əməliyyatlarda da iştirak etdi.Bu zaman Mehmandarovun diviziyası ayrıca deyil,əsasən 3-cü korpusun tərkibində vəzifə icra edirdi. Ona görə də ümumi uğur çox zaman əməliyyatın aparılmasının ümumi təşkilindən asılı olurdu. Ancaq bu cəhət də Mehmandarovun hərbi keyfiyyətlərinin açılmasına amne olmurdu. Nəticədə isə Birinci düyna müharibəsi illərində də Mehmandarov elə kifayət qədər nüfuz qazanmışdı.

H.İbrahimbəyli Səməd bəy Mehmandarovun Birinci dünya müharibəsi illərindəki xidmət həyatı barədə belə yazır: «General Mehmandarov birinci imperialist müharibəsi zamanı olduqca şöhrət qazanmışdı...Vuruşmanın ən qorxulu dəqiqələrində onun misilsiz soyuqqanlığı və hədsiz qoçaqlığı rus ordusunda məşhur olmuşdu.

Bununla bərabər o olduqca ədalətli naçalnik, namuslu, düz danışan adamları sevərək onlara kömək göstərən, ürəyi düz olmayanlara, yaltaq və oğrulara qarşı amansız bir adam idi. Şəxsən Mehmandarovu görənlərin hamısı təsdiq edir ki, ona tabe olanlar Mehmandarovdan oddan qorxan kimi qorxar, lakin onu sevər, ona inanardılar. Mehmandarov əsgərlərlə həmişə xoş rəftar edərdi və daima onların qayğısına qalardı».

1914-cü ilin sonunda Mehmandarov 21-cit diviziyasının komandirliyini təhvil verdi. Sonra o daha məsuü bir vəzifəyə təyin edildi.Mehmandarova birləşmiş əməliyyat dəstəsinə rəhbərlik tapşırıldı. Çox güman ki,bu birləşmiş əməliyyat dəstəsi müvəqqəti olaraq müharibə dövrü üçün yaradılmışdı. Həmin dəstənin tərkibinə iki piyada diviziyası, iki briqada və iki piyada alayı daxil idi. Yəni bu dəstə öz həcminə görə korpusa yaxın olan bir birləşmə idi. Mehmandarovun əməliyyat birləşməsi 17-ci korpusla 3-cü Qafqaz korpusunun əməliyyat rayonunda fəaliyyət göstərirdi. Əməliyyat dəstəsinin və eləcə də Mehmandarovun 1915-ci ildəki xidmət yolu barədə Ə.Abbasov Səməd bəy haqqında yazdığı kitabında aşağıdakı qeydləri etmişdi: « Mehmandarovun dəstəsi qərb əcbhəsində yerləşmişdi, geri çəkilən korpusların təhlükəsizliyini təmin etmək üçün aryerqard döyüşlər aparanda düşmənin süvariləri ilə rastlaşdı. Birinci dünya müharibəsində quru qoşunlarının ən çevik növü süvari qoşunları idi.Süvarilər piyada qüvvələri üçün qorxulu bir qüvvə idi. Hücum,qarşılaşma hücumu, marşları yerinə yetirərkən süvarilərin fəaliyyəti daha təhlükəli xarakter alırdı. Çünki bu zaman hərəkətdə olan qoşunlar daldalanmadan hücuma keçir və heyrətedici bir zərbə vururdular. Eyni zamanda düşməni qorxu və çaşqınlıq içində qoyurdular. Süvarilərin hücumu zamanı piyadalırn müdafiə olunması heç də asan deyildi. Mehmandarov zabitləri,

piyadaları, topçuları və bütün tabeçilikdə olanları vaxtında süvarilərdən müdafiəyə öyrətmişdi. O öyrətmişdi ki, düşmənin süvarilərinin hücumu zamanı qoşunlar hamılıqla hücum olan tərəfə çevrilməli, birinci sıra yerə uzanmalı,ikinci sıra dizləri üstünə çökməli və sonrakı sıra isə ayaq üstə dayanıb süvarilərlə birgə atəş açmalıdırlar. Taqım, bölük və taborun belə çevik müdafiəsi, çoxmərtəbəli atəşi müdafiədə böyük səmərə verə bilərdi.

Mehmiandarovun hissələri və dəstələri aryerqard döyüşündə bu taktikanı işlətməli oldu. Rus piyadalarının sıraları qarşısında 9-cu alman ordusu kəşfiyyat qrupunun hərbi qulluqçularının ölüləri və yaralıları, atların isə meyitləri tökülüb qalmışdı».

Səməd bəy Mehmandarov qoşun hissələrinə təyyarələrdən gizlənmək taktikasını da öyrətmişdi. Bu da havadan gözlənilən təhlükənin qarşısını almağa imkan verirdi.

1915-ci ildə Səməd bəy Mehmandarov 2-ci Qafqaz korpusunun komandiri təyin edildi. Sonralar Səməd bəy şəxsi işində qeyd etmişdi ki, korpus komandirliyi çar ordusunda onun sonuncu vəzifəsi idi. Rus ordusunda korpus kifayət qədər böyük bir birləşmə idi. Onun tərkibinə iki piyada diviziyası, mortir-topçu divizionu, kazak alayı, istehkam taboru, teleqraf bölüyü, aviadəstə, mühəndis parkı daxil idi. Korpusun şəxsi heyəti 48 min nəfər idi.

Səməd bəy Mehmandarov haqqında ilk kitabın müəllifi Hacıağa İbrahimbəyli də bir vaxtlar ikinci Qafqaz korpusunun tərkibində xidmət etmişdi. Şəxsən özü ilə görüşə bilməsə də onun tələbkarlığı barədə çox eşitmiş, korpusda yaratdığı nizam-intizamla şəxsən tanış olmuşdu. H.İbrahimbəyli belə yazırdı: «Mehmandarovu mən əvvəldən şəxsən tanımırdım. 1915-ci ildə xidmət etdiyim süvari hissəsi müvəqqəti olaraq 2-ci Qafqaz ordu korpusuna verilmişdi. Bu korpusun komandanı topçu generalı Mehmandarov idi. Eyni bir ordu korpusunda xidmət etmək kimi əlverişli şəraitə baxmayaraq mən yenə Mehmandarovu görə bilməmişdim».

H.İbrahimbəyli sonra nəql edir ki, Mehmandarovla bir də hər ikisi rus ordusundan istefa verdikdən sonra, yəni 1918-ci ilin avqustunda görüşə bilmişdilər.

Birinci dünya müharibəsi illərində S.Mehmandarovla Ə.Şıxlinski tamam başqa-başqa birləşmələrdə olsalar da xidmət yollarının kəsişdiyi anlar da olmuşdu. Bu barədə Ə.Şıxlinskinin xatirələrində kiçik bir qeyd də vardır : «1916-cı ilin baharında Krevo qəsəbəsi xarabaları məntəqəsində alman mövnelərinə hücum etmək qərara alındı. Bu hücum əməliyyatı 4-cü orduya həvalə edilmişdi. Mən topçuların əməliyyat planını tərtib etmək və planı yerinə yetirmək məsələlərində ümumi rəhbərlik etmək üçün ora göndərilmişdim. Hücumda qabaqca iki böyük meşəni keçmək lazım idi. General Mehmandarovun komandir olduğu 2-ci Qafqaz korpusu məntəqəsində Boquşinsk meşəsi, general Tsurikovun komanda etdiyi 24-cü ordu korpusu önündə isə Pepeliçevsk meşəsi vardı. Boquşinsk meşəsinin sol talası düzbucaq halında Pepeliçevsk meşəsinin ön talasına doğru uzanmışdı. General Tsurikov təkidlə iddia edirdi ki, 2-ci Qafqaz korpusu Boquşinsk meşəsini tutmayınca 24-cü korpus irəliləyib Pepeliçevsk meşəsinə hücum edə bilməz.

General Mehmandarov isə başqa şey iddia edirdi. Boquşinsk meşəsi başdan-

başa tikanlı məftil ilə çəpərlənmişdir, onu hücumla tutmaq mükün deyildir. Buna görə də əvvəlcə bu meşəni top atəşilə dağıdıb almanları oradan qovmaq lazımdır; onun korpusu yalnız bu zaman oranı tuta bilər».

1917-ci ildə fevral inqilabının baş verməsi ilə Səməd bəy Mehmandarovun həyatının və xidmət yolunun böyük bir mərhələsi başa çatdı. O,rus ordusundan istefa verdi. Çar ordusunda xidmət etdiyi müddət ərzində Səməd bəy peşəkarlıq baxımından zəngin bir yol keçdi, sonsuz  təcrübə əldə etdi, tam general rütbəsinədən yüksəldi. Bu müddət ərzində o, Müqəddəs Georgi ordeninin 3-cü və 4-cü dərəcələri ilə, Stanislav ordeninin 1-ci, 2-ci və 3-cü dərəcələri ilə, Anna ordeninin 1,2 və 3-cü dərəcələri ilə, Vladimir ordenqinin 2,3 və 4-cü dərəcələri ilə, Ağ qartal və Aleksandr Nevski ordenləri ilə, habelə birilliantla bəzədilmiş qızıl silahla təltif edilmişdi.

Fevral inqilabı baş verəndə Səməd bəy Mehmandarov 61-ci yaşında idi. O hələxidmətini davam etdirə bilərdi. Lakin orduda baş verənlər Səməd bəyin əqidəsinə uyğun deyildi. Hakimiyyətə gəlmək istəyən qüvvələr ordu daxilinə nüfuz edərək onu siyasi oyuncağa çevirir və bununla da ordunu daxildən parçalayırdılar. Əslində çar Rusiyasının yıxılmasının əsas əsbəblərindən biri ordunun siyasiləşməsi, onun öz müstəqim vəzifəsini bir tərəfə qoyaraq siyasətə qurşanması olmuşdu. Bu o demək deyil ki, Səməd bəy cani dildən çarizm üsuli - idarəsinə bağlı idi. Yox! Səməd bəy bütün varlığı ilə hərbçi idi və bir peşəkar hərbçi kimi ordunun siyasiləşməsinə qarşı barışmaz mövqe tuturdu. Cümhuriyyət ordusunun hərbi naziri olarkən də belə meylə qarşı qətiyyətli mübarizə aparırdı. Rejimin çürüməsini, yaşayışın ağırlaşmasının, dövrün özünəməxsus tələblərinin və s. məqamların olmasına baxmayaraq Səməd bəy Mehmandarov ordunun siyasiləşməsi ilə razılaşa bilmirdi. O bununla barışa bilmirdi ki, komandirin verdiyi əmr aşağılarda müzakirə olunur, yerinə yetirilməsi əvəzinə onun məqsədəuyğun olub-olmaması araşdırılır, siyasi baxımdan dəyərləndirilir. Səməd bəy bununla razılaşa bilmirdi ki, bir vaxtlar bir hərbçi kimi heç nəyə yaramadığını nümayiş etdirən şəxslər yeni şəraitdə siyasi liderlərə çevrilirlər və ağır yaşayış şəraitindən istifadə edərək ətrafına cəlb edə bildiyi əsgərlər zabitlərin  üzünə ağ olurlar. Mehanmadarov kimi  komandirlər orduda güclənməkdə olan belə siyasi qüvvələri təmin etmirdi və ona görə də ona siyasi etimadsızlıq göstərildi. Beləliklə yeni şəraitlə razılaşa bilməyən Mehmandarov istefaya çıxmağı üstün tutdu.

İstefaya çıxdıqdan sonra Səməd bəy Mehmandarov Vladiqafqazda yaşayırdı. Ancaq dinc həyat onun üçün xarakterik deyildi. Səməd bəy yaralı hərbçilərə kömək üçün təşkil edilmiş Aleksandr komitəsinin üzvü idi. O, yaralılara mümkün köməyi göstərməyi özünün insani və vətəndaşlıq borcu sayırdı. Lakin tezliklə bolşevik quruluşu Vladiqafqazı da ağuşuna aldı. Onda S.Mehmandarov buradan da köçüb vətəni Azərbaycana gəlməyi qərara aldı.

H.İbrahimbəyli öz kitabının sonunda Səməd bəy Mehmandarovun Azərbaycana qayıtması ilə bağlı belə bir  hadisəni təsvir etmişdir: «Tbilisi vağzalında duran Batumi-Bakı qatarı yola düşməyə hazır idi. Vaqon xidmətçisi mənə iki adamlıq kupedə yer verdi. Bu yerlərin biri tutulmuşdu: buraya kiçik bir çamadan, bir yorğan-döşək bağlısı və bir boz general plaşı qoyulmuşdu.

Qatarın yola düşməsinə 20 dəqiqə qalmışdı. Mən perrona çıxdım. Birinci sinif vaqonunun qabağında bir ortaboylu, ağsaqqallı kişi durmuşdu. Bu kişi general paltarında idi və boynundan Georgi xaç nişanı asılmışdı. Bir qədər yan qoyulan papağının alıtndan ağ saçı görünürdü. Mən salam verib generalın 10-12 addımlığında dayanaraq qatarın yola düşməsini gözləyirdim.Bu adam general Mehmandarov idi.

Mehmandarov mənə yaxınlaşıb çox nəzakətlə soruşdu: «Rotmistr, görünür siz vaqonda yer tapa bilməmişsiniz...Mənim kupemdə bir boş yer vardır». Mən generala rəsmi-təzim edib cavab verdim: «Yox, general həzrətləri, mənim yerim vadır, özü də sizin kupenizdədir». O, cavabında: «Aha, yaxşı oldu, mən çox şadam»-dedi. Bu zaman ikinci zəng vuruldu. General Mehmandarovla vaqona daxil olduq.

Mehmandarov çox söhbətcil və çox yaxşı yol yoldaşı imiş. O mənimlə bəzən rusca, bəzən azərbaycanca danışırdı. O ahəstə-ahəstə danışırdı, hər sözünü ölçüb-biçirdi, fikrini sadə və düzgün ifadə edirdi. Onun danışıq tərzi, səsi sakit və qəti tonu, özünü sərbəst hiss etməsi göstərirdi ki, bu adam uzun və maraqlı həyat sürmüş, böyük vəzifə sahibi olmuş, şanlı igid əsgər həyatı keçmişdir. Mehmandarov yolda mənə bir-çox maraqlı və faydalı şeylər danışdı.

Mehmandarovun söhbətindən məlum oldu ki, o, 1917-ci ilin fevral inqilabından sonra hərbi qulluqdan çıxıb Vladiqafqaz şəhərində dinc həyat sürməyə başlayıbmış. O burada yaralılara kömək edən Aleksandr komitəsinin üzvü imiş. 1918-ci il avqust ayının əvvəllərində Şimali Qafqazda sovet hakimiyyəti qurulduqdan sonra bu komitə ləğv edilmiş və Mehmandarov da hərbi Gürcüstan yolu ilə Tbilisiyə gəlmişdi. O indi buradan Azərbaycana qayıdırdı».

Beləliklə, uzun ayrılıqdan sonra Səməd bəy Mehmandarov vətəni Azərbaycana qayıdırdı. Ömrünün ixtiyar və müdrik yaşlarında onu burada şərəfli , həm də sınaq dolu bir həyat gözləyirdi.

## CÜMHURİYYƏTİN HƏRBİ NAZİRİ

Səməd bəy Mehmandarov Azərbaycana qayıdanda ölkədə çox mürəkkəb ictimai, siyasi və hərbi şərait mövcud idi. Bakının azad edilməsi uğrunda aparılan döyüşlər yenicə üaşa çatmışdı. Respublika hökuməti təzəcə Bakı şəhərinə yığışmışdı. Ağır müharibənin izləri bütün sahələrdə hiss olunurdu. İqtisadiyyat bərbad şəkildə idi, digər bütün sahələr də yenidən dirçəldilməli və xalqın mənafelərinə cavab verəcək səviyyəyə çatdırılmalı idi. Dövlət siyasi idarəetmə sistemində də bir boşluq qalmaqda davam edirdi. Milli Şura buraxıldıqdan sonra Azərbaycan hökuməti həm qanunvericilik, həm də icra funksiyalarını öz üzərinə götürmüşdü. Ölkənin ərazi bütüölüyünə mövcud olan təhdidlər isə heç də tamamilə aradan qalxmamışdı. Zəngəzur və Qarabağda, habelə ölkənin cənubunda separatçı qüvvələr Azərbaycanın dövlət müstəqilliyini heç bir vəchlə tanımaq istəmirdilər. Birinci dünya müharibəsinin nəticələrinə əsasən tükr qoşunları Azərbaycan tərk etdikdən sonra isə Azərbaycan hökuməti ictimai, siyasi və iqtisadi sahələrdə olduğu kimi hərbi sahədə də qarşıda dayanan vəzifələri müstəqil

şəkildə həll etmək tələbi qarşısında qalmışdı. Azərbaycanın ərazi bütövlüyünü qoruyacaq, onun daxilində asayişi təmin edəcək ordusu isə yox idi. Türk zabitlərinin rəhbərliyi altında qurulan ordu isə zəruri döyüş keyfiyyətlərindən uzaq idi. Bunun həm obyektiv, həm də subyektis səbəbləri var idi. Obyektiv tərəf onunla bağlı idi ki, Azərbaycan istiqlaliyyətini elan etdiyi gündən müharibə içərisində idi. Bu müharibə böyük xərclər tələb etdiyi kimi, qoşun hissələrinin formalaşmasına da imkan vermirdi. Digər tərəfdən Azərbaycan ərazisində olan türk qoşunlarının iaşəsi Azərbaycan tərəfindən ödənirdi. Belə bir vaxtda Azərbaycanın öz milli qoşun hissələrinin sıralarının genişləndirməsi də imkan xaricində idi. Heç mövcud olan qoşun hissələri də lazımi şəkildə yeməklə, paltarla, silah və sursatla təmin edilməmişdi.

Milli qoşun hissələrinin formalaşdırılması çətinliyinin subyektiv tərəfi isə daha çox bu prosesə rəhbərlik edən türk zabitlərinin yol verdiyi nöqsanlarla bağlı idi. Qeyd etmək lazımdır ki, maddi ehtiyac türk qoşunlarının özündə də mövcud idi və bu sahədə onlardan əlavə bir şey gözləmək, ya milli qoşun hissələrinin maddi ehtiyaclarının ödənilməsində yalnız onları günahlandırmaq ədalətsizlik olardı. Eyni zamanda yol verilən nöqsanların türk qoşunları komandanlığı tərəfindən həyata keçirilən məqsədyönlü siyasətin nəticəsi kimi qiymətləndirmək kimi də doğru olmazdı. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsində, Azərbaycan xalqının kütləvi qırğınlardan xilas edilməsində türk qoşunlarının ölçüyəgəlməz xidmətləri var idi. Hətta türk qoşunları Azərbaycanı tərk etmək məcburiyyəti ilə üzləşəndə də türk hərbçiləri kütləvi şəkildə Azərbaycanda qalıb Azərbaycan xalqına xidmət etmək arzularını bildirdilər. Ancaq müttəfiq dövlətlər buna imkan vermədi. Bununla belə bir-sıra türk zabitlərinin tutduqları prinsipsiz mövqe heç də ordu quruculuğunun səmərəliliyini şərtləndirmirdi. Belələrindən bəziləri Azərbaycanın milli qoşun hissələrinin formalaşdırılmasında eynilə türk təcrübəsinin tətbiq edilməsini zəruri sayırdılar. Bunun üçün milli qoşun hissələrini türk bölmələrinin bazasında yaradır, hissə komandirliyinə ancaq türk zabitləri təyin edilir, təlim-tərbiyə də türk ordusu təlimatları üzərinə qurulurdu. Bir-sıra zabitlər isə qəsdən, ya qeyri-qəsdən rüşvət alırdılar, varlıların övladlarını çağırışdan azad edirdilər. Xidmət daxili rejimin ağırlığı və mövcud olan haqsızlıqlar isə xalqı ordudan daha da uzaqlaşdırırdı. Bütün bunları Azərbaycan hökumətinin rəhbərliyi də görürdü. Ancaq nə qədər ki, türk qoşunları Azərbaycanda idi hökumət türk qoşunlarının iradəsi ilə razılaşmalı olurdu. Ola bilsin ki, türk qoşunlarına bağlanılan arxayınçılıq da hökumətin milli qoşun hissələrinin formalaşdırılmasını ciddi nəzarət altına almağa imkan vermirdi və bu proses əsasən türk zabitlərinə etibar edilmişdi. Lakin elə 1918-ci ilin oktyabr ayında Birinci dünya müharibəsi cəbhəsində Türkiyənin vəziyyəti pisləşməyə başlayanda Azərbaycan hökuməti də ordu quruculuğu ilə bağlı daha ciddi şəkildə düşünməyə başladı. Bunun nəticəsi idi ki, oktyabr ayının sonlarına yaxın , hələ Mudros sülh müqaviləsi bağlanmamışdan əvvəl Azərbaycan hökuməti öz iclaslarının birində Hərbi Nazirliyin yenidən yaradılmasını məqsədəuyğun bildi. Bu vaxt Səməd bəy də artıq Bakıda idi və mövcud olan məlumatlara görə hökumət orqanlarında fəaliyyətə başlamışdı. O, aldığı təqaüdlə sərbəst yaşaya da bilərdi. Lakin Səməd

bəy sakit həyata öyrənməmişdi və öz təcrübəsi, biliyi ilə müstəqil Azərbaycana xidmət etmək istəyirdi. Bu vaxt onunla hökumət rəhbərliyinin arasında hansı münasibətlərin formalaşdığını söyləmək çətindir. Ancaq heç şübhəsiz ki, Səməd bəyin adı-sanı, təcrübəsi, işgüzarlığı hökumət rəhbərliyinə yaxşı məlum idi və elə ona görədir ki, Hərbi Nazirliyin yaradılması qərara alınan kimi Səməd bəy Mehmandarov dərhal onun rəhbərliyinə cəlb edildi. Bu barədə hökumət qərarı 1918-ci il noyabr ayının 1-də qəbul edildi. Həmin qərarda deyilirdi: « Respublika hökuməti yanınd Hərbi Nazirlik təsis edilsin. Nazir portfeli Nazirlər Şurasının sədrinə təqdim edilsin. Ona müavin isə S.S.Mehmandarov təyin edilsin».

Bu qərarda iki məqam diqqəti özünə cəlb edir. Birinci məqam onunla bağlıdır ki, hərbi nazir vəzifəsini hökumətin sədri, yəni Fətəli xan Xoyski öz üzərinə götürmüşdü. Bu cəhət heç şübəsiz ki, ordunun müstəqil Azərbaycanın dövlət quruculuğunda tuta biləcəyi yerdən və onun tamamilə hökumətin nəzarəti altında olması zərurətindən irəli gəlirdi. Lakin müəyyən vaxtdan keçdikdən və Səməd bəy Mehmandarovun müstəqil Azərbaycan dövlətçiliyinə olan sonsuz sədaqəti aydın olandan sonra nazir vəzifəsi ona həvalə edildi. Hökumət qərarının diqqəti cəlb edən digər bir məqamı isə nazir müavini vəzifəsinə Səməd bəyin təyin edilməsi idi. Məlumdur ki, bu vaxt Azərbaycan korpusu, bu korpusun komandanlığı, orada xidmət edən yüksək rütbəli zabitləri var idi. Bununla belə hökumət hərbi nazirin müavini vəzifəsinə məhz Səməd bəyi təyin etdi. Bu cəhət heç də Azərbaycan korpusu rəhbərliyinin bilik və təcrübəsinin, Azərbaycanın müstəqilliyinə sədaqətinin şübhə altına alınması kimi deyil, sadəcə Səməd bəyin peşəkarlığının çox incəliklə qiymətləndirilməsi kimi qəbul edilməlidir. Tarix də göstərdi ki, orduya rəhbərliyin S.Mehmandarova tapşırılması yeganə düzgün seçim idi.

Səməd bəy Mehmandarov nazir müavini təyin edilsə də ona çox böyük səlahiyyətlər verilmişdi. Nazirliyin formalaşdırılması ona tapşırılmışdı. Nazirlik üzrə verilən əmrləri də o imzalayırdı. Buna görə də onun üzərinə çox ciddi bir vəzifə qoyulmuşdu. Səməd bəy demək olar ki, özüldən Cümhuriyyət ordusunun formalaşdırılmasına başlamalı idi. Mövcud olan hissə və bölmələr elə bir vəziyyətdə idilər ki, onlar ən adi döyüş tələblərinə cavab vermirdi. Həmin hissələrdəki vəziyyət də dəyişdiriilərək sağlamlaşdırılmalı və bununla da onların yenidən qurulması aparılmalı idi. Səməd bəy hər şeydən əvvəl sonsuz sayda məsələlərin həllinin ümumi istiqamətlərini müəyyənləşdirməli, ordu quruculuğunun səmərəliliyinə imkan verən düzgün taktiki proqram qurmalı və rəhbərlik etdiyi prosesi bütünlükdə cəmiyyət quruculuğu ilə dəqiqliklə əlaqələndirilməli idi. Ordunun idarəetmə orqanlarının təşkili, qoşunların strukturu, kəmiyyət və keyfiyyət göstəriciləri maddi-texniki təchizatı, kadr və çağırış işinin təşkili, döyüş əməliyyatını aparılması və onlarca, yüzlərcə digər ümumdövlət əhəmiyyətli məsələlərin həlli heç də asan deyildi. Başlıcası isə burada eksperimentlər keçirmək, alternativ variantları izləmək üçün vaxt yox idi. Cümhuriyyət ordusu qısa zaman ərzində yaradılmalı və ona həvalə olunan vəzifələri icra etməyə qadir olmalı idi. Aradan neçə on illiklər keçəndən sonra Cümhuriyyət ordusunun tarixi ilə qısa tanışlıq belə göstərir ki, Səməd bəy kimi

təfəkkür sahibi olmasaydı həmin vəzifələrin öhdəsindən gəlmək də olmazdı. Yəni, Səməd bəy Mehmandarov Cümhuriyyət ordusunun bəxtinə və qismətinə düşmüş bir şəxs idi və bu tale qismətindən həm Cümhuriyyət ordusunun tarixinə, həm də Səməd bəyin həyatına çox dəyərli səhifələr yazıldı.

Səməd bəy Mehmandarov Hərbi Nazirlik üzrə 1 nömrəli əmrini 1918-ci il noyabr ayının 7-də imzaladı. Həmin əmri Səməd bəyin gələcək fəaliyyətinin ümumi istiqamətinin ifadəsi kimi də dəyərləndirmək mümkündür. Burada ordu quruculuğu üçün qarşıda dayanan əsaslı vəzifələrin və həmin vəzifələrə qarşı göstərilməli olan münasibət öz əksini tapmışdı. Səməd bəy gizlətmirdi ki, ona tapşırılan vəzifə çox ağır və məsuliyyətlidir. Lakin Səməd bəy onu da gizlətmirdi ki, ölkənin mənafelərinin keşiyində duracaq güclü ordu yaradılmalıdır və bunun üçün lazım olan imkanları da tapmaq mümkündür:

«Azərbaycan Respublikası Nazirlər Şurasının qərarı ilə mən hərbi nazirin müavini təyin edilmişəm ki, bu barədə Hərbi Nazirliyə elan edirəm. Vəzifələrimin icrasına başlarkən mənim görməli olduğum o böyük işin bütün ciddiliyini, mürəkkəbliyini və çətinliyini yaxşı anlayıram. Ancaq bu iş görülməlidir və Hərbi Nazirliyin qarşısına çıxan bütün çətinlikləri birgə səmimi fəaliyyət və vəzifəyə təmiz münasibət bəslənildiyi halda aradan qaldırmaq mümkündür.

Döyüşən ordunun yaradılmasının uğuru bütünlükdə bu işin düzgün qurulmasından asılıdır. Hamını birgə, səmimi fəaliyyətə dəvət etməklə mən bütün səviyyələrdə olan rəislərin əsas diqqətini qoşunlarda təlim və tərbiyəyə, onlarda möhkəm intizamın aşılanmasına, işə məsuliyyət və məhəbbət hisslərinin, xidməti mülkiyyətə marağın oyadılmasına, qanun-qaydaya riayət edilməsinə və nəhayət, tabeçilikdə olanlara qayğıkeş və mehriban münasibət göstərilməsinə çağırıram. Yalnız bu keyfiyyətlərin varlığı ordunun yaradılmasını, gənc respublika tərəfindən ona böyük xərclər çəkilməsini doğrulda bilər və belə bir ordunun yaradılması üçün mən heç bir çətinlikdən çəkinməyəcəyəm. Qoşunların bütün təminat və təchizatının vaxtında ödənməsi mənim daimi diqqətim altında olacaqdır».

S.Mehmandarov özünün Hərbi Nazirlik üzrə ikinci əmrini isə təxminən bir həftə sonra, yəni 1918-ci il noyabr ayının 15-də imzaladı. Bu əmrlə Nazirliyin bir-sıra strukturlarının yaradıldığı və onlara rəhbərlik edəcək şəxslərin təyin edildiyi bəyan olunurdu. Yeni ordunun formalaşdırılması üçün ilk növbədə bu prosesə rəhbərlik edəcək orqanlar təşkil edilməli idi. Azərbaycanda Hərbi Nazirlik olmadığından bu qurumun bütünlüklə yenidən təşkilinə başlanmalı və ən təcrübəli zabitlər də bu qurumun canlandırılmasına cəlb edilməli idi.

Lakin qarşıya çıxan çətinliklər biri-digərini əvəz edirdi. 1918-ci il noyabr ayının 17-də Bakıya daxil olan ingilis qoşunları komandanı general Tomson Azərbaycanın milli qoşun hissələrinin və eləcə də Hərbi Nazirliyin ölkənin paytaxtından çıxarılmasını tələb etdi. Tomson Bakını tamamilə öz nəzarəti altında saxlamaq istəyirdi və buna görə də milli qoşun hissələrinin bu işə maneçilik törədə biləcəyini güman edərək onların Bakıda qalması ilə razı deyildi. Azərbaycan hökuməti bu tələbə riayət etmək məcburiyyətində qaldı və ona görə Hərbi Nazirlik noyabr ayının 22-də Gəncə şəhərinə köçürüldü. Bütün hökumət orqanları Bakıda yerləşdiyi halda Hərbi Nazirliyin Gəncədə yerləşməsi nəqliyyatın

və rabitənin kifayət qədər inkişaf etmədiyi bir vaxtda gündəlik ortaya çıxan məsələlərin həllini sözsüz ki, daha da çətinləşdirirdi. Buna baxmayaraq Səməd bəy Mehmandarov ruhdan düşmədi və bütün gücünü toplayaraq daha böyük enerji ilə fəaliyyətini davam etdirdi. Onun təşkilatçılıq qabiliyyəti ortaya çıxan çətinliklərin həllini tapmağa imkan verdi. Səməd bəy eyni zamanda bütün zabitləri yaradıcı xidmətə cəlb edə bildi və onların işgüzarlığına nail oldu.

Nazirliyin qərargahı Gəncədə yerbəyer olduqdan sonra Səməd bəy mövcud olan hissələrin vəziyyətini yoxlamağa başladı. Noyabr ayının 27-də o, 1-ci Tatar süvari alayında, dekabrın 2-də 2-ci Qarabağ süvari alayında, dekabrın 3-də Ağdamda yerləşən qərargah komandasında, 4-cü dağ batareyasında və 5-cit dağ divizionunda oldu. Yoxlama keçirdiyi hissə və bölmələr arasında 2-ci Qarabağ süvari alayının və 4-cü dağ batareyasının vəziyyəti Səməd bəy ümumən qane etdi. Digərləri isə onda qeyri-qənaətbəxş təəssürat yaratdı. Gəncəyə qayıtjıqdan sonra Səməd bəy müşahidə etdiklərini ümumiləşdirərək dekabrın 5-də müfəssəl bir əmr imzaladı. Həmin əmrlə Səməd bəy gördüklərini ordunun bütün hissə və bölmə komandirlərinə çatdırırdı ki, öz hissələrində həmin nöqsanların aradan qaldırılması üçün zəruri tədbirlər görsünlər. Bu hissələrdə gördüyü çatışmazlıq ümumən bütün Azərbaycan ordusu üçün xarakterik idi. Yəni, qoşun hissələri yaxşı yerləşdirilməmişdi, onların məişət şəraiti zəruri tələblərə cavab vermirdi, binalar, yatacaq əşyaları çatışmırdı, pal-paltar cəhətdən acınacaqlı vəziyyət yaranmışdı, verilən yeməyin keyfiyyəti ən adi tələblərə cavab vermirdi, şəxsi heyətlə təlim-tərbiyə təşkil edilməmişdi, fərarilik günü-gündən artırdı, onların qaytarılması üçün təsirli tədbirlər həyata keçirilmirdi. Bir sözlə xidmətin təşkili çox aşağı səviyyədə idi. Bütün bunlara milli zabit kadrlarının çatışmaması, çağırış işinin səmərəli təşkil edilməməsi kimi ciddi problemlər də əlavə edilməli idi.

1918-ci il dekabr ayının 5-də imzaladığı əmrin sonunda Səməd bəy yazırdı: «1-ci diviziyanın digər adamlarını mən görə bilmədim. Mənə vəd edilmiş 7-8 min öyrədilmiş( təlim keçmiş-M.S.) adamlar yerinə Bərdədən Şuşaya qədər müxtəlif məntəqələrə səpələnmiş 800 adam var idi. Diviziya komandirinin məruzəsinə əsasən bu adamların çoxu da yedizdirilməmiş və geyindirilməmişdi. Demək olar ki, onların hamısı təlim keçməmişdilər. Əmr edirəm ki,dərhal bütün adamlar iki taborda birləşdirilsin. Onlardan biri Ağdamda, digəri isə Şuşada yerləşdirilsin. Hacıqabul, Zaqatala və Qazaxdakı adamların sayı hələlik məlum deyil. Diviziya komandiri dərhal adamların sayı haqqında dəqiq məlumat toplasın və mənə məlumat versin.

Əsgərlər geyindirilmədiyi və yeməklərinə heç bir diqqət yetrilmədiyi üçün hissələr daxilində fərarilik yayılmışdır. Mən fikirləşirəm və ümid edirəm ki, əsgərə qayğı göstərilsə, isti geyindirilsə və yaxşı yöedizdirilsə fərarilərin sayı kəskin şəkildə azalacaqdır. Bundan başqa əmr edirəm ki, yerli orqanlar tərəfindən onların tutulması, həbsxanaya alınması və müharibə dövrünün qanunları əsasında onların məhkəmə tərəfindən məhkum edilməsi üçün tədbirlər görülsün».

Səməd bəy Mehmandarovun toxunduğu problemlərin hər biri çox cidi problem idi və onların hər birinin həlli çox böyük maddi ehtiyatları və böyük təşkilatçılıq işini tələb edirdi. Yəni, ordu quruculuğunda elə bir məsələ yox idi ki,

bu və ya digər şəkildə sistem halına salınmış olsun. Burada hər şey yenidən və çox incəliklə qurulmalı idi.

S.Mehmandarovun yuxarıdakı əmrindən görünür ki, Hərbi Nazirlik yarananda ona 7-8 min nəfərlik ordunun olduğu bildirilmişdi. Ancaq elə Qarabağ bölgəsindəki bir-neçə hissə ilə tanışlıq milli qoşun hissələrindəki şəxsi heyətin ümumi sayının həddən artıq az olduğunu nümayiş etdirmişdi. Orduya türk rəhbərliyindən Azərbaycan rəhbərliyinə keçidin tələb etdiyi vaxt ərzində bir-sıra zabitlər isə hissələrin əmlakını mənimsəməyə, ciddi nəzarətin olmamasından istifadə edərək onları talamağa çalışırdılar. Qoşunlarla tanışlıq zamanı Səməd bəy bu xoşagəlməz hadisənin şahidi olmuşdu. Bu halın və bütünlüklə orduda mövcud olan nöqsanların aradan qaldırılması üçün Səməd bəy Mehmandarov bir-sıra mühüm qərarlar qəbul etdi, əlaqədar şəxslər qarşısında ciddi vəzifələr qoydu. Məsələn, 1918-ci il dekabr ayının 8-də imzalanmış əmr hissələrin əmlakının dağıdılmasının qarşısının alınması ilə bağlı idi. Səməd bəy bu əmrdə bütün komandirlərdən və rəislərdən tələb edirdi ki, zabitlər tərəfindən hər hansı bir əmlakın mənimsənilməsi dərhal ona məruzə edilsin və eyni zamanda belə halların baş verməsində günahkar olan şəxslər vəzifəsindən və rütbəsindən asılı olmayaraq ciddi şəkildə cəzalandırılsınlar

Onun dekabrın 10-da imzaladığı başqa bir əmri isə fərariliyin qarşısının alınması və qoşun hissələrində təlim-tərbiyənin səviyyəsinin artırılması ilə bağlı idi. Səməd bəy burada diqqəti xüsusi olaraq hissələrdən fərarilik etmiş şəxslərin axtarılıb tapılması və məsuliyyətə cəlb edilməsinə yönəldirdi: «Fərarilik davam edir və indiyə kimi bir nəfər də olsa fərari tutlmamışdır. Mənim çoxsaylı sərəncamlarıma əlavə olaraq əmr edirəm ki, fərarilərin tutulması və məhkəməyə verilməsi üçün təcili tədbirlər görülsün. Bununla yanaşı qubernatora sərəncam verilsin ki, o, yerli orqanların və kənd qurumlarının məsullarından öz rayonlarında fərarilərin tutulması üçün ən ciddi tədbirlərin görülməsini tələb etsin. Yerli orqanların köməyi olmadan fərariliyə son qoyulmayacaqdır. Bütün fərarilər həbs olunmalı, ilkin təhqiqat aparılmalı və sonra da müharibə dövrünün qanunları əsasında mühakimə eldilməsi üçün məhkəməyə verilməlidir. Bütün bu tələblər bütün məmurlara məlum olmalıdır».

Bu əmrin ikinci hissəsi isə Yelizavetpolda 1000 nəfərlik təlim taborunun təşkil edilməsi ilə bağlı idi. Nəzərdə tutulmuşdu ki, burada əsgərlər daha geniş proqram əsasında hazırlıq keçəcək və sonra da onlar digər hissələr arasında bölüşdürüləcəkdi.

Dekabr ayının 10-da imzalanan digər bir əmr də orduya çağırış məsələlərinin həlli ilə bağlı idi. Səməd bəy Mehmandarov polkovnik Klimentyevə göstəriş verirdi ki, çağırışın təşkili ilə bağlı ona məlumat versin. Səməd bəyi xüsusilə o maraqlandırırdı ki, hansı bölgədə çağırış qurtarıb, harada necə keçirilib, sosial ədalət prinsipi gözlənilibmi, çağırış yaşına çatanların hamısı xidmətə cəlb edilirmi, yoxsa yenə əvvəlki kimi varlıların uşaqları bu çağırışdan kənardadırlar?

Səməd bəy Mehmandarov yaxşı anlayırdı ki, ordu quruculuğunun səmərəliliyinə yalnız hərbçilər qarşısında ciddi vəzifələrin qoyulması ilə nail

olmaq mümkün deyildir.  Bu prosesi ümumxalq və ümumdövlət əhəmiyyətli bir proses idi və onun səmərəliliyinə də yalnız xalqın və hökumətin zəruri yardımları əsasında nail olmaq mümkün idi. Bunu nəzərə alaraq Səməd bəy Mehmandarov 1918-ci il dekabr ayının  25-də Azərbaycan vətəndaşlarına bəyanatla müraciət etdi. Həmin bəyanat həm rus, həm də Azərbaycan dilində ayrıca vərəqlər şəklində çap edilərək əhali arasında yayıldı. Bəyanat  milli qoşun hissələrinin hansı vəziyyətdə olmasını və bu vəziyyətin yaxşılaşdırılması üçün hansı tədbirlərin həyata keçirildiyini aydınlaşdırmaq  baxımından xarakterikdir. Bəyanatın azərbaycanca mətni aşağıdakı kimi idi :

«Azərbaycan vətəndaşları! Bu ilin yazında Azərbaycan ayrılıb müstəqil hökumət şəklinə düşdü  və bu gündən etibarən cəmi hökumət məmurları camaat arasında asayiş olmasına və  anarxiya olmamasına çalışırlar və camaat arasında qanuna müvaifq iş görülməsinə səy edirlər. Bu məqsədə çatmaq üçün başqa binagüzarlıqdan əlavə  hərbi qüvvə təşkilinə başladılar. Bu vaxtlarda türk ordusu gəlib bizim Azərbaycan qoşunlarını türk komandanları ixtiyarına alıb hər bir barədə kəfil oldular.  İndi anlaşılır ki, türk komandanları öz hərbi işlərində çox səhvlər göstəriblər. Əsgərlik vəzifəsinə ancaq fağırların uşaqları götürülür. Məsələn, dövlətlilərin və bəylərin uşaqları azad ediliblər və türklər qəbul etdiyi əsgərləri çox pis yedirib və pis geyindirib, hətta bəzilərinə heç libas verməmişlər və türk əsgərlərindən bizimkilərə az yemək vermişlər. Natəmiz və quru yer üstündə yatırmışlar. Hətta döyürmüşlər. Axırda nəticə o oldu ki, Azərbaycan əsgərləri dəstə-dəstə fərar etdilər. İndi isə qoşun düzəltməyi öz öhdəmə götürmüşəm və cəmi vətəndaşları istər fağır, istər dövlətli əsgərliyə çağırıram. Hər kəs ki, bir dövlətli uşağını qələmdən salıb azad etsə  böyük cəzaya düçar olacaqdır və burası da məlum olsun ki, əsgərlər yaxşı geyəcəklər və yeməklərinin də yaxşı olmağına mən çox çalışıram. Otaqları isti olacaq  və hər bir əsgər üçün ayrı yorğan-döşək hazırlatmışam. Bundan əlavə dekabr ayından etibarən aybaay hər bir nəfər əsgərə 50 manat, onbaşılara 60 manat və balaca unter əfsərlərə 70 manat, böyük unter əfsərlərə 90 manat, feldfebellerə 120 manat məvacib veriləcəkdir. Bu məvacib onlar üçün cib xərcliyidir. Və əmr etmişəm ki, bu gündən sonra əsgərlərə təcavüz olmasın. Onları döymək və vurmaq olmasın. Ey vətəndaşlar! bu qanunlar tamam olandan sonra sizə məlum edirəm ki, o şəxslər ki, əsgərlikdən qaçıbdırlar onların böyük xətalarını əfv etdim. Ancaq gərəkdir ki, onlar bu sənə yanvar ayının əvvəlinə kimi gəlib öz bölüklərinə qayıtsınlar.Hər kəs qayıtmasa hərbi qanuna görə onlara cəza veriləcəkdir.  Əziz olan Vətənimiz tərəfindən vətən əhlinə müraciət edib deyirəm ki, vətən hissi, millət hissi olan cavanlarımız, hansı ki, əsgərliyə düşür borcludur ki, məhəlli əxzi-əsgər idarələrinə gəlib yazılsınlar və bununla milli qoşunumuzun təşkil olunması barəsində bizə yardım etsinlər. Hər kəs öz vəzifəsini unudub  gəlmək istəmirsə camaatın töhməti altında qaldığından divani-hərbiyyəyə veriləcəkdir və mənim bu dəvətnaməm hər yerdə yapışdırılsın. Savadlı adamlar borcludur ki, savadsızları oxuyub qandırsınlar. General Səməd bəy Mehmandarov».

Bəyanatın Azərbaycan və rus dilində olan variantlarının tutuşdurulması onun ilkin variantının rus dilində hazırlandığını güman etməyə əsas verir. Çünki

rus dilində olan mətn daha mükəmməldir və onun Azərbaycan dilinə tərcüməsində müəyyən qeyri-dəqiqliklərə yol verilmişdir. Ümumi məzmun isə demək olar ki, saxlanılmışdır və burada Səməd bəy Mehmandarovun xalqa çatdırmaq istədiyi lazımi şəkildə öz ifadəsini tapmışdır.

Cümhuriyyət ordusunun formalaşması istiqamətində Səməd bəy Mehmandarovun qətiyyətli fəaliyyəti Azərbaycan hökuməti tərəfindən bəyənilir və müdafiə olunurdu. Nazirlər Şurasının sədri F.Xoyski hökumət kabinəsinin təşkili ilə bağlı 1918-ci il dekabrın 26-da parlamentdəki çıxışında ordu quruculuğu sahəsində aparılan işi təqdir edir və keçmişdə yol verilmiş nöqsanların gələcəkdə bir daha buraxılmayacağına ümidvar olduğunu bildirirdi. Bu ümidi onda Səməd bəy Mehmandarovun rəhbərliyi altında görülən işlər yaratmışdı. F.Xoyski çıxışında ordu ilə bağlı aşağıdakıları dedi: « Gərək hər bir dövlət daima özünü müdafiə etmək üçün qüvvə hazırlasın. Ona görə bizim də həm xarici düşmənlərimizə qarşı müdafiə edəcək bir qüvvəmiz olsun. Keçmişdə sabiq hökumət belə bir qüvvə təşkili üçün çalışmışdır. Bunun üçün bir təşkilat, bir hazırlıq yapmışdır. İş başında adam qoymuşdur. Şükürlər olsun ki, bir az vaxtdan sonra bunlar əmələ gələcəkdir. Keçmişdə xətalar olmuşsa, şimdidən sonra heç bir xəta olmamalıdır. Əsgəri qüvvə təşkili üçün lazımi tədbirlər ittixaz edilmişdir. Ona görə də ümidvar oluruq ki, parlament bizə yardım edib lazım gələn büdcəni qəbul edəcəkdir».

F.Xoyskinin ordu quruculuğu ilə bağlı söylədikləri parlamentin üzvlərinin əksəriyyəti tərəfindən bəyənildi və bu istiqamətdə aparılan işlərin ardıcıllıqla davam etdirilməsinin zəruriliyi vurğulandı. Məsələn, «Əhrar» fraksiyasından Abdulla Əfəndiyev hökumət kabinəsinin tərkibinin təsdiq edilməsi ilə bağlı müzakirələrdə çıxış edərkən ordu ilə bağlı aşağıdakıları söylədi: «İstiqlaliyyəti-milliyyənin birinci sütunu ədd olunan sağlam və müdhiş bir orduya malik olmaqdır. Cümləmizə məlumdur ki, yeni doğulmuş əsgəri təşkilatımızadiləavə bir surətdə icra edilməklə bərabər bir-çox təbii fəlakətlərə uğrayıbdır. Buna görə cəmaətimiz bu işdən təkfir olubdur. Əsgərlik vəzifəsi vətənin ən müqəddəs vəzifələrindən olduğunu nəzərdə tutub yeni təşkilati-əsgəriyyeyi mükəmməl bir əsgəri qanuna müvafiq düzüb qoşmalıdır. Əsgərlərin yeyəcəyinə, yatacağına, libasına və həkim dərmanına böyük diqqət etməlidir. Dövlətliyə, fəqirə, böyükə, kiçiyə təfavüt qoyulmamalıdır. Bu qədər bilməlidir ki, bizləri Azərbaycana sahib edəcək qüvvə bizə ordumuz olacaqdır. Ordu sağlam və möhkəm bir qüvvə təşkil edirsə hökumət də ona istinadən iş görə bilər, millət də onun sayəsində tərəqqiyə üz tutub millətlər sırasına keçir».

Səməd bəy Mehmandarov da tərkibi müzakirə olunan hökumət kabinəsinə daxil idi. Dekabr ayının 25-də Nazirlər Şurasının qərarı ilə Səməd bəy Mehmandarov hərbi nazir təyin edilmiş, dekabrın 26-da isə parlament hökumət kabinəsinin digər üzvləri ilə bərabər onu da vəzifə təyinatına təsdiq etmişdi.

1919-cu il yanvar ayının 3-də Hərbi Nazirlik üzrə verdiyi 4 nömrəli əmrində Səməd bəy Mehmandarov 198-ci il dekabr ayının 25-də hərbi nazir təyin edildiyini elan edirdi. Elə həmin əmrdə Ə.Şıxlinskinin də 1918-ci il dekabrın 29-da hərbi nazirin müavini təyin edildiyi bildirilirdi. Bununla da Hərbi Nazirliyə gətiriləndən təxminən 2 ay sonra Səməd Mehmandarov Azərbaycan Xalq

Cümhuriyyətinin hərbi naziri təyin edildi və Cümhuriyyət ordusu quruculuğunun bütün ağırlığı və məsuliyyəti onun üzərinə düşdü.

S.Mehmandarovun nazir müavini olduğu iki aylıq müddəti fəal ordu quruculuğu üçün bir hazırlıq dövrü kimi də dəyərləndirmək olar. Bu dövrdə S.Mehmandarov milli hərbi qüvvələrin ümumi vəziyyətinə dərindən bələd oldu,hansı işlərin və necə görülməsini müəyyənləşdirdi, ordunun rəhbər orqanlarının əsası qoyuldu. Qarşıda isə Səməd bəy məsuliyyətli vəzifələr, səmərəli işlər gözləyirdi.

### S.Mehmandarovun parlamentdə çıxışı

1919-cu il fevral ayının 25-də Səməd bəy Mehmandarov Azərbaycan parlamentində böyük bir nitqlə çıxış etdi. Həmin gün parlamentdə orduda tjşkil edilmiş olan hərbi strukturların ştat layihələri və həsin strukturların maliyyələşdirilməsi müzakirə olunurdu. Təqdim olunan ştat layihələri, habelə ordunun maliyyələşdirilməsi müzakirələrə parlamentin müdafiə komissiyası tərəfindən çıxarılmış və müzakirələrə Səməd bəy MEhmandarov da dəvət edilmişdi. O, müzakirə olunan məsələlər barədə millət vəkillərinə məlumat verməklə bərabər onlara ordu quruculuğunun gedişi barədə də öz sözünü deməli idi. Bu çıxışı S.Mehmandarovun proqram xarakterli bir çıxış kimi də qiymətləndirmək mümkündür. Burada o, millət vəkillərini və bütünlükdə xalqı maraqlandıran məsələlərə ətraflı məlumat verirdi. Ordu quruculuğunun mahiyyəti və istiqamətləri də hərbi nazirin çıxışında öz ifadəsini tapmışdı və ona görə də həmin çıxış millət vəkilləri tərəfindən çox rəğbətlə qarşılandı. Bu çıxış ümumiləşdirici bir çıxış idi və ona görə də orada çox problemlərə toxunulmuşdu.

S.Mehmandarov parlamentdə rus dilində çıxış etmişdi. Bunun üçün həm iclasın sədri, həm də Səməd bəyin özü millət vəkillərindən rus dilində çıxış etməyə məcbur olduğu üçün üzr istəmişdi. Həmin çıxışın qısaca xülasəsi Azərbaycan dilinə çıvrilərək «Azərbaycan» qəzetində çap olunmuşdu. Çıxışın rus dilindəki mətni isə 1998-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyi münasibətilə nəşr olunan çoxcildlik toplunun parlament iclaslarının rusca stenoqramları daxil edilmiş cildində də çap olunmuşdur. Ancaq buradakı çıxış da tam deyildir. Bu çıxışların bir variantı da Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət rxivində saxlanılır (fond 277, siy. 2, iş 79). Burada saxlanılan mətn daha mükəmməldir və aşağıda da həmin mətnin tərcüməsi verilmişdir. Parlamentdəki çıxışında Səməd bəyin qaldırdığı məsələlər ümumən sonrakı paraqraflarda toxunulmuşdur. Burada isə heç bir şərh vermədən Səməd bəyin parlamentdəki çıxışı ilə tanış olmaq hərbi naziri narahat edən problemin miqyasını, bu problemlərə münasibətinin səviyyəsini, onun fikir və düşüncələrini təsəvvür etmək baxımından maraqlıdır.

S.Mehmandarovdan əvvəl parlamentdə Qarabəy Qarabəyov çıxış etdi, müzakirələrə təqdim olunan ştat layihələrini və vəzifə maaşlarının layihələrini millət vəkillərinin diqqətinə çatdırdı. Parlamentdə 38 hərbi strukturun ştatı təsdiq edilməli idi. Bu rəqəm də onu göstərir ki, Səməd bəyin rəhbərliyi altında qısa

müddət ərzində 38 yeni hərbi struktur yaradılmışdı və bu proses ardıcıl olaraq davam etdirilirdi. Parlamentin 25 fevral 1919-cu il iclasının bütünstenoqramlarında göstərilir ki, Səməd bəy Mehmandarovun tribunaya gəlişi böyük alqışlarlar qarşılandı. Parlament üzvlərinin böyük əksəriyyəti tərəfindən Səməd bəyin dərin maraqla dinlənilən çıxışının mətni aşağıdakı kimidir:

S.Mehmandarov- Cənab parlamet üzvləri! Mən çox təəssüf edirəm və qarşınızda üzr istəyirəm ki, burada ana dilində deyil rus dilində danışmalı oluram. Mən rus dilinə ona görə üz tuturam ki, mənim üçün böyük xəcalət olsa da, öz fikirlərimi bu dildə ana dilindən daha yaxşı ifadə edirəm. Cənab parlament üzvləri, siz burada ştat tabelləri və maaş tabelləri haqqında eşitdiniz. Bu barədə çox qısa danışacağam. Ştatlar Hərbi Nazirliyin şəxsi heyətə olan mnimal ehtiyacları əsasında tərtib edilmişdir. Maaş tabellərinə gəlincə isə onun əsasını mənim aşağıda sizə çatdıracağım 7 maddədə ifadə olunmuş mülahizələr təşkil edir:

1.Cəbhədə olmuş bütün zabitlər istisnasız olaraq özlərinin səhra baqajını, paltarlarının çox hissəsini itirmişlər. Zabitlərin böyük əksəriyyəti bütün xidmətləri boyu toplamış olduqları əmlaklarından məhrum olmuşlar. Onları indiki zamanda bərpa etmək tamamilə imkansızdır, ya da bir rublluq əşyaya indi 30-40 rubl ödəmək lazımdır.

2.Son dərəcə bahalıq əhali üçün ağırdır. Bu bahalıq böyük əksəriyyəti uzaqlarda və mütəmadi ezamiyyətlərdə olan,öz ailəsindən ayrı yaşamalı olan bütün zabitlər üçün daha ağırdır.

3. Zabitlər əsgəri tərbiyə etməli və onu ölümə aparmağı bacarmalıdır. Bunun üçün o, əsgərin gözündə nüfuz sahibi olmalıdır. Zabit həmişə nümunəvi geyinməlidir. İndiki zamanda isə onun geyimi və təchizatı çox böyük pul tələb edir.

4.Azərbaycanda təcrübəli zabitlərin böyük qıtlığı vardır. Xlaqların müstəqillik əldə etdiyi bir vaxtda başqa millətlərdən olan, o cümlədən əvvəllər rus ordusunda xidmət etmiş olan şəxsləri dəvət etmək lazım gəlir. Yeni yaradılmış olan ordu üçün ciddi seçim aparılmalıdır. Heç vaxt hərbi xidmət keçməmiş xalqdan toplanılan ordu unter-zabitlər olmadan keçinmək mümkün deyil. Həm də bacarıqlı zabitlər lazımdır. Ancaq bacarıqlı zabitlər başqa yerdə yaxşı maaş tapa biləcəklərindən onları yüksək maaşla maraqlandırmaq lazımdır.

5.Keçmiş müsəlman ordusunun ştatları ilə təyin edilmiş və 5 ay ərzində zabitlər tərəfindən alınmış maaş oktyabr ayında çox görünsə də indi o, zabitlərin ən adi tələblərini güclə ödəyir. Qiymətlərin daim artdığı bir halda biz maaşların axaldılması yox, artırılması haqqında danışmalı olacağıq.

6.Vəsaitlərin aşağı salınması və maaşların hər hansı azaldılması kiçik maaşla dolanan şəxslərə ağır təsir göstərəcək və şübhəsiz ki, onların işinin keyfiyyətində də öz əksini tapacaqdır.

7.Zabitlərin xidməti təkcə müharibə dövründə deyil, sülh dövründə də çətin şəraitdə keçir. Primitiv şəraitdə və uzaqlarda yaşayaraq onlar çox zaman açıq havada gecələyirlər, yağış, qar... hər cürə yollarda zabitlər onlarla verst yolhqət

edərək Vətən yolunda sağlamlıqlarını və bəzənsə həyatlarını verirlər. Xüsusilə indiki zamanda xalq ehtiraslarının istənilən partlayışı və təxribatçı qanunsuzluqlar hər şeydən əvvəl zabitlərdə öz əksini tapır, onların həyat və azadlıqlarını təhdid edir. Belə hadisə təəssüf ki, Ağdamda baş vermişdi.

Cənablar! Maaaşlar cədvəlit smetanın və ümumi büdcənin bir hissəsini təşkil edir. Parlamentin bu və ya digər təşkilata rəğbəti və ya qeyri-rəğbətlə yanaşması özünü büdcənin müzakirəsi zamanı xüsusilə qabarıq göstərir və bu münasibətin xarakteri həmin təşkilatın fəaliyyətindən və onun qazandığı uğurlardan da asılıdır. Ona görə mən məsələnin mahiyyətinin şərhinə keçməzdən əvvəl istərdim Hərbi Nazirliyin fəaliyyətinin hansı şəraitdə getdiyi və onun tez-tez hansı çətinliklərlə rastlaşdığı bir-sıra məsələlərə toxunum. Cənablar, mən başa düşürəm və anlayıram ki, bu vəzifə çətin və məsuliyyətlidir. Çünki mən qəbul etdiyim mirasa toxunmalıyam. Başqa sözlə o mirasa ki, tükrlərdən bizə qalmışdır. Bu vəzifə xüsusilə ağır və məsuliyətlidir. Çünki bizim müsəlmanlar vəfalılıq və sədaqətdə çox möhkəmdirlər. Heç kəs Azərbaycanda anarxiyanın aradan qaldırılmasında və qanun-qaydanın bərpa edilməsində türklərin xidmətini dana bilməz. Ancaq bu bizə mane olmur ki, artıq sözə yol vermədən və heç bir risq etmədən arzuedilməz nəticələrə gətirib çıxarmış və hətta indi də hiss olunmaqda olan mənfi əməllərə tənqidi yanaşaq. Cənablar, Hərbi Nazirlik Yelizavetpola köçənə qədər, yəni noyabrın 25-nə kimi türk komandanlığı qətiyyətlə inandırırdı ki,ordunun formalaşmasında böyük uğur var, 1-ci Azərbaycan diviziyisında 8mindən artıq adam var, 2-ci diviziyada isə artıq iki alay hazırdır və şəxsi heyəti 4 mindir, fəal batareyalar kifayət qədərdir, təlim-tərbiyə sürətli templə aparılır, bütün qoşunlar təchizat əşyaları, yəni topçu, sanitar, veterinar və s. əşyaları ilə təmin edilmişdir. Bax, cənablar, belə xoş ümidlərlə Gəncəyə yollandıq. Sonra mən Hacıqabula getdim, Ləkidə, Kürdəmirdə oldum, Ağdamda baxış keçirdim. Oradan məni teleqramla geri çağırdılar. Təəssüf ki, mən hər yerdə eyni mənzərələrin şahidi oldum. Bu mənəzərələr isə biri digərindən kədərli idi. Adamların görünüşü o qədər yaxşı yox, tutqun və qəmgin idi, pis geyinmişdilər, yemək haqqında danışmağa söz yoxdur- çox pis idi. Mən onu yoxlayanda gördüm ki, o içində kələm yarpaqları və xırda ət qırıntıları üzən qaynadılmış sudur. Otaqlar rütubətli idi, heç bir çarpayı və yatacaq əşyaları yox idi. Pəncərələrin çoxu şüşəsiz idi. Bundan başqa çoxlu sayda at da çatışmırdı. Gördüyüm atlar isə at deyildi, üstü dəri ilə örtülmüş sür0sümük idi. Atların 70 faizi qoturlu idi. Budur, cənablar, teleqramı alanda mən oranı tərk etdim. Burada düşünməyə ehtiyac yoxdur ki, adamlar yedizdirilməyibsə, geyindirilməyibsə və bəzən döyülməyə məruz qalırdılarsa bütün bunlar ilk anlardan onlarda hərbi xidmətə nifrət yaradırdı. Bizdə adamların yedizdirilmədiyi bir vaxtda dəmir yolu sahəsində də bir özbaşınalıq mövcud idi. Bu barədə çox danışmağa ehtiyac yoxdur. Bunu ona görə deyirəm ki, Hərbi Nazirliyin fəaliyyəti bu vəziyyətdən asılıdır. Mən türklərin pis niyyətdə olmaqda günahlandırmaq fikrindən uzağam. Xüsusən indiki halda- ümumi bərbadlıq yaxşı haqqındakı anlayışı təhrif etmişdir. Onu demək istəyirəm ki, belə bir vaxtda bizdə çağırış da yaxşı getmirdi. Çünki çoxları bu vəziyyətdən sui-istifadə edirdilər. Məsələn, stansiya komendantları, hərbi rəislər, türklər çağırışı heç bir çağırışçı

siyahısı olmadan aparırdılar. Kimi tuturdularsa cəbhəyə göndərirdilər. Çox halda heç bir əsas olmadan ana-ataların və başqalırının yeganə himayəçisi olan şəxsləri tuturdular. Bütün bunlar əlbəttə ki, əhali arasında sonsuz narazılıqlara səbəb olurdu və əhali bu barədə qəzəblə danışırdı. Hətta bizim yerli orqanlar, böyüklər və təəssüf ki, hətta ruhanilər də bundan narazılıqla danışırdılar. Qarşımda dayanmış vəzifələrin ağırlığı xüsusilə onda idi ki, mən paltar , ayaqqabı, heç nə almamışdım. Bir sözlə mən ilk növbədə təşkilati işlərlə məşğul olmalı oldum, maddi vəziyyəti yaxşılaşdırmaq, hamını geyindirmək, yatacaq əşyaları ilə təmin etmək lazım idi. İndi mümkün olan hər şey edilmişdir. Dərhal 300 min rubl ayrıldı ki, bu vəsaitə lazımi əşyalar alınsın, çarpayılar düzəldilsin, pəncərələrə şüşə salınsın, bir sözlə binalar qaydaya salınsın. Əsas diqqət sobalara ayrılmalı idi ki, onlara da böyük sada ehtiyac var idi. Yeməyin yaxşılaşdırılması mənim üçün heç də çətin olmadı. Həqiqət naminə demək lazımdır ki, ərzaq sarıdan türklər çox şey qoyub getmişlər. O cümlədən, taxıl, heyvanlar. Ərzaq baxımından çatışmazlıq yox idi. Ona görə mən ilk növbədə yeməyin yaxşılaşdırılmasına başladım. 0,5 funt ət əvəzinə 0,75 funt ət verilməsini əmr etdim. Çörəyin verilməsi 1, 5 funtdan 2,5 funta qədər artırıldı. Bundan əlavə əmr etdim ki, bişirilən supun ədviyyatı kök, kartof və s. artırılsın. Bu zaman yad yeməklərin bişirilməsinə diqqət yetirildi və ona görə mən əmr etdim ki, bozbaş, dolma hazırlansın və həftədə bir dəfədən az olmayaraq plov bişirilsin ( Yerdən- bu yaxşıdır). Hər bir əsgərə 6 misqal şəkər və 1 misqal çay verilməsi müəyyənləşdirildi. Bu miqdar ona səhər də, axşam da çay içməyə imkan verdi. Bundan başqa indi müxtəlif xəstəliklərin, o cümlədən səpmə yatalağın çox olmasından əmr etdim ki, onlar çiy su içməsinlər. Onun üçün şəkərin miqdarı 9 misqal müəyyənləşdirildi ki, əsgərlə gündə 3-4 dəfə çay içə bilsinlər. Ancaq paltara, ayaqqabı və geyimə gəlincə isə indi bu məsələ də çox kəskin dayanır və nə etmək mümkündürsə onu edirik. Hər şeydən əvvəl mən Gürcüstanın hərbi nazirinə məktub yazdım və ondan kömək göstərilməsini xahiş etdim. Orada paltar çox olduğu üçün xahiş etdim bildirsin ki, hansı şərtlərlə onlar bu paltarı verə bilərlər. Ancaq təəssüf ki, bu alınmadı. Sonra iş icraçıları və çoxlu müxtəlif adamlar tapıldılar. Ancaq onların hamısı ağ parça istəyirdilər. Bizə «ağ» verin. Bizə pul lazım deyil. Burada biz düz gəlmədik. Sonra isə Qutman adlı birisi tapıldı. Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi Cəfərovla əlaqə saxladıq. Eyni zamanda mən Nuxada milli məclisin nümayəndəsini, sonra şəhər başçısı Adilxanovu, sonra Ərzaq Nazirliyinin müvəkklini çağırtdırdım və orada biz bəzi şeyləri düzəldə bildik. Nə qədər ki, ayaqqabı yoxdur bizə çarıx verdilər və orada biz şərt bağladıq. Sonra mən Şuşada olanda orada kifayət qədər möhkəm parça gördüm ki, xeyli yararlı idi. Orada da müqavilə imzaladıq və nəhayət böyük razılıqla qeyd edirəm ki, orada mən mundir libası hazırlamaq üçün yaxşı parça tapdım. Güman edirəm ki, işlər qaydasına düşəcəkdir və 2-3 aydan sonra kəskin dövr keçəcəkdir. Yəni, nə mümkünsə edilmişdir. Əlbəttə mən möcüzələr yarada bilmərəm. Ancaq nə bacarırımsa, mütləq onu edəcəyəm. Nə qədər lazım olsa etməyə hazıram.

Məsələ bundadır ki, biz smetanın bir hissəsini hazırlamışıq. Bütün smeta isə bütünlükdə mart ayında təqdim ediləcəkdir. Çünki Ərzaq Nazirliyinin

sərəncamında olan ərzaq və digər əşyalar haqqında bizim dəqiq məlumatımız yoxdur. Baxmayaraq ki, Ərzaq Nazirliyi əsasən məlumat vermişdir, ancaq yenə də qəza rəhbərliyindən məlumatlar lazımdır. Çünki türklər gedərkən anbarları atıb getmişlər. Bu anbarlar heç kimə təhvil verilməmişdir. İndi onları kimlərin sahib olduğu məlum deyil. Bir çox yerlərdəmüvəkklillər sahiblik edirlər, onlar olmayan yerdə isə qəza rəhbərləri. Hərbi Nazirliyin özünün 3 ərzaq anbarı vardır. Bu anbarlar Hacıqabul, Gəncə və Ağdamdadırlar. İndi ərzaq əşyaları bizim sərəncamımıza keçməlidir. Ancaq bunun üçün dəqiq məlumata malik olmaq lazımdır. Nəsə artıq qalır, yoxsa çatmır? Təşkilati məsələlərə gəlincə mən artıq dedim ki, başlıca diqqət çağırışa yönəldilməlidir. Məsələ bundadır ki, burada qeyri-normal hallar baş verirdi, başqa söözlə heç bir siyahı tərtib edilmirdi. Doğrudanda çoxlu sayda sui-istifadə halları olurdu. Buna son qoymaq lazımdır. Harada oldumsa mən yalnız kasıb balalarını gördüm. Mən bir nəfər də olsa imkanlı adamla, tacirlə, imkanlı övladı ilə rastlaşmadım. Yalnız kasıbları gördüm. Ona görə də mən əmr etdim ki, bütün əxzi-əsgər idarələri çağırışçı siyahıları tərtib etsinlər. Bu siyahıların surətləri mütləq Hərbi Nazirliyə təqdism edilməlidir. Yəni, bu siyahılara imkanlı təbəqənin düşüb-düşməməsinə nəzarət etmək mümkün olsun. Yelizavetpol quberniyasında və Qazax qəzasında bir əxzi-əsgər rəisi vardır. Karyagin, Cavanşir, Şuşa və Zəngəzur qəzalarının hamısı üçün bir əxzi-əsgər rəisi vardır və o, Bərdədə yerləşir. Ərəş, Nuxa və Zaqatala qəzaları üçün də bir əxzi-əsgər rəisi vardır.O, Qubada yerləşir. Salyan, Cavad və Lənkəran qəzalarının əxzi-əsgər rəisi Salyanda yerləşir. İndi isə Bakının Mədən hissəsinin əxzi-əsgər rəisi olacaqdır. Beləliklə, söylədiklərimdən aydın olur ki, 7 əxzi-əsgər rəisi və 11 qəza əxzi-əsgər şöbəsi vardır. Çağırış vaxtı kütləvi saxtakarlığa yol verildiyi üçün şikayətlərə baxılması məqsədilə Nazirlikdə Azərbaycanın hərbi mükəlləfiyyətlər üzrə əxzi-əsgər idarələri adlanan layihə hazırlanır. Bu həmin əxzi-əsgər idarələridir ki, Rusiyada onları quberniya əxzi-əsgər idarələri adlandırırlar. Bütün şikayətlər ora göndəriləcək və orada baxılacaqdır.

Sonra sizə məlum olduğu kimi Rusiyada çağırış hər yerdə eyni vaxta aparılır. Mən çağırışın eyni vaxtda aparılmasını ləğv etdim. Çünki bir əxzi-əsgər rəisi bir-neçə qəzaya baxır. Mənim tərəfimdən əmr edilmişdir ki, hər qəzada çağırış mütləq əxzi-əsgər rəisinin iştirakı ilə aparılsın. Çünki o, Hərbi NAzirliyin nümayəndəsidir və hər hansı ədalətsizlik və süstlük baş verəndə o, qətiyyətli şəkildə etiraz etməlidir.

Eyni zamanda tək övladlarla bağlı güzəştlər haqqında qanun layihəsi təqdim edilmişdir. Milli məktəblərin müəllimlərinə də güzəştlər təqdim edilmişdir. Əgər müəllimləri çağırsaydıq onda gərək məktəblər bağlanaydı. Bizim savadlı adamlarımız elə də çox deyildir. Ona görə də onlara güzəşt verilməsini mən lazım bildim və bu barədə aşağıda məlumat verəcəyəm. Dəmir yolu məktəbində oxuyanların da hamısına güzəşt verilmişdir. Məlumdur ki, dəmir yolunda müsəlmanlar çox azdır. Oradakılar əsasən ruslar , gürcülər və ermənilərdir. Bu sahədə müsəlmanlar olmalıdırlar. Ona görə də Bakıda, Gəncədə dəmir yolu məktəblərində oxuyanlara, habelə gələcəkdə açıla biləcək məktəblərdə oxuyanlara hərbi mükəlləfiyyətdən güzəşt verilmişdir. Güzəştlər maşinistlərə,

ocaqçılara, hökumət tipoqrafiyasının yığıcılarına, şəxsi tipoqrafiyalar istisna olmaqla tətbiq edilmişdir. Çay gəmiçiliyinin matroslarına da güzəşt verilmişdir. Çünki müqavilələr bağlanmışdır və gəmi sahiblərini ağır vəziyyətdə qoymamaq üçün bu güzəşt verilmişdir. Ancaq yeni bağlanan müqavilələrə güzəşt şamil edilmir. Mən təklif edirəm ki, daha çox güzəşt verilsin. Çünki Azərbaycan hər il 60 min çağırışçı verə bilər. Əgər 6 ay müddət götürülsə bizə bu qədər adam lazım deyil. Bu Rusiya üçün yararlı idi. Biz kəmiyyəti məhdudlaşdırmalıyıq. Ona görə də güzəştlər daha da genişləndiriləcəkdir. İndi bizdə 6 yaş müddəti vardır. Yəni 19 yaşından 24 yaşınadək çağırılırlar. Güman edirəm ki, bu ilin sonunda və ya gələn ilin əvvəlində biz iki yaş həddi üzrə 19 və 20 yaşlıların çağırışını aparacağıq. Qalanları isə çcağırışa cəlb etməmək, azad etmək olar.

Sonra , cənablar, təşkilati məsələlər barədə.Nazirlik tam formalaşdırılmışdır. Hissələrin formalaşması isə uğurla davam etdirilir. Haqqında çoxlu danışılan fərariliyin olduğunu düzgün sayıram. Ancaq indi bu məsələ barəsində genişliyi ilə danışmağa dəymir. Məsələ bundadır ki, hərbi mükəlləfiyyət tətbiq edilən bütün inkişaf etmiş mədəni ölkələrdə də fərarilik vardır.

Hərbi mükəlləfiyyət gürcülərdə və ermənilərdə olanda orada da fərarilik var idi. Bunun aşağıdakı səbəbləri var: Birincisi ümumi bərbadlıq hamıya pis təsir göstərmişdir, ikincisi müsəlmanlar əvvllər hərbi mükəlləfiyyət keçməmişlər. Bütün bunlar müvəqqəti haldır. İndi insanlarda vəzifə borcu aşılanır . Ona görə də fərariliyə xüsusi diqət yetirməyə ehtiyac yoxdur. Özü də fərariliyin azaldığı vaxtda. Ağır zamanlarda isə Yelizavetpolda son iki həftə ərzində heç bir fərarilik hadisəsi olmamışdır. Tərifləməyə ehtiyac olmasa da onu da qeyd etmək lazımdır ki, fərariliyə mənfi yanaşan əhali özü də bu məsələdə bizə yardım edir. Bir-neçə dəfə belə hadisə olmuşdur ki, əhali özü fərarilərin üstünə düşmüş və onları döymüşlər. Bu da fərarilərə təsir göstərə bilər. Müsəlmanlarda anadangəlmə intizamın olmasını, böyüklərə hörmətlə yanaşılmasını nəzərə alsaq mən əminəm ki, yaxın gələcəkdə fərariliyiə son qoyulacaq və işlər öz normal axarına düşəcəkdir. Təşkilati məsələyə gəlincə isə- mən onların üstündən keçirəm. Elə məslələr var ki, onlar barədə bir qədər təmkinli olmaq lazımdır. Çünki onlar dövlət sirrlərni təşkil edir. Ona görə də məni bağışlayın.

Mən həhbi hisələrin təşkili məsələsinə toxunmayacağam. Ağdam hadisələrinə verilən rəng isə həqiqətə uyğun deyildir. Mən özüm ora getdim və sorğu apardım. Ağdam hadisələrində 10-a yaxın türk zabiti iştirak etmişdir. Məncə bu zabitlər zabitliyin tör-töküntüləri və mənim inamıma görə təxribatçılardır. Əgər parlament üzvünün bu barədə məruzəsi olmasaydı bu hadisə sizin diqqətinizi cəlb etməyə dəymir. Bu məruzə məndə var və hamınıza da məlumdur. Bu barədə danışmaq istərdim. Fikrimcə məruzə həqiqətə uyğun olmayan bir şəkildə hazırlanmışdır. Orada deyilir ki, guya Qarabağ alayı silahları və tüfəngləri talan etmişdir. Belə bir şey olmamışdır. Mən özüm bunun təhqiqatını aparmışam və indi 3-5 dəqiqə ərzində sizə məlumat verəcəyəm.

Bu hadisə noyabrın 29-dan 30-na keçən gecə baş vermişdir( Bu hadisənin dekabrın 29-dan 30-na keçən gecə baş verdiyi güman olunur. Çox güman ki, stenoqrafist diqqətsizliyə yol vermişdir-M.S.). O zaman mən Nazirlər Şurasının

sədrinin çağırışı ilə Bakıda idim. Buradan ayın 31-də yola düşdüm. Hacıqabula gəldim və elə 31-də gecə Yelizavetpola çatdım. Orada bu kədərli hadisə barəsində xəbər tutdum. Əfəndi yevi çağırdım, sorğu-sual etdim və dərhal Bərdəyə yollanması barədə əmr verdim. O, ayın 31-də yola düşdü və elə həmin gün Bərdəyə çatdı. Oraya alay cəmləşdirilmişdi. Bu alay ilə o, ayın 4-də hərəkt etdi və 5-də hadisə yerində oldu. Öz tələblərini irəli sürdü və əmr etdi ki, bütün qarnizon silahsız şəkildə sıraya düzülsün. Alay Əsgəran istiqamətində 2,5 verst hərəkət etdi. Cavab verməli olacağından qorxan pulemyot komandası qaçıb dağıldı. Bu o vaxt olmuşdu ki, bütün tüfənglər satılmışdı. Qarabağ alayı bunu necə edə bilərdi? Qarabağ alayının bir-neçə zabiti mənə xahişlə müraciət etdilər ki, günahlandırılanlara kömək edim. Mən dedim ki, mən onları mühafizə edə bilərəm. Sözsüz ki, ayrı-ayrı şəxslər günahkardırlar. Ancaq tüfənglər Əsgəranda deyil, Ağdamda idilər. Bu barədə faktlar mövcuddur. Şuşada cavan doktor Ağayev ilk gündən bu hadisələrin şahidi idi və görmüşdür ki, bu iüfəngləri kim talan edib. O bunu sübut edə bilər və ona görə də səslənən ittihamlar əsassızdır. Mən bu barədə çox danışdım. Çünki həmin məruzə artıq hamıya çatmışdır. Bu məruzədə az qala o da deyilir ki, həbsxanadakı vəziyyət Ağdamdakı qışlalardan daha yaxşıdır. Guya onlar pis idilər və indi daha pis olmuşdur. Burada kəskinliyə yol verilmişdir. Yelizavetpoldan bura yola düşməzdən bir həftə əvvəl saat 11-də qərargah rəisi mənə məlumat verdi ki, parlament sədri doktor Ağayev Yelizavetpola gəlmişdir. Onda mən əmr etdim ki, heç kim qışlalara buraxılmasın. Mənə bildirdilər ki, parlament sədri qışlalara getmək istəyir. O mənim yanıma gəldi. Mən dedim ki, hər şey Sizin qulluğunuzdadır. Əmr etdim bütün hissələrə bildirsinlər ki, zabitlər öz yerlərində olsunlar və ölkənin birinci şəxsini layiqli şəkildə qarşılasınlar. Saat 12-də dərslər qurtardı və buna görə də xüsusi hazırlıq görmək mümkün deyildi. Sədr orada oldu. Onun nə gördüyünü mən bilmirəm. Ancaq dedi ki, çox sevindirici təəssürat almışdır. Hesab edirəm ki, mənim rəhbər nüfuzun ədalətə və hamıya eyni münasibətdə olmağıma əsaslanmalıdır. Şübhəsiz ki, Yelizavetpolda həyat şəraiti Ağdamdakından daha yaxşıdır və parlament sədrinin gördükləri hərbçiləri məhbuslarla müqayisə edənlərə cavab olacaqdır.

Cənablar, mən o fikirdən uzağam ki, nəyi isə tənqid edim və deyim ki, bizdə pis idi indi düzəlməkdədir. Bu bir növ həkim lazaretinə oxşayır. Nöqsanlar vardır və əgər söhbət lazaret haqqında olsaydı mən heç danışmazdım. Azad müzakirələr əleyhinə mənim heç bir etirazım yoxdur. Çünki sağlam tənqid və azad müzakirələr olmayan heç bir sahədə inkişaf yoxdur. Bu mənada mətbuatın çox böyük əhəmiyyəti vardır. Ancaq onu deyim ki, sizə məlum olduğu kimi mədəni ölkə olan İngiltərədə İrlandiya üsyanı zamanı konservativ tərəfdarları olan deputatların çoxu mətbuatın ləğvini tələb edirdilər. Onda parlament üzvlərinin biri sübut etdi ki, mətbuat ləğv edilməkdənsə parlamentin ləğv edilməsi və aradan götürülməsi daha doğru olar. Ancaq adamların tənqid adı altında yalanlara yol verməsi adamda kədərli ovqat yaradır. Mən heç də əleyhimə qaldırılmış səs-küyü nəzərdə tutmuram.

Mən sizin vaxtınızı çox aldım və demək istəyirəm ki, mənim əleyhimə qaldırılan səs-küy Azərbaycan xəzinəsinə sağmal inək, Hərbi Nazirliyə isə

xeyriyyə müəssisəsi kimi baxdığına görə mənim tərəfimdən ordudan xaric olunmuş şəxslər və zabitlər tərəfindən aparılır. Bu səs-küy məndə iyrənc hisslər yaradır, ancaq onlar məni narahat etmir. Tərtib etdiyim plan dəyişdirilə bilməz. Mən bu tikanlı yolla hərəkət edirəm və nə qədər ki, bu vəzifədəyəm heç bir qüvvə məni saxlaya bilməz.

Sonda demək istəyirəm ki, ötən müddət ərzində mənim tərəfimdən çoxlu sayda məsələlər qaldırılmışdır. Onlar nəinki həllini, hətta əməli ifadəsini də tapmışlar. Hərbi nazir vəzifəsində məni kim əvəz edərsə o, mənim fəaliyyətimin genişliyi və səmərəliliyi haqqında çox material tapa bilər. Cənab parlament üzvləri, qoy bu görülmüş işlər sizin qarşınızda söylədiklərimin təsdiqinə , özüm üçünsə vicdanımın təsdiqinə çevrilsin.

S.Mehmandarovun bu çıxışı ilə bağlı iki məqama diqqət yetirmək lazımdır. Mətni diqqətlə nəzərdən keçirdikdə anlamaq çətin deyil ki, o, orijinal yox, Səməd bəyin çıxışının stenoqramıdır. Ona görə də mətnin müəyyən yerlərində məntiqi ardıcıllıq pozulur və müəyyən faktlarla qeyri-müəyyənlik hiss edilir. «Azərbaycan» qəzetinin 27 fevral və 7 mart 1919-cu il tarixli nömrələrində bu iclasla bağlı Azərbaycan dilində çap olunmuş müxtəsər stenoqramdan bəzi konkret faktlar isə yuxarıdakı mətndə yoxdur. Bu da yuxarıdakı mətnin orijinal yox, məhz S.Mehmandarovun çıxışının stenoqramı olduğunu sübut edir. Ancaq stenoqrafist tərəfindən müəyyən diqqətsizliyə yol verilsə də ümumən S.Mehmandarovun fikirlərinin mahiyyəti və məzmunu saxlanılmışdır.

S.Mehmandarovun çıxışı parlament üzvlərinin böyük əksəriyyəti tərəfindən rəğbətlə qarşılandı və ondan sonra çıxış edən millət vəkilləri də ordunun qurulması istiqamətində aparılan işləri qətiyyətlə müdafiə etdiklərini bildirdilər. «Azərbaycan» qəzetinin yuxarıda toxunulan nömrələrində həmin çıxışlardan ikisinin mətni verilmişdir. Bu çıxışlara diqqət yetirilməsi də maraqlı olardı. Parlamentin müdafiə komitəsinin sədri M.Rəfiyev çıxışında dedi:

« Möhtərəm məbuslar !Mən müdafieyi-milliyə komissiyası sədri olmaq hesabı ilə bu barədə bir-neçə söz demək istəyirəm. Sizə məlumdur ki, biz Azərbaycan türkləri əsgəri vəzifədən kənarda qalmışıq. İndi övza bəzi əsgəri işə qarışmağa və əsgər düzəltməyə məcbur etdi. Və məlumdur ki, bu işə nə qədər pis bir zamanda başladıq. Hər tərəfdə vuruşma, pozğunluq, hərc-mərc, əlbətdə böylə zamanda çox nöqsanlar olur. Əsgər işini bizəvəlcə türk qardaşlarımıza həvalə etmişdik bizim üçün əsgəri təşkil etmişlər. Biz heç vaxt türklərin xidmətini unutmarız və təşəkkür ediriz. Hərgah asudə bir zaman olsaydı bu işləri müntəzəm bir surətdə əmələ gətirmək mümkün idi. Deyirlər ki, türklər gedərkən hər bir şeyi başına buraxıb getdilər. Məlumdur ki, 10-15 il müddətində evindən ayrı düşmüş əsgər yerindən tərpəndiyi zaman belə iş gözləmək olar. Türklərin bu nöqsanları bizim onlara olan təşəkkürümüzü azalda bilməz. Bir də onu deyirəm ki, müttəfiqlər ara qarışdırıb xələl qatmaq məqsədiylə hərbiyyə işlərimiz barəsində danışırlar ki, guya komanda türk dilində deyil, rus dilindədir. Əsgərlərə pis baxırlar və s. Bunların hamısı iftiradır.

Komanda türk dilindədir. Əsgəri işlərimiz öz yolu ilə gedir. Bu iş bizdə təzə olduğuna görə təcrübələrin azlığından əlbətdə nöqsanlar olacaqdır. Amma yenə təkrar edirəm ki,  əsgəri işlərimiz düz yol ilə gedir və gedəcəkdir. Əminiz ki, bir az zamanda özümüzü daxildə və xaricdə müdafiə etmək üçün lazımi qədər əsgəri qüvvəmiz olacaqdır».

Digər bir millət vəkili Aslan bəy Səfikürdski isə öz çıxışında aşağıdakıları söylədi : «Həzərat! Bilirsiniz ki, hər bir yerdə, hər bir əhali arasında yeni ordu təşkil edildikdə qüsurlar olubdur. Köhnə hökumət dövründə əsgəri işlərimizdə nöqsanlarımız olduğu doğrudur. Fəqət, hərbiyyə naziri iş başına gələndən sonra o qüsurları rədd edə bilmişdir. Bu günə əsgərlərimizin eyni açıldı.Əsgəri işlərimizin fəna bir halda  olduğunu  nazirimiz əhalidən gizlətmir. Heç bir millətdə görünməmişdir ki, əsgərlikdən qaçanlar  öz başları ilə geriyə  qayıdaraq orduya daxil olsunlar. Amma bizdə əsgərlikdən qaçanların ədədi azalmaqla bərabər, qaçanlar da qayıtmaqdadırlar. Bu , öz hüququnu anlamaq məsələsidir. Doğrudur, irəlidə əsgərlər arasında asılılıq var idi, indi isə çörək, çay və qənd verilir, hətta nazir həzrətləri buyurdular ki, xəstəlik olmamaq üçün qızdırmalı yerlərdə qənd parçaları artırılmışdır. Camaat bunları görüb anlayır. Əhali anlamışdır ki, öz hüququnu ancaq silah ilə saxlaya bilər. Odur ki, əsgərlər qaçanı döyüb əzirlər. Bir millət öz cümhuriyyət və istiqlaliyyətini müdafiə etmək üçün cidası (süngüsü) cavan əsgərlərin inqilabçıları olmalıdır. Nəinki tək bir əsgərlər, bəlkə istiqlalını müdafiə etmək istəyən bütün millət silaha sarılmalıdır. Əlelxüsus, indiki zamanda ki, nəinki xaricdə, nəinki  denikinlər, hətta içimizdə də qara qüvvələr bizi hər zaman yıxıb puç etmək istəyirlər. Əsgəri işlərimiz haqqında təqdim olunan layihədə komissiya  dediyi kimi artıq bir iş yoxdur.  Əsgəri məmurlara lazımi miqdarda məvacib verilməlidir. Artıq da vermək lazım gəlsə verilməlidir. Veriləcəkdir də. Bunların hamısına razıyıq, amma bir təvəqqəmiz var. Bu pullar millət xəzinəsində millətdən qəpik-qəpik yığılmış pullardır. Bu pulları da millətin öz oğullarına sərf etməlidirlər. Kəndçilərdən qəpik-qəpik yığılmış pulları sərf etdikdə qənaət etməlidir.

Sosialistlər fraksiyası  tərəfindən deyirəm ki, namuslu, qeyrətli, şücaətli əsgər və zabitlərimizdən ötəri  hər nə lazım olsa verəcəyik».

A.Səfikürdskinin çıxışının rusca mövcud olan stenoqrafiyası ilə «Azərbaycan» qəzetində çap olunan  yuxarıdakı mətn arasında fərqli məqamlar vardır. A.Səfikürdskinin çıxışının rusca mətninin iki yerində hərbi nazirə istinad vardır. Həminməqamlar çıxışın əvvəlində və sonundadır. A.Səfirüdskinin çıxışının rusca mətni belə başlayır: « Siz bilirsiniz, həmişə hərbi işin təşkilinin əvvəlində, bu iş yeni başlandığı üçün çatışmazlıqlar və nöqsanlar olur. Bizim də nöqsanlarımız olub. Lakin bu gün qarşımızda çıxış edən hərbi nazirin iş başına gəlməsi ilə hərbi işin vəziyəti yaxşılaşır. Bu yaxşılaşma sonradan da hər gün müşahidə edilmişdir».

Ə.Səfirükdskinin çıxışının rusca mətni isə belə tamamlanır: «Əlbətdə, biz ordumuzdan pul əsirgəməyəcəyik. Ancaq bu zaman xalq pulunun hər qəpiyinə qənaətcil münasibət olmalıdır.Belə münasibəti biz bu gün Azəbaycan xəzinəsinə sağmal inək kimi baxan şəxslər haqqında danışan  hərbi nazirin sözündə gördük.

Ona görə biz bəyan edirik ki,bizim belə ordumuz üçün hər şeyimizi, hətta həyatımızı da qurban verməyə hazırıq».

İclasın sədri A.Səfikürdskinin son sözlərinə tərəfdar çıxdığını təsdiqləyərək müzakirə olunan ştat layihələrinə səs verməyə çağırdı. İki nəfər bitərəf qalmaqla bütün millət vəkilləri təqdim olunan layihələrin təsdiqinə səs verdilər.

S.Mehmandarovun parlamentdə çıxışı ictimaiyyət arasında da maraqla qarşılandı. Üzeyir bəy Hacıbəyov öz məqalələrinin birində bu barədə belə yazırdı: «Bir-neçə zaman bundan əvvəl parlament iclaslarının birində hərbiyyə nazirimiz S.Mehmandarovun ordumuzun təşkili haqqında bəyanatını dinlədik. Ordu görməmiş, rəsmi əsgərliyə adət etməmiş olanmilətimiz içində birinci qədəm olaraq ordu təşkil etmək işinin nə qədər çətin bir əsr və bu işin bu qədər qarışıq zamanda nə tövr müşkülat və maneələr qarşısında əngəllərə düçar olduğunu eşidib bütün çətinliklərini təsəvvürə gətirməklə bu çətinlikləri rəf və izalə edəcək olan zabitin nə qədər sahibi-qüdrət və maliki-qüvvət bir orqanizator olması lüzumunu da dərk etdik. Bu təsəvvüratdan hasil olan təəssüratın o rəngi və ya bu rəngdə olması hərbiyyə nazirimiz olan general həzrətlərinin istedadına bağladığımız ümidin qəvi və ya zəifliyinə vabəstə idi... Ordu təşkili işimiz bu intizam ilə davam edərsə bir qədər zamandan sonra mükəmməl bir ordusu ilə sayılan bir dövlət olduğumuzu hər kəs iqrar etməyə məcbur olacaqdır».

Bir sözlə, Səməd bəy Mehmandarovun parlamentdəki çıxışına olan münasibət bir daha göstərdi ki, onun ordu quruculuğu sahəsindəki yorulmaz fəaliyyəti ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. Bu faktın özü xalqın Səməd bəyin işinə və şəxsiyyətinə olan inamı əks etdirirdi. Eyni zamanda bu çıxışına bəslənilən münasibətlə Səməd bəy özü də əmin oldu ki, başladığı çətin iş ümumdövlət əhəmiyyətli bir işdir və bütün xalq da həmin işin daha ardıcıllıqla davam etdirilməsini istəyir.

## Çağırış işinin yenidən qurulması

Səməd bəy Mehmandarovun hərbi nazir kimi qarşısında dayanan başlıca çətinlik ondan ibarət idi ki, o hər şeyi yenidən başlamalı idi. Özü də Səməd bəy ordu quruculuğu prosesinin bütün sahələrinin formalaşmasını eyni zamanda təşkil etməli idi. Çünki bu sahələr bir-biri ilə sıx əlaqədədir və onların hər hansı birisinin düzgün qurulmaması digər sahələrin də mükəmməl olmayacağına zəmin yaradardı. Miqyasından asılı olmayaraq kiçikdən böyüyə sonsuz sayda problemlərin qarşılıqlı həllinə nail olmaq, özü də Azərbaycanın o vaxtkı konkret tarixi şəraitində onları düzgün nizamlamaq üçün məhz Səməd bəy kimi şəxsiyyətin təşkilatçılıq qabiliyyəti lazım idi. Parlamentdəki çıxışından da görünür ki, o öz fəaliyyətində obyektiv çətinliklərdən başqa subyektiv çətinliklərlə də qarşılaşırdı. Lakin dönməzlik, qətiyyət və ardıcıllıq tədricən mövcud problemləri uğurla həll etməyə imkan verirdi. Ona görə də Səməd bəyin hərbi nazir kimi ilkin olaraq hansı sahəyə çox diqqət yetirdiyinin tədqiqat obyektinə çevrilməsi şərtidir. Səməd bəy bütün məsələlərin qarşılıqlı şəkildə eyni vaxtda həll olunmasına çalışırdı. Onun diqqət mərkəzində olan bu kompleks məsələlərdən biri də çağırış işinin

yenidən qurulması idi. Bu sahədə vəziyyət sözsüz ki, heç də ürəkaçan deyildi və yuxarıda qeyd olunanlar da bunu təsdiq edir. Ancaq çağırış işinin bir xüsusiyyəti vardı. Ordu quruculuğunun bu sahəsi əhalinin gündəlik yaşayışı, ailə qayğıları ilə daha çox bağlı olan sahədir. Səməd bəy bu işə başlarkən sahənin sistemini və hüquqi bazasını yaratmalı və onların düzgün təşkili ilə həm də əhalinin etimadını qazanmalı, xalqın orduya bağlılığını möhkəmləndirməli idi. Həmin məsələlərin həllinə nail olmaq üçün Səməd bəy inzibati orqanların və yerli hakimiyyət qurumlarının səmərəli fəaliyyət göstərəcəyinə böyük ümidlər bağlayırdı. Çünki istər çağırışçı siyahılarının tərtib edilməsi, istəsə də fərarilərin axtarılıb tapılması və onların geri qaytarılması yerli orqanların necə fəaliyyət göstərməsi ilə birbaşa bağlı idi. Yəni, Səməd bəy bu istiqamətdə hərbi strukturlarla Daxili İşlər Nazirliyinin yerlərdəki strukturları arasında qarşılıqlı anlaşma yaradılmasına çalışırdı. Bu məqsədlə Səməd bəy Mehmandarov hələ parlamentdə çıxış etməzdən xeyli əvvəl məktubla daxili işlər nazirinə müraciət etmişdi.

Bu məktubda başlıca olaraq fərarilik məsələlərinə, onu doğuran səbəblərə və aradan qaldırılması yolunda Daxili İşlər Nazirliyi orqanlarının qarşısında dayanan vəzifələrə toxunulurdu. Məktubda göstərilirdi ki, bu bəlanın başlanğıcı hələ türk qoşunları Azərbaycanda olarkən qoyulmuşdu və indiyədək onun qarşısını almaq mümkün olmamışdır. Hərbi xidmətə yeni cəlb olunanların hələ türk komandanlığı dövründən
başlanan fərariliyinə bu günə kimi son qoyulmamışdı. Əvvəllər bunun üçün müxtəlif səbəblər mövcud idi: pis yemək, paltar və ayaqqabının verilməməsi, başlıcası isə türk
komandirlərinin cavan əsgərləri çox möhkəm döyməleri. Silahlı qüvvələrə rəhbərlik mənə həvalə edildiyi indiki zamanda isə hərbi hissələrə xidmət şəraiti xeyli dəyişmişdir. Yemək yaxşılaşmış, paltar və ayaqqabı verilir, türk komandanlığı zamanı tətbiq edilən döyülmə hallarının gələcəkdə olmaması üçün ciddi göstərişlər verilmişdir .

S.Mehmandarov narahatlıqla qeyd edirdi ki, xidmət şəraitində belə müsbət dəyişikliklərin yaranmasına baxmayaraq fərarilik hələ də davam edir. Onun fikrincə, bunun əsas səbəblərindən biri Əxzi-əsgər idarələrinin fəaliyyətinin düzgün təşkil edilməməsi ilə bağlı idi. Əxzi-əsgər idarələrinin rəisləri çağırış işinin təşkili üçün əllərində əsas tutmalı olduqları sənədlərə açıq-açığına məhəl qoymurdular və bu işi əsasən öz şəxsi mənafeləri üzərində qurmağa çalışırdılar. Xidmətə o adamlar çağırılırdılar ki, onların rüşvət verib canlarını qurtarmaq imkanı yox idi. İmkanlı şəxslər isə qeyri-qanuni əlaqələr yaradır və müəyyən məbləğ əsasında övladlarını əsgəri xidmətdən azad edirdilər. Məktubda göstərilirdi ki, belə seçmə üsulunun tətbiqi nəticəsində qoşun hissələrində bir nəfər də olsa imkanlı adamın övladı yoxdur. Yalnız Praporşiklər məktəbində imkanlı ailələrin nümayəndələrinə rast gəlmək olardı ki, onlar da öz arzusu ilə bura gəlmişdilər.

S.Mehmandarov fərariliyin mövcudluğunun digər səbəbləri barədə öz məktubunda belə yazırdı: "İkincisi, hərbi mükəlləfiyyətin bütün ağırlığı kənd cavanlarının, xüsusilə də
kasıbların üzərinə düşmüşdür. Belə ki, kənd komissiyaları və kəndlərin məs'ul

şəxsləri çağırış siyahılarını tərtib edərkən, öz mənfəətləri naminə ora əsasən çağırış yaşına
çatmamış yeniyetmələri və ya çağırış yaşını ötmüş gəncləri daxil edirdilər. Bunu dəfələrlə çağırış zamanı Əxzi-əsgər idarələrində də bildirmişlər. Üçüncüsü, qəza və şəhər polis
nümayəndələri çağırış siyahılarının düzgün tərtib edilməsini gözləməli olduqları halda bu xidməti vəzifələrinə laqeydcəsinə yanaşmış və bu istiqamətdə cinayətkar səhlənkarlığa yol vermişlər. Qubernatorluq tərəfindən dəfələrlə xəbərdar olunmalarına baxmayaraq polis nəfərləri fərariləri tutmurlar. Buna görə də fərarilər açıq-açığına küçələrdə gəzir və sakitcə evlərində yaşayırlar" .

Məktubda bildirilirdi ki, hərbi hissələrdən qanunsuz yerə buraxılmış olan gənclər də bütün günü şəhərdə veyillənirlər. Onların özləri könüllü şəkildə xidmətə qayıtmaq istəmədikləri
kimi, polis orqanları da bununla bağlı heç bir qətiyyətli tədbirə əl atmırdı və əslində elə polis orqanlarının gözü qarşısında fərarilik əl-qol açırdı. S.Mehmandarov məktubunda polis orqanlarının daha bir səhlənkarlıq hərəkətini daxili işlər nazirinin diqqətinə çatdırırdı. Onun qeyd etdiyinə görə, polis mühafizə dəstələrinin tərkibində çoxlu sayda çağırış yaşı çatmış gənclər var idi. Həmin gənclər əsgəri xidmətə yollanmamaq üçün bu dəstələrin tərkibinə daxil olurdular. Bu dəstələrin tərkibinə hətta fərarilər də mövcud idi. Polis orqanları isə belə şəxsləri xidmətə yollamaqdansa, onları himayə edirdi. "Bütün bu təəssüf doğurucu hallar çağırışçı gənclərə zərərli tə'sir göstərir. Onlar Əxzi-əsgər idarələri rəislərinin, kəndin məs'ul şəxslərinin və polis nümayəndələrinin qeyri-doğru hərəkətlərindən qəzəblənərək və fərarilərə qarşı heç bir tədbir görülmədiyini bilərək xidmətdən qaçırlar. Əsgərlərin məişətinin qoşunlarda yaxşılaşdırılması üçün görülən işlər də fərarilik axınının qarşısını almağa qadir deyildir".

Hərbi xidmətə çağırışın təşkilində mövcud olan nöqsanların aradan qaldırılması üçün S.Mehmandarov daxili işlər nazirindən daha qətiyyətli tədbirlərin həyata keçirilməsini xahiş edirdi. Məktubda göstərilirdi ki, fərarilərin tutulub saxlanması barədə polis orqanlarına ciddi tapşırıqların verilməsi, fərarilərin tutulmasına barmaqarası yanaşan polislərə qarşı isə sərt cəzaların tətbiq edilməsi, onların məhkəmələrə verilməsi yaxşı olardı. S.Mehmandarov onu da tə'kid edirdi ki, əvvəlki çağırış siyahıları yenidən tərtib olunsun, burada yol verilmiş olan çatışmazlıqlar aradan qaldırılsın, çağırışçıların toplanmasında mövcud olan ədalətsizlik ləğv edilsin və bütün sosial təbəqələrin nümayəndələri qanunauyğun olaraq xidmətə cəlb edilsinlər.

Daxili işlər nazirinə ünvanladığı məktubunu S.Mehmandarov belə tamalayırdı: "Yaranmış vəziyyətdə nöqsanların aradan qaldırılması üçün tə'cili tədbirlər görülməsə, hərbi hissələrin komplektləşdirilməsi qeyri-müəyyən vaxta qədər tə'xirə salınacaqdır. Bu isə bir sıra məntəqələrdə təbliğatçı çıxışlarla və talançı dəstələrin meydana gəlməsi ilə pozulmaqda olan daxili sabitliyin bərqərar edilməsi üçün öz ordusunun tezliklə formalaşdırılmasını tələb edən ölkəyə sonsuz fəlakətlər gətirə bilər .

S.Mehmandarov son aylar ərzində aparılan çağırış işində yol verilmiş

nöqsanlardan birini də əhalinin ailə vəziyyətinin nəzərə alınmamasında görürdü. Rüşvət vermək imkanı olmayan ailələrin övladları heç nəyə diqqət yetirilmədən qoşun hissələrinə göndərilirdi. Ata-ananın yeganə övladı və yeganə çörək gətirəni də əsassız olaraq xidmətə cəlb edilirdi ki, bu da camaat arasında haqlı narazılıqların genişlənməsinə səbəb olurdu. Səməd bəy çağırış işində belə ədalətsizliyə yol verilməməsi və onun hüquqi cəhətdən möhkəmləndirilməsi üçün Nazirlər Şurasının qarşısında vəsatət qaldırırdı. Azərbaycan
hökumətinin 18 yanvar 1919-cu il tarixli qərarı ilə ailənin yeganə övladı və müəllimlər hərbi mükəlləfiyyətdən azad edildilər .
S.Mehmandarov çağırış işinin vəziyyətində dönüşə nail olması üçün onun sisteminin təkmilləşdirilməsinə çalışırdı. Nazirliyin aparatında çağırış və səfərbərlik işinə rəhbərlik edən xüsusi struktur Azərbaycan Ordu Livası rəyasəti (Upravlenie mestnoy briqadı) adlanırdı. Polkovnik Klimentyev bu rəyasətin rəisi tə'yin edilmişdi. 1918-ci ilin dekabr ayının 10-da imzaladığı 10 saylı əmrində S.Mehmandarov polkovnik
Klimentyevdən tələb edirdi ki, həm çağırışın mövcud vəziyyəti, həm də onun bütünlükdə yaxşılaşdırılması barədə öz fikir və mülahizələrini ümumiləşdirib təqdim etsin. S.Mehmandarov başlıca diqqəti hərbi rəislərin idarələrinin sayının artırılmasına, əhalinin sıx olduğu ərazidə də yeni çağırış orqanlarının yaradılmasının məqsədəuyğunluğuna yönəldirdi. Onun fikrincə, Ordu Livası rəyasəti hərbi rəislərin idarələrinin fəaliyyəti üzərində nəzarəti daha da gücləndirməli, çağırışın təşkilində bu orqanların yol verdiyi və camaatın haqlı narazılığına səbəb olan nöqsanlar haqqında qətiyyətli tədbirlər həyata keçirilməli, günahkar şəxslər cinayət məs'uliyyətinə cəlb edilməlidirlər .

Əmrdə hərbi rəislərin idarələrinin Əsasnaməsinin layihəsinin hazırlanması da polkovnik Klimentyevə tapşırılırdı. Hərbi rəislərin idarələri bölmələr üzrə çağırışın təşkilinə ümumi rəhbərlik edirdi. Çağırış işinin icrası isə Daxili İşlər Nazirliyinə tabe olan Əxzi-əsgər idarələrinin üzərində idi. Tezliklə çağırış işinin hüquqi bazasının təkmilləşdirilməsi məqsədilə 1918-ci ilin
ortalarında əhalinin hərbi mükəlləfiyyəti barədə qəbul edilmiş qanun dövrün tələblərinə cavab verməyən qeyri-kamil bir sənəd kimi ləğv edildi. S.Mehmandarovun 1919-cu il 5 fevral tarixli 10 saylı əmri ilə Azərbaycanın çağırış işinin təşkili ilə bağlı yeni qanunu hazırlananadək Çar Rusiyası dövrünün müvafiq qanunu əsas götürülməli idi . Əmrdə deyilirdi: «Azərbaycan əhalisinin hərbi mükəlləfiyyət keçməsi haqqında türklər tərəfindən müəyyənləşdirilmiş qanun mükəmməl olmayan və yerli əhalinin ruhuna cavab verməyən qanun kimi ləğv edilir. Bundan sonra hərbi mükəlləfiyyət sahəsində Azərbaycan hökuməti tərəfindən yeni qanun hazırlanana kimi Rusiya qanunvericiliyi əsas tutulsun».

Səməd bəyin bu əmrinə əsasən hərbi rəislərin idarələrinin sayı artırıldı. Sayı 6-ya çatdırılmış həmin idarələr aşağıdakı şəhər və məntəqələrdə yerləşməli idilər: 1. Gəncə şəhərində yerləşən hərbi rəis idarəsi. Bu idarənin rəisi podpolkovnik Vəzirov tə'yin edilmişdi. Həmin idarə Gəncə və Qazax qəzalarını əhatə edirdi; 2. Nuxa şəhərində yerləşən hərbi rəis idarəsinə rotmistr Qabulov başçılıq edirdi. Bu idarəyə Zaqatala dairəsi, Nuxa və Ərəş qəzaları daxil idi; 3.

Bərdə şəhərindəki idarənin rəisi podpolkovnik Zilov idi. Bu idarəyə Cavanşir, Qaryagin, Şuşa və Zəngəzur qəzalara aid idi. Bərdədə yerləşən idarə çox böyük ərazini əhatə edirdi və buna görə də bütün ərazilərdə düzgün nəzarətin həyata keçirilməsi xeyli çətin idi. S.Mehmandarov nəzərdə tutmuşdu ki, imkan yaranan kimi Şuşada yeni bir hərbi rəis idarəsi yaradılsın və Şuşa ilə Zəngəzur qəzaları bu idarənin əhatə dairəsinə daxil edilsin; 4. Qubada yerləşən idarənin rəisi podpolkovnik Məmmədbəyov idi. Bu idarə Bakı və Quba qəzalarında və Bakı şəhərində çağırışın təşkili ilə məşğul olmalı idi; 5. Salyanda yaradılmış idarənin rəisi polkovnik Brılkin tə'yin edilmişdi. Bu idarənin fəaliyyət sahəsinə Cavad və Lənkəran qəzaları daxil idi. 6. Göyçayda yerləşən idarə isə Göyçay və Şamaxı qəzalarını əhatə edirdi. Bu idarənin rəisi podpolkovnik Voyçek idi .

S.Mehmandarov 1919-cu il fevralın 5-də imzaladığı əmrində də çağırış işindəki nöqsanların hələ də davam etdiyini təşviş və narahatçılıqla qeyd edirdi. Onun başlıca iradı yenə də yerli idarəetmə orqanları tərəfindən siyahıların düzgün tərtib edilməməsi, bu siyahılarda çağırışçıların hamısının nəzərə alınmaması ilə bağlı idi. Səməd bəy tələb edirdi ki, bu siyahılar tərtib edilərkən Azərbaycan hökumətinin müvafiq dekreti rəhbər tutulsun və sosial mənşəyindən asılı olmayaraq 19 yaşından 24 yaşına kimi bütün gənclər çağırışçı siyahısına daxil edilsinlər. S.Mehmandarov tə'kid edirdi ki, çağırış işinə başlanması ərəfəsində siyahılar bir də yoxlansın və dəqiqləşmələr aparılsın. Hərbi rəislər və yerli idarəetmə orqanları müxtəlif yaşayış məntəqələrində çağırışın müxtəlif vaxtda aparılması gününü müəyyən etməli idilər. Bu, S.Mehmandarov tərəfindən çağırışın təşkilinə gətirilmiş bir yenilik idi. Əvvəllər çağırış bütün yaşayış məntəqələrində eyni vaxtda aparılırdı. Ona görə bütün məntəqələrdə çağırışın gedişini lazımi nəzarət altında saxlamaq mümkün olmurdu. S.Mehmandarov mövcud tarixi şəraitdə yaşayış məntəqələrində çağırışın eyni vaxtda deyil, müxtəlif vaxtlarda aparılmasını və bu zamanda nəzarətin lazımi səviyyədə təşkil edilməsini məqsədəuyğun bilirdi : «Çağırış üzrə işlərin gedişi barədə yerlərdən alınan məlumatlardan aydın olurki, türk komandanlığı tərəfindən başlanmış yığım sistemsiz və bəzi istisna ilə əsasən şəxsi iradə ilə təyin edilmiş türk zabitləri tərəfindən aparılırdı. Nəticədə, yığım qeyri-bərabər və ədalətsiz olmuş, əhalinin bütün təbəqələri və sinifləri üçün hərbi mükəlləfyiyyətin məcburi prinsipi arxa plana keçmişdi. Bundan başqa çağırış siyahıları da yerli orqanlar tərəfindən heç də düzgün tərtib edilməmişdi, orada çoxlu xətalar var idi. Bəzi qəza rəisləri çağırışın başa çatdığını söyləsələr də, yuxarıda göstərilən səbəblərə görə türklər tərəfindən aparılmış çağırışı icra edilmiş hesab etmiş olmaz. Ona görə də dərhal çağırış siyahılarına yenidən baxılsın və onlar yenidən tərtib edilsin. Ora hökumətin dekteri ilə müəyyyən edilmiş qaydada çağırış yaşında olan 19 yaşından 24 yaşına kimi bütün gənclər istisnasız olaraq daxil edilməlidirlər. Xüsusi diqqət yetirilməlidir ki, bu siyahıya bəylərin,tacirlərin və imkanlıların da övladları daxil edilsinlər. Çağırışdan əvəl siyahılar Əxzi-əsgər rəisləri tərəfindən yoxlanılmalıdır. Əxzi-əsgər rəisləri Əxzi-əsgər şöbələrinin nümayəndələri ilə birlikdə çağırış gününü təyin etməlidirlər».

S.Mehmandarov bu əmrində fərarilərə qarşı mübarizənin gücləndirilməsini

də qətiyyyətlə irəli sürürdü. O ilk növbədə bu bəlanı törədən səbəbləri diqqət mərkəzinə gətirir və onun aradan qaldırılması üçün zəruri tədbirlərin görülməsini tələb edirdi: «Yeni çağırılanların fərarilik etməsi səbəbləri içərisində əsas yerlərdən birini onların düzgün yığılmaması  təşkil edir. Bu qeyri-düzgünlüyün aradan qaldırılması üçün yerli orqanlar tərəfindən təcili tədbirlər görülməlidir. Eyni zamanda bütün fərarilər vətürk komandanlığı tərəfindən hissələrdən buraxılanlar tutulmalıdırlar. Onların cəzasız qoyulması əhali arasında çaşqınlıq yaradır və çağırışın uğurla aparılmasına əngəl olur, fərariliyi gücləndirir və fərarilərdə inam yaradır ki, onların xidməti tərk etməsi digər keçmiş yoldaşları kimi cəzasız qalacaqdır».

S.Mehmandarov əmrində göstərirdi ki, qəzalarda xidmətdən yayınmış tacir, bəy və imkanlı adamların uşaqlarının siyahısı tərtib ediləcək və qəza rəisinin adı əlavə olunmaqla həmin siyahılar müvafiq dövlət orqanlarına təqdim ediləcək ki, həm birincilər, həm də ikincilər barəsində lazımi ölçü götürülsün .

1919-cu il fevral  ayının 12-də imzaladığı digər bir əmrində S.Mehmandarov hərbi hissə və təşkilatların komandirlərindən qətiyyətlə tələb edirdi ki, hər həftə fərarilər barədə ona məlumat versinlər və bu məlumatda ötən həftə ərzində neçə fərari olduğunu, özləri ilə hansı xidməti əşyaları apardığı göstərilsin. S.Mehmandarov eyni zamanda onu da tələb edirdi ki, fərarilərin yaşadıqları məntəqələrin yerli orqanları onların tutulmasına cəlb edilsin və bu işdə fərarilərin qohumları hər hansı maneçilik törədərsə onlar haqqında lazımi ölçü götürülsün.

S.Mehmandarovun çağırış və səfərbərlik işinin dövrün tələbləri səviyyəsində qurulması üçün irəli sürdüyü məsələlər və təkliflər heç də cavabsız qalmırdı. Müvafiq hərbi orqanlarla bərabər yerli idarəetmə orqanları da bu məsələyə diqqəti artırırdılar. Məsələn, 1919-cu il fevralın 15-də Qarabağ general-qubernatoru X.Sultanovun sədrliyi altında Şuşada keçirilən qəza rəislərinin iclasında bir sıra digər məsələlər kimi çağırış və səfərbərlik işinin vəziyyəti də müzakirə olundu və bununla bağlı müvafiq qərarlar qəbul edildi. Qəza rəisləri qərara aldılar ki, hər bir kənddə əhali arasında nüfuz və hörmətə malik olan adamlardan ibarət xüsusi komissiyalar təşkil edilsin, çağırışçıların siyahılarının tərtib edilməsi və toplanılması bu komissiyalara tapşırılsın.

Yerlərdən Hərbi Nazirliyə daxil olan mə'lumatlar da fərariliyə qarşı aparılan işlərin səmərəsinin xeyli artmasından xəbər verirdi. 1919-cu il mart ayının ortalarında Ərəş qəzasının rəisi Ordu Livası rə'yasətinin rəisinə göndərdiyi məktubunda fərarilərin tutulub saxlanılmasına diqqətin gücləndirildiyini bildirirdi. O yazırdı ki, pristavlar, kənd böyükləri bir-bir, iki-iki fərari tutub qəza orqanlarına təhvil verirlər. Qəza orqanları isə onları qaçdıqları hissələrə göndərirdi. Fərarilərin xidmət yerinə çatdırılması üçün müşayiətçi şəxslər tə'yin olunurdu. Ancaq hər gün gətirilən fərarilərin yanına müşayiətçi qoşub hissələrə göndərilməsinin müəyyən çətinlik yaratdığını nəzərə alaraq qəza rəisi xahiş edirdi ki, Ərəş ərazisindən tutulan fərarilərin Ləkidəki topçu cəbbəxanasına təhvil verilməsinə icazə verilsin. Hərbi nazir S.Mehmandarov bu  təklifi müdafiə etdi. Çünki bu, fərarilərlə iş aparmaq üçün həm yerli orqanların vəziyyətini yüngülləşdirir, həm də daşınmalara olan xərci müəyyən qədər azaldırdı .

Fərarilərə qarşı mübarizə Zaqatala bölgəsində də xeyli güclənmişdi. Zaqatalada olan əlahiddə tabordan fərarilik edənlərin sayının çoxalması barədə mə'lumat alınan kimi qubernator əhaliyə müraciət etdi. O, bildirirdi ki, fərariliyin artması ilə barışa bilməz və bununla bağlı ən sərt qərarların qəbul edilməsindən çəkinməyəcəkdir. Qubernator bə'yan edirdi ki, fərariləri gizlədən şəxs Vətən qarşısında məs'uliyyət daşıyır. Günahkar şəxslər 5 min rubla kimi cərimə ediləcək, ya da 3 ay müddətində həbs olunacaqlar.

Lakin bu heç də o demək deyildi ki, çağırışla bağlı hər yerdə dərhal ciddi dönüş yarandı. Müsbət meyllərin artmasın baxmayaraq bir-çox yrlərdə çağırış işinin təşkilinə qeyri-ciddi münasibət qalmaqda davam edirdi. Bunu Səməd bəy Mehmandarov 1919-cu il martın 17-də Gəncə qubernatoru İ.Vəkilova yaxdığı məktubundan da görmək mümkündür. Həmin məktubu yazmaqla Səməd bəy Gəncə qubernatorunun diqqətini onun tabeliyində olan məsul işçilərin, polis əməkdaşlarının ümumdövlət əhəmiyyəti kəsb edən çağırış işinin təşkilinə və aparılmasına laqeydcəsinə yanaşmalarına və bununla bağlı lazımi ölçülər götürülməsinə cəlb etmək istəyirdi. Səməd bəyin fikrincə Gəncə quberniyasının qəzalarında hələ də şəxsi maraqlarını dövlət maraqlarından üstün tutaraq çağırışçı siyahılarını öz bildikləri kimi tərtib edirlər, müəyyən adamları qəsdən bu siyahılara daxil etməyən vəzifəlilər var idi. S.Mehmandarov məktubda qeyd edirdi ki, yerli orqanlar hətta birbaşa tabeçiliyndə olduqları daxili işlər nazirinin əmrini də yerinə yetirmirdilər: «İş o yerə çatmışdır ki, birbaşa rəhbəri olan daxili işlər nazirinin bu ilin 12 fevralında qubernatorun adına göndərdiyi 864 nömrəli məktubunda çağırışın ən qısa müddətə belə dayandırılmaması haqqında göstərişi heç də bütün qəzalarda yerinə yetirilməmişdir. Buna misal Şuşa və Karyagin ola bilər. Orada hələ indiyədək hətta çağırışçı siyahıları belə tərtib edilməmişdir. Hansı qəzalarda kİ siyahılar artıq tərtib olunub və çağırışa başlanıb yuxarıda qeyd edildiyi kimi orada da küllü miqdarda kobud səhvlər müşahidə olunur. Çağırış siyahılarına çağırış yaşını keçmiş və çağırış yaşına çatmamış şəxslər daxil edilir».

S.Mehmandarov konkret olaraq bəzi rayon və qəzalarda çağırışın yarıtmaz təşkil edildiyini bildirirdi. Onun fikrincə bu yarıtmazlığın nəticəsi idi ki, həmin ərazilərdə hətta minimum miqdarda belə çağırışçı toplanmamışdı. Səməd bəy onu da qeyd edirdi ki, Gəncə qəzasında ruhanilər əhalinin savadsızlığından istifadə edərək onların arasında əsgərlik əleyhinə təbliğat aparırdılar və bununla da çağırışa əks-təsir göstərirdilər. Belə hallar bəzən yerli orqanların gözləri qarşısında baş versə də onlar lazımi tədbirlər görmürdülər. Səməd bəy Mehmandarov Gəncə qubernatorundan xahiş edirdi ki, bu məsələyə də diqqətlə yanaşsın və qısa müddətdə formalaşdırılmalı olan Azərbaycan ordusuna əməli yardım göstərsin. Səməd bəy onu da əlavə edirdi ki, vilayətdə çağırış işi öz yoluna qoyulmasa onda daxili işlər nazirinə müraciət etmək məcburiyyətində qalacaqdır.

1919-cu il aprelin 14-də respublika parlamenti Hərbi Nazirliyin təqdim etdiyi çağırışdan güzəştlər layihəsini təsdiq etdi. S.Mehmandarovun parlamentdəki çıxışında toxunduğu kateqoriyalardan başqa poçt-teleqraf idarəsində işləyənlər də çağırışdan güzəşt siyahısına daxil idi. Dəmir yolunda işləyən mütəxəssislər dəmir yolu bölüklərinin ehtiyat siyahılarına daxil edilirdilər .

Səməd bəyin fərariliklə bağlı Parlamentdəki çıxışı heç də bu bəlaya qarşı mübarizənin zəiflədilməsi demək deyildi. Müəyyən müsbət dəyişikliklər meydana gəlsə də, fərariliyə qarşı qətiyyətli mövqe heç vaxt zəifləməmişdi. Bütünlükdə Azərbaycan Ordusunun bütün mövcudluğu dövründə fərariliyə nə son qoyulmuşdu, nə də bu məsələ diqqətdən kənarda qalmışdı.

Hərbi nazir S.Mehmandarov tələb edirdi ki, bütün hissələr vaxtaşırı fərarilər haqqında raport versin və bu raporta aşağıdakı mə'lumatlar daxil edilsin: 1) fərarinin adı və familiyası; 2) qaçma vaxtı; 3) fərarinin vətəni (quberniya, qəza, kənd); 4) fərari hansı xidməti mülkiyyəti özü ilə aparıb; 5) fərariliyə səbəb .

Səməd bəy eyni zamanda tələb edirdi ki, xidmətə qayıdan fərarilər barədə də raportlar verilsin və həmin raportlara aşağıdakı mə'lumatlar daxil edilsin: 1) fərarinin adı; 2) qaçma tarixi; 3) qayıtma tarixi; 4) fərarilik barədə nə vaxt və hansı nömrəli raportla Ordu Livası rəyasətinə mə'lumat verilib; 5) hissədən aparılmış xidməti əşyalardan hansı geri qaytarılmayıb .

Fərariliyə qarşı mübarizənin səmərəliliyinin artırılması üçün bir sıra digər qətiyyətli addımlar da atıldı. S.Mehmandarovun 14 iyun 1919-cu ildə imzaladığı 292 saylı əmri də belə addımlardan biri idi. Bu əmrdə fərarilərə və onları gizlədənlərə qarşı bir sıra cəza normaları təsbit edilmişdi. Daxili İşlər Nazirliyi ilə razılaşdırılandan sonra qəbul edilən bu normalara görə fərarini gizlədən hər bir şəxs 10 min rubl məbləğində cərimə olunur, ya da 6 ay müddətində həbs edilirdi. Fərarinin gizləndiyi kəndin vəzifəli şəxsləri onun tutulması üçün səhlənkarlıq göstərməkdə günahlandırılardılarsa, dərhal vəzifədən azad edilməli idilər. Sonra, əgər fərari hissənin əşyalarını özü ilə aparmış olardısa onun dəyərini ikiqat məbləğində ödəməli idi. Əsgərin özünün pulu olmasa həmin pul onun ailəsindən tutulurdu. Nəhayət, çağırışçının gizlədilməsi və ya çağırışdan yayındırılmasında günahlandırılan ailə 10 min rubl cərimə verməli və ya ailənin böyük kişisi 6 ay müddətində həbs olunmalı idi .

1919-cu ilin iyun ayında Azərbaycan Parlamenti bir daha çağırış və səfərbərliyin təşkili, fərariliyə qarşı mübarizənin gücləndirilməsi ilə bağlı məsələ müzakirə etdi və burada müvafiq qərara əsasən çağırış və səfərbərlik işində əsas tutulan hərbi mükəlləfiyyət haqqında 1915-ci ildə qəbul edilmiş Əsasnamənin 20-ci maddəsində dəyişiklik olundu. Bu dəyişiklikdə bildirilirdi ki, 1918-19-cu illərdə xidmətə çağırılan 19-24 yaş arasındakı gənclərin xidmət müddəti 2 il saxlanılır və sonra onlar ehtiyata buraxılırlar. Fərarilər və xidmətdən yayınanlar üçün isə xidmət müddəti 3 il e'lan olunurdu. Bundan əlavə, əsgərlərin fərarilikdə və həbsdə olduğu müddət xidmət müddəti sayılmırdı .

Parlamentin bu qərarının e'lan edilməsi ilə bağlı imzaladığı əmrində S.Mehmandarov tələb edirdi ki, fərarilikdə olan əsgərlər haqqında dərhal onların xidmət kartında qeyd edilsin ki, gələcəkdə həmin qeydlərə əsasən fərarilikdə olmuş əsgərin xidmət müddəti üç ilə çatdırılsın .

Xidmət kartlarının tətbiqi də xidmətin təşkilinə gətirilən yeniliklərdən biri

idi. Həmin yeniliyin tətbiqinə Parlamentin çağırışla bağlı iyul ayında qəbul etdiyi qərardan sonra başlanmışdı. Bu kartlar əsgərlərin ştat sayı miqdarında tutulmalı və bura əsgərin xidmətindəki bütün yerdəyişmələr, xidməti dəyişikliklər yazılmalı idi. Səməd bəy tələb edirdi ki, kartların işlənməsi üçün xüsusi bir katib ayrılsın. O eyni zamanda çağırışçılar üçün hissələrdə ayrıca əlifba kitabının tutulmasını da vacib bilirdi .

Qəbul edilən qərarlar və onların həyata keçirilməsi ilə bağlı aparılan işlər bir sıra hissələrdə fərariliyin xeyli səngiməsinə səbəb oldu. Məsələn, 3-cü Gəncə piyada alayından verilən raportda göstərilirdi ki, S.Mehmandarovun 14 iyun 1919-cu il tarixli 292 saylı əmri Azərbaycan dilinə tərcümə olunub əsgərlərə şərh edildi. Həmin əmr vərəqələrdə çap edilərək kazarmalarda asılmışdı ki, daim əsgərlərin gözləri qarşısında olsun. Bununla bərabər, alay hərbi məhkəmələrinin fəaliyyəti də əsgərlərə xeyli tə'sir göstərmiş və vəziyyət xeyli yaxşılaşmışdı .

Fərariliyin xüsusilə kütləvi hal aldığı Süvari diviziyasında da 1919-cu ilin avqust ayında vəziyyət xeyli sabitləşmişdi.Bu diviziyada fərariliyin mövcudluğu daha çox kənardan göstərilən tə'sirlərlə bağlı idi. Məsələn, Qarabağda olan süvari hissələrinə bu bölgədə aparılan təbliğat işləri və köçərilik mövsümünün başlanması tə'sir göstərirdisə , böyük bir hissəsi ləzgilərdən ibarət olan və Dağıstan sərhəddində yerləşən 1-ci Tatar süvari alayına isə Dağıstandan aparılan təbliğat öz tə'sirini göstərirdi.

Ancaq bütünlükdə vaxt ötdükcə fərariliyin azalması meyli özünü göstərməkdə idi. Məsələn, 3-cü Gəncə piyada alayında 1919-cu ilin iyun ayında fərarilərin sayı 129 nəfər, həmin il noyabr ayının birinci yarısında artıq 44 nəfər idi. 6-cı Göyçay piyada alayında noyabr ayında fərarilərin sayı 77 nəfər, dekabrın əvvəllərində 31 nəfər olmuşdu. 2-ci Zaqatala piyada alayında avqustun 2-ci yarısında fərarilərin sayı 85 nəfər idisə, sentyabrın əvvəllində onların sayı 46 nəfərə enmişdi.

Aparılan işlər çağırış və səfərbərliyin təşkilində də bir canlanma yaratmışdı. Hətta birbaşa hissələrə gələrək xidmətə könüllü yazılanlar da var idi. Ancaq S.Mehmandarov tələb edirdi ki, Praporşiklər məktəbindən başqa heç bir hissənin könüllüləri qəbul etmək səlahiyyəti yoxdur. Xidmətə gələnlər mütləq Əxzi-əsgər idarələrinin qeydiyyatından keçməli və onlar tərəfindən hissələrə göndərilməli idi .

S.Mehmandarovun göstərdiyi bütün sə'ylərə baxmayaraq, çağırış işindəki nöqsanlar qalmaqda davam edirdi. Bir sıra məntəqələrdə adı çağırış siyahısında olan gənclər çağırış məntəqəsinə gətirilirdilər. Ancaq qeydiyyatdan keçdikdən sonra onlar öz qohumlarının biri ilə əvəz edilirdilər. Adətən belə
çağırışçılar ya böyük qardaşla, ya da səhhəti normal olmayan bir nəfərlə əvəz edilirdi ki, hissədə o, xidmətə yararsız sayılıb geri qaytarılsın. Çağırışçının əvəz edilməsi isə çox vaxt hissələrə aparılarkən yolda baş verirdi. Belə hallara yol verilməməsi üçün S.Mehmandarov tələb edirdi ki, Əxzi-əsgər idarələrində həkim komissiyasından keçərkən bütün çağırışçıların adlarının qarşısında onların fiziki ölçüləri yazılsın və hissədə qəbul edilərkən çağırışçılar həmin fiziki ölçülərə görə yoxlansınlar.

Çağırış işinin icrası ilə bağlı yerli hakimiyyət orqanlarının, xüsusilə cavabdeh polislərin fəaliyyətindəki səhlənkarlıq da aradan qaldırılmamışdı. S.Mehmandarov bu məsələ ilə bağlı bir neçə dəfə Daxili İşlər Nazirliyi qarşısında məsələ qaldırmışdı. Yerlərdə mövcud olan bürokratizm, qanunsuzluq halları, Əxzi-əsgər idarələrində də özünü göstərirdi.

Bununla belə, çağırışın ümumi səviyyəsi hərbi naziri qane etmirdi. 1919-cu ilin oktyabr ayında o, daxili işlər nazirinin adına yazdığı məktubunda bildirirdi: "Çox böyük təəssüflə
qeyd edirəm ki, maliyyə məsələlərindən başqa bütün məsələlərdə mənə yalnız sözdə kömək edirlər. Artıq beş aydır ki, mən ordunun komplektləşdirilməsi, təchizatı və səfərbərlik üzrə bir sıra məsələlər qaldırmışam, lakin onların heç biri öz həllini tapmamışdır" . Nazir qeyd edirdi ki, Mərkəzi Əxzi-əsgər idarəsinin Əsasnaməsinin hazırlanması, partizanların siyahısının tutulması, atların, gəmilərin mükəlləfiyyəti, əhalinin müdafiə işlərinə cəlb edilməsi qaydaları ilə bağlı olan həmin məsələlər Dövlət Müdafiə Komitəsinin iclaslarında da qaldırılmış, lakin heç biri haqqında lazımi qərar qəbul edilməmişdir. Səməd bəyə görə çağırış işinin uğuru qəza rəislərinin vicdanına bağlı idi. Hansı qəza rəisi ki, bu işə vicdanla yanaşırdı, orada vəziyyət də yaxşı idi. Məktubda Şamaxı qəzasının rəisi Zülqədərovun bu sahədə səmərəli fəaliyyəti xüsusilə qeyd olunurdu. Şamaxıdan 1800 nəfər, Kürdəmir sahəsindən isə 930 nəfər çağırışçı xidmətə cəlb olunmuşdu. Səməd bəy göstərirdi ki, 80000 əhalisi olan Bakı şəhəri 5000 çağırışçı vermək əvəzinə cəmi 800 nəfər çağırışçı toplanmışdı. Qarabağ general-qubernatorluğu 7200 nəfər əvəzinə cəmi 1902 nəfər çağırışçı vermişdi .

1919-cu ilin sonuna ordunun şəxsi hey'ətinin sayının 20 minə, 1920-ci ilin sonunda isə onun sayının 2 dəfə artırılaraq 40 minə çatdırılması planlaşdırılırdı .

Şəxsi hey'ətin sayının bir il ərzində iki dəfə artırılmasının planlaşdırılması heç şübhəsiz ki, çağırışçı ehtiyatının mövcudluğunu və bu istiqamətdə görülə biləcək işlərin nəticələrinin reallığı ilə şərtlənirdi. Səməd bəy Mehmandarov qarşısına qoyduğu planların da reallığına çalışırdı və şübhə yox idi ki, aprel çevrilişi baş verməsəydi o, mövcud olan bütün çətinliklərə baxmayaraq bu plana da nail olacaqdı. Ümumiyyətlə isə qısa müddət ərzində çoxsaylı ordunun təşkilinə nail olunması Səməd bəyin çağırış sahəsində əldə etdiyi səmərənin nəticəsi idi.

## ORDU QURUCULUĞUNUN MİLLİ XÜSUSİYYƏTLƏRİ

Müstəqil Azərbaycan ordusunun yaradılması, möhkəmləndirilməsi və real qüvvəyə çevrilməsi 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin çox mühüm və samballı səhi- fələrindən birini təşkil edir. Çünki konkret tarixi şəraitdə Azərbaycanın istiqlaliyyətinə, onun ərazi bütövlüyünə qarşı istiqamətlənmiş olan xarici təhlükənin qarşısını güclü ordu olmadan almaq

mümkün deyildi. Ordu xalqın nicatı, əmin-əmanlığının dayağı olmalı idi və ardıcıl şəkildə həyata keçirilən quruculuq işləri çox qısa zaman ərzində xalqın qüruruna və iftixarına layiq olan güclü ordunun meydana çıxması ilə nəticələndi.

Cəmiyyət quruculuğunun bütün sahələrində olduğu kimi ordu quruculuğunun da özünəməxsus obyektiv qanuna- uyğunluqları vardır və bu qanunauyğunluqlara riayət edil- məməsi ordunun formalaşdırılmasında ciddi çətinlik- lərin ortaya çıxması ilə şərtlənə bilər. Bütün dövr- lərdə, bütün ordular üçün ümumi olan qanunauyğunluqlar eyni zamanda milli ən"ənələrdən, xalqın mənəvi potensialından, ölkənin iqtisadi, siyasi, demoqrafik imkanlarından, coğrafi vəziyyətindən və s. irəli gələn xüsusiyyətləri də istisna etmir. Ordu quruculuğu üçün ümumi cəhətlər çoxluq təşkil etsə də, hər bir ölkədə bu prosesin həmin ölkəyə xas olan xarakterik xüsusiy- yətlərini də görmək mümkündür. Azərbaycan Xalq Cümhuriyyəti ordusunun qısa vaxt ərzində formalaş- dırılmasının əsas səbəblərindən biri də bu idi ki, həmin prosesə rəhbərlik edən S.Mehmandarov ümumi nəzəri dəyərlər və əldə olan təcrübə ilə ordu quruculuğunun Azərbaycan şəraitindən irəli gələn xüsusiyyətlərini çox incəliklə və üzvü şəkildə birləşdirə bilmişdi. Bu istiqamətdə Səməd bəy Mehmandarovun dəyərli xidmətləri vardır. O bütün hərbi xidmətini çar Rusiyası ordusunda keçirmiş və və bu ordunun zabit aristokratiyasının təsiri altında olmuşdu. Uzun illər Azərbaycandan uzaq düşmüşdü və Azərbaycan dilini də zəif bilirdi. Bunlar S.Mehmandarovun dünyagörüşünün də başqa xarakterdə formalaşmasına yol aça bilərdi. Əslində isə belə deyildi və Səməd bəy Mehmandarovun böyüklüyü də onda idi ki, öz milli keyfiyyətlərini qoruyub saxlaya bilmişdi. O, son dərəcə milli bir zabit idi və onun Cümhuriyyət ordusu quruculuğunda əldə etdiyi uğurların başlıca səbəblərindən biri də məhz bu prosesi milli zəmin üzərində aparmağı ilə bağlı idi. Hərbi Nazirlik bərpa edildikdən və onun təşkili tam artilleriya generalı Səməd bəy Mehmandarova tapşırıldıqdan sonra bu istiqamətdə müəyyən çətinliklər də mövcud idi. Bir tərəfdən türk qoşunları Azərbaycanı yenicə tərk etmişdilər. Cümhuriyyət ordusu quruculuğunun ilkin mər- hələsi türk hərbçilərinin rəhbərliyi altında aparıldığından ordu daxilində onların dəsti-xətti qalmaqda idi. Digər tərəfdən də Cümhuriyyət ordusunda xidmət edən yüksək rütbəli zabitlərin demək olar ki, hamısı xidməti çar ordusu sıralarında keçmişdilər və rus ordusunun ən"ənələri ruhunda tərbiyə olunmuşdular. Cümhuriyyət ordusunun milli dəyərlər üzərində formalaşdırılması üçün ilk növbədə bu təsirlərin Azərbaycan şəraitinə uyğun gəlməyən tərəfləri aradan qaldırılmalı idi. Həmin problem Hərbi Nazirliyin mövcud olduğu təxminən il yarım ərzində ardıcıl olaraq həll edildi. Ordu quruculuğuna türk və rus təcrübəsinin güclü təsirə malik olmasına baxmayaraq S.Mehmandarov Azərbaycanda milli zəminə dayaqlanan bir ordu formalaşdırılması xəttini seçdi və proseslərin sonrakı inkişafı da qonşu dövlətlərin ordu quruculuğu təcrübəsinin kor-koranə təkrarlanmamasının doğruluğunu təsdiqlədi.

Yeni keyfiyyətləri ilə fərqlənən ordunun təşki- lindən irəli gələn məsələlərin düzgün əlaqələndiril- məsi və istiqamətləndirilməsi sahəsində S.Mehmandarovun da üzərinə çox böyük məsuliyyət düşürdü. Milli dəyərlər üzərində formalaşıb milli mənafelərin keşiyində durmalı olan ordunun yaradılması

üçün qoşunların şəxsi heyəti qarşısında hansı vəzifələr dayandığını S.Mehmandarov 1918-ci il noyabr ayının 7-də Hərbi Nazirlik üzrə imzaladığı 1 saylı əmrində də əsas vəzifə kimi qarşıya qoyurdu.

İstər S.Mehmandarovun, istər Ə.Şıxlinskinin, istərsə də digər general və yüksək rütbəli zabitlərin ordudakı fəaliyyətinin başlıca istiqamətini o təşkil edirdi ki, qoşun hissələrinin təşkili milli dəyərlər üzərində aparılsın, milliyyətindən asılı olmayaraq Azərbaycan ordusu sıralarında xidmət edən hər bir şəxsdə Azərbaycanın milli mənafelərinə sədaqət hissləri aşılansın. 1918-ci il dekabr ayının 23-də imzaladığı əmrində S.Mehmandarov tələb edirdi ki, Azərbaycan ordusu sıralarında xidmətə başlayan hər bir şəxs Azərbaycan Cümhuriyyətinə sədaqət andı qəbul etməlidir. Özü də S.Mehmandarov bu tədbirin həyata keçirilməsi üçün çox qısa bir müddət müəyyənləşdirmişdi .

Qoşunların şəxsi heyətinin Azərbaycan xalqına sədaqət andının qəbul etməsi ordu quruculuğuna gətirilmiş olan milli dəyərlərdən biri idi. Həmin tədbir hissələrdə çox təntənəli şəkildə həyata keçirilir və bununla da onu qəbul edənlərdə bir milli qürur hissi formalaşdırılırdı. And içmə mərasiminin keçirilməsi üçün xüsusi hazırlıq görülür, andiçmə mərasiminin günü əvvəlcədən elan edilirdi. Tədbir böyük meydanlarda və adətən hissənin məscidinin ətrafında keçirilirdi. Çünki hissənin mollası müqəddəs quran kitabı ilə birlikdə bu tədbirin əsas iştirakçısı olurdu. Hissənin bölmələri meydanda sıraya düzülürdülər. Bəzən geri qaytarılmış fərarilər də ayrıca sıraya düzülür və bu tədbirin keçirilməsi ilə onlara müəyyən təsir göstərilirdi. Andiçmə siyahıları əvvəlcədən tərtib edilirdi. Tədbirin başlanmasından əvvəl zabitlər və komandirlər, habelə hissənin mollası bir daha əsgərlərlə söhbət aparır, qəbul edilən andın məsuliyyəti, ona əməl edilməməsinin günahları barədə məlumat verirdilər. Andiçmə mərasimi hissənin rəsmi-keçidi ilə başa çatırdı.

Milli dəyərlər ordunun qanunvericilik bazasında da öz əksini tapırdı. Doğrudur qısa vaxt ərzində bütün qanunvericilik bazasını yenidən qurmaq mümkün deyildi. Ona görə də 1919-cu ilin əvvəllərində imzaladığı əmrlərindən birində Səməd bəy Mehmandarov bildirirdi ki, 1917-ci il yanvar ayının 1-dək rus ordusunda qəbul edilən hərbi qanunvericilik aktları Azərbaycan ordusunda da qüvvədə saxlanılır (6). Azərbaycan ordusunda xidmət rejimi əsasən həmin qanunvericilik üzərində qurulmalı idi. Ancaq bu qanunvericilik aktlarının Azərbaycan ordusunda xidmətin bu və ya digər tərəfləri ilə uyğun gəlməyən məqamları ləğv edilir və nazirin əmri ilə həmin məqamlar təkmilləşdirilir, və ya yenisi ilə əvəz edilirdi. Məsələn, nazir hələ 1918-ci il dekabr ayının 27-də imzaladığı 34 nömrəli əmri ilə hərbi qulluqçular arasında salamlaşmanın Azərbaycan dilində və azərbaycanlılar arasındakı salamlaşma ənənlərinə uyğun olaraq aparılmasını tələb edirdi. Yəni, salamlaşan şəxs «salam» deməli, qarşı tərəf isə «əleyküm salam» deyə cavab verməli idi. Həmin əmrin layihəsində salamın «salam əleyküm» kimi verilməsi nəzərdə tutulmuşdu. Ancaq, S.Mehmandarov bu ifadənin ikinçi sözü ilə razılaşmamış və salamlaşmanın daha yığcam olmasını məqsədəuyğun bilmişdi. Əsgəri tərifləyərkən və ya ona təşəkkür elan edərkən «mərhəba» deyilməli, əsgər isə cavabında «çox sağ ol» deməli idi .

Orduda ünsiyyət dili də Azərbaycan dili qəbul edilmişdi. Orduda ünsiyyətin Azərbaycan dilində aparılmasını S.Mehmandarov Azərbaycan əsgərlərində milli hissələrin inkişafına kömək edəcək bir amil kimi dəyərləndirirdi. Çünki komandaların milli dildə verilməsi, dərslərin milli dildə aparılması əsgərlərdə xidmətə qarşı bir bağlılıq yaradırdı. Orduya qəbul edilən qeyri-azərbaycanlı zabitlər qarşısında belə bir tələb qoyulurdu ki, onlar bir ay ərzində komanda və əmrlərin Azərbaycan dilində qarşılığını öyrənməli və şəxsi heyətə komandaları Azərbaycan dilində verməlidirlər.Göstərilən müddət ərzində Azərbaycan dilində zəruri lüğət bazasınıöyrənə bilməyən zabitlər Azərbaycan ordusundan xaric edilməli idilər. Hərbi nazir S.Mehmandarov 1919-cu il iyunun 25-də imzaladığı başqa bir əmrində isə xüsusi olaraq qeyd edirdi ki, bu tələb gürcü zabitlərinə də aiddir və onlar Azərbaycan ordusunn ediləndən sonrakı bir ay müddətində şəxsi heyətə Azərbaycan dilində komanda vermək üçün zəruri olan lüğət bazasına malik olmalıdırlar. Əks təqdirdə bir aydan sonra onlar da xidmətdən azad edilməli idilər . Qeyri-azərbaycanlı zabitlərin Azərbaycan dilini öyrənməsi ilə bağlı 8 oktyabr 1919-cu il tarixli 460 nömrəli başqa bir əmrində hərbi nazir göstərirdi ki, komanda sözlərini Azərbaycan dilində bilməyən zabit bölük komandiri vəzifəsinə təyin edilə bilməz .

Bu tələblərin həyata keçirilməsi Hərbi Nazirliyin rəhbərliyinin daimi nəzarəti altında idi və Azərbaycan dilində əsgərlərlə ünsiyyət qura bilməyən qeyri-azərbaycanlı zabitlər müəyyənləşdirilmiş vaxt başa çatdıqdan sonra xidmətdən azad edilirdilər. Məsələn Hərbi nazir özünün 21 may 1919-cu il tarixli, 258 nömrəli əmrində qeyd edirdi ki, ötən aylar ərzində bir-sıra qeyri-azərbaycanlı zabitlər öz üzərində işləmək üçün kifayət qədər vaxta malik olsalar da Azərbaycan dilini bilməmələri və çalışqanlıq göstərməmələri üzündən fəaliyyətlərinin lazımi səmərəsi yoxdur. Ona görə də həmin zabitlər onlara bağlanılan ümidləri doğrultmadıqları üçün Azərbaycan ordusundan xaric edilirdilər: «Qoşun hissələrinin tələsik formalaşdırılması ilə əlaqədar olaraq zabitlərin çoxu qoşunların təlim və tərbiyəsində lazımi hazırlığa malik olmadan xidmətə qəbul edilmişlər. Güman etmək olardı ki, bu 5 ay müddətində onlarbu boşluğu aradan qaldıracaqlar. Ancaq təəssüf ki, dili bilmədiklərindən və təcrübələrinin az olması üzündən onlar gözlənilən səmərəni vermədilər və ona görə də aşağıda adları çəkilən ober-zabitlər xidmətdən azad edilirlər».

Xaric olunanların siyahısında 10 nəfərin adı var idi.

Ordu sıralarından xaric edilən qeyri-azərbaycnlı zabitlərin bir çoxu hətta Azərbaycanda yaşamaq hüququndan məhrum edilirdilər. Bu məsələ hərbi nazirin müvafiq əmrində hökmən qeyd edilirdi. Hərbi nazir Nazirlər Şurasının sədrinin adına göndərdiyi məktubunda, ümumiyyətlə, ordu sıralarından xaric edilmiş rus zabitlərinin e'tibarsız elementlər kimi Azərbaycandan çıxarılması barədə lazımi tədbirlərin həyata keçirilməsinin zəruriliyini vurğulayırdı.

Konkret tarixi şəraitin xüsusiyyətləri, denikinçilərin, biçeraxovçuların Bakıda açıq fəaliyyəti, Bakıdakı Rus Milli Şurasının rus əhalisi arasında iş aparması və onları Denikin ordusu sıralarına cəlb etməsinə çalışması Azərbaycan ordusunda xidmət edən rus zabitlərinin müəyyən hissəsinə də təsir göstərməyə bilməzdi. Ona

görə də Səməd bəy Mehmandarov əqidəcə möhkəm olmayan belə zabitlərin əvəz edilməsi üçün yollar axtarırdı.

1919-cu ilin ilk aylarında Tiflisdəki diplomatik nümayəndəliyin məlumatı əsasında Xarici İşlər Nazirliyi Hərbi Nazirliyə sorğu göndərmişdi ki, Azərbaycan ordusunda xidmət etmək arzusunda olan xarici zabitlər arasında hansı ixtisasda olanların seçilməsinə üstünlük verilməsi məqsədəuyğundur? Azərbaycanda xidmət etmək istəyən belə zabitlər arasında türk zabitləri də var idi. S.Mehmandarov kənardan qəbul edilən zabitlər içərisində türk zabitlərinin üstünlük təşkil etməsinə çalışırdı. Çünki türk zabitlərinin qəbul edilməsi ilə ordudakı etibarsız elementləri də təmizləmək olardı. Səməd bəy bu məsələdə türk zabitlərinə üstünlük versə də ingilis qoşunları komandanlığının türklərə olan barışmaz münasibəti onu ehtiyatlı hərəkət etməyə vadar edirdi. İngilis qoşunları komandanlığı Azərbaycan ordusunda türk zabitlərinin olmasına heç bir vəchlə yol vermirdi və onların çoxsaylı xəfiyyələri Azərbaycan qoşunlarına türk zabitlərinin qəbul edilib- edilməməsini daim nəzarət altında saxlayırdılar.

Buradan da Səməd bəy Mehmandarovun kadr siyasətinin Azərbaycan ordusu zabitlərinin milliləşdirilməsinə, müsəlman zabitlərinin sayının artırılmasına, sədaqətliliyi şübhə doğuranların isə ordudan uzaqlaşdırılmasına istiqamətləndiyi aydın görünür.

Hərbi Nazirliyin rəhbərliyi təkcə Azərbaycan dilinin öyrənilməsi zəruriliyi ilə çıxış etmirdi, həm də bu dilin öyrənilməsi üçün lazımi şəraitin yaradılmasına çalışırdı. Məsələn, zabitlərə Azərbaycan dilinin öyrədilməsi üçün həm ordu daxilində, həm də ordudan kənar bir-sıra kurslar təşkil edilmişdi.Ordudan kənar Azərbaycan dili kursları Maarif Nazirliyinin 20 avqust 1919-cu il tarixli qərarı ilə Bakı realnı məktəbində açılmışdı. Pulsuz olan həmin kurslarda həftədə üç dəfə dərs keçilməli idi. Hərbi nazirin əmri ilə bu barədə qoşunlara məlumat verilməklə zabitlərə həmin kurslara getmək tövsüyə olunurdu.

Az sonra belə kurslar ordunun daxilində də yaradıldı. Ümumi Qərargah rəisinin 21 sentyabr 1919-cu il tarixli sərəncamında göstərilirdi ki, Azərbaycan dilinin dövlət dili olması haqqında Azərbaycan hökumətinin 27 iyun 1918-ci il tarixli qərarının reallaşdırılması məqsədilə Ümumi Qərargahın nəzdində də hərbi qulluqçular üçün Azərbaycan dili kursları açılmışdır. Bu kurs iki şöbədə təsis edilmişdi. Birinci şöbə Azərbaycan dilini heç bilməyənlər üçün nəzərdə tutulmuşdu. Kursda dərslər iki semestrdə keçirilməli idi. Dərslər həftədə 3 dəfə və 2 saat həcmində planlaşdırılmışdı.

Dil kursları təkcə zabitlər üçün deyil, həm də əsgərlər üçün açılmışdı. Məlumdur ki, orduya gələn əsgərlərin mütləq çoxluğu savadsız idi. Bu isə onların milli dəyərlərə yaxından tanışlığına maneçilik törətməklə bərabər, təlim-tərbiyə prosesinin ümumi gedişinə də mənfi təsir göstərirdi.

1920-ci ildə Hərbi Nazirlik əsgərlərin savadlandırılması işində nəzərə çarpacaq irəliləyişin əldə edilməsini planlaşdırırdı. Bu məsələ ilə bağlı hərbi nazir 1920-ci il martın 3-də 129 nömrəli əmri imzaladı. Həmin əmrdə deyilirdi ki, əsgərlər arasında Azərbaycan dilində savadın yayılması və təlim komandalarının savadlı əsgərlərlə komplektləşdirilməsi üçün piyada və süvari alaylarında tabor

məktəbi yaradılmalıdır. Bu məktəblərdə dərslər 4 ay davam etməli və sonra da kursların ən yaxşı dinləyiciləri alay məktəblərinə göndərilməli idilər.

Hərbi Nazirliyin bərpasının ilk günlərindən hərbi qulluqçuların geyim formasının da milliləşdirilməsi və onun Azərbaycan ordusuna uyğunlaşdırılması üçün də zəruri işlərin görülməsinə başlandı və bunun üçün xüsusi komissiya yaradıldı. Komissiyanın işinə hərbi nazirin müavini, general-leytenant Ə.Şıxlinski sədrlik edirdi. Komissiyanın hazırladığı geyim layihəsi 1919-cu il yanvar ayının 11-də hərbi nazirin əmri ilə rəsmi şəkildə təsdiq edildi. Ancaq buna qədər, Hərbi Nazirlik fəa- liyyətə başlayarkən nazirin əmri ilə geyim formasında qismən dəyişiklik edilmişdi. Həmin dəyişiklik əsasən baş geyiminə aid idi. Nazir tələb edirdi ki, yeni geyim layihələri hazırlanana kimi furajkalar baş geyimi kimi istifadədən birdəfəlik götürülsün və o papaqla əvəz edilsin. Furajkaların papaqla əvəz edilməsi üçün nazir bir ay vaxt ayırmışdı .

Azərbaycan ordusunda tətbiq edilən yeni geyim formasının maraqlı elementlərindən biri poqonlar idi. Həm hərbi qulluqçular, həm də orduda qulluq edən məmurlar poqon gəzdirirdilər və həmin poqonların üzərində ərəb əlifbası ilə «Azərbaycan» sözü yazılmalı idi .

Milliləşdirilmiş hərbi geyim formasına riayət edilməsinə orduda çox ciddi diqqət verilirdi.Hələ 1918-ci ilin dekabrında polkovnik İvanovu Gəncə şəhərinin müvəqqəti komendantı təyin etməsi ilə bağlı əmrində S.Mehmandarov bildirirdi ki, vəzifəsinin icrasına başlamaqla o, Qarnizon xidməti nizamnaməsi əsasında öz işini qurmalı, qarnizona gələn bütün zabitlərin uçotunu aparmalı, məzuniyyətə və ezamiyyətə gəlmiş zabitlərdən müvafiq sənədləri tələb etməli, davranış normalarını nəzarət altında saxlamalı, bütün hərbi qulluqçuların, o cümlədən mülki məmurların geyim formalarının pozulmasına yol verməməli idi. Elə həmin əmrdə Səməd bəy qeyd edirdi ki, Azərbaycan ordusunda xidmət edən zabitlərin (üzürlü səbəblər istisna olmaqla) Azərbaycan ərazisində hərbi geyimdə gəzmələri qadağandır. Bu tələb tə qarnizon xidmətinin təşkilinə məsul olan şəxslər tərəfindən həyata keçirilməli idi.

Qarnizon xidmətinin təşkilində daha çox irad doğuran məqamlar hərbi qulluqçuların geyim formalarına riayət etməməsi, hissədən kənarda, ictimaiyyət arasında hərhbi davranış normalarını pozmaları ilə bağlı idi. Geyim formasının pozulması daha çox zabitlər arasında qeydə alınırdı. Heç şübhəsiz ki, əsgərlər arasında da belə hallar istisna deyildi.

Hərbi nazir S.Mehmandarov 1919-cu ilin iyun ayında imzaladığı əmrlərindən birində göstərirdi ki, bir çox topçu əsgərlər, hətta bir-sıra zabitlər qırmızı lampaslı şalvarlar geyirlər. Halbuki Azərbaycan ordusu üçün təsdiq edilmiş geyim formasında belə bir element yox idi. Ona görə nazir həm hissə komandirlərindən, həm də qanizon rəislərindən tələb edirdi ki, geyim formalarına riayət edilməsinə nail olunsun.

Azərbaycan ordusu sıralarında xidmət etməyən bir çox zabitlər üzərində «Azərbaycan» sözü yazılmış paqonlar gəzdirirdilər. Azərbaycan ordusu sıralarında xidmətə qəbul edilmiş bir-sıra gürcü zabitləri isə üzərində gürcü simvolları olan paqonlar və furajkalar istifadə edirdilər. Səməd bəy Mehmandarov hər iki halın

qarşısının alınmasını tələb edirdi. Xidmətə yenicə qəbul edilmiş gürcü zabitlərinə Azərbaycan ordusunun geyim forması ilə təsdiq olunmuş papaq və paqonların əldə edilməsinə bir ay vaxt ayrılmışdı. Bu vaxt ərzində geyim formasını sahmana salmayan zabitlərə qarşı ciddi tədbirlər görülməli idi.

S.Mehmandarov eyni zamanda qarnizon rəislərindən, şəhərlərin və dəmiryolu stansiyalarının komentantlarından tələb edirdi ki, ezamiyyətə gəlmiş zabitlər sitisna olmaqla Gürcüstan və Ermənistan zabitlərinin Azərbaycan ərazisində hərbi geyimdə gəzməsinə imkan verilməsin.

SəMehmandarovun müşahidələrinə görə Azərbaycan və Gürcüstan ordularından tərxis edilmiş zabitlər, habelə bir-sıra keçmiş rus ordusu zabitləri paqonları çıxarsalar da rəngli yaxalıqları olan hərbi palto, kokardalı furajka, dəmir düyməli səfər mundiri, baftalı və kantlı şalvarlar geyinir, kütlə arasında seçilir, əhalidə və əsgərlərdə onların ordu zabiti olması təsəvvürü yaradırdılar. Ona görə də Səməd bəy tələb edirdi ki, furajkadan kokarda, səfər mundirindən və paltolardan dəmir düymələr, rəngli yaxalıqlar, şalvardan baftalar çıxarılsın. Bütün bunlara əməl olunmasına nəzarət qarnizon rəislərinə və şəhər komendantlarına tapşırılırdı.

Qarnizonlarda geyim formasında tutulan iradlardan biri də polislərin hərbi geyim elementlərindən istifadə etməsi ilə əlaqədar idi. Onlar hərbi formaya oxşar forma və üstündə «Azərbaycan» sözü yazılmış paqonlar gəzdirirdilər. Hərbçilərlə küçədə rastlaşanda isə onlara hərbi salam vermirdilər. Bu, əsgərlər arasında çaşqınlıq, əhali arasında isə ordu daxilində intizamsızlığın mövcud olması təəssüratı yaradırdı. Gəncə şəhər komendantı məsələ ilə əlaqədar ölçü götürülməsi üçün Hərbi Nazirliyin rəhbərliyinə, Hərbi Nazirliyin rəhbərliyi isə Daxili İşlər Nazirliyinin rəhbərliyinə müraciət etmişdi.

Müxtəlif təşkilatların əməkdaşlarının hərbi geyimdən istifadə etmələrinə son qoyulması üçün hərbi nazir S.Mehmandarov məktubla Nazirlər Şurasının sədrinə müraciət etmişdi. Məktubda bildirilirdi ki, təkcə polislər deyil, bir-sıra digər strukturların əməkdaşları da heç bir maneçilik olmadan malik olduqları hərbi geyimlərdən istədikləri vaxt istifadə edirlər, kütlə arasına çıxırlar. Bu isə həm əhalidə, həm də mətbuatda söz-söhbətə səbəb olur və həmin adamların günahları ordunun ayağına yazılırdı. Ona görə də Səməd bəy xahiş edirdi ki, hərbi geyimlərdən belə istifadə edilməsinə və onların mülki paltar yerinə geyilməsinə icazə verilməsin.

1919-cu ilin sonlarından etibarən qoşun hissələri, əlahiddə taborlar və hərbi məktəb üçün döyüş bayraqlarının tətbiqinə başlandı. Bu bayraqlar da milli dəyərlər əsasında hazırlanmışdı və onun verildiyi hissənin Azərbaycan ordusuna məxsusluğunu təsdiq edirdi. Bayraqlar eyni təsvirə malik idilər. Onların layihəsinin hazırlanması Nazirliyin Hərbi topoqrafiya şöbəsinə tapşırılmışdı və həmin layihə hazırlanarkən milli simvolların istifadəsinə, milli ənənələrə bağlı olan müəyyən elementlərin tətbiqinə xüsusi diqqət yetirilmişdi.

Döyüş bayrağı-parça, lent, ucluq, ağac və dəstəkdən ibarət idi. Parça gümüşü saçaqlarla tamamlanan, kənarlarına naxış vurulmuş mavi rəngli stof ipəkdən və atlasdan ibarət idi. Bayrağın o biri üzünün naxışı görünməsin deyə

parça ikiqat bükülmüşdü. Yuxarı sol küncündə gümüşü saplarla səkkizguşəli ulduz və aypara çəkilmişdi. Bayrağın kənarı ilə işlənmiş naxış şərqin böyük sərkərdəsi Teymurləngin Səmərqənd şəhərindəki qəbrinin üzərində olan təsvirdən götürülmüşdü və Azərbaycan ordusunun döyüş bayrağında şərqin qəhrəmanlıq ənənlərinə sadiqliyi təcəssüm etdirirdi. Bayrağın bir üzündə ərəb hərfləri ilə «Azərbaycan» sözü, o biri üzündə isə Qurandan ayə- «Nəsri min allah və fəthi qərib» (Allahdan kömək olarsa qələbə yaxındadır) yazılmışdı. Bayrağın lentləri 15 santimetr enində yaşıl və qırmızı parçadan hazırlanmışdı və ucluqları 10 santimetr uzunluğunda saçaqlarla tamamlanmışdı. Qırmızı lentin üzərində gümüşü saplarla içində 7 ox olan ox qabı, nizə və iki yay çəkilmişdi. Yaşıl lentin üzərində də gümüşü saplarla içində 7 ox olan ox qabı, iki yay, boncuq və Teymurləngin nizəsinin rəsmi işlənmişdi. Lentlər bayraq ağacının yuxarısına düyünlənirdi. Bayrağın ucluğu 5 hissədən ibarət idi: klnus, silindir, kürə (şar), kəsik ellipsoid və nizə. Bayraq ağacı 2,6 metr uzunluğunda və 3,7 santimetr diametrində olmalı idi. Dəstək- gümüşü silindirdən ibarət olub bayraq ağacının qurtaracağına geydirilirdi. Dəstəyin aşağı və yuxarı qurtaracağı 2,5 millimetrlik qızıl haşiyə ilə əhatə edilmişdi. Daha sonra 1,5 millimetr enində qızıl haşiyə ilə tamamlanmış mavi mina var idi. Qızıl haşiyənin arasında yuxarı künclərdə Azərbaycan ulduzları nəqş olunmuş, aşağı künclərdə isə qızıldan aypara ziqzaq, daha sonra bayrağın rəngləri ilə boyadılmış, kürəciklərlə bəzədilmiş qabarıq gümüşü halqadan keçirdi. Dəstəyin gümüşü hissəsində bayrağın məxsus olduğu hissənin adı və həmin hissənin yaranma tarixi həkk olunurdu.

Döyüş bayrağının təsvirinin elan olunması ilə bağlı nazirin əmrində deyilirdi ki, təsdiq olunmuş layihənin əsasında indiki dövrdə xalqın milli şüurunun inkişafı, məscid və kitablarda, habelə böyük Teymurləng və onun davamçıları tərəfindən inşa edilmiş tikililərdə əks olunmuş qədim memarlıq nişanələri dayanmışdır ki, onlar indi də Azərbaycan xalqı üçün əzizdir.

Hərbi Nazirliyin rəhbərliyi qoşunların iaşəsinin təşkilində, habelə şəxsi heyətə tibbi xidmətin aparılmasında da milli xüsusiyyətlərə daha çox fikir verilməsinə çalışırdı. Yuxarıda qeyd olunduğu kimi, hərbi nazir S.Mehmandarov tələb edirdi ki, qoşunlarda yad millətlərin mədəniyyətinə aid olan yeməklərin bişirilməsinə son qoyulsun, hissələrdə milli xörəklər olan bozbaş, dolma və s. kimi milli yeməklər və həftədə bir dəfədən az olmayaraq plov bişirilsin. Ona görə də qoşunların ərzaq təminatı da məhz bu yeməklərə uyğun olaraq aparılırdı.

Əsgər xəstəxanalarında tibbi xidmətin təşkili zamanı azərbaycanlı sanitarlardan az istifadə edilməsi, rus və erməni sanitarlarının işə daha çox qəbul edilməsi də hərbi nazirin narahatçılığına səbəb olurdu. Ona görə də o, Nazirliyin Hərbi Xəstə hissəsinin müdirindən tələb edirdi ki, əsgər xəstəxanalarına daha çox azərbaycanlı sanitarlar qəbul edilsin və azərbaycanlı xəstə əsgərlərin xidmətində də məhz azərbaycanlı sanitarlar dayansınlar. Çünki bu insanlar öz yurddaşlarının qədrini daha yaxşı bilərdilər.

Qoşunların şəxsi heyətinin milli tarixi köklərə bağlanması və onların mənəvi saflaşması baxımından Novruz bayramlarının ümumordu miqyasında qarşılanmasının və keçirilməsinin təşkili də diqqəti cəlb edirdi. Öz mövcudluğu dövründə

Azərbaycan ordusu iki dəfə Novruz bayramını qarşılamış və hər ikisini də təntənəli şəkildə keçirmişdi. Novruz bayramının qeyd edilməsi əsl bayram əhval-ruhiyyəsində həyata keçiri- lirdi. Hər iki bayram da qoşunların rəsmi-keçidi ilə şəxsi heyətin yadında qalmışdı.

1919-cu ilin Novruz bayramı ərəfəsində hərbi nazirin imzaladığı əmrə əsasən şəxsi heyət üç gün təlimdən azad edildi.Bu əmrə əsasən bütün hissələrdə bayram süfrəsi açıldı və qoşunlara bayram yeməyi verildi.

1920-ci ilin Novruz bayramının yadda qalan keçirilməsi üçün üç gün ərzində əsgərlərin iaşəsinə hər gün üçün əlavə 40 rubl xərclənməsinə icazə verilmişdi.

Novruz bayramı ərəfəsində hərbi nazir mərhəmət və qayğı göstərərək cəzalandırılmış əsgərlərin günahından keçir, ya da cəzalarını azaltmaqla onlara bayram sevinci bəxş edirdi. S.Mehmandarov ölüm hökmünə məhkum edilmiş 6 əsgəri əfv edərək onların cəzalarını 6 illik həbslə əvəz etmişdi .

3-cü Gəncə piyada alayından olan həmin əsgərlər 1919-cu il martın 8-də axşam silahlı şəkildə yolda rastlaşdıqları bir-neçə nəfəri hədələyərək pullarını əllərindən almışdılar. Əsgər adına və şərəfinə yaraşmayan bu əməllərə görə onlar dərhal hərbi səhra məhkəməsinə verilmiş və burada onlara ölüm cəzası kəsilmişdi. S.Mehmandarov 14 mart 1919-cu il tarixli 127 nömrəli əmrində bildirirdi ki, bu hökm tamamilə ədalətli hökmdür. Lakin əsgərlərin öz günahlarını etiraf etməsini, ordu quruculuğu prosesində bir-sıra çətinliklərin olmasını və habelə Novruz bayramının yaxınlaşmasını nəzərə alaraq S.Mehmandarov ölüm cəzasını həbs cəzası ilə əvəz etməyi məqsədəuyğun bilirdi.

1920-ci ilin Novruz bayramı ərəfəsində də hərbi nazir S.Mehmandarov əmr imzalayaraq intizam qaydasında həbs edilmiş bütün hərbi qulluqçuları azad etmişdi.

Hərbi Nazirliyin rəhbərliyi eyni zamanda hərbi qulluqçuların milli-mənəvi normalarla səsləşməyən hərəkətlərə yol verməsinə qarşı kəskin mövqe tutur və bunu onların m ənəvi saflığının qorunmasına təhlükə kimi qiymətləndirirdi. Hərbi nazirin 14 mart 1919-cu il tarixli 126 nömrəli əmrində deyilirdi ki, alınan məlumatlara görə ordunun bir-sıra zabitləri və məmurları klub və cəmiyyətlərdə böyük pula qumar oynayırlar. Əmrdə şəhər komendantından, idarə rəislərindən tələb olunurdu ki, bu məsələ ciddi nəzarət altında saxlansın və kiminsə belə bir əməldə iştirakı aşkar olarsa həmin şəxs dərhal xidmətdən azad olmağa təqdim edilsin.

Bu məsələlərə belə ciddi diqqət yetirilməsi Azərbaycan əsgərlərinin mənəvi-döyüş keyfiyyətləri də xeyli yuxarı qalxmış, nizam və intizam möhkəmlənmişdi. Bunu Azərbaycana gələn xarici jurnalistlər də dərhal müşahidə edirdilər. Məsələn ingilis jurnalisti Skotland Liddel 1919-cu ilin sentyabrında yazdığı məqalələrin birində Bakıda gördüklərini belə təsvir edirdi: « Gündüz Bakıya çatdım və yaxşı bir faytonla hotelə yollandım... Mənimlə cavan bir azərbaycanlı zabit də gedirdi. Yol boyu yeni Azərbaycan ordusunun yüzlərlə gənc əsgəri ilə qarşılaşdıq. Hamısı hərbi salam verirdi. Mən təəccüb içində idim. Bu mənim son iki ildə gördüyüm əsgərlər deyildi. Bunlar yeni adamlar idilər, bunlar

yeni, intizamlı,gənc, qüvvətli və cəsur əsgərlər idilər».

Bir fransız jurnalisti isə gördükləri barədə belə yazırdı:« Rus çarları zamanı azərbaycanlılar hərbi xidmətə çağırılmırdılar. Bax buna görə də onlar atıcılıq təmrinlərini yerinə yetirməyi çox sevirlər. Azərbaycan zabitləri xalqa silahdan istifadə etməyi öyrədirdilər. Zərurət yarananda bütün xalq öz ölkəsini qorumağa hazır olacaqdır. Axşam gündüz əməyindən sonra hər yerdə milli mahnıların necə oxunduğunu eşitmək olar: marş irəli,irəli, Azərbaycan əsgəri».

Cümhuriyyət ordusunun əsgər və zabitlərində milli hisslərin tərbiyələndirilməsi və möhkəmləndirilməsi üçün S.Mehmandarov hərbi paradların təntənəli keçirilməsinə xüsusi diqqət yetirirdi. Bu paradlar adətən ümumxalq bayramına çevrilir və milli qoşun hissələrinin qüdrətini nümayiş etdirirdi. Paradlar adətən milli bayramlar münasibətilə təşkil edilirdi. Azərbaycan ordusunun ilk paradı 1919-cu ilin Novruz bayramında keçirildi. Parad əvvəlcə martın 22-nə planlaşdırılsa da sonradan martın 24-nə dəyişdirildi. S.Mehmandarovun əmrinə əsasən parada Gəncə qarnizonunun hissələri, habelə 1-ci Cavanşir piyada alayının bir bölüyü, 2-ci Bakı piyada alayının isə bir taboru iştirak etməli idi. Parada hazırlıqla bağlı S.Mehmandarovun əmrində göstərilirdi ki, bu tədbirə Azərbaycan xalqının milli bayramı xarakteri verilməlidir. Səməd bəy tələb edirdi ki, parada çıxarılan şəxsi heyət yeni və bir tipli formada olmalı,hər bir əsgər və zabitin görkəminə fikir verilməlidir. Həmin parad təyin olunan gündə Gəncənin Topçu meydanında keçirildi və yaddaqalan bir tarixə çevrildi.

Cümhuriyyət ordusunun növbəti paradı 1919-cu il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin birinci ildönümü münasibətilə keçirildi. S.Mehmandarovun əmri ilə həmin gün Gəncə qarnizonunun paradı Topçu meytanında olmalı idi. Parada Praporşiklər məktəbinin bir bölüyünün, 1-ci topçu briqadasının iki batareyasının, 3-cü Şəki süvar alayının 2-cü süvari bölüyünün çıxarılmasına göstəriş verilmişdi. Bölüklər sıraya 32 cərgədə düzülməli idilər. Ayın 27-də təbilçilərin iştirakı ilə baş məşq keçirilməli və mayın 28-də saat 10-da paradın bütün şəxsi heyəti meydanda öz yerlərini tutmalı idilər. Paraddan əvvəl Nazirliyin baş mollasının təntənəli dua mərasimi keçirməli idi. Qarnizonun bütün zabitləri bu tədbirdə iştirak etməli idilər. Parada komandanlıq etmək 3-cü Şəki süvari alayının komandiri polkovnik Xosrov Mirzə Qacara həvalə olunmuşdu.

1919-cu il mayın 28-də Bakı qarnizonunda da qoşun hissələrinin paradı keçirildi. Gündüz saat 1-də «Azadlıq» meydanında təşkil edilmiş parada piyada bölmələri və hökumət orqanlarının mühafizə bölüyü çıxarılmışdı. Parada Səməd bəy Mehmandarov qəbul edirdi.

Gəncə qarnizonunda yerləşən qoşun hissələrinin 1919-cu il iyunun 30-da Ramazan ayının başlaması münasibətilə, həmin il sentyabrın 6-da Qurban bayramı münasibətilə paradı keçirildi.

1919-cu il sentyabrın 15-də həm Gəncədə, həm də Bakıda daha təntənəli bir parad keçirildi. Bu parad Bakı şəhərinin bolşevik-daşnak qüvvələrindən azad edilməsinin bir illiyinə həsr edilmişdi. Baıkdakı parad bulvarla üzbəb üz olan Naberejni küçəsində olmalı idi və ona Praporşiklər məktəbinin komandiri polkovnik R.Şıxlinski komandanlıq etməli idi. «Azerbaydjan» qəzeti qoşun

hissələrinin parada gəlməsini belə təsvir edirdi : « Qoşunların qarşısında bir-neçə generalın və ordunun yüksək çinlərinin müşayəti ilə at belində igid hərbçi, ordumuzun təşkilatçısı, tam artilleriya generalı Səməd bəy Mehmandarov gedirdi. Onlar şəhərin Şamaxı küçəsinə daxil olanda çoxsaylı publikanın gurultulu alqışları qopdu... Qoşunlar keçən küçələr adamlarla dolu idi. Hətta evlərin damları da «Yaşasın Azərbaycan», « Yaşasın bizim əsgərlər» şüarları qışqıran qadın və uşaqlarla tutulmuşdu».

Qoşun hissələrinin növbəti paradı 1920-ci il yanvarın 14-də keçirildi. Bu parad müttəfiq dövlətlər tərəfindən Azərbaycanın sitiqlaliyyətinin tanınmasına həsr edilmişdi. S.Mehmandarovun əmri ilə Azərbaycanın istiqlaliyyətinin tanınması bütün qarnizonlarda təntənəli şəkildə qeyd edildi və paradlar təşkil edildi.

Nəhayət, 1920-ci il martın 20-də Azərbaycan ordusunun qoşun hissələrinin sonuncu paradı keçirildi. Şahidlərdən biri bu paradı sonralar belə xatırlayırdı: «1920 sənəsi 22 mart Novruz bayramı münasibətilə icra edilən son rəsmi keçidi dəxi təxəttür etməmək qeyri-mümkündür. Əcaba hansı azərbaycanlı o məsud günü xatırlamır? Ordunun qabiliyyət və intizamı, mənəviyyatı təsəvvürün fövqündə idi. Əcnəbi səfirləri az bir zamanda, vasitəsizlik içində, bu qədər münəzzəm təşkilata malik bir əsgəri-qüvvət vücuda gətirildiyinə heyran qalırdı. Əhalidən bir-çoxu duyduğu fərd məhzuziyyətdən ağlayırdı. O gün Azərbafanın ən şanlı, ən bəxtəvər günü idi. Fəqət, Azərbaycan ordusunun son rəsmi-keçidi idi».

Qoşunların şəxsi heyətinin mənəvi cəhətdən saflaşmasında və formalaşmasında dini dəyərlərin də xüsusi yeri var idi. Xidmətə çağırılmış gənclər dini mərasimlərin icrasından ayrılmırdılar, əksinə hissə və birləşmələrdə müqəddəs dini ayinlərin yerinə yetirilməsi üçün lazımi şərait yaradılırdı. Bu sahədə bir nizamlılıq yaratmaq üçün hissələrin ştatında molla yeri də var idi. Həmin mollaların fəaliyyətinə Nazirliyin baş mollası rəhbərlik edirdi.Alaylarda ibadət yerləri də yaradılmışdı. Qoşunların təlim-tərbiyə proqramına mollaların da əsgərlərlə söhbəti daxil edilirdi. Mollalar milli orduda xidmətin müqəddəsliyi, xidməti borcun yerinə yetirilməsinin vacibliyinin islamda qoyuluşu barədə söhbətlər aparırdılar. Hərbi nazir S.Mehmandarov orduya qəbul edilmiş din xadimlərinin qarşısında dayanan başlıca vəzifənin əsgərlərin dini-mənəvi tərbiyəsi olduğunu vurğulayır və bununla bağlı tələb edirdi ki, həmin vəzifələrə nail olunması üçün ilk növbədə din xadimləri özləri qanunun və şəriətin tələblərinin icrasında nümunə olmalıdırlar .

Buna görə də dini ayinlərin icrası, dini-mənəvi tərbiyə Hərbi Nazirliyin rəhbərliyinin nəzarəti altında idi. Vaxtaşırı bu məsələlərlə bağlı nazirin əmri imzalanır və qoşunlara elan edilirdi. Baş mollanın fitvası əsasında hərbi nazirin 30 may 1919-cu il tarixdə imzaladığı 277 saylı əmrində bildirilirdi ki, qeyri-nizami hissələrin əsgərlərinin hamısı ramazan ayında oruc tutmalıdırlar. Nizami hissələrin əsgərləri isə ramazan ayının 1,15, 19, 21, 23, 30-cu günləri və bir də cüməyə (istirahət gününə) düşən günlər oruc tutmalıdırlar. Əsgərlərin oruc olduğu günlər dərslər üç saatdan artıq olmamalı idi.

Dini bayramlar qoşunlarda böyük təntənə ilə qeyd edilirdi. 1919-cu ilin orucluq bayramında hətta qoşunların rəsmi-keçidi də təşkil edilmişdi. Hərbi nazirin

əmrinə əsasən orucluq bayramı münasibətilə əsgərlər üç gün istirahət etmiş və həmin günlər ərzində şəxsi heyətə bayram yeməkləri hazırlanması üçün əlavə pul ayrılmışdı.

Qurban bayramı münasibətilə şəxsi heyətə bir gün istirahət verilirdi. Bayram günləri qoşun hissələri Hərbi Nazirliyin rəhbərliyini təbrik etdiyi kimi, Nazirliyin rəhbərliyi də qoşun hissələrinin şəxsi heyətini təbrik edirdi.

S.Mehmandarov Cümhuriyyət ordusunda xidmət edən qeyri-müsəlman zabitlərin dini bayramlarına da hörmətlə yanaşırdı. Onun əmri ilə xristian bayramlarında bu məzhəbə mənsub olan zabit və məmurlara da istirahət verilirdi.

Şəhid olmuş və ya xidmət müddətində vəfat etmiş hərbi qulluqçuların son mənzilə yola salınması zamanı dini normalara riayət edilməsinə də S.Mehmandarov son dərəcə ciddi diqqət yetirirdi. Mərhumun dəfninə göstərilən ən adi səhlənkarlıq bütünlükdə hərbi qulluqçuların qayğısına, onların dini, ənənəvi tərbiyəsinə, milli dəyərlərə göstərilən səhlənkarlıq kimi qiymətləndirilirdi. Hərbi qulluqçunun dini və milli tələblərə uyğun olaraq son mənzilə yola salınmasını S.Mehmandarov bütün hissələrin, başlıcası isə bu işlərə məsul olan mollaların əsas vəzifəsi, onların mənəvi və insani borcu sayırdı. Dəfn mərasimlərinin icra edilməsi üçün Hərbi Nazirliyin smetasında xüsusi xərclər də nəzərdə tutulmuşdu.

Hərbi qulluqçular son mənzilə böyük hörmət və ehtiramla yola salınırdılar. 3-cü Şəki süvari alayının podpolkovniki, xəstəlikdən vəfat etmiş Şahverdi xan Ziyatxanovun dəfninin təşkili üçün S.Mehmandarovun imzaladığı əmrdə göstərilirdi ki, mərhumun evinə hərbi naryad göndərilsin. Bu hərbi naryada 3-cü Şəki süvari alayının bütün şəxsi heyəti, Topçu briqadasının bir topçu batareyası, bir bölük yunker və orkestr daxil idi. Dəfn mərasimində Nazirliyin bütün zabitlərinin iştirakı zəruri sayılırdı.

Digər əsgər və zabitlərin dəfni də belə böyük hörmət və ehtiramla icra edilirdi. Hərbi Nazir S.Mehmandarovun əmri ilə hətta hərbi qəbristanlığa qulluq edilməsi və onun qorunması üçün xüsusi ştat da ayrılmışdı.

Əsgər şərəfinə böyük bir hörmətlə yanaşan hərbi nazir vəfat edənlərin dəfninə azacıq səhlənkarlığın şahidi olan kimi dərhal ona qarşı öz münasibətini bildirir və müvafiq əmr imzalayırdı. Onun 1919-cu il dekabrın 28-də imzaladığı 600 saylı əmr əsgər xəstəxanalarında vəfat edən hərbi qulluqçuların dəfninin ləngidilməsi ilə bağlı idi.Səməd bəy tələb edirdi ki, əsgər xəstəxanalarında hər hansı əsgər vəfat edərsə bu barədə dərhal əsgərin mənsub olduğu hərbi hissəyə xəbər verilsin və onun dəfni alay mollaları tərəfindən təşkil edilsin.Bu tələbin icrasına biganəliyin yol verilməsi, nazirin fikrincə, mollaların öz vəzifə borclarının lazımınca başa düşməməsi ilə bağlı idi və belələri dərhal tutduğu vəzifədən uzaqlaşdırılmalı idi .

9 yanvar 1920-ci il tarixli 13 nömrəli əmrində hərbi nazir S.Mehmandarov bir-sıra hərbi hissələrdə mollaların vəfat etmiş hərbi qulluqçuların dəfnini lazımi qaydada təşkil etmədiklərinə görə baş mollanın və hissə komandirlərinin qarşısında çox ciddi tələblər qoyurdu.

S.Mehmandarov qoşunların şəxsi heyətinin mənəvi əhval-ruhiyyəsinə, xidmətə qarşı formalaşan münasibətinə təsir göstərə biləcək bütün mövcud

amilləri nəzərə almağa və onların reallaşdırılmasını qarşılıqlı şəkildə əlaqələndirməyə çalışırdı. Qoşunların mənəvi durumunda nəzərəçarpacaq dəyişikliklərin yaranması da bu ardıcıllığın və sistemliliyin nəticəsi idi.

Beləliklə, Cümhuriyyət ordusunun təşkili prosesində milli dəyərlərin əsas tutulması, milli-mənəvi ənənələrə riayət edilməsi, bütünlükdə bu dəyərlərin dünya hərbi təcrübəsi ilə düzgün əlaqələndirilməsi çox qısa müddət ərzində döyüşgən bir ordunun formalaşmasına zəmin yaratdı. İstər 1919-cu ildə,istərsə də 1920-ci ildə hərbi hissələrin Azərbaycanın ərazi bütövlüyü uğrundakı döyüşlərdə verilən ağır tapşırıqları layiqincə yerinə yetirməsi xalqın milli mənafeyinə sadiq olan bir ordunun formalaşdığını bir daha sübut edirdi.

## S.Mehmandarov və hərb tarixi məsələləri

Azərbaycan Xalq Cümhuriyyəti ordusunun tezliklə qurulmasına və möhkəmləndirilməsinə nail olunması , bu ordunun sıralarında birləşən insanların tamamilə yeni meyarlar üzərində tərbiyələndirilməsini tələb edirdi. Bu hər şeydən əvvəl Azərbaycanın yeni siyasi reallığından irəli gəlirdi. Təxminən bir əsrlik bir fasilədən sonra müstəqil bir dövlət kimi dünya birliyinə qoşulan Azərbaycanın ordusu da onun mövqeyini qorumağı bacaran bir təşkilat kimi formalaşmalı idi. Bunun əldə edilməsi isə məqsədyönlü və gərgin fəaliyyəti tələb edirdi. Çünki ordunun zabit heyətinin əksəriyyəti çar ordusunda xidmət edib Azərbaycanın müstəqil dövlətçiliyinə yad olan meyarlara riayət etməli olmuşdularsa ordunun əsgər heyəti bütünlükdə hərbi xidmətin nə olduğunu bilmirdilər. Ona görə də bu kateqoriyaların hər ikisi onlara qarşı çox düşünülmüş mövqe tutulması, düzgün mənəvi-ideoloji işin aparılması ilə Azərbaycana sədaqətli olan bir kontingentə çevrilə bilərdilər.

Bu məqsədlə aparılan işlər müxtəlif istiqamətlərdə qurulmuşdu və həmin istiqamətlərin bir-biri ilə sıx əlaqəsinə kifayət qədər diqqətt yetirilirdi. Cümhuriyyət ordusu şəxsi heyətinin mənəvi dünyasının formalaşdırılması üçün mənsub olduğu xalqın tarixi keçmişinin öyrənilməsinə, onun qəhrəmanlıq nümunələri üzərində tərbiyələndiril- məsinə xüsusi əhəmiyyət verilirdi. Bu baxımdan hərbi nazir S.Mehmandarovun bu günümüz üçün də öz aktuallığını itirməyən çox qiymətli fikirləri qorunub saxlanmaqdadır. Onun hərb tarixi və konkret olaraq Azərbaycanın hərb tarixi barədə çox az fikirləri tarixi sənədlərdə öz əksini tapmışdır. Ancaq elə onlar da S.Mehmandarovun hərb işinin təşkilində tarixin öyrənilməsinə necə böyük əhəmiyyət verdiyini nümayiş etdirir. Bu fikirlərlə tanışlıq hər şeydən əvvəl onu göstərirdi ki, Cümhuriyyətin böyüke sərkərdəsi Azərbaycanın hərb tarixi ilə yaxından tanış idi və onu , Azərbaycan hərbçilərinin milli dəyərlər üzərində tərbiyələndirilməsi üçün qiymətli bir mənbə sayırdı. S.Mehmandarov şübhə etmirdi ki, bu tarixin öyrənilməsi xalqın mənəvi düşüncələrini saflaşdırar , onda yad ideologiyalara , o cümlədən də bolşevizmə qarşı bir müqavimət yarada bilər. O yazırdı ki, azərbaycanlılardan təşkil edilmiş olan ordunun şəxsi heyəti öz xalqının qəhrəmanlıq tarixini yaxşı bilməli, ondan ibrət götürməlidir. Ancaq hərbi nazir bu istiqamətdə aparılan işlərdə ifratçılığa

varmağa, milli tərbiyənin millətçiliyin qızışdırılması ilə bir səviyyədə tutulmasına heç cürə razı deyildi.

S.Mehmandarov öz qeydlərində xüsusilə belə bir məsələyə diqqət yetirirdi ki, yüz illik rus əsarətindən azad olmuş Azərbaycan xalqı zəngin tarixi keçmişə malik olduğunu bilməli və onu öyrənməlidir. Bu məqsədlə kütləvi kitabçalar çap olunmalı və Azərbaycanın qəhrəmanlıq tarixi anlaşıqlı dildə xalqa çatdırılmalıdır: «Bolşevizmə qarşı mübarizənin istiqamətlərindən biri xalq içərisində sağlam milli hisslərin yaradılmasıdır. Azərbaycanın yaranmaqda olan gənc ordusu üçün bu xüsusilə lazımdır. Yalnız azərbaycanlılardan təşkil olunmuş hərbi qüvvələrimiz öz xalqının ümumdünya tarixinin səhifələrinə yazmış olduğu və bizdən daha çox Avropa xalqlarının danışdıqları çoxlu igidlikləri, şərəfli döyüş keçmişini bilməlidirlər. Bir əsrdən də  artıq rus ağalığından xilas olmuş türk xalqı bilməlidir ki, biz heç də həmişə əsarətdə olmamışıq, həm də öz iradəmizi Avropa və Asiyaya nümayiş etdirmişik. Güman edirəm türk tarixinin bilicilərindən kimsə xalqımızın müxtəsər tarixini və bu günümüzə qədər olan ən mühüm hadisələri əks etdirən kütləvi kitabçaların tərtib və nəşr edilməsinin tapşırılması faydalı olardı. Sadə xəritələrin əlavə edilməsi də yaxşı olardı. Burada bizim tarixi qəhrəmanlığımız və yad hakimiyyətlər altında olduğumuz vaxt çəkdiyimiz iztirablar güzgüdə olduğu kimi öz əksini tapmalıdır. Onların ifadə tərzi, obyektiv və təmkinli olmalıdır ki, millətçilik barədə təsəvvür yox, bəlkə əsrlik yuxudan oyanan millətdə sağlam hisslər yaratsın».

S.Mehmandarova görə Azərbaycan xalqını və onun ordusunu tarixi keçmişin dəyərli səhifələri ilə tanış etmək ziyalıların qarşısında dayanan başlıca vəzifələrdən biri idi. Çap ediləcək kütləvi nəşrlərin yayılması ilə yanaşı tarixi şəxsiyyətlərə abidələr ucaldılmasını  və onların xatirələrinin əbədiləşdirilməsini də S.Mehmandarov zəruri bir addım kimi qiymətləndirirdi: «Bizim bir sıra müsəlman mütəfəkkirlərin meyl etdiyi ifrat sosial təlimlər müsəlman xalq kütlələrindən yüksək mədəni inkişaf tələb edir. Onların qaranlıq, nadan kütlələrə calaşdırılması bütün Avropa Rusiyasının məruz qaldığı anarxiya və terrora yol aça bilər. Biz müsəlmanlar şüurlu həyata və milli yaradıcılığa yenicə qədəm qoymuşuq. İnternasional ideyaları hələlik bizdən çox uzaqdır. Bax buna görə də bizim ziyalılarımızın  ən mühüm vəzifələrindən biri xalqı və ordunu onun tarixi keçmişi ilə tanış etməkdir. Bu bizim internasional səylərimizin əsassızlığını, xalqda milli hisslərin və türk irqinə mənsubluqdan qürur keçirməyin inkişaf etdirilməsi üçün yaxşı sübut olardı. Belə kütləvi tarixi nəşrlər xalq arasında və qoşunlarda geniş yayılmalı və bunun üçün hər bir kənd müəllimi, hər bir müsəlman zabiti ondan geniş istifadə etməlidir. Gələcəkdə ümumxalq qərarı ilə, hökumətin köməyi ilə türk xalqının böyük xadimləri və rəhbərləri müvafiq abidələr qoyulmaqla əbədiləşdiril- məlidirlər».

S.Mehmandarov hərb tarixinə yalnız qoşunların şəxsi heyətinin qəhrəmanlıq ənənələri üzərində tərbiyələndirilməsi vasitəsi kimi yox, həm də hərb elminin tərkib hissəsi kimi baxırdı. Onun fikrincə hərb tarixi hərb işinin öyrənilməsi üçün bir praktika idi. Zabit olmaq vəzifəsini qarşısına məqsəd qoymuş hərb tarixini öyrənməklə əldə etdiyi nəzəri biliklərin tətbiqinə daha yaxşı nail ola bilərdi.

S.Mehmandarov hərb tarixinin ardıcıl olaraq öyrənilməsini bir zabi kimi yetişməyin başlıca istiqamətlərindən biri sayırdı. 1920-ci il aprel çevrilişindən sonra müəllimi olduğu Azərbaycan birləşmiş hərbi məktəbinin 1926-cı il buraxılışı mərasimində çıxış edərkən S.Mehmandarov hərb tarixi ilə bağlı fikirlərini belə açıqlayırdı: « Mən öz məruzələrimdən
birində artıq sizə demişdim ki, hərb işi canlı işdir, bu işdə təcrübə və praktika çox böyük əhəmiyyətə malikdir və bu təcrübə ilə praktikə çoxsaylı nəzəri mühakimələr qarşısında üstünlüyə malik olmalıdırlar. Bunu deyərkən mən heç də nəzəriyyənin əhəmiyyətini kiçiltmək istəmirəm. Çünki hərb sənəti nəzəriyyəsi özü praktikadan çıxarılmış nəticədir. Belə olduqda isə aşağıdakı vasitələr bacarıq, təcrühə və praktika əldə etməyə kömək edə bilər.

Müharibə vaxtı bacarıq və təcrübə şəxsi praktika ilə əldə edilir. Sülh vaxtı isə -nizamnamələrlə, müharibə və sülh vaxtı rəhbər tutduğumuz göstərişlərlə ətraflı tanışlıq, taktiki vəzifələrin həlli üçün sahəyə çıxış, ikitərəfli manevrlər, komanda heyətinin çöl səfərləri, hərbi oyunlar, hərb tarixinin öyrənilməsi və s. belə vasitələr ola bilər.

Bu vasitələr üzərində çox dayanmayacağam. Yalnız öyrənilməsinə böyük əhəmiyyət verdiyim hərb tarixi üzərində dayanacağam. Hərb tarixinin öyrənilməsi əqli dünyagörüşünü genişləndirir, tənqidi mühakiməni, diribaşlıq və zirəkliyi inkişaf etdirir. Hərb tarixini öyrənməklə siz ovcunuzun içində olduğu kimi bu və ya digər tərəfin bütün səhvlərini, nəyi etməyin lazım gəlmədiyini və necə hərəkət lazım olduğunu görürsünüz, hərb tarixini öyrənməklə siz ən çətin vəziyyətdən baş çıxarmaq və müvafiq çıxarmaq vərdişləri əldə edirsiniz. Hərb tarixini öyrənməklə döyüş zamanı qoşunlara çox baha başa gələn səhvlərin buraxılmasından özünüzü müəyyən qədər qorumuş olursunuz. Güman edirəm ki, deyilənlər hərb tarixinin öyrənilməsinin əhəmiyyətini başa düşməyə kifayətdir. Bunun üçün də mən belə hesab edirəm ki, hərb tarixi hər bir hərbi adam üçün stolüstü kitaba çevrilməlidir. Onu öyrənməklə siz heç şübhəsiz ki, özünüzü həsr etdiyiniz yolda uğurlar qazanacaqsınız».

Tam artilleriya generalı Səməd bəy Mehmandarovun hərb tarixi ilə bağlı söylədikləri öz aktuallığını bu gün də itirməmişdir. Azərbaycan xalqının hərb tarixini, onun görkəmli sərkərdələrinin həyat yolunu öyrənmədən indi yüksək intellektuala malik zabit olmaq mümkün deyildir.

## S. MEHMANDAROVA HƏSR EDİLMİŞ HƏRBİ ŞƏRQİLƏR

Cümhuriyyət ordusunda formalaşan milli-mənəvi dəyrlərdən biri də qoşun hissələrində milli hərbi şərqilərin yaradılması idi. Həmin şərqilər Cümhuriyyət

ordsundan miras qalmış çox dəyərli bir irsdir və bu irs qoşun hissələrinin şəxsi heyətində mövcud olan ovqatın məzmununu və mahiyyətini aydınlaşdırmağa imkan verir.

Hərbi şərqilər şəxsi heyətin mənəvi-ideoloji tərbiyəsinin müstəqil bir istiqaməti idi. Bu şərqilər Cümhuriyyət ordusunun hər bir hərbi qulluqçusunda mənəvi kamillik və bütövləşmə ilə bərabər kollektivçilik ruhu da yaradırdı. Çünki bu şərqilər adətən kollektiv şəkildə ifadə edilirdi və bir növ kollektiv iradənin ifadəsinə çevrilirdi. Bu şərqilərdə həm də xalqın öz ordusuna olan məhəbbəti öz əksini tapırdı. Ona görə həmin şərqilər sevilə-sevilə oxunurdu. Həmin illərdə Azərbaycanda olmuş bir fransız jurnalisti burada şahidi olduqları barədə belə yazırdı: « Rus çarizmi zamanı azərbaycanlılar hərbi xidmətə çağırılmırdılar. Bax buna görə də onlar atıcılıq təmrinlərini yerinə yetirməyi çox sevirlər. Azərbaycan zabitləri xalqa silahdan istifadə etməyi öyrədirdilər. Zərurət yarananda bütün xalq öz ölkəsini qorumağa hazır olacaqdır. Axşam, gündüz əməyindən sonra hər yerdə milli mahnıların necə oxunduğunu eşitmək olar: «Marş irəli, irəli, Azərbaycan əsgəri».

Hərbi şərqilərin ordunun şəxsi heyətinin və eləcə də müstəqilliyini yenicə əldə etmiş bütün xalqın mənəvi hisslərinin və vətənpərvərlik duyğularının qaldırılmasında əhəmiyyəti nəzərə alındığı üçün o vaxtlar dövlət qəzeti olan «Azərbaycan» qəzetində vaxtaşırı belə şərqilər çap olunurdu. 1919-cu ildə B.Səttaroğlu adlı bir müəllif də müxtəlif şərqilərini və marşlarını toplayaraq «Ordu marşları» adlı ayrıca bir kitabçada nəşr etdirmişdi. 1918-20-ci illərdə dövrü mətbuatda, habelə «Ordu marşları» kitabında olan şərqilər, marşlar və şerlər 1993-cü ildə filoloq-alim Alxan Bayramoğlu tərəfindən «Əsgər olmaq bir şərəfdir türk üçün, islam üçün» adlı yeni kitabda toplanaraq çap edilmişdir. Bu kitabda toplanan bədii söz nümunələri Cümhuriyyət dövründə ədəbi fəaliyyətin bu sahəsinə xeyli diqqət yetirildiyini nümayiş etdirir. Tədqiqatlar da göstərir ki, Cümhuriyyət ordusunda əsgər şərqilərinin oxunmasına ən yüksək səviyyədə biqqət yetirilmişdir. Bunu arxiv sənədləri də sübut edir. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivinin 2894 nömrəli fondunda Cümhuriyyət ordusunun şərqiləri toplanmış xüsusi bir qovluq saxlanılır ( siyahı 1, iş 32). Bütün şərqilər əski əlifba ilə yazılmışdır. Onlar müxtəlif hissələrdən Hərbi Nazirliyin ünvanına göndərilmişdir. Qovluqda mövcud olan sənədolərdən aydın olur ki, bu şərqilər 1920-ci ilin əvvəllərində Hərbi Nazirliyiə göndərilmişdir. Burada 1-ci Tatar süvari alayının, 3-cü Gəncə piyada alayının, 4-cü Quba piyada alayının, Lənkəran ehtiyat tabüorunun, 2-ci piyada diviziyasının komandirlərinin təqdimat məktubları da vardır. Həmin məktublarda göstərilir ki, hissəmizin şəxsi heyəti tərəfindən oxunan hərbi şərqiləri sizə göndəririrk. Çox güman ki, Hərbi Nazirlikdən bütün hissələrə göstəriş verilibmiş ki, oxunan hərbi şərqilərin mətnləri toplanaraq Nazirliyə göndərilsin. Bunun nə üçün edildiyini söyləmək çətindir. Ola bilsin ki, Hərbi Nazirlik ordu miqyasında oxunan hərbi şərqiləri sistemləşdirərək ya nəşr etmək, ya da cəm halında hissələrə göndərmək niyyətində imiş.

Cümhuriyyət ordusunun hərbi şərqiləri qəhrəmanlıq nümunələridir və onların hamısını vahid bir məzmun ətrafında qruplaşdırmaq mümkündür. Bu

məzmun da müstəqil Azərbaycan dövlətini sədaqətlə qorumaq, Vətəni etibarlı şəkildə müdafiə etmək, vətəndaşlıq borcunu namusla ödəmək istəyi və arzularıdır. Bu şərqilərə nəzərdən keçirməklə Azərbaycan əsgərinin mənəvi dünyasını, psixoloji ovqatını aydınlığı ilə dərk etmək mümkündür. Heç şübhəsiz ki, bu şərqilərdə ifadə olunan qətiyyət, qəhrəmanlıq pafosu, əsgəri borca vicdanlı münasibət elə Azərbaycan əsgərinin mənəvi-psixoloji dünyasını müəyyənləşdirən cəhətlərdir. Azərbaycan əsgərinə daxili qüvə verən və onu hər cürə məhrumiyyətlərə sinə gərməyə ruhlandıran da məhz bu cəhətlər idi.

Cümhuriyyət ordusunun hərbi şərqilərinin böyük bir hissəsi hərbi nazir Səməd bəy Mehmandarova həsr edilmişdir. Həmin şərqilərdə Səməd bəy Mehmandarova bəslənilən xalq məhəbbətinin izlərini görmək mümkündür. Səməd bəy bu şərqilərdə Azərbaycan xalqının böyük sərkərdəsi və sərdarı kimi vəsf olunur və ona ümumxalq məhəbbəti qabarıq şəkildə diqqət önünə çəkilir. Bu baxımdan aşağıdakı şərqi parçası xarakterikdir:

Qafqazlılar əkbərimiz
Səməd paşa sərdarımız
Allah,Allah fəryadımız
Qan axıdar xəncərimiz

Başqa bir şərqidə isə Səməd paşa aslan ürəkli və şanlı bir komandin kimi vəsf olunur:

Aslan ürəkli Səməd paşamız
Şanlı komandan, sənsən babamız
Sənə qurban olsun ata-anamız
Al bir düşməndən türkün qanını

Şərqilərin hər birində hərbi nazir, tam artilleriya generalı Səməd bəy Mehmandarov belə qürur, əzəmət və səmimiyyətlə anılır. Elə şərqilər var ki, orada Səməd bəyin adı xatırlanmaqla yanaşı ümummən generalların (paşaların), zabitlərin sədaqətli xidmətləri də minnətdarlıqla qeyd edilir və Allahdan onlara kömək dilənir.

Aşağıdakı şərqilərdə Səməd bəy Mehmandarova necə böyük ehtiram bəslənildiyini görmək mümkündür. Öz sağlığında ikən ona bu qədər şərqilər qoşulması Səməd bəyin əvəzsiz bir şəxsiyyət və sərkərdə olduğuna daha bir sübutdur. Ola bilsin ki, bu şərqilərin bəziləri bədii cəhətdən o qədər də güclü deyil. Ancaq orada Səməd bəyə bəslənilən məhəbbət və ehtiramın səmimi olmadığını şübhə altına almaq hec cürə mümkün deyildir.

Səməd bəy əməlləri ilə xalqının böyük övladı olduğunu, xalqın tarixinə iz salacağını təsdiqləmişdi. Hərbi şərqilər də Səməd bəy haqqında onu dərindən sevən sadə xalq kütlələrinin yaratdığı tarixdir. Bu şərqilər sadə olduğu qədər də dərin mənaya malikdirlər. Həmin şərqilər olduğu kimi aşağıda təqdim edilir:

Türk ordusu, türk ordusu
Qəhr eylədi xain rusu
Sənin üçün həp duaçı
Türk qadını, türk yavrusu

Moskvalılar Batum üçün
Həp ağlayır için-için
Türk ordusu yəmin etdi
Qafqazyanı almaq üçün

Qafqazda qan olacaq
Tarixlərə şan olacaq
Bu yerlərə Moskva deyil
Azərbaycan xan olacaq
İştə görün biz əsgərləriz
Cəngdən qorxmaz, cəng edəriz
Qafqaziyaya şan gəliyor
Dərdlərə dərman gəliyor
Aç qoynunu nazlı Qafqaz
Sevdiyin Səməd gəliyor
Tufan kimi coşacağız
Cahana şan salacağız
Biz türklərin sancağını
Qafqaziyaya asacağız
Duman kimi coşacağız
Cahana qan salacağız
Biz türklərin bayrağını
Hindistana asacağız
Qafqaziyaya qan gəliyor
Tarixlərə şan gəliyor
Aç sinəni nazlı vətən
Sevdiyin ordu gəliyor

X X X

Səhər oldu, sular, çaylar
Səsimizə yerlər, dağlar
Dünyaların gözəl yeri
Gümüş kimi nəhrləri
Ölmək var, var, var
Dönmək yox,yox,yox
Dönərisək biz, türklük bizə ar olsun
Yurdumuzun yağıları
Keçmək istər hüdudları
Əldə süngü, öndə sancaq
Köks gərəlim irəli
Ölmək var, var, var
Dönmək yox,yox,yox

Dönərisək biz, namus bizə ar olsun
Evimizi unudalım
Düşmənlərə saldıralım
Arş irəli, marş irəli
Komandanımız Səməd bəyi
Təqib edəlim irəli
Ölmək var, var, var
Dönmək yox,yox, yox
Dönərisək biz, namus bizə ar olsun

X X X

X X X

Xoş gəldiniz, ey şövkət-məab
Millət sizə eylər salam
Siz millətin göz nurusunuz
Minlər yaşa, Səməd paşa
Çoxdan bəri gözlər idik
Qafqaziyanı əfv ediniz
Onun sizə salamı var
Minlər yaşa, Səməd paşa

X X X

Qafqazda düşmən baş qaldırmış
Qanı salmış artıq, izin azdırmış
Quduz canavar tək izin azdırmış
Yandırmış islamın hər bir yanını
Aslan ürəkli Səməd paşamız
Şanlı komandan, sənsən babamız
Sənə qurban olsun ata-anamız
Al bir düşməndən türkün qanını

X X X

Mayın 14-də dava başladı
Gözəl əsgərlərin gözü yaşlıdı
Erməni qoşunu tazə cuşlandı
Sağ ol, Ənvər paşa, sən də min yaşa
Bakı davasında oldu tamaşa
Səngərə çəkilir nər dayanları
Səngər dolusudur əsgər qanları
Sizə qurban olsun islam xanları
Sağ ol, Səməd paşa, sən də min yaşa
Zəngəzur üstündə oldu tamaşa
Dalımı çevirdim daşdan divara
Üzümü çevirdim əvvəl qibləgaha

Köməyim yoxdur ki, yanıma gələ
Sağ ol, Səməd paşa, sən də min yaşa
Bakı davasında oldu tamaşa
        Gedin deyin mənim qərib anama
        Dəmir çarıq geyib gəlsin yanıma
        Anam, məni satma dünya malına
        Sağ ol, Səməd paşa, sən də min yaşa
        Bakı davasında oldu tamaşa
Sarıqamışdan da toplar atıldı
Topun sədasından ay-gün tutuldu
Rus padşahının taxtı pozuldu
Sağ ol, Səməd paşa, sən də min yaşa
Bakı davasında oldu tamaşa

X X X

Qoynunu duman alıbdır
Ətrafa kölgə salıbdır
Rusiyanın ayıları
Qafqaza könül salıbdır
        Samur çayı axmam-deyir
        Ətrafıma baxmam-deyir
        Dağıstanın yağıları
        Vətənimdən çıxmam-deyir
Olurmu, böylə olurmu
Övlad babanı vururmu
Bizim millət xainləri
Bu dünya sizə qalırmı
        Samur çayı çarpaz daşa
        İstər Kaspiyə yanaşa
        Düşmənə faiq olubdur
        Namı gözəl Səməd paşa
Dərbəndin uca divarları
Durubdur düşmənə sarı
Sahib olmaq istər ona
Rusiyanın xainləri
        Çeçenlərin igid xanı
        Qəbul eylərmi zindanı
        Salmaq olarmı zindana
        Bağlayıb şiri-aslanı

X X X

Qafqazlılar əkbərimiz
Allah, allah, fəryadımız
Səməd paşa sərdarımız

Qan axıdar xəncərimiz
        Pək şanlıyız

Düşmənləri qəhr edəriz
Vuranların məhv edəriz
Aslan kimi cəng edəriz
Biz bir tabor aslanlarız
        Pək şanlıyız

Yol ver bizə, Qafqaz dağı
Dağıstanı vuracağız
Babamızdan miras qalan
Yurdlarını alacağız
        Pək şanlıyız

X X X

Gəlin verək, qardaşım, hamı siz də əl-ələ
Qoşun yığıb gedək hamınız da cihada
...Unutma qardaşım, hələ mart ayını
Silah əldə tutub, oğul, saxla hər yanı
Allah, özün saxla Səməd paşanı
Əsgərlər pədəri Səməd paşanı
Saxla, kölgəndə Səməd paşanı
Allah, özün saxla Azərbaycanı

Əsgərlər and içib hamı qurana
Allah lənət eylər hamı qaçana
Gözün çıxsın, xain çıxan, vətənə
Allah, özün saxla Azərbaycanı
Zabit vəkilləri, hamı çox yaşa
Artsın rütbələriniz, olsun tamaşa

x x x

Şükr-xuda, şadlıqla Novruz oldu
Düşmənlərin gözü xar, Novruz oldu
Neçə müddət möhtac idik düşmənə
Yaramazdıq onun heç bir işinə
İndi vurur hər kəs bir daş başına
        Şükr-xuda, şadlıqla Novruz oldu
        Düşmənlərin gözü xar, Novruz oldu

Lazımdır ki, hamı verək əl-ələ
Başqa millətin şanı olmasın bu yerə
Göztərməsin Allah dəxi zəlzələ

Şükr-xuda, şadlıqla Novruz oldu
Düşmənlərin gözü xar, Novruz oldu

Təbrik elədik şanlı Səməd paşanı
Etsin Allah həmişəlik şanını
Minə qədər etsin Allah yaşını
Şükr-xuda , şadlıqla Novruz oldu
Düşmənlərin gözü xar, Novruz oldu

x x x

Boru çalır, əsgər silah alıyor
Musiqilər cəng havası çalıyor
Ey analar, Vətən sizə qalıyor
Getməliyiz, getmək düşdü ərlərə
Düşmən ayaq basmasın bu yerlərə
Sol, sol, sol, irəli, irəli, Vətən fədailəri
Sol, sol, sol, irəli, irəli, Azərbaycan əsgəri

Səməd paşa əsgərlərin pədəri
Çağırıyor, silah başı irəli
Böylə imiş bu millətin qədəri
Getməliyiz, gehmək düşdü ərlərə
Düşmən ayaq basmasın bu yerlərə
Sol, sol, sol, irəli, irəli, Vətən fədailəri
Sol, sol, sol, irəli, irəli Azərbaycan əsgəri

Bəla tutar əsgərlikdən qaçanı
Biz sevməriz Vətənini satanı
Can verəriz, qurtararız Vətəni,
Getməliyiz, getmək düşdü ərlərə
Düşmən ayaq basmasın bu yerlərə
Sol, sol, sol, irəli, irəli, Vətən fədailəri
Sol, sol, sol, irəli, irəli, Azərbaycan əsgəri

## Xidmət məişətinin təşkili

Səməd bəy Mehmandarov son dərəcə humanist və insani prinsipiallığa malik

olan bir şəxs idi. O, ciddi tələbkarlığı ilə seçildiyi kimi səmimiyyəti və qayğıkeşliyi ilə də Cümhuriyyət ordusunun şəxsi heyətinin dərin ehtiramını qazanmışdı. Xarakterinin bu cəhətləri onu xalqın da sevimlisinə çevirmişdi. Səməd bəy hər bir hərbi qulluqçuya qarşı əsgəri tələbkarlığını onun şəxsiyyətinə və həyatına qayğıdan ayrı təsəvvür edə bilmirdi. Hər bir hərbi qulluqçu S.Mehmandarovun nəzərində Azərbaycanın yetkin bir vətəndaşı idi və bu vətəndaşların şəxsiyyətinə böyük hörmət bəslənilməsi ilə onun intizamlılığına anil olunmasını rəhbər kimi fəaliyyətinin başlıca meyarı sayırdı. Özünün bütün xidməti boyu da Səməd bəy bu prinsipi əsas götürmüşdü. Onun nəzərində general da, zabit də, əsgər də Vətənin müdafiəçiləri idilər. Əsgəri borcunu sədaqətlə yerinə yetirən hər bir əsgər və zabitə Səməd bəy elə bir qayğı ilə yanaşırdı ki, sanki Vətənin taleyi məhz həmin əsgər və zabitdər asılı idi. Yəni, Cümhuriyyət ordusunun hər bir əsgər və zabiti S.Mehmandarovun nəzərində Vətənin təpərli bir dirəyi idi və həmin dirəyin daha da təpərli olması üçün onun bütün qayğılarının maksimum şəkildə öyrənilməsini çox vacib bir vəzifə sayırdı.

Ancaq məlumdur ki, bu istiqamətdə Cümhuriyyət ordusu çoxlu sayda problemlərlə qarşılaşmışdı. Ordunun şəxsi heyətinin xidmət məişətinin daha da yaxşı təşkil edilməsi üçün xeyli obyektiv çətinliklər mövcud idi. Bu çətinliklər də əsasən konkret tarixi şəraitdə Azərbaycanın mövcud olduğu iqtisadi, siyasi və hərbi durumla bağlı idi. Həmin çətinliklərə baxmayaraq Hərbi Nazirliyin rəhbərliyi ilə hökumət rəhbərliyi arasında qarşılıqlı bir anlaşma mövcud idi. Hökumət ordunun əsgər və zabitlərinin xidmət şəraitinin yaxşıaşdırılması üçün bütün imkanları səfərbər edirdi. S.Mehmandarov isə həmin imkanlardan ordunun xeyrinə maksimum səmərəli istifadə etməyə çalışırdı. Əsgər və zabitlərə qayğı göstərilməsi məsələsi Səməd bəyin nazir kimi bütün fəaliyyəti boyu bir qırmızı xətt kimi keçmişdi. O, hökumət qarşısında təkrar-təkrar bu problemlə bağlı məsələ qaldırmış və dəfələrlə də xidmət şəraitinin yaxşılaşdırılması istiqamətində konkret addımların atılmasına nail olmuşdu. Ancaq görülən işlər də heç vaxt onu qane etmirdi. Səməd bəy çalışırdı ki, Cümhuriyyət əsgərinin və zabitinin bütün qayğıları birdəfəlik həll olunsun və xidmət məişətinin hər hansı bir tərəfi onların narahatçılığına səbəb olmasın. Onun fikrincə əsgər və zabiti yalnız bir məsələ narahat etməli idi-bu da xidməti borcu sədaqətlə yerinə yetirilməsi məsələsi olmalı idi. Həmin məqsədə az və çox nail olunması isə geniş əhatəli işlərin görülməsini tələb edirdi. Çünki elə S.Mehmandarovun ilk vaxtlardan qoşun hissələri ilə tanışlığı göstərdi ki, qoşunlarda xidmət məişətinin təşkili normal səviyyədən çox-çox uzaqdır.

Bu istiqamətdə Səməd bəy Mehmandarovun diqqətini cəlb edən məsələlərdən biri ordunun infrastrukturasının yaradılması, qoşun hissələrinin zəruri bina və tikintilərlə təmin edilməsi idi. Nəzərdə tutulacaq sayda ordunun normal yerləşdirilməsi üçün Azərbaycanda tələb olunan sayda xidməti bina və qışlalar çatışmırdı. Bunu S.Mehmandarov özü də təsdiq edirdi: «Zaqafqaziyanın Xəzər dənizi və İran sərhədi boyu olan şərq hissəsi Zaqafqaziya respublikası dağıldıqdan sonra indiki Azərbaycan ərazisini təşkil etmişdir. İran Rusiya üçün zəif qonşu olduğundan Xəzər dənizi isə daxili dəniz olduğundan təbiidir ki, bütün diqqət

Türkiyə sərhəddinə yönəldilmişdi və bu sərhəd boyu sahə hərbi baxımdan həmişə təkmilləşdirilirdi. Burada aşağıdakılar mövcud idi:

1) Toplarla, çoxlu sursatla, ərzaq ehtiyailarıvə təchizatla təmin edilmiş Qars və Batum kimi güclü qalalar

2) Aleksandropol və Tiflisdə topçu anbarları və emalatxanaları kimi geniş baza tikililəri; Tiflisdə, Kutaisidə, Batumda, Aleksandropolda, İrəvanda, Qarsda, Sarıqamışda çoxlu sayda abad qışlalar, hərbi xəstəxanalar, Qafqaz qoşunları üçün lazımi ehtiyatlarla dolu olan ləvazimat və topçu anbarları

3)Sarıqamışa qədər uzadılmış strateji şosse və dəmir yolu şəbəkəsi.

Yuxarıda göstərilən səbəblərə görə Azərbaycan Cümhuriyyətinin ərazisi bütün binalardan məhrumdur. Xüsusilə Gürcüstana daha zəngin miras qalmışdır. Hətta çoxlu sayda kiçik qəza şəhərlərinin də ( Qori, Düşet) çox abad kazarmaları var. Tiflisdə isə təkcə çoxsaylı qarnizonları yox, hətta Qafqazın bütün baş idarəsini tuta biləcək xidməti binalar vardır».

Çar Rusiyası ordusundan qalmış olan hərbi tikililər əsasən böyük şəhərlərdə tikilmişdi. Çünki bu böyük şəhərlər özləri Rusiya üçün ucqar təşkil edirdi. Azərbaycanın özünün ucqarlarında qoşunlar demək olar ki, yox dərəcəsində idi. Yeni şəraitdə isə müstəqil Azərbaycan Ordusunun əsasən ucqar məntəqələrdə, Qarabağ ətrafında, şimal sərhəd boyunca yerləşdirilməsi zərurəti ortaya çıxmışdı. Həmin ərazilərdə hərbi tikililər olmadığı üçün şübhəsiz ki, qoşun hissələri uyğunlaşdırılmış binalarda yerləşdirilə bilərdilər. Havaların soyuması isə vəziyyəti xüsusilə mürəkkəbləşdirirdi.

S.Mehmandarov ilk növbədə bu məsələlərin həllinə ciddi diqqət yetirirdi. Vəziyyətin heç olmasa müəyyən qədər yaxşılaşdırılması üçün bir sıra tədbirlər həyata keçirilirdi.

Tikinti-bərpa işlərinin aparılması üçün dərhal 300 min rubl vəsait ayrıldı. Nazirin göstərişi ilə bu vəsait ilk növbədə tikinti materiallarının alınmasına, taxtlar düzəldilməsinə, qapı və pəncərələrin möhkəmləndirilməsinə, otaqların və binaların qızdırılmasına istiqamətləndirildi. S.Mehmandarovun mə'lumatına görə kifayət qədər sobalar əldə edilmişdi və ona görə onlardan da yaxşı istifadə edilməsinə cəhd göstərildi .

Hərbi nazir S.Mehmandarov hərbi hissələrlə elə ilk tanışlıqdan qoşunların yerləşdirilməsi vəziyyətini də diqqətdən kənarda saxlamırdı. 1918-ci il noyabrın 27-də 1-ci Tatar süvari alayında olarkən hərbi nazir qışlaların vəziyyətindən heç də razı qalmadı. Otaqlar darısqal və çirkli idi. Atların tövlələri də ən adi tələblərə cavab vermirdi. Dekabrın 2-də isə nazir 2-ci Qarabağ süvari alayının vəziyyəti ilə tanış oldu. Onun fikrincə, qışlalar qənaətbəxş olsa da at tövlələri qaranlıq və bərbad vəziyyətdə idi. 4-cü və 5-ci dağ topçu batareyalarında gördükləri də naziri qane etmədi. 4-cü batareyada üstüörtülü park olmadığı üçün toplar açıq havada, qarın, yağışın altında saxlanılırdı. Ağdam şərab zavodunun həyətində yerləşmiş olan 5-ci dağ topu batareyasının isə qışlaları yaşayış üçün xeyli narahat idi .

2-ci Qarabağ süvari alayında qışlaların yaxşı vəziyyətdə olmadığını alay komandiri S.Əfəndiyev də e'tiraf edirdi. Daxili əmrlərindən birində polkovnik S.Əfəndiyev qışlaların natəmiz saxlandığını və onun yaşayış üçün narahat olmasını,

zabitlərin öz vəzifələrinə məs’uliyyətlə yanaşmadığını
qeyd edirdi .

Ağdam qarnizonunun ağır şəraitdə yaşaması barədə parlament üzvləri ilə birlikdə burada olmuş daxili işlər nazirinin müavini general Ağabəyov da öz hesabatında hökumətə mə'lumat vermişdi. Onun müşahidələrinə görə, qarnizonun hissələri çox namünasib yerləşdirilmişdi. Binalar çatışmadığından eyni hissənin bölmələri bir-birindən xeyli aralı olan tikililərdə qərar tutmuş, yataq əşyaları çatmadığından çox vaxt elə yerdəcə yatırdılar. Yorğan-döşək az idi. Münasib xəstəxana binası olmadığına görə müxtəlif xarakterli xəstələr bir yerdə müalicə olunurdu. Əsgəranda qoşun
bölmələrinin yaşadığı bina daxmadan başqa bir şey deyildi. Bu bina normal yaşayış imkanlardan xeyli uzaq, dar və çirkli idi, yandırılan ocağın tüstüsü hər tərəfi bürüyüdü, axşam otaqların
işıqlandırılması üçün lampa yox idi. Zabitlərin yaşadığı otaqlar da əsgər qışlasından heç nə ilə fərqlənmirdi. General Ağabəyov fikrini onunla yekunlaşdırırdı ki, Ağdamda qoşunların münasib qışlaları yoxdur" .

1919-cu il yanvarın 1-də hərbi nazir Hacıqabulda yerləşən 2-ci Bakı piyada alayının formalaşması, onun yerləşməsi vəziyyəti ilə tanış oldu. S.Mehmandarovun həmin tanışlıqla bağlı imzaladığı əmrdən aydın olurdu ki, mövcud olan tikililərdən necə istifadə edilməsi komandir və zabitlərin
işgüzarlığından, şəxsi hey’ətə hansı qayğı ilə yanaşmasından da çox asılı idi. Əgər birinci taborda şəxsi hey’ətin yerləşdirilməsi lazımi tələblərə cavab vermirdisə, otaqlar çirkli və soyuq idisə, eyni zamanda yatacaq əşyaları yox idisə, ikinci taborda qışlalar təmiz və səliqəli, otaqlar işıqlı və isti idi. Bir sözlə, tabor komandirinin işgüzarlığı və qayğıkeşliyi dərhal hiss olunurdu .

Vaxtilə rus qoşunlarının yaşamış olduğu qışla və tikililərdə, habelə qışla yerinə istifadə edilən şəxsi binalarda yaşayış üçün zəruri olan müəyyən əmlak saxlanılmışdı. Hərbi hissələr şəhəri tərk edərkən otaqlardakı taxtlar, çarpayılar, şkaflar və digər mebel təhvil verilmişdi. Bu qışlaları təhvil alan Azərbaycan Ordusunun bə'zi hissə və bölmələri təhvil alınan binalara və mebelə qarşı hədsiz ehtiyatsızlıqla yanaşır və onların sıradan çıxmasının aradan qaldırılması üçün heç nə etmirdilər. Hərbi nazir S.Mehmandarov 1919-cu ilin əvvəllərində bu məsələ ilə bağlı xüsusi əmr imzalamış, komandir və zabitləri xidməti mülkiyyətə qayğı göstərməyə çağırmışdı .

14 fevral 1919-cu il tarixli 74 saylı əmrində isə  S, Mehmandarov hərbi obyektlərdə qoşun hissələri tərəfindən tikinti və bərpa işlərinin aparılması qaydasını müəyyən etdi. Ətrafda yerləşmiş olan qoşun hissələrinin tikililərində bərpa işlərinin müstəqimən İstehkam İdarəsi tərəfindən aparılması imkanı olmadığı üçün onların icrasının yerlərdə həyata keçirilməsinə icazə verilirdi. Bunun üçün qoşun hissələrinin komandirləri görülən işlərin həcmini, ona sərf olunacaq maliyyə vəsaitinin miqdarını müəyyənləşdirib İstehkam İdarəsinə bildirməli və sonra həmin vəsaiti almalı idi. Qoşunlarda alınan maliyyə vəsaiti İstehkam İdarəsinin rəisinin möhrü ilə möhürlənmiş və surğuclanmış kitabda mədaxil edilməli idi. Nəzərdə tutulan işlər qurtardıqdan sonra Ümumi qərargahın və İstehkam İdarəsinin

zabitlərindən təşkil edilmiş komissiya onu yoxlamalı və ayrılan maliyyə vəsaitinə uyğunluğu barədə akt tərtib etməli idi .

Mövcud olan çətinliklərə baxmayaraq güclü ordunun formalaşdırılması üçün vacib olan hərbi infrastrukturanın yaradılması və onların lazımi səviyyədə saxlanması həm Hərbi Nazirliyin, həm də hökümətin daimi nəzarəti altında idi. Mə'lumdur ki, Azərbaycan hökuməti 1919-cü ilin aprelində hərbi nazirin təqdimatından sonra ordunun formalaşdırılması üçün 1919-cu ildə büdcədən ayrılan vəsaitin miqdarını təsdiq etdi. Bu vəsait 399, 4 milyon rubl olub dövlət büdcəsinin 27,7 faizini təşkil edirdi . Həmin vəsaitin böyük bir hissəsi məhz hərbi infrastrukturanın yaradılmasına, bərpasına və yaxşı vəziyyətdə saxlanılmasına sərf edilməli idi. Bunu S. Mehmandarovun təqdim olunan smeta ilə bağlı Nazirlər Şurasına göndərdiyi məktubundan da aydın görmək mümkündür. Nazir ilk növbədə hərbi infrakstruktura baxımından Azərbaycanın qonşu respublikalarla müqayisədə daha mürəkkəb vəziyyətdə olduğunu vurğulayırdı. Qoşunların yerləşdirilməsi, hərbi infrastrukturanın yaradılması, binaların qışa hazırlığı və digər bu kimi məsələlər həm 1919, həm də 1920-ci ildə dəfələrlə Dövlət Müdafiə Komitəsinin müzakirəsinə çıxarılmış və burada maliyyə vəsaiti ayrılması, bu və ya digər dövlət orqanlarına müvafiq tapşırıqlar verilməsi barədə qərarlar qəbul edilmişdi .

Nəticədə qoşunların yerləşdirilməsi və hərbi infrastrukturlarının yaradılması üçün xeyli işlər görmək mümkün olmuşdu. 1920-ci ildə Azərbaycan Ordusunun birləşmə, hissə, idarə, müəssisə və təşkilatlarının sayı da hərbi infrastrukturanın yaradılması baxımından nəzərəçarpacaq işlərin görüldüyünü sübut edirdi.

Qısa müddətdən sonra elə Ağdam qarnizonunun vəziyyətində xeyli dəyişiklik yarandı. Həm 1-ci Cavanşir piyada alayında, həm də 2-ci Qarabağ süvari alayında otaqlar təmiz və səliqəli idi, binalar müəyyən bərpa işləri tələb etsələr də, yaşayış yeri üçün sahmana salınmışdı. Taxtlar və çarpayılar çatışmadığı üçün xüsusi hörmə çarpayılar düzəldilmişdi və əsgərlərin istifadəsinə verilmişdi . 2-ci süvari Qarabağ alayının hər bölüyünün öz at tövləsi var idi. Cavanşir piyada alayında isə silah e'malatxanası, açılmış və onların hər biri üçün bina ayrılmışdı . Şəxsi hey'ətin yerləşdirilməsi üçün Lənkəran köməkçi taborunda xeyli işlər görülmüşdü. Qışlalardan başqa e'malatxanalar da yaxşı qurulmuş və münasib binalarda yerləşdirilmişdi. Taborda hətta dəmirçixana və çörəkbişirmə sexi də açılmışdı. Taborun yerləşdirilməsində, qışla və köməkçi binaların yaxşı təchiz edilməsində, bütünlükdə hissənin formalaşdırılmasında göstərdiyi təşəbbüskarlıq və işgüzarlığa görə hissə komandiri kapitan S.Rəfibəyov S.Mehmandarovun təşəkkürünü almışdı .

Qoşunların ərzaq ehtiyatının toplanması üçün Hacıqabulda, Gəncədə və Ağdamda iaşə anbarları yaradılmışdı . Ləkidəki topçu cəbbəxanası sıxlıq yaratdığı üçün Kürdəmirdə 2-ci topçu cəbbəxanası açılmış və bunun üçün müvafiq bina təchiz edilmişdi . Hissələrin çoxunda əsgər xəstəxanaları açılmış və həmin xəstəxanalar münasib binalarla təchiz edilmişdi.

Hərbi binaların qızdırılması üçün bütün hissələrə pul ayrılmışdı. Hər bir binanın qızdırılmasına zəruri olan odunun, kerosinin və mazutun norması müəyyənləşdirilmiş və müxtəlif məntəqələrdə onların qiyməti müxtəlif olduğu

üçün real bazar qiymətlərinə uyğun gələn qiymət cədvəli təsdiq edilmişdi. Hissələr həmin cədvələ uyğun olaraq ayrılmış pul əsasında bu yanacağı ala bilərdilər.

Əsgər xəstəxanalarının qızdırılmasına vəsait ayrılmasına xüsusi diqqət yetirilirdi. Bununla bağlı S.Mehmandarov ayrıca bir əmr imzalamışdı. Həmin əmrlə əsgər xəstəxanalarının qızdırılması üçün zəruri olan yanacağın normaları müəyyənləşdirilmişdi. Əsgər xəstəxanaları üçün ayrılmış olan binalar oktyabrın 1-dən aprelin 1-nə kimi qızdırılmalı idi. Otaqlarda olan hər bir peç üçün 3 girdinli ağacdan 12 verşok odun ayrılmalı idi. Xəstəxanaların mətbəxlərində istifadə edilməsi üçün ayda bir sajen yandırıla bilərdi. Mətbəx peçi il boyu işlədiyindən bu norma hər ay üçün təsdiq edilmişdi. Bundan başqa xəstəxanaların çörək sexi, hamamı, camaşirxanası üçün də odun normaları müəyyənləşdirilmişdi .

İşlədiləcək yanacaq normaları və onların qiymətləri müəyyənləşdirilərkən böyük məsrəflərə yol verilməməsi nəzərə alınmışdı. Bununla yanaşı, S.Mehmandarov şəxsi hey'ətin sağlamlığına ziyan gətirə biləcək lüzumsuz qənaət edilməsini də düzgün saymırdı. Mövsümün sonunda hissələr həm yanacaq üçün ayrılmış pulun xərclənməsi barədə hesabat verməli, onu əsaslandırmalı, həm də qənaət edildiyi təqdirdə onun nəyin hesabına olduğu haqda izahat verilməli idi.

Bütün bunlar heç də o demək deyil ki, Azərbaycan Ordusu üçün hərbi infrastrukturların yaradılması, qoşunların, köməkçi xidmətlərin yerləşdirilməsi üçün binaların tikilməsi, kirayəyə götürülməsi, bütün zabitlərin yaşayış sahəsi ilə tə'min edilməsi tam ödənilmişdi. Bunu S.Mehmandarov da yaxşı bilirdi və bu vəziyyətin düzəldilməsi üçün bütün mümkün imkanlardan istifadə etməyə çalışırdı.

1920-ci ilin yanvarında onun əmri ilə növbətçi general, polkovnik Jilyayev Bakı əsgər xəstəxanasına yollanmış, xəstəxananın rahatlığı, xəstələrin yaşayış vəziyyəti ilə tanış olmuşdu. Həmin əmrin yerinə yetirilməsi ilə bağlı yazdığı hesabatında polkovnik Jilyayev göstərirdi ki, xəstəxananın qəbul otağı xeyli kiçikdir, hamam həddən artıq çirklidir, pəncərələrin qarşısına yuyulmamış qablar qalaqlanmışdı. Polkovnik Jilyayev xəstələrin ərzaqla tə'minatında rast gəldiyi qüsurlara da toxunurdu. Bu hesabatla bağlı S.Mehmandarovun imzaladığı müvafiq əmrdə əsgər xəstəxanalarının baş həkimlərindən, qarnizon rəislərindən ciddi tələb olunurdu ki, xəstəxanaların sanitar rejiminə nail olsunlar, ən adi yaşayış normalarına əməl etsinlər. Əmrdə göstərilirdi ki, heç bir bəhanə qəbul edilməyəcəkdir, irəli sürülən tələblərin icrasının qeyri-mümkün olması barədə söylənilən izahatlara qulaq asılmayacaqdır.

Bütünlükdə qoşun hissələrinin şəxsi hey'ətinin tibb xidməti ilə tə'min edilməsi Azərbaycan Ordusunun formalaşmasında böyük əhəmiyyətə malik idi. Bu məsələ həm tibb obyektlərinin yerləşdirilməsini, onlar üçün sanitar tələblərə cavab verən tikililərin ayrılmasını, həm də ümumiyyətlə, hərbi tibb xidmətinin təşkilini, şəxsi hey'ətin yararlı tibb xidməti və qayğısı ilə tə'min edimәsini özündə birləşdirirdi. Məsələnin vacibliyi və aktuallığı onunla şərtlənirdi ki, Azərbaycanın tibb şəbəkələri, milli kardları az idi, əhalinin tibbi savadı xeyli aşağı idi. Ağır yaşayış şəraiti, sanitar normalarına əməl edilməməsi və bunun nəzarət altında saxlanmaması müxtəlif xəstəliklərin, o cümlədən yoluxucu xəstəliklərin

geniş yayılmasına yol açırdı. Belə xəstəliklər, şübhəsiz ki, hərbi hissələrə də sirayət edir, hissələrin döyüş hazırlığı səviyyəsinə ciddi tə'sir göstərirdi.

Havanın soyuması, yaşayış şəraitinin lazımi tələblərə cavab verməməsi, sanitariya normalarının gözlənilməməsi ilə genişlənən xəstəliklərin qarşısının alınması üçün S.Mehmandarovu ilk növbədə hərbi müalicə ocaqlarının açılmasına və onların lazımi kadr və avadanlıqla təchiz edilməsinə ciddi əhəmiyyət verirdi. 1918-ci il dekabrın 14-də Gəncə praporşiklər məktəbinin 10 nəfərlik tibbi qəbul otağı, 1918-ci il dekabrın 15-də Hacıqabulda yerləşən 2-ci Bakı alayının 60 nəfərlik əsgər xəstəxanası, 1919-cu il yanvarın 1-də 1-ci piyada Cavanşir alayının 60 nəfərlik əsgər xəstəxanası, 2-ci Qarabağ süvari alayının 20 nəfərlik müayinə otağı, 1919-cu il fevralın 4-də Əlahiddə Zaqatala taborunun 20 nəfərlik əsgər xəstəxanası açıldı .

Qeyd etmək lazımdır ki, tibb xidmətinin yaxşılaşdırılmasına Səməd bəy Mehmandarov müstəsna diqqət yetirirdi. Onun tərəfindən imzalanmış olan əmrlərin böyük bir hissəsi də məhz qoşunlarda tibb xidmətinin düzgün təşkili, yayılmış olan ən müxtəlif xəstəliklərin qarşısının alınması ilə bağlı idi.

1919-cu və 1920-ci illər ərzində qoşun hissələrində və qarnizonda müalicə ocaqlarının sayı daha da artırıldı. Əvvəlcə əsgəri xəstəxanaların bə'ziləri ləğv edilib birləşdirildi, ya da onların sahəsi genişləndirildi. Məsələn, S.Mehmandarovun əmri ilə 1919-cu ilin yayında 1-ci Cavanşir piyada alayının nəzdindəki 60 nəfərlik əsgər xəstəxanası və 2-ci Qarabağ süvari alayının nəzdindəki 20 nəfərlik müalicə otağı ləğv edildi. Bu müalicə ocaqları Xankəndi əsgəri xəstəxanasına qatıldı. Ancaq
mə'lumdur ki, bu alayların müalicə ocaqları sonradan yenə bərpa olundu. 1919-cu il noyabrın 8-də Lənkəran köməkçi taborunda 30 nəfərlik əsgəri xəstəxana açıldı. 30 nəfərlik əsgəri xəstəxana noyabr ayında həm də 3-cü Gəncə piyada alayının nəzdində açıldı. Gəncədəki əsgəri xəstəxananın xəstələrlə dolduğu və əlavə xəstə qəbul edə bilmək imkanı olmadığı üçün üçüncü alayda yeni əsgər xəstəxanasının açılması məqsədəuyğun bilinmişdi .

Bundan başqa, hərbi nazirin əmri ilə 1919-cu il noyabrın 24-də Şuşada 5 nəfər zabit və 100 nəfər əsgər üçün nəzərdə tutulmuş 105 nəfərlik əsgər xəstəxanası, 1920-ci il yanvarın 1-də Bakı şəhərində 5-ci Bakı piyada alayının əsgər xəstəxanası, 1920-ci il yanvarın 13-də Xankəndində 2-ci Qarabağ süvari alayının 30 nəfərlik müayinə otağı, 1920-ci il fevralın 1-də Xankəndində 1-ci Cavnşir piyada alayının 30 nəfərlik müayinə otağı açıldı .

Səməd bəy Mehmandarovun əmri ilə bütün qarnizonlarda sanitar komissiyaları yaradıldı. Bu komissiyaların tərkibinə bir həkim, bir kiçik həkim və bir zabit daxil edilmişdi. Həmin komissiyalar həftədə iki dəfə qarnizonun şəhərciyində reyd keçirməli, qarnizonun binalarını, hərbi obeyktləri, şəxsi hey'ətin paltarlarını, gigiyena vəziyyətini, yeməyin bişirilməsini yoxlamalı idilər .

S.Mehmandarovun mə'ruzəsindən sonra 1919-cu ilin sonlarında Dövlət Müdafiə Komitəsi əsgər xəstəxanalarının lazımi dərman ləvazimatı ilə tə'min edilməsi üçün 2 milyon 200 min rubl vəsait ayırdı . Eyni zamanda əsgəri tibb müəssisələrinin fəaliyyətinə və bütünlükdə qoşunlarda tibb xidmətinin təşkilinə,

şəxsi hey'ətin tibb xidməti ilə tə'min edilməsinə rəhbərlik edən hərbi xəstə hissəsinin ştatlarının və səlahiyyətlərinin genişləndirilməsi və onun idarəyə çevrilməsi barədə hökumət qarşısında məsələ qaldırıldı. Hökumətin razılığı ilə Hərbi Xəstə hissəsi Hərbi Xəstə İdarəsinə çevrildi .

Tibbi xidmətin vəziyyətini yaxşılaşdırmaq üçün əsgər xəstəxanalarının ştatları da artırılmışdı 1920-ci ilin yanvarından isə əsgər xəstəxanalarında işləyən feldşerlərin maaşı qaldırılmışdı .

Azərbaycan Ordusundakı bütün tibb ştatları mülki vəzifələr idi. Hətta xəstə hissəsinin və sonradan isə idarəsinin müdiri də mülki şəxs idi. Tibb kadrları ya könüllülük, ya da səfərbərlik əsasında xidmətə cəlb edilirdilər. Uzun müddət Hərbi Xəstə hissəsinə, bu hissəinin səlahiyyətləri genişləndirildikdən sonra isə Hərbi Xəstə İdarəsinə rəhbərlik edən həkim Bahadır bəy Qayıbov da səfərbərlik yolu ilə Azərbaycan Ordusuna çağırılmış və 1919-cu ilin iyun ayında ona tibb xidmətinə rəhbərlik etmək tapşırılmışdı .

Azərbaycan Ordusuna çağırılan həkimlərə mə'mur çini verilirdi. Bu həkimlər xüsusi forma geyinməli idilər ki, onu da dövlətdən ayrılan vəsaitin hesabına əldə edirdilər .

Lakin bir səfərbərlik yolu ilə tibb kadrlarına, xüsusilə kiçik sanitar hey'ətinə və feldşerlərə olan ehtiyacı ödəmək mümkün deyildi. Hərbi nazir 1919-cu ilin ilk aylarında Gəncə əsgər xəstəxanasının vəziyyəti ilə tanış olduqdan sonra dərhal ora hərbi hissələrdən 26 nəfər əsgərin gətirilməsi və onlardan sanitar kimi istifadə edilməsi barədə əmr verdi .

Ümumən burada gördükləri S.Mehmandarovu razı salmamışdı. Əsgər səhhətinə göstərilən biganəliyi o dözülməz sayırdı. Burada rastlaşdıqları ilə bağlı imzaladığı müvafiq əmrində S.Mehmandarov ən kiçicik məsələyə belə çox diqqətlə yanaşır və onların həlli üçün konkret tələblər irəli sürürdü. Digər tərəfdən də bu əmrdə Səməd bəyin mövcud çətinliklərə böyük ürək ağrısı ilə yanaşdığını da görməmək mümkün deyil: «Yanvarın 19-da dəmir yolundakı binalarda yerləşən 210 nəfərlik Gəncə hərbi lazaretində oldum. Xəstələrin palataları yaxşı vəziyyətdə saxlanılmır. Qapı və pəncərədəki boşluqlar tutulmayıb Ona görə də otaqlardan yel vurur və soyuqdur.Hərarət ölçənlər yoxdur. 275 nəfərə cəmi bir vanna var. Onlar ən azı üç ədəd olmalıdır. Belə ki, yolxucu və zöhrəvi xəstələr üçün xüsusi vannalırın olmasını güman edirəm. Ayaq yolları iyrənc vəziyyətdə saxlanılır. Həyət zibillidir, hər tərəfdə çirkli pambıq parçaları görmək mümkündür. Xəstələr də pis gündə saxlanılır, ağlar çatışmır. Halbuki buradakı anbarda nə qədər istəsən ağ parça vardır. Bunu qayğıkeşliyin və işə həvəsin olmaması ilə izah etmək olar. Vəfat edənlər 4-5 gün dəfn edilmir. Dəfni təşkil etmək üçün molla yoxdur. Lazaretin baş həkimi nə üçünsə indiyə kimi bu barədə susub. Ümumi Qəragah rəisi dərhal bura molla təyin etsin.

Sanitarlar cəmi 26 nəfərdir. Ancaq nədənsə cəmi 6-sı işləyir. Qalanların nə ilə məşğul olduğunu mən öyrənə bilmədim. Dərhal məlumat verilsin. Feldşerlərin çatışmadığı hiss olunur. Hətta zöhrəvi xəstələr palatasında da şəfqət bacıları işləyir. Anlaya bilmirəm, həkimlər buna necə yol verirlər? Bu , qətiyyən yolverilməzdir».

1919-cu il fevralın əvvəllərində Ağdam hərbi xəstəxanası ilə tanış olduqdan sonra Səməd bəy Mehmandarov yazırdı : «Hərbi xəstəxana dəhşətli vəziyyətdədir. Vəziyyətin düzəldilməsi üçün təcili şəkildə aşağıdakı tədbirlər həyata keçirilsin: 1) Podpraporşiklərdən biri lazaretin təsərrüfat müdiri təyin edilsin; 2)Qərargah rəisi lazareti və oradakı adamların ərzaqla təmin edilməsini nəzarət altına alsın; 3) Kimə həkim icazə verirsə ona tam şəkildə 2,5 funt təzə çörək verilsin; 4) Hərbi Xəstə hissəsinin müdiri lazaretə iki həkim və kifayət qədər feldşer və şəfqət bacısı təyin etsin; 5) Bütün qarnizona norma ilə nəzərdə tutulmuş 6 misqala əlavə olaraq 3 misqal da şəkər verilsin. Adamlara gündə üç dəfə çay verilsin; 6) Ləvazimat idarəsi tərəfindən ayrılmış heyvanlardan 6 baş sağmal inək lazaretə verilsin, onlar göndəriləna qədər isə heç olmasa camış südü paylansın; 7) Lazaretin boşaldılması üçün bir-çox xəstələr həkim yoxlamasından sonra evlərə buraxılsın; 8) Lazaretə kənar şəxslər buraxılmasın. Hər gün lazaret üzrə növbətçi, binaların təmizlənməsi üçün isə adamlar təyin edilsin; 9)Çiy su içilməsinə imkan verilməsin».

Sanitar hey'ətinə bütün əsgər xəstəxanalarında ehtiyac olduğu üçün S.Mehmandarov bu məsələnin ümumordu miqyasında həll edilməsi barəsində əmr verdi. 15 fevral 1919-cu il tarixli 78 saylı həmin əmrdə göstərilirdi ki, hərbi müalicə müəssisələrinin təcrübəli kiçik sanitar hey'əti ilə tə'min edilməsi üçün bütün hissələrdə 2 aylıq sanitar kursları açılmalı, bu kurslar üçün xüsusi proqram hazırlanmalı və hissə həkimləri tərəfindən tədris edilməli idi. Əmrə əsasən hər hissədən könüllülük əsasında 12 nəfər seçilməli və hissə komandirləri tərəfindən günün müəyyən edilmiş vaxtında onlar tibbi məşğələlər keçməli idilər .

Feldşer kadrlarının hazırlanması üçün orduda xüsusi məktəb açılmışdı. Belə bir məktəbin açılmasının təşəbbüskarı 1-ci Cavanşir alayının Şuşa şəhərində yerləşən birinci taborunun muzdlu xidmətçisi, həkim Mehmandarov olmuşdu. O, orduda azərbaycanlı tibb kadrlarına böyük ehtiyac olduğunu gördükdən sonra komanda üzrə hərbi nazirin qarşısında Feldşer məktəbinin açılması məsələsini qaldırmışdı. S.Mehmandarov həkim Mehmandarovun təklifini böyük razılıqla qarşıladı. Xüsusilə ona görə ki, bu məktəbdə təhsilin Azərbaycan dilində aparılacığı bildirilirdi. Bu, özlüyündə böyük təşkilatçılıq işi tələb edirdi. Çünki tibb kadrları ancaq rus dilində təhsil almışdılar. Azərbaycan dilində heç bir dərslik və proqram yox idi. Azərbaycan əsgərlərinin rusca təhsil alması isə xeyli çətin idi. Azərbaycan dilində dərsliklərin, tədris materiallarının hazırlanmaması üzündən Şuşadakı Feldşer məktəbinin açılışı geciksə də nəhayət, bu məktəb işə başladı. Hərbi feldşer məktəbi 40 nəfər üçün nəzərdə tutulmuşdu və təhsil altı ay müddətində davam etməli idi.

Məktəbin tədris proqramına anatomiya, fiziologiya, cərrahiyyə, zöhrəvi xəstəliklər, göz xəstəlikləri, daxili xəstəliklər üzrə kursların keçilməsi və xəstələrə qulluq qaydalarının öyrədilməsi daxil idi .

Səməd bəy Mehmandarovun əmri ilə Hərbi Feldşer məktəbinin fəaliyyətinə əlavə həkimlər də cəlb olunmuşdular. Bunlar həkim Ağayev və həkim Ağakişibəyov idi. Məktəbin əsasnaməsinə görə ora savadlı və Azərbaycan dilində danışmağı bacaran əsgərlər qəbul edilirdilər. Məktəbə daxil olmazdan əvvəl arzu

edənlər sıra xidmətinin illik proqramını başa vurmalı idilər. Məktəbin bütün fəaliyyəti Hərbi Nazirliyin vəsaiti hesabına təşkil edilirdi və bu təhsil ocağı birbaşa Hərbi Xəstə idarəsinə tabe idi. Təhsil müddətinin sonunda müdavimlər imtahan verməli idilər. İmtahanı müvvəffəqiyyətlə verənlər bölük feldşeri hüqüqu alırdılar. Onlar sonradan əlavə imtahan verib tibb feldşeri hüququ əldə edə bilərdilər. Məktəbi qurtaranlar Azərbaycan Ordusunun hərbi qulluqçuları hesab edilirdilər və başqa hərbçilər kimi onlar da iki il xidmət etməyə borclu idilər.

Orduda tibbi müalicə şəbəkəsinin genişlənməsi və onun lazımi kadrlarla təchiz edilməsi üçün əhəmiyyətli işlər görülsə də bu orqanların fəaliyyəti, bütünlükdə qoşunlarda sanitar vəziyyət S.Mehmandarovun ciddi nəzarəti altında saxlanılırdı. Xidmətin ilk aylarında səhhəti korlanmış olan əsgərlər qısamüddətli mə'zuniyyətə buraxılırdılar ki, onlar evdə daha yaxşı qayğı ilə əhatə olunsunlar və tezliklə sağalıb xidmətə qayıtsınlar. Ancaq bu, heç də həmişə gözlənilən nəticəni vermirdi. Ona görə də nazir belə bir praktikaya son qoyulması barədə əmr verdi. Səməd bəyin fikrincə, bu, əsgərlərdə hərbi əhval-ruhiyyənin formalaşmasına, xidməti vəzifələrinə məs'uliyyət aşılanmasına pis tə'sir etməklə bərabər, onların səhhətinin bərpasına lazımi kömək göstərmirdi. S.Mehmandarov qısamüddətli mə'zuniyyətlər verilməsinin əvəzində səhhəti korlanmış və zəifləmiş əsgərlər üçün xüsusi komandaların yaradılmasını məqsədəuyğun bilirdi. Hər 150 nəfər üçün nəzərdə tutulan belə komandaların aşağıdakı məntəqələrdə yaradılması barədə göstəriş verildi: 1) Xankəndində, 1-ci Cavanşir piyada alayının nəzdində – Qarabağ general-qubernatorluğunda yerləşən qoşun hissələri üçün; 2) Qusarda, 2-ci Bakı piyada alayının nəzdinə – Bakı rayonunun hissələri üçün; 3) Nuxa şəhərində, 4-cü Zaqatala piyada alayının Nuxadakı bölüyünün nəzdində – Zaqatala ətrafındakı qoşun hissələri üçün; 4) Hacıkənddə, Praporşiklər məktəbinin nəzdində – Gəncə ətrafında yerləşən qoşun hissələri üçün. Bu komandaların formalaşdırılması adları çəkilən hissələrin komandirlərinə tapşırıldı .

Səhhəti zəif olanalar üçün yaradılan komandalar tibb obyektlərindən kənarda, boş qışlalarda və ya münasib bina və çadırlarda yerləşdirilməli idi. Komandaların komplektləşdirilməsi hərbi həkimlərin müayinəsi və qərarı ilə həyata keçirilirdi. Hissənin və ya əsgərlərin müalicə olunduğu xəstəxananın həkiminin qərarı ilə kimlərin səhhəti zəif olanlar üçün komandaya göndərilməsi müəyyənləşdirilir, bu barədə müvafiq hissə komandirinə mə'lumat verilirdi. Hissə komandirinin əmri ilə rəsmiləşdiriləndən sonra səhhəti zəif olan yaxınlıqdakı komandaya göndərildi. Həmin komandalar yerləşdikləri əraziyə görə Qusar, Nuxa, Hacıkənd və Xankəndi komandaları adlandırılırdı. Bu komandalar üçün yungül xidmət rejimi müəyyənləşdirilmişdi. Əsgərlər vaxtaşırı həkimlər tərəfindən müayinə edilirdilər. Müalicə müddəti bitdikdən sonra əsgərlər yenidən həkim müayinəsindən keçir, onların nizami xidmətə yararlı olub-olmadığı müəyyənləşdirilirdi. Həkimlərin qərarından sonra əsgərlər ya nizami hissələrə, ya da köməkçi hissələrə göndərilirdi.

Təkcə səhhəti zəifləyənlər üçün olan komandalarda deyil, bütün qoşun hissələrində sanitar- gigiyena normalarına riayət edilməsi daimi nəzarət və qayğı

altında idi. Xəstəliklərin çoxalması ilə döyüş hazırlığının zəifləməsinin qarşısını almaq üçün S.Mehmandarov da müvafiq əmrlər imzalayırdı. 1919-cu il iyunun 5-də nazirin imzaladığı 281 saylı əmr havaların hədsiz qızması ilə mədə-bağırsaq xəstəliklərinin, dizentiriya və xoleranın yayılması təhlükəsinin qarşısının alınmasına yönəldilmişdi. Nazir tələb edirdi ki, 1) bütün bölüklərdə, komandalarda, bölmələrdə qaynadılmış su saxlanması üçün xüsusi baklar düzəldilsin, onların qapaqları qıfılla bağlansın, yanına fincan qoyulsun və əsgərlər lazım olarsa ancaq qaynadılmış su içsinlər; 2) hansı hissənin ki, yaxınlığında su xətləri və mənbələri yoxdur, uzaqdan suyun daşınması üçün arbalar üzərində bərkidilmiş çəlləklərdən istifadə edilsin. Gətirilən su hissələrdə xüsusi çəlləklərdə saxlanılsın,
onların gigiyena normaları qorunsun; 3) ləvazimat xidmətinin anbarlarında saxlanılan ehtiyatlar imkan verirsə bütün əsgərlər su qabları, çay içmək üçün fincanlar, çörək saxlamaq üçün torbalarla təchiz edilsin; 4) əsgərlərə çiy su içmək qadağan edilsin; 5) hər hansı zərurət üçün şəhər kanallarından və arxlarından su götürülməsinə icazə verilməsin; 6) bütün bölüklərdə, komandalarda əlüzyuyanlar qoyulsun və ondan istifadə edilməsinə nəzarət gücləndirilsin. Xüsusilə mətbəx əlüzyuyan, təmiz dəsmal və sabunla təchiz edilsin; 7) hissələrin həkimləri savadlı tərcüməçilərin vasitəsilə şəxsi hey'ətlə söhbətlər aparsın; səhhətin qorunması, xüsusilə xoleraya xəstəliyinin profilaktikası barədə onlara lazımi məsləhət verilsin, 8) binalarda, həyətlərdə ayaq yollarında təmizliyin qorunması üçün ən qəti tədbirlər görülsün, ayaq yolları və zibil toplanan yerlər vaxtı-vaxtında dezinfeksiya edilsin, 9) bütün ərzaq növlərinin keyfiyyətinə, onların mühafizəsinə və milçəklərdən qorunmasına ciddi fikir verilsin .

S.Mehmandarovun bu əmrdə irəli sürdüyü tələblər görünür hər yerdə lazımi şəkildə icra edilmədiyindən kütləvi xəstəliklərin qarşısını tamamilə almaq mümkün olmamışdı. Yuxarıdakı mə'lumatlardan görünürdü ki, bə'zi qarnizonlarda vəziyyət müəyyən qədər yaxşı olsa da bə'zi hissələrin əsgər xəstəxanalarında heç yer də çatmırdı. Ona görə də 1919-cu ilin noyabr ayında Səməd bəy profilaktik tədbirlərin gücləndirilməsi ilə bağlı yeni bir əmr imzaladı. Həmin əmrdə də yoluxucu xəstəliklərin qarşısının alınması üçün sanitar-gigiyenik tədbirlərin həyata keçirilməsinin zəruriliyi vurğulanırdı. Sanitar-gigiyenik tədbirlər içərisində nazir əsasən otaqlarda, yaşayış sahələrində təmizliyin saxlanmasına, əsgərlərin üst-başının yaxşı olmasına, başlıca yoluxma mənbəyi olan sudan düzgün istifadə edilməsinə, əsgərlərin lazımsız yerə, şəhərə buraxılmamasına, buna ehtiyac olduqda isə onların yerli əhali ilə az təmasda olmasına və s. məsələlərə ciddi diqqət yetirilməsini xüsusilə vurğulayırdı .

Əsgər xəstəxanalarında tibbi xidmətin təşkili zamanı azərbaycanlı sanitarlardan az istifadə edilməsi, rus və erməni sanitarlarının işə daha çox qəbul edilməsi də hərbi nazirin narahatçılığına səbəb olmuşdu. Ona gərə də o, Hərbi Xəstə hissəsinin müdirindən tələb edirdi ki, əsgər xəstəxanalarına daha çox azərbaycanlı sanitarları qəbul etsinlər və azərbaycanlı xəstə əsgərlərin xidmətində də məhz azərbaycanlı sanitarlar dayansınlar. Eyni zamanda nazir xəstələrə qarşı qayğı və səmimiyyətin artırılmasını tələb edirdi .

S.Mehmandarov xəstəliklərin qarşısının alınması üçün şəxsi hey'ətin həm

geyimlərinin, həm də yeməyinin yaxşılaşdırılmasını tələb edirdi . Onun fikrincə, soyuq havada isti paltara malik olmayan və doyunca yedizdirilməyən əsgər həm də fərarilik etmək məcburiyyətində qalırdı . Ancaq hərbi nazir ordunun şəxsi hey'ətinin yemək və paltarla tə'min edilməsinə sadəcə məişət qayğısı kimi baxmır, onu hərbi xidmətin təşkilinin vacib sahələrindən biri sayırdı. 1919-cu il fevralın 25-də parlamentdəki çıxışında da S.Mehmandarov

xidmətin təşkilinin bu sahəsi üzərində daha çox dayanmışdı. Onun qoşunlarda iaşənin təşkili barədə fikirləri yuxarıda göstərilmişdi. Bu qənaəti o, şəxsən hərbi hissələri gəzdikdən sonra əldə etmişdi. O, şəxsi hey'ətin məişətinin təşkilində elə bir səviyyəyə nail olmaq istəyirdi ki, xidmətə yeni gələn əsgər heç bir korluq çəkməsin, ev yaşayışı üçün darıxmasın və xidmətin çətiniklərini asanlıqla yaşasın. Əsgərin xidmətə bağlılığı isə ilk növbədə geyim və iaşədən başlayırdı.

Müəyyən imkanların olmasına baxmayaraq iaşənin təşkilində subyektiv çətinliklər yaradılmasına qarşı həm Səməd bəy Mehmandarov, həm də onun müavini Ə.Şıxlinski barışmaz mövqe tuturdu. Səməd bəyin ardınca Ə.Şıxlinski də nazir müavini tə'yin olunan kimi dərhal hissələrlə şəxsən tanışlığa başladı. Əgər Zaqatalada xidmətin qurulması, iaşənin yaxşı təşkili, yeməklərin ə'la səviyyədə olması onu razı salmışdısa , 1919-cu il yanvarın əvvəllərində Gəncə Milli hərbiyyə məktəbində, Topçu divizionunda iaşənin təşkili onu heç də razı salmadı. Burada əsgərlərə səhər-axşam eyni yemək bişirilib verilir, menyunun müxtəlif olmasına diqqət yetirilmirdi. Səməd bəyin imzaladığı müvafiq əmrlə tələb olunurdu ki, əsgərlərə verilən şəkərin və çayın miqdarı artırılsın, onlara həmişə adət etdikləri milli yeməklər bişirilib verilsin .

Bu fikrini S.Mehmandarov Parlamentdəki çıxışında da xüsusi vurğulayırdı. O bildirirdi ki, türk qoşunları Azərbaycanı tərk edərkən kifayət qədər ərzaq ehtiyatı saxlamışlar. Bu ehtiyatlar qoşunların iaşəsini gücləndirməyə imkan verirdi. Ərzaq normalarının artırılması barədə nazir xüsusi bir əmr imzalamışdı. Bundan sonra o, tələb edirdi ki, yad ölkələrin mədəniyyətinə mənsub olan yeməklərin bişirilməsinə son qoyulsun, qoşunlara bozbaş, dolma kimi yeməklər, həftədə bir dəfədən az olmayaraq plov verilsin. Səməd bəy bildirirdi ki, şəkər və qənd normalarının artırılması əsgərlərə səhər və axşam qaynar çay içmək imkanı verirdi. Yoluxucu xəstəliklərin epidemiyası yayılanda isə Səməd bəy çay və şəkər normasını daha da artırmışdı ki, əsgərlər bütün gün ərzində çiy su içməsinlər, özlərini qaynar çayla tə'min edə bilsinlər.

1919-cu ilin əvvəlindən şəxsi hey'ət üçün ərzaq normaları aşağıdakı şəkildə müəyyənləşdirilmişdi. Hər bir adam üçün gündəlik ət norması 3/4 funt miqdarında tə'yin edilirdi. Onun da 2/4 funtu nahar yeməyinə 1/4 funtu isə axşam yeməyinə ayrılmalı idi. Bişirilən yeməyə qatılmaq üçün göy- göyərti, duz, istiot və digər ədviyyat da ayrılmışdı. Şəkər norması adambaşına 6 zolotnik, çay isə 0,5 zolotnik həcmində müəyyənləşdirilmişdi. Çörək adambaşına 2,25 funt miqdarında olmalı idi. Əsgərlər üçün müəyyənləşdirilmiş bu payok bütün generallara, zabitlərə, müharibə dövrünün mə'murlarına da verilməli idi. Ancaq onlar üçün çay və şəkər artırılmış normada müəyyənləşdirilmişdi. Generallar 15 funt şəkər, 1,5 funt çay, qərargah zabitləri 10 funt şəkər, 1 funt çay, baş zabitlər 5 funt şəkər, 0,5 funt çay,

mə'murlar isə 3 funt şəkər, 0,25 zolotnik çay ala bilərdilər .

Ordunun ərzaq tə'minatında mövcud olan çətinliklərdən bir çoxları sui-istifadə etməyə çalışırdılar.Hərbi Nazirliyin rəhbərliyinin əldə etdiyi mə'lumatlara görə, ayrı-ayrı məs'uliyyətsiz şəxslər qoşun üçün nəzərdə tutulan qəndi və şəkəri hissədən çıxararaq kənara satır, ya da digər lazımi əşyalara dəyişirdilər. S.Mehmandarovun 23 iyun 1919-cu il tarixli 317 saylı əmrində göstərilirdi ki, ordunun özündə hazırda böyük ehtiyac duyulan bu ərzağın satılması və ya dəyişdirilməsi yolverilməzdir və buna son qoyulmalıdır. Əmrdə inanılması mümkün olmayan bu bəlanın aradan qaldırılması üçün hissə komandirləri tərəfindən müvafiq tədbirlərin görülməsinin zəruriliyi vurğulanırdı. Əmrdə o da təsdiqlənirdi ki, Hərbi Nazirlik tərəfindən də müvafiq komissiyalar yaradılacaq və ərzağın saxlanılması yoxlanılacaqdır .

Hərbi qulluqçuların ərzaq və əşya oğurluğu ilə məşğul olmasını isə S.Mehmandarov silinməz bir şərəfsizlik adlandırırdı. Bununla bağlı imzaladığı əmrlərindən birində Səməd bəy Yazırdı: «Belə halların qarşısı amansız şəkildə alınmalıdır, belə əməllərə yol verənlər isə mərhəmət göstərilmədən cəzalandırılmalıdır. Oğurluq elə bir şərəfsizlikdir ki, ondan heç vaxt təmizlənmək mümkün deyil. Hətta belə bir qanun da var- Unter-zabit rütbəsindən məhrum edilmiş əsgər oğurluğa görə cəzalandırılmayıbsa yaxşı davranışına görə əvvəlki rütbəyə bərpa edilə bilər... Qoşun hissələrində oğurluq kökündən kəsilməlidir. Bu bəla ilə mübarizədə mən amansız olacağam və ən sərt cəzaları tətbiq edəcəyəm».

Qoşunlar üçün ayrılmış ərzağın istifadəsində yol verilən başqa bir neqativ halla şəxsən Hərbi nazir S. Mehmandarov özü rastlaşmışdı. Azərbaycanın qoşun dəstələrinin Lənkəran ətrafında keçirdiyi əməliyyatdan sonra S. Mehmandarov bura gəlmiş və Lənkəran köməkçi (ehtiyat) taborunda xidmətin təşkili ilə yaxından tanış olmuşdu. Əsgərlərin iaşəsi ilə maraqlananda aydın olmuşdu ki, hissə komandiri ştabs-kapitan Əliyevin əmri ilə 341 nəfərlik yemək üçün 4 pud 10,5 ət yerinə qənaət məqsədilə 2 pud 5 funt ət ayrılmışdı. Bu fakt naziri çox təəccübləndirmiş və bununla bağlı 1919-cu il 14 sentyabr tarixli 407 saylı xüsusi əmr imzalamışdı. Nazir tə'kidlə bildirirdi ki, ərzaq tə'minatında yaranan gərginlik heç də o demək deyildir ki, yersiz və lüzumsuz qənaət edilməlidir. S. Mehmandarov tələb edirdi ki, əsgərin mə'dəsi hesabına heç bir qənaətə yol verilməməlidir. Əsgər üçün ayrılan ərzaq bütünlüklə əsgərə çatdırılmalıdır .

Yaranmış gərginlikdən hökumətin köməyi olmadan çıxmaq olmazdı və bu kömək də imkan daxilində ardıcıl olaraq göstərilirdi. Əsgər və zabitlərin tə'minatı ilə bağlı məsələlərə həm hökumətin iclasında baxıldı, həm də Hərbi Şuranın iclaslarında bu məsələlərlə bağlı bir sıra müvafiq qərarlar çıxarıldı. 1920-ci ilin fevral-mart aylarında ərzaq və iaşə tə'minatı ilə bağlı S.Mehmandarovun müvafiq əmrləri imzalandı. Hökumətlə razılaşdırıldıqdan sonra qoşunlar üçün ərzaq əşyalarının yeni satınalma qiymətləri təsdiq edildi. Bu satınalma qiymətləri respublikanın müxtəlif bölgələrində bazar qiymətləri nəzərə alaraq müəyyənləşdirilmişdi.

Qoşun hissələrinin təchizatında, xüsusilə də ərzaqla təminatında müəyyən nöqsanların mövcudluğunun bir səbəbini də S.Mehmandarov bir-sıra məsul

şəxslərin öz vəzifə borclarına məsuliyyətsizcəsinə yanaşmalarında görürdü. Səməd bəy fikrincə başlıca olaraq təminat orqanları öz fəaliyyətlərini zamanın tələbinə uyğun qura bilmirdilər. Bu məsələ ilə bağlı S.Mehmandarov 1920-ci il fevralın 14-də çox sərt bir əmr imzaladı və həmin əmrdən bir müdət sonra Nazirliyin təchizat orqanlarında ciddi struktur dəyişikliyi aparıldı və tamamilə yeni bir sistem yaradıldı. Nazirin imzaladığı həmin əmrdə deyilirdi: « Ordunun hissələrinin, idarələrinin və müəssisələrinin çoxunun təşkilindən artıq bir ildən çox vaxt keçmişdir. Bu müddət qoşun hissələrində xidmətin düzgün təşkili üçün tamamilə kifayət idi. Təəssüf ki, əməldə mən bunu görmürəm. Son zamanlar üzə çıxarılan çoxlu çatışmazlıqlar göstərir ki, ordunun mövcudluğu üçün onun zəruri əyalarla təchizatı son dərəcə pis qurulmuşdur və buna məsul olan Ləvazimat idarəsi heç də yüksək səviyyədə deyil.

Ordu məmurlarının saxlanması üçün kifayət qədər vəsait buraxılır və onun bacarıqla istifadə ediləcəyi təqdirdə qoşun hissələri zəruri əşyalara ehtiyac duymamalı idi. Bununla belə mən tez-tez eşitməli oluram ki, qoşun hissələrində əsgərlərin vaxtlı-vaxtında çay, şəkər, çörək, maaş, və ağ almadığı müşahidə olunur. Geyim əşyaları da həmçinin.

Bu yolverilməz hadisənin səbəblərini araşdırarkən mən belə qənaətə gəlirəm ki, bütün bunlar başlıca olaraq Ləvazimat idarəsinin daxil olan və göndərilən sənədlərin işləməsi ilə məşğul olan bir quruma çevrilməsi ilə bağlıdır. İdarə qoşun hissələrində həqiqi vəziyyətlə maraqlanmır və buna görə də onun çatışmazlıqlarını bilmir. Ordu təchizinin bu və ya digər məsələləri ilə bağlı nə edilməsi haqqında mənim tələblərimə həmişə cavab verilir ki, tapşırıq icra edilmişdir. Həqiqətdə isə sonradan məlum olur ki, tapşırıq yalnız kağız üzərində icra edilmişdir. Yəni, Ləvazimat idarəsindən daha bir sənəd işlənib göndərilmişdir.

Belə qayda yolverilməzdir.

Ləvazimat idarəsi rəisindən qətiyyətlə tələb edirəm ki, mənim tələblərim kağız üzərində qalmasın və onların əməli olaraq həyata keçirilməsi barədə qərarlar qəbul etsin.

Mən tez-tez qoşun hissələri komandirlərindən teleqram alıram ki, qənd və çay, bəzənsə un tamamilə yoxdur, əsgərlər yeməksiz qalmışdır. Onda sual ortaya çıxır-Bəs diviziyaların təchizatçıları nə işlə məşğul olur? Əgər Ləvazimat idarəsi diviziyaların ehtiyaclarını ödəməyə müvəffəq olmamışlarsa və ya buna imkan olmamışsa nə üçün onlar öz tərəflərindən vaxtında zəruri tədbirləri görməmişlər?

Belə vəziyyət yolverilməzdir!

Diviziya təchizatçılarına əmr edirəm ki, öz fəaliyyyətlərini kağız üzərində deyil, əməldə göstərsinlər. Tələb edirəm ki, onlar diviziya hissələrində tez-tez olsunlar, onların ehtiyaclarını öyrənsinlər və diviziya hissələrinin zəruri ehtiyaclarının vaxtında ödənməsi üçün tədbirlər görsünlər. Bunun üçün hər diviziya təchizatçısı hər an dəqiqliklə bilməlidir ki, bu və ya digər hissədə nə var, onu nə ilə təchiz etmək lazımdır. O həm də bilməlidir ki,hissənin yerləşdiyi ərazidə hansı ərzağı və ya əşyanı hansı qiymətə tədarük etmək mümkündür. Eyni zamanda diviziya təchizatçıları Ləvazimat idarəsinə çatışmayan ərzaq barədə vaxtında məlumat verməlidir ki, ehtiyatlar sona çatmamış onu bərpa etmək

mümkün olsun. Hər halda hər bir hissədə daimi ehtiyat və yem ən azı bir həftəlik olmalıdır.

Həmin həftəlik ehtiyatın işlədilməsinə başlanması vaxtı çatanda Ləvazimat idarəsindən yeni ehtiyatlar daxil olmasa diviziya təchizatçıları teleqramla Ləvazimat idarəsinin rəisinə və mənə məruzə edilməsi üçün Ümumi Qərargah rəisinə xəbər verməlidir ki, zəruri ehtiyatlar bərpa edilsin və ya onların yerindəcə satın alınması üçün icazə əldə edilsin.

Diviziya təchizatçıları qoşun hissələrində olarkən həm də maliyyə və əşya təminatının bütün hesabatının aparılmasını yoxlamalı və yerindəcə səhvlərin düzəldilməsi üçün göstərişlər verməlidirlər.

Hissələrin təminatı ilə bağlı məsələlərin düzgün həlli üçün diviziya təchizatçıları diviziya komandirlərinin razılığı ilə vaxtaşırı hissələrin təsərrüfat rəisləri ilə iclaslar keçirməli və orada meydana çıxan təsərrüfat məsələlərini birlikdə müzakirə etməlidirlər.

Diviziya komandirlərindən və Ləvazimat idarəsi rəisindən tələb edirəm ki, diviziya təchizatçılarının fəaliyyətinə diqqət yetirsinlər və burada göstərilən tələblərimin həyata keçirilməsini nəzarət altında saxlasınlar. Yoxsa onların fəaliyyətləri məni məcbur edəcək ki, diviziya təchizatçıları ştatını ləğv edim. Onda Ləvazimat idarəsi rəisi birbaşa hissə komandirləri ilə işləməli olacaq».

Normal xidmət şəraitinin yaradılması üçün əsgərlərin imkan daxilində mümkün olan hər şeylə tə'min edilməsi, qayğı altına götürülməsi, onların yaxşı yedizdirilməsi, əsgərin ziyanına hər hansı bir qənaətə yol verilməməsi üçün zəruri tədbirləri həyata keçirən Hərbi Nazirliyin rəhbərliyi ordunun aparıcı qüvvəsi olan zabitlərin həyat şəraitinin yaxşılaşdırılmasını, onları ehtiyaclardan xilas edəcək maliyyə vəsaiti ilə tə'min edilməsini də diqqətdən kənarda qoymurdu. Zabit zəhmətinin gərginliyinə yaxşı bələd olan nazir S. Mehmandarov, eləcə də onun müavini bu insanların şərəfini həmişə yüksək tutmağa çalışmış və onların məişət problemlərinə də böyük qayğı ilə yanaşmışdılar. Bu baxımdan hərbi qulluqçuların xidmət maaşları ilə vaxtında tə'min edilməsi, onun real həyat səviyyəsinə uyğun qəbul edilməsi sahəsində nazirliyin rəhbərliyinin tutduğu mövqə daha xarakterikdir. Məsələn, belə bir fakt mə'lumdur ki, zabit hey'ətinin maaşının verilməsi gecikdiriləndə Hərbi Nazirliyin rəhbərliyi dərhal Nazirlər Şurasının qarşısında məsələ qaldırmışdı. Nazirlər Şurası isə Hərbi Nazirliyin rəhbərliyinin qaldırdığı məsələ ilə razılaşıb mövcud olan çətinliklərə baxmayaraq zabit hey'ətinin maaşlarının vaxtında ödənməsi üçün Maliyyə Nazirliyinə göstəriş vermişdi. Növbəti ayda isə Nazirlər Şurasının göstərişi ilə zabit hey'ətinin maaşları vaxtından hətta 15 gün əvvəl ödəndi və Hərbi Nazirliyə xəbər göndərildi ki, həmin vəsait alınıb zabitlərə paylansın .

Zabitlərdən başqa əsgər hey'əti üçün də aylıq məvacib müəyyənləşdirilmişdi. Azərbaycan hökumətinin qərarına əsasən 1918-ci il dekabrın 1-dən əsgər hey'əti üçün aşağıdakı miqdarda
məvacib verilməsi qüvvəyə mindi: sıravi–50 rubl, yefreytor–60 rubl, kiçik çavuş–70 rubl, böyük çavuş–90 rubl, onbaşı–120 rubl. Bundan başqa əsgərlər üçün ayda üç rubl təsərrüfat pulu da verilirdi. Bu pul əsgərlərin geyimlərinin bərpası və digər

kiçik məişət xərcləri üçün nəzərdə tutulmuşdu.

İqtisadi çətinliklərlə bağlı həyat şəraitinin ağırlaşması, qiymətlərin bahalaşması 1919-cu il ərzində də davam etdi. Həmin ilin yayında S.Mehmandarov həm əsgər həy'əti, həm də zabithey'əti üçün məvaciblərin yenidən artırılması məsələsini qaldırdı. Hərbi Şura özünün 16 iyun1919-cu il tarixli iclasında əsgərlər üçün aylıq məvacibi aşağıdakı şəkildə təsdiq etdi: sıravi–100rubl, yefreytor–110 rubl, kiçik çavuş–130 rubl, böyük çavuş–150 rubl, onbaşı–200 rubl .

Hərbi nazir S. Mehmandarov əsgərlərin həyat şəraitinin yaxşılaşdırılması üçün onlara ayrılan məvacibin artırılmasına lazımi əhəmiyyət verirdi. Səməd bəy əsgər maaşının artırılmasını həm də ilk dəfə hərbi xidmət keçməyə başlayan azərbaycanlıların qarşılaşdıqları çətinliklərin həlli üçün bir vasitə kimi görürdü. Həyat və məişət problemlərinin qismən həll edilməsi isə fərariliyin də qarşısının alınmasına gömək edə bilərdi.

Hərbi Şuranın əsgər maaşlarının artırılması barədə 16 iyun 1919-cu il tarixli qərarından sonra S. Mehmandarov imzaladığı xüsusi əmrində əsgər məvaciblərinin bir qədər də artırılacağı barədə vəsatət qaldıracağı haqda mə'lumat verirdi. Nazir bildirirdi ki, əsgərin yaşayışı dövlət hesabına tə'min edilsə də, onlar həmişə tütün, kibrit, iynə, sap almaq ehtiyacı ilə qarşılaşırlar. Buna görə onlara verilən məvacib də artırılmalıdır. S.Mehmandarov onu da əlavə edirdi ki, əsgər məvaciblərinin yeni norması barədə verdiyi təklif başqa ölkələrlə müqayisədə az olsa da, bu artım dövlət xəzinəsinə ayda 1 milyon 200 min rubla başa gələcəkdir. Hərbi Şuranın qərarı əsasında hazırlanmış əmr layihəsi üzərində S.Mehmandarov öz əli ilə düzəlişlər edərək əsgər məvaciblərinin aşağıdakı şəkildə olmasını məqsədəuyğun bilmişdi: sıravi–100 rubl, yefreytor–120 rubl, kiçik çavuş–140 rubl, böyük çavuş–180 rubl və onbaşı–240 rubl.

Hərbi nazir S.Mehmandarovun bu təklifi dövlət orqanlarında da müdafiə olundu və müvafiq qərar qəbul edildi.

Dövlət Müdafiə Komitəsi özünün 28 iyun 1919-cu il tarixli qərarı ilə Səməd bəyin təklifini təsdiq etdi və əsgərlərin bə'zi kateqoriyalarının məvacibinin daha da artırılmasını məqsədəuyğun saydı.

Həmin ilin avqust ayında isə Azərbaycan hökuməti zabitlərin, həkimlərin, çinovniklərin maaşının qaldırılması barədə qərar qəbul etdi və təsdiq üçün həmin qərarı Parlamentə göndərdi .

S.Mehmandarov bu və ya digər obyektiv tələblər üzündən Azərbaycan Ordusunda xidmətini başa vuranların da yaşayış şəraitinin yaxşılaşdırılmasına qayğı göstərməyə çalışırdı.

Məsələn, 1919-cu ilin iyununda o, Azərbaycan hökuməti qarşısında iki nəfər əlilə xüsusi yardım göstərməsi barədə məsələ qaldırdı . Xidməti vəzifəsinin icrası zamanı vəfat etmiş şəxslərin ailələrinə qayğı göstərilməsi üçün Hərbi Nazirliyin fondundan dəfələrlə maddi yardım ayrılmışdı .

Azərbaycan Ordusunda xidmət edən hərbi qulluqçuların sosial qayğısını gücləndirmək üçün S.Mehmandarov tərəfindən pensiya və birdəfəlik müavinətlərin verilməsini nizamlayan xüsusi sənəd də qəbul edildi. Bu sənədə görə Azərbaycan

Ordusunda xidmət edən hərbi qulluqçular pensiya almaq hüququ əldə etmək üçün Azərbaycan vətəndaşlığını qəbul etməli və Azərbaycan Respublikasına sədaqət andı içməli idilər.

Hərbi Nazirliyin rəhbərliyi və şəxsən S.Mehmandarovun özü hissələrdə olarkən subyektiv səbəblər üzündən məvaciblərin gecikdirilməsi, maliyyə vəsaitlərindən düzgün istifadə edilməməsi hallarına rast gəlir və belə faktlara qarşı barışmaz mövqe tuturdular. Məsələn, 2-ci Bakı piyada alayında
maliyyə pozğunluqlarına yol verdiyinə görə Nazirlikdən göndərilən komissiyanın müəyyən faktları üzə çıxaracağından qorxan xəzinədarın özünü öldürməsi barədə yuxarıda yanışılmışdı. S.Mehmandarov Yevlaxda olarakən bura Topçu briqadasından e'zamiyyətə gəlmiş 2 zabitlə rastlaşmış və onlara e'zamiyyət pulu verilmədiyi aydınlaşdırılmışdı. Pulları olmadığı üçün yükləri necə aparmaq barədə düşünən zabitlərə Səməd bəy öz cibindən pul vermiş və yüklərin tezliklə hissəyə çatdırılmasını tapşırmışdı. Nazir bu fakta qarşı öz narazılığını ifadə edərək bildirirdi ki, hissələrdən e'zamiyyət xərclərini almayan zabitlər qatarlarda, şəxsi avtomobil və faytonlarda havayı getmək məcburiyyətində qalırdılar ki, bu da çox zaman mülki əhalinin haqlı narazılığı ilə qarşılanırdı.

Şuşada isə S.Mehmandarov tabor komandirinin hissəyə ərzaq alınması üçün şəxsi adamlardan borc götürdüyünün şahidi olmuş və xidmətin təşkilində belə səhlənkarlığa yol verilməsinin acınacaqlı hal olduğunu vurğulamışdı .

Səməd bəyin tapşırığı ilə növbətçi general, polkovnik Jilyayev Bakıdakı əsgər xəstəxanasında olarkən burada xəstə yatanların bir çoxunun 2-3 ay məvacib almadığını üzə çıxarmışdı. Polkovnik Jilyayevin hesabatı əsasında hazırlanmış əmrdə nazir cavabdeh şəxslərdən tə'cili tədbirlər
görməyi, xəstə əsgərlərin məvaciblərinin dərhal çatdırılmasını tələb etmişdi .

1920-ci ilin yanvarında bahalaşma ilə əlaqədar olaraq əsgərlərə təsərrüfat işləri üçün ayrılan aylıq pul (məvacibindən əlavə) 3 rubldan 10 rubla çatdırıldı. Əsgər xəstəxanalarında yatan əsgərlər üçün isə bu pul 12 manat miqdarında təsdiq edildi . Bahalanma ilə əlaqədar olaraq xəstəxanada yatan hərbi qulluqçulara verilən gündəlik iaşə üçün ayrılan pulun miqdarı da artırıldı. Əsgərlər üçün bu 55 rubl, zabitlər üçün isə 82,5 rubl oldu .

Ölkədə gedən hədsiz bahalaşma, yaşayış şəraitinin çətinləşməsi, alınan məvacibin ən adi ehtiyacları ödəməməsi 1920-ci ilin əvvəllərində zabitləri yenidən dözülməz məhrumiyyətlərə məhkum etmişdi. Hərbi Nazirliyin rəhbərliyi dərhal hökumətə müraciət edib hərbi qulluqçuların məvaciblərinin yaşayış minimumlarına uyğunlaşdırılması barədə qərarlar qəbul olunmasını xahiş etdi. 1920-ci il yanvarın 31-də Səməd bəy Mehmandarovun Nazirlər Şurası sədrinin adına göndərdiyi məktubda deyilirdi: "Həyatın bahalanması üzündən hərbi qulluqçular çox çətin və böhranlı vəziyyətdədirlər, çoxları böyük borc içindədir və öz ailələrinə maddi kömək göstərmək imkanına malik deyildirlər. Hətta paltarlarını tə'mir etməyə və doyunca yeməyə pulları çatmır.
Bütünlüklə özünü xidmətə həsr edən hərbi qulluqçuların digər idarələrin işçiləri kimi boş vaxtlarında kənarda qazanmaq imkanları yoxdur. Bundan başqa, öz geyim formalarını və şərəflərini qorumağa çalışaraq onlar həmişə şax geyinməlidirlər.

Əsgəri xidmət hərbi qulluqçudan bütün qüvvəsini sərf etməyi tələb edir. Bu isə o vaxt mümkündür ki, o, ailəsinin ən zəruri şeylərə ehtiyac duymadığına əmin olacaqdır".

Məktubda hərbi qulluqçuların məvacibinin 80 faiz artırılması və həmin artımın 1919-cu il oktyabrın 1-dən hesablanması xahiş olunurdu ki, zabitlər öz borclarını ödəyə bilsin . 1920-ci il martın 11-də parlament hərbi qulluqçuların məvaciblərinin 80 faiz artırılması barədə təklifi qəbul etdi. Azərbaycan Ordusunun formalaşdırılmasına başlanmasının elə ilk günlərindən Hərbi Nazirliyin rəhbərliyinin qarşısında dayanan həlli vacib problemlərdən biri də şəxsi hey'ətin əsgəri geyimlə tə'min edilməsi idi. Hərbi nazir S.Mehmandarov e'tiraf edirdi ki, bu məsələ də bütün ağırlığı ilə qarşımızda dayanır. Yaxınlaşan qış ərəfəsində şəxsi hey'ətin isti paltarı, şineli, gödəkçəsi demək olar ki, yox idi. Azacıq paltar ehtiyatı isə sayı artmaqda olan ordunun ehtiyaclarını ödəməyə qabil deyildi. Mövcud olan keyfiyətsiz geyim ehtiyatları uzun müddətli istifadəyə davam gətirmirdi. Bir tərəfdən də davam edən fərarilik pal-paltara olan ehtiyacı daha da artırırdı. Hissəyə gələn çağırışçıların bə'ziləri paltarı alan kimi dərhal qaçır və ona verilmiş paltarı da özü ilə aparırdı .

1918-ci ilin sonlarında geyim baxımından hissələrin bir çoxu acınacaqlı vəziyyətdə idi və bunu hissələrin vəziyyəti ilə tanış olan hökumət nümayəndələri də gizlətmirdilər. Məsələn, Ağdamda yerləşən hissələrin kiçik çinli hərbçilərinin çox azının xidməti paltarı var idi. Çoxları isə cırcındıra bürünmüşdü. Belə paltar nəinki geyim formasının tələblərinə cavab vermir, heç onu geyinənləri soyuqdan belə qoruya bilmirdi. Qazax piyada alayının (sonralar 3-cü Gəncə piyada alayı adlandırıldı -M.S) Ağdamda olan bir bölüyünün əsgərləri xidməti şinel əvəzinə evlərindən gətirdikləri cırıq odeyallara bürünürdülər. Bir çoxlarının heç buna da imkanı yox idi. Çoxları əllərinə keçən cırıq çuval və kisələrlə soyuqdan qorunurdu. Ayaqqabısı olmadığından sırada ayaqyalın dayananlar da vardı . Ordunun formalaşmasının ilk aylarında belə çətinlik bir çox hissələr üçün xarakterik idi.

1918-ci ilin noyabrında 2-ci Qarabağ süvari alayının komandiri hissədaxili əmrində 3-cü bölükdə şəxsi hey'ətin geyiminin vəziyyətindən razı qalmadığını bildirirdi. S.Mehmandarov 5-ci dağ topçu batareyasında olarkən əsgərlərin çoxunun pal- paltarının olmadığı barədə mə'lumat almışdı . Qarabağda olan hissələrdə 1919-cu ilin əvvəllərində pal-paltarla tə'minat elə böhranlı bir hal almışdı ki, Qarabağ general-qubernatoru Hərbi Nazirlikdən müəyyən müddət ərzində çağırışın dayandırılmasını xahiş etmişdi. Çünki xidmətə çağırılanların paltarla tə'min edilməsi onların valideynləri arasında da ciddi narazılıqlara səbəb olurdu. Ümumi qərargah rəisi H.Səlimov Qarabağ general-qubernatoruna verdiyi cavabında bildirirdi ki, deyilənlər doğru olsa da çağırışı dayandırmaq olmaz. Çağırışın dayandırılması qoşun hissələrinin formalaşdırılmasına əks tə'sir göstərə bilər. Məsələnin həlli yoluna gəlincə isə qərargah rəisi yazırdı ki, bu sahədə lazım olan tədbirlər həyata keçirilməkdədir .

Doğrudur, hissələrin heç də hamısında vəziyyət belə böhranlı hal almamışdı.

Məsələn, hələ 1918-ci il dekabrın 2-də S.Mehmandarov 2-ci Qarabağ süvari alayına gələndə şahid olmuşdu ki, bölmələrin çoxunun şəxsi hey'əti isti paltara malikdir. Əsgərlərin gödəkçəsi, papağı, pambıq şalvarı vardır. Onların müəyyən hissəsi çəkmə geyinmişdi . Bununla belə, ümumordu miqyasında vəziyyət xeyli mürəkkəb idi. Mövcud olan gərginliyi aradan qaldırmaq üçün S.Mehmandarov dərhal Gürcüstanın hərbi nazirinə məktub yazıb kömək göstərilməsini xahiş etdi. Lakin bəslənilən ümid özünü doğrultmadı və Gürcüstandan müsbət cavab alınmadı Ona görə də daxili imkanların səfərbərliyə alınması üçün tədbirlər görüldü.
Əvvəlcə şəxsi hey'ətin paltarla tə'minat norması müəyyənləşdirildi. Səməd bəyin 1 yanvar 1919- cu il tarixli, 1 saylı əmri ilə hər bir əsgərə 1 ədəd papaq, 1 ədəd sırıqlı, 2 ədəd köynək, 2 ədəd alt paltarı, 2 ədəd əl-üz dəsmalı, 2 ədəd əl dəsmalı, 2 ədəd corab və ya ayaq sarğısı verilməsi qərarlaşdırıldı . Bütünlükdə isə əsgərlərin geyim normasına aşağıdakı əşyalar daxil idi: köynək, papaq, yun corab, yun əlcək, mahud gödəkçə, mahud şalvar, mahud yay şalvarı, mahud yay gödəkçəsi, şinel, tulup, çəkmə, qurşaq kəməri, silah kəməri, patronqabı, asma çanta, ehtiyat patron çantası, əşya kisəsi və s.

1919-cu ilin əvvələrində nazirliyin çox az miqdarda geyim ehtiyatı var idi. Hərbi Nazirlik üzrə 1 yanvar 1919-cu il tarixli əmrdə həmin məhdud ehtiyatın aşağıdakı şəkildə paylanması barədə göstəriş verilmişdi. Mövcud olan 500 ədəd ləzgi şalı iki süvari alayı arasında bərabər sayda bölünməli idi. Şinel, mahud köynək və isti şalvarların piyada və topçu hissələrinə, şəxsi hey'ətin kəmiyyətinə müvafiq olaraq bölünməsi lazım bilinirdi. Şinelin olmaması və mahud köynəyin çatışmaması ucbatından mövcud olan gödəkçələr də paylanmalı idi. Ayaqqabı ehtiyatı isə demək olar ki, yox idi. Nazirliyin anbarında olan azacıq dəri və ayaqqabı altlıqları Səməd bəyin əmri ilə ayaqqabı və ya çarıq tikilməsi üçün əsgərlərə paylanmalı idi . Eyni zamanda hissə komandirinə səlahiyyət verilirdi ki, anbarlarda mövcud olan xammaldan paltar hazırlamaq üçün mütəxəssislərə sifariş versin və iş haqqını hissənin maliyyə vəsaitlərindən ödəsin . Sifarişlər icra olunduqdan sonra maliyyə məsrəfi aktlaşdırılmalı və Nazirliyə təqdim edilməli idi. Müvəqqəti hal kimi çağırışçıların özlərinin geyimlərindən də istifadə edilməsinə icazə verilirdi. Şəxsi geyimlərin xidmətdə istifadə edilməsi ilə bağlı nazirin əmri ilə xüsusi komissiya yaradıldı və bu komissiya çağırışçıların xidmətə yararlı olan geyim əşyalarının əvəzində onlara pul ödənci verilməsi barədə qərar qəbul etdi. Şəxsi əşyalar iki növə bölünürdü: təzə əşyalara, istifadə edilmiş əşyalara. Bu növlərin hər birinin öz qiymət var idi. Mahud şinelin təzəsi üçün qiymət–100 rubl, işlədilmişi üçün–60 rubl, gödəkçənin təzəsi üçün–55 rubl, işlədilmişi üçün–24 rubl, ləzgi mahudundan olan şalvarın təzəsi üçün–35 rubl, işlədilmişi üçün–20 rubl, mahud şalvarın təzəsi üçün–35 rubl, işlədilmişi üçün–20 rubl, mahud gimnastyorkanın təzəsi üçün–40 rubl, işlədilmişi üçün–24 rubl və nəhayət çəkmənin təzəsi üçün–150 rubl, işlədilmişi üçün–100 rubl müəyyən edilmişdi .

Ordunun pal-paltarla tə'min edilməsi üçün sahibkarlar da bu işə cəlb edildi. Bakıda və Azərbaycanda fəaliyyət göstərən uyğun müəssisələrdə hərbi sifarişlərin icrasının imkanları
öyrənildi. Bir çox sahibkarlar ordu üçün lazım olan paltarın tikilməsinə hazır

olduqlarını bildirsələr də onların xammalı yox idi. Bunun üçün də onlar Hərbi Nazirlikdən "ağ" parça verilməsini tələb edirdilər. Nazirliyin ixtiyarında isə belə parça yox idi. S.Mehmandarov Nuxada və Şuşada olarkən yerli müəssisələrdə münasib parçalırn istehsal edildiyini görmüş və onlardan da istifadə edilməsini məqsədəuyğun bilmişdi.

Mövcud böhranın aradan qaldırılması üçün əl atılan vasitələr çox vaxt özünü doğrultmur, tədarük olunan əşyalar heç də həmişə öz keyfiyyəti ilə fərqlənmirdi. Nazik geyimlər Səməd bəyin qeyd etdiyi kimi, ağ parçadan tikilir və sonra sün'i yolla rənglənirdi. Belə parçalar çox davamsız olurdu və bir neçə aydan sonra sıradan çıxırdı. Möhkəm olmayan parçadan tikilmiş şalvarlar da az vaxtdan sonra yararsız hala düşürdü. Məcburiyyət üzündən istifadə edilən çarıqlar istifadədə xeyli çətinliklər yaradırdı. Əvvəla, çarığın yağmurlu havada geyilməsi onun tezliklə xarab olmasına və əsgərlərin soyuqlamasına səbəb olurdu. Digər tərəfdən, elə quru şəraitdə də çarıqların istifadə müddəti elə də uzun deyildi. Yaxşı halda 3-4 həftədən sonra çarıqlar yararlılığını itirirdi. Eyni zamanda çarıqların patavalarının bağlanması xeyli vaxt aparır və bununla da əsgərlər üçün müəyyən narahatçılıq yaradırdı.

S.Mehmandarov vəziyyətdən çıxmaq üçün hissələrin ətrafında olan yaşayış məntəqələrindən xidmət üçün münasib olan paltarların alınmasına da icazə verirdi. Bunun üçün o əmr edirdi ki, müvafiq komissiya yaradılsın və əhalidən paltar alınması həmin komissiyaya tapşırılsın .

Ordunun geyim ehtiyatının təkmilləşdirilməsi üçün müsadirə olunmuş əmlakdan da istifadə edilirdi. Dövlət orqanlarının qəbul etdiyi qərara görə liman anbarlarında mövcud olan əmlakın bir hissəsi müsadirə edilmişdi. Həmin anbarlara 1918-ci il sentyabrın 15-də gətirilmiş olan əmlak tamamilə müsadirə edilib, Hərbi Nazirliyin sərəncamına verilmişdi. Bu əmlak əsasən bolşevik hakimiyyəti dövründə gətirilmiş və hərbi məqsədlər üçün ehtiyat yığılmışdı. Orada mövcud olan digər əşyaların istifadəsi isə qəbul edilmiş qərar əsasında tənzimlənirdi .

S.Mehmandarov mövcud olan pal-paltar ehtiyatının qənaətlə işlədilməsinə də xüsusi diqqət yetirirdi. Xüsusən geyim əşyalarının oğurlanmasının qarşısının alınması üçün o, ən qəti tədbirlərin görülməsini tələb edirdi. Bununla bağlı hələ 1918-ci il dekabrın 8-də imzaladığı 5 saylı əmrində o, paltarların oğurlanması kimi şərəfsiz əməllərdə Azərbaycan zabitlərinin adlarının hallanmasını çox böyük təəssüf hissi ilə qeyd edirdi. Səməd bəy belə halların baş verməsində hissələrin komandirlərini də günahkar bilir və hər hansı hissədə paltar oğurluğunun davam edəcəyi təqdirdə həmin hissələrin komandirlərinin də məs'uliyyətə cəlb ediləcəyini vurğulayırdı.

Geyimə olan ehtiyacın ödənilməsi, xüsusilə qoşunların ayaq geyimləri ilə təchiz edilməsi üçün Hərbi Nazirliyin tərkibində Dəri zavodunun açılması məsələsi qaldırıldı və 1919-cu ilin sonlarında Hərbi Şura bu təklifi müdafiə edib Dəri zavodunun açılması, onun lazımi istehsal vasitələri ilə təchiz olunması üçün qərar qəbul etdi .

Qoşun hissələri formalaşdıqca onların tərkibində paltar e'malatxanaları açılırdı. Bu e'malatxanalar bazardan alınmış xammal hesabına hissənin geyimə olan ehtiyaclarının ödənməsində, habelə mövcud olan geyimlərin bərpa edilməsində əhəmiyyətli rol oynayırdı.

Bununla belə, əsas geyim ehtiyatları kənardan alınırdı ki, bu da əsasən Ləvazimat İdarəsinin rəhbərliyi altında həyata keçirilirdi. Sahibkarlardan geyim əşyalarının alınması da çox vaxt müsabiqə yolu ilə keçirilir və bu müsabiqənin şərtləri əvvəlcə adətən Hərbi Şurada müzakirə edilirdi.

Görülən işlərin nəticəsində 1919-cu ilin ikinci yarısında ordunun geyim təchizatı xeyli yaxşılaşmışdı. Məsələn, Zaqataladakı əlahiddə taborda (sonra alaya çevrildi) şəxsi hey'ətin geyim vəziyyəti heç bir narahatçılıq doğurmurdu. Nazirliyin qayğısı və tabor komandiri Dibirovun təşəbbüskarlığı, işgüzarlığı bu sahədə olan gərginliyi aradan qaldırmağa imkan vermişdi.

1919-cu ilin iyun ayında 2-ci Qarabağ süvari alayını, 1-ci Cavanşir piyada alayını, bu alayın Şuşada yerləşən 1-ci taborunu, 2-ci dağ topçu divizionunu yoxlayan nazirliyin komissiyası öz hesabatında bu hissələrin pal-paltarla tə'minatında ciddi narahatçılıq doğuracaq bir irad
göstərməmişdi .

Azərbaycan hökumətinin göstərdiyi qayğı nəticəsində Hərbi Nazirlik qoşunların paltar tə'minatında böyük dəyişikliklər yaratmaq üçün real imkanlar əldə etmişdi. 1919-cu il dekabrın 27-də öz növbəti iclasını keçirən Hərbi Şura əldə edilmiş imkanlardan istifadə edərək ordunun növbəti ildə paltar tə'minatını xeyli yaxşılaşdırmaq məsələsini müzakirə etdi. Burada qərara alındı ki, 1920-ci il üçün 25 min əsgərə 5 min ədəd də ehtiyat olmaq şərti ilə cəmi 30 min dəst alt paltarı və
yatacaq əşyaları hazırlanması üçün əməlli tədbirlər görülsün. Sifariş verilməsi və ya yerlərdə hazırlanması nəzərdə tutulan əşyalar aşağıdakılar idi: adambaşına köynək – 2 ədəd, alt şalvarı – 2 ədəd, əl dəsmalı -3 ədəd, əl-üz dəsmalı – 2 ədəd, alt balış üzü – 1 ədəd, döşək ağı – 2 ədəd, ayaq sarğısı – 3 ədəd, döşək üzü – 1 ədəd, balış üzü – 2 ədəd, odeyal – 1 ədəd, bəyaz
gimnastyorka – 2 ədəd, bəyaz şalvar – 2 ədəd. Bütün bu əşyaların tikilməsi üçün 2 milyon 40 min arşın parça lazım idi. Paltarın bir hissəsini hissələrin e'malatxanasında hazırlamaq, bir hissəsini də sövdələşmə yolu ilə əldə etmək planlaşdırılırdı .

1920-ci il martın 15-də orduya növbəti çağırış kampaniyasının başlanması nəzərdə tutulmuşdu. Yeni çağırılan gənclərin hissələrdə qarşılanmasına hazırlıq işləri ilə bağlı S.Mehmandarovun 25 fevral 1920-ci ildə imzaladığı 125 saylı əmrdə başqa məsələlər kimi paltara tə'minat işinə də ciddi diqqət yetirilirdi. Bu əmrə əsasən hissəyə gələn çağırışçılar dərhal paltarla da tə'min edilməli idilər. Yə’ni artıq ordunun imkanları bu sahədəki gərginliyi aradan götürmüşdü.

Əsgərlərdən başqa ordunun zabit hey'ətinin və həkimlərinin xidməti paltarları da dövlət xəzinəsi
hesabına ödənirdi. Bu məsələnin özü də Hərbi Nazirliyin rəhbərliyinin daimi nəzarəti altında idi və hər hansı bir narahatçılıq yarandığı zaman məsələ dərhal

dövlət orqanları qarşısında qaldırılırdı. Məsələn, 1920-ci il yanvarın 30-da Səməd bəy Dövlət Müdafiə Şurasında çıxış edərək Zəngəzur
və Quba dəstələrinin zabitlərinin isti paltarla təchiz edilməsi və bunun üçün maliyyə vəsaiti ayrılmasını xahiş etdi. Dövlət Müdafiə Komitəsi S.Mehmandarovun təklifini dəstəkləyərək lazımi maliyyə vəsaitinin ayrılması barədə qərar qəbul etdi .

1920-ci il fevralın 2-də isə hərbi nazirin mə'ruzəsindən sonra Dövlət Müdafiə Komitəsi Azərbaycan Ordusunun generallarının, qərargah zabitlərinin və baş zabitlərin, habelə həkimlərin xidməti geyimlə təchiz edilməsi üçün 23 milyon 950 min rubl pul ayırmaq barədə qərar qəbul etdi. Həmin qərara müvafiq olaraq adları çəkilən kateqoriyalardan olan hər bir şəxsə 25 min rubl xərclənməli idi. Bu pula 1 dəst qış kostyumu, 1 dəst yay kostyumu, 1 ədəd palto, 1 ədəd papaq, 1 cüt ayaqqabı, 3 ədəd alt köynəyi və 2 dəst yatacaq əşyası alınmalı və ya hazırlanmalı idi. Nəzərdə tutulan maliyyə vəsaitinin 20 milyon rublu Hərbi Nazirliyin 1920-ci il smetasına əlavə
olaraq ayrılmışdı .

Azərbaycan Ordusunun formalaşmasının və möhkəmlənməsinin vacib istiqamətlərindən biri də qoşun hissələrinin atlarla, süvari təchizatı ilə, silah, sursat və texnika ilə təchizi məsələsi idi. Qoşunların döyüş hazırlığının ümumi səviyyəsi, hissələrin döyüşkənliyi həm süvari vasitələrindən, həm də texniki vəsaitlərdən birbaşa asılı idi. Bunlardan birincisini əsasən respublikanın daxili
imkanları hesabına ödəmək mümkün idisə, texniki vasitələr əsasən xaricdən idxal edilib ordunun sərəncamına verilə bilərdi. Lakin onların hər ikisinə olan ehtiyacın aradan qaldırılması S.Mehmandarovdan eyni dərəcədə gərginlik, təşəbbüskarlıq, ardıcıllıq və qətiyyətlilik göstərilməsini tələb edirdi. Çünki türk qoşunlarının Azərbaycanı tərk etməsindən sonra bu sahələrdə də vəziyyət heç də ürəkaçan deyildi. Yuxarıda qoşun hissələrindəki atların nə vəziyyətdə olması barədə S.Mehmandarovun parlamentdəki çıxışı xatırlanmışdı. Səməd bəyin bu çıxışı hissələrlə əyani tanışlıq zamanı şahidi olduqlarından doğan qənaətə əsaslanırdı. Lakin mövcud olan çətinliyin qısa vaxt ərzində qaldırılması da mümkün deyildi. Buna görə ilk aylar Hərbi Nazirliyin rəhbərliyinin fəaliyyəti üçün də daha çox bu və ya digər hissənin özünün imkanlarını səfərbər etmək, əldə olunanların səmərəli istifadəsinə nail olmaq, heç olmasa vəziyyətin daha da mürəkkəbləşməsinə yol verməmək istiqamətində qurulmuşdu.

Azərbaycan Ordusunun hissələrində mövcud olan silahlar əsasən çar Rusiyası qoşunlarından miras qalmış, Bakı tutulan zaman əldə edilmiş və türk qoşunlarından verilmiş silahlar idi. Onlar da heç kifayət qədər deyildi. Mövcud olan silahlar hissələrin ehtiyacını ödəməyə çatmırdı. 1919-cu ilin
fevralında Qarabağ general-qubernatoru bölgədə sakitlik yaratmaq üçün Hərbi Nazirlikdən azacıq silah və sursat istəyəndə buna mənfi cavab almışdı. S.Mehmandarov şəxsən hökumətin sədrinə bildirirdi ki, Hərbi Nazirliyin özü hərbi-texniki təchizata böyük ehtiyac duyduğundan Qarabağ general-qubernatoruna silah verə bilməz. Əksinə, Səməd bəy hökumətin sədri qarşısında məsələ qaldırırdı ki, ordu üçün həm atıcı silah, həm də top alınmalıdır. Birincinin yoxluğu

üzündən 2-ci piyada diviziyasının təşkili gecikə bilər, ikincinin qıtlığı üzündən isə 2-ci dağ topçu divizionunda topçu batareyasının formalaşdırılması yarımçıq qalmışdır. S.Mehmandarov eyni zamanda hökumətin sədrindən xahiş edirdi ki, onun Tiflisə getməsi və silah əldə etməsi üçün Gürcüstanın Hərbi Nazirliyi ilə danışıqlar aparmasına icazə versin .

Belə bir qıtlıq şəraitində hissələrdə olan atların və silahların saxlanılmasına zəruri diqqətin yetirilməməsi də hərbi nazirdə böyük narahatçılıq doğururdu. 1919-cu il yanvar ayının sonlarında bir neçə hissə və bölmə ilə tanışlıqdan aldığı təəssüratı ümumiləşdirərək S.Mehmandarov 17 fevral 1919-cu il tarixdə 85 saylı əmri imzaladı. Bu əmrdə o, şahidi olduğu nöqsanları sadalayaraq bütün komandirlərdən oxşar səhvlərə yol verilməməsini tələb etdi .

3-cü Gəncə piyada alayının Qazaxda yerləşən birinci taborunda atlar nisbətən yaxşı vəziyyətdə olsa da, silahların saxlanılması hərbi naziri razı salmadı. Silah dayaqları yox idi, tüfənglər bir- birinin üstünə qalaqlanırdı, heç biri təmizlənmirdi, yağlanmırdı, sürtgü materialları mövcud deyildi, silah qayışları alınmamışdı, silahların süngüləri yox idi. Ağdamdakı topçu bölməsinin atlarının əksəriyyəti qotur idi, Xankəndində yerləşmiş 2-ci Qarabağ süvari alayı bölüyünün atları döyüş vəzifələrini yerinə yetirmək qabiliyyətində deyildi.

3-cü Gəncə alayının digər taborlarında da silahın saxlanması vəziyyəti ürəkaçan deyildi. Silahların bir çoxunun detalları xarab olmuşdu, döyüş patronunun çoxunu pas atmışdı .

Silahların, texnikanın və atların saxlanması üzrə mövcud olan nöqsanlar S.Mehmandarovun diqqətindən qaçmırdı. Üzə çıxarılan faktlar dərhal ümumiləşdirilərək hərbi nazirin əmri ilə rəsmiləşdirilir və nöqsanların aradan qaldırılması üçün ən sərt tədbirlərin qəbul edilməsi xidməti təşkil edə bilməyən komandirlərin tutduğu vəzifədən uzaqlaşdırılması belə istisna edilmirdi.

S.Mehmandarovun qəbul etdiyi qərarlar təkcə bu və ya digər zabitin, komandirin fəaliyyətinin qiymətləndirilməsi ilə kifayətlənmirdi. 1919-cu ilin aprel ayından başlayaraq ordunun at və süvari ləvazimatı ilə təchizi sisteminin təkmilləşdirilməsinə cəhd göstərildi. Həmin vaxta qədər süvari qoşunlarına çağırılan gənc özü ilə at da gətirməli idi. Bu isə çox zaman ümid edilən nəticəni vermirdi. Çünki çağırış-səfərbərlik işində nöqsanların mövcud olduğu şəraitdə orduya çağırılan yoxsul təbəqənin yaxşı atı yox idi. Xidmətə yararsız atların hissəyə gətirilməsi ilə döyüş hazırlığının qaldırılmasında əhəmiyyətli bir rol oynamırdı.

1919-cu ilin aprel ayından başlayaraq atların da çağırışçılar üzrə deyil, çağırış məntəqələri üzrə toplanmasına başlandı. Hər çağırış məntəqəci üzrə çağırılacaq atların, habelə yəhərlərin norması müəyyənləşdirilirdi. Ancaq atlar və yəhərlərin təchizat mənbəyi təkcə çağırış deyildi. Eyni zamanda bazardan da atlar alınırdı. S.Mehmandarovun əmri ilə atların alınması üçün xüsusi komissiya yaradılmışdı və at alqı-satqısı bu komissiyanın rəhbərliyi altında həyata keçirilirdi. Səməd bəy bu komissiyanın işində əliəyriliyə,

israfçılığa yol verilməməsini başlıca vəzifə kimi irəli sürürdü .

Qoşun hissələrində S.Mehmandarovun əmri ilə yaradılan başqa bir komissiya atların xidmətə yararlı olub- olmadığını müəyyənləşdirirdi. Bu komissiya əsasən baytar həkimlərdən təşkil edilirdi .

Orduya cəlb edilmiş olan atların mühafizəsi və qorunması üçün də Hərbi Nazirliyin rəhbərliyi tərəfindən müvafiq tədbirlər həyata keçirilirdi.Bə'zi hissələrdə atların dəyişdirilməsi və ya onların yoxa çıxması xəbərini alandan sonra nazir əmr etdi ki, bütün atların ciddi qeydiyyatı aparılsın. Bunun üçün atlar surğuclanıb möhürlənmiş kitablarda qeyd edilsinlər. İki nüsxədə işlənmiş bu kitablardan biri hissədə saxlansın, biri isə Ümumi qərargaha göndərilsin .

Atların qorunmasında, işlədilməsində və onların təchizatında biganəlik və laqeydliyə yol verən şəxslərə qarşı hərbi nazir çox barışmaz mövqe tuturdu. 1919-cu ilin sentyabr ayında Gəncədə 4 baş ingilis atının ölməsi xəbərini eşidən kimi S.Mehmandarov xüsusi komissiya tə'yin etmişdi ki, bu faktıyoxlasın və cavabdeh şəxsləri müəyyənləşdirsin. Səməd bəy komissiyaya tapşırıq vermişdi ki, təhqiqatın nəticələrini şəxsən ona mə'ruzə etsin. Bu məsələ ilə bağlı imzaladığı əmrdə o, hissə komandirlərinin atların qorunmasına olan münasibətini bütünlükdə dövlət malına münasibəti kimi qiymətləndirir və bunun dözülməz bir hal olduğunu vurğulayırdı .

1919-cu ilin sentyabr ayında Gəncədən Bakıya daşınarkən dördçarxlı arabanın və üç ədəd yəhərin qatardan aşıb xarab olmasına görə təqsirkar bilinən poruçik Kordzaxiya Azərbaycan Ordusunun sıralarından xaric edilmişdi. Xidməti əmlakın qorunmasında ehtiyatsızlıq və laqeydlik göstərdiyi üçün SəMehmandarov Kordzaxiyanı Azərbaycanda hər hansı bir dövlət qulluğunda işləmək hüququndan məhrum etmişdi.

Hərbi nazir S. Mehmandarov qiymətli cins olan ingilis atlarının yerli-yersiz minilməsini, onlardan istifadə edilməsini də qadağan edirdi. O, bir sıra zabitlərin səhərlər bu atlarla işə gəlməsinə təəccübünü bildirir və belə hallara son qoyulmasını tələb edirdi. Bu məsələ ilə bağlı S. Mehmandarov 1919-cu il oktyabrın 1-də imzaladığı 449 saylı əmrində bildirirdi: "Mənə minik üçün ayrılmış ingilis atı və iki şəxsi ata malik olmağıma baxmayaraq xidmət yerinə piyada gedirəm. Bunu gənclər də edə bilərlər" .

1919-cu ilin ikinci yarısında qoşunların atlarla və yəhərlərlə təchizat səviyyəsi xeyli yaxşılaşdırılmışdısa, qoşqu arabalarına olan tələbat əvvəlki kimi qalmışdı. S.Mehmandarov əldə olunan imkandan istifadə edərək 1920-ci ildə bu sahədə də dönüş yaratmağı planlaşdırırdı.

Qoşun hissələrinin maddi-texniki təchizi ilə bağlı Hərbi Nazirliyin 1920-ci il üçün fəaliyyət proqramı eyni zamanda onu göstərirdi ki, ordunun təkcə say tərkibinə deyil, onun keyfiyyət tərkibinə, hərbi hissələrinin döyüş potensialının genişləndirilməsinə xüsusi diqqət yetirilirdi. 1919- cu il boyu mürəkkəb tarixi şəraitə baxmayaraq ordunun yüksək xətt üzrə inkişafda olması, Azərbaycan hökumətinin ordunun formalaşmasına daimi qayğısı 1920-ci il üçün qarşıya qoyulan planların da reallığından xəbər verirdi.

Real strukturlar üzərində formalaşdırılan qoşun hissələrinin taktiki imkanları,

döyüşkənliyi maddi- texniki təchizat səviyyəsindən birbaşa asılı olduğu üçün bu sahə Səməd bəy Mehmandarovun daimi qayğısı və nəzarəti altında idi. Qoşunların yerləşdirilməsinin, pal-paltar və ərzaqla tə'minatının, silah, sursat və texnika ilə təchizatının yaxşılaşdırılması üçün daim yollar aranırdı. Onun rəhbərliyi altında mövcud olan ehtiyatların qorunması və səmərəli işlədilməsi, sonra isə maddi-texniki təchizatın yaxşılaşdırılması Azərbaycan ordusunun və onun şəxsi heyətinin ehtiyaclarını xeyli dərəcədə ödəmiş, məişət şəraitini təkmilləşdirmişdi. Bütün bunların nəticəsi idi ki,1919-cu ilin ikinci yarısından etibarən qoşun hissələri kifayət qədər döyüşgənlik də əldə etmişdilər.

## İntizamın möhkəmləndirilməsi uğrunda

Səməd bəy Mehmandarovun diqqət mərkəzində dayanan başlıca məsələlərdən biri də Cümhuriyyət ordusunda hərbi intizamın möhkəmləndirilməsi məsələsi idi. Bu məsələnin həllinin yollarını o, şəxsi hey'ətin mə'nəvi tərbiyəsində, zabit və əsgərlərin dünyagörüşlərinin genişləndirilməsində, xidməti borca şüurlu münasibət bəsləyən sədaqətli döyüşçü tərbiyə edilməsində, bütöv şəxsiyyət və yetkin Azərbaycan vətəndaşı formalaşdırılmacında görürdü. Səməd bəyin prinsipial mövqeyi nəticəsində həmin tələblər bütün tə'lim-tərbiyə prosesinin fövqündə dayanırdı və ordu quruculuğunda onun yeri kifayət qədər reallıqla qiymətləndirilirdi. Uzun illər boyu hərbi xidmətdən yadırğamış olan xalqın övladlarını ordu quruculuğu prosesinin gərginliklərinə, ağırlıqlarına alışdırmaq, onlara yeni dəyərlər aşılamaq, yaradıcı xidmətə ruhlandırmaq, mübarizlik, vətənpərvərlik göstərilməsinə həvəsləndirmək bütün səviyyələrdən olan komandirlərin diqqətdən bir an da olsa qaçırmadığı fəaliyyət sahəsi idi. Səməd bəy özü həmişə intizamlılığın nümunəsi olmuşdu və Cümhuriyyət ordusunun uğurlarını da intizamlılığın yüksəldilməsində görürdü. O, ordunu dəmir intizamdan kənar təsəvvür edə bilmirdi və bütün fəaliyyəti ilə də buna nail olmağa çalışırdı. Səməd bəy sadəcə tələb etmirdi, o həm də əməlləri ilə şəxsi heyətə bir nümunə idi. O şübhə etmirdi ki, ordunun vahid bir orqanizm şəklində birləşdirilməsinin başlıca zəmini müstəqil Azərbaycan Ordusunda xidmət edən hər bir hərbi qulluqçuda xidməti borca şüurlu münasibət yaradılmasıdır. Vətən və xalq qarşısında şəxsi mə'suliyyətin vətəndaş mövqelərindən dərk edilməsidir. Ordu quruculuğu prosesinin izlənilməsi göstərir ki, digər sahələrdə olduğu kimi bu istiqamətdə də xeyli çətinlik və problemlər mövcud idi. Bunun da həm obyektiv, həm də subyektiv səbəbləri var idi. Lakin ardıcıl olaraq aparılan məqsədyönlü iş vaxt ötdükcə Azərbaycan döyüşçüsünün xarakterini bütövləşdirir, orduda sağlam əhval-ruhiyyə formalaşdırırdı.

S.Mehmandarovun Qoşunların şəxsi hey'ətinin intizamının möhkəmləndirilməsi sahəsindəki fəaliyyətində tələbkarlıqla qayğı və eyni zamanda əsaslandırılmış və məqsədyönlü iş üzvü vəhdət təşkil etmişdi. Eyni zamanda bu məsələ ayrıca təcrid olunmuş şəkildə deyil, bütün tə'lim-tərbiyə

prosesinin ümumi axarında həll edilirdi. Hərbi qulluqçunun şəxsiyyətinə hörmət ona e'timad, inam və ümid bütün görülən işlərin mərkəzində dayanırdı. Səməd bəy hər şeydən əvvəl hərbi qulluqçuların milli-mə'nəvi normalarla səsləşməyən hərəkətlərə yol verməsinə qaşı kəskin mövqe tutur və bunu ordunun mə'nəvi saflığının qorunmasına təhlükə kimi qiymətləndirirdi. Məsələn, onun 14 mart 1919-cu il tarixli 126 saylı əmrində deyilirdi ki,alınan mə'lumatlara görə ordunun bir sıra zabitləri və mə'murları klub və cəmiyyətlərdə böyük pula qumar oyunları oynayırlar. Əmrdə şəhər komendantından, idarə rəislərindən tələb olunurdu ki, bu məsələ ciddi nəzarət altında saxlansın və kimsə belə bir işdə günahkar bilinərsə dərhal xidmətdən azad olunması üçün təqdim olunsun .

Yuxarıda qeyd edilmişdi ki, zabit nufuzu və şərəfi ilə bir araya sığmayan belə hərəkətlər üçün hərbi nazir hətta generala da güzəştə getməmiş və general-mayor Pursiladzeni Azərbaycan Ordusunun sıralarından xaric etmişdi. 1920-ci ilin mart ayında Novruz bayramı ərəfəsində S.Mehmandarovun əmri ilə əsgər şərəfi, əxlaqı və alicənablığı anlayışları ilə bir araya sığmayan əməllərə yol verdiyi, zabit şərəfini qoruyub saxlaya bilmədiyi və davranış normalarına riayət etmədiyi üçün iki azərbaycanlı praporşik də xidmətdən azad edilmişdilər .

Səməd bəy şübhə etmirdi ki, orduya yenicə çağırılmış əsgərlərdə möhkəm intizamın formalaşmasına nail olmaq üçün ilk növbədə zabitlərin özlərinin intizamının möhkəmlənməsinə çalışmaq lazımdır. Çünki, möhkəm intizamlı, xidməti borcuna həmişə sədaqətli olan zabit rəhbərliyə altında olan əsgərlərində intizamlılığına nail ola bilərdi. Ona görə
zabit kadrlarının çatışmadığı bir vaxtda da S.Mehmandarov onların düzgün seçilib yerləşdirilməsinə, ixtisas hazırlığının daim təkmilləşdirilməsinə, mə'nəvi tərbiyəsinə xüsusi diqqət yetirirdi. Yə'ni keyfiyyət göstəriciləri kəmiyyət göstəricilərindən heç də az əhəmiyyət kəsb etmirdi və Səməd bəyi zabitlərin sayının azlığından daha çox onların hərbi-mənəvi keyfiyyətlərinin aşağı olması daha çox narahat edirdi. Özünün 1 mart 1919-cu il tarixli 119 saylı əmrində S. Mehmandarov bildirirdi: "... İndi isə xəbərdar edirəm ki, yalnız maaş almaq üçün xidmət edib heç bir səmərəli fəaliyyət göstərməyən şəxslər mənim tərəfimdən heç bir mövqeyi nəzərə alınmadan dərhal xidmətdən xaric ediləcəklər. Azərbaycan Ordusuna qəbul olunmuş zabitlərə tapşırıram ki, öz işlərinə ciddi münasibət göstərsinlər. Əks təqdirdə onlar tezliklə xidmətdən uzaqlaşdırılacaqlar. Öz biganə xidmətləri ilə hissələrdə düşkünlük yaradan belə zabitlərin varlığındansa, olmaması daha yaxşıdır».

Əmrlərinin birində 1919-cu ilin mart ayında 3-cü Gəncə piyada alayında xidmətin təşkilinin qənaətbəxş səviyyədə olmadığını göstərməklə S.Mehmandarov mövcud nöqsanların çoxunun zabitlərin fəaliyyəti ilə bağlı olduğunu qeyd edirdi. O, alay komandiri polkovnik Seyfulla Mirzə Qacara xəbərdarlıq etməklə bərabər, onu tabeçiliyində olan komandir və zabitlərə qarşı tələbkarlığı artırmağa çağırırdı. Səməd bəy tələb edirdi ki, həvalə olunan məs'uliyyətli vəzifələri icra etmək qabiliyyətində olmayan, tutduğu vəzifəyə uyğun gəlməyən tabor komandirləri dərhal xaric edilmək üçün təqdim olunmalıdır. Onun fikrincə, alayda baş verənlərə və bu zaman zabitlərin səmərəsiz fəaliyyət göstərməsinə qarşı alay komandiri heç

vaxt biganə qalmamalıdır.

Bəzi hərbi hissələrdə isə komandirlər öz zabitlərini kütləvi surətdə növbəti hərbi rütbələrə təqdim edirdilər. S.Mehmandarov belə halla da razılaşmırdı və belə bir praktikaya son qoyulmasını tələb edirdi. Onun fikrincə, kütləvi təqdimatların göndərilməsi zamanı hissə komandirləri zabitlərin şəxsi işlərini lazımınca nəzərdən keçirmirdilər, bir çox məsələlərin fərqinə varmadan müvafiq sənədləri imzalayırdılar. Təqdim edilənlər arasında elələri də olurdu ki,
sonuncu rütbəni almasından cəmi 3-4 ay keçmişdi. Nazir diqqəti belə bir məqama yönəldirdi ki, vaxtı çatdı-çatmadı zabitlərin növbəti rütbəyə təqdim edilməsi bu tədbirin əməli və mə'nəvi keyfiyyətlərini itirir və o, zabit həyatında hiss olunacaq bir məqama çevrilmir. Onun fikrincə, kütləvi təqdimatların göndərilməsi Hərbi Nazirliyin rəhbərliyini də ən layiqliləri seçib haqqında vəsatət qaldırmaq imkanlarından məhrum edirdi.
S.Mehmandarov xüsusi olaraq vurğulayırdı ki, hər bir zabit növbəti rütbəyə xidməti və mə'nəvi keyfiyyətlərinə görə təqdim edilməlidir. Qayda üzrə zabit o vaxt növbəti rütbəyə təqdim oluna bilər ki, o, sonuncu rütbəsində ən azı bir il baş zabit və ən azı 2 il qərargah zabiti kimi xidmət etmiş olsun. Azərbaycan Ordusu sıralarında 6 aydan az xidmət etmiş zabit rütbəyə təqdim edilə bilməzdi .

S.Mehmandarov bütün zabitlərdən tələb edirdi ki, onlar heç vaxt hissə ilə əlaqələrini kəsməsinlər, hətta saat 8-dən sonra bir yerə getsələr belə harada olmaları barədə evdə mə'lumat saxlasınlar ki, lazım olanda onları tapmaq mümkün olsun . Bununla bağlı 20 mart 1919-cu il tarixli 137 saylı əmrində S.Mehmandarov təəccüblə qeyd edirdi ki, bir sıra bölük komandirləri xidmətdən sonra uzaqda yaşamalarını bəhanə edərək şəxsi hey'ətə baş çəkmirdilər. Səməd bəy belə bir faktı da dözülməz hal kimi, bölük komandirlərinin öz vəzifələrinin icrasına laqeyd münasibətin ifadəsi kimi qiymətləndirirdi.

Zabitlərin seçilməsində və yerləşdirilməsində bə'zi hissə komandirlərinin sabit və qətiyyətli mövqedə dayanmaması da Səməd bəyi ciddi narahat edirdi. 17 fevral 1919-cu il tarixli 83 saylı əmrində nazir göstərirdi ki, hissə komandirlərindən biri tabeçiliyində olan zabitlərdən birinin həvalə olunan vəzifəni icra edə bilmədiyi üçün xidmətdən qovulması üçün vəsatət qaldırılmış və bu vəsatət müdafiə olunmuşdu. Bir müddətdən sonra isə hissə komandiri həmin zabitin yenidən xidmətə bərpa olunması barədə vəsatət qaldırmışdı. Bununla bağlı S.Mehmandarov bütün komandir hey'ətinin nəzərinə çatdırırdı ki, belə mövqedə dayanmaq yolverilməzdir və oxşar hərəkətlərə yol verən komandirlərə qarşı qanunun bütün ciddiliyi ilə ən sərt tədbirlər həyata keçiriləcəkdir .

Xidməti vəzifənin icrasına məs'uliyyətsizcəsinə yanaşan hər bir zabitə qarşı sərt tədbirlər həyata keçirilirdi. Bu baxımdan 3-cü Şəki süvari alayının yavəri, poruçik Qalacovla bağlı S.Mehmandarovun imzaladığı əmr xarakterik bir əmr idi. Adı çəkilən poruçik 1919-cu il dekabrın 2-də qatarla gedəndə bir sıra məxfi sənədləri yaddan çıxarıb qatarda qoymuşdu. Qatar
bələdçisi təsədüfən onları tapıb Parlamentin dəftərxanasına təhvil vermişdi. Məxfi sənədlərin qorunmasına məs'uliyyətsizcəsinə yanaşdığına görə Poruçik Qalacov bir ay həbs edilməklə bərabər tutduğu vəzifədən azad edilib kiçik zabit vəzifəsinə

tə'yin olunmuşdu. Səməd bəy bildirirdi ki, o bu vəzifədə ən azı üç il işləməli və sonra onu yüksək vəzifəyə irəli çəkilməsi şəxsən hərbi nazirin razılığı ilə olmalıdır.

Kadrların düzgün seçilməsi, hərbi keyfiyyətlərinə müvafiq olaraq yerləşdirilməsi, mə'nəvi cəhətdən formalaşması ilə bərabər onların peşə hazırlığının təkmilləşdirilməsi, zabitlərin müasir hərbi-elmi tələblər səviyyəsində olması da S.Mehmandarovun zabitlərə qarşı tələbkarlığının əsas istiqamətlərindən birini təşkil edirdi. Zabitin həm mə'nəvi, həm də ixtisas keyfiyyətlərinə malik olması onun şəxsiyyətini tamamlayan, əsgəri xidmətin lazımi səviyyədə təşkili üçün zəruri olan əsas cəhətlər kimi götürülürdü. Zabitlərin ixtisas hazırlığının təkmilləşdirilməsi Hərbi Nazirliyin rəhbərliyi tərəfindən ikitərəfli bir proses kimi qəbul edilirdi. Bir tərəfdən hər bir zabit özü ardıcıl olaraq öz üzərində işləyib bilik və təcrübi səviyyəsini təkmilləşdirməli idisə, digər tərəfdən də Nazirliyin, birləşmə və hissələrin rəhbərliyi zabit hey'ətinin tə'limini, bilik səviyyəsinin artırılmasını təşkil etməli idi. Bu məsələlərə Hərbi nazir S.Mehmandarov öz münasibətini belə bildirirdi: "Çoxlu rəhbər şəxslər və komandirlər bildirirlər ki, tabeçiliklərində olan zabitlər və dərəcəli çinlər öz vəzifələrinə uyğun deyillər. Buna da günahkar komandirlərin özləridir. Onlar öz zabitləri ilə dərslər aparmalı, onları tərbiyə etməli və ümumiyyətlə, bütün sahələr üzrə onları hazırlamalıdırlar ki, tutduqları vəzifəyə layiq olsunlar" .

S.Mehmandarov bütün fəaliyyəti boyu zabit və komandirləri əsgər zəhmətini düzgün qiymətləndirməyə, yersiz hərəkətləri, əsaslandırılmamış əmrləri ilə əsgərlərdə xidmətin müqəddəsliyinə, komandirlərinə qarşı e'tibarsızlığın yaranmasına yol verməməyə çağırırdı. 1919-cu il fevral ayının əvvəlində hərbi nazirin Şuşaya gəlməsi münasibətilə buradakı
taborun şəxsi hey'əti açıq havada düzülmüş və qarşılanma mərasimi keçirilmişdi. S. Mehmandarov onun xəbəri olmadan şəxsi hey'ətin soyuq havada sıraya düzülməsinin və bu vəziyyətdə xeyli gözləməsinin komandir hey'ətinə qarşı əsgərlərdə hər hansı hörmətin formalaşdırılmasına zəmin yaratmadığını qeyd edir və belə hərəkətlərə qarşı kəskin e'tirazını bildirirdi . O, sün'i şəkildə ordu rəhbərliyinə qarşı hörmət yaradılmasının tamamilə əleyhinə idi və əsgər qəlbinə daha qayğıkeş və prinsipial münasibətlərlə yol tapmağa çalışırdı. Xidmətə qarşı sədaqət və vicdanlı münasibət göstərən heç bir əsgərin və zabitin ibrətamiz əməlləri hərbi nazirin diqqətindən kənarda qalmırdı. Belə əməllər əmrlə ordunun bütün şəxsi hey'ətinə e'lan edilirdi və onlara nümunə kimi təqdim olunurdu. S.Mehmandarov özünün 3 mart 1919-cu il tarixli 130 saylı əmrində göstərirdi ki, 1-ci Tatar süvari alayının əsgəri, Bakı qəzasının Saray kəndinin sakini Xanmirzə Məlik Əhməd oğlu xəstə anasına baş çəkmək üçün icazə alıb evlərinə gedibmiş. Necə olursa əsgər özü evlərində vəfat edir. Ancaq vəfatından qabaq xəstə anasından xahiş edir ki, əsgər libası hökumət malı olduğu üçün onu hissəyə göndərsin.Anası da oğlunun vəsiyyətinə əməl edərək xidməti paltarı geriyə qaytarır. S.Mehmandarov vəfat etmiş süvarinin xidməti ilə maraqlandıqda mə'lum olmuşdu ki, o, həmişə nümunəvi davranışı, sonsuz təmizliyi, işgüzarlığı və intizamlılığı ilə fərqlənirmiş. Belə bir əsgərin - Vətən müdafiəçisinin ölümünü

Səməd bəy ağır bir itki sayırdı və onun Azərbaycan Ordusu sıralarında xidmətə vicdanlı münasibətini hamıya nümunə göstərirdi. Adı çəkilən əmrini S.Mehmandarov aşağıdakı cümlələrlə bitirirdi: "Belə bir süvarinin ölümü xidmət etdiyi hissə üçün böyük itkidir. Hamının diqqətini belə bir məsələyə cəlb edirəm ki, ölüm anına qədər Xanmirzə Məlik Əhməd oğlu bütün xidməti əmlakı öz hissəsinə qaytarmağa borclu olduğunu unutmamışdı. Onun qoca anası isə çox kasıb olmasına baxmayaraq oğlunun iradəsini yerinə yetirməyə imkan tapmışdı. Allah bizim Vətənimizə belə təmiz insanlardan daha çox qismət eləsin".

Səməd bəyin başqa əmrlərində hissələrdə Xanmirzə kimi əsgərlərin hərəkətləri ilə daban-dabana zidd olan əməllərə yol verildiyinin və onların həm zabitlər, həm də əsgərlər tərəfindən törədildiyinin şahidi olmaq mümkündür. Məsələn, 28 fevral 1920-ci il tarixli 125 saylı əmrində S.Mehmandarov bildirirdi ki, bir sıra hərbi hissələrdə, o cümlədən də Hərbi məktəbin özündə bə'zi zabitlər və hətta çavuşlar tərəfindən xidməti əmlaka, maliyyə vəsaitlərinə qərəzli münasibət barədə mə'lumat alınmaqdadır. Hərbi nazir bu sayaq əməlləri şərəfsizlik kimi qiymətləndirirdi, belə mə'nəvi düşkünlüyə yuvarlanmış hər bir zabitə və çavuşa qarşı ən qətiyyətli tədbirlərin tətbiqinin zəruriliyini vurğulayırdı.

Səməd bəy bütün səviyyələrdə olan komandirlərdən tələb edirdi ki, gənclərin tərbiyəsinə diqqət yetirsinlər və mə'nəviyyatsızlığa yol verib xidməti əmlaka nankorcasına yanaşan çavuşlar rütbələrinin aşağı salınması üçün təqdim edilsinlər .

S.Mehmandarovun 25 iyun 1919-cu il tarixli 311 saylı əmrinin məzmunundan mə'lum olur ki, çoxdan xidmətdə olan bir sıra əsgərlərin xidmətə yeni gələn əsgərlərdən rüşvət alma halları da mövcuddur. Nazir təəssüflə qeyd edirdi ki, bu barədə mə'lumatlar bütün hissələrdən alınmaqdadır. S.Mehandarov köhnə və yeni əsgərlər arasında rüşvətalma faktının olmasını gənc əsgərlərin tərbiyəsinə və intizamına ziyan gətirən özbaşınalıq kimi qiymətləndiririrdi. O diviziya komandirlərindən qətiyyətlə tələb edirdi ki, belə özbaşınalıqlara tə'cili surətdə son qoyulsun və günahkar şəxslər mə'suliyyətə cəlb olunsunlar. Xidməti tələblərə mə'suliyyət nümayiş etdirməyərək hərbi intizamın pozulmasına yol açan bütün hərəkətlər ciddi şəkildə cəzalandırılırdı. Gəncə hərbi rəisinin idarəsində xidmət edən əsgər otağa daxil olan zabitə əsgəri qaydada hərbi-tə'zim etmədiyi üçün hərbi səhra məhkəməsinə göndərilmişdi.

Bə'zi əsgərlərin nalayiq hərəkətləri barədə "Azərbaycan" qəzetində qeydlər çap olunandan sonra Səməd bəyin əmrinə müvafiq olaraq Ərkani-hərbin rəisi Sulkeviç həmin əsgərlərin
tapılıb məs'uliyyətə cəlb olunması barədə göstəriş vermişdi .

Hərbi qulluqçuların davranış normalarına ciddi riayət etməsi, geyim qaydalarını pozmaması üçün Səməd bəy Mehmandarov qanizon xidmətinin düzgün təşkilinə xüsusi əhəmiyyət verirdi. Bu məqsədlə Hərbi Nazirliyin aparatı Bakı şəhərinə köçürələndən sonra buradakı komendaturanın səlahiyyətləri xeyli genişləndirildi. Bununla bağlı S.Mehmandarovun dövlət orqanları qarşısında qaldırdığı vəsatətdə deyilirdi ki, Bakıda yerli qarnizondan başqa xarici qoşunlar da var. Onların şəhərdəki davranışının təmizlənməsi, hərbçi olmayan şəxslərin hərbi

geyimdə olmasına yol verilməməsi və qarnizon xidmətinin daha yaxşı təşkili üçün digər dövlətlərin paytaxtında olduğu kimi Bakıda da xüsusi komendatura yaradılması məqsədəuyğun olardı. Şəhər komendantının səlahiyyətlərinin diviziya komandirinin səlahiyyətlərinə bərabər tutulması təklif olunurdu .

S.Mehmandarovun əmri ilə 1919-cu il avqustun 1-də səlahiyyətləri genişləndirilmiş olan Bakı komendantı vəzifəsinə general-mayor Firudin bəy Vəzirov tə'yin edildi. F.Vəzirov bu vəzifəyə tə'yin olunanda 69 yaşı var idi. Zabitlik təcrübəsi, ordu quruculuğuna verə biləcəyi xidmətləri nəzərə alınaraq o, S.Mehmandarov tərəfindən ordu sıralarına də'vət edilmişdi. F.Vəzirov da bu də'vəti böyük məmnuniyyətlə qəbul etmiş, biliyini, bacarığını Azərbaycan Ordusunun möhkəmləndirilməsinə sərf etməyə razı olmuşdu .

Şəhər komendantlarının, qarnizon rəislərinin qarşısına qoyulan başlıca vəzifə qarnizon xidmətinin düzgün təşkilinə, qarnizon daxilində nizam-intizam , hərbi davranış normalarına riayət edilməsinə nail olunması idi. Hələ 1918-ci ilin dekabrında polkovnik İvanovu Gəncə şəhərinin müvəqqəti komendantı tə'yin etməsi ilə bağlı əmrində S.Mehmandarov bildirirdi ki, vəzifəsinin icrasına başlamaqla o, Qarnizon Xidməti Nizamnaməsi əsasında öz işini qurmalı, qarnizona gələn bütün zabitlərin uçotunu aparmalı, mə'zuniyyətə və e'zamiyyətə gəlmiş zabitlərdən müvafiq sənədləri tələb etməli, davranış normalarını nəzarət altında saxlamalı, bütün hərbi qulluqçuların, o cümlədən mülki mə'murların geyim formalarını pozmasına yol verməməli idi. Elə həmin əmrdə qeyd edilirdi ki, Azərbaycan Ordusu sıralarında xidmət etməyən zabitlərin (üzürlü səbəblər istisna olmaqla) Azərbaycan ərazisində hərbi geyimdə gəzmələri qadağandır. Bu tələb də qarnizon xidmətinin təşkilinə məs'ul olan şəxslər tərəfindən həyata keçirilməli idi .

Qarnizon xidmətinin təşkilində daha çox irad doğuran məqamlar hərbi qulluqçuların geyim formalarını pozması, hissədən kənarda, ictimaiyyət arasında hərbi davranış normalarına riayət etməməsi ilə bağlı idi. Geyim formasının pozulması daha çox zabitlər arasında qeydə alınırdı. Heç şübhəsiz ki, əsgərlər arasında da belə hallar istisna deyildi.

Hərbi nazir S.Mehmandarov 1919-cu ilin iyun ayında imzaladığı əmrlərdən birində göstərirdi ki, bir çox topçu əsgərlər, hətta bir sıra zabitlər qırmızı lampaslı şalvarlar geyirlər. Halbuki Azərbaycan Ordusu üçün təsdiq edilmiş geyim formasında belə bir element yox idi. Ona görə Səməd bəy həm hissə komandirlərindən, həm də qarnizon rəislərindən tələb edirdi ki, geyim formalarına riayət edilməsinə nail olunsun . Azərbaycan Ordusu sıralarında xidmət etməyən bir çox zabitlər üzərində "Azərbaycan" sözü yazılmış paqonlar gəzdirirdilər. Azərbaycan Ordusu sıralarında xidmətə qəbul edilmiş bir sıra gürcü zabitləri isə üzərində gürcü simvolları olan paqonlar və furajkalar istifadə edirdilər. Səməd bəy Mehmandarov hər iki halın qarşısının alınmasını tələb edirdi. Xidmətə yenicə qəbul edilmiş gürcü zabitlərinə Azərbaycan Ordusunun geyim forması ilə təsdiq olunmuş papaq və paqonların əldə edilməsinə bir ay vaxt ayrılırdı. Bu vaxt ərzində geyim formasını sahmana salmayan zabitlərə qarşı müvafiq tədbirlər görülməli idi .

S.Mehmandarov eyni zamanda qarnizonların rəislərindən, şəhərlərin və dəmiryolu stansiyalarının komendantlarından tələb edirdi ki, e'zamiyyətə gəlmiş zabitlər istisna olmaqla Gürcüstan və Ermənistan zabitlərinin Azərbaycan ərazisində hərbi formada gəzməsinə imkan verməsinlər .

Səməd bəyin müşahidələrinə görə, Azərbaycan və Gürcüstan ordularından tərxis edilmiş zabitlər, habelə bir sıra keçmiş rus ordusu zabitləri paqonlarını çıxarsalar da, dəmir düymələri, rəngli yaxalıqları olan hərbi palto, kokardalı furajka, dəmir düyməli səfər mundiri, baftalı və kantlı şalvarlar geyinir, kütlə arasında seçilir, əhalidə və əsgərlərdə onların ordu zabiti olması təsəvvürü yaradırdı. Ona görə də tələb olunurdu ki, furajkadan kokarda, səfər mundirindən və paltolardan dəmir düymələr, rəngli yaxalıqlar, şalvardan baftalar qoparılsın. Bütün bunlara əməl olunmasına nəzarət qarnizon rəislərinə və şəhər komendantlarına tapşırılırdı .

Qarnizonlarda geyim formasına tutulan iradlardan biri də polislərin hərbi geyim elementlərindən istifadə etməsi ilə əlaqədər idi. Onlar hərbi formaya oxşar forma və üstündə "Azərbaycan" sözləri yazılmış olan paqonlar geyirdilər. Hərbçilərə isə küçədə rastlaşanda hərbi salam vermirdilər. Bu əsgərlər arasında çaşqınlıq, əhali arasında isə ordu daxilində intizamsızlığın mövcud olması təəssüratı yaradırdı. Gəncə şəhər komendatı məsələ ilə əlaqədar ölçü götürülməsi üçün Hərbi Nazirliyin rəhbərliyinə, hərbi nazirin müavini Ə.Şıxlinski isə Daxili İşlər nazirinə müraciət etdi .

Müxtəlif təşkilatların əməkdaşlarının hərbi geyimdən istifadə edilməsinə son qoyulması üçün hərbi nazir S.Mehmandarov məktubla Nazirlər Şurasının sədrinə müraciət etdi. Məktubda bildirilirdi ki, təkcə polislər deyil, bir sıra digər strukturların əməkdaşları da heç bir maneəçilik olmadan malik olduqları hərbi geyimlərdən istədikləri vaxt istifadə edirlər, kütlə arasına çıxırlar. Bu isə həm əhalidə, həm də mətbuatda söz-söhbətə səbəb olur və həmin adamların günahları ordunun ayağına yazılırdı. Ona görə də S.Mehmandarov xahiş edirdi ki, hərbi geyimlərdən belə sui-istifadə edilməsinə, onların mülki paltar yerinə geyilməsinə icazə verilməsin .

Orduda xidmət edən zabitlərin özlərinin də bə'zi geyim formasından sui-istifadə etməsi hallarına təsadüf olunurdu. Bir çox zabitlər növbəti rütbəyə təqdimat yazılan kimi müvafiq
əmrin olmamasına baxmayaraq dərhal paqonlarını dəyişdirir, həqiqi rütbələrindən yuxarı rütbə paqonu daşıyırdılar. Süvari hissələrinə dəyişdirilmiş bə'zi piyada zabitləri isə özlərini
süvari zabiti hesab edir və süvari zabit kimi təqdim edirdilər. Halbuki piyada zabitinin süvari qoşunlarına daxil edilməsi və bununla da onların özlərini süvari zabiti adlandırması üçün hərbi nazirin xüsusi əmri olmalı idi .

Geyim formasına riayət edilməsi ilə bərabər Hərbi Nazirliyin rəhbərliyi zabitlər və əsgərlər tərəfindən hərbi davranış normalarına riayət edilməsini də ciddi nəzarət altında saxlayırdılar. S.Mehmandarov hələ 1919-cu ilin mart ayında Gəncə komendantına əmr etmişdi ki, polislərlə birlikdə Gəncədə yaşayan və xidmətdə olmayan bütün zabitlər qeydiyyata alınsınlar. Çünki bu zabitlərin çoxu

hərbi formada şəhər arasında zabit şərəfinə ləkə gətirən hərəkətlər edərək camaat arasında haqlı narazılığla səbəb olurdular. Əhalidə onları Azərbaycan Ordusunun zabitləri hesab etdiklərindən öz narazılıqlarını ordu ilə bağlayırdılar.

1919-cu ilin sentyabr ayında oxşar əmri Bakı şəhər qarnizonunun rəisi də imzalamışdı. O, Bakıda rəsmi xidmətdə olan xarici dövlətlərin zabitlərindən başqa bütün digər zabitlərin qeydiyyatdan keçməsini tələb edirdi. Bu tədbir üçün bir həftə vaxt ayrılmışdı. Həmin vaxt ərzində qeydiyyatdan keçməyənlər şəhərdən xaric edilməli idi .

Hərbi salamın verilməsi həm zabitlər, həm də əsgərlər arasında hərbi intizamın vacib elementlərindən biri sayıldığı üçün ona riayət edilməsi həm hissə, həm də qarnizon daxilində daimi diqqət altında idi. S.Mehmandarov bu elementin icrasına komandirlərin nüfuzunu saxlayan, şəxsi hey'ətə intizam vərdişlərini aşılayan lazımlı bir hərəkət kimi baxırdı və ona riayət edilməməsini hərbi intizamın kobud şəkildə pozulması kimi qiymətləndirilirdi. İngilis jurnalisti Skondand Liddel Azərbaycan Ordusundakı intizamın möhkəmliyindən yazarkən küçələrdə qarşılaşan əsgər və zabitlərin bir-birinə hərbi salam vermələrini xüsusilə qeyd edir və əlavə edirdi ki, Kerenski hökumətinin ordusunun çox böyük sür'ətlə dağılmasının, öz intizamını itirməsinin əsas səbəblərindən biri də əsgər və zabitlər arasında hərbi salam verilməsinin ləğv edilməsi idi .

Zabitlər arasında hərbi salam verilməməsi hallarının heç biri məs'ul şəxslərin, o cümlədən Hərbi Nazirliyin rəhbərliyinin diqqətindən kənarda qalmırdı. Hərbi salamın verilməməsinə görə zabitlərin hətta həbs edilməsi, sonra da ordu sıralarından xaric edilməsi faktları da mövcuddur.

Qarnizon xidmətinin təşkilində xüsusi təşvişlə qarşılanan məsələlərdən biri əsgərlərin hissədən kənarda intizamsızlıqlar törətməsi, bə'zənsə cinayət hərəkətlərinə əl atması idi. Belə halların qarşısının alınması üçün Hərbi Nazirliyin rəhbərliyi çox barışmaz mövqedə dururdu. Səməd bəy Mehmandarov öz əmrlərində bir neçə dəfə qeyd etmişdi ki, qatarlarda çoxlu əsgər və zabit olmasının qarşısı alınsın. Onlar çox vaxt xidməti mövqelərindən istifadə edərək qatarlara pulsuz minir və sərnişinlər arasında narahatçılığa səbəb olurdular .Onların bə'ziləri hətta sərnişinlər arasında qanunsuz axtarışlar da aparırdılar. S.Mehmandarovun 27 dekabr 1918-ci il tarixdə imzaladığı 35 saylı əmrdə göstərilirdi ki,
Hacıqabulda yerləşən 2-ci piyada alayının hərbi qulluqçuları burada sərnişinlər arasında özbaşına axtarışlar aparmış və onların bə'zi əşyalarını özləri ilə götürmüşdülər. Alay komandirindən tələb olunurdu ki, bu şəxsləri aşkar etsin, əsgərlər Hərbi məhkəməyə verilsin, zabitlər isə xidmətdən xaric olunmaq üçün təqdim edilsinlər .

1919-cu ilin martın 8-də Gəncədə 3-cü piyada alayının 6 əsgərinin yoldan keçənləri soyması faktı mə'lum olan kimi onlar dərhal Hərbi Səhra məhkəməsinə verilmiş və bir həftədən sonra bu məhkəmədə ölüm cəzasına məhkum edilmişdilər. Oğurluq hallarının Azərbaycan əsgərinin şərəfini necə ləkələdiyini və belə halların cəzasız qalmayacağını nümayiş etdirmək üçün Hərbi Səhra məhkəməsinin qərarı S.Mehmandarovun əmri ilə bütün qarnizon qarşısında e'lan

edildi. Bunun üçün 1919-cu il martın 14-də saat 12-də 3-cü Gəncə alayının 5-ci bölüyü tam hey'ətdə, digər bölük-lərdən isə bir taqım Gəncənin Topçu meydanına çıxarıldı. Bura 1-ci Tatar süvari alayının, Praporşiklər məktəbinin, 1-ci topçu divizionunun, İstehkam məktəbinin hər birindən bir taqım da çıxarılmışdı. Hərbi bölmələrin hamısı silahla meydanda düzülmüş və Hərbi Səhra məhkəməsinin qərarı onlara e'lan olunmuşdu. Mə'lumdur ki, sonradan Novruz bayramının gəlişi münasibətilə Səməd bəy onları əfv etmiş, ölüm cəzasını 6 illik həbslə əvəz etmişdi. Bununla belə, nazir bu hadisənin çox ciddi şəkildə araşdırılmasını tələb edirdi. O, təəccüb edirdi ki, 3-cü Gəncə piyada alayının 5-ci bölüyündən olan həmin əsgərlər necə olmuşdu ki, icazəsiz şəhərə çıxmış, cinayət törətmişlər və heç kəsin də bundan xəbəri olmamışdı. Yalnız axşam saat 9.30-da komendant hadisədən xəbər tutmuş və Dondukov küçəsində onları tərksilah edərək həbsə almışdı. Həmin gün 3-cü piyada alayının pulemyot komandasının bir neçə kiçik çini də icazə vərəqi olmadan şəhərdə gəzdikləri vaxt yaxalanmışdır.

3-cü piyada alayında belə özbaşınalıqların mövcud olmasına görə S.Mehmandarov ilk növbədə hissə komandirini günahlandırır və hissədə daxili xidmətin düzgün təşkili üçün tə'cili tədbirlər görülməsini tələb edirdi. Nazirin bu məsələ ilə bağlı imzaladığı müvafiq əmrdə vurğulanırdı ki, hissədən kənara buraxılmasına, şəxsi hey'ətin axşam yoxlanışına, xidmətdən sonra zabitlərin qışlalara baş çəkməsinə, əsgərlərin daimi nəzarət altında saxlanmasına xüsusi diqqət yetirilsin .

Həyata keçirilən qətiyyətli tədbirlər əsgərlərin hissədən kənarda davranış normalarına riayət etmələrinə müsbət tə'sir göstərsə də, bə'zi nöqsanlar qalmaqda idi. Qarnizon xidmətinin və eləcə də əsgərlərin mə'nəvi tərbiyəsinin təşkilində azacıq səhlənkarlığa yol verilməsi müvafiq nəticələri ilə Səməd bəy Mehmandarovun da narahatçılığına səbəb olurdu. Onun 18 iyun 1919-cu il tarixdə imzaladığı 302 saylı əmrindən aydın olur ki, Gəncə qarnizonunun bə'zi hissələrinin əsgərləri şəhərin ermənilər yaşayan hissəsində avara-avara veyillənir və küçədən keçən qadınlara söz atırlar. Ayrı-ayrı əsgərlərin belə özbaşınalığı Hərbi Nazirliyin rəhbərliyinin ciddi təşvişinə səbəb olmuş və çox böyük nigarançılıqla qarşılanmışdı. Adı çəkilən əmrdə bu hadisəyə belə qiymət verilirdi: "Əsgərlər arasındakı bu özbaşınalıq yolverilməzdir. Əsgərlər hər yerdə və həmişə dinc əhalinin müdafiəçiləri olmalıdırlar, yoxsa qarnizonda təsadüf edildiyi kimi asayişi pozmamalıdırlar. Əsgərlər arasında qadınlara sataşma hallarını isə mən xüsusi təəssüflə qeyd edirəm. Hansı ki, müsəlmanlar arasında qadına ehtiram həmişə ən yaxşı keyfiyyətlərdən biri olmuşdur. Əsgərlərin küçədə nalayiq hərəkətləri hissələrdə əsgərlərin şəhərə buraxılması üzərində nəzarətin olmamasından, habelə əsgərlərin əxlaqi tərbiyəsinə diqqət yetirilməməsindən xəbər verir" .

S.Mehmandarov bildirirdi ki, gələcəkdə əsgərlər belə hərəkətlərə yol verərlərsə, onların mənsub olduqları hissələrin zabitləri və komandirləri ciddi məs'uliyyətə cəlb ediləcəklər

Müəyyən çətinlik və nöqsanların olmasına baxmayaraq qoşun hissələrində intizamın möhkəmləndirilməsi məsələsi tam nəzarət altında idi və bu sahədə

vəziyyət günü-gündən yaxşılaşırdı. Bunun nəticəsi idi ki, özünün maddi, mənəvi və hərbi imkanlarına görə Azərbaycan Ordusunun hissələri kifayət qədər döyüşkən hissələrə çevirilmişdilər.

## Cümhuriyyət ordusunun struktur baxımından formalaşdırılması

Hələ türk qoşunları Azərbaycanda olarkən türk zabitlərinin rəhbərliyi altında iki piyada, bir süvari diviziyasının, habelə yardımçı hissə və bölmələrin yaradıldığı bəyan edilmişdi. S.Mehmandarova da 10 mindən artıq sayda milli ordunun mövcudluğu haqqında məlumat verilmişdi. Lakin ordu hissələri ilə tanışlıqdan sonra S.Mehmandarova aydın olmuşdu ki, qoşun hissələri ilə bağlı ona verilmiş məlumat heç də həqiqətə uyğun deyildir və Azərbaycanın müstəqilliyini qorumaq üçün mövcud olan hissələr yenidən qurulmalı və bundan başqa yeni-yeni hissələr təşkil edilməli idi. Cümhuriyyət ordusunun arxiv sənədlərindən aydın olur ki, 1918-ci ilin sonlarında Azərbaycanda iki yox, yalnız bir piyada diviziyası var idi. Süvari diviziyası isə təşkilati baxımdan natamam bir struktur kimi mövcud idi. Hərbi Nazirliyin və Ümumi Qərargahın aparatının formalaşdırılmasından sonra S.Mehmandarov başlıca diqəti də bu diviziyaların həm təşkilati, həm də döyüş hazırlığı baxımından möhkəmləndirilməsinə yönəltdi.

Çox tezliklə yeni hərbi hissələrin təşkili zəruriliyi Səməd bəy Mehmandarovda heç bir şübhə doğurmurdu. Azərbaycanı düşdüyü vəziyyətdən çıxarmaq və ona doğru istiqamətlənmiş təhdidləri aradan qaldırmaq üçün böyük və güclü ordu lazım idi. Ancaq Səməd bəy sadəcə say xatirinə yeni hərbi strukturları yaratmaq fikrində deyildi. O, yeni yaradılmış hərbi hissələri ordu quruculuğu prosesində aparılan işlərin məntiqi nəticəsi kimi görmək istəyirdi. Ona görə də ordunun strukturunun genişləndirilməsi ordu quruculuğu prosesinin bütün sahələri ilə məntiqi bir bağlılıq prinsipi ilə aparılırdı. Bunun nəticəsində yeni yaradılan strukturlar kifayət qədər potensiala malik olan hərbi vahidlər kimi ordu sıralarında özünəməxsus yer tuturdu.

Yeni yaradılan və mövcud olan piyada və süvari alaylarının hər birinin adı və nömrəsi var idi. S.Mehmandarova qədər təşkil edilmiş olan hissələrin də adları və nömrələri var idi. 1919-cu ilin əvvəllərində Səməd bəyin əmri ilə bu hissələrin adlarına qismən dəyişiklik edildi.1919-cu il yanıvar ayının 6-da imzalanmış əmrlə Şuşa və Ağdamda dayanan piyada alayı-1-ci Cavanşir piyada alayı, Hacıqabulda yerləşən piyada alayı- 2-ci Bakı piyada alayı, Qazax və Gəncədə yerləşən Qazax piyada alayı- 3-cü Gəncə piyada alayı, Zaqatala taboru isə -Əlahiddə Qazatala taboru adlandırıldı.

1919-cu ilin əvvəllərində Azərbaycan ordusunun döyüş hissələri əsasən adları çəkilən bu piyada alaylarından, 1-ci Tatar və 2-ci Qarabağ süvari alaylarından, topçu hissələriindən və digər yardımçı bölmələrdən ibarət idi. S.Mehmandarovun əmri ilə 1919-cu il yanvar ayında Gəncədəki təlim taboru ləğv edildi və həmin tabor 3-cü Gəncə alayının tərkibinə verildi. Elə həmin ilin yanvar

ayında bir zirehli qatar da şəxsi heyətlə komplektləşdirildi.

1919-cu ilin əvvəllərində bir-sıra hərbi xəstəxanaların, 1-ci topçu briqadasının bölmələrinin formalaşdırılması da S.Mehmandarovun nəzarəti altında idi. Qoşunların yavaş-yavaş sayının artırılması ilə onların təmin və təchiz edilməsi işləri də artırdı. Bu işlərin öhdəsindən vaxtında gəlinməsi üçün Səməd bəyin əmri ilə Ümumi Qərargahın tərkibində olan Ləvazimat şöbəsi Ləvazimat idarəsinə çevrildi və birbaşa hərbi nazirin özünə tabe etdirildi. Sonradan Topçu idarəsi, İstehkam idarəsi və s. də genişləndirilərək Ümumi Qərargahın tərkibindən çıxarıldı və birbaşa nazirin özünə tabe etdirildi.

1919-cu ilin martında qoşun hissələrinin formalaşdırılması daha ahəngdar xarakter aldı. 2-ci Bakı piyada alayının formalaşdırılması sürətləndirildi. 3-cü Şəki süvari alayının təşkili tezliklə başa çatdırıldı. Praporşiklər məktəbinin rəisi podpolkovnik Ş.Kəsəmənli 2-ci Bakı piyada alayının, podpolkovnik Xosrov Mirzə Qacar isə 3-cü Şəki süvari alayının komandiri təyin olundular.

Səməd bəy Mehmandarov yeni strukturların yaradılmasına ciddi diqqət yetirməklə bərabər mövcud olan hissələrdə təlim-tərbiyənin və ümumən xidmətin təşkilini də daimi nəzarət altında saxlayırdı. Bu məqsədlə mövcud olan hər üç piyada alayında xidmətin təşkili vəziyyəti yoxlanıldı və həmin hissələrin döyüş hazırlığı barədə obyektiv məlumat əldə edildi.

Ancaq həmin alaylarda alınan təəssürat da hərbi naziri qane etmədi. Bunu o, aprelin 21-də imzaladığı 211 saylı əmrində də xüsusi qeyd edirdi. Nazir göstərirdi ki, ümumiyyətlə, hər üç piyada alayında xidmətin təşkili və qoşunların idarə edilməsi
çox pis vəziyyətdədir. Vəziyyətin düzəldilməsi üçün S. Mehmandarov artıq bə’zi addımların atıldığını bildirirdi. Polkovnik Kəsəmənskinin 2-ci piyada alayına komandir tə'yin edilməsi də bu məqsəddən irəli gəlirdi. Elə ilk gündən xidmətin düzgün təşkili və nalayiq şəxslərin alaydan uzaqlaşdırılması üçün Kəsəmənskinin gördüyü işlər nazir tərəfindən razılıqla qarşılanırdı. S.Mehmandarov piyada alaylarında vəziyyətin yaxşılaşdırılması üçün piyada diviziyasına yenicə komandir tə'yin edilmiş polkovnik Şıxlinskiyə də böyük ümidlər bağlayırdı. Onun fikrincə, Şıxlinskinin savadı, təcrübəsi, insanlarla davranış tərzi və nəhayət, vətənpərvərliyi buna zəmindir

1919-cu il aprelin əvvəllərində müttəfiq dövlətlərin hərbi komandanlığı Bakıda da Azərbaycan Ordusunun azsaylı qoşun kontingentinin yerləşdirilməsinə icazə verdi. Martın 31-də hərbi nazirin əmri ilə Bakı şəhərində yerləşəcək hissə və bölmələr dəqiqləşdirildi. Həmin qüvvələrə bir piyada taboru, 400 nəfərlik süvari və bir topçu batareyası daxil idi. Bütün bu qüvvələrə 1-ci Tatar süvari alayının komandiri polkovnik Ağalarov rəhbərlik edirdi. Polkovnik Ağalarova eyni zamanda Bakı qornizonunun rəisi vəzifəsi həvalə olunmuşdu. Aprelin 5-də həmin qüvvələr Bakıya daxil oldu və Salyan kazarmalarında yerləşdirildi. Bakıya Azərbaycan qoşun hissələrinin daxil olması münasibətilə Hərbi nazir S.Mehmandarov da Bakıya gəlmişdi. Şəhər əhalisi Azərbaycan Ordusunun qoşun hissələrini çox böyük təntənə ilə qarşıladı. Çoxları inana bilmirdi ki, qısa müddət

ərzində Azərbaycan özünün mübariz qoşun hissələrini formalaşdıra bilmişdir

Azərbaycan Ordusunun hissələrini qarşılayan şəhər camaatının izdihamlı mitinqi keçirildi. Həmin mitinqdə H.Z.Tağıyev çıxış edərək belə bir ordunun yaradılması münasibətilə S. Mehmandarovu təbrik etdi və öz sevincini bildirdi .

S.Mehmandarovun qərarı ilə 2-ci Bakı piyada alayının 2-ci taborunun bazasında yeni bir alayın yaradılmasına başlandı. Eyni zamanda Əlahiddə Zaqatala taborunun da alaya çevrilməsi üçün qərar qəbul edildi. Burada iş daha tez başa çatdırıldı. Taborun rəhbərliyinin sə'yləri tezliklə özünün müsbət nəticəsini verdi. Hərbi nazirin 1 iyun 1919-cu il tarixli 275 saylı əmri ilə Əlahiddə Zaqatala taboru 4-cü Zaqatala alayı adlandırıldı və 1-ci piyada diviziyasının tərkibinə daxil edildi. Polkovnik Ə.Dibirov alayın komandiri vəzifəsində saxlanıldı.

Bakıda yaradılmasına başlanılan alayın formalaşdırılması isə iyun ayının axırlarına başa çatdı.

Səməd bəy Mehmandarovun 25 iyun 1919-cu il tarixli 311 saylı əmri ilə Bakıda yaradılan yeni alay 5-ci Bakı piyada alayı adlandırıldı. Əvvəlcə mövcud olan 2-ci Bakı alayının isə adı dəyişdirilib 2-ci Quba alayı adlandırıldı. Hərbi nazirin yanında tapşırıq üzrə ştabs-zabit, podpolkovnik İsrafilov yeni yaradılan 5-ci Bakı alayının komandiri tə'yin edildi və onun qarşısında alayın tam təşkilini tezliklə başa çatdırmaq vəzifəsi qoyuldu. Bu alayın qərargahı Bakıda yerləşməli idi .

Hərbi nazirin 14 iyul 1919-cu il tarixli əmrinə əsasən Zaqatala və Quba alaylarının nömrələri dəyişdirildi. Zaqatala alayı 2-ci piyada alayı, Quba alayı isə 4-cü piyada alayı adlandırıldı. 1-ci piyada diviziyasının tərkibinə 1-ci Cavanşir piyada alayı, 2-ci Zaqatala piyada alayı və 3-cü Gəncə piyada alayı daxil edildi. 2-ci piyada diviziyasının tərkibinə isə 4-cü Quba və 5-ci Bakı piyada alayları daxil edildi. 1-ci piyada diviziyasının qərargahı Bakıda tə'sis edildi. 1-ci piyada diviziyasının komandiri general-mayor C.Şıxlinski idi. 2-ci piyada diviziyasının komandiri isə Hərbi Nazirliyin tapşırıq generalı, general-mayor Usubov tə'yin edildi .

Avqust ayında artıq 6-cı piyada alayının da təşkili başa çatdırılmışdı. Bu alay Göyçay alayı adlandırılıb 2-ci piyada diviziyasının tərkibinə daxil edilmişdi .

Piyada diviziyalarının hər birinin tərkibi üç alaydan ibarət nəzərdə tutulmuşdu. Alayların hər biri 3 minədək şəxsi hey'ətdən ibarət olmalı idi. Hər alay 3 tabordan, hər tabor isə dörd piyada bölüyündən və bir pulemyot bölüyündən təşkil edilməli idi. Hər pulemyot bölüyünün tərkibində 8 pulemyot var idi. Bundan başqa, alaylarda bir süvari kəşf bölüyü, bir piyada kəşf bölüyü, bir istehkam bölüyü, bir rabitə-telefon bölüyü və bir qeyri-nizami bölük var idi. Taborun şəxsi hey'ətinin sayı 1000 nəfər idi .

Süvari diviziyası da üç alaydan təşkil edilmişdi. Həm diviziya, həm də alayın qərargahının ştatında xeyli az adam var idi. Bu da həmin şəxslərdən daha çevik və səmərəli iş tələb edirdi. Süvari diviziyasının komandanlığı diviziya komandirindən (rütbə kateqoriyası – general-leytenant və ya general-mayor), diviziya komandirinin müavinindən (general-mayor), qərargah

rəisindən (polkovnik), baş yavərdən (podpolkovnik və ya rotmistr), ləvazimat zabitindən, süvari- istehkam xidmətinin rəisindən və mülki şəxs olan diviziya həkimindən ibarət idi .

Süvari alayının qərargahı isə alay komandirindən (rütbə kateqoriyası–polkovnik), üç nəfər qərargah zabitindən (rütbə kateqoriyası–podpolkovnik, həmin zabitlərdən biri nizami xidmət üzrə, biri təsərrüfat hissəsi üzrə idi, biri isə kiçik qərargah zabiti idi), bölük komandirlərindən (rotmistr, ştabs-rotmistr, süvari bölüyü komandiri, bir pulemyot bölüyü komandiri), alay yavərindən (ştabs- rotmistr və ya rotmistr), alay yavərinin rabitə xidməti üzrə köməkçisindən, tə'lim komandasının rəisindən (ştabs-rotmistr və ya rotmistr), köməkçi və kiçik zabitlərdən ibarət idi. Bunlardan başqa alayın qərargahında mülki şəxslərdən ibarət bir həkim, bir baytar həkimi, təsərrüfat üzrə kargüzar, xəzinədar, kvartirmeyster, silah ustası və molla da var idi. Hər süvari bölüyü 288 süvaridən və 20 piyadadan ibarət idi. Pulemyot bölüyündə 48 adam, rabitə komandasında 40 adam var idi. Bütünlükdə süvari alayında 28 zabit, 7 nəfər mə'mur, 680 əsgər və 29 muzdlu sıravi var idi .

1919-cu ilin yayında və payızında Azərbaycan Ordusu hissələrinin formalaşdırılması böyük sür'ətlə davam etdirilirdi. Bu dövr qoşun hissələrinin yaradılmasında ən məhsuldar dövr sayıla bilər. Tarixi şərait, bir tərəfdən Denikin qoşunlarının hücum təhlükəsi, digər tərəfdən də millətçi-erməni qoşun dəstələrinin və könüllülərinin Zəngəzur və Qarabağda xeyli fəallaşması Azərbaycandan öz ərazilərinin silahlı müdafiəsinə daim hazır olmağı tələb edirdi. Şimaldan gözlənilən Denikin təhlükəsinin qarşısını almaq üçün nazirin əmri ilə Xaçmaz dəstəsi yaradıldı. Onun tərkibinə Quba alayı, 3-cü Gəncə piyada alayının bir taboru, 1-ci Tatar süvari alayı, 1-ci topçu briqadasının 2-ci divizionu, İstehkam məktəbi və dəstənin qərargahı daxil idi . Bu dəstə 2-ci piyada diviziyasının təşkilindən azacıq əvvəl yaradılmış və general-mayor Usubov onun rəisi tə'yin edilmişdi . General-kvartirmeyster vəzifəsinin müvəqqəti icraçısı podpolkovnik Zeynalov isə dəstənin müvəqqəti qərargah rəisi tə'yin edilmişdi. Sonradan Zeynalov tamamilə bu ştat vəzifəsinə keçirildi.

1919-cu ilin iyun ayının son günləri və iyulun əvvəllərində Hərbi Nazirliyin rəhbər orqanlarıBakıya köçürüldü. Hərbi Nazirliyin aparatı, Ümumi qərargah və Ərkani-hərb Bakıda Krasnovodsk və Merkuriküçələrinin (indiki S.Vurğun küçəsi və Azərbaycan prospektinin) kəsişməsində olan binada yerləşdirildi .

1919-cu ilin iyul-avqust aylarında Əlahiddə qaubitsa batareyasının, Süvari-dağ batareyasının, 1-ci topçu briqadasının, 6-cı dağ batareyasının, 2-ci topçu briqadasının, 2-ci yüngül və 1-ci dağ batareyasının təşkili davam etdirilirdi.

Avqust ayında Lənkəranda anarxiya və özbaşınalıqları aradan qaldırmaq, orada Azərbaycan hökumətinin hakimiyyətini bərqərar etmək üçün xüsusi Lənkəran dəstəsi təşkil edildi . Bu dəstə ona verilən tapşırıqları icra edib başa çatdırdıqdan sonra elə avqust ayında Lənkaranda köməkçi (ehtiyat) piyada taborunun təşkil edilməsi qərara alındı. Kapitan Rəfibəyov bu taborun komandiri tə'yin edildi, tabor özü isə 2-ci piyada diviziyasının tərkibinə daxil edildi .

1919-cu ilin avqust ayındı 6-cı Göyçay piyada alayının da təşkilinə başlandı. Bakının Bayıl hissəsində yerləşməli olan bu alayın komandiri vəzifəsinə polkovnik Əfəndiyev tə'yin edildi və alayın formalaşdırılması ona tapşırıldı .

1919-cu ilin avqustunda Hərbi Nazirliyin idarəetmə orqanlarının strukturlarında da bir sıra dəyişikliklər edildi. 2-ci zirehli qatarın təşkili başa çatdırıldıqdan sonra həm 1-ci, həm də 2-ci zirehli qatarlar Ümumi qərargahın tabeçiliyindən çıxarıldı və onlar Ərkani-hərbin General-kvartimeyster şö'bəsinə tabe etdirildi. Həmin qatarlar müəyyən vəzifənin icrası üçün bu və ya digər dəstənin tərkibinə verildikdə əməliyyat baxımından onlar bu dəstənin komandanlığına tabe olmalı idilər .

1919-cu ilin sentyabr ayında Bakı hərbi limanının, təyyarə dəstəsinin, zirehli avtomobillər taqımının, mövqe batareyasının ştatlarının hazırlanmasına başlandı .

Senyabrın 14-dən təyyarə dəstəsinin və zirehli avtomobillər dəstəsinin, sentyabrın 24-dən mövqe batareyasının, oktyabrın 1-dən isə "Astarabad" hərbi gəmisinin ştatları qüvvədə sayıldı .

6-cı Göyçay piyada alayının formalaşdırılması da böyük sür'ətlə aparılırdı. Qışlaların çatışmaması, geyim, ərzaq çətinlikləri olmasına baxmayaraq 1919-cu il oktyabrın sonuna qədər alayın təşkili demək olar ki, başa çatdırılmışdı .

1919-cu ilin sonlarında 8-ci Ağdaş piyada alayının və Zəngəzurda kürd əhalisindən ibarət xüsusi hərbi hissələrin formalaşdırılmasına başlanması planlaşdırılırdı .

Bütün bu təşkilati işləri həyata keçirməklə Hərbi Nazirlik 1919-cu ilin sonunadək Azərbaycan Ordusunun şəxsi hey'ətiinin sayını 20 min nəfərə, ordudakı atların sayını isə 5 min başa çatdırmağı nəzərdə tuturdu. 1920-ci il üçün davam etdiriləcək təşkilati işlər ordunun sayını daha da artırmalı və onu 40 min nəfərə çatdırmalı idi. Nəzərdə tutlmuşdu ki, ilin sonunadək atların sayı 10 min baş olacaqdır .

Ordunun sayının il ərzində iki dəfə artırılmasına nail olmaq üçün 1920-ci ilin elə ilk günlərindən çox geniş quruculuq işlərinin aparılması planlaşdırıldı. Tərtib edilmiş fəaliyyət planına görə il ərzində aşağıdakı hissələr yaradılmalı idi: 1) 9-cu piyada alayı, 2) 9-cu piyada alayının yaradılması ilə 3-cü piyada diviziyasının qərargahı təşkil edilməli, 7-ci Şirvan, 8-ci Ağdaş və 9-cu piyada alayları bu diviziyaya tabe etdirilməli idi; 3) 4-cü süvari alayı; 4) iki qaubitsa batareyası; 5) qaubitsa divizionunun qərargahı; 6) bir dağ-süvari batareyası; 7) dağ-süvari divizionunun qərargahı; 8) üç batareyadan ibarət yüngül səhra divizionu və onun qərargahı; 9) hər biri bir bölük həcmində olan dörd məhəlli komanda və hər biri yarım bölükdən ibarət olan üç məhəlli komanda. Bu məhəlli komandalar səfərbərlik idarələrinin yanında yaradılmalı və çağırışçıların xidmət yerinə çatdırılması ilə məşğul olmalı idi .

1920-ci il istər Azərbaycan xalqının, istərsə də Azərbaycan Ordusunun həyatında çox mürəkkəb bir il idi. Azərbaycan Ordusunun rəhbərliyi bu il üçün böyük tədbirlər planı müəyyənləşdirib onun həlli ilə məşğul olsa da, 1920-ci ilin aprelində baş verən bolşevik işğalı onu yarımçıq qoydu. İlin dörd ayı ərzində

görülən işlər də çox mürəkkəb bir şəraitdə həyata keçirilirdi Erməni təcavüzü praktiki olaraq ilin əvvəlindən ara vermirdi. Mart ayının üçüncü ongünlüyündən isə bu təcavüz açıq müharibəyə çevirildi. Ona görə də 1920-ci ildə ordu quruculuğu, onun möhkəmləndirilməsi və sıralarının genişləndirilməsi üçün nisbətən münasib şərait ilk üç ayda mövcud oldu. Bu üç ayın birinci ayını da S.Mehmandarov xidmətdə olmamışdı. Xəstəliyi ilə bağlı hərbi nazir bütünlükdə ordunu tərk etmək fikrində olduğunu bildirsə də 1920-ci il fevral ayının əvvəllərində öz vəzifəsinin icrasına qayıtdı. Heç şübhəsiz ki, bu fakt özü də ordunun quruculuq prosesinə öz tə'sirini göstərməyə bilməzdi.

1920-ci ildə çağırış-səfərbərlik kampaniyasını 1920-ci il martın 15-dən başlamaq planlaşdırılmışdı. Yeni çağırış kampaniyasının uğurlu keçirilməsi ordunun say tərkibinin artırılmasına, yeni hərbi hissələrin yaradılmasına imkan verə bilərdi. Lakin 1920-ci il martın 20-dən erməni qoşunlarının Qarabağda kütləvi hücumu qarşıya qoyulan bir sıra vəzifələrin həyata keçirilməsinə mane oldu. Belə bir şəraitdə yeni hərbi hissələrin yaradılmasından daha çox, mövcud hissələrin canlı itkilərinin bərpa edilməsi böyük aktuallıq kəsb edirdi. Bütünlükdə 1920-ci ilin ilk bir neçə ayı daha çox ordunun idarəetmə strukturlarının təkmilləşdirilməsinə cəhd göstərilməsi ilə xarakterikdir. Bu da hər şeydən əvvəl idarəetmə strukturlarının fəaliyyətinin səmərəliliyinin artırılması ilə, onlarda yaranan bürokratik ünsürlərin aradan qaldırılması ilə bağlı idi. Hərbi nazirin 1920-ci ilin 14 fevral tarixli 99 saylı əmri bu baxımdan səciyyəvidir. Orduda mövcud olan nöqsanlı hallara toxunaraq o bildirirdi: "Ordu hissələrinin, idarələrinin və müəssisələrinin çoxunun yaradılmasından artıq bir ildən çox keçmişdir. Qoşun hissələrinin həyatını normal hala salmaq üçün bu müddət tamamilə kifayətdir. Təəssüf ki, həqiqətdə mən bunu görmürəm".

Hərbi nazirin başlıca iradı qoşun hissələrinin iaşə və ərzaqla tə'minatında yol verilən laqeydlik və biganəliklərlə bağlı idi. O, hissələrdə şəxsi hey'ətin ərzaq sarıdan korluq çəkməsini obyektiv çətinliklə deyil, Ləvazimat İdarəsinin bu xidməti təşkil edə bilməməsi, bu xidmətin təşkilinə məs'ul olan orqanların öz işləkliyini itirməsi ilə bağlayırdı. Nazirin fikrincə, Ləvazimat İdarəsi və onun diviziyalardakı nümayəndələri sənədləşmə aparmaqla işlərini bitmiş hesab edir və məs'uliyyət daşıdıqları işin əhatəli təşkilinə maraq göstərmirdilər. Buna görə də S.Mehmandarov bu xidmət sahəsinin yenidən qurulmasının, bürokratik əngələ çevrilən artıq elementlərin ixtisar edilməsinin zəruriliyini vurğulayırdı . Heç şübhəsiz ki, 1920-ci ilin fevral ayında idarəetmə strukturlarında əsaslı yenidənqurmaya başlanmasında hərbi nazirin Ləvazimat İdarəsinin fəaliyyətindən aldığı təəssüratı da öz rolunu oynamışdı.

1919-cu ilin sonu 1920-ci ilin əvvəlində Azərbaycan Ordusunun bir neçə hərbi gəmisi də var idi. Mə'lumdur ki, ingilis qoşunları Bakıya gələn kimi Xəzər donanmasını ələ keçirmiş və Bakını tərk etdikdə isə bu donanmanı Denikinin sərəncamına vermişdi. Denikin və onun ətrafındakılar Xəzər donanmasının Azərbaycanın səlahiyyətlərinə verilməsinə hər vasitə ilə mane olurdular. Ona görə də Azərbaycan müstəqilliyinin e'lan edilməsinin ilk günündən özünün donanmasını yaratmaq imkanına malik deyildi. 1919-cu ilin sonu

və 1920-ci ilin əvvəllərində Azərbaycan donanmasında "Qars" və "Ərdahan" hərbi gəmiləri və "Astrabad", "Araz", "Nargin" və s. köməkçi gəmiləri var idi .

Mövcud olan mə'lumatlara görə, 1920-ci ilin aprelində, bolşevik işğalı ərəfəsində Azərbaycan Ordusunun şəxsi hey'ətinin sayı 30 min nəfərə yaxın idi. Bu şəxsi hey'ət əsasən iki piyada diviziyada birləşmiş olan 1-ci Cavanşir, 2-ci Zaqatala, 3-cü Gəncə, 4-cü Quba, 5-ci Bakı, 6-cı Göyçay, 7-ci Şirvan, 8-ci Ağdaş piyada alaylarında, Süvari diviziyasında birləşmiş olan 1-ci Tatar, 2-ci Qarabağ, 3-cü Şəki süvari alaylarında və iki topçu briqadasında cəmlənmişdi.

## MEHMANDAROVUN SİDAHDAŞLARI

Cümhuriyyət ordusunun qısa vaxt ərzində səmərəli yol keçməsinin, Azərbaycanın o vaxtkı tarixi şəraitində çox tez bir zamanda kifayət qədər döyüş potensialı qazanmasının başlıca səbəblərindən biri də qoşun hissələrinə savadlı və bacarıqlı generalların və zabitlərin rəhbərlik etməsi idi. Mehmandarovun ətrafına toplaşmış generallar, yüksək rütbəli zabitlər demək olar ki, hamılıqla onun özü kimi işgüzar, xidməti vəzifəyə sədaqətli və tələbkar idilər. Səməd bəyin təşkilatçılıq qabiliyyəti öz əməli ifadəsini bu insanların şəxsində tapırdı. Mehmandarov hərbi nazir kimi bu silahdaşlarına arxalanırdı və onların Səməd bəyin hərbi xəttini həyata keçirmək istiqamətində səmərəli fəaliyyəti olmasaydı bəlkə elə Səməd bəyin də sərkərdəlik qabiliyyəti tamamilə açıla bilməzdi. Böyük və möhtəşəm planları da yalnız böyük və möhtəşəm potensiala malik olan insanlar həyata keçirə bilərdilər. Mehmandarovun ideyaları, ordu quruculuğu xətti öz ifadəsini silahdaşlarının səmərəli fəaliyyətində tapdığı kimi, həmin insanların bacarıq və qabiliyyəti, komandirlik istetadı məhz Mehmandarov kimi bir sərkərdənin təşkilatçılığı altında da parlaq şəkildə işıq saçmağa başladı. Yəni Səməd bəy Mehmandarov özü təşəbüskar və işgüzar olduğu kimi, tabeliyində olanların da təşəbbüskarlığına və işgüzarlığına daha geniş meydan verirdi. Milli mənafeyə xidmət edə biləcək hər bir işi, hər bir zabiti Səməd bəy müdafiə edir və bu sahədəki nəticələrin daha da artmasına çalışırdı. Bu baxımdan Mehmandarov və onun silahdaşlarını bir-birini tamamlayırdılar. Səməd bəyin Azərbaycan xalqı qarşısında, Azərbaycanın hərb tarixi qarşısında dəyərli xidmətlərindən biri budur ki,o öz ətrafına uzun əsrlər boyu nəsillərə nümunə olacaq generalları, zabitləri toplamış və həmin insanların öz xalqına xidmət yolunda bütün potensialının reallaşdırılması üçün imkan yaratmışdı. Ola bilsin ki, həmin generalların və zabitlərin bir-çoxlarının adları və fəaliyyətləri oxuculara kifayət qədər bəlli deyildir. Bu heç də onların doğrudan da böyük şəxsiyyət olmalarını şübhə altına almamalıdır. Mehmandarovunsilahdaşlarının dəyərli xidmət yolu o vaxt bütünlüyü ilə bəlli olacaq ki, həmin xidmət yolu layiqincə öyrəniləcəkdir. Heç şübhəsiz ki, bu məsələ də vaxt ötdükcə öz həllini tapacaqdır. Hər bir xalqın da böyüklüyü və müdrikliyi ondadır ki, o öz əcdadlarına olan borcunu qaytarır. Mehmandarovun silahdaşlarının xidmət yolunun öyrənilməsi elə Səməd bəyin özünün fəaliyyətinin

ayrı-ayrı tərəflərinin öyrənilməsi deməkdir. Ona görə də mövzu daxilində Mehmandarovun bir-sıra silahdaşlarının xidmət yoluna nəzər salınması Səməd bəyin təşkilatçılıq imkanlarının, kadrlarla işi necə qurmaq istedadını daha geniş təsəvvür etməyə zəmin yaradardı. Sözsüz ki, Mehmandarovun aşağıda adları çəkilən silahdaşlarının bütün həyatlarını və xidmət yollarını izləmək mövzudan kənar a çıxxmaq olardı. Ona görə də bu insanların əsasən Cümhuriyyət dövründə Səməd bəylə birgə fəaliyyətləri müxtəsər olaraq qələmə alınmışdır.

### Əliağa Şıxlinski

Səməd bəy Mehmandarovun silahdaşlarından danışdıqda ilk növbədə göz önünə general Əliağa Şıxlinski gəlir. Bu iki böyük hərbçi Azərbaycanın nizami hərbinin ən işıqlı simalarındandır. Onların birgə xidməti isə bu sərkərdələrin həyatlarının ən maraqlı səhifələridir.

Əliağa Şıxlinski Cümhuriyyət dövründə Səməd bəyin müavini olmaqla bərabər həm də onun sağ əli idi. Səməd bəy Ə.Şıxlinskinin işıqlı zəkasını, hərbçilik istedadını və nəhayət insani keyfiyyətlərini yüksək qiymətləndirirdi. Səməd bəy Ə.Şıxlinskinin bilik və təcrübəsindən özü bəhrələndiyi kimi, ordu quruculuğunda da ondan geniş istifadə edilirdi. Ordu quruculuğu prosesinin elmi-praktiki biliklər tələb edən məsələlərinin həlli əsasən Ə.Şıxlinskiyə həvalə edilirdi və həmin məsələlərin keyfiyyətlə həll ediləcəyinə də Səməd bəydə heç vaxt şübhə olmazdı. Səməd bəy insani qısqanclıqdan həmişə uzaq olmuşdu və vaxtilə rastlaşdığı bir-çox hərbçilərdən fərqli olaraq o, Ə.Şıxlinski kimi bir hərçi ilə birgə xidmət etməyi nəinki karyerasına təhlükə saymamış, əksinə onun nazir müavini olmasını təkidlə Cümhuriyyət hökuməti qarşısında qaldırmışdı. Səməd bəy bilirdi ki, Ə.Şıxlinski bütünlükdə Nazirliyin yükünü öz üzərinə götürməyə qadir olan bir şəxsdir və onun xidmət başında olması xalqına yalnız fayda verə bilər. Nazirlikdə olmadığı vaxtlarda da Səməd bəy nazir vəzifəsinin icrasını Ə.Şıxlinskiyə həvalə edərdi. Cümhuriyyət dövründə hərbi nazirin vəzifəsini digər generallar da icra etmişlər. Ancaq bu o zaman olurdu ki, həm Mehmandarov, həm də Ə.Şıxlinski xidməti ezamiyyətdə olurdular.

General Ə.Şıxlinskinin Cümhuriyyət ordusunun təşkilində çox böyük xidmətləri vardır. Onun komandanlığı altında yaradılmış Müsəlman korpusunun və Azərbaycan korpusunun tarixinə toxunmadan qeyd etməklazımdır ki, ilk milli peşəkar milli hərbi məktəbin təşkili də əslində Ə.Şıxlinskinin adı ilə bağlanmalıdır. Gəncədə açılan bu məktəbin-Milli hərbiyyə məktəbinin işə başlaması çox vaxt tarixi ədəbiyyatda türk hərbçilərinin fəaliyyəti ilə bağlanılır. Sözsüz ki, Milli hərbiyyə məktəbinin fəaliyyətə başlamasında, ilk milli hərbi kadrların hazırlanmasında türk hərbçilərinin böyük zəhmətini qiymətləndirməmək olmaz. Ancaq ədalət naminə o da bildirilməlidir ki, Milli hərbiyyə məktəbinin əsası Ə.Şıxlinskinin tərəfindən qoyulmuşdur. Bu məktəbin təşkili üçün Ə.Şıxlinski Müsəlman korpusunun komandiri kimi 1918-ci ilin əvvəllərində əmr vermişdi. Məktəb Bakıda açılmalı idi. Sonradan Bakıda hərbi şəraitin mürəkkəbləşməsi üzündən onun Gəncədə təşkili qərara alındı.1918-ci ilin aprel ayında nəhayət ki,

bu məktəb Gəncədə fəaliyyətə başladı. Lakin hərbi şəraitin enidən mürəkkəbləşməsi üzündən məktəb bağlandı və onun müəllim və rəhbərliyi cəbhəyə göndərildi. Bu məktəb bir də Cümhuriyyətin istiqlalı elan edildikdən sonra fəaliyyətə başladı.

Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsini Ə.Şıxlinski sevinclə qarşılamışdı. O, yaxşı bilirdi ki, müstəqil dövlətin möhkəm ordusu olmalıdır. Ona görə də o, dərhal Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi Nazirliyinin təşkili barədə öz mülahizələrini ümumiləşdirərək geniş bir layihə hazırladı. Lakin ilk hökumət böhranından sonra Hərbi Nazirliyin ləğv edilməsi ilə Ə.Şıxlinskinin layihəsinə də ehtiyac aradan qalxdı. Ancaq Hərbi Nazirlik bərpa ediləndən sonra Ə.Şıxlinski 13 dekabr 1918-ci ildə öz layihəsini Səməd bəy Mehmandarova təqdim etdi. Həmin sənədin təhlili qoşun hissələrinin idarəetmə sisteminin təşkilində Ə.Şıxlinskinin böyük təcrübəyə malik olduğunu göstərir. Ə.Şıxlinski bu layihəni hazırlayarkən Rusiya ordusunun təcrübəsini əsas götürsə də yerli şəraiti və mövcud imkanları da nəzərə almışdı ki, bu da layihənin reallığını artırmışdı. Əliağa bəyin qeydlərindən aydın olur ki, o öz layihəsinə zəruri sxemləri və şərhləri də əlavə etmişdi.

Ə.Şıxlinskiyə görə Hərbi Nazirliyin strukturu ordunun təşkili, təlim və tərbiyəsi, təchizatı üçün zəruri olan bütün komponentləri özündə irləşdirməli idi. Bu prinsipi əsas götürərək general hazırladığı layihədə Nazirliyin strukturunu belə təsəvvür edirdi: 1) Dəftərxana, 2) Ərkani-hərb (Baş qərargah), 3)Ləvazimat idarəsi, 4) Topçu idarəsi, 5) Hərbi-texniki idarə, 6)Məhkəmə və tibb xidməti. bundan əlavə güman edilirdi ki, hərbi nazir vəzifəsinə mülki şəxs təyin edilərsə o öz yanında az saylı, lakin bacarıqlı şəxslərdən ibarət Hərbi Şura təşkil etməli və qoşunların təşkilini, təlim və tərbiyəsini daimi nəzarət altında saxlamaq üçün özünə müavin təyin etməlidir.

Layihəni hazırlamaqla bərabər general ə,Şıxlinski göstərilən vəzifələrə kimlərin təyin oluna bilinməsini də dəqiqləşdirmiş və həmin şəxslərin razılığını almışdı. O,Nazirliyin Dəftərxanasının işinin təşkilinə xüsusi diqqət yetirir və bu işi təşkil etmək üçün Rusiya Hərbi Nazirliyində uzun müddət çalışmış Genşelmanın dəvət edilməsini məsləhət bilmişdi.

Ordunun idarəetmə orqanlarının çevikliyinə, ayrılmış maliyyə vəsaitlərinin istifadə edilməsində qənaətcilliyiə nail olaq üçün Ə.Şıxlinski Azərbaycan korpusunun qərargah və idarələrinin ləğv edilməsini və burada xidmət edən zabitlərin isə Hərbi Nazirliyin aparatının təşkilində istifadə edilməsini lazım bilirdi. O, döyüş keyfiyyətləri ilə seçilən yapon ordusunu nümunə gətirərək göstərirdi ki, bu orduda heç vaxt korpus sistemi olmamışdır. Ona görə Azərbaycanda da korpusun saxlanmasına heç bir ehtiyac duymurdu və diviziyaların birbaşa nazirin özünə tabe etdirilməsini məqsədəuyğun bilirdi. Zabit kadrlarının çatışmadığı üçün Ə.Şıxlinski yeni Nazirliyin idarə və şöbələrinin ştatının da mövcud imkanlara uyğun olaraq qurmağı məsləhət görürdü.

Bütün bunlar Hərbi Nazirliyin yaradılması üçün Ə.Şıxlinskinin hazırladığı birinci layihənin əsasını təşkil edirdi. Bundan başqa o, ikinci bir layihə də hazırlamışdı. Həmin layihəyə görə hərbi nazir mülki şəxs olardısa onun yavər və

katibləri üçün kiçik bir ştat olmalı idi. Belə olduğu halda korpus komandiri həm də hərbi nazirin müavini təyin edilməli və hərbi məsələlərlə bağlı hökumət orqanlarında aparılan bütün müzakirələrdə nazirlə birlikdə iştirak edərək həlledici səsə malik olmalı idi. Yəni hərbi nazarin mülki şəxs olması ilə bağlı sırf hərbi xarakterli məsələlərin müzakirəsinin və icrasının ağırlıq mərkəzi əsasən korpusun komandanlığı üzərinə keçirilməli idi.Bununla bağlı olaraq bəzi hərbi vəzifələrin, o cümlədən çağırış və səfərbərlik, təchizat məsələlərinin öz üzərinə götürəcək ştatların Hərbi Nazirliyin aparatında deyil,korpusun qərargahında açılması təklif olunurdu.

Ancaq Ə.Şıxlinski birinci layihəyə daha çox üstünlük verirdi. Bu layihənin tətbiq edilməsi böyük qıtlığı hiss olunan zabitlərin, çin dərəcəsi olan məmurların səmərəli istifadəsinə, maliyyə vəsaitlərinin qənaətlə işlədilməsinə, aralıq idarəetmə orqanlarının ləğvinə və bununla da bütünlükdə idarəetmənin çevik xarakter almasına yol aça bilərdi. Bir sözlə Hərbi Nazirliyin yaradılmasından sonra Ə.Şıxlinski Azərbaycan korpusunun bir struktur kimi saxlanılmasına heç bir ehtiyac görmürdü və onun bu qənaəti Səməd bəy Mehmandarov tərəfindən də dəstəkləndi. Səməd bəy yaxşı anlayırdı ki, mövcudluğu zərurət doğurmayan korpusun ləğv edilməsi ilə oradakı zabitlərdən ordu quruculuğu sahəsində daha səmərəli istifadə etmək olar.

Hərbi Nazirliyin təşkili barədə layihəni təqdim etməklə bərabər Ə.Şıxlinski 1918-ci il dekabr ayının 13-də Azərbaycan hökumətinin sədi F.Xoyskiyə ordu sıralarından tərxis olunması barədə raport təqdim etdi. Bu raportda Ə.Şıxlinski göstərirdi ki, komandiri olduğu Azərbaycan korpusunun ləğvinin məqsədəuyğunluğu, habelə keçirmiş olduğu ağır xəstəliklə bərabər onun tutduğu vəzifədən azad olunmasını, korpus komandiri maaşını saxlamaqla qüvvəsinin bərpa olunacağı vaxta kimi hökumətin sərəncamına verilməsini xahiş edir.

Məlumdur ki, Ə.Şıxlinski ordudan tərxis edilmədi və daha məsuliyyətli bir vəzifədə daha böyük işgüzarlıqla öz fəaliyyətini davam etdirdi. Ancaq belə bir fikir ortaya çıxır ki, Ə.Şıxlinski doğrudanmı yuxarıdakı raportunu yalnız səhhətinə görə yazmışdı? Ola bilsin ki, Əliağa bəy S.Mehmandarovun nazir təyin edilməsindən sonra onun xidmətinin lazımlılığına diqqətin azaldığını güman edirmiş və ona görə də yeni yaradılmış Nazirliyin yeni rəhbərliyinin kadr seçimində daha sərbəst olması üçün istefa ərizəsi yazmışdı. Lakin Səməd bəy Mehmandarov Ə.Şıxlinskinin savadını, istedadını çox yüksək qiymətləndirirdi və Azərbaycanın yeni ordusunu qurmaq sahəsindəki fəaliyyətini də Şıxlinskisiz təsəvvür edə bilmirdi. Səməd bəy heç vaxt razı olmazdı ki, Ə.Şıxlinski kimi bir şəxsiyyətin elmi, biliyi və təcrübəsi istifadə edilməmiş qalsın. Buna görə dəo, Azərbaycan hökuməti qarşısında vəsatət qaldırdı. Bu vəsatət Ə.Şıxlinskinin yuxarıda haqqında danışılan layihəsindən və və istefa raportundan əvvəl qaldırılmışdı. Ancaq vəsatətin məzmunundan görünür ki, Səməd bəy Ə.Şıxlinskinin Hərbi Nazirliyin təşkili haqqındakı layihəsindən əvvəlcədən xəbərdar imiş. Özü də həmin vəsatət qaldırılanda, yəni 1918-ci il noyabrın 25-də Səməd bəy hələ hərbi nazir yox, onun müavini idi. Səməd bəy yazırdı ki, Ə.Şıxlinskinin raportunu və məruzəsini təqdim edərək və müsəlman hərbçiləri

arasında ziyalı qüvvələrin böyük qıtlığını nəzərə alaraq onun hərbi nazirin ikinci müavini təyin edilməsi barədə vəsatət qaldırır. Səməd bəy vəsatətini onunla əsaslandırırdı ki, ən yaxın vaxtlarda hisələrin, idarələrin, anbarların vəziyyətini yoxlamaq üçün xidməti səfərlərdə olacaqdır. Onun xidməti ezamiyyətə yollandığı vaxt Nazirlikdə başqa bir müavinin olması zəruridir. Səməd bəy raportunda onu da yazırdı ki, Ə.Şıxlinskinin nazir müavini təyin edildiyi təqdirdə bütün texniki və hərbi təhsil müəssisələrinə müstəqimən rəhbərliyi ona tapşırmaq niyyətindədir.

Azərbaycan hökuməti Səməd bəyin vəsatətinə çox diqqətlə yanaşdı. 1918-ci il dekabr ayının 25-də Səməd bəy Mehmandarov hərbi nazir, dekabrın 29-da isə Ə.Şıxlinski hərbi nazirin müavini təyin edildilər. Lakin Ə.Şıxlinskinin səhhəti ilə bağlı narahatçılığı da deyəsən heç də əbəs deyilmiş. O,Gəncədə yararsız mənzil şəraitində yaşayırdı. Bununla bağlı Ə.Şıxlinski Ümumi Qərargahın rəisi Həbib bəy Səlimova məktub göndərərək xahiş edirdi ki, onun mənzil şəraitinin yaxşılaşdırılmasına diqqətlə yanaşsın. Ə.Şıxlinski narahatçılıqla bildirirdi ki, «indiki rütubətli mənzildə mən 2-3 həftə yaşasam buradaca ölərəm».

S.Mehmandarov nazir müavini təyin edildiyi gündən Ə.Şıxlinskiyə bir-sıra məsul vəzifələr tapşırdı. 3 yanvar 1919-cu il tarixli əmri ilə S.Mehmandarov qoşun hissələrinin, idarələrin və müəssisələrin ştatlarının, maaş cədvəllərinin hazırlanması üçün komissiya təyin etmişdi. Komissiyanın işinə Ə.Şıxlinski rəhbərlik etməli idi. Komissiyaya əlavə olaraq Azərbaycan ordusunun şəxsi heyətinin geyim formasının layihəsini hazırlamaq həvalə olunmuşdu. Verilən tapşırıqlar həmin il yanvar ayının 31-nə kimi yerinə yetirilməli və müvafiq sənədlər nazirin təsdiqinə təqdim edilməli idi.

18 yanvar 1919-cu il tarixli növbəti əmrində S.Mehmandarov göstərirdi ki, müavinim general-leytenant Ə.Şıxlinskiyə xüsusi qoşun növləri olan artilleriya və istehkam hissələrinə, habelə hərbi-təhsil və texniki müəssisələrə, artilleriya və istehkam anbarlarına yüksək nəzarət vəzifəsi həvalə olunur. Nazir əmrində tələb edirdi ki, artilleriya və istehkam qoşunlarının bütün hissələrində, hərbi təhsil müəssisələrində təlim və tərbiyənin düzgün təşkilinə nail olunsun.

Bu məsələlərdə Ə.Şıxlinskinin ölçüyə gəlməz bir təcrübəsi var idi. Ona görə də hərbi nazir həmin məsələləri Ə.Şıxlinskiyə həvalə edirdi. Bir qədər irəliyə gedərək qeyd etmək lazımdır ki, o bu vəzifənin öhdəsindən bacarıqla gəldi və cümhuriyyət ordusunun xüsusi qoşunlarının tezliklə formalaşdırılmasında, təhsil müəssisələrinin fəaliyyətinin yüksək səviyyədə qurulmasında Ə.Şıxlinskinin çox böyük rolu var idi.

Səməd bəy Mehmandarovla uzunillik tanışlığına baxmayaraq Ə.Şıxlinski onun tapşırıqlarına əsil zabit ciddiliyi ilə yanaşırdı və şəxsi tanışlıqdan istifadə edərək hər hansı bir sərbəstliyə yol vermirdi. Bu iki şəxsin qarşılıqlı münasibətlərində hər iki sərkərdənin zabit bütövlüyü və prinsipiallığı bir daha nümayiş olunurdu. S.Mehmandarovun əmri ilə Azərbaycan ordusunun geyim formasının layihələrinin hazırlanması üçün bir ay vaxt ayrılsa da Ə.Şıxlinskinin işgüzarlığı və zəhmətsevərliyi nəticəsində həmin layihələr bir həftəyə hazır edildi. 1919-cu il yanvar ayının 11-də isə milli ordu üçün hazırlanmış geyim forması hərbi nazirin əmri ilə rəsmiləşdirildi.

Qeyd etmək lazımdır ki, Ə.Şıxlinskinin rəhbərlik etdiyi komissiyanın hazırladığı geyim forması tətbiq edilməzdən əvvəl hərbi nazir əmri ilə mövcud geyim formasında qismən dəyişiklik etmişdi. Bu dəyişiklik əsasən baş geyiminə aid idi. Nazir tələb edirdi ki, yeni geyim layihələrinə görə bütün fəsillərdə baş geyimi papaq nəzərdə tutulduğu üçün furajkalar istifaədədən götürülsün və yalnız papaqlardan istifadə edilsin.

Ə.Şıxlinskinin hazırladığı geyim forması aşağıdakı kimi idi:

A) Baş geyimi – piyada üçün sarı-qəhvəyi rəngli papaq. Papağın üstü də bu rəngdə, ancaq baftasız olmalı idi. Süvarilər,topçular, istehkam qoşunları və qərargahları üçün qara rəngli papaq müəyyənləşdirilmişdi. Papağın üstü də qara rəngdə, özü də baftasız olmalı idi. Papağın üst hissəsinin rəngi 1-ci süvari alayında – ağ, 2-ci süvari alayında-göy, 3-cü süvari alayında –qırmızı, 4-cü süvari alayında (yaradılsaydı – M.S.) – narıncı olmalı idi. Generallar və qərargah zabitləri piyadaların işlətdiyi papaqdan istifadə etməli idi. Zabitlər və əsgərlər üçün eyni papaq müəyyənləşdirilmişdi.

B) Frenç (əsgəri pencək). Azərbaycan zabitlərinin əksəriyyətinin istifadə etdiyi frençlər geyim forması kimi saxlanılırdı. Bu frençlər xaki rəngində olub sümükdən düymələrə malik idi. Frençin boyunluğu dik idi. Əsgərlər üçün Qafqaz nümunəli köynəklər tətbiq edilməli idi. İstifadədə olan frenç və kitellərin geyilməsinə icazə verilirdi. Bütün qoşun növlərindən olan zabitlər sıradan kənarda çərkəzi paltar geyinə bilərdilər.

V) Şalvar. Müsəlman Korpusunda istifadə edilən və boz-göy rəngdə bafta lampası olan şalvarların geyilməsi qəbul edilirdi. Əsgərlər bafta yerinə qayışdan istifadə etməli idilər. Səfərbərliyin başlanması ilə süvarilərdən başqa hamı xaki rəngli şalvar geyməli idi. Sıradan kənarda uzun şalvar geyilməsinə icazə verilirdi.

Q) Sırada zabitlər uzunboğaz çəkmədə olmalı idilər. Qısaboğaz çəkmələrin də qunc (ketr) ilə birlikdə geyilməsinə icazə verilirdi. Əsgərlər də uzunboğaz çəkmə və ya müvəqqəti hal kimi çarıq-patava geyməli idilər.

D) Palto. Yaxalığının kənarında ilmələri olan, qoşun növünə görə yaxalıq nişanı taxılan boz mahuddan tikilmiş palto nümunələri istifadədə saxlanılırdı. Paltoların düymələrinin mövcud nümunələri dəyişiklik aparılana qədər qüvvədə qalırdı. Yaxalıq nişanları hissələrə görə müxtəlif rəngdə idi. Əsgərlər üçün əsgər mahudundan tikilmiş şinellər təsdiq edilmişdi.

E) Başlıq. Ancaq süvarilər üçün müəyyənləşdirilmişdi. Onlar papaqlarının üst rəngində olan başlıq geyinməli idilər.

J) Zabitlər xidməti vəzifəni icra edərkən, əsgərlər isə həmişə üstündə dəmir lövhəcik olmayan qurşaq kəməri taxmalı idilər. Süvarilər üçün kazak kəmərləri qəbul edilmişdi. Əsgər sırada silahla duranda revolveri də üstündən asmalı idi. Qılıncların Qafqaz nümunəsi istifadə edilməli idi. Bu qılınclar həm sırada, həm də sıradan kənarda

daşınmalı idi.
Nəsildən qalmış qılıncların daşınmasına icazə verilirdi.
Əsgərlərdən yalnız süvari qoşunlarda xidmət edənlər qılınc daşıya bilərdilər. Topçu qoşunlarında isə yalnız səlahiyyəti olan əsgərlərə qılınc daşımağa icazə verilirdi. Xəncər həm süvari qoşunda, həm də topçu qoşunlarında istifadə edilməli idi.

Z) Çiyin nişanələri, paqonlar. Mövcud olan göy haşiyəli paqonlar saxlanılırdı. Süvari və istehkam qoşunlarında paqonun baftası gümüşü, piyada, topçu və köməkçi qoşun hissələri üçün qızılı rəngdə saxlanılmışdı. Paqonların üzərində "Azərbaycan" (ərəb əlifbası ilə) sözü yazılmalı idi. İ) Orduda xidmət edən mə'murlar da xüsusi forma geyinməli və paqon gəzdirməli idilər. Onların da paqonları göy haşiyə ilə əhatələnməli və üzərinə "Azərbaycan" sözü yazılmalı idi.

I) Vəzifəsinə görə minik atı ayrılmış zabitlər mahmıza malik ola bilərdilər, süvarilərə, mə'murlara və hərbi həkimlərə mahmız daşımaq qadağan edilirdi.

Y) Səlahiyyətli şəxslərə mövcud nümunəli yəhərlər, topçu qoşunlarında və bir sıra zabitlərin vəzifəsinə görə malik olduğu atlarda süvari yəhərləri istifadə edilməli idi.

1919-cu il yanvar ayının 10-da S.Mehmandarovun əmri ilə Nazirliyin Müvəqqəti Hərbi Şurası yaradıldı.Bu Müvəqqəti Şura hərbi qanunvericilik və hərbi idarəetmə sahəsində mühüm məsələlərin müzakirə edilməsi və müvafiq qərar qəbul edilməsi ilə məşğul olmalı idi. Onun tərkibinə piyada və süvari diviziyalarının rəisləri, Ümumi Qərargahın rəisi, Topçu, Ləvazimat və İstehkam idarələrinin rəisləri, general-kvartirmeyster, növbətçi general və tapşırıq generalı daxil idi. Müvəqqəti Hərbi Şuranın iclasları hərbi nazirin, ya da onun müavininin sədrliyi altında keçməli idi. Hərbi xəstə hissəsinin, Hərbi baytar müdirliyinin və hərbi məhkəmə xidmətinin rəisləri onların xidmətlərinə aid olan məsələlərin müzakirəsi zamanı Müvəqqəti Hərbi Şuranın iclaslarına dəvət edilə bilərdilər.

Eyni zamanda Ə.Şıxlinskiyə tapşırılmışdı ki, Nazirliyin Hərbi Şurasının Əsasnaməsini hazırlasın. Bu istqamətdə Ə.Şıxlinski lazımi işlər görmüş və qısa vaxt ərzində Hərbi Şuranın Əsasnaməsini hazırlamışdı. 1919-cu il mayrt ayında Ə.Şıxlinski Hərbi Şuranın Əsasnaməsini və həmin Əsasnamə ilə birlikdə Hərbi Şuranın işinin təşkili barədə öz mülahizələrini hərbi nazir Səməd bəy Mehmandarova təqdim etmişdi. Bu mülahizələrində Ə.Şıxlinski Hərbi Nazirliyin Müvəqqəti Hərbi Şurasının iki aylıq fəaliyyətini təhlil etmiş və bütünlükdə onun nəticələri ilə razı olmadığını Səməd bəy Mehmandarovun nəzərinə çatdırmışdı. Ə.Şıxlinski öz qənaətini belə əsaslandırırdı. Onun fikrinə görə Müvəqqəti Hərbi Şuraya daxil olan vəzifəli şəxslərhəddən artıq gərgin işləyirdilər və onların bütün vaxtı öz müstəqim vəzifələrinin icrasına sərf olunurdu. Nəticədə bu şəxslər Hərbi Şuranın işinə kifayət qədər vaxt ayırı bilmirdilər. Digər tərəfdən də bu və ya digər vəzifəli şəxsin xidmət sahəsinə yaxın olan məsələlərin müzakirəsi zamanı onlar özləri rəhbərlik etdikləri xidmət sahələri üçün daha maraqlı olan mövqelərdə

dayanırdılar. Ona görə də Ə.Şıxlinski hərbi nazirdən xahiş edirdi ki, bir-sıra təkliflərin həyata keçirilməsi üçün Nazirlər Şurası qarşısında vəsatət qaldırsın. Həmin təkliflərin mahiyyəti bundan ibarət idi ki, Hərbi Şura ali hərbi orqan kimi heç bir digər vəzifəsi olmayan təcrübəli hərbçilərdən təşkil edilsin. Bu hərbçilər Hərbi Şuranın üzvü kimi yalnız Hərbi Şuranın fəaliyyətinin təşkili ilə məşğul olmalı və kənar heç bir işə cəlb edilməli deyildilər.Belə olduqda Hərbi Şura da səmərəli fəaliyyət göstərər və müzakirə edilən məsələlər barədə heç kəs maraqlı mövqe tutmazdı.Hərbi Nazirliyin yüksək vəzifələri şəxslərini isə Ə.Şıxlinski Hərbi Şuranın iclasına məşvərətçi səslə dəvət etməyi məqsədəuyğun bilirdi. General Ə.Şıxlinski Hərbi Şuranın daimi üzvlərinin 4 il müddətinə təyin edilməsi təklifini irəli sürürdü. Onun fikrincə həmin müddət qurtardıqdan sonra kimlərin vaxtının uzadılması haqqında hərbi Nazir özü hökumət qarşısında vəsatət qaldırmalı idi.

1919-cu il avqust ayının 18-də Ə.Şıxlinski Hərbi Şuranın fəaliyyəti ilə bağlı hərbi nazirə yeni bir məruzə hazırladı. General Ə.Şıxlinski həmin məruzədə də Hərbi Şuranın fəaliyyətinin heç dəgünün tələbləri səviyyəsində qurulmadığını bildirirdi. Onun fikrincə hərbi qanunvericiliyin təkmilləşdirilməsi və hərbi təsərrüfatın idarə edilməsi, habelə hərbi xidmətin təşkili sahəsində zəruri qərarların qəbul edilməsi ilə bağlı məsələlər Hərbi Şurada müzakirə edilsə də bu xarakterli məsələlərin böyük bir hissəsi şəxsən nazirin özü qarşısında qaldırılır və bununla da əlavə vaxtın alınmasına gətirib çıxarırdı. Halbuki, Ə.Şıxlinskiyə görə Hərbi Şuranın işi yaxşı qurulduğu halda bu məsələlər orada müzakirə olunar və səlahiyyətli qərarlar qəbul edilə bilərdi. Nəticədə, hərbi nazir də bəzən ona aid olmayan məsələlərin həllinə xeyli vaxt ayırmazdı.

Ə.Şıxlinski mövcud olan nöqsanların aradan qaldırılması üçün Hərbi Şuranın fəaliyyətinə diqqətin artırılmasını, bu strukturun çevik və işlək bir orqana çevrilməsini zəruri bilirdi. Bunun üçün o, maliyyə və təsərrüfat məsələləri ilə bağlı olan məsələlərin müzakirə edilməsində daha doğru qərarların qəbul edilməsi ilə bağlı müvafiq mülki nazirliklərin nümayəndələrinin də Hərbi Şuranın tərkibinə daxil edilməsini təklif edirdi.

Ə.Şıxlinski Hərbi Şuranın Əsasnaməsini də hazırlamışdı. Bu Əsasnamə onun mart ayında irəli sürdüyü təklifləri üzərində qurulmuşdu. Əsasnamədə göstərilirdi ki, Hərbi Şura hərbi qanunvericilik, hərbi təsərrüfat işlərinə, habelə həbi müəssisələrə və həbr vəziyyətə aid olan mühüm məsələlərin müzakirəsi üzərə ali orqandır. Əsasnaməyə görə Hərbi Şurada həmçinin yüksək rütbəli və vəzifəli hərbçilərin törətdiyi cinayətlər müzakirə edilib onların məhkəməyə göndərilməsi barədə qərar qəbul edilə bilərdi. Hərbi Şura ali dövlət hakimiyyətinə tabe olmalı idi.Hər bir hökumət orqanı və vəzifəli şəxs Hərbi Şuranın fəaliyyətinə qarışmamalı və ondan hesabat tələb etməməli idi. Hərbi Şuranın tərkibi təsdiq edilmiş ştata görə müəyyənləşdirilməli və onun üzvləri generallar arasından 4 illik müddətə təyin edilmişdi. Hərbi nazir Hərbi Şuranın sədri olmalı idi. Əsasnamədə o da göstərilirdi ki, həllini gözləməyən bir sıra vacib məsələlər Hərbi Şuranın kiçik tərkibində baxıla bilərdi. Bu tərkib də müvafiq əmrlə müəyyən edilməli idi.

Ə.Şıxlinskinin məruzələrindən sonra hərbi nazir S.Mehmandarov raportla Nazirlər Şurasının sədrinə müraciət etdi və onun qarşısında daimi Hərbi Şuranın

yaradılması barədə məsələ qaldırıldı. Ancaq Ə.Şıxlinskinin Hərbi Şuranın tərkibi barədə irəli sürdüyü təklifin qəbul edilməsi məqsədəuyğun sayılmırdı. Bunun səbəbi Səməd bəyin Nazirlər Şurasının sədrinə göndərdiyi raportunda öz əksini tapmışdı. Heç şübhəsiz ki, raport hazırlanmamışdan qabaq Səməd bəy Ə.Şıxlinski ilə bərabə bu məsələləri ətraflı şəkildə müzakirə etmiş və mövcud reallıqları nəzərə almaqla yeni təkliflər hazırlamışdılar.

Səməd bəy Mehmandarov Nazirlər Şurasının sədrinin adına göndərdiyi raportunda bildirirdi ki, öz daxili rejimi olan, xüsusi fəaliyyətində ayrıca hərbi qanunvericiliyə dayaqlanan ordu müstəqil və bütöv bir orqanizmdir. Ordu eyni zamanda dövlətin büdcəsinin ən böyük məsrəfçisidir. Ona görə də istər xüsusi qanunvericilik bazasının təkmilləşdirilməsi, istərsə də külli maliyyə məsrəflərini tələb edən təsərrüfat həyatının düzgün qurulması səlahiyyətli orqanın mövcudluğunu tələb edir ki, Hərbi Şura belə bir orqan olmalıdır. Nazir mə'lumat verirdi ki, Rusiya ordusunun Hərbi Şurası hərbi xidmətin müxtəlif sahələrində uzun illik təcrübəsi olan şəxslərdən təşkil edilir və onlar bu vaxt başqa vəzifələrdən azad edilirdilər[3]

Hərbi Şuranın bu cür təşkilinin onun fəaliyyətinin səmərəliliyini xeyli artırdığını e'tiraf etməklə bərabər, hərbi nazir S.Mehmandarov həmin variantın Azərbaycanda tətbiqinin qeyri-mümkün olduğunu da inkar etmirdi. Onun fikrincə, bir tərəfdən Azərbaycanda təcrübəli zabitlər çox az idi və onlar da ordunun bu və ya digər sahəsində çox məs'uliyyətli və lazımlı vəzifələr tutmuşdular, o biri tərəfdən də bir neçə yüksək rütbəli zabitin ştatla Hərbi Şuraya təsdiq edilməsi əlavə maliyyə xərcləri tələb edirdi. Ona görə də nazir Hərbi Şuranın fəaliyyətinin ictimai əsaslarla qurulmasını məqsədəuyğun bilirdi. Ancaq S.Mehmandarov Nazirlər Şurasından xahiş edirdi ki, bu orqanın işinin təşkili üçün lazımi vəzifəli şəxslərin tə'yin edilməsi barədə ona səlahiyyət verilsin. Hərbi nazir həmçinin maliyyə və təsərrüfat məsələlərinin müzakirəsi zamanı müvafiq nazirliklərin nümayəndələrinin də Hərbi Şuranın işinə cəlb edilməsinə razılıq verilməsini xahiş edirdi[1].

Yeni təkliflərlə bağlı Hərbi Şuranın yeni Əsasnaməsinin layihəsi hazırlandı və təsdiq üçün Nazirlər Şurasına göndərildi. Bu layihəyə görə şuranın tərkibi sədr və üzvlərdən ibarət idi. Adətən şuranın iclaslarına nazir müavini sədrlik edir, xüsusi hallarda isə hərbi nazir özü şuranın iclasına sədrlik edirdi. Şuranın üzvlüyünə aşağıdakı şəxslər təklif olunurdular: Ümumi qərargahın rəisi, Ərkani-hərbin rəisi, Bakıda yerləşən piyada və süvari diviziyaların komandirləri, Topçu İdarəsinin rəisi, İstehkam və Ləvazimat idarələrinin rəisləri. Hərbi ədliyyə, Hərbi xəstə və Hərbi baytar hissələrinin rəisləri onların xidmət sahəsinə aid olan məsələlər müzakirə edildikdə həlledici səslə Şuranın iclasında iştirak edə bilərdilər. Maliyyə məsələlərinin müzakirəsində Dövlət Nəzarət orqanının nümayəndəsi də həlledici səs alırdı. Digər məsələlərin müzakirəsinə Maliyyə və Ticarət nazirliklərinin nümayəndələri, habelə qoşunların birləşmə, hissə, idarə və müəssisə rəhbərləri Şuraya də'vət oluna bilərdi. Şura öz fəaliyyətində Rusiya qoşunlarının hərbi dairələrinin şuralarının əsasnaməsini rəhbər tutmalı idi. Bu əsasnamələrin Azərbaycan qanunvericiliyinə zidd gələn maddələri qüvvədən

düşmüş hesab edilirdi. Hərbi Şuranın fəaliyyətinin sənədləşdirilməsi nazirliyin Dəftərxanasına tapşırılırdı .

Ə.Şıxlinskinin Hərbi Şuranın fəaliyyətinin təşkili ilə bağlı başqa bir təklifi isə qəbul edildi. Həmin təklif Hərbi Şuranın kiçik tərkibinin yaradılması idi. Hərbi nazir Səməd bəy Mehmandarovun əmri ilə Nazirliyin iki hərbi şurası yaradılmışdı: Kiçik Hərbi Şura, Böyük Hərbi Şura. Bu şuralar müstəqil qurumlar deyildi. Kiçik Hərbi Şura Böyük Hərbi Şuranın tərkib hissəsi sayılırdı və bu Şura müəyyən məsələlərin vaxt itirmədən və çevik şəkildə həlli üçün yaradılmışdı. Kiçik Hərbi Şura hərbi nazirin sədrliyi altında yaradılırdı və onun tərkibinə nazirin müavini, Ümumi qərargahın rəisi, Ərkani-hərbin rəisi, Bakı istehkamat hissəsinin rəisi daxil idilər. Böyük Hərbi Şura isə hərbi nazirin müavininin sədrliyi altında yaradılırdı və tərkibinə Ümumi qərargah rəisi, Bakı İstehkamat hissəsinin rəisi, Ərkani-hərbin rəisi, qərargahları Bakıda yerləşən piyada və süvari diviziyalarının komandirləri, Topçu, İstehkam və Ləvazimat idarələrinin rəisləri, Hərbi ədliyyə, Hərbi xəstə və Hərbi baytar hissələrinin rəisləri daxil idilər. Dövlət nəzarət orqanının nümayəndəsi də Böyük Hərbi Şuranın iclasında iştirak etməli idi.

Hərbi nazir S.Mehmandarovun əmri ilə Ə.Şıxlinskiyə həvalə olunmuş vəzifələrdən biri hərbi-təhsil müəssisələrinin fəaliyyətinin təşkili idi. Bu məsələ bütünlkdə ordu quruculuğu qarşısında dayanan mühüm məsələlərdən biri idi. Çünki kifayət qədər milli hərbi kadrlar olmadan ordu quruculuğunda da sabit uğurlara nail olmaq mümkün deyildi.

1919-cu il yanvar ayının 28-də nazir vəzifəsini müvəqqəti icra edərkən Ə.Şıxlinski İstehkamat şöbəsinin rəisinə İstehkam məktəbinin təşkilinə başlaması barədə göstəriş verdi. Bu məktəb qısa zaman ərzində təşkil edildi və orada təlim-tərbiyə prosesinə başlandı. Milli hərbi kadrlar hazırlığı istiqamətində Cümhuriyyət ordusunun əsas təhsil müəssisisəsi isə Praporşiklər məktəbi idi. Türk qoşunları Azərbaycanı tərk etdikdən sonra həmin təhsil müəssisəsinin statusu qaldırılmış və onun fəaliyyətinin təşkili bütünlüklə Hərbi Nazirliyin üzərinə düşmüşdü. Ə.Şıxlinskinin köməyi sayəsində bu mühüm təhsil ocağının fəaliyyəti lazımi şəkildə təşkil edildi və Cümhuriyyətin mövcudluğu dövründə həmin təhsil ocağı öz fəaliyyətini uğurla davam etdirdi.

Ə.Şıxlinski özü də Praporşiklər məktəbində tez-tez olurdu. Onun məktəbə gəlişi sadəcə təftiş xarakteri daşımırdı. General Şıxlinski məktəbdə təlim-tərbiyənin təşkili ilə yaxından tanış olur, müsbət cəhətləri qeyd edir, mövcud nöqsanların aradan qaldırılamsı üçün tövsiyyələrini verməklə bərabər mümkün köməı də göstərirdi.

1919-cu il fevral ayının 8-dəPraporşiklər məktəbində olarkən təlim-tərbiyənin təşkili istiqamətində bir-sıra məsələlər Ə.Şıxlinskini qane etsə də bir-sıra məsələlərin ümumi vəziyyəti onu qane etmədi. Burada rastlaşdıqları barədə o , sonradan hərbi nazir S.Mehmandarova müfəssəl raport təqdim etdi. Ə.Şıxlinkinin fikrincə yunkerlər yaxşı geyinmişdilər. Onların ayaqqabıları müxtəlif olsa da istifadəyə yararlı idi. Məktəbdə paltar və ayaqqabı təmiri emalatxanası açılmışdı ki, bu da yaxın vaxtlarda yunkerlərin geyimlərinin daha yaxşı hala gətirilməsinə kömək edə bilərdi. Çörəyin və bişirilən xörəklərin keyfiyyəti də Ə.Şıxlinskini

qane edirdi. Ancaq naharda yunkerlərə bir yemək verilirdi. İkinci xörəyin bişirilməsinə isə vəsait çatışmırdı. Ə.Şıxlinski yazırdı ki, indiki vəziyyətdə iki keyfiyyətsiz xörəyin bişirilməsindənsə bir keyfiyyətli və dadlı yemək bişirilməsi daha yaxşıdır. Məktəbdə mağaza da fəaliyyət göstərirdi. Orada ağ çörək və meyvə satılırdı. Ancaq burada satılan çörəyin qiyməti şəhərlə müqayisədə baha idi. Ona görə də Ə.Şıxlinski təklif edirdi ki, mağazada çörəyin qiymətinin aşağı olması nəzarət altında saxlanılsın, ya da həmin mağaza ümumiyyətlə bağlanılsın. Yunkerlərin otaqları təmiz halda saxlanıldığı halda bir-sıra yardımçı otaqlar heç də belə deyildi. Ona görə Ə.Şıxlinski təklif edirdi ki, yataq əşyaları ilə bağlı məktəbə mümkün kömək göstərilməlidir. Bütünlükdə , Ə.Şıxlinski məktəblə tanışlıqdan yaxşı təəssürat aldığını bildirir və mövcud nöqsanların aradan qaldırılması üçün yerindəcə lazımi göstərişlər verildiyini qeyd edirdi.

Ə.Şıxlinskinin bu raportu ilə tanış olduqdan sonra Səməd bəy Mehmandarov Praporşiklər məktəbində məişət xidmətinin yaxşılaşdırılması ilə bağlı 16 fevral 1919-cu il tarixli əmr imzaladı. Qeyd etmək lazımdır ki, Səməd bəy Mehmandarov yunkerlərin məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı 1918-ci il dekabrın 11-də də əmr imzalamışdı. Ə.Şıxlinskinin 1919-cu il fevralın 8-də Praporşiklər məktəbinə gəlməsinin əsas məqsədlərindən biri də S.Mehmandarovun həmin əmrinin necə yerinə yetirilməsini yoxlamaq idi. Səməd bəy ilk əmrində məktəb rəisindən tələb edirdi ki, dərhal Ləvazimat şöbəsindən 10 min rubl pul alıb binanın çatışmayan şüşələrinin salınmasına, otaqların qızdırılmasına, lampa və kerosin alınmasına xərclənsin. Məktəbin hansa maddi bazaya malik olduğunu və onun daha nəyə ehtiyacı olduğunu aydınlaşdırmaq üçün Səməd bəy əmr edirdi ki, türk zabitlərindən qəbul edilən bütün əşyaların müfəssəl siyahısı ona təqdim edilsin və hər bir əşyanın qarşısında onun istifadəyə yararlı olub-olmaması göstərilsin. Həmin əmrdə S.Mehmandarovun diqqət yetirdiyi başqa bir məsələ isə yunkerlərn iaşəsinin lazımi tələblərə cavab verməməsi idi. O təəccüb edirdi ki, Gəncədə yerləşən bəzi hissələrin əsgərlərinə, o cümlədən də Praporşiklər məktəbinin yunkerlərinə hər gün eyn cür yeməklər verilir və yeməklərin menyüsündə heç bir dəyişiklik edilmir. Bu isə S.Mehmandarovu razı salmırdı. Ona görə də o, qəti şəkildə bütün rəislərdən və komandirlərdən tələb edirdi ki, əsgər və yunkerlərə hər gün müxtəlif yeməklər verilsin.

16 fevral 1919-cu il tarixli əmrində də S.Mehmandarov Ə.Şıxlinskinin təqdim etdiyi raporta əsasən Praporşiklər məktəbində iaşənin vəziyətindən qane olmadığını bildirirdi. Nazir bir daha tələb edirdi ki, yunkerlərin iaşəsi yaxşılaşdırılmalıdır və yunkerlərin yeməyi əsgərlərin yeməyindən daha qüvvətli olmalıdır. Ona görə nazir həmin əmrində yunkerlərin iaşə normalarının 1,5 dəfə artırıldığını bildirirdi. Səməd bəy eyni zamanda əmr edirdi ki, Nazirlik tərəfindən bəyaz parça alınan kimi ilk növbədə Praporşiklər məktəbinə verilsin ki, burada yataq əşyalarına olan olan ehtiyac aradan qaldırılsın.

1919-cu il fevral ayının 8-də Praporşiklər məktəbində olarkən Ə.Şıxlinski tək yunkerlərin məişət şəraitinin deyil, eyni zamanda təlim-tərbiyənin gedişini də yoxlamışdı. Bu sahədə də bir-sıra məqamlar onu qane etmədi və bu barədə o, nazirə yazdığı raportunda öz fikrini ona açıqladı. Ə.Şıxlinski məktəbə gələndə

bölüklər təlim meydanında sıra hazırlığı ilə məşğul olurdular. Ona görə də Ə.Şıxlinski burada onların sıra hazırlığı ilə əyani tanış olmaq imkanı tapmışdı. Onun müşahidələrinə görə sağlam və gümrah görünürdülər. Hərbi salama yaxşı cavab verirdilər. Yunkerlərin duruşu, dönmə hərəkətləri və silah priyomları qənaətbəxş idi. Birinci bölüyün sırada hərəkəti və aralanmış sırada hərəkət zamanı geri dönmənin icrası da Ə.Şıxlinskini razı salmışdı. Ancaq onun qeydlərinə görə aralanmış sırada hərəkət zamanı geridönmə icra ediləndən sonra «düzlən» komandası verilmədiyindən və istiqamət göstərilmədiyindən cinahlarda nizamsızlıq yaranırdı.

Ə.Şıxlinskiyə görə birinci bölük yunkerlərinin addımları kiçik idi. Ona görə də tələü edirdi ki,sakit templəplə iri addımların atılması yunkerlərə öyrədilməlidir. Çünki belə addımlar səfər zamanı yorğunluq gətirmirdi və sıra təlimlərində yunkerlərə daha ciddi görünüş verirdi. Yunkerlər dərs zamanı silahla olsalar da müəllimlərin silahları yox idi. Ə.Şıxlinski bildirirdi ki, müəllimlər və zabitlər hər şeydən əvvəl özləri yunkerlər üçün dəqiqlik və icraçılıq nümunəsi olmalıdırlar. Yoxsa onların qeyri-tələbkarlığı özbaşınalığın və intizamsızlığın genişlənməsinə gətirib çıxara bilər.

Ə.Şıxlinski topçu bölməsinin dərslərini də nəzərdən keçirmişdi. Topların quruluşu və ondan atəş qaydaları üzrə sinifdə keçirilən dərslərin birini müşahidə edən Ə.Şıxlinski təəccüblə qeyd edirdi ki, həmin dərsi müəllim deyil, feyerverk aparırdı. Bunun düzgün olmadığını bildirən Ə.Şıxlinski raportunda onu da qeyd edirdi ki, topçuluqdan dərs aparmalı olan topçu divizionunun zabiti diviziondakı işlərin çoxluğu üzündən dərsə gələ bilməmişdi. Ə.Şıxlinskinin qənaəti belə idi ki, topçu bölməsində dərslərin belə təşkil edilməsindənsə onun bağlanması daha yaxşı olardı. Çünki belə dərslərin heç bir faydası yox idi. Ya da onun fikrincə daha çox sərbəst vaxtı olan başqa bir zabit dərslərin aparılmasına cəlb edilməli idi.

Qeyd etmək lazımdır ki, 1919-cu ilin fevralındaƏ.Şıxlinski Praporşiklər məktəbində ikinci dəfə də olmuşdu. Məktəbə bu səfəri zamanı da o, təlim-tərbiyə prosesinin gedişində mövcud olan müəyyən nöqsanları üzə çıxararaq məktəb rəisliyinin diqqətinə çatdırmışdı. Müşahidələrindən sonra Ə.Şıxlinski yazırdı ki, yunkerlər uzun müddətdən bəri açıq sırada eyni vaxtda silahdan atəş açılmasını məşq edirlər. Bu zaman əsas diqət silahların havada bir xətt boyunca saxlanılmasına və çaxmağın bir vaxtda şaqqıldamasına verilir. O isə tələb edirdi ki, atəş hazırlığı zamanı əsas diqqət nişangahın düzgün qurulmasına, silahın düzgün dayaqlandırılmasına və hədəfin düzgün nişan alınmasına yönəldilməlidir.

Ə.Şıxlinski yunkerlərin təklikdə silah priyomları öyrənmə metodikasını da düzgün saymırdı. Onun müşahidələrinə görə yueknrlər bir cərgədə dayanır, hər biri qışqıraraq özünə komanda verir və sonra da özü verdiyi komandanı yerinə yetirirdi. Heç kim də onun hərəkətlərinin düzgünlüyünü yoxlamırdı. Ə.Şıxlinski bildirirdi ki, belə metod nəinki yunkerləri bir təlimatçı kimi hazırlamırdı, hətta onların öz səhvlərini görməyə də imkan vermirdi.

Ə.Şıxlinski Cümhuriyyət ordusunun formalaşması istiqamətində döyüş hazırlığının gücləndirilməsinə və düzgün təşkilinə böyük diqqət yetirirdi. Səfər etdiyi qoşun hissələrində bu məsələnin vəziyyəti ilə yaxından tanış olur və

gördüklərini ümumiləşdirməyə çalışırdı. Malik olduğu zəngin təcrübəyə əsasən təlim-tərbiyənin yaxşılaşdırılması üçün öz tövsiyyələrini də verirdi.

1919-cu ilin fevral ayında Ə.Şıxlinski Praporşiklər məktəbindən başqa 1-ci topçu briqadasının 1-ci divizionunda, Gəncə piyada alayında və Tatar süvari alayının 1-ci bölüyündə olmuşdu. Topçu briqadasının 1-ci divizionunda Ə.şıxlinski sıra hazırlığını müşahidə etmişdi. Ancaq burada nə əsgərlərin hazırlığı, nə də zabitlərin dərs metodu onu razı salmışdı. Əsgərlər xırda addımlarla addımlayır, bədənlərini düz tutmur, zabitdər isə bu nöqsanları görmürdülər.

Ə.Şıxlinski qoşun hissələrinin çoxunda sıra hazırlığına böyük diqqət yetirirdi. Bu da təsadüfi deyildi. Əsgəri xidmət barədə təsəvvürü olmayan gənclərdə sıra hazırlığı həm əsgəri vərdişlər, həm intizam, həm də kollektivçilik vərdişləri yaradırdı. Sıra hazırlıında zəruri vərdişlərə malik olmayan əsgər başqa sahələr üzrə ciddi ibr uğur qazana bilməzdi.

3-cü Gəncə piyada alayında da Ə.Şıxlinski əsgərlərin sıra hazırlığını müşahidə etmişdi.İki cərgədə hərəkət edən əsgərlər nizam və ritm gözləmədən bir-birinin dabanlarını tapdalayır və sıra komandalarını sərbəst şəkildə yerinə yetirə bilmirdilər. Ə.Şıxlinski belə təlimi mənasız bir məşğuliyyət kimi dəyərləndirirdi. Ona görə Ə.Şıxlinski tabor komandiri podpolkovnik Qasımbəyovu yanına çağırtdırdı, sıra hazırlığında belə nöqsanlara nə üçün yol verilməsinin səbəblərini soruşdu. Qasımbəyov isə mövcud nöqsanların sıra hazırlığına dair nizamnamə tələblərinin onlara gəlib çıxmadığı, kiçik addımların isə türk ordusundan keçməsi ilə bağladı. Bu izah Ə.Şıxlinskini heç cürə təmin etmədi. O, tabor komandirinin nəzərinə çatdırırdı ki, Cümhuriyyət ordusunda türk ordusu nizamnaməsi deyil, Rusiya ordusunun nizamnaməsi qüvvədədir. Digər tərəfdən Ə.Şıxlinski onu da qeyd edirdi ki, günahı türk təcrübəsinin üzərinə atmaq da doğru deyil. Çünki türk ordusunda da iri və sərbəst addımlarla addımlayırlar. Sübut olaraq Ə.Şıxlinski bildirirdi ki, iki türk diviziyasını həm səfər zamanı, həm də Bakı şəhəri azad edilməsindən sonra keçirilən paradda necə addımladıqlarını öz gözləri ilə görmüşdür. Ona görə Ə.Şıxlinski tələb edirdi ki, zabitlər öz vəzifələrinin icrasına ciddi şəkildə yanaşsınlar və verilən suallara da məntiqi cavablar verməyə çalışsınlar.

Tatar süvari alayının 3-cü bölüyü ilə Ə.Şıxlinski şəhərdə rastlaşmışdı. O, bölüyü dayandıraraq sola dönməyi əmr etmişdi. Bölüyün komandiri öz bölüyü ilə bu əmri lazımi şəkildə yerinə yetirə bilməmişdi. Genearl bu vəziyyətlə bağlı qeyd edirdi ki, süvarilər təlim meydanında yaxşı hazırlıq keçmiş olsaydılar belə əmrlərin icrasında heç bir çətinlik çəkməzdilər. Bununla da o, hissədə bütünlüklə təlim-tərbiyəni yüksək şəkildə qurulmadığına diqqəti cəlb edirdi.

Ə.Şıxlinski alay və diviziya komandirlərinə əmr edirdi ki, əsgərlərin fərdi hazırlığına ciddi diqqət yetirsinlər. Çünki fərdi hazırlığ gənc əsgərin hazırlığının əsasını təşkil edir. Ə.Şıxlinskiyə görə fərdi hazırlıq əsgərin hərbi görkəm almasını sürətləndirməklə və bütün nizamnamə tələblərinin düzgün icra edilməsi vərdişlərini aşılamaqla yanaşı onun bir döyüşçü kimi formalaşmasında da böyük əhəmiyyətə malik idi. Fərdi hazırlıq düzgün qurulduqda əsgər xidmət həyatının ilk anlarından əmr və komandaların müstəqil şəkildə yerinə yetiriməsinə öyrədir.

Əksinə , fərdi hazırlıq keçmədən əsgərləri ümumi sıraya qoymaq onlarda sürü xüsusiyyətlərinin yaranmasına və inkişaf etməsinə şərai yarada bilər. Ə.Şıxlinskinin fikrincə hər bir əsgərn şəxsi fərdi keyfiyyətləri nəzərə alınmaqla hər biri ilə ayrılıqda işləmək lazım idi ki, onların hər birində müstəqil fəaliyyət göstərmək, mürəkkəb anlarda müstəqillik və təşəbbüskarlıq göstərmək xüsusiyyətləri özünü biruzə versin. Ancaq general bu xüsusiyyətin ifrat hal almasını lazım bilmirdi. Əsgərin təlim-tərbiyəsində həm fərdi, həm də kollektiv hazırlıq üzvü şəkildə birləşdirilməli, bu və ya digər tərəfin nəzərdən qaçırılmasına yol verilməməli idi. Ə. Şıxlinski hissə komandirlərindən tələb edirdi ki, hissələrin nizami hazırlığını əllərinə alsınlar, öz zabitlərini əsgərlərin müəllimi və tərbiyəçisi kimi, taqım və bölük komandiri kimi yetişdirsinlər,onların xidmətini daim nəzarət altında saxlasınlar, az təcrübəlilərə kömək göstərsinlər, məsuliyyətsizləri isə yaxşı xidmətə məcbur etsinlər. Ə.Şıxlinski əmrini bu cümlələrlə bitirirdi: «Təəssüf ki, hissə komandirlərinə bizim işimizin əlifbasını xatırlatmalı oluruq.Ancaq hər şey gərək öz adı ilə adlandırılsın».

Ə.Şıxlinski Cümhuriyyət ordusunun bir-çox hissələrinin vəziyyəti ilə yaxından tanış olmuşdu. Ancaq heç də bütün hissələrdə vəziyyət yuxarıdakı kimi deyildi. 1919-cu il mart ayının 29-da Şıxlinski əlahiddə Zaqatala piyada taborunda oldu və orada gördüklərindən böyük qürur hissi keçirdi. Gəncəyə qayıdandan sonra o dərhal hərbi nazir Səməd bəy Mehmandarova raport yazdı, Zaqatala taborunda xidmətin təşkili ilə bağlı komandanlığın və hissə zabitlərinin gördüyü müsbət işlər barədə geniş məlumat verdi. Həmin raportunda Ə.Şıxlinski göstərirdi ki, şəxsi heyətin sağlam və gümrah görkəmləri var, şən görünürlər və salama yüksək əhval-ruhiyyə ilə cavab verirlər. Əsgərlər arasından cəldlər və bacarıqlılar təlim komandasında birləşdirilmişdi və onlarla aparılan döyüş hazırlığı digər bölüklərlə müqayisədə xüsusilə yaxşı təşkil edilmişdi. Qışlalarda gün növbətçisinin vəzifəsi hamı tərəfindən öyrənilmişdi Saatdarın vəzifələri də dərindən öyrənilmiş və həmin vəzifələr şüurlu şəkildə yerinə yetirilirdi. Zabitlər və kiçik komandirlər tabeçilikdə olanların ad və soyadlarını, onların xidməti keyfiyyətlərini, haradan olmalarını, əsgərlə isə rəislərinin vəzifələrini və rütbələrini yaxşı bilirdilər. sırada yüksək intizam mövcuddur. Əsgərlərin sırada duruşu da ümumən qənaətbəxş idi, yalnız əllərinin vəziyyəti doğru deyildi. Dönmə hərəkətləri çevikliklə , eyni zamanda həyata keçirilirdi. Silah priyomları aydınlığı ilə seçilir, bütün hərəkətlər və bölüyün yenidən düzülməsi lazım olduğu kimi yerinə yetirilirdi. Ancaq komandirlər addımlarını iri olmasına fikir vermirdilər.

Ə.Şıxlinski razılıqla qeyd edirdi ki, taborda taktiki hazırlığa böyük yer verilir. Bu dəslər keçirilən zaman şərti düşmən mövqeləri müəyyənləşdirilirdi, şəxsi heyətin qarşısında dayanan vəzifələr dəqiqləşdirilirdi və sonra da onların icrasına başlanırdı. ancaq belə dəslərin keçirilməsi təcrübəsinin az olduğu hiss edildirdi. Buna baxmayaraq əsgər və zabitlər bir-sıra taktiki hərəkətləri, o cümlədən də atəş altında irəliləmək, ərazidən istifadə etmək, dağınıq sıranı idarə etmək kimi vərdişlər mənimsəmişdilər.

Atəş hazırlığının vəziyyəti də Ə.Şıxlinskini razı salmışdı. Burada atəş üçün hazırlıq dərsləri keçilir və həmin dərslərdə nişangahın düzgün qurulması, hədəfin

düzgün nişana alınması şəxsi heyətə öyrədilirdi. Bölüklərdə silahlar təmiz saxlanılırdı və onların mühafizəsi təmin edilirdi. Bütün bölmələrin şəxsi hey əti yaxşı geyinmişdi, çörəyin bişirilməsi üçün taborun özündə sex açılmışdı. Ə.Şıxlinskinin tabora gəldiyi ərəfədə fərarilik qeydə alınmamışdı. Tabor komandiri özü şəxsən, müəyyən hallarda isə onun zabitlərindən biri vaxtaşırı müxtəlif mövzular üzrə kiçik zabitlərlə söhbətlər aparırdılar.

Öz raportunun sonunda Ə.Şıxlinski bildirirdi ki, taborla tanışlığım məndə tabor komandiri podpolkovnik Ə.Dibirovun və onun gənc silahdaşlarının xidməti vəzifələrinə vicdanlı münasibəti və sonsuz fədakarlıqları barədə əminlik yaratdı. Onun qənaətlərinə görə mövcud dövrün çətin şəraitinə baxmayaraq taborda mümkün olan hər şey edilmişdi.

Heç şübhəsiz ki, rəsmi raport yazmaqdan əlavə Ə.Şıxlinski Zaqatala taborunda gördükləri barədə hərbi nazir Səmehmandarova şifahi olaraq da geniş məlumat vermişdi və Zaqatala piyada taborunda hərbi xidmətin təşkilinə belə vicdanla yanaşılması Səməd bəyin də sonsuz sevincinə səbəb olmuşdu. O, Ə.Şıxlinskidən eşitdiklərinə cavab olaraq Zaqatala taborunun komandiri podpolkovnik Dibirova teleqrafla öz təşəkkürünü bildirdi. Sonra isə Zaqatala taborunda xidmətin təşkili vəziyyəti barədə ayrıca əmr imzaladı. Hərbi nazir qeyd edirdi ki, taborun zabitlərinin çoxunun qeyri-peşəkar olmasına baxmayaraq orada çox iş görülmüşdür və taborda nizami xidmət və təsərrüfat məsələləri kifayət qədər xidməti təcrübəyə malik olan köhnə zabitlərin çox olduğu hissələrdəki vəziyyətdən daha yaxşıdır. S.Mehmandarov həmin əmri belə tamamlayırdı : «Bunun səbəbini mən: 1)tabor komandiri podpolkovnik Dibirovun vicdanlılığında və işgüzarlığında; 2)Onun zabitlərə qarşı təkcə xidməti tələbkarlıq və söhbətlərində deyil, həm də atalıq qayğılarında öz əksini tapan səmimi təsirində; 3) Cavan zabitlərin çoxunun işgüzarlığında, onların öz komandirlərinin göstərişlərinə olan diqqətcilliyində görürəm. İşə yalnız belə münasibət kifayət qədər nəzəri hazırlıq ala bilməmiş zaüiblərin biliklərindəki boşluğu aradan qaldıra bilər və bizim azad Vətənimiz naminə gənc ordumuzun hazırlığında gözəl bəhrələr verə bilər».

Hərbi nazir S.Mehmandarov Zaqatala taborunda xidmətin təşkilini digər hissələrə nümunə göstərməklə bərabər tabor komandirinin mükafatlandırılması barədə Azərbaycan hökuməti qarşısında vəsatət qaldırdı və Nazirlər Şurasının qərarı ilə ilə ona polkovnik rütbəsi verildi.

Zaqatala taborunda xidmətin təşkilinə yüksək qiymət, tabor komandirinin mükafatlandırılması üçün hökumət qarşısında vəsatət qaldırılması eyni zamanda hərbi nazirin Ə.Şıxlinskinin prinsipiallığına verdiyi qiymətin nəticəsi idi. Çünki Səməd bəy şübhə etmirdi ki, Ə.Şıxlinskinin çıxardığı qənaətlərlə razılaşmaq olar. Onun öz xidməti vəzifəsinin icrasına sədaqətli münasibəti, Cümhuriyyət ordusunun formalaşması istiqamətindəki fədakar fəaliyyəti Səməd bəy tərəfindən layiqincə qiymətləndirilirdi. Bunun nəticəsi idi ki, S.Mehmandarov Azərbaycan hökuməti qarşısında Ə.Şıxlinskinin özünün də yüksək rütbəyə-tam artilleriya generalı rütbəsinə layiq görülməsi barədə vəsatətə qaldırmışdı və Nazirlər Şurasının 28 iyun 1919-cu il tarixli qərarı ilə ona yüngül artilleriya üzrə tam

general rütbəsi verilmişdi. Bununla da Hüseyn xan Naxçıvanski və Səməd həy Mehmandarovdan sonra Əliağa Şıxlinski Azərbaycan xalqının tarixində tam general rütbəsi almış üçüncü şəxs oldu.

1919-cu il sentyabr ayının əvvəllərində xidmətləri yüksək qiymətlənidrilmiş Zaqatala alayının ( Zaqatala taborunun bazasında Zaqatala piyada alayı yaradılmışdı-M.S.) şəxsi heyəti Qurban bayramı münasibətilə həm hərbi nazir S. Mehmandarovu, həm də  nazir müavini Ə.Şıxlinskini təbrik etdi. Hər iki şeneral bu təbriki minnətdarlıqla qəbul etdilər və onlar da hər biri ayrı-ayrılıqda Zaqatala alayına təbrik teleqramı göndərdilər. S.Mehmandarovun cavab təbriki çox qısa və lakonik idi: « Göndərilən təbrikə görə alayın bütün çinlərinə ürükdən təşəkkür edirəm. Eyni zamanda mən də hamınızı təbrik edirəm». Ə.Şıxlinski isə öz təbrikində yazırdı: «Sizə və mənim qəlbimə əziz olan zaqatalılara təşəkkür edirəm və hamınızı Qurban bayramı münasibətilə təbrik edirəm. Alayınızda gördüklərim uğurlar üçün  etibarlı zəmindir. Qadir Allah  alayın hazırlığı üçün sizin şərəfli və yorulmaz fəaliyyətinizdə yardımçı olsun».

Cümhuriyyət ordsunda faydalı iş görmüş hər bir insana qarşı Ə.Şıxlinski çox səmimi bir ehtiram nümayiş etdirirdi. Məsələn, Quba əhalisinin ordunun ərzaq təminatına göstərdiyi köməkliyə görə o, daxili işlər nazirinə təşəkkür məktubu göndərmişdi. Həmin məktubda  bildirilirdi ki, Quba əhalisi ordunun ehtiyaclarının ödənməsi üçün dəfələrlə qəza ərazisindən taxıl, yonca, mal-qara və s. toplayaraq orduya vermişdi. 1920-ci ilin əvvəlində isə qəza rəisi  ordunun şəxsi heyəti üçün 4 min cüt corab hazırlandığını bildirmişdi. Ə.Şıxlinski daxili işlər nazirindən xahiş edirdi ki,  Quba əhalisinin bu fədakarlığı və təmənnasız zəhmətləri Daxili İşlər Nazirliyi üzrə əmrlərdə də öz əksini tapsın.

Ə.Şıxlinski xidməti vəzifələrə, ona tapşırılan hər bir işə çox böyük prinsipiallıqla yanaşdığı kimi Cümhuriyyət ordusunun hər bir zabitində də belə keyfiyyətləri görmək istəyirdi. Qoşun hissələrində mövcud olan bir-sıra nöqsanların səbəbini də o, çox vaxt zabitlərdə görürdü və onlarda rastlaşdığı mənfi hallara qarşı çox barışmaz bir mövqe tuturdu. Onun 1-ci Cavanşir piyada alayında iki azərbaycanlı məmurun xidməti vəzifələrini bəslədikləri məsuliyyətsiz münasibət haqqında söylədikləri bu gün də orduya münasibətin meyarı kimi dəyərləndirə bilər. Hərbi nazirin vəzifəsini müvəqəti icra edərkən imzaladığı 20 fevral 1919-cu il tarili 90 saylı əmrinin 3-cü bəndində adları çəkilən şəxslərlə bağlı Ə.Şıxlinski yazırdı: «Vəzifələrindən uzaqlaşdırılmış həkim Hacı Qasımov və müşavir Əliyev öz xahişləri əsasında bu yaxınlarda yenidən xidmətə qəbul edilmişdilər. Vəzifələrinin icrasına başlamağa imkan tapmamış onlar yenidən onu icra etməkdən imtina etmişlər. Güman edirəm ki, öz Vətəninin həqiqi övladları qurulmaqda olan dövlətin belə ağır vaxtında, xüsusən də eyöni məzhəb və eyni qandan olan yurddaşlarımızdan ibarət ziyalı işçilər bizm üçün belə qiymətli olduğu bir vaxtda bu cür hərəkət etməməlidirlər.

Azərbaycanlılar həmişəlik yadda saxlamalıdırlar ki, doğma ordu xeyriyyə evi deyildir və ondan ötrü mövcud deyil ki, hər bir azərbaycanlı orada özünə xeyirli olan yeri tutsun.O, Vətənin dayağıdır və ora ölkənin ən yaxşı qüvvələri daxil olmalıdır.

Özünün xırda şəxsi maraqlarını doğma diyarın və öz xalqının maraqlarından üstün tutan adamların qiyməti çox deyil və ordu təəssüf etmədən onlarla vidalaşır. Ancaq qoy belələi heç olmasa özləri haqqında mənasız yazışmaları ilə ordunun işini artırmasınlar. Belə insanların heç bir dövlət xidmətində faydası olmayacağını güman edərək bu əmrin surətini Nazirlər Şurasına təqdim edəcəyəm».

Cümhuriyyət ordusunun hər bir zabitinə və məmuruna Ə.Şıxlinskinin belə qətiyyətli mövqe tutması barədə digər faktlar da mövcuddur. 1919-cu ilin ortalarında 1-ci Cavanşir piyada alayının zabiti kapitan Vahid Nəbibəyovun xidmətdən azad olması barədə raport təqdim etməsi və istəyini özünəməxsus şəkildə əsaslandırması Ə.şıxlinskinin fikrincə Azərbaycan zabitinə yaraşmayan bir hərəkət idi. V.Nəbibəyov xidmətdən azadolmasının səbəbini belə açıqlayırdı : «Səhhətim və şərait imkan vermir ki, respublika hökumətinə xidmət edim». Çox güman ki, azərbaycanlı zabitin şəraiti bəhanə gətirərək öz hökumətinə xidmət etmək istəməməsi Ə.Şıxlinskini çox təəssüfləndirmişdi və nazir vəzifəsinin müvəqqti icraçısı kimi imzaladığı əmrdə V.Nəbibəyovu xidmətdən azad etməklə bərabər işlətdiyi ifadəyə görə bir ay həbs edilməsini də lazım bilmişdi.

Yəqin ki, kapitan Nəbibəyov sonradan raportunda işlətmiş olduğu ifadədən peşimançılıq çəkmiş və Hərbi Nazirliyin rəhbərliyinə müvafiq izahat təqdim etmişdi. Çünki, S.Mehmandarov başqa bir əmri ilə ona verilən cəzanı ləğv etmişdi. Həmin əmrində nazir qeyd edirdi ki, kapitan Nəbibəyov işlətdiyi ifadə ilə kimsəyə toxunmaq məqsədi güdməmişdir və ona görə də ona verdiyim cəzanı bağışlayıram.

S.Mehmandarovun bu əmrinin məzmunu həm də onun Ə.Şıxlinski ilə olan qarşılıqlı münasibətlərinin keyfiyyətlərini açıqlayan bir məqamdır. Səməd bəy heç də Ə.Şıxlinskini imzalamış olduğu əmri ləğv edərək onun sözünü yerə salmamışdı. Belə etsəydi Səməd bəy Ə.Şıxlinskinin nüfuzunu başqalarının gözündə aşağı salmış olardı. Ona görə də Səməd bəy Ə.Şıxlinskinin imzalamış olduğu əmrin məsuliyyətini öz üzərinə götürürdü və bildirirdi ki, əvvəlcə vermiş olduğum cəzanı bağışlayıram.

Verilmiş tapşırıqların icrası üçün zabitlər və hissə komandirləri tərəfindən göstərilən biganəlk və laqeydlik faktları da Ə.Şıxlinskinin diqqətini dərhal cəlb edir və o belə hallara qarşı çox kəskin mövqe ututrdu. O bütün zabitləri və hissə komandirlərini daha çox təşəbbüskarlıq göstərməyə, mövcud imkanlardan daha səmərəli istifadə etməyə, xüsusən də xalq əmlakına qayğı ilə yanaşmağa çağırırdı. 28 yanvar 1919-cu il tarixli əmrdə Ə.Şıxlinski göstərirdi ki, əsgər qışlalarının normal hala gətirilməsi üçün hərbi nazir 1919-cu il yanvar ayının 1-də əmr imzalasa da 3-cü Gəncə piyada alayında bu əmr yerinə yetirilməmişdi. Ə.Şıxlinski tələb edirdi ki, bütün hissə komandirləri qışlaların abadlaşdırılmasında daha böyük qətiyyət və işgüzarlıq göstərsinlər. Ə.Şıxlinski xatırladırdı ki, təkcə hərbi hissələr deyil, mərkəzi orqanlar da formalaşma prosesindədirlər və onlarda da zabit qıtlığı vardır. Ona görə hərbi hissələr öz qayğılarını yuxarı orqanların üstünə atmamalı, özlərinin mövcud imkanlarından yaxşı istifadə etməlidirlər.

Elə həmin il aprel ayının 11-də Ə.Şıxlinski 3-cü Gəncə piyada alayına bir də səfər etdi və məişət şəraitinin yaxşılaşdırılması üçün burada hansı işlərin

görülməsi ilə maraqlandı. Bəzi işlər onu qane etdi.Məsələn, otaqlar və hissənin ərazisi təmiz saxlanılırdı, bölüklərdə yemək keyfiyyətlə bişirilirdi. 9-cu bölüyün əsgərləri isə yaşadıqları binanın saxlanmasına vəhşicəsinə yanaşırmışlar.Otaqların pəncərələri çıxarılmış, şüşələri sındırılmışdı.Bağ sahəsinin kənarındakı çəpərlər xarab edilmiş və yenisi də düzəldilməmişdi.

Ə.Şıxlinski bu vəziyyətə sadəcə məişət qsuru kimi baxmırdı. O əmin idi ki, məişət şəraitinin yaxşı qurulmaması birbaşa hissənin döyüş hazırlığına da təsir göstərirdi.

Xidməti əmlaka israfçılıqla yanaşılması da Ə.Şıxlinski tərəfindən belə narahatçılıqla qarşılanırdı. O bir-çox zabitlərin və əsgərlərin orduda az miqdarda olan ingilis cins atlarında şəhərdə gəzmələrinin qəti əleyhinə idi və bu məsələdə o, həm özünün, həm də hərbi nazirin fikrini ifadə edərək tələb edirdi ki, bu hərəkətlərə son qoyulsun. Ə.Şıxlinsknin fikrincə atlar sürətlə çapılarkən küçələrin daş örtüyü onların ayaqlarını xarab edirdi.

Ə.Şıxlinskinin imzaladığı bişqa bir əmr hərbi hissələrdən şəkərin şəhərdə satılması və ya başqa əşyalarla dəyişdirilməsi ilə bağlı idi. O təəccüb edirdi ki, Cümhuriyyət ordusunun hissələrində belə əməllər də mövcuddur. Şəkərin hərbi hissələrdə çatışmadığı halda ona belə israfçılıqla yanaşılmasını o dözülməz hal kimi qiymətləndirirdi. Ə.şıxlinski tələb edirdi ki, şəkərin kənarda satılması faktı hər hansı bir hissədə mövcuddursa onun qarşısı qətiyyətlə alınmalıdır. Əmrdə o da bildirilirdi ki, hissələrdə təftiş aparılacaq və göstərilən fakt harada üzə çıxsa günahkarlar məhkəməyə veriləcəklər.

1919-cu il dekabr ayının 30-dan 1920-ci il fevral ayının 12-dək, yəni təxminən ay yarım ərzində Səməd bəy Mehmandarov xəstəliyi ilə bağlı olaraq xidmətdə olmamışdı. Özünün imzaladığı əmrlə Səməd bəy hərbi nazir vəzifəsinin icrasını Ə.Şıxlinskiyə həvalə etdi. Bu müddət Ə.Şıxlinskinin hərbi nazir vəzifəsini icra etdiyi ən uzun müddət idi və həmin dövr ərzində onun qayğıları daha da artmışdı. Hərbi nazir vəzifəsini icra etdiyi zaman Ə.Şıxlinski 3-cü zirehli qatarın təşkili, aviadəstənin, zirehli avtomobil taqımının, Bakı İstehkamat hissəsinin mövqe batareyasının, «Astraabad» hərbi gəmisinin,Bakı İstehkamat hissəsinin qala taborunun ştatlarının təsdiqi barədə əmr imzaladı. Onun imzaladığı əmrlərdən biri də qoşun hissələrində fərariliyin vəziyyəti barədə idi. Həmin əmrdə göstərilirdi ki, Hərbi Nazirliyin rəhbərliy inin bütün səylərinə baxmayaraq 1-ci Cavanşir, 2-ci Zaqatala, 3-cü Gəncə, 4-cü Quba piyada alaylarında, 2-ci Qarabağ süvari alayında, dağ-süvari batareyasında fərarilik daha güclüdür.Ə.Şıxlinski əmrdə qeyd edirdi ki, fərariliyin baş verməsi üçün kənar səbəblər mövcud olsa da başlıca səbəblərdən biri də bir-sıra hərbi hissələrdə komandirlər və zabitlər tərəfindən tabelikdə olanlara qarşı lazımi qayğı göstərilmir. Bu da fərariliyə yol açırdı. Ə.Şıxlinski öz əmrini bu cümlə ilə bitirirdi ki, ciddi tələbkarlıqla ata qayğısı birləşdirildikdə hissələrdə fərariliyin miqdarı da xeyöli azala bilər.

Ə.Şıxlinski hərbi nazir vəzifəsini icra etdiyi müddətdə Qarabağda vəziyyət kəskinləşdi. 1920-ci il yanvarın ikinci yarısından etibarən Ermənistanın Azərbaycana qarşı təcavüzününü yeni və daha faciəli bir səhifəsi başladı. Müşahidəçilər tamamilə haqlı olaraq qeyd edirdilər ki, erməni təcavüzünün bu

səhifəsi 1920-ci il yanvarın 13-də Müttəfiq dövlətlər tərəfindən Gürcüstanla bərabər Azərbaycanın da müstəqilliyinin de=fakto tanınması ilə bağlı idi. Erməni millətçi dairələri Azərbaycanın müstəqilliyinin tanınmasına, Azərbaycandan qoparmaq istədikləri torpaqların Ermənistana verilməsinə qətiyyən razı deyildilər. Ona görə də onlar «səxavət» göstərmələrini göləmədən yenidən silah gücünə öz niyyətlərinə nail olmağa cəhd göstərdilər. Yanvar ayının 24-də Zəngəzuru artıq viran qoymuş erməni qoşunları Cəbrayıl qəzasının içərilərinə doğru irəliləməyə başlamışdılar. Bununla da onlar həm Naxçıvanı Azərbaycandan ayrı salmaq, həm də Qarabağı birdəfəlik ələ keçirmək istəyirdilər. Erməni millətçiləri çoxlu sayda yaşayış məntəqələrini viran qoymuş, insanları qırmışdılar. Qarabağ general-qubernatoru Xosrov bəy Sultanov vəziyyətlə bağlı parlament sədrinin adına göndərdiyi teleqramında yazırdı ki, hərbi nazirin bölgəyə gəlməsi zəruridir.

Hərbi nazir vəzifəsinin icraçısı Ə.Şıxlinski özü şəxsən bölgəyə yollanmasa daNazirliyin yüksək rütbəli zabitlərini ora ezam etdi. Əvvəlcə Baş topçu idarəsinin rəisi general-mayor Məməd Mizə Qacar bölgədə oldu. Vəziyyətlə tanış olduqdan sonra Nazirliyin rəhbərliyi qarşısında Qarabağa əlavə hərbi qüvvələr göndərilməsi barədə məsələ qaldırdı. Onun ardınca Baş Ərkani-Hərb rəisi, general-ley tenant M.Sulkeviç də bölgəyə gəldi. M.Sulkeviç də genişlənməkdə olan erməni təcavüzünün qarşısının alınması üçün bölgəyə əlavə kömək göndərilməsini zəruri saydı.

1920-ci il yanvar ayının 20-də Qarabağ general-qubernatorunun müavini də məktubla hərbi nazir vəzifəsini müvəqqəti icra edən Ə.Şıxlinskiyə müraciət etdi. O vəziyyətin xeyli mürəkkəb olduğunu Ə.Şıxlinskinin nəzərinə çatdırmaqla yanaşı xahiş etdi ki, M.ulkeviç tərəfindən vəd edilən topların, pulemyotların və kabelin göndərilməsini sürətləndirsin. Onun fikrincə canlı qüvvəni yerli könüllülər hesabına toplamaq olardı. Hərbi Nazirlik bu könüllüləri silah və sursatla təchiz edəcəyi təqdirdə ora heç əlavə qoşun hissələrinin göndərilməsinə ehtiyac qalmazdı.

Ə.Şıxlinski erməni qoşun hissələrinə qarşı mübarizə tədbrlərinin gücləndirilməsini vacib sayırdı. Bunun üçün isə o, Xankəndindən bir topçu batareyasının lazım olan məntəqəyə göndərilməsi barədə mər verdi. Ə.Şıxlinskinin fikrincə başqa qarnizonlardan Qarabağa göndərilən qoşun hissəsi buraya yaxşı halda 7-8 gündən sonra gəlib çıxa bilərdi. Ancaq davam etməkdə olan erməni hücumlarının qarşısının alınması üçün Xankəndindəki top batareyası Zəngəzur qəzasının sərhəddinə çox tezliklə yetişə bilərdi. Ə.Şıxlinskiyə görə bir top batareyasının Xankəndindən çıxarılması buradakı qarnizonu çox da zəiflətməzdi. Şuşa və Zəngəzur qəzalarının sərhəddində güclü müdafiə qüvvələri olduğu təqdirdə Xankəndini 2-3 böl.k və bir pulemyot komandası ilə müdafiə etmək olardı.

Zəngəzur qəzası sərhəddindəki müdafiə qüvvələrini arxadan himayə etmək üçün Ə.Şıxlinski Qubadan bir dağ topçu batareyasının , Gəncədən bir piyada bölüyünün və bir pulemyot komandasının Qarabağa göndərilməsi barədə göstəriş verdi. O, erməni təcavüzünün qarşısının alınması üçün bu qüvvələin kifayət edəcəyini bildirirdi. Ə.Şıxlinskinin əmri ilə Qarabağa 60 verst telefon kabeli də

göndərildi.

Görülmüş tədbirlərdən sonra erməni təcavüzkarları bir qədər sakitləşdilər. Ancaq onların bu sakitliyi çox uzun sürmədi və 1920-ci ilin Novruz bayramı axşamı erməni silahlı dəstələrinin Azərbaycan postları üzərinə hücumları ilə Qarabağda müharibə alovlanmağa başladı.Azərbaycan ordusunun fədakarlığı nəticəsində məlumdur ki, bu müharibə tezliklə yatırıldı və erməni millətçilərinin Cümhuriyyət dövründə Qarabağı Azərbaycandan qoparmaq niyyəti tamamilə boşa çıxdı.

Qarabağ bölgəsində vəziyyət mürəkkəbləşəndə S.Mehmandarov Gəncə-Qazax zonasına yollandı. O buradan Azərbaycan ordusunun fəaliyyətinə rəhbərlik etməklə arxada görülən işlərin nizamlanmasını isə Ə.Şıxlinskiyə tapşırmışdı. Səməd bəy hər gün Ə.Şıxlinski ilə əlaqə saxlayır, cəbhənin ehtiyaclarını ona bildirir, görülməli olan işləri onun nəzərinə çatdırırdı. Ə.Şıxlinski də bütün bu tapşırıqları vaxtında yerinə yetirməyə çalışırdı və bunun nəticəsi idi ki, Qarabağ cəbhəsi kifayət qədər çevikliklə idarə olunurdu.

1920-ci il parel ayının 6-dan 24-dək Səməd bəy Mehmandarov səhhəti ilə bağlı olaraq nazir vəzifəsinin icrasını yenidən Ə.Şıxlinskiyə həvalə etdi. Bu dövr həm Azərbaycanın, həm də Cümhuriyyət ordusunun həyatında mürəkəb bir dövr idi. Qarabağda erməni silahlı dəstələri tamamilə susdurulmamışdı. Ə.şıxlinski həm hökumətlə sıx əlaqə saxlayır, hökumət səviyyəsində görülən işlərdən məlumat alır, həm də cəbhəni nəzarət altında saxlayırdı. Qarabağ dəstəsinin rəhbəri general-mayor Həbib bəy Səlimov müthəmadi olaraq Ə.Şıxlinskiyə vəziyyət və qoşun hissələrinin döyüşləri barədə məlumatlar çatdırırdı. H.Səlimovun qaldırdığı məsələlər dərhal yerinə yetirilirdi. Məsələn, 18 aprel 1920-ci il tarixli teleqramında Ə.Şıxlinski H.Səlimova bildirirdi ki, Qarabağa 500 ədəd tüfəngin, 7 ədəd «Maksim» pulemyotunun göndərlməsi barədə əmr vermişdir. Ə.Şıxlinski onu da əlvə edirdi ki, güllə və sursat sarıdan ordu korluq çəkməkdədir və xahiş edirdi ki, mövcud güllə və sursat qənaətcilliklə istifadə edilsin.

Cümhuriyyət ordusunun fədakarlığı və şücaəti nəticəsində erməni təcavüzününü qarşısının alınması mümkün olsa da bolşevik təhlükəsinin qarşısını almaq mümkün olmadı. Ancaq bolşevik çevrilişindən sonra da Ə.Şıxlinski ilə S.Mehmandarov silahdaş olaraq qaldılar. Onlar istər Moskvada, istərsə də sonradan Azərbaycanda uzun müddət bir yerdə çalışdılar və Azərbaycan oğullarının hərbi bilik almaları üçün birgə zəhmətə qatlaşdılar. Təsadüfi deyil ki, bu gün də onların adı qoşa çəkilir . Çünki onlar eyni istək və eyni sədaqətlə öz xalqlarına xidmət etmişdilər.

### b) Məmməd bəy Sulkeviç

Cümhuriyyət ordusunun qurulmasında və möhkəmləndiril- məsində Səməd bəy Mehmandarovun ən yaxın silahdaşlarından biri də heç şübhəsiz ki, general-leytenant Məmməd bəy Sulkeviç idi. Bu şəxsin Azərbaycan ordusuna gəlişi ilə qoşun hissələrinin döyüş hazırlığında doğrudan da bir canlanma baş verdi, ölkənin müdafiəyə hazırlanması işində xeyli dəyişikliklər baş verdi.

Məmməd bəy Sulkeviç milliyyətcə tatar idi və rus ordusu sıralarında yunkerlikdən general-leytenant rütbəsinə qədər şərəfli bir yol keçmişdi. Şovinizm ruhu güclü olan rus ordusunda M.Sulkeviçin general-leytenant rütbəsinə çatması özü də elə onun hərbi istedad və bacarığından xəbər verir. O,1865-ci ildə doğulmuşdu. Azərbaycana necə gəlib çıxması barədə ətraflı məlumat söyləmək çətindir. Ancaq onun ömür yolundan güman etmək olar ki, Azərbaycana gəlməzdən xeyli əvvəlSəməd bəylə tanışlığı olmuşdur. Çünki, Məmməd bəy 1899-1901-ci illərdə Çin ərazisində alovlanmış xalq üsyanının yatırılmasında, habelə Port Artur döyüşlərində iştirak etmişdi. Ola bilməzdi ki, Səməd bəy bu kampaniyaların gedişində Məmməd bəy tanımamış və onunla görüşməmiş olsun. Bundan başqa Məmməd bəy Sulkeviç Rusiyanın müsəlman aləmində kifayət qədər nüfuz qazanmış, müsəlman aləminin mövcud həyatı aə gələcəyi ilə dərindən maraqlanan bir şəxs idi. Onun bu ictimai mövqeyi də çox güman ki, Səməd bəyin diqqətini özünə cəlb edirdi.

Məmməd bəy Sulkeviç Rusiyanın tarixində müsəlmanlardan təşkil edilmiş ilk korpusun komandiri olmuşdu. Bu korpus Birinci dünya müharibəsi illərində yaradılmışdı və həmin korpus alman qoşunlarına qarşı kifayət qədər uğurla mübarizə aparmışdı. Məmməd bəy Sulkeviç həm də Krım tatar hökumətinin sədri olmuşdu.Həmin hökumət Krımda yaşayan tatarlar tərəfindən bolşevik inqilabından sonra qurulmuşdu. Ancaq həm öllkədə hakimiyyətə gələn bolşeviklər, həm də bolşevikləri devirməyə çalışan ağqvardiyaçı qüvvələr Krımda belə bir müstəqil dövlətin yaranması ilə razı deyildilər. 1918-ci ilin sonlarında Denikin qoşunlarının bu əraziləri ələ keçirməsi ilə Krım hökumətinin mövcudluğuna da son qoyuldu.

1919-cu ilin martında Məmməd bəy Sulkeviç artıq Azərbaycanda idi. Hər hansı bir fakt mövcud olmasa da gümian etmək olar ki, onu Azərbaycana Səməd bəy Mehmandarov dəvət etmişdi.Əgər belə deyildisə də Səməd bəy M.Sulkeviçin və digər tatar zabitlərinin Azərbaycana gəlməsinə çox sevinmişdi. Çünki həmin zabitlərin milli ruhu Səməd bəyə, bütünlükdə Cümhuriyyət ordusunun ruhuna daha yaxın idi. Məməd bəy Sulkeviç də Cümhuriyyət ordusunda bütün bacarığı ilə xidmət göstərmişdi və Cümhuriyyət ordusunun möhkəmlənməsində çox dəyərli işlər görülmüşdü.

Məmməd bəy Sulkeviç Baş Ərkani-hərbin rəisi təyin edildi. Dövrün rusca olan arxiv sənədlərində bu vəzifə «naçalnik Qeneralnoqo Ştaba» adlanır. Məlumdur ki, Səməd bəyin rəhbərliyi altında Azərbaycan ordusu yenidən qurulmağa başlayanda onun tərkibində Həbib bəy Səlimovun rəhbərlik etdiyi Ümumi qərargah (rusca-Qlavnıy ştab) təşkil edilmişdi. Bu ifadələr rusca yaxın olduğundan bir-çox tarixi ədəbiyyatda onların azərbaycanca qarşılığı heç də düzgün verilmir.Hər iki qərargah ya «Baş qərargah » kimi verilir, ya biri »Baş qərargah» digəri «Ali qərargah» kimi verilir və s. Ancaq elə Cümhuriyyət ordusunun arxiv sənədlərində «Qeneralnıy ştab» «Baş Ərkani-hərb», «Qlavnıy ştab» isə «Ümumi qərargah » kimi verilmişdir.Həmin ifadələrin bugünkü ədəbiyyatda da elə o cür işlədilməsi tarixi baxımdan daha doğru olardı.

Bugünümüzə gəlib çatmış arxiv sənədlərindən belə büir qənaətə gəlmək olar ki, M.Sulkeviç Azərbaycana gəlməsindən və Səməd bəylə görüşündən sonra

ona Baş Ərkani-hərbə rəhbərlik etmək təklif olunmuş və bu qurumun formalaşdırılması və onun fəaliyyətinin təşkili tapşırılmışdı. M.Sulkeviç də bu qurumun təşkilinə başlamazdan əvvəl Rusiya və Avropa ölkələrinin təcrübəsini diqqətlə öyrənmiş, Həmin təcrübəni yerli şəraitlə müqayisədə ciddi şəkildə götür-qoy etmiş və sonradan da öz mülahizələrini hazırlayaraq hərbi nazir Səməd bəy Mehmandarova təqdim etmişdi. Həmin raportunda M.Sulkeviç yazırdı ki, Rusiyada və Avropada ölkənin müharibəyə hazırlaşması istiqamətində görülməli olan bütün işlərə indi ayrıca bir qurum rəhbərlik edir. Həmin qurum da Baş Ərkani-hərbdir. Onun qənaətinə görə sülh dövründə ölkənin müharibəyə hazırlanması ilə aşağıdakı şöbələr məşğul olmalı idi: 1) Əməliyyat şöbəsi; 2) Səfərbərlik şöbəsi; 3)Kəşfiyyat şöbəsi; 4)Hərbi-topoqrafiya şöbəsi; 5) Hərbi daşınmalar və rabitənin texniki şöbəsi və 6) Nizami şöbə. Həmin şöbələr Baş Ərkan-hərbi tərkibinə daxil olmalı idilər.

M.Sulkeviç raportunun sonunda yazırdı ki, gənc Azərbaycan ordusunun tezliklə formalaşmasında bütün altı şöbənin təşkili çox zəruridir. Ancaq Nazirliyin tərkibində belə böyük bir strukturun tşkili hökumətin səlahiyyətinə daxil olan bir məsələ idi o Ona görə də hərbi nazir Səməd bəy Mehmandarov M.Sulkeviçin irəli sürdüyü təkliflər əsasında Nazirlər Şurası sədrinin adına xüsusi bir məktub yazdı. Həmin məktubunda Səməd bəy göstərirdi ki, qoşun hissələrinin təlim-tərbiyəsi, ordunun müharibəyə hazırlaşdırılması ilə gündəlik cari məsələlərin , təsərrüfat problemlərinin bir orqanda-Ümumi qərargahda birləşdirilməsi səmərəli bir nəticə vermir. Ordu böyüdükcə onun təsərrüfat məsələləri, təchizat və təminat qayğıları da artır. Onların həlli xeyli vaxt apardığından ordunun təşkili, döyüş hazırlığının lazımi səviyyədə aparılması üçün kifayət qədər vaxt ayırmaq imkanı olmur. Belə bir boşluğun aradan qaldırılması üçün Baş Ərkani-hərbin təsis edilməsi hərbi nazir tərəfindən məqsədəuyğun sayılırdı. Onun fikrincə belə bir ordunun indiyə kimi yaradılmamasına səbəb müvafiq hazırlıqlı kadrların olmaması idi.

Səməd bəy məktubunda əlavə edirdi ki, general-leytenant, üç müharibə iştirakçısı Məmməd bəy Sulkeviçin Azərbaycana gəlişi ilə belə bir strukturun təşkilinə imkan yaranmışdır. Yaxın gələcəkdə Krımdan daha bir-çox savadlı və təcrübəli zabitlərin Azərbaycana gəlməsi bu strukturun işini daha yüksək səviyyədə qurmağa imkan verəcəkdi.Nazirin yazdığına görə Baş Ərkani-hərb ümumi səfərbərliyin elan edildiyi vaxt dərhal Ümumordu qərargahına çevrilərək döyüş şəraitində qoşunların idarə edilməsini öz üzərinə götürə bilərdi. Ümumi qərargah isəöz yerində qalıb arxa xidmətinin təşkili, təchizat və təminat məsələlərinin həlli ilə məşğul olmalı idi.

Hərbi nazir onu da bildirirdi ki, Baş Ərkani-hərblə və artıq mövcud olan Ümumi qərargah biri digərindən üstün olan struktur deyildir və səlahiyyətlərinə görə onlar bir-birinə bərabərdirlər. Səlahiyyət dairələrinin düzgün bölüşdürülməsi isə onlara biri-digərinə mane olmadan fəaliyyətgöstərməyə imkan verəcəkdir.

Nazirlər Şurasına göndərdiyi məktubunda S.Mehmandarov Baş Ərkani-hərbin nəzərdə tutulan strukturu barədə məlumat verirdi. Bu struktur Məmməd bəy Sulkeviçin təklif etdiyi struktur əsasında bir qədər fərqli şəkildə qurulmuşdu. Hərbi nazir təklif edirdi ki, hələlik Baş Ərkani-hərbin tərkibi iki şöbədən ibarət

olsun. Birinci şöbə-general-kvartirmeyster şöbəsi olmalı idi. Bu şöbəyə müharibəyə hazırlıq planının işlənməsi, toplanış məntəqəsinin seçilməsi, onların hər cəhətdən hazırlanması və səfərbərlik planının tərtib edilməsi ilə məşğul olan əməliyyat-səfərbərlik bölməsindən, xaricdəki kəşfiyyat agenturası vasitəsilə ehtimal olunan düşmən haqqında məlumat toplamaq, ölkə daxilindəki casuslarla mübarizə aparmaq işi ilə məşğul olan kəşfiyyat bölməsindən və ordunun təşkili, yerləşməsi və qoşunların təlim-tərbiyəsini işləyib hazırlayan nizami bölmədən ibarət idi. Səməd bəy M.Sulkeviçin təklif etdiyi birinci iki şöbəni bir bölmədə birləşdirmiş, digər iki şöbəni isə bölmə şəklində general-kvartirmeyster şöbəsinin təkibinə daxil etmişdi. Təklif edilən şöbələrin statuslarının aşağı salınması heç də M.Sulkeviçin təklifinin qeyri-düzgün olması ilə bağlı deyildi. Sadəcə olaraq kadrların çatışmaması daha yuvarlaq qurumların təşkilini tələb edirdi.

Baş Ərkani-hərbin tərkibində artıq mövcd olan hərbi-topoqrafiya şöbəsinin verilməsi məqsədəuyğun bilinirdi. Nazirin fikrincə bu şöbə qoşunları və qərargahları hərbi xəritələrlə təmin etməli, yeni planların çəkilişi və yeni xəritələrin tərtibi ilə məşğul olmalı idi.

Hərbi daşınmalar idarəsinin də Baş Ərkani-hərbin tərkibinə keçirilməsi nəzərdə tutulmuşdu. Bu şöbə dəmir yollarını və digər yolları hərbi məqsədlər üçün hazırlamalı və arxada cəbhənin bütün zəruri ləvazimatla təchiz edilməsini və daşınmasını təmin etməli idi.

Hərbi nazirin 28 mart 1919-cu il tarixli 157 nömrəli əmri ilə Baş Ərkani-hərb martın 26-da yaradılmış hesab edilirdi. Başqa bir əmrlə isə Məmməd bəy Sulkeviç 1919-cu il martın 19-dan Bar Ərkani-hərb rəisi vəzifəsinin icrasına başlamış hesab edilir və general-kvartirmeyster şöbəsi, hərbi topoqrafiya şöbəsi, rabitə xidməti Ümumi qərargahın tərkibindən çıxarılaraq Baş Ərkani-hərbə verilirdi. Hərbi daşınmalar idarəsi də Baş Ərkani-hərbə tabe etdirildi.

Baş Ərkani-hərbin yaradılması barədə Nazirlər Şurasına hazırladığı raportun ilkin variantının sonuna Səməd bəy öz əli ilə bir-neçə sətir əlavə etmişdir. Həmin variant arxivdə indi də qalmaqdadır. Səməd bəy Nazirlər Şurası sədrinin nəzərinə çatdırırdı ki, Baş Ərkani-hərbin rəisi ilə Ümumi qərargahın rəisi öz hüquq və səlahiyyətlərinə görə eyni səviyyədədirlər. Buna görə onların aylıq maaşları da eyni olmalı idi. Bununla belə hərbi nazir yazırdı ki, M.Sulkeviçi Krım hökumətinin sədri, 1-ci müsəlman korpusunun komandiri və üç müharibədə iştirak etmiş təcrübəli qərargah zabiti kimi çoxdan tanıyır və o, Azərbaycan ordusunda Ərkani-hərb xidmətini təşkil edə biləcəkdir. Ona görə də Səməd bəy Nazirlər Şurası qarşısında belə bir vəsatət qaldırırdı ki, istisna hal kimi Məmməd bəy Sulkeviçə nazir müavini maaşına uyğun olan maaş ayrılsın. Bu fakt özü də Səməd bəy Mehmandarovun M.Sulkeviçə necə böyük hörmət və ehtiramla yanaşdığını nümayiş etdirir.

M.Sulkeviç xidmətə qəbul edilən kimi dərhal çox böyük enerji ilə fəaliyyətə başladı. Baş Ərkani-hərbə daxil olan şöbə və bölmələrin bütün şəxsi heyəti səfərbərliyə alındı, onların cavabdeh olduğu sahələrdə təşkilatçılıq işi daha da genişləndi. M.Sulkeviçin xidmətə qəbul edildiyi günlərdə Azərbaycanda olan ingilis qoşunları komandanlığı Cümhuriyyət ordusu hərbi hissələrinin Bakıya

gəlməsinə icazə verdi. Bunun üçün Bakıda aparılan hazırlıq işlərində M.Sulkeviç də öz xidmət sahəsi üzrə yaxından iştirak edirdi. Bu baxımdan onun mart ayının 31-də daxili işlər nazirinin müavini, general-mayor S.Ağabəyova yazdığı məktub xarakterikdir. M.Sulkeviç qoşun hissələrinin Bakıya gəlməsi ərəfsində şəhərdə əks-kəşfiyyat işlərinin gücləndirilməsi barədə qarşılıqlı fəaliyyətin tənzimlənməsini vacib bilirdi. O yazırdı ki, 1919-cu il aprel ayının 5-də qoşun hissələrinin Bakıya gəlməsi ilə bağlı olaraq hərbi nazir S.Mehmandarov şəhərdə əks-kəşfiyyat işinin təşkil etməyi əmr emişdir.Bu məqsədlə yasovul Yusifov Daxili İşlər Nazirliyi orqanlarına ezam olunurdu. Yasovul Yusifov hərbi əks-kəşfiyyat orqanları ilə Daxili İşlər Nazirliyinin istintaq orqanları arasında bir əlaqə yaratmalı idi. M.Sulkeviç əlavə edirdi ki, Bakı şəhərində casus şəbəkəsinin mövcudluğu şübhə doğurmadığı bir vaxtda onlara qarşı mübarizə işini ruslara və ermənilərə tapşırmaq olmaz. Bu məsul işə yalnız müsəlmanlar cəlb edilməlidirlər. M.Sulkeviç məktubunu belə bitirirdi : «Güman edirəm ki, Siz də bu fikirdəsiniz ki, biz hər ikimiz Vətən naminə bu vacib işi qətiyyətlə həll etməliyik. Bu iş respublika naminə elə sonsuz sədaqət tələb edir ki, onu heç bir pulla almaq mümkün deyil».

Bütünlükdə Baş Ərkani-hərb rəisi qoşunların döyüş hazırlığının yüksək səviyyədə saxlanması üçün kəşfiyyəat işinin təşkilinə, qoşunların xidməti ilə bağlı məlumatların toplanmasına və onların vaxtında öyrənilməsinə böyük diqqət yetirirdi. M.Sulkeviç qarnizon rəisindən tələb edirdi ki, əldə etdikləri bütün məlumatları dərhal Nazirliyə göndərsinlər. O bildirirdi ki, məlumatların vaxtında lazımi orqanlara çatdırılması böyük əhəmiyyətə malikdir. Yalnız vaxtında çatdırıldıqda onlardan maksimum istifadə etmək olar. Vəziyyətin hər an dəyişə biləcəyi bir vaxtda mühüm əhəmiyyət kəsb edən məlumatların ləngidilməsi və onların lazımi orqanlara ötürülməsinin gecikdirilməsi malik olduğu qiyməti tamamilə itirir.

Hərbi hissələrin özündə də kəşfiyyat işləri təşkil edilirdi və ehtimal olunan təhlükə barədə ətraflı məlumatların toplanması üçün lazımi iş aparılırdı. General-leytenant M. Sulkeviç öz əmrlərinin birində 1-ci Cavanşir piyada alayının praporşiki Qaraşarova verilən tapşırıq üzrə ətraflı məlumai tolplayıb çatdırdığına görə öz təşəkkürünü bildirirdi. Həmin tapşırıq əsasında praporşik Qaraşarov Ağdamda, Karyagində, Cəbrayılda, Hadrutda, İran sərhəddində, Zəngəzurda olmuş, bu yerlərdə hərbi-siyasi vəziyyəti müfəssəl öyrənmiş və sonra müşahidə etdiklərini geniş şəkildə Baş Ərkani-hərbin kəşfiyyat bölməsinə məruzə etmişdi. Bu məruzədə yerlərdə Azərbaycan ordusuna münasibət, konkret tarixi şəraitdə erməni millətçi qüvvələrinin potensialı barədə dəyərli məlumat vardır.

Baş Ərkani-hərbin təşkilatçılığı ilə Petrovsk, Dərbənd, Temirxan Şura, Qroznı, Vladiqafqaz, Taqanroq, Batum, İrəvan, Qars, Dilican, Rəşt, Krasnovodsk, Tiflis, Astraxan şəhərlərində 14 rezidentin saxlanması planlaşdırılırdı. Bu rezidentlərin qarşısında dayanan başlıca vəzifə Denikin qoşunlarının, habelə erməni təcavüzkar qüvvələrinin planları və fəaliyyəti barədə məlumat toplamaq idi.

Baş Ərkani-hərbin təqdimatına əsasən Hərbi Nazirliyin rəhbərliyi hökumət orqanlarına göndərdiyi vəsatətində bildirilirdi ki, adları çəkilən rezidentlərdən başqa xüsusi tapşırıqların icrasını öz üzərinə götürə biləcək kəşfiyyatçıların

fəaliyyətinin maliyyələşdirilməsi də zəruridir. Böyük risq tələb edən tapşırıqları yerinə yetirəcək agentlərə yüksək məbləğdə ödənc verilməsi planlaşdırılırdı. Xüsusi tapşırıqları icra edəcək kəşfiyyatçılardan biri Ermənistanda, biri Gürcüstanda, biri İranla Türküstanda, ikisi Denikin ordusunun təruibində fəaliyyət göstərməli və iki nəfər də ehtiyatda saxlanmalı idi.

Hərbi xərclərin əsaslandırılması üçün hazırlanmış smeta hesablamalarında göstərilirdi ki, hər bir rezidentlə əlaqə saxlayacaq bir rabitəçi də maliyyləşdirilməlidir. Bu rabitəçilər rezidentlərə lazımi tapşırıqları çatdırmalı vəeyni zamanda onların toplamış olduğu məlumatları mərkəzə gətirməli idi.

M.Sulkeviçin rəhbərliyi altında istər erməni qoşunlarının, istərsə də Denikin qoşunlarının fəaliyyəti və planları barədə məlumat toplamaq üçün təşkil edilən kəşfiyyat kifayət qədər səmərəli işləyirdi. Bunun nəticəsi idi ki, Azərbaycanın istiqlaliyyəti üçün təhlükə törədən qüvvələrin hərəkətləri və niyyətləri barədə Hərbi Nazirliyin əlində zəruri məlumatlar var idi. Bu da vaxtında lazımi işlərin planlaşdırılmasına və həyata keçirilməsinə zəmin yaradırdı.

M.Sulkeviçin diqqət mərkəzində olan başlıca məsələlərdən biri də qoşun hissələrinin formalaşdırılması və onların döyüş hazırlığı səviyyəsinin qaldırılması məsələsi idi. O, hissə komandirlərindən təkidlə tələb edirdi ki, hər cürə siyasətbazlıqdan uzaq olsunlar və yalnız öz vəzifə borclarının icrası ilə məşğul olsunlar. Bu baxımdan onun Zaqatala piyada alayının komandiri polkovnik Dibirova göndərdiyi teleqramı diqqətəlayiqdir. M.Sulkeviç yazırdı:« Hər vasitə ilə siyasətə qoşulmaqdan uzaq olun. Bunun üçün başqa orqanlar mövcuddur. Böyük məktublar göndərməklə teleqrafı yükləməyin. Vacib və çıxılmaz hallarda baş verənlərin qısa mahiyyətini çatdırın».

Bu teleqramda söylənilənlərin məzmununu əslində M.Sulkeviçin xidmət meyarı kimi də dəyərləndirmək mümkündür. M.Sulkeviç bütün varlığı ilə hərbçi idi, öz peşəsinə kifayət qədər bələd olan bir şəxs idi və hərbçilərdən də ancaq öz xidməti vəzifələri ilə məşğul olmağı tələb edirdi. Bu tələb həm də Səməd bəy Mehmandarovun rəhbərliyi altında aparılan Cümhuriyyət ordusu quruculuğunun əsas prinsiplərindən biri idi və Hərbi Nazirliyin bütün rəhbərliyi Cümhuriyyət ordusunun mövcudluğu dövründə siyasi qüvvələrin ona göstərə biləcək hər cürə təsirlərinə qarşı qətiyyətli mövqe tutmuşdu.

M.Sulkeviçin hərbi yazışmaların qısa və konkret olmasını tələb etməsi də onun daxilindən gələn bir tələb idi. O, hərbçiləri daha çox əməlləri və xidmətləri ilə tanınmağa çağırırdı.

M.Sulkeviç Cümhuriyyət ordusunun qoşun hissələrində döyüş hazırlığının təşkili ilə yaxından tanış olduqdan sonra bu sahədə ciddi keyfiyyət dəyişikliklərinin həyata keçirilməsi qənaətinə gəldi. O hər şeydən əvvəl xidməti istifadə üçün rəsmən qəbul edilmiş rus ordusu nizamnamələrinin Azərbaycan şəraiti üçün tamamilə uyğun gəlmədiyini bildirdi. 1919-cu il aprel ayının 12-də Səməd bəy MEhmandarovun adına yazdığı raportunda M.Sulkeviç qeyd edirdi ki, nizami, piyada, süvari, topçu və çöl nizamnamələri, habelə piyada və topçular üçün atış təlimatları dərhal təkmilləşdirilməlidir. Çünki həmin nizamnamələrdə bir-sıra məqamlar 1-ci dünya müharibəsinin təcrübəsindən əldə edilən qənaətlərlə

səsləşmirdi və yeni dövrün tələblərinə cavab vermirdi. Onun fikrincə köhnəlmiş tələblər ninamnamələrdən çıxarılmalı, onun mətni ixtisar edilməli və sadələşdirilməli və bununla da nizamnamənin məzmunu yalnız döyüş hazırlığına sitiqamətləndirilməlidir.

M.Sulkeviç haqlı olaraq qeyd edirdi ki, Cümhuriyyət ordusu əsgərinin hazırlıq səviyyəsinin yüksəldilməsi şifahi danışıqlarla deyil, dərslərin əyaniliyi ilə mümkündür. Orduya gəlmiş gənc zabitlərin ümumi səviyyəsi üstün olmadığı üçün onların bilik səviyyəsinin təkmilləşdirilməsi də diqqət mərkəzinə gətirilirdi.

Nizamnamələrin təkmilləşdirilməsi ilə bağlı M.Sulkeviç hərbi nazirə təklif edirdi ki, üç komissiya yaradılsın. Birinci-piyada komissiyası. Bu komissiya piyadalar üçün Sıra nizamnaməsini və atış təlimatını nəzərdən keçirməli idi. İkinci komissiya- süvari komissiyası. Bu komissiya süvari nizamnaməsini təkmilləşdirməli idi. Ümumi komissiya adlandırılan üçüncü komissiya isə bütün qoşun növlərinin nümayəndələrindən təşkil edilməli və səhra nizamnaməsini araşdırmalı idi. Birinci komissiyaya general-mayor Usubovun, 2-ci və 3-cü komissiyaya is. süvari diviziyasının qərargah rəisi, general-mayor Amaşukelinin sədr təyin edilməsi təklif olunurdu. Qoşun hissələrində təlim-tərbiyənin, döyüş hazırlığının qoyuluşu və həlli Baş Ərkani-hərbin ciddi nəzarəti altında idi. Mövcud olan arxiv materialları da bunu sübut edir. Hissə və birləşmələr bu istiqamətdə hansı işlərin görülməsi barədə vaxtaşırı qəbul olunmuş qaydada Baş Ərkani-hərbin şöbələrinə məlumat verirdilər. Həmin məlumatlar vaxtında ümumiləşdirilib sistemləşdirilir və problemiş səmərəliliyi üçün mümkün işlər görülürdü. Əslində bu işlərin düzgün qiymətləndirilməsinin nəticəsi idi ki, Cümhuriyyət ordusu qısa zaman ərzində kifayət qədər döyüşgənlik əldə etmişdi. Hər hansı bir hissənin döyüş hazırlığının qaldırılması, orada təlim-tərbiyənin gücləndirilməsi mövcud olan müəyyən arxiv sənədlərində müstəqimən M.Sulkeviçin adı ilə bağlanmasa da unutmaq lazım deyil ki, bu məsələlər ümumən Baş Ərkani-hərb rəisinin təşkilatçılığı altında aparılırdı. Qoşun hissələrinin təlim-tərbiyəsində əldə edilmiş hər hansı bir uğur həm də onu göstərirdi ki, bu istiqamətdə M.Sulkeviçlə S.Mehmandarovun fikirləri, düşüncələri üst-üstə düşürdü və M.Sulkeviç tərəfindən müəyyənləşdirilən planlar S.Mehmandarov tərəfindən də müdafiə edilirdi.

Qoşun hissələrində təlim və tərbiyənin təşkilində çavuş heyətinin xüsusi yeri var idi. Bu kontingentin Cümhuriyyət ordusunda çatışmaması döyüş hazırlığının ümumi səviyyəsinə də təsir göstərirdi. Həmin boşluğun aradan qaldırılması üçün ordu daxilində bir-sıra tədbirlər həyata keçirilirdi. Məsələn, 1918-ci il dekabr ayının 10-da SəMehmandarov Gəncədə təlim taborunun yaranması barədə əmr imzaladı. Bu taborda 1000 nəfər əsgər hazırlıq keçməli idi. Ancaq məlumdur ki, bu tabor uzun müddət fəaliyyət göstərmədi və 1919-cu ilin yanvarında ləğv edilərək 3-cb piyada alayının tərkibinə verildi.

M.sulkeviç bu məsələnin həllini də qarşısında dayanan mühüm vəzifələrdən biri sayırdı. Çavuş heyətinin mərkəzləşdirilmiş şəkildə hazırlanması mümkün olmadığı üçün hissə və birləşmələrin daxilində onların hağırlığı na başlandı. Bu məqsədlə hissələrdə təlim komandaları yaradılmışdı. Bu komandalara hisənin bölmələrindən əsgərlər toplanılır və onlara ən təcrübəli zabitlər dərs keçirdilər.

Onlar üçün xüsusi dərs proqramı hazırlanırdı. Təlim komandalarında dərs proqramına bölük taktika dərsləri, qarovul xidməti, saatdarların dəyişdirilməsi qaydası, daxili xidmət nizamnaməsi, intizam nizamnaməsi, sıra hazırlığı, silahla hərəkətlər, silahların sökülməsi, silaha qulluq qaydaları, qarovul rəisinin və bölüşdürücüsünün vəzifələri və s. mövzular daxil idi. Baş Ərkani-hərb bu komandalarda olan əsgərlərin fiziki və mənəvi hazırlığına da xüsusi əhəmiyyət verirdi. Səhərlər gimnastika üçün vaxt ayrılmışdı. Dərs cədvəlinə mollaların söhbəti də daxil edilmişdi. Bundan başqa komandalarda hərbi andın əhəmiyyəti, fərarilik və ona qarşı cəza tədbirləri, xidməti borc, şəxsi gigiyena və s. mövzularda da söhbətlər aparılmalı idi.

Məmməd bəy Sulkeviç çavuşların hazırlanması istiqamətində hissə və birləşmələrdə aparılan işləri ümumiləşdirərək belə bir qənaətə gəlmiqşdi ki, həmin məsələnin həlli 1-ci piyada diviziyasında düzgün qurulmuşdur. 1-ci diviziya komandirinin Baş Ərkani-hərbə təqdim etmiş olduğu raport barədə M.Sulkeviç S.Mehmandarova da məlumat vermiş vəsonra onun tapşırığı ilə bu raportun mətnini bütün hissə və birləşmə komandirlərinə çatdırmışdı ki, 1-ci diviziyanın təcrübəsi hər yerdə tətbiq olunsun. Raportda bildirilirdi ki, çavuş heyətinin olmaması onların görməli olduqları bütün işlərin ağırlığını podporuçiklərin və zabitlərin üzərinə qoymuşdur. Ancaq dövrün tələbi ilə tələsik hazırlanmış olan zabit kadrlarının ümumi hazırlıq səviyyəsi, təcrübəsi təlim-tərbiyənin müasir səviyyədə təşkilinə imkan vermirdi. Buna görə də 1-ci piyada diviziyasında iki hazırlıq kursu yaradılmışdı. Onlardan biri çavuşların hazırlanması üçün nəzərdə tutulmuşdu. Bununla da müəyyən dövr keçdikdən sonra həm çavuşlara olan ehtiyac aradan qaldırılmalı, həm də zabitlərin hazırlıq səviyyəsi təkmilləşdirilməli idi.

M.Sulkeviç 1-ci diviziya komandirinin raportunu bütün hissələrə yayılması ilə bağlı imzaladığı sərəncamının sonunda qeyd edirdi ki, hərbi nazir digər hissələrdə də müvafiq işlərin mümkün qədər bu səviyyədə qurulmasını əmr etmişdir.

M.Sulkeviç müxtəlif ixtisaslar üzrə təcrübəli əsgərlərin hazırlanması üçün mövcud olan olan hər cürə vasitələrdən istifadə etməyə çalışırdı. Məsələn, qarşılıqlı danışıqlardan sonra Bakıdakı ingilsi qoşunlarının qərargah rəisi azərbaycanlı əsgər və zabitlərin ingilis topları üzərində topçu işinin vərdişlərinə öyrədilməsinə kömək göstərilməsinə razı olduğunu bildirmişdi M.Sulkeviç ingilis nümunəli topların öyrənilməsi üçün 2-3 zabitin rəhbərliyi ilə
50-80 nəfərlik qrupun yaradılmasını məqsədəuyğun bilirdi. Bu kursun təşkili hərbi nazirlə razılaşdırıldıqdan sonra M.Sulkeviç müəyyənləşdirilmiş sayda əsgər və zabitlərin göndərilməsi üçün hissə komandirlərinə teleqram yolladı.

Döyüş hazırlığının tərkib hissəsi olan atəş hazırlığı da Baş Ərkani-hərbin rəhbərliyi altında aparılırdı. Praktiki dərslərin keçirilməsi üçün atəş meydanları təchiz edilirdi. M.Sulkeviç 1919-cu ilin may ayında Gəncə, Xankəndi, Nuxa, Qazax, Zaqatala, Qusar və Bakı qarnizonlarının rəislərindən tələb edirdi ki, atış meydanları üçün münasib yer seçib onu təchiz etsinlər. Bunun üçün lazım olan maliyyə vəsaiti də ayrılmışdı.

Atış proqramlarının hazırlanması və həyata keçirilməsi üçün Hərbi Nazirlik tərəfindən xüsusi komissiya da yaradılmışdı. Bu komissiyaya M. Sulkeviç rəhbərlik edirdi.

1919-cu ildə onun rəhbərliyi altında Cümhuriyyət ordusunun piyada və süvari hissələrində təlim-atış proqramının həyata keçirilməsi üçün metodiki göstərişlər də hazırlanmışdı. Bu göstərişdə bildirilirdi ki, indiyə kimi bir-sıra hisələr atışa hazırlıq təmrinləri üçün heç bir vasitəyə malik deyildirlər. Ona görə də əsgərlərdə odlu silahların işlədilməsi haqqında lazımi məlumatlar yox idi. Bir-sıra hazırlıq işləri aparılmadığı üçün 1919-cu ilin təlim atış kursu böyük ixtisarla tərtib edilmişdi. Adı çəkilən komissiya kursun atış təmrinlərini və kormativlərini də hazırlayaraq hissələrə göndərmişdi.

M.Sulkeviç Hərbiyyə məktəbinin rəisindən tələb edirdi ki, yunkerlərin atəş hazırlığında onların səngərlərdə oturduqları halda qundağın çiyində yerləşdirilməsinə və gözlə görülən hədəflərə atəş açılmasına xüsusi diqqət yetirilsin. Baş Ərkani-hərb rəisinin yunkerlərlə aparılan atəş hazırlığının təkmilljşdirilməsi barədə məktəb rəisinin təklifini işgüzarlıqla qarşılayırdı. Ona görə də onun nəzərinə çatdırırdı ki, atış kursuna hər hansı dəyişikliyin edilməsi lazım bilinirsə bu barədə Baş Ərkani-hərbə məlumat verilsin. M.Sulkeviç onu da tələb edirdi ki, həmin dəyişikliklər əvvəlcə sınaqdan çıxarılsın, sonra isə nəticələri barədə məlumat verilsin və məqsədəuyğun bilindiyi halda onun tətbiqinə başlansın.

Buk məsələlərlə bağlı Hərbiyyə məktəbinin rəisinə göndərdiyi məktubunun sonunda tələb edirdi ki, M.Sulkeviç məktəbin zabit və yunkerlərinin hərbi geyim eskizlərini hazırlasın və razılaşdırılması üçün Baş Ərkani-hərbə göndərsin. Çox güman ki, yunkerlərin geyimlərinin milli tələblərə cavab verməməsi M.Sulkeviçi razı salmırdı. Hərbiyyə məktəbinin giriş qapısı üzərinə lövhə vurulmaması da M.Sulkeviçin narazılığına səbəb olmuşdu. Buna görə də o, məktəb rəisindən tələb edirdi ki, tezliklə giriş qapısı üzərinə yeni lövhələr vurulsun və orada rus dilində olduğu kimi həm də Azərbaycan dilində məktəbin adı yazılsın.

Hissə komandirlərindən birinə göndərdiyi məktubunda bəzi zabitlərin beş guşəli ulduz işlətmələrinə qarşı M.Sulkeviç qəti etirazını bildirirdi. Hərbi nazir S.Mehmandarovun da fikrini ifadə edərək M.Sulkeviç bəyan edirdi ki, milli ulduz səkkiz guşəlidir və ona görə də Cümhuriyyət ordusunda yalnız səkkiz guşəli ulduzlardan istifadə edilməlidir.

Hərbiyyə məktəüinin zabit və yunkerləri üçün hazırlanmış geyim eskizlərinin ilk variantı da M.Sulkeviçi qane etməmişdi. Onun fikrincə yunkerlərin geyim eskizləri hazırlanarkən aşağıdakı məqamlar nəzərə alınmalı idi ;

1) Bayır geyimləri keçmiş vitse-mundirlərə oxşadılmalı, yaxalıq qatlanmalı və bu yaxalığa klapanlar tikilməli və üzərində qoşun növünün emhlemi olmalı idi. Piyadada çarpaz qoyulmuş tüfənglər, süvaridə çarpaz qoyulmuş qılınclar, topçuda, çarpaz qoyulmuş top lülələri, istehkamda bel və balta və s.

2) Ənvərka papaqlarda alayın (silahın) rənginə uyğun zolaq, kokarda yerinə ulduz, çənə altından keçən bərkidici qayış üçün nəzərdə tutulmuş düymə yerinə isə milli rənglərdə olan rozetka, papağın üstündə də möhkəm astar olmalı idi.

3) Səfər forması- sinəsində iki cibi, qara düymələri, möhkəm bağlanması üçün daxildən iki qarmaq keçiricisi olan boz Qafqaz köynəyi olmalı idi. Şalvarlar da Qafqaz materialından hazırlanmalı və kənarında da kant olmalı idi.

M.Sulkeviç Baş Ərkani-hərb rəisi vəzifəsinə təyin edildiyi gündən ölkənin səfərbərlik planının hazırlanması ilə də məşğul idi. Belə bir tapşırıq ona hərbi nazir Səməd bəy Mehmandarov tərəfindən verilmişdi. Ölkənin düşdüyü vəziyyət də bunu tələb edirdi. Çünki bir tərəfdən erməni təcavüzkar qüvvələri, digər tərəfdən də Denkinçi qüvvələr Azərbaycanın ərazi bütövlüyünə təhlükə yaradırdılar. Həmin təhlükənin qarşısının etibarlı şəkildə alınması üçün müdafiə imkanlarının genişləndirilməsi böyük əhəmiyyət kəsb edirdi. M.Sulkeviç dərhal S.Mehmandarovun tapşırığının icrasına başlasa da müvafiq hüquqi bazanın olmaması müəyyən çətinliklər yaradırdı. Vəziyyətdən daha səmərəli çıxış yolunun tapılması üçün M.Sulkeviç bir sıra təkliflər irəli sürdü. Bu təkliflər onun 1919-cu il aprelin 8-də S.Mehmandarovun adına yazdığı məruzəsində də öz əksini tapmışdı.

M.Sulkeviç bildirirdi ki, səfərbərlik planının hazırlanması üçün Azərbaycanın Tiflisdəki hərbi attaşesinə «Səfərbərlik təlimatı» əldə edib göndərməsini tapşırmışdır. Onun fikrincə parlament tərəfindən hərbi mükəlləfiyyət haqqında nizamnamənin hələlik qəbul edilməməsi də səfərbərlik planını hazırlanmasına çətinlik yaradırdı. Lakin səfərbərliyin həyata keçirilməsi üçün müvafiq vəzifəli şəxslərə konkret tapşırıqlar verilməlidir. Adları çəkilən sənədlərin olmadığı bir vaxtda M.Sulkeviç səfərbərlik məsələsinin aşağıdakı kimi həll edilməsini təkulif edirdi. Onun fikrincə bəyan edilməli idi ki, səfərbərlik- silah gəzdirməyi bacaran bütün müsəlman əhalisinin çağırışa cəlb edilməsidir. Səfərbərlik elan edilən vaxt onlar yaxınlıqdakı hərbi hissələrə gələrək onun hərbi vəziyyət dövrü üçün nəzərdə tutulmuş ştatını tamamlamalı idilər. Əgər səfərbərliyə cəlb edilənlərin sayı hissənin ştat sayından çox olardısa onda onlar malik olduqları silahın və atların miqdarına görə əlahiddə könüllü hərbi dəstələrdə birləşməli idilər.

Belə bir prinsipin rəhbər tutulması M.Sulkevçin fikrincə hüquqi baza olmadığı bir vaxtda səfərbərliyi daha asan həyata keçirməyə zəmin yarada bilərdi. Onun tələbinə görə səfərbərliyə cəlb edilənlər öz paltarlarında, öz silahları və əgər varsa atları ilə birgə gəlməli idilər.

Hərbi xidmətin təşkili ilə bağlı da M.Sulkeviçin bir-sıra maraqlı fikir və sərəncamları var idi. Həmin sərəncamların birində M.Sulkeviç vurğulayırdı ki, bir-çox hissə və birləşmə komandirləri ehtiyac duyduqları çatışmazlıqlar üzrə aidiyyatı olan xidmətlərə deyil, birbaşa hərbi nazirin özünə müraciət edirlər. Bu isə bir tərəfdən hərbi nazirin vaxtını alır, digər tərəfdən də məsələnin həllini uzadırdı. Halbuki hərbi nazirin müdaxiləsi olmadan belə həmin müraciətləri həll etmək mümkün idi. Ona görə M.Sulkeviç tələb edirdi ki, hərbi hissə və birləşmə komandirləri onları narahat edən məsələlər üzrə əvvəlcə müvafiq xidmət rəislərinə müraciət etsinlər və yalnız həmin rəislər zərurət yarandığı təqdirdə məsələni hərbi nazir qarşısında qaldırsınlar.

Məmməd bəy Sulkeviçin Cümhuriyyət ordusunda və Azərbaycan xalqı qarşısında çox dəyərli xidmətlərindən biri də 1919-cu ilin yayında Denikin

təcavüzününü qarşısını almaq üçün çox işgüzar və səmərəli fəaliyyət göstərməsi idi. Məməd bəy şimaldan gözlənilən təhlükənin qarşısını almaq üçün həyata keçirilən bütün müdafiə işlərinin ilhamvericisi olmaqla bərabər bu sahədə Səməd bəy Mehmandarovun ən yaxın köməkçisi idi. Onun qaldırdığı bütün məsələlər demək olar ki, tam şəkildə Səməd bəy tərəfindən müdafiə olunur və onların həyata keçirilməsi üçün bütün imkanlardan istifadə edilirdi. Səməd bəyin tapşırıqları M.Sulkeviç tərəfindən onun arzu etdiyi şəkildə yerinə yetirilirdi. Ölkənin müdafiəsinin təşkilində bu iki şəxsin strateji görüşlərinin üst-üstə düşməsinin nəticəsi idi ki, mövcud imkan daxilində Bakı ətrafında və şimal sərhəddi istiqamətində kifayət qədər etibarlı və çox elementli müdafiə sistemi yaradılmışdı. «Azərbaycan və Gürcüstan respublikaları arasında hərbi-müdafiə sazişi də əslində Denikin təcavüzünün qarşısının alınması üçün bağlanmışdı və həmin sazişin altında da Səməd bəy Mehmandarovla bərabər Məmməd bəy Sulkeviçin də imzası dururdu. Həmin sazişin əməli nəticələri şimal sərhəddinin möhkəmləndirilməsində özünü nümayiş etdirdi.

Hərbi Nazirliyin rəhbərliyinin şimal sərhədlərinin möhkəmləndirilməsi və bütünlükdə ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi barədə hərbi nazir S.Mehmandarovun və Baş Ərkani-hərb rəisi M.Sulkeviçin imzası ilə Dövlət Müdafiə Komitəsinin adına göndərilmiş 26 iyun 1919-cu il tarixli raportda geniş məlumat verilmişdir. Bu raportun layihəsi heç şübhəsiz ki, M.Sulkeviç tərəfindən hazırlanmış və hərbi nazirlə razılaşdırıldıqdan sonra hər ikisi tərəfindən imzalanmışdı. Əvvəla raportda qaldırılan məsələlər əsasən M.Sulkeviçin fəaliyyət sahəsinə aid idi və onun birbaşa rəhbərliyi altında həyata keçirilirdi. Digər tərəfdən də bu raportda öz əksini tapan bir-çox məsələlər aşağıda görünəcəyi kimi M.Sulkeviçin hərbi nazir S.Mehmandarovun adına yazdığı bir-sıra məruzələrdə öz əksini tapmışdı.

S.Mehmandarov və M.Sulkeviç bu raportda Azərbaycanın başı üzərini kəsdirmiş olan təhlükənin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinin zəruriliyini vurğulayırdılar. Raportda qeyd olunurdu ki, ingilis komandanlığı tərəfindən demorkasiya xəttinin müəyyənləşdirilməsi heç də könüllü ordunun Azərbaycana hücum təhlükəsinin aradan qaldırılması demək deyildir. Heç bir təbii maneələrlə bağlanmayan bu şərti sərhəd istənilən vaxt Antantanın gizli razılığı ilə pozula bilərdi. Rus mətbuat orqanlarının verdiyi xəbərdən də məlum olurdu ki, Dərbəndin tutulması ingilislərn razılığı əsasında baş vermişdi və bu hərəkət Könüllü ordunun Qızıl Burun-Zaqataladan keçən ilkin demarkasiya xəttinə doğru irəliləməsinin birinci mərhələsi idi.

S.Mehmandarov və M.Sulkeviç şübhə etmirdilər ki, 1919-cu ilin yayında Qarabağda və Lənkəranda hərbi-siyasi şəraitin mürəkkəbləşməsi də Könüllü ordunun Dağıstan ərazisində fəallaşması və Azərbaycanı təhdid etməsi ilə bir başa bağlı idi.

İngilislər tərəfindən müəyyənləşdirilmiş demarkasiya xətti Dağıstan ərazisindən keçirdi və Denikin qoşunları bu xətdən cənuba keçməməli idilər. S.Mehmandarov və M.Sulkeviç Dövlət Müdafiə Komitəsinin adına yazdığı raportda Dağıstanın işğal edliəcəyi təqdirdə Azərbaycanın qoşun hissələrinin də

Dağıstan ərazisinə yeridilməsini və demarkasiya xəttinə qədər olan ərazini nəzarət altına almağı istisna etmirdilər. Belə bir addımın atılması Bakının da hüdudlarının qorunmasını asanlaşdıra bilərdi. Ancaq, S.Mehmandarov və M.Sulkeviç bu işin çox ehtiyatla və incəliklə həyata keçirilməsini lazım bilirdilər. Çünki əsaslandırılmamış addım Könüllü ordu ilə Azzərbaycan arasındakı münasibətlərin mürəkkəbləşməsi ilə nəticələnərdi. Buna yol verilməməsi üçün Hərbi Nazirliyin rəhbərliyi Könüllü ordu ilə danışıqlar aparılmasını, demarkasiya xəttindən cənuba olan əraziyə qoşun çıxarılması üçün qarşılıqlı razılığın əldə edilməsini də mümkün sayırdı.

Raportda Dağıstana qoşun bölmələri yeridilməsindən əvvəl orada vəziyyətin hərtərəfli öyrənilməsinin, mövcud anarxiyanın aradan qaldırılması üçün lazımi tədbirlərin görülməsini, orada mülki idarəçiliyin qaydaya salınmasının zəruriliyi vurğulanırdı.

Daha sonra raportda Hərbi Nazirliyin hissələrinin formalaşma prosesinin necə getdiyi, yaxın gələcəkdə hansı hissələrin yaradılmasının planlaşdırıldığı, Gürcüstandan alınan hərbi silahların və texnikanın necə bölüşdürüləcəyi, hansı hissələrin möhkəmləndiriləcəyi barədə məlumath verilirdi. Raportda yazılanlardan aydın olur ki, şimal sərhədlərində və Bakı ətrafında istehkamçı kadrlara ehtiyac çox artdığı üçün İstehkam məktəbinin istehkam bölüyünə çevriləcəyi nəzərdə tutulurdu. Dağıstana qoşun yeridiləcəyi təqdirdə isə onların aşağıdakı şəkildə yerləşdirilməsi nəzərdə tutulurdu: Temirxan Şurada- iki piyada taboru, bir topçu batareyası və bir süvari alayı ( dörd bölük), Dərbənddə isə bir piyada taboru və bir topçu batareyası . Bunlardan artıq Dağıstana qüvvə göndərmək imkanı yox idi. S.Mehmandarovun və M.Sulkeviçin fikrincə Qarabağda vəziyyətin mürəkkəbləşməsi üzündən oradan və Ermənistan sərhəddindən qoşun hissələrinin şimala gətirilməsi məqsədəuyğun deyildi.

Dövlət Müdafiə Komitəsinin sədrinə verilən məlumatdan aydın olurdu ki, Hərbi Nazirlik yaxın vaxtlarda səfərbərlik planını, səfərbərlik cədvəlini və dəmir yolu üzrə səfərbərlik qrafikinin hazırlanmasına da başlamalı idi.

Bakı ətrafında müdafiə işlərinin aparılmasını da M.Sulkeviç Denikin təhlükəsinə qarşı mübarizənin tərkib hissəsi sayırdı. Bu istiqamətdə də M.Sulkeviçin təqdirəlayiq xidmətləri vardır. O, ya vəzifə səlahiyyətləri çərçivəsində bu və digər işlərin icrasını təşkil edir, ya da lazımi işlərin icrası üçün hərbi nazirin qarşısınıda vəsatət qaldırır, irəli sürülən təklifin mahiyyətini yazılı olaraq əhatəli şəkildə açıqlayırdı. M.Sulkeviç strateji əhəmiyyətli müdafiə tədbirlərinin həyata keçirilməsini daim nəzarət altında saxlayır, məsul şəxslərdən hesabat tələb edirdi. M.Sulkeviçin fikrincə Həştərxandan və Xəzərin o tayından bolşevik qüvvələri, Petrovskdən (Mahaçqala) isə Könüllü ordunun dəniz qüvvələri istənilən vaxt ciddi bir müqavimətə rast gəlmədən Bakıya desant çıxara bilərdilər. Özlərini Azərbaycanın müdafiəçiləri kimi göstərməyə çalışan ingilis komandanlığının Xəzər donanmasının gəmilərinin bir hissəsinin Könüllü orduya verərək Bakının dənizdən müdafiəsiz qoyması isə Azərbaycanın paytaxtı üzərində real təhlükənin mövcudluğundan xəbər verirdi. Çünki dəniz tərəfdən Bakı şəhəri tamamilə müdafiəsiz qalmıqşdı. Dənizdən hücum edə biləcək düşmən qüvvələrinə müqavimət göstərmək üçün sahil boyu heç bir müdafiə tədbiri görülməmişdi.

Doğrudur, Bakı körfəzində bir-neçə ingilis topları qurulmuşdu. Ancaq M.Sulkeviçin fikrincə həmin toplar yaxşı halda bolşevik müqavimət göstərə bilərdilər. Könüllü ordunun dəniz qüvvələrinin qarşısını isə bu toplarla saxlamaq mümkün deyildi. Digər tərəfdən ingilislərin qarşılıqlı əlaqədə olduqları Könüllü orduya atəş açacağı da şübhə altında idi.

M.Sulkeviç öz raportunda qeyd edirdi ki, dənizdən Bakının etibarlı müdafiəsinə nail olmaq üçün bir-sıra konkret tədbirləri həyata keçirmək lazımdır. Bunlar aşağıdakı tədbirlər idi: 1) Dənizin müşahidəsi; 2)Dənizdən şəhərin həndəvərinin artilleriya müdafiəsinin təşkil edilməsi; 3)Dəniz polisinin və liman növbəsinin yaradılması; 4) Bütün hərbi dəniz məsələlərinin Hərbi Nazirliyin əlində cəmləşdiriməsi.

Dənizin müşahidəsinin təşkili və yaxınlaşa biləcək təhlükədən vaxtında xəbər tutulması üçün M.Sulkeviç təkcə sahil boyu müşahidə və kəşfiyyat aparılmasını kafi saymırdı. Onun fikrincə həm də üzən vasitələrlə dənizin özündə kəşfiyyat aparılması və dozor xidmətinin təşkil edilməsi yaxşı olardı. Bunun üçün M.Sulkeviç Yollar Nazirliyi tərəfindən təklif edilən və heyəti də müsəlmanlardan ibarət olan iki ədəd gəmidən istifadə ediləcəyini mümkün sayırdı. Bu gəmilərə topların və pulemyotların qoyulması onların hərbi imkanlarını da kifayət qədər artıra bilərdi. Gəmilərdən əlavə M.Sulkeviç bir-neçə barkasın və mühərrikli qayığın tapılmasını da məqsədəuyğn sayırdı. Bu məsələnin həllində ingilislər tərəfindən müəyyyən kömək göstəriləcəyi güman edilirdi. Qarşılıqlı məsləhətləşmələrdən sonra yaxın vaxtlarda ingilis qoşunlarının dəniz qüvvələri qərargahı ilə xüsusi müşavirə keçirilməsi və orada bir-neçə ədəd barkasla mühərrikli qayığın Azərbaycan tərəfinə verilməsinin həll ediləcəyi planlaşdırılırdı. M.Sulkeviç onu da əlavə edirdi ki, ingilislərlə danışıqların nəticələrini gözləmədən biz dərhal iki gəminin, bir-neçə barkas və motorlu qayığın öz qüvvəmizlə təchiz edilməsinə və onların dozor xidmətinə cəlb edilməsinə çalışmalıyıq.

M.Sulkeviç dənizdən şəhər həndəvərinin toplarla müdafiəsi barəsində öz raportunda qeyd edirdi ki, bu məsələ də düşmən gəmilərinə qarşı mübarizə aparmaq üçün heç də əhəmiyyətsiz deyildir. Bunun üçün elə böyük xərclər də lazım deyildi. Çünki Bakını əhatə edən sahilin coğrafi imkanları onu çarpaz top atəşləri vasitəsilə etibarlı şəkildə müdafiə etməyə imkan verirdi. Bayıl və Zığ burunlarında, habelə Nargin adasında topları yerləşdirməklə düşmən gəmilərinin Bakıya girməsinin qarşısını almaq olardı. Böyük çaplı topların olmadığı üçün M.Sulkeviç hələlik adları çəkilən məntəqələrin hər birində 2 ədəd 3 düyməlik topların yerləşdirilməsini də qənaətbəxş sayırdı.

Dəniz polisinin yaradılmasına gəlincə M.Sulkeviçin bildirdiyinə görə belə qüvvələr artıq mövcud idi. Ancaq yaranmış zərurətlə əlaqədar olaraq onların vəzifələrini bir qədər genişləndirmək lazım idi. Dəniz polisi yaxın məsaffədə dozor xidmətini təşkil edə, sahil obyektləri ilə adalar arasında əlaqə yarada bilərdi.

Hərbi-dəniz məsələləri üzrə bütün səlahiyyətlərin Hərbi Nazirliyin əlində cəmləşdirilməsini də M.Sulkeviç çox mühüm bir məqam kimi qiymətləndirirdi. O bu işgin dərhal görülməsini təklif edirdi. Məmməd bəyin fikrincə hərbi əməliyyatlar başlandığı vaxt həm quru, həm də dəniz müdafiəsi hərbi nazirə

tapşırılacaqdı. Lakin M.Sulkeviç bu başdan dənizdən müdafiənin bütün işlərinin hərbi nazirə tapşırılmanı lazım bilirdi ki, hər hansı təcavüz başlanana kimi həm zəruri addımlar atılsın, həmdə dənizdən müdafiə işində müəyyən bir təcrübə əldə edilsin. Hərbi-dəniz işlərinin hərbi nazirin əlində cəmləşdirilməsinin təşkili üçün M.Sulkeviç təklif edirdi ki, rəhbəri olduğu Baş Ərkani-hərbdə xüsusi bir hərbi-dəniz bölməsi təşkil edilsin və hərbi dəniz işləri ilə bağlı bütün məsələlər də bu bölmədə həll edilsin.

Görüləcək bütün müdafiə işlərinin xərclərini də M.Sulkeviç hesablayaraq öz raportunda qeyd etmişdi. Onun fikrincə müdafiə mövqelərinin tikintisi üçün 500 min rubl, müdafiə tədbirlərinin həyata keçirilməsi üçün isə ayda 150 min rubl vəsait lazım idi.

Bakı şəhərinin və bütünlükdə şimal sərhədlərinin dənizdən müdafiəsinin vacibliyini nəzərə alaraq Azərbaycan hökumətinin sədri N.Yusifbəyli də Denikin təhlükəsindən daha etibarlı şəkildə qorunmaq üçün ingilis komandanlığına müraciət etdi. Xəzər dəniz donanmasının gəmilərinin yarısı Denikinin sərəncamına verilmişdi və bir hissəsi də ingilis komandanlığının sərəncamında idi. Nazirlər Şurasının sədri Azərbaycana da Denikinə verilmiş sayda hərbi gəmilərin verilməsini xahiş edir və bu gəmilərin dənizdən sahil obyektlərinin qorunması üçün zəruri olduğunu açıqlayırdı. Ancaq məlumdurki, ingilis qoşunları komandanlığı Azərbaycan tərəfinin bu xahişinə müsbət cavab vermədi və 1919-cu il avqustun 15-də Azərbaycanı tərk edərkən bütün hərbi gəmiləri Könüllü orduya təhvil verdi. Bununla da Azərbaycanı təhdid edən Könüllü ordu hərbi cəhətdən daha da möhkəmləndirildi və Bakının dənizdən müdafiəsi üçün real təhlükə yarandı.

1919-cu il avqust ayının 19-da M.sulkeviç yaranmış yeni şəraitlə bağlı yenidən S.Mehmandarova Bakının dənizdən müdafiəsinin möhkəmləndirilməsi barədə məruzə təqdim etdi. M.Sulkeviç əvvəlki raportunda qaldırmış olduğu bir-çox məsələləri bu məruzədə də qeyd edirdi. Bununla bərabər başlıca diqqəti belə bir məsələyə yönəldirdi ki, ingilislərin Azərbaycanı tərk etməsi ilə denikinçilərin əl-qolu açılmış və Abşeron yarmadasına istənilən vaxt hücum etmək üçün tam sərbəstlik qazanmışdılar.

M.Sulkeviç qeyd edirdi ki, ingilislər heç olmasa «Qars», «Ərdəhan», «Göytəpə» hərbi gəmilərini Azərbaycana versəydilər biz özümüzü az-çox dənizdən müdafiə edilmiş hesab edərdik.

Bakı həndəvərinin toplarla müdafiəsinin gücləndirilməsi üçün M.Sulkeviç təklic edirdi ki, Gürcüstana müraciət edilsin və oradan böyük çaplı toplar alınsın. Həmin topların Bakı sahilində qurulması şəhərin müdafiəsinin etibarlılığını xeyli artırmış olardı. M.Sulkeviçin fikrincə Gürcüstandan böyük çaplı toplar alınsaydı onların Bakı ətrafından başqa Mixaylovkada, Qızıl Burunda, Puta və Ələtdə quraşdırılması da vacib idi. Çünki həmin məntəqələrdən quruya desant çıxarılması üçün əlverişli imkan vardı və düşmən tərəfi bundan istənilən vaxt istifadə edə bilərdi.

Bakı ətrafında müdafiə qurğularının tikintisinə məsləhət vermək və əyani kömək göstərmək üçün M.sulkeviçin xahişi ilə gürcü generalları Kutalaşvili və

Takaişvili Bakıya gəlmişdilər. General Takaişvili Bakı ətrafında müdafiə işinin vəziyyəti ilə tanış olduqdan sonra Baş Ərkani-hərbin general-kvartirmeyster şöbəsinin rəisi polkovnik Karqaleteliyə yazdığı məlumatında aşağıdakı məsələlərin həll edilməsini lazım bilirdi: Onun fikrincə istehkam işinə cəlb edilmiş hər bir qrupun müfəssəl iş planı hazırlanmalı idi, işçilər üçün binalar hazırlanmalı və onların iaşə təminatı həll edilməli idi. General Takaişvilinin irəli sürdüyü bu və ya digər təkliflərin həlli üçün Baş Ərkani-hərb tərəfindən tezliklə mümkün olan hər bir iş görülürdü. Bu müdafiə sistemi iki xətdən ibarət idi: 1) Abşeron yarmadasının müdafiəsi və 2)Bakı şəhərinin müdafiəsi.

Hərbi nazir S.Mehmandarov M.Sulkeviçin Bakı həndəvərindən başqa düşmən desantının çıxarıla biləcəyi məntəqələrdə də topların yerləşdirilməsi təklifini qəbul etdi və bu işə baxılması barədə əmr verdi. Həmin əmrə görə Qözöl Burunda, Ələtdə və Nizovı limanında toplar yerləşdirilməli idi. Hərbi nazir 2-ci zirehli qatarın da Bakının müdafiəsinə cəlb edilməsi barədə M.sulkeviçin təklifi ilə razılaşdı və bu qatar Bakı istehkamat hissəsinin sərəncamına verildi.

M.Sulkeviç Maliyyə Nazirliyinin sərəncamında olan sərhəd mühafizəsi şöbəsinin də Bakı ətrafının müdafiəsinə cəlb edilməsini vacib sayırdı. Bunun üçün o, Bakı istehkamat hissəsinin rəisi M.G.Tlexasa da müvafiq göstəriş vermişdi. M.sulkeviçin bildirdiyinə görə sərhəd mühafizəsi şöbəsi Qızıl Burundan Ələtə və daha sonra Astaraya qədər olan ərazini Bakı istehkamat hissəsinin qüvvələri ilə bərabər nəzarət altına almalı idi.

1919-cu il noyabr ayının 26-da M.sulkeviç Bakı istahkamat hissəsinin rəisi M.G.Tlexasa bildirirdi ki, səfərbərlik elan edildiyi vaxt Bakı istehkamat hissəsinin qarnizonuna bir piyada alayı veriləcək. Xüsusi halda isə Bakı qarnizonundan başqa bir alay da verilə bilər. Onun yazdığına görə yaxın zamanlarda Bakı qanizonunun bütün hissələri müharibə dövrü ştatına çatdırılmalı idi. Ancaq bu hissələrin komandirləri əvvəlcədən Bakı ətrafındakı müdafiə tikililəri və mövqeləri ilə tanış olmaları lazım bilinirdi. Həmin müdafiə mövqeləri M.Sulkeviçin fikrincə sektorlara bölünməli, hər sektorun rəisi müəyyənləşdirilməli və onlara lazımi göstərişlər verilməli idi. Müharibənin başlayacağı təqdirdə Bakıya gələn dəniz və dəmir yolu, habelə Şollar su xəttinin kəsilə biləcəyi üçün M.Sulkeviç M.Tlexasın nəzərinə çatdırırdı ki, Bakının ərzaqla təmin edilməsi yolları da düşünülməlidir. Sonra M.Sulkeviç bu məsələlərin çox sürətlə yerinə yetirilməsinin vacibliyini vurğulayırdı.

Bakının ətrafında dayanan qüvvələrin çevik idarə edilməsinə nail olmaq üçün M.Sulkeviç Poçt və teleqraf nazirinə məktub göndərərək ondan Nargin adasında radiostansiyaların quraşdırılmasını xahiş edirdi. Poçt və teleqraf naziri bu məsələnin həllini mükün sayırdı. Göndərdiyi cavab məktubunda o, Nargin adasında radiostansiyaların quraşdırılmasının və onların işinin təkmilləşdirilməsinin texniki tərəflərini M.Sulkeviçin nəzərinə çatdırdı.

Bakının ətrafının müdafiəsi ilə bağlı M.Sulkeviçin irəli sürdüyü təkliflər içərisində şəhərin toplarla müdafiəsinə xüsusi yer verilirdi. Yuxarıda qeyd edildiyi kimi müdafiə batareyalarının Şıx, Sultan (Zığ) burunlarında və Nargin adasında yerləşdirilməsi planlaşdırılırdı. Bu mövqelər içərisində isə Nargin adasındakı

mövqe daha böyük əhəmiyyətə malik idi. M.Sulkeviç şübhə etmirdi ki, düşmən bu adanı ələ keçirib onn mərkəzindəki yüksəkliyə toplar yerləşdirsəydi şəhərin dənizdən qorunması qeyri-mümkün olardı. Çünki Bakı körfəzində hərbi gəmilər yox idi və Nargin adasındakı top mövqelərini yalnız şəhərin kənarında qurulmuş toplarla susdurmaq olardı.

M.sulkeviçin rəhbərliyi altında Baş Ərkani-hərb tərəfindən ümumi səfərbərlik elan edildiyi təqdirdə dəmiryolu xətlərinin qorunması haqqında təlimat da hazırlanmışdı. Təlimata əsasən Azərbaycanın dəmir yolu xətləri beş sahəyə bölünmüşdü: Poylu-Qovlar, Qovlar-Yevlax, Yevlax-Hacıqabul, Hacıqabul-Biləcəri - Bakı, Biləcəri-Samurçay sahələri. Səfərbərlik elan edilən kimi bütün dəmir yolu xətti , habelə Şollar su kəməri mövcud olan dəmir yolu mühafizə bölmələri tərəfindən qorunmalı idi. Bu bölmələrə kömək göndərilməsi də nəzərdə tutulurdu.

İngilis qoşunları Azərbaycanı tərk edəndən sonra Könüllü ordunun hissə və bölmələrinin sərhədd xətti yaxınlığındakı fəallığı xeyli artmışdı. Şimal bölgəsində yerləşən hissələrin komandanlığı ilə Baş Ərkani-hərbin rəisi M.Sulkeviçin yazışmalarından aydın olur ki, Könüllü ordunun hərbçiləri əsrhəd xətti yaxınlığında təxribatlar törədir, Könüllü ordunun zirehli qatarı vaxtaşırı burada manevrlər edirdi. Məmməd bəy Sulkeviç də göstəriş vermişdi ki, Azərbaycan ordusuna məxsus olan zirehli qatar vaxtaşırı sərhəd xəttinə çıxarılsın və bununla da Azərbaycanın da qoşun hissələrinin Könüllü ordunun hər cürə təxribatlarına hazır olduğunu nümayiş etdirsin.

1919-cu il noyabr ayında şimalda bir-sıra hərbi uğurlar qazanmış Könüllü ordunun mövqeləri yenə möhkəmləndirildi və Azərbaycan üzərinə hücum təhlükəsi yenə real xarakter aldı. Könüllü ordunun Dağıstanda fəallaşması ilə bir zamanda onunla sıx əlaqədə olan Ermənistan silahlı qüvvələrinin də təcavüzkarlığı genişləndi. Zəngəzur ekspedisiyasının başlanması ilə Denikin qüvvələri də Dağıstan ərazisində bir-sıra manevrlər etməyə cəhd göstərdilər.

Ermənistanın və Könüllü ordunun Azərbaycana qarşı təcavüzkarlığı geniş miqyas alacağı təqdirdə Cümhuriyyət ordusunun hissə və bölmələrinin harada və necə yerləşdiriləcəyi barədə Baş Ərkani-hərb rəisi M.Sulkeviç xüsusi bir plan hazırladı.

M.Sulkeviç planda qeyd edirdi ki, ötən 6 ay ərzində Azərbaycan tərəfindən baş verən proseslər göstərdi Denikinin ki, Könüllü ordusu ilə Ermənistan arasında sıx əlaqələr mövcuddur. Denikin ordusu Dağıstanda fəallaşmağa başlayan kimi Ermənistan da öz qoşunlarını Dilicana və Qarabağ sərhəddinə çıxardı. Zəngəzur ekspedisiyası başlananda isə Könüllü ordu Dağıstanda fəallaşmağa başladı və bununla da Cümhuriyyət ordusunun ehtiyat qüvvələrinin diqqətini özünə cəlb edərək Zəngəzura əlavə hissələr göndərilməsinin qarşısını almağa çalışırdı.

M.Sulkeviç yazırdı ki, nəzərdə tutulan təşkilati işlərin başa çatdırılması ilə 1920-ci il yanvar ayının sonunda ordunun tərkibi aşağıdakı kimi olacaqdır: 1) Piyada qüvvələri-tərkibinə 4 piyada alayı daxil olan iki piyada diviziyası. Alayların hər biri 3 tabordan ibarət olmalı idi. Səfərbərlik elan olunanda piyada alaylarında dördüncü tabor təşkil edilməli idi. Hər taborda da dörd bölük var idi. Alayların üç taboru döyüş vəzifəsi almalı, dördüncü tabor, Bakıdakı qala taboru və bir-sıra

ehtiyat hissələr isə ehtiyat qüvvə kimi saxlanılmalı idi.

2) Topçu qüvvələri- Beş batareyadan ibarət iki topçu briqadası. Batareyaların ikisi dağ, üçü isə yüngül toplardan təşkil edilmişdi. Bundan başqa hər piyada diviziyasının bir qaubitsa batareyası və süvari diviziyasının bir atlı-dağ batareyası var idi. Bu 12 batareyanın hər birində dörd ədəd top var idi. Bakı İstehkamat hissəsində də beş batareya təşkil edilib sona çatdırılmalı idi. Onlardan dördü iki topdan, beşincisi isə beşinci topdan ibarət olmalı idi.

3) Süvari qüvvələri- hər biri dörd bölükdən ibarət olan üç süvari alayı və kürd süvari divizionu. Bunların hamısı bir süvari divizionunda birləşdirilmişdi.

4) İstehkam qüvvələri-bir istehkam bölüyü. Bundan başqa səfərbərliyin elan edilməsi ilə sərhəd mühafizə qüvvəsi və daimi milis də Hərbi Nazirliyin tabeçiliyinə verilməli idi. Bu qüvvələr 15-20 minlik partizan dəstəsi ilə gücləndirilməli idilər.

M.Sulkeviçin fikrincə Könüllü ordu qüvvələri və Ermənistan qoşun hissələri aşağıdakı istiqamətlərdən Azərbaycan ərazisinə təcavüz edə bilərdilər: 1) Yalama-Xaçmaz-Bakı, 2) Dilican-Qazax-Akstafa, 3) Dilican-Gədəbəy-Gəncə, 4) Gorus-Şuşa-Yevlax

Bu istiqamətlərdən birincisi Könüllü ordunun hücum edə biləcəyi ehtimal olunan marşrut idi. M.Sulkeviç həm Könüllü ordunun , həm də bolşevik qüvvələrinin apardığı əməliyyatların təcrühbəsini ümumiləşdirərək yazırdı ki, həmin qüvvələrinin hər ikisinin başqa nəqliyyat vasitələri olmadığından əsasən dəmir yolu xətti boyunca hərəkət edirdilər. Ona görə də M.Sulkeviç bu qənaətə gəlmişdi ki, Denikin qüvvələri də Azərbaycana təcavüz edərdilərsə yalnız dəmir yolu boyunca hərəkət edərdilər.

M.Sulkeviç bildirirdi ki, Denikin təhlükəsinin qarşısını almaq üçün Qubada bir piyada diviziyası, bir süvari diviziyası və partizan qüvvələri yerləşdirilmişdir. Piyada diviziyası bir alayını Bakı İstehkamat hissəsi qarnizonuna verərək baş komandanın ehtiyatını təşkil edəcək və Qızıl Burun- Xaçmaz ərazisində yerləşəcək. Bu qüvvələr təhlükə baş verərdisə həm Samur çayı xəttinə, həm də Bakı ətrafına tez bir zamanda çatmaq imkanına malik olacaqdı.

M.Sulkeviçin qeydlərindən aydın olur ki, şimal sərhədlərinin möhkəmləndirilməsi üçün Gürcüstandan da hərbi qüvvələr gəlməli idi.

Ermənistanla sərhəd xəttinin təhlükəsizliyinin təmin edilməsi üçün M.Sulkeviçə görə Qarabağda dörd piyada taborunun və bir süvari divizionunun , Gəncədə isə 3 taborlu bir piyada alayının saxlanılması nəzərdə tutulurdu. Onlara partizan dəstələri və sərhəd mühafizə qüvvələri də kömək etməli idi. Yerdə qalan daimi milis və partizan qüvvələri isə cəbhə arxasında əmin-əmanlığın yaradılmasına cəlb edilməli idilər.

Müharibənin başladığı təqdirdə Qarabağda və Ermənistanla sərhəddə olan qüvvələrin idarə edilməsinin bir əldə birləşdirilməsi planlaşdırılırdı. Bunun üçün Gəncədə arxa rayon qüvvələri komandanlığı yaradılmalı və həmin qüvvələr də bu komandanlığa tabe etdirilməli idi. Müharibə başlandığı təqdirdə ölkə parlamenti və hökuməti də Gəncəyə köçürülməli idi.

M.Sulkeviç onu da yazırdı ki, Ermənistan və Dağıstanla sərhəd xəttinin

coğrafi şəraiti müdafiə üçün heç də əlverişli deyildir. Sərhəd çayı olan Samur çayı az sulu kiçik bir çay idi. Bu çayda su  yalnız güclü yağış yağanda, bir də qarlar əriyəndə çox olurdu. Sonra isə Qızıl Buruna kimi düzənlik sahə idi. Bu sahənin torpağı münbit, əhalisi də sıx idi. Ona görə də həmin sahədə az qüvvə ilə etibarlı müdafiəni təşkil etmək mümkün deyildi. Dənizdən desant çıxarılması təhlükəsi də bu sahənin müdafiəsini xeyli çətinləşdirirdi.

M.Sulkeviç təklif edirdi ki, şimaldan müdafiənin gücləndirilməsi üçün qoşun hissələri Dağıstan ərazisinə yeridilsin və Dərbənd dərəsi ələ keçirilsin. Məmməd bəy bu təklifi heç də əlavə ərazilər işğal etmək niyyətilə etmirdi və belə bir addım atılacağı təqdirdə yerli əhali ilə münasibətlərin çox incəliklə qurulmasına çağırırdı. M.Sulkeviçin təklifi yalnız ölkə ərazisinin və eləcə də Dağıstan əhalisinin müəyyən hissəsini Denikin təcavüzündə qorunması naminə irəli sürürdü və bu zaman güman edilirdi ki, həmin təklifin həyata keçirilməsində yerli əhali də öz köməyini əsirgəməyəcəkdir. Dərbəndin yerləşdiyi  coğrafi zona müdafiə üçün çox əlverişli idi. Hündür dağlarla dəniz arasındakı məsafə çox kiçik idi və şimal sərhədlərinin müdafiəsi üçün ayrılmış az qüvvə ilə bu kiçik sahəni etibarlı şəkildə müdafiə etmək olardı. M.Sulkeviç bildirirdi ki,  Samur çayından Dərbəndə qədər olan 30 versti qət etməklə həm müdafiə imkanlarını genişləndirmək olar, həm də burada ehtiyatda daha çox qüvə saxlamaq olardı. Onun yazdığına görə Dərbənd yaxınlığında eni cəmi 2-3 verst olan cəbhə xəttini  bir piyada alayı ilə qorumaq mümkün idi. Ehtiyat qüvvələr isə dənizədən desant çıxarılmasına imkan verməzdi. M.Sulkeviç onu da nəzərdə tutmuşdu ki, Nuxa və Zaqataladan Dağıstana iki partizan dəstəsi göndərilsin və həmin dəstələr yerli əhali ilə birlikdə denikinçilərə qarşı mübarizə aparsın.

M.Sulkeviç Erməinstanla sərhəd sahəsində Akstafa-Tovuz dəmir yolu xəttinin qorunmasına xüsusi diqqət yetirilməsini  vacib sayırdı. Çünki dəmir yolunun bu sahəsinin ələ keçirilməsi  Gürcüstanla olan əlaqələri kəsə bilərdi. M.Sulkeviç bu zonada təhlükənin aradan qaldırılması üçün Azərbaycanın qoşun hissələrinin Dilicana və Göyçə gölünün şərq sahilinə çıxarılmasını məqsədəuyğun bilirdi. Ancaq onu da əlavə edirdi ki, hazırkı azsaylı qüvvələrlə bunu etmək olmaz. Çünki həmin qüvvələr ermənilərin mühasirəsinə düşə bilərlər.

1920-ci ilin əvvəllərində M.Sulkeviç Qafqazın yad qoşunlardan təmizlənməsi, şimaldan Azərbaycanın ərazi bütövlüyünə mövcud olan təhlükənin aradan qaldırılması üçün yeni yaranmış hərbi-siyasi şəraitə uyğun olaraq öz fikir və mülahizələrini ümumiləşdirərək «Dağıstan və Şimali Qafqazda yaranmış vəziyyətin hərbi-siyasi xülasəsi» adı altında xarici işlər naziri Fətəli xan Xoyskiyə təqdim etmişdi. Bu xülasədə M.Sulkeviçin irəli sürdüyü təkliflər konkret tarixi şəraitdə həyata keçirilməsi üçün o qədər də real deyildi. Ancaq bölgədə təhlükəsizliyin yaradılması üçün M.Sulkeviçin strateji görüşlərini aydınlaşdırmaq baxımından bu xülasəni nəzərdən keçirmək maraqlı olardı.

M.Sulkeviç yazırdı ki, Qafqazda baş verən proseslər könüllü ordunun yaxın vaxtlarda məğlubiyyətlə qarşılaşacağından xəbər verir. Həştərxanın, Krasnovodsk və quryev şəhərlərinin itirilməsi ilə Denikinçi qüvvələrin  Xəzər dənizinə nəzarətini xeyli zəiflətmişdi. Hərbi şəraitin belə dəyişdiyi bir vaxtda M.Sulkeviçin

fikrincə bir-sıra tədbirlərin həyata keçirilməsi böyük aktuallıq kəsb edirdi. Onun qeydlərinə görə hər şeydən əvvəl Dağıstan ərazisinin denikinçi qüvvələrdən təmizlənməsi sürətləndirilməli, kubanlılan Kuban vilayətinə, dağlılar isə Terekin sol sahilinə keçməli idilər. könüllü ordu və kazaklar geri çəkildikcə isə Nuru paşanın ətrafında topldaşmış qüvvələr şimala doğru irəliləməli və Terek çayına qədər olan ərazilərə nəzarəti öz əllərinə almalı idilər.

Qeyd etmək lazımdır ki, Qafqaz İslam Ordusunun keçmiş komandanı Nuru paşa Azərbaycanı tərk etdikdən sonra ingilislər tərəfindən həbs edilərək Batumda saxlanmış və bu həbsdən qurtardıqdan sonra Türkiyəyə getmiş və yenidən Bakıya qayıtmışdı. 1920-ci ilin əvvəllərində o, Dağıstan ərazisinə keçərək ətrafına dəstə toplamış əvvəlcə denikinçi qüvvələrə qarşı, sonra da bolşevik qüvvələrə qarşı mübarizə aparmışdı. M.Sulkeviç Qafqazda təhlükəsizliyin möhkəmləndirilməsində Nuru paşanın da öz ətrafına toplamış olduğu qüvvələrdən istifadə etməyi lazım bilirdi. Onun yazdığına görə Dağıstan əraziləri isə bu vaxt Azərbaycan qoşunları tərəfindən qorunmalı idi. Şimal sərhəddində dayanmış olan Quba dəstəsi Dağıstan əoazisinə daxil olmalı və bu ərazinin təhlükəsizliyini öz üzərinə götürməli idi. Həmin qüvvələr Temirxan Şura, Dərbənd və Petrovsk şəhərlərini tam nəzarət altına götürməli idilər. Məmməd bəyin fikrincə eyni dinə xidmət edən xalqın nizami qoşunlarının Dağıstana gəlməsi yerli xalqı daha da ruhlandırar, anarxiyanın və özbaşınalıqların qarşısını almaqla bərabər Dağıstanın Azərbaycana birləşdirilməsi ideyasının reallaşmasına da bir zəmin yaradardı. Bu qardaş xalqların bir dövlət tərkitbində birləşdirilməsini M.Sulkeviç hər iki tərəf üçün əhəmiyyətli bir addım kimi qiymətləndirirdi. Onun yazdığına görə bu xalqların bir-birindən ayrılması süni şəkildə həyata keçirilmişdi. Çünki qohum xalqlar sərhəd xətti ilə yarıya bölünmüşdülər. Onların bir hissəsi Azərbaycan, digər hissəsi isə Dağıstan ərazisində qalmışdı. Bu parçalanmaya baxmayaraq iki tərəf arasında iqtisadi və məişət əlaqələri güclü idi, əhali arasında qızğın ticarət əlaqələri var idi. Həmin iqtisadi yaxınlıq da siyasi yaxınlığa zəmin hazırlayırdı. M.Sulkeviç onu da əlavə edirdi ki, Dağıstanla Azərbaycanın yaxınlaşması çox incəliklə həyata eçirilməlidir. Bu yaxınlaşma tarixi zərurət kimi qəbul edilməli və kimsə bunun qəsb xarakteri daşıdığını güman etməməli idi. Ona görə əhali arasında lazımi izahat işləri aparılmalı idi.

M.Sulkeviç bütün Qafqazda sabitliyə və təhlükəsizliyə nail olunması üçün Terek çayının sahilinə qədər olan ərazilərin rus qüvvələrindən təmizlənməsini, Vladiqafqazın, Proxladnayanın, Qroznının yerli milli hökumətlərin nəzarəti altına keçməsini vacib sayırdı. Onun qeydlərinə görə əgər Nuru paşanın dəstəsi bu ərazilərdə uğurlu döyüşlərər başlasaydı vaxtilə ruslrın işğalına məruz qalmış çeçenlər, inquşlar, osetinlər və kabardinlər də onun ətrafında milli azadlıq hərəkatına qoşulardılar. Terek vilayətində yaradılmış Dağlılar respublikasının,Dağıstanın, Azərbaycanın, Gürcüstanın və o cümlədən də Ermənistanın bir konfederasiyada birləşdirilməsi isə bölgədə böyük bir dövlətin yaranması ilə nəticələnə bilərdi. Qafqaz konfederasiyasının möhkəmləndirilməsi üçün M.Sulkeviç bolşevik hökuməti ilə danışıqlar aparmağı da istisna etmirdi. Belə danışıqların uğurla aparılacağı təqdirdə tərəflər arasında qarşılıqlı anlaşma daha da

genişlənə bilərdi.

Bir daha qeyd edilməlidir ki, M.Sulkeviçin bu fikirləri mövcud tarixi şərait üçün real deyildi və bölgədə cərəyan edən proseslərin sonrakı inkişafı da bunu sübut etdi. Bakı istər denikinçi qüvvələr, istərsə də bolşeviklər üçün həyati vacib bir məntəqə idi və ona görə də Azərbaycanın ərazi bütövlüyünün qorunması mövcud imkanlar daxilində elə də asan deyildi.

Lənkəran bölgəsində separatçılıq hərəkatının zərərsizləşdirilməsindən və Qarabağda erməni təcavüzünə qarşı mübarizənin təşkil edilməsində də Baş Ərkani-hərb rəisi Məmməd bəy Sulkeviçin böyük zəhməti var idi. Ölkənin cənubunn göndərilmiş olan Lənkəran dəstəsinin komandiri general-mayor Həbib bəy Səlimovla Hərbi Nazirliyin rəhbərliyi arasında əlaqələr əsasən M.Sulkeviç vasitəsilə yaradılırdı. Məmməd bəy dəstə ilə Bakı arasında sabit teleqraf əlaqəsi yaratmağa çalışaraq hərbi nazir Səməd bəy Mehmandarovun əmr və tapşırıqlarını H.Səlimova çatdırır və ondan gündəlik döyüş raportlarını alaraq əməliyyatın ümumi gedişini nəzarət altında saxlayırdı. Teleqramların birində M.Sulkeviç göstərirdi ki, Lənkəran dəstəsinə daxil bütün hissə və bölmələr 1919-cu il avqustun 12-də Hacıqabula toplaşmalı və avqustun 13-də Lənkərana doğru hərəkət etməlidir. Lənkəran bölgəsinin əhalisinin tərksilah edilməsi ilə bağlı ortaya çıxan bir-sıra məsələləri də Həbib bəy Səlimov M.Sulkeviçin vasitəsilə aydınlaşdırırdı. Həmin məsələlərlə bağlı onların arasında teleqraf mübadilələri yaradılmışdı.

1919-cu il avqust ayının sonunda M.Sulkeviç daxili işlər nazirinin adına göndərdiyi məktubda bildirirdi ki, Lənkəran dəstəsi ona tapşırılan vəzifəni yerinə yetirərək sentyabrın əvvəllərində Hacıqabula dönəcəkdir. Dəstənin tərkibində olan 3-cü Şəki süvari alayı oradan Şamaxı qəzasının Mərəzə

kəndinə getməli və bu kəndin Azərbaycan hökumətinə tabe olmayan rus əhalisini tərksilah etməli idi.M.Sulkeviç nazirdən xahiş edirdi ki, süvari alayına kömək göstərilməsi barpədə yerli hökumət orqaları qarşısında məsələ qaldırsın. Ancaq ola bilsin ki, sonradan həmin alayın Şamaxıya göndərilməsi zərurəti aradan qalxmışdı. Ona görə 1919-cu il sentyabr ayının 1-də H.Səlimova göndərdiyi teleqramında M.Sulkeviç bildirirdi ki, Şəki süvari alayı Hacıqabuldan Gəncəyə, öz əvvəlki yerinə yola düşsün.

M.Sulkeviç Baş Ərkani-hərb rəisi kimi xidmətə başladığı aylardan Qarabağdakı vəziyyəti daim nəzarət altında saxlayırdı və 1-ci piyada diviziyasının komandirindən tələb edirdi ki, o, bölgədə baş verən hadisələr barədə vaxtaşırı Hərbi Nazirliyə məlumat versin. 1919-cu il avqustun 20-də «Dağlıq Qarabağ ermənilərinin Azərbaycan hökuəmətilə müvəqqəti müqaviləsi» imzalansa da M.Sulkeviç ermənilərin bu müqaviləyə riayət edəcəklərinə inanmırdı. Ona görə də vaxtında etibarlı müdafiə tədbirlərinin görülməsini zəruri bilirdi. Bu baxımdan onun Qarabağ general-qubernatoru Xosrov bəy Sultanova 1919-cu il sentyabr ayının 7-də göndərdiyi məktubu xarakterikdir. O yazırdı ki, Qarabağda sakitliyin yaranması ermənilərin daimi müttəfiqi olan Könüllü orduya qarşı daha güclü müqavimət göstərmək üçün əlverişli şəraidir. İndiki vəziyyətdə Ermənistan Azərbaycan üçün qorxulu deyil.Ancaq vəziyyətin pisləşməsinə də hazır olmaq

lzımdır.

M.Sulkeviçin fikrincə ermənilər Qarabağın birdəfəlik itirilməsi faktı ilə razılaşmayacaqlar və əllərinə düşən hər bir imkandan itirdiklərini geri qaytarmağa çalışacaqlar. Bu isə daha ayıq-sayıq olmağı tələb edirdi. Ehtiyatın əldən verilməməsi üçün M.sulkeviç gələcəkdə Xankəndində və Gorusda hərbi qarnizon saxlamağı məqsədəuyğun bilirdi.

Qarabağda təhlükəsizliyin təmin edilməsi böyük sayda olmayan ordunqun müəyyən hissələrinin bura cəlb edilməsi ilə mümkün idi. Ancaq M.Sulkeviçin fikrincə Qarabağa çoxlu sayda qoşun hissələri gətirilmədən də bölgənin təhlükəsizliyini təmin etmək və bunun üçün Qarabağın özündə müdafiə dəstələri yaratmaq olardı. Bu məqsədlə M.Sulkeviç yüksək hərbi keyfiyyətlərə malik olan kürd əhilisindən istifadə edilməsini və onlardan vaxtilə Türkiyədə yaradılmış olan kürd qeyri-nizami alayları nümunəsində süvari və piyada hissələri düzəldilməsini təklif edirdi.

Kürd əhalisinin lazısi hərbi hazırlığa malik olması üçün M.Sulkeviç təklif edirdi ki, sülh dövründə kürd süvari alayı və kürd nişançı taboru yaradılsın. Xidmət yaşı çatmış kürd əhalisi bu hissələrdə xidmət etməli idi. Səfərbərlik elan edildikdə isə həmin kürd hissələrinin bazasında yeni hissələr yaradılmalı və 20 yaşından 40 yaşınadək olan kürdlə bu hissələrə cəlb edilməli idilər. Qarabağın qorunması üçün lazım olan qüvvələr orada saxlanılmalı, qalanı isə cəbhə bölgələrinə göndərilməli idi. M.sulkeviç Qarabağ general-qubernatorundan xahiş edirdi ki, kürd hissələrinin təşkilati məsələlərini həll etmək üçün bölgədə 20 yaşından 40 yaşına qədər xidmətə yararlı əhalinin miqdarı müəyyənləşdirilsin.

Məlumdur ki, M.Sulkeviçin təklifi Səməd bəy Mehmandarov tərəfindən də bəyənilmiş və onun əmrilə kürd hissələri təşkil edilmişdi.

1920-ci il yanvar ayında Qarabağda vəziyyət mürəkkəbləşəndə M.Sulkeviç özü də bölgəyə gəlmişdi. Hələ Bakıdan yola düşməmiş M.Sulkeviç Ağdama iki ədəd zirehli avtomobil göndərmişdi ki, Şuşa-Yevlax yolunun mühafizəsini təmin etsin.

Yanvar ayının 27-də M.Sulkeviç süvari diviziyasının komandiri Teymur bəy Novruzovla birlikdə Şuşada idilər. O, Xankəndi qarnizonunun rəisi yanına çağırıb vəziyyətlə bağlı onun məlumatını dinləmişdi. M.Sulkeviç Hərbi Nazirliyə göndərdiyi məlumatında bildirirdi ki, süvari diviziyasının qərargahı da artıq Yevoaxdan Xankəndinə yola düşmüşdür.

M.Sulkeviç vəziyyətlə tanış olduqdan sonra bölgədə hərbi texnikanın artırılmasını məqsədəuyğun bildi. Xüsusilə ora əlavə topların, pulemyotların, bir-sıra məntəqələr arasında rabitə yaradılması üçün kabelin göndərilməsi barədə məsələ qaldırdı.

Bunlardan başqa M.Sulkeviç erməni qoşun hissələrinin təcavüzünə qarşı mübarizə aparılması üçün təyyarələrdən istifadə edilməsini və havadan erməni hərbi bazalarına bomba atılmasını da istisna etmirdi. Onun yazdığına görə belə bir təcrübədən Gürcüstanda hökumət əleyhinə üsyanların yatırılmasında çox səmərəli şəkildə istifadə edilmişdi.

M.Sulkeviç təyyarələrdən istifadə etməyi təklif etsə də o vaxt Cümhuriyyət

ordusunun təyyarələri yox idi. Məmməd bəy Qarabağdan Bakıya göndərdiyi teleqramında belə bir təyyarənin Gürcüstandan müvəqqəti olaraq alınmasının mümkünlüyünü nəzərdən keçirməyi xahiş edirdi. Doğrudur, hərbi əməkdaşlıq barədə Azərbaycanla Gürcüstan arasında olan razılamaya əsasən gürcü zabitlərinin Azərbaycan ordusunda xidmət etməsinə icazə verilirdi.Lakin onların Azərbaycan ərazisində hərbi əməliyyatlarda iştirak etməsi qadağan olunmuşdu. Ona görə Məmməd bəy Sulkeviç bildirirdi ki, Gürcüstandan təyyarə alınarsa onu azərbaycanlı pilot Xan Əfşar da idarə edə bilər. Bu isə Gürcüstanla olan razılaşmanın pozulmasına səbəb olmazdı.

Mövcud arxiv sənədlərində erməni qoşun hissələrinə qarşı hər hansı bir təyyarədən istifadə edilməsi haqqında məlumata rast gəlmək mümkün deyildir. Çox güman ki, M.Sulkeviçin qaldırdığı məsələ öz həllini tapmamışdı. Digər tərəfdən də 1920-ci ilin fevral ayında Qarabağda vəziyyət bir qədər sakitləşmişdi. Ola bilsin buna görə Qarabağda təyyarədən istifadə edilməsinə artıq zərurət qalmamışdı.

Qarabağdan qayıdandan az sonra Baş Ərkani-hərb rəisi, general-leytenant Məmməd bəy Sulkeviç Azərbaycan ordusu sıralarından tərxis edildi. Bununla bağlı hərbi nazir Səməd bəy Mehmandarovun 105 saylı əmri ilə 1920-ci il fevral ayının 17-də imzalanmışdı. Azərbaycan Xalq Cümhuriyyətinin müdafiə qüdrətinin möhkəmləndirilməsi üçün çox dəyərli xidmət göstərmiş Məmməd bəy Sulkeviçin ordudan nə səbəbə tərxis olunması Cümhuriyyət ordusunun bu günə kimi açılmamış qaranlıq səhifələrindən biridir. S.Mehmandarovun əmrlərindən birində onun özünün istefa haqqında raport yazdığı göstərilirdi. Ancaq M.Sulkeviç tərxis edildikdən sonra heç də Azərbaycanı tərk etmədi. O, Azərbaycanda qalaraq sonradan da hökumətin çox məsul tapşırıqlarını yerinə yetirirdi. Məsələn, o, Nazirlər Şurası sədrinin əmriilə Bakıdan keçərək Rusiyaya hərəkət edən Könüllü ordu qalıqlarından silah və təchizatını qəbul edən idarələrarası komissiyanın sədri təyin edilmişdi. Həmin komissiyanın sədri kimi M.Sulkeviç 1920-ci il aprel ayının 3-də bir nömrəli əmrini imza etdi. Bu əmrdə o, komissiyanın sədri təyin edildiyini bəyan edir və komisiyanın tərkibində bir-neçə şöbənin yaradıldığını bildirirdi. 1-ci şöbə -hərbi şöbə idi. Bu şöbəyə polkovnik Hacıbəylinski, polkovnik Rozenmeyer, praporşik Hacınski, podporuçiu Xan Əfşar və sairləri daxil idi. Hərbi şöbədən başqa komissiyanın tərkibində ticarət -sənaye şöbəsi, dəmir yolu şöbəsi, dəniz şöbəsi və nəzarət şöbəsi də yaradılmışdı. M.Sulkeviç bu əmrdə daha sonra göstərirdi ki, komissiyanın şöbələrinin məsul şəxsləri elə həmin gün saat 5-də Qaraşəhərdəki dəmir yolu dayanacağının olduğu limana toplaşmalı və orada könüllü ordunun şəxsi heyətinin gəmilərdən boşalmasına və qatarla yola salınmasına nəzarət etməli idilər.

Azərbaycanda bolşevik çevrilişi baş verən kimi Məmməd bəy Sulkeviç də bir-çox zabitlər və generallar kimi həbs edildi. Başqa cür də ola bilməzdi. Çünki Cümhuriyyət ordusunun formalaşmasında böyük xidmətlər göstərmiş milli ruhlu, Rusiyada yaşayan bütün müsəlman xalqlarının istiqlaliyyətini arzulayan bir şəxsin varlığını daşnak xislətli bolşeviklər qəbul edə bilməzdilər. Qısa müddətli həbsdən sonra Məmməd bəy SUlkeviç 1920-ci il iyul ayının 15-də sorğusuz-sualsız ölümə

məhkum edildi və güllələndi. Ş.Nəzirlinin «Cümhuriyyət generalları» kitabında M.Sulkeviçin həyatının son anlarının şahidi olmuş iki nəfərin xatirələri verilmişdir. Birinci xatirə M.Ə.Rəsulzadəyə istinad edilmişdir: «Qardaşım , parlamet üzvü Mehmet Əli bəyin hekayətini ilk dəfə xalqa çatdırmaq istəyirəm. O, qorxmaz general Sulkeviçin qəhrəmancasına ölümünün şahididir. Onunla bir kamerada olan Mehmet Əli bəy söyləyirdi- generala əmr etdilər ki, çekistlərin ardınca getsin. Bizə aydın oldu ki, onun ölüm saatı çatıb. Ətrafa ölüm sükutu çökmüşdü. Onun gözlərinə baxmağa cəsarət etmirdik, biz təsəlli sözü tapa bilmirdik... General Sulkeviç özü bizi qabaqladı. Sakit, qətiyyətli səslə dediyi sözləri ömrüm boyu unutmayacağam:« Xoşbəxtəm ki, müsəlman ordusunun zabiti kimi ölürəm. Xudahafiz».

İkinci xatirənin müəllifi isə Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin şöbə müdiri işləmiş Meçislav Stanislavoviç Rudzinski idi : «1920-ci il aprelin 28-də bolşevik çevrilişi baş verdi. Mən Polşa nümayəndə heyətinin üzvləri ilə birlikdə həbs edildim. Bir-neçə gündən sonra bizi Fövqəladə Komitəyə apardılar. Az sonra general Məmməd bəy Sulkeviç də buraya gətirildi. Onun əhval-ruhiyyəsi çox pis idi. Fikirləşirdi ki, güllələyəcəklər. Özü haqqında veriləcək qərarı təmkinlə gözləyirdi. Onunla bir kamerada olduğumdan bütün günü dərdləşirdik. Birinci günü döşəmədə yatır və başımızın altına yastıq əvəzi qəzet qoyurduq. Sonra rəflər düzəldildi...Çevrilişdən bir-neçə gün sonra sübh çağı çekistlər içəri girərək bir-neçə nəfəri oyatdılar, şeylərini yığmağı onlara əmr etdilər. Çekistlər tələsirdilər, haraya aparacaqları barədə heç nə demirdilər. Mən general Məmməd bəy Sulkeviçin yaxınlığında yatmışdımi. General bizlərdən bir-neçə nəfərin əlini sıxmağa macal tapdı. Xudahafizləşərkən o tam əminliklə bildirdi ki, güllələməyə aparırlar. Özümüzün sağ qalacağımıza heç bir ümidimiz olmasa da ona təsəlli verdik. Onu da qeyd etməliyəm ki, genearl özünü çox ləyaqətli və mərdanə aparırdı. Bir-neçə gündən sonra qəzetlərdə «əksinqilabi fəaliyyətdə» ittihamlandırılanların güllələnməsi haqqında məlumatı oxuduq. Bu siyahıda general-leytenant Məmməd bəy Sulkeviçin də familiyası vardı. O da mənə məlumdur ki, general Sulkeviç haqqında heç bir araşdırma, məhkəmə istintaqı olmadı. O, Azərbaycan Demokratik ordusunun general olduğuna görə sorğusuz-sualsız güllələndi».

Ömrünün son anına kimi Məmməd bəy Sulkeviç Cümhuriyyət ordusuna sədaqətini nümayiş etdirdi və elə onunla Səməd bəy Mehmandarov arasında yaranmış səmimi münasibətlərin səbəblərindən biri də Məmməd bəyin əqidə bütövlüyü idi. Ona görə də Məmməd bəy Sulkeviç əqidə bütövlüyünün, zabit əyilməzlyinin simvolu kimi xatirələrdə yaşamağa layiqdir.

### V) Həbib bəy Səlimov

Cümhuriyyət ordusunun formalaşmasında, Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyünün qorunmasında Səməd bəy Mehmandarovla birlikdə şərəfli xidmət yolu keçmiş hərbçilərdən biri də general-mayor Həbib bəy Səlimovdur. Onun adı ilə Cümhuriyyət ordusunun döyüş zəfərləri bağlıdır və Cümhuriyyət

ordusunun ən fəal  və təcrübəli döyüş genearllarından biri idi.

Digər milli generalların çoxu kimi  Həbib bəy Hacı Yusif oğlu Səlimov haqqında məlumatların qıtlığı  onun həyat yolu haqqında geniş söhbət açmağa imkan vermir. Həbib bəyin milli tərkibli qoşun hissələri ilə bağlılığı Müsəlman korpusunun mövcudluğu dövründən başlayır. Milli tərkibli belə bir birləşmənin yaradıldığını eşidəndə Həbib bəy də öz xalqına daha yaxından iştirak etmək imkanı tapmış və dərhal da Müsəlman korpusunun sıralarına qoşulmuşdu. Korpus komandiri 14 mart 1918-ci il tarixli 63 nömrəli əmrində belə yazırdı : « Korpusa gəlmiş podpolkovnik Səlimov korpusun qərargahına ezam olunsun. Adı çəkilə zabiti nizamnamələrin təkmilləşdirilməsi komissiyasına təyin edirəm». Çox güman ki, Həbib bəy Səlimovun Müsəlman korpusuna gəlişi də elə həmin tarixə təsadüf edir. Çox ağır tarixi şəraitdə  formalaşdırılmasına başlanan Müsəlman korpusunun komandiri Ə.Şıxlinskinin öz qarşısına qoyduğu vəzifələrdən biri də rus ordusu nizamnamələrinin təkmilləşdirilməsi və zəruri milli xüsusiyyətlərin orada nəzərə alınması idi.  O, Həbib bəy Səlimovun savadını, təcrübəsini yüksək qiymətləndirirdiyi üçün idi ki, Nizamnamələrin təkmilləşdirilməsi komissiyasına təyin etmişdi. Bir müddətdən sonra podpolkovnik Həbib bəy Səlimov xüsusi müsəlman süvari briqadasının qərargah rəisi təyin edildi. Yenə də məlumatların qıtlığı üzündən bu briqadanın komandirinin kim olduğunu söyləmək çətindir. Ancaq o məlumdur ki, briqadaya üç süvari alayı daxil idi. 1-ci Müsəlman süvari alayına podpolkovnik Hacıbəyli,2-ci Tatar süvari alayına polkovnik Maqalov və 3-cü Ləzgi süvar alayına- polkovnik Xosrov Mirzə Qacar komandirlik edirdilər. Podpolkovnik H.Səlimov  bu üç süvari aalyının, habelə briqadaya daxil olan yardımçı bölmələrin təlim-tərbiyəsinə rəhbərlik etməli idi. Heç şübhəsiz ki, Həbib bəy bu vəzifənin öhdəsindən  bacarıqla gəlmişdi və özünün böyük hərbi istedada malik olduğunu nümayiş etdirmişdi. Çünki, sonradan Həbib bəy daha məsul vəzifələrə təyin edilmişdi.

Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsindən sonra Həbib bəy Səlimovun zabitlik həyatının yeni bir mərhələsi başladı. Məhz Cümhuriyyət ordusunun təkibində xidmət edərkən Həbib bəyin bütün istedad və bacarığı, öz xalqına sonsuz sədaqəti, igidlik və fədakarlığı üzə çıxdı.  Azərbaycan hökumətinin qərarı ilə Müsəlman korpusu  Azərbaycan korpusuna çevrildikdən sonra  Həbib bəy Səlimovun ilk vaxtlar hansı vəzifədə olduğunu söyləmək çətindir. Azərbaycan korpusunun yenidən qurulmasına aid Türkiyənin hərbi arxivlərində saxlanılan sənədlərdə Həbib bəy Səlimov Azərbaycan korpusunun qərargah rəisi kimi göstərilmişdir. Həmin sənədlər 1918-ci il avqust ayının sonu və sentyabr ayının əvvəllərinə aiddir. Ancaq  Azərbaycan korpusunun yenidən qurulması haqqında Qafqaz İslam Ordusu komandanı Nuru paşanın 13 avqut 1918-ci il tarixli əmrinə qədər Həbib bəyin həmin vəzifədə olduğunu təsdiq etmək çətindir. Ola bilsin ki,  yeni-yeni sənədlərin üzə çıxarılması Həbib bəyin xidmət yolunun bu dövrünə işıq salmağa imkan verəcəkdir.

Həmin dövrlə bağlı Həbib bəy Səlimov haqqında mövcud olan sənədlər isə onun döyüş yolu haqqındadır. Bu sənədlər bir daha sübut edir ki, Həbib bəy Səlimov Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi ilk gündən ölkənin ərazi

bütövlüyünün qorunması uğrunda şərəfli döyüş yolu keçmişdi.

Məlumdur ki, Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndə Bakı şəhəri bolşevik- daşnak qüvvələrinin əlində idi. Onlar Azərbaycana şəriksiz sahib olmaq üçün böyük sayda qoşun toplayaraq Gəncəyə doğru hücuma başladılar. Onların sürətli hücumunun qarşısını isə ancaq türk hərbi qüvvələri Azərbaycana gəldikdən sonra almaq mümkün olmuşdu. Bolşevik-daşnak qoşunları Bakı-Şamaxı-Göyçay şosse yolu boyunca Qaraməryəmə qədər, Bakı-Gəncə dəmir yolu boyunca isə Sığırlı stansiyasına qədər gəlib çatmışdılar. Müsəlman korpusunun azsaylı hissə və bölmələri əsasən Müsüslü ətrafında toplaşmışdılar. Həbib bəy Səlimovun Bakıya qədər uzanan döyüş yolu da bu istiqamətdə toplanmış hissə və bölmələrin fəaliyyəti ilə bağlı idi.1918-ci il iyun ayının əvvəllərində o, bölgəyə gələrək bölmələrin vəziyyəti və döyüş şəraiti ilə yaxından tanış oldu. İyun ayının 11-də Ucar stansiyasında olan podpolkovnik Həbib bəy Səlimov bu istiqaətdə vəziyyətin mürəkkəbləşdiyi barədə dərhal Qafqaz İslam Ordusu Ərkani-hərb rəisi Nazim bəyə teleqram göndərdi. Həmin teleqramda bildirilirdi ki, dəqiq məlumatlara görə Sığırlıya bolşevik-daşnak qüvvələrinin üç piyada taboru, bir qaubitsa və bir mortir batareyası dəmir yolu boyu hücum etmişdir. Onlara əlavə kömək gəlməkdə davam edir. Hacıqabul və Qarasu stansiyalarında çoxlu bolşevik qüvvələrinin toplanması müşahidə edilmişdir. H.Səlimova görə burada olan milli qüvvələr belə çoxsaylı bolşevik-daşnak qoşunlarının qarşısını almağa qadir deyildi. Bu qüvvələr yaxşı halda bolşevik-daşnak qoşunlarının sürətlə irəliləməsini ləngitməyə çalışaraq geri çəkilə bilərlər. Ona görə də H.Səlimov ora əlavə qüvvələrin göndərilməsini xahiş edirdi. Bu barədə o, Müsəlman korpusunun komandiri Ə.Şıxlinskiyə də xəbər vermişdi.

İyun ayının 14-də Qafqaz İslam Ordusunun qərargah rəisi Nazim bəy Müsüslü ətrafına gəldi və buradakı qüvvələrə rəhbərliyi öz üzərinə götürdü. Dəqiq söylənilməsi mümkün olmasa da çox güman ki, Nazim bəyin Müsüslü ətrafında olduğu təxminən iki həftə ərzində Həbib bəy Səlimov daorada idi və bolşevik-daşnak qoşunlarına qarşı müdafiə işlərinin təşkilində yaxından iştirak edirdi. Çünki iyun ayının 27-də Nazim bəy Gəncəyə, öz əsas vəzifəsinin icrasına çağrıldıqdan sonra Müsüslü ətrafındakı qüvvələrə rəhbərlik Həbib bəy Səlimova həvalə edildi. Buradakı qüvvələr Müsüslü dəstəsi adlandırıldı və H.Səlimov da Qafqaz İslam Ordusu komandanının əmri ilə bu dəstənin komandiri təyin edildi. Müsüslü dəstəsinin tərkibində aşağıdakı Azərbaycan hissə və bölmələri var idi: Dəstənin qərargahı, dəstənin bir bölüyü, 1-ci süvari alayının 1-ci və 2-ci bölükləri, 2-ci süvari alayının 1-ci bölüyü, Qarayazı atlı piyada bölüyü, dəstənin pulemyot bölüyü, zirehli qatar, dəstə səhra batareyası, dəstə teleqraf taqımı və Göyçay milli əsgər bölüyü.

1918-ci il iyul ayının 5-10-u arasında Kürdəmir- Ağsu xəttində gedən döyüşlərdə Müsüslü dəstəsi də fəal iştirak edirdi. İyulun 5-də başlanan döyüşdə Həbib bəy Səlimov qarşısında dayanan düşmənin daha zəif cinahını müəyyənləşdirərək onu adlamalı və Kürdəmirə doğru irəliləməli idi. Ancaq Müsüslü dəstəsi həmin gün elə bir ciddi uğur qazana bilmədi. Çünki Həbib bəy Səlimov əlavə bir kömək almamışdı. Düşmən qüvvələri isə çox güclü idi. Bundan

başqa Müsüslü-Kürdəmir-Hacıqabul zonası açıqlıq ərazi olduğundan dəmir yolu üzərində dayanmış zirehli qatara yaxınlaşmaq elə də asan deyildi. Ona görə qərara alındı ki, Həbib bəy Səlimovun dəstəsi bir türk süvari alayı ilə möhkəmləndirilsin. Ayın 7-də Kürdəmir ətrafına Ağsu xəttində olan qüvvələrdən də əlavə kömək gətirildi və Kürdəmir ətrafında möhkəmlənmiş olan L.Biçeraxovun dəstəsinin müqavimətini qırmaq üçün iri miqyaslı hücuma başladı. Qeyd etmək lazımdırk ki, bolşevik-daşnak qüvvələri Biçeraxovun dəstəsinə çox böyük ümid bəsləyirdilər və Biçeraxov da texnikası və canlı qüvvəsi ilə bu ümidi doğrultmağa çalışırdı.

İyulun 7-də H.Səlimovun dəstəsi səhər erkən hücuma keçdi. Dəstədən üç bölük miqdarında bir qüvvə bataqlıq sahənin şərq tərəfinə keçib bolşevik-daşnak qoşunları üzərinə hücuma başladı. İki taqım miqdarında başqa bir qüvvə isə dəmir yolunun şimal tərəfi ilə Kürdəmirə doğru irəliləməkdə idi. Qarşı tərəflər arasında döyüşlər 12 saat davam etdi. H.Səlimovun dəstəsinin süvariləri Kürdəmirin cənub tərəfi ilə xeyli irəli gedə bilmişdilər. Lakin Biçeraxov ixtiyarında olan bütün qüvvələri səfərbər etməklə H.Səlimovun dəstəsinin hücumunun qarşısını saxlaya bildi. Gün ərzində gedən döyüşlərdə Müsüslü dəstəsindəki Azərbaycanın milli qüvvələrindən 8 nəfər şəhid olmuş, 2-si zabit olmaqla 12 nəfər yaralanmışdı.

İyulun 10-da isə Kürdəmir bolşevik-daşnak qoşunlarından tamamilə azad edildi. Həmin gün gedən döyüşdə H.Səlimovun dəstəsi dəmir yolu xətti boyunca Kürdəmirə doğru irəliləməli idi. Kürdəmirin şimalından isə 13-cü türk piyada alayı hücum edirdi. H.Səlimov məharətli bir hücum təşkil etməklə sat 13.55-də qarşısında dayanmış düşmənin müqavimətini qırdı və irəliyyə doğru hərəkət etdi. Həmin gün H.Səlimov Azərbaycan korpusunun komandanına və Qacqaz İslam Ordusunun komandanına göndərdiyi teleqramda hücumun uğurla davam etdiyini bildirirdi: «Mən üstün düşməni təqib edirəm»- yazan Həbib bəy bu teleqramı artıq polkovnik rütbəsində imzalamışdı.

İyul ayının 11-də Həbib bəy Səlimov yeni bir döyüş tapşırığı aldı. 5-ci türk diviziyasının komandiri Mürsəl bəyin imzaladığı müvafiq əmrdə H.Səlimova belə bir tapşırıq verirdi :« Bir tabor piyada, mürəttəb süvari alayı, Müsüslü dəstəsindəki süvari bölükləri və səhra topları ilə piyadaları 13-cü alayın tabeliyindəki rus səhra topu taqımından ibarət dəstə qayməqam Həbib bəy komandanlığında 12.07.334 (1918) günü hərəkət və Kərrar stansiyasını və civarındakı düşməni məhv etməli və bu stansiyanı işğal etməlidir. Eyni zamanda bir qisim qüvvə ilə də Qarasaqqal kəndindəki düşmən məhv edilməlidir».

Kərrar ətrafında döyüşlər Həbib bəy Səlimovla əks tərəfi təmsil edən polkovnik Lazar Biçeraxovun ən ciddi qarşılaşması idi. Bu qarşılaşma təkcə hər iki komandanın deyil, bütünlükdə bu istiqamətdəki döyüşlərin taleyini müəyyənləşdirdi. L. Biçeraxovun arxasında təkcə Bakı soveti deyil, həm də Rusiyanın vj ingilislərin köməyi dururdu. Onun üstün qüvvəyə və üstün döyüş şəraitinə malik olmasına baxmayaraq H.Səlimovun dəstəsinin məharəti və çevik taktikası qarşısında duruş gətirə bilmədi və iyulun 14-də Kərrar stansiyası da bolşevik-daşnak işğalından azad edildi.

Kərrar ətrafındakı döyüşlərdən sonra Türk-Azərbaycan qüvvələri yenidən qruplaşdırılaraq iki taktiki qrupa bölündü. Bir qrup Şamaxı-Bakı şosse yolu

boyunca hərəkət etməli idi. Bu qrup şimal qrupu adlandırıldı. Digər qrup isə Cənub qrupu adlandırıldı və bu qrup dəmir yolu xətti boyunca Bakıya doğru irəliləməli idi. Həmin qrupa isə Həbib bəy Səlimov rəhbərlik edirdi. Uğurlu döyüşlərini davam etdirən bu qrup Bakı ətəklərinə kimi şərəfli bir yol keçdi. Dəmiryolu boyunca mövqe tutmuş düşmən qüvvələri döyüşdən-döyüşə geri çəkilmək məcburiyyətində qaldı. İyul ayının 31-də Həbib bəy Səlimovun komandir olduğu Cənub qrupu Nəvai və Ağbulaq stansiyalarını ələ keçirdi. Həbib bəy Səlimov elə həmin gün ordu komandanı Nuru paşaya göndərdiyi raportunda döyüşlərin nəticəsi barədə məlumat verməklə bərabər qrupun sürətlə irəliləməsinə mane olan amillərə də toxunurdu:

« 1. Bu gün Ağbulaq stansiyasını işğal edirəm. Yarın (sabah-M.S.) Ələti düşmən olsa belə Allahın inayəti ilə işğal etmək üzrə irəliləyəcəyəm.

2. Mütəaqibən (sonra-M.S) Bakı istiqaətində hərəkət edəcəyəm. Fəqət qrupun suyu qətiyyən yoxdur. Susuzluqdan əfrad bayılmış bir haldadır. Sürətlə su yetişdirilməsi üçün icab edənlərə əmr bulunmasına təkrar-təkrar rica edirəm.

3.Ələtdən sonra qaradan (torpaq yoldan-M.S.) hərəkət edəcəyimdən bir minik avtomobilinin təhriki üçün əmr buyrulmasını rica edirəm».

Avqust ayının 1-də isə H.Səlimov Nuru paşaınn adına göndərdiyi teleqramında bildirirdi ki, bu axşam Ələti işğal etdim. Dəfələrlə müraciət etməyimizə baxmayaraq bizə hələ də su gətirməmişlər. Döyüşçülər susuz qaldığı kimi lokomotivlər də su olmadığı üçün işləmir. H.Səlimov susuzluğun qrupda ağır vəziyyət yaratdığını və su gətirilməyincə Ələtdən o yana hərəkət etməyin mümkünsüzlüyünü vurğulayırdı.

Bütün bunlar həm H.Səlimovun, həm də onun tabeçiliyində olanların ağır şəraitdə döyüşdüklərini nümayiş etdirirdi. Bununla belə H.Səlimov öz qüvvələrini səfərbər etməyi, tabeliyində olanları irəli aparmağı bacarırdı. İradə və qətiyyət nümayiş etdirməsi isə ona daim uğur gətirirdi.

Cənub qrupu Bakı ətrafına yetişdikdən sonra onun piyada, topçu və süvarilərinin bir hissəsi şimal qrupuna verildi. Çünki Bakı şəhəri üzərinə təşkil edilmiş 5 avqust 1918-ci il tarixli ilk hücumda şimal qrupu əsas zərbə qrupu kimi nəzərdə tutlmuşdu. Cənub qrupuna isə daha çox yardımçı rol ayrılmışdı. Müvafiq döyüş əmrində göstərilirdi ki, Cənub qrupu zərurət yarandıqca Şimal qrupuna kömək göstərməlidir. Cənub qrupunun zirehli qatarı da kömək göstərilməsində iştirak etməli idi. Qrupa tapşırılmış olan əsas vəzifə Ələtdən Putaya qədər dəniz sahili boyunca uzanan dəmir yolu xəttinin dənizdən gözlənilə biləcək təhlükədən qorumaq idi. Məlumdur ki, 5 avqust hücumu uğurla başa çatmadı və Bakı üzərinə növbəti hücum yeni türk qüvvələrinin gəlməsinə qədər təxirə salındı. Avqust ayının 13-də H.Səlimov Gəncəyə çağrıldı . Onun yerinə isə türk zabiti Cəmil Cahid bəy cənub qrupunun koamndanı təyin edildi.

Yuxarıda qeyd edildiyi kimi avqust ayının 13-də Nuru paşa Azərbaycan korpusunun yenidən qurulması barəsində əmr vermişdi. Əmrin bəndlərindən biri də korpusun bütün rus zabitlərinin ordudan kənarlaşdırılması ilə bağlı idi. Həbib bəy Səlimov da çox güman ki, Azərbaycan korpusunun yenidən qurulması və onun möhkəmləndirilməsi ilə əlaqədar olaraq geri çağırılmışdı. Çünki doğrudan da

avqust ayının 2-ci yarısından etibarən Azərbaycan korpusunun formalaşdırılmasında bir canlanma duyulmaqda idi. Ancaq Azərbaycan milli qüvvələrinin təşkili səviyyəsi H.Səlimovu heç də qane etmirdi. Buna həm obyektiv , həm də subyektiv səbəblər var idi. Obyektiv səbəblər Azərbaycanın düşdüyü tarixi şəraitdən irəli gəlirdi. Ölkədə müharibə gedirdi. İqtisadiyyat inkişaf etməmişdi, əhali hərbixidmətdən yadırğamışdı. Subyektiv səbəblər isə qoşunlarda təlim-tərbiyənin düzgün qurulmamasından, bir-sıra türk zabitlərinin çağırış işinin təşkilində ədalətsizliklərə yol verməsindən, hərbi qulluqçuların məişətinin yaxşı qurulmamasından və s. irəli gəlirdi. 1918-ci ilin oktyabr ayında Nazirlər Şurasının sədrinin adına göndərdiyi məktubda da H.Səlimov milli ordu quruculuğunun lazımi tələblərə cavab vermədiyini göstərirdi. Həmin məktub ürək ağrısı ilə yazılmış bir məktub idi və onu oxuyarkən Həbib bəy Səlimovun Cümhuriyyət ordusunun acınacaqlı vəziyyətinə dərin narahatlıq keçirdiyini görmək çətin deyil : «İndiki halda Azərbaycan korpusu adlandırılan struktur kağız üzərində mövcuddur və onun yalnız adı vardır. Həqiqətdə isə tamamilə əldən düşmüş 9-cu və 10-cu alayların qalıqları qalmışdır. Diviziyalara daxil edilmiş bu alaylar gəlməsi ehtimal olunan gənc əsgərlərin öyrədilməsi üçün kadr rolu oynayır». Burada söhbət nədən gedir ? Nuru paşa Azərbaycan korpusunun yenidən qurulması haqqında əmr imzaladıqdan sonra 9-cu və 10-cu türk alayları 1-ci və 2-ci Azərbaycan diviziyalarının tərkibinə verildi. Bu türk alayları Azərbaycan diviziyalarının alayları arasında bölüşdürülərək onların bazasını təşkil etməli idi. Həbib bə də göstərirdi ki, əslində bu alayların da yalnız qalıqları qalmışdı və onlar da ordunun formalaşmasında elə bir əhəmiyyətə malik deyildilər. Həbib bəy sonradan yazırdı ki, ordunun atları pis vəziyyyətdədir, 2 aydır ki, şəxsi heyət maaş almır. Toplar olsa da onları hərəkətə gətirəcək nə at var, nə də zabitlər. Pal-paltar həddən artıq azdır. Əsgərlər acından ölürlər. Nə qədər un şorbası yemək olar? Yeməksiz, geyimsiz ordu olarmı?. Daha sonra H.Səlimov aşağıdakı məsələlərin həyata keçməsini vacib sayırdı:

«1.Günün şüarı belə olmalıdır: Hər şey cəbhə üçün...

2.Qarşıya çox da böyük vəzifələr qoymq, başlıcası isə aldanmaq lazım deyil. Bir korpusu elə yaratmaq lazımdır ki, bu korpus kağız üzərində yox, həqiqətən mövcud olsun və o, daxili və xarici düşmənə qarşı bir sipər olsun. Çəkisi az olsa da qiyməti çox olsun. 8 minlik intizamlı qoşunla biz 35 min erməni tərəfindən müdafiə olunan Bakını aldıq.

3.Bu korpusun yaradılması və təchizi üçün vəsait əsirgəmək lazım deyil. Çünki böyük Napoleon demişdir: müharibə üçün üç şey lazımdır 1) pul, 2) pul 3) pul. Ordu geyindirilməli və yedizdirilməlidir. Çünki yarıac və yalın ordu hər cürə yoluxma və o cümlədən də bolşevizm mənbəyidir.

4.Ordu tələb olunan miqdarda at, araba və təchizatla təmin edilməlidir.

5.Formalaşmanın sürətləndirilməsi üçün pal-paltarın, təchizatın və atların qeyri mərkəzləşdirilmiş qaydada alınmasına müəyyən imkn verilməlidir.

6.Ac əsgərin mədəsinin doldurulması üçün ərzağın yalnız ordu anbarından alınması sistemindən imtina edilməlidir. Bu sistem köhnəlmiş və heç bir Avropa ölkəsində ondan istifadə edilmir. Ordunun ərzaqla təminatının heç olmasa qarışıq sisteminə

keçmək lazımdır. Bunun üçün korpus və diviziya anbarları yaradılmalı və ora ordu anbarlarından ərzaq buraxmaq lazımdır...».

Həbib bəy Səlimov daha sonra yazırdı ki, indi arxayınlaşmaq heç də düzgün deyildir. Düşmən yalnız müvəqqəti olaraq sakitləşmişdir və bizdən fərqli olaraq o, öz ordusunun təkmilləşdirilməsi ilə ciddi məşğul olur. Şuşada, Karyagində, Lənkəranda və s. yerlərdə baş verənlər yaddan çıxarılmamalıdır. Həbib bəy məktubunu belə tamamlayırdı: «Yaşamaq istəyiriksə yaratmalıyıq».

Göründüyü kimi H.Səlimov erməni millətçilərinin xislətini çox dəqiqliyi ilə qiymətləndirə bilmişdi. O yaxşı anlayırdı ki, erməni millətçiləri gücsüz olduqda sakitləşirlər. Özlərində, ya da arxalarında güc hiss etdikdə isə ən qəddar əməllərə əl atırlar. Son cümlə isə Həbib bəyin həyat şüarı idi. O ömrü boyu yaratmaqla məşğul olmuşdu,həyatının mənasını fəaliyyətdə görürdü. Həbib bəy onu da arzu edirdi ki, yaşamaq istəyiriksə-yaratmalıyıq şüarı həm də hökumətin şüarı olsun. Çünki orduna da yaradan hökumət idi.

H.Səlimovun işgüzarlığı prinsipiallığı Səməd bəy Mehmandarov tərəfindən layiqincə qiymətləndirilirdi. Onların əvvəldən tanış olub-olmadığını söyləmək çətindir. Laikn şübhəsiz ki, Səməd bəy Azərbaycanda olduğu qısa müddət ərzində Həbib bəyin bacarıqlı bir zabit olduğunu müşahidə edə bilmişdi. Ona görə də Səməd bəy Hərbi Nazirliyə başçılıq etdiyi gündən onu yanına dəvət etmiş və çox məsul bir vəzifənin icrasını ona həvalə etmişdi. S.Mehmandarov Hərbi Nazirlik üzrə özünün 15 noyabr 1918-ci il tarixli 2 nömrəli əmrində Həbib bə Səlimovun Ümumi qərargah rəisi vəzifəsinin icraçısı və hərbi nazirin Dəftərxanasının rəisi təyin edildiki bildirilirdi. Elə həmin əmrlə hərbi nazir Həbib bəy Səlimova Ümumi qərargahı və hərbi nazirin Dəftərxanasını formalaşdırmağı tapşırırdı. Bununla da Həbib bəyin xidmət həyatının yeni bir mərhələsi başlanırdı. Ümumi qərargahın rəisi kimi onun üzərinə çox məsuliyyətli bir vəzifə qoyulmuşdu. O,Cümhuriyyət ordusunu təşkil etməyə və sitiqamətləndirməyə qabil olacaq bir qərargah formalaşdırmaq barədə Səməd bəydən tapşırıq almışdı. Bu elə asan bir məsələ deyildi. Çünki bir tərəfdən bu qərargahın qurulması sıfırdan başlamalı idi. Onun bazasını təşkil edə biləcək heç bir struktur yox idi. İkincisi bu qərargah kifayət qədər çevik və işlək bir qərargah olmalı idi və Cümhuriyyət ordusunun yenidən qurulmasına rəhbərlik etməli idi. Və nəhayət belə bir qərargahı hərəkətə gətirə biləcək kadrları tapmaq lazım idi. Milli kadrlar isə həddən artıq az idi. Bunlara baxmayaraq H.Səlimov Nazirlər Şurasının sədrinin adına yazmış olduğu yuxarıdakı məktubda irəli sürdüyü təkliflərin həyata keçirilməsi üçün kifayət qədər geniş səlahiyyətlər əldə etmişdi. Ona görə də elə ilk gündən bütün gücü, bacarığı və enerjisi ilə bu səlahiyyətlərin yüksək tələblərə cavab verə biləcək şəkildə həyata keçirilməsinə çalışdı və heç şübhəsiz ki, Cümhuriyyət ordusunun çox sürətlə formalaşmasında onun da misilsiz zəhməti var idi. Həbib bəy Səlimov Cümhuriyyət ordusunun ağırlığını öz üzərinə götürmüş bir-neçə sütundan biri idi. səməd bəy yaxşı bilirdi ki, Həbib bəyin simasında Azərbaycan xalqını bütün varlığı ilə sevən, onun istiqlaliyyətinə sədaqətli olan bacarıqlı və istedadlı bir silahdaş tapmışdır. Həbib bəy də bütün xidməti ilə bunu sübut edirdi və ən mürəkkəb tapşırıqları öz üzərinə götürməkdən çəkinmirdi.

Həbib bəy Nazirliyin mərkəzi idarəetmə orqanlarının, xüsusilə də qərargahın formalaşmasına çalışmaqla bərabər həm də hissələrin, birləşmələrin, hərbi müəssisələrin qərargahlarının formalaşmasını, onlarda hərbi xidmətin düzgün təşkilini diqqət altında saxlayırdı. O, Nazirlik üzrə yaradılmış bir-sıra komissiyaların, Böyük və Kiçik Hərbi şuraların üzvü idi. Həbib bəy hərbi hissjələrdə olaraq təlim-tərbiyənin təşkili səviyyəsi ilə maraqlanır, mövcud olan mənfi və müsbət cəhətləri sistemləşdirərək Nazirliyin rəhbərliyə çatdırırdı. Bunlardan əlavə Həbib bəy həm də Praporşiklər məktəbində, sonra da Hərbiyyə məktəbində taktikadan dərs deyirdi. 1919-cu ilin yanvar yaında Həbib bəy Praporşiklər məktəbində taktikadan 10 saat, fevral ayında 23 saat, mart ayında 20 saat dərs aparmışdı. Sonrakı aylarda onun dərs saatları elə təxminən bu qədər idi.

1919-cu il fevral ayının 20-də Həbib bəy Səlimov Praporşiklər məktəbində maliyyə və təsərrüfat əmlakının istifadə edilməsi vəziyyətini yoxladı, rastlaşdığı mənzərəni ümumiləşdirərək həmin il mart ayının 2-də Ümumi qərargah üzrə sərəncam verdi. H.Səlimov sərəncmında qeyd edirdi ki, məktəbin maliyyə və təsərrüfat hissəsinin yoxlanılacağı barəd üç gün əvvəldə xəbərdarlıq edilməsinə baxmayaraq müvafiq sənədlər və hesabatlar qaydasına salınmamışdı. Məktəb üzrə əmrlər düzgün tərtib edilməmişdi və bu əmrlərdə nizami xidmət və təsərrüfat həyatı üzrə olan məsələlər bir-birindən ayrılmırdı ki, bunu da H.Səlimov düzgün saymırdı. Məktəbdə əşyaların qeyd kitabı və təsərrüfat xərclərinin yazıldığı kitab da yox idi. Pul vəsaiti üzrə mədaxil-məxaric kitabı düzgün doldurulmurdu. H.Səoimov iaşə və ərzaq üzrə müvafiq hesabatların aparılması səviyyəsini də qənaətbəxş saymırdı. Məktəbdəki pul vəsaitlərinin saxlanması və xərclənməsi vəziyyəti də Həbib bəyi razı salmamışdı. Sərəncamın sonunda o qeyd edirdi ki, bu yoxlama məktəbdə kargüzarlığın lazımi səviyyədə olmadığını göstərir və ona görə də bu sahəyə məsul olan şəxs vəzifəsindən azad edilməlidir. Həbib bəy eyni zamanda məktəb rəhbərliyindən üzə çıxarılmış nöqsanların tezliklə aradan qaldırılmasını tələb edirdi.

H.Səlimov məktəbdə hər hansı bir israfçılıq və yeyinti hallarına rast gəlməmişdi. Bu yoxlama zamanı onun başlıca iradı yalnız sənədləşmənin düzgün aparılmamasına aid idi. Bu yoxlama zamanı Həbib bəy yalnız maliyyə-təsərrüfat hissəsinin vəziyyəti ilə tanış oldu. 1919-cu il fevral ayının 27-də Həbib bəy yenidən Praporşiklər məktəbində oldu və bu dəfə isə təlim-tərbiyənin təşkili ilə maraqlandı. Ancaq qeyd etmək lazımdır ki, Praporşiklər məktəbində apardığı ikinci yoxlamadan bir gün sonra Həbib bəy Səlimov general-mayor rütbəsinə layiq görülmüşdü. Onun işgüzarlığı, xidməti vəzifəsinə sədaqəti, yüksək təşkilatçılıq məharəti nəzərə alınaraq Səməd bəy Mehmandarov tərəfindən Nazirlər Şurası qarşısında ona general-mayor rütbəsi verilməsi barəsində vəsatət qaldırılmışdı. Nazirlər Şurası da bu vəsatəti müdafiə etdi və bu bardə müvafiq qərar 1919-cu il fevral ayının 28-də qəbul edildi.

General rütbəsi Həbib bəyin fədakar xidmətinin məntiqi qiyməti idi. Cavan olmasına baxmayaraq o bütün xidməti ilə sübut edirdi ki, bu rütbəyə layiqdir. Prapoşiklər məktəbində apardığı dərslərdə də gələcək zabitlərə o, genqerallıq, zabitlik nümunəsi idi və onlara özünün həyatı boyu izlədiyi bütövlüyü və

prinsipiallığı aşılamağa çalışırdı. Bu məktəbdə  o, demək olar ki, hər gün olurdu. Ancaq rəsmi yoxlamalarında o, məktəbdə xidmətin təşkili ilə daha yaxından tanış olmağa çalışırdı.

Fevral ayının 27-də məktəbdə yoxlamada olarkən H.Səlimov yunkerlərin sıra təlimi dərslərində iştarak etdi. Birinci olaraq o,  2-ci bölüyün süngü döyüşünü müşahidə etdi. Burada dərsi poruçik Vəzirov aparırdı. Bölük iki dəstəyə bölünərək üzbəüz sıraya düzülmüşdü.Onlar verilmiş komandaları eyni zamanda yerinə yetirirdilər. H.Səlimovun fikrincə bu metod səmərəsiz bir metod idi. Çünki tək bir zabit eyni zamanda hərəkət edən 60 nəfərin nöqsanlarını görə bilməzdi. Ona görə də H.Səlimov əmr edirdi ki, belə dərslər aralanmış sırada keçirilsin, tələb olunan material əvvəlcə yunkerlərə təklikdə, sonra isə qrup şəklində öyrədilsin. Hər bir qrupda da 3-4 nəfərdən artıq adam olmasın. O eyni zamanda tələb edirdi ki, bölük komandirləri yunkerlərn arasında 8-10 nəfəri seçib keçilən mövzuları ayrıca onlara öyrətsin və sonra da onları bütün bölüyün öyrədilməsinə cəlb etsin.

1-ci bölükdə isə H.Səlimov cərgə təlimi üzrə dərsləri, süngü döyüşünü, müqəvvanın süngülənməsini və bölüyün daxilində addımlamanı müşahidə etmişdi. Onkn qeydlərinə görə cərgə təlimində olan yunkerlərin duruşları yaxşı idi. Cərgədə sıxlanmaq və seyrəlmək isə öyrənilməmişdi. Onlar elə bir yerdə dayanıb dururdular. Verilən komandaların icrası zamanı yunkerlər ayaqlarını tələb olunan kimi tutsalar da atdıqları addım geniş deyildi. Dərsi aparan yunker sıranı düzləndirmir və cərgəni irəliyə necə hərəkət etdirməyi bacarmırdı. Ona görə də H.Səlimov belə bir qənaətə gəlmişdi ki, yunkerlərə cərgə təlimi lazımi səviyyədə keçilməmişdir. Ancaq bölük  komandiri kimi hazırlanan hər bir yunkerdən tələb olunurdu ki, bu mövzunu yaxşı öyrənsin və zəruri vərdişləri əldə etsin. Süngü döyüşü və müqəvvanın süngülənməsi mövzusunun öyrədilməsində də H.Səlimov xeyli nöqsanlar üzə çıxarmışdı. Bu nöqsanlar aşağıdakılardan ibarət idi: Əvvəlayunkerlər düzgün öyrədilmirdi, verilən komandaları onlar təkrarən yerinə yetirə bilmirdilər. «Döyüşə hazırlan» komandasını da onlar düzgün icra edə bilmirdilər. Müqəvvanın süngülənməsi zamanı lazımi ardıcıllıq da gözlənilmirdi. Dərslərin düzgün və səmərəli aparılması üçün H.Səlimov ilk növbədə zabitlərin özlərinin  hazırlıq səviyyəsinin yuxarı qaldırılmasını zəruri hesab edirdi. Onun fikrincə yunkerlər süngü döyüşünə əvvəlcə yerində, sonra müqəvvaya yaxınlaşaraq və nəhayət qaçaraq və «ura» qışqıraraq  öyrədilməi idilər. H.Səlimov dərslərin gedişində meydana iki müqəvva qoydurmuş və yunkerlərə  onları süngü ilə vurmaq əmr etmişdi. Əmri icra edən yunkerlər bu müqəvvalardan birini süngüləmiş və onunla yanaşı dayanan ikinci müqəvvaya diqqət yetirməmişdilər. H.Səlimov bunu da nöqsan sayırdı və yunkerlərin diqqətinin gücləndirilməsini vacib bilirdi.

Sıxılmış sırada yunkerlərin addamlaması tərzi də H.Səlimovu tamamilə qane etmirdi. Xüsusən də addımlar kifayət qədər sərbəst və çevik deyildi. Bir komandanın icrasından  digər komandanın icrasına keçərkən yunkerlər addımlarını zəiflədirdilər.

H.Səlimov gördüyü nöqsanların dərhal aradan qaldırılmasını tələb edirdi. O qeyd edirdi ki, bölmə komandiri kimi hazırlanan hər bir yunkerin gələcək vəzifəsi

əsgərlərin təlimatçıları  olmaqdırsa onda onlar bütün tədris proqramını yaxşı öyrənməli, düzgün komanda verməyi, mövcud nöqsanları üzə çıxarmağı və onları aradan qaldırmağı bacarmalıdırlar. Bu keyfiyyətlərə isə tək və cərgə təlimi dərslərində əldə etmək mümkün idi. H.Səlimov hesab edirdi ki, həmin keyfiyyətlərin möhkəmləndirilməsi üçün yuxarı siniflərin tək sıra təlimi dərslərinə yenidən qayıtması artıq gec idi. Çünki bununla digər tədris yükləri yerinə yetirilməmiş qala bilərdi. Onun fikrincə yuxarı sinif bu keyfiyyətləri  cərgə təlimində möhkəmləndirə bilərdi. Ona görə də təklif edirdi ki, məktəb rəhbərliyi bu məsələyə diqqəti artırsın, nizamnamədə nəzərdə tutulan bütün materival tədris edilsin və bunun üçün gündə ən azı bir saat  dərs keçilsin.  O eyni zamanda təklif edirdi ki, gündə bir saat dərs  süngü döyüşününü öyrədilməsinə, bir saatlıq dərs isə  atıcılığa ayrılsın.  Atıcılıq dərslərinin keçilməsi ilə yunkerlər həm nişangahın qurulmasını, düzgün nişan alınmasını, həm də hərəkətləri nəzəri şəkildə başqalarına izah edilməsini, nişangahın nəyə xidmət etdiyini, güllə yatağının quruluşunu, güllənin uçuşuna təsir edən maneələrin nədən ibarət olduğunun əsgərlərə öyrədilməsini  bacarmalı idilər. Yəni, H.Səlimov qətiyyətli şəkildə bildirirdi ki, yunkerlər nəzəri və praktiki hazırlığı, komandaların düzgün icrasını və onların tədris edilməsinn, zabhitliklə müəllimlik keyfiyyətlərini özündə birləşdirməyi bacarmalı idi.

İstər Ə.Şıxlinski, istərsə də H.Səlimovun Praporşiklər məktəbində olması sadəcə təftiş xarakteri daşımırdı. Onların əsas məqsədləri məktəbdə xidmətin təşkilini daha da təkmilləşdirmək idi.

1919-cu il iyun ayının  əvvəllərində Həbib bəy Səlimov  hərbi nazir Səməd bəy Mehmandarovun tapşırığı ilə bir-sıra hərbi hissələrdə  xidmətin təşkilini yoxladı. Sonra Həbib bəy  ezamiyyətin nəticələri barədə Səməd bəy Mehmandarova müfəssəl hesabat təqdim etdi. General Səlimov əvvəlcə 2-ci Qarabağ süvari alayında oldu. İyunun 4-də o, 1-ci, 2-ci və 4-cü bölüklərə, habelə bir pulemyot komandasına baxış keçirdi. Baxış üçün çıxarılan bölüklərdə 150 nəfər var idi ki, onlardan da 40 nəfəri hissəyə aprelin 15-də gəlmiş yeni əsgərlər idi. 3-cü bölüyün və digər bölüklərin bir-sıra süvariləri naryadda olduqlarından onlar baxışa cəlb edilməmişdilər.Baxış üçün düzülən sıralar salamlaşmaya gur, aydın və gümrah cavab verirdilər. Süvarilərin görkəmi yaxşı təsir bağışlayırdı. Baxmayaraq ki, genearlın fikrincə  bir-sıra süvarilər at üstündə yaxşı oturuşa malik deyildilər. General Səlimovun şəxsi heyətin geyiminə də xüsusi bir iradı yox idi. Ancaq bir çox atların və yəhərlərn ümumi vəziyyəti onu razı salmadı. Yəhərlərin təmiri və bərpası üçün hissədə emalatxana olmadığı üçün general kənardan mülki mütəxəssislərin cəlb edilməsinə icazə verdi. Pulemyot komandasında topçu hissələrində işlədilən arabalardan istifadə olunurdu. Bu arabaların yaxşı qoşulması, təchizatlarının düzgün bərkidilməsi üçün heç bir irad yox idi.

Generalın əmri ilə əvvəlcə baxışa çıxarılan  bütün bölmələrə təntənəli marşla keçmək işarəsi verildi. Ahəstə hərəkət zamanı süvarilər özlərinin kifayət qədər inamlı tutur, aralarındakı məsafəyə, sıraların düzülüşünə düzgün riayət edirdilər.  Lakis sürətli hərəkət zamanı sıranın düzülüşü pozulur və süvarilər bir-birinin mane olurdular. Pulemyot komandasının şəxsi heyətinin hərəkətləri isə

generalda çox yaxşı təəssürat yaratdı. Təntənəli marşdan sonra 2-ci bölükdə pulemyot komandası nümunəvi təlim keçməli idi. Həmin təlim şeypurçuların işarəsi ilə başladı və ümumən generalı qane etdi. Həbib bəy S.Mehmandarova yazdığı hesabatında bildirirdi ki, bölüyün ayrıca yoxladığı bir taqımının hərəkətlərində müəyyən lənglik var idi. Süvarilər atlardan düşüb sıraya düzülərkən tələb olunan sürətə riayət edə bilmirdilər.Onun bir iradı da bunda idi ki, süvarilər ərazidən yaxşı istifadə edə bilmirdilər, müəyyən edilmiş yerlərdə atəş mövqeləri seçsələr də hansı tərəfə atəş açmalı olduqlarını bilmirdilər. Çünki onlara hədəf göstərilməmişdi. Eyni zamanda komandir taqıma səpələnmək əmri versə də cinahlardan onun mühafizəsini təşkil etməmişdi. Pulemyot komandası isə böyük sürətlə müəyyən edilmiş mövqeləri tutmuş, qısa müddət ərzində pulemyotları arabalardan götürüb atəş mövqelərinə yerləşdirmişdilər. Lakin hədəf göstərilmədiyindən onlar da pulemyotu müxtəlif səmtə istiqamətləndirmişdilər. Bütünlükdə isə Həbib bəy Səlimov alayın döyüş hazırlığından razı qaldığını hərbi nazir S.Mehmandarova yazdığı hesabatında qeyd edirdi.

Həmin hesabatdan aydın olur ki, iyulun 5-6-da Həbib bəy Səlimov 1-ci Cavanşir piyada alayının Xankəndində olan bölmələrinə baxış keçirdi. Baxışa 5-ci, 6-cı və 7-ci bölüklər, təlim komandası, 2-ci və 3-cü pulemyot bölükləri və orkestr çıxarıldı. Baxış zamanı bir-çox məsələlər H.Səlimovu razı salsa da bir-çox məsələlər də onu razı salmamışdı. Bundan başqa H.Səlimov Xankəndi hərbi lazaretində, 2-ci dağ-topçu divizionunda xidmətin təşkili ilə yaxından tanış olmuş və mövcud vəziyyət barədə geniş təhlil aparmışdı. Bu hissələrdə də H.Səlimov müshət cəhətlərlə yanaşı bir-sıra nöqsanları da üzə çıxarmışdı. Bütünlükdə isə hərbi hissələrdə müşahidə etdikləri onu bir cəhətdən razı salmışdı ki, bu hissələrin hamısında xidmətə kifayət qədər məsuliyyətli münasibət bəslənilirdi. Yəni xidmət özbaşına buraxılmamışdı. Şəxsi heyət nə məqsədə xidmət etdiyini yaxşı anlayırdı. Mövcud olan nöqsanlar isə xidmət zamanı bu və ya digər səbəbdən ortaya çıxan nöqsanlar idi və şəxsi heyət onları aradan qaldırmağa meylli idi. Ona görə də Həbib bəy Səlimov S.Mehmandarova təqdim etdiyöi raportunun sonunda belə yazırdı : « Sonda xüsusi olaraq məruzə etmək istəyirəm ki, Xankəndində bir-neçə gün yaşayıb qarnizonda əla qanun-qayda və ciddi intizam gördüm. Mənzil-qərargahda bir nəfər də olsa işsiz gəzən əsgər görünmürdü. Adamlar hər hansı bir işin icrası üçün göndəriləndə onlar sıra ilə gedirdilər. Dərhal nəzərə çarpır ki, qarnizonda daxili qanun-qaydaya xüsusi diqqət yetirilir». Bir-sıra nöqsanlarla rastlaşsa da H.Səlimovun yoxlamalardan gəldiyi ümumi nəticə belə idi. Bu isə onu razı salırdı. Çünki bu qənaət Hərbi Nazirliyin rəhbərliyinin, o cümlədən də H.Səlimovun təşkilatçılıq fəaliyyətinin məntiqi nəticəsi idi.

Həbib bəy Səlimovun Azərbaycan xalqı qarşısındakı böyük xidmətlərindən biri də onun ölkənin cənubundakı separatçılıq hərəkatının aradan qaldırılması üçün Lənkəran bölgəsinə göndərilmiş qoşun hissələrinə uğurla rəhbərlik etməsi idi. Səməd bəy Mehmandarov Lənkəran dəstəsi adlandırılan yığma qoşun dəstəsinə kimin komandir təyin edilməsi məsələsi qalxanda tərəddüd etmədən Həbib bəyin üzərində dayanmışdı. Baxmayaraq ki, bu vəzifəni dəstənin tərkibində olan alaylardan birinin komandiri də icra edə bilərdi. Lakin dəstə çox ekstremal bir

şəraitdə Lənkərana göndərilirdi. Denikin və ermjəni təcavüzünün artdığı bir vaxtda bu qüvvələrə şimal sərhədində və Qarabağda böyük ehtiyac duyulurdu. Ona görə dəstə çox tez bir zamanda qarşıya qoyulan vəzifəni yerinə yetirərək geri qayıtmalı idi. Səməd bəyin fikrincə belə bir işin öhdəsindən yalnız Həbib bəy gələ bilərdi və həqiqətdə də Səməd bəy qərarında yanılmamışdı.

1919-cu il avqust ayının əvvəllərində Lənkəran dəstəsi artıq formalaşdırılmış və hərəkət üçün müəyyən hazırlıq da görülmüşdü. Bununla bağlı avqustun 4-də hərbi nazir müvafiq əmr imzaladı. Həmin əmrlə dəstənin komandanlığı həvalə olunmuş Ümumi qərargahın rəisi general-mayor Həbib bəy Səlimova göstəriş verilirdi ki, dəstənin tərkibinə daxil olan hissələrlə Hacıqabul, Salyan, Pokrovsk, Prişib və Lənkəran marşrutu ilə Lənkəran qəzasına hərəkət etməli və orada qayda-qanun ilə sakitliyi bərqərar etməlidir .

Dəstənin ümumi sayının 3,5 min nəfər olacağı güman edilirdi. Ərkani-hərbin rəisi Sulkeviçin imzaladığı sərəncama görə Lənkəran dəstəsi avqustun 12-də Hacıqabula toplaşmalı və səhərisi gün, yə'ni avqustun 13-də Salyana doğru hərəkətə başlamalı idi .

Lənkəran dəstəsinin qərargahı da təşkil edilmişdi. Dəstənin fəaliyyəti bu qərargah tərəfindən idarə edilirdi. Qərargah rəisi vəzifəsinə podpolkovnik Ehsan xan Naxçıvanski tə'yin edilmişdi .Dəstənin fəaliyyətinin sənədləşdirilməsi aparılır və gündəlik döyüş əmri imzalanırdı. Döyüş əmrlərinin hamısı bu günədək qalmasa da saxlanılanlardan Həbib bəyin rəhbərliyi altında görülən işlərin ümumi mənzərəsini yaratmaq mümkündür.

Lənkəran dəstəsinə daxil olan hissə və bölmələr 1919-cu il avqustun 12-də Hacıqabulda toplaşdılar. Həmin gün hissə və bölmələrin hamısında hərbi səfər üçün hazırlıq işləri aparıldı, həvalə olunan tapşırıqlar dəqiqləşdirildi və qarşılıqlı fəaliyyətin tənzimlənməsi üçün zəruri məsləhətləşmələr aparıldı. Ancaq əvəlldən müəyyənləşdirildiyi kimi dəstə avqustun 13-də yola düşmədi.

Mövcud olan sənədləridən aydın olur ki, dəstənin tərkibinə daxil olan hissə və bölmələrin Hacıqabula toplaşması avqustun 13-də səhərə kimi davam etmişdi. Ola bilsin ki, bəzi hissə və bölmələr ləngidiyi üçün dəstənin heyətinin tam formalaşması da bir gün təxirə salınmışdı. Həmin gün (avqustun 13-də) Lənkəran dəstəsinə daxil olan hissə və bölmələrin Hacıqabulda - toplanış məntəqəsində paradı keçirildi. Çoxlu sayda yerli əhalinin tamaşa etdiyi paradı general H.Səlimov qəbul etdi. Qəzetlərin yazdığına görə dəstənin tərkibinə daxil olan hissə və bölmələr qısa müddət ərzində vahid kollektiv kimi formalaşmış, yüksək çeviklik və məharət nümayiş etdirə bilmişdilər. Bu da dəstənin komandiri H.Səlimovun böyük sevincinə səbəb olmuşdu.

Dəstənin ilk döyüş əmri 1919-cu il avqustun 13-də imzalanmışdı. Əmrdə dəstənin qarşısında dayanan vəzifə, onun tərkibi, hərəkət vaxtı, hərəkət qaydaları və s. məsələlər öz əksini tapmışdı. Dəstənin tərkibinə 5-ci Bakı piyada alayı, 3-cü Şəki süvari alayı, 2-ci yüngül topçu, 6-cı dağ topçu və əlahiddə qaubitsa batareyaları, istehkam taqımı və zirehli maşınlar taqımı daxil idi .

Dəstənin şəxsi hey'ətinin davranış normalarına ciddi əməl etməsi zəruriliyi döyüş əmrində xüsusilə vurğulanırdı. General H. Səlimov hissə və bölmə

komandirlərinin nəzərinə çatdırırdı ki, hər bir nəfərin əməlinə onlar göz yetirməli, dəstənin qarşısında dayanan vəzifələrin doğru və düzgünlüyü şəxsi hey'ətə çatdırılmalıdır. Dəstə komandirinə görə şəxsi hey'ət məzhəbindən asılı olmayaraq bütün yerli əhaliyə hörmət və ehtiramla yanaşmalı, ölçülüb-biçilmiş hərəkətləri ilə özlərinə hörmət qazanmalı və özlərini qanunçuluğun dayağı kimi nümayiş etdirməli idilər. Əmrdə bildirilirdi ki, qanun-qaydanı pozanlar, talan və zorakılıqda günahlandırılanlar dəstənin yanında yaradılacaq hərbi-səhra məhkəməsinə veriləcəkdir:

« Səfər zamanı məsafə və intervar ciddi şəkildə gözlənilməlidir. Hər kəs öz yerində hərəkt etməli və heç kim sıradan kənara çıxmamalıdır...

Bütün rəhbər şəxslər həmişə yaldda saxlamalıdırlar ki, onlar Lənkəran qəzasına qanun-qaydanın və sabitliyin bərqərar edilməsi üçün gedirlər. Bu, dinindən və milliyətindən asılı olmayaraq bütün əhaliyə aiddir. Dəstənin bütün çinləri öz hərəkətləri və hamıya eyni münasibətləri ilə özlərinə hörmət, etibar və səmimiyyət qazanmalıdırlar ki, əhali onlara qanun-qaydanın pozucusu kimi yox, dayağı kimi baxsınlar.Hər hansı bir azğınlığa, təzyiqə, özbaşınalığa heç bir şərtlə yol verməyəcəyəm. Əhalidən alınan hər bir əşyanın haqqı ədalətlə ödənilməlidir...Dəstənin bütün çinlərinə elan edirəm ki, talanda, soyğunçuluqda və əhalinin sıxışdırılmasında günahkar bilinənləri mən dəstədə formalaşmaqda olan hrbi-səhra məhkəməsinə verəcəyəm».

Avqustun 15-də dəstə Salyana çatdı. Şəxsi heyə iki gün ərzində çox yorulduğu üçün general Səlimov ayın 16-nı istirahət günü elan etdi. O əmr verdi ki, Salyanda aralıq sursat anbarı yaradılsın və buraya bütün toplar, pulemyotlar və tüfənglər üçün tam döyüş komplekti cəmləşdirilsin. Salyana çatana kimi Səlimov muğanlıların yanına öz nümayəndələrini göndərdi və onların sülh yolu ilə deyilənlərə əməl etməyə çağırdı . Eyni zamanda Səlimov S.Mehmandarovun Lənkəran əhalisinə imzaladığı müraciətnamənin yayılmasına başlanması barədə göstəriş verdi .

Avqustun 17-də Lənkəran dəstəsi Salyandan hərəkətə başladı. Səhər saat 4-də 3-cü Şəki süvari alayı , 6-cı dağ topçu batareyası və bir zirehli avtomobil öncədən yola düşdülər. Həmin qrupdan 30 dəqiqə sonra 5-ci Bakı piyada alayı, qaubitsa batareyası və digər bölmələr hərəkətə başladılar. General Səlimov imzaladığı müvafiq döyüş əmrində dəstənin hər iki qrupundan tələb edirdi ki, hərət zamanı marşrut boyu müşahidə aparsınlar və şəxsi heyətin mühafizəsini təmin etsinlər.

Avqustun 17-də Səlimov təkcə rus əhalisi ilə olan münasibətlərin aydınlaşdırılmasına deyil, həm də dəstədə nizam və intizamın möhkəmləndirilməsinə xeyli vaxt ayırdı. Həmin gün dəstə Saylandan Şorsuluya doğru irəliləyərkən 3-cü Şəki süvari alayının süvarisi Yəhya Sarı oğlu yolda Biləsuvar kəndinin və Astraxanka kəndinin iki rus mənşəli sakininin minmiş olduğu furqonu saxlamış, öldürəcəyi ilə hədələyərək onlardan 3725 rubl pul almışdı. Rus sakinləri bu barədə dəstənin rəhbərliyinə şikayət etdilər. Səlimov bu barədə məlumat alan kimi dərhal soyğunçu əsgəri dərhal hərbi-səhra məhkəməsinə verdi. Avqustun 19-da 5-ci Bakı alayının kmandiri podpolkovnik

İsrafilovun sədrlik etdiyi hərbi-səhra məhkəməsi dəstə komandanlığının tələblərinə riayət etmədiyi və döyüş şəraitində əsgər şərəfinə ləkə gətirən hərəkətlə məşğul olduğu üçün onu ölüm cəzasına məhkum etdi.

Lənkəran dəstəsi sadəcə olaraq müəyyən edilmiş marşrut üzrə hərəkət etmirdi. Həm də marşrut boyu yerləşən rus kəndlərindən silah da toplanırdı. Avqustun 17-18-də dəstə tərəfindən rus kəndlərindən 3 top və 5 pulemyot alınıb Bakıya yola salınmışdı.

Avqustun 20-də Pokrovska çatandan sonra bu kənd də dəstə tərəfindən mühasirə olundu və əhalidə olan silahların toplanmasına başlandı. Kənd əhalisindən 2 ədəd top və 4 pulemyot alındı .

Avqustun 21-də Prişibə doğru hərəkət etməli olan dəstənin əsas qüvvələrinə 5-ci Bakı piyada alayının komandiri polkovnik İsrafilov komandirlik edirdi. Onun tərkibinə 5-ci piyada alayının 9 bölüyü, qaubitsa batareyasının 4 ədəd topu və Şəki süvari alayının 4 bölüyü daxil idi. Əsas qüvvələr avanqarddan yarım saat sonra, yə'ni səhər saat 4.30-da hərəkətə başlamalı və günün sonuna Əhmədli kəndi yaxınlığındakı düşərgəyə çatmalı idi. 5-ci piyada alayının bir bölüyü isə dəstənin aryerqardını təşkil edirdi. Aryerqard səhər saat 5-də hərəkətə başlamalı və bütün arabalardan sonra irəliləməli idi Prişibdə və onun ətrafında əhalidən nə qədər silah toplandığını söyləmək çətindir. Mövcud olan sənədlərdə bu barədə mə'lumat yoxdur. Ancaq mə'lumdur ki, Prişibdə əhalidən 105 baş at və 101 ədəd yəhər yığılmışdı .

Avqustun 22-də dəstə Əhmədli kəndi yaxınlığındakı düşərgədən hərəkəti davam etdirirdi. Həmin gün 27 verst yol qət olunmalı və Qumbaşı stansiyası yaxınlığında, Lənkərana aparan yolun üzərində düşərgə salınmalı idi. Kolonnanın tərkibi və sırası əvvəlki şəkildə saxlanılmışdı. Avqustun 22-nə imzalanmış döyüş əmrində ştabs-rotmistr Ağalarov Prişibin komendantı tə'yin edilirdi. O, əhalidən toplanmış olan silahı, sursatı, hərbi təchizatı aktlaşdırmalı və sonra da mühafizə altında Salyana göndərməli idi .

Avqustun 23-də dəstə Lənkərana çatdı və bu hadisə yerli əhali arasında böyük sevic və təntənə ilə qarşılandı.

Avqustun sonuna Lənkəran dəstəsi ona həvalə olunmuş vəzifələri tamamilə yerinə yetirdi, xüsusi bir silahlı müqavimətə rast gəlmədən bölgənin rus əhalisini, polkovnik İlyaşeviçin rəhbərliyi altında olmuş silahlı dəstələri tamamilə tərksilah etdi və respublikanın cənubunda Azərbaycanın istiqlaliyyəti üçün mövcud olan təhlükə birdəfəlik sovuşduruldu.

Tərksilah zamanı əhalidən və Muğan qüvvələrindən 22 ədəd top alındı. Həmin topların 20 ədədi tam işlək vəziyyətdə, 2-si sökülmüş vəziyyətdə idi. Bundan başqa 25 ədəd tam işlək pulemyot və 7 ədəd işləməyən pulemyot toplanmışdı

1919-cu il sentyabrın 3-də Lənkəran dəstəsi həvalə olunan döyüş tapşırığını yerinə yetirdikdən sonra Hacıqabula qayıtdı və həmin gün dəstənin komandiri general-mayor Səlimovun və dəstənin qərargah rəisi podpolkovnik Ehsan xan Naxçıvanskinin imzası ilə 23 saylı sonuncu döyüş əmri imzalandı. Burada göstərilirdi ki, Lənkəran dəstəsinin qarşısına çox mürəkkəb bir vəzifə qoyulmuşdu.

2500 nəfərlik şəxsi hey'ət 8 topun müşayəti ilə 8 min nəfərlik silahlı dəstə və 6 top batareyası çıxarmaq imkanına malik olan Muğanın rusdilli əhalisindən bütün silah və sursatı toplamalı idi. Dəstə yerli əhaliyə heç bir xətər yetirmədən bu çətin vəzifənin öhdəsindən gəldi, yalnız ultimativ tələblərlə xeyli sayda silah və sursat topladı. Toplardan və pulemyotlardan başqa əhalidən 4 minə qədər mərmi, 3 yük avtomobili, 209 xidməti at və çoxlu sayda hərbi təchizat yığılmışdı. Yığılan əmlakın içərisində motosklet, telefon aparatları, toplar və pulemyotlar üçün ehtiyat detallar da var idi. Döyüş tapşırığının icrası ərzində dəstə 425 verst yol qət etmişdi. Bu müddət ərzində dəstənin şəxsi hey'əti davranış normalarına lazımınca riayət etmiş və kəndlərdən silah toplanarkən əhalidən heç bir şikayət alınmamışdı. Hətta vaxtı ilə rus ordusunda xidmət etmiş keçmiş əsgərlər Azərbaycan Ordusundakı nizam və intizamın Napoleon dövrlərində olduğundan da möhkəm olduğunu qeyd edirdilər.

Əmrdə qeyd olunduğuna görə bir-sıra ucqar kəndlərində Azərbaycan ordusunun çox qısa zaman ərzində formalaşması əhalinin heyrətinə səbəb olmuşdu. Orkestrin sədaları altında şax addımlarla hərəkət edən qoşun bölmələrini gördükdə çoxları ordunun baş komandanı, hərbi nazir S.Mehmandarova öz xeyir-dualarını göndərirdilər. General Səlimov qürur hissi ilə vurğulayırdı ki, yaratdığı gənc ordunun əhalinin hörmət və məhəbbətini qazanmasını S.Mehmandarova çatdırmaqdan qürur duyacaqdır.

Tapşırılan vəzifələrin tamamilə icra edildiyi üçün general Səlimov hissə və bölmələrin komandirlərinə, dəstənin tərkibinə daxil olan bütün zabitlərə və əsgərlərə öz minnətdarlığını bildirirdi. Xidmətdə xüsusilə fərqlənən bir neçə zabitə isə şəxsən minnətdarlığını çatdırmağı Həbib bəy Səlimov özünün şəxsi və vəzifə borcu bilirdi. Həmin hərbi qulluqçular bunlar idi: 5-ci Bakı piyada alayının komandiri podpolkovnik İsrafilov, 3-cü Şəki Süvari alayının komandiri polkovnik Xosrov Mirzə Qacar, 6-cı dağ topçu batareyasının komandiri podpolkovnik Tarxanov, dəstənin qərargah rəisi podpolkovnik Ehsan xan Naxçıvanski, dəstənin həkimi, mə'mur Bulatov, dəstənin ləvazimat rəisi Xan Talışinski.

Lənkəran dəstəsinin cənub bölgəsində fəaliyyəti ərzində yuxarıda göstərilən silahlardan başqa Muğandakı qüvvələrdən və rus əhalisindən 517 ədəd berdanka tüfəng, 93 ədəd türk tüfəngi, 382 ədəd ov tüfəngi, 289 ədəd müxtəlif silahlar, 36 ədəd süngü, 670 ədəd ingilis patronu, 12454 ədəd berdanka patronu, 26 ədəd səhra bombası, 3 ədəd aeroplan bombası, 15 ədəd qılınc və 40 ədəd xəncər alınmışdı. Bütün bu silahlar sonradan Lənkəranda təşkilinə başlanan köməkçi tabora təhvil verilmişdi.

Hərbi nazir S.Mehmandarov da Lənkəran dəstəsinin fəaliyyətinin nəticələri ilə bağlı 19 sentyabr 1919-cu il tarixində 420 saylı əmrini imzaladı. Əmrin ikinci bəndində deyilirdi: "Lənkəran şəhərinin tutulması, həmin rayonda qayda-qanunun bərpa edilməsi və Azərbaycan hökumətinin hakimiyyətinin təsdiq edilməsi üçün mənim tərəfimdən Lənkərana Ümumi qərargah rəisi general-mayor Səlimovun komandanlığı altında üç qoşun növündən ibarət xüsusi dəstə təchiz edilmiş və göndərilmişdi.

Hacıqabuldan Lənkərana və geriyə olan 430 verstlik məsafəni güclü istidə

bizim gənc ordumuz xəstələr və arxada qalanlar olmadan 15 günə qət etmişdir. Bütün yürüş ərzində dəstədə qayda-qanun pozulmamış, yerli sakinlərdən heç birinə kiçik bir ziyan da vurulmamışdır. Yolboyu şəhər və kəndlərin əhalisi dəstənin zabit və əsgərlərinin nəzakətli davranışlarını böyük minnətdarlıqla qeyd edirdilər. Mən buna dəstənin Lənkərandan getməsindən sonra olan şəxsi səfərim zamanı əmin oldum. Hamıda öz əsl hərbi görkəmi və nümunəvi nizam-intizamı ilə güclü təəssürat yaradan dəstə zəngin hərbi qənimətlə Lənkəran qəzasını və Muğanı əzizimiz Azərbaycanın ağuşuna qaytardı, zülmdən və anarxiyadan əziyyət çəkən əhalini sakitləşdirdi və əmin-amanlığı tə'min etdi. Bütün bunlar bir damla qan tökülmədən həyata keçirildi.

Yürüşün bu cür yaxşı nəticələrinə, başlıcası isə hərəkətin nizamının qurulmasını təşkil edən, qoşunun ehtiyaclarına qayğı və ağıllı tələbkarlıq göstərən dəstə rəisinə, general-mayor Həbib bəy Səlimova xidmətlərinə görə səmimi təşəkkürümü bildirirəm. Dəstənin tərkibinə daxil olan hissələrin rəislərinə, bütün zabitlərə və sanitar hey'ətinə qayğıya, yol və dayanacaqlarda tam qayda-qanunun qorunmasına görə təşəkkür edirəm.

Azərbaycan Ordusunun birinci hərbi yürüşündə özlərini qoçaq və şərəfli döyüşçü kimi göstərən gənc əsgərlərə ürəkdən "sağ ol" deyirəm"

Bu əmrdən də göründüyü kimi Səməd bəy Lənkəran dəstəsinə və onun komandiri Həbib bəy Səlimova yüksək qiymət verirdi. Çünki Həbib bəy S.Mehmandarovun bir nazir imi verdiyi tapşırığı incəliklə duymuş və çox dəqiqliklə də yerinə yetirmişdi. Hər şeydən əvvəl tapşırığın yerinə yetirilməsi zamanı sürət və keyfiyyətə nail olunmuşdu. Ancaq bu sürət və keyfiyyətin arxasında Həbib bəyin gərgin zəhməti, təşkilatçılıq qabiliyyəti və şücaəti dururdu.

Yuxarıda qeyd edildiyi kimi Lənkəran dəstəsi geri qayıdandan sonra bölgədə sabitliyin qorunması üçün Lənkəran köməkçi taboru təşkil edildi və kapitan Səməd bəy Rəfibəyov bu taborun komandiri təyin olundu. 1919-cu ilin sonunda Lənkəran piyada taborunun piyada alayına çevrilməsi məsələsi ortaya çıxdı. Bununla bağlı Həbib bəy Səlimov tabor komandiri S.Rəfibəyova xüsusi bir məktub göndərdi və orada nə etmək lazım olduğunu müfəssəl şəkildə onun nəzərinə çatdırdı: «Ən yaxın zamanlarda taborun, tərkibində dörd tabor olan alaya çevrilməsinə başlanacaqdır. Buna görə də Siz indidən bütün hazırlıq işlərini görməlisiniz. Yəni:

1). 4 bölüyün adamlarını 16 bölüyə bölün, təzə bölüklərə keçəcək adamların siyahılarını tərtib edin ki, zərurət yaranan kimi onlar dərhal yeni bölüyə göndərilsinlər.

2)Aşağı çinlər arasından və təlim komandasından bölük komandirlərini və komanda heyətini təyin edin

3)Taborlarda müvəqqəti komandirlik edəcək şəxsləri müəyyənləşdirin.

4) Tələb edin və heç olmasa ümumi şəxsi heyət üçün geyim, yyatacaq əşyaları, təchizat və arabalar alın.

5) İndidən binaları müəyyənləşdirin və onların uyğunlaşdırılması üçün mülahizələrinizi hazırlayın.

6) Xəbər verin görək, Lənkəranda alayın bütün şəxsi heyəti üçün yarımkürklər sifariş etmək mümkündürmü və hansı qiymətə?

7) İndidən kadrlarınızla təlim-tərbiyənin aparılmasını gücləndirin».

1919-cu ilin sonunda Həbib bəy Səlimov yeni bir məsul vəzifəyə təyin edildi və buna görə də qarargah işindən müəyyən müddətə uzaqlaşmalı oldu. Həmin vaxta qədər general-mayor Murad Gəray Tlexas həm Bakı hərbi general-qubernatoru vəzifəsini, həm də Bakı İstehkamat hissəsinin rəisi vəzifəsini icra edirdi. Ancaq konkret tarixi şəraitdə bu vəzifələrin hər kikisinin icrasına çox böyük diqqət tələb olunduğundan S.Mehmandarov M.Tlexası ikinci vəzifəsindən , yəni, Bakı İstehkamat hissəsinin rəisi vəzifəsindən azad etdi və 1919cu il dekabr ayının 10-da həmin vəzifəyə Həbib bəy Səlimovu təyin etdi. Təxminən 2 aya qədər bir müddətdə Həbib bəy Səlimov Bakı ətrafının müdafiəsinin möhkəmləndirilməsi ilə məşğul oldu və fevral ayının ortalarında yenidən Hərbi Nazirliyin aparatına çağırıldı. Onun geri çağırılması həm Baş Ərkani-hərb rəisi, general-leytenant M.Sulkeviçin xidmətdən tərxis edilməsi, həm də Nazirliyin Qərargahının təkmilləşdirilməsi ilə bağlı idi. Hərbi nazirin 17 fevral 1920-ci il tarixli 105 nömrəli əmri ilə Cümhuriyyət ordusu Qərargahının yenidən qurulması barədə komissiya yaradıldığı elan edildi. genearl-mayor H.Səlimov bu komissiyanın sədri, general-mayor H.Qaytabaşı və polkovnik Karqaleteli bu komissiyanın üzvləri təyin edildilər. Hərbi nazir mərdə xüsusi olaraq vurğulayırdı ki, komissiya sayca az, lakin işlək keyfiyyətlərə malik olan bir qərargahın layihəsini hazırlamağa çalışmalıdır.

Həmin əmrin digər bir paraqrafı ilə hərbi nazir ordunun Baş təchizat rəisi vəzifəisnin təsis edilməsi üçün də işçi komissiyasının tərkibini təsdiq etmişdi. Bu komissiyaya da general-mayor H.Səlimov başçılıq edirdi.

General H.Səlimov ona Baş Ərkani-hərb rəisi vəzifəsinin həvalə edilməsi və Nazirliyin idarəetmə strukturlarının təkmilləşdirilməsi barədə layihələrin hazırlanması kimi məsuliyyətli işin tapşırılması ilə əlaqədar olaraq 1920-ci il fevral ayının 20-də Bakı İstehkamat hissəsinin rəisi vəzifəsindən azad edildi və onun yerinə general Usubov təyin edildi.

1920-ci ilin fevral ayında general H.Səlimovun sədrliyi altında yaradılan hər kiki komissiyanın iclası oldu və hazırlanmış layihələr bu iclaslarda müzakirə edildi. Fevralın 21-də olan iclasda ordunun qərargahının yenidən qurulmasına baxıldı. H.Səlimov iclasda çıxış etdi və onun sədrliyi altında hazırlanmış olan yeni strukturun layihəsi barədə müfəssəl məlumat verdi. O bildirdi ki, yeni layihə hazırlanırkən bir-sıra dəyişikliklər nəzərdə tutulmuşdur.Yəni yaxın gələcəkdə Həbib bəy Səlimovun rəis təyin ediləcəyi yeni qərargahın strukturunda bir -sıra ixtisarlar aparılmış, bir-sıra da yeni vəzifələr əlavə edilmişdi. Ümumən qərargah daha yığcam olmuşdu.

General Səlimovun sədrliyi altında hazırlanan bu layihə Nazirlər Şurasına təqdim edildi və orada bəyənildikdən sonra 1920-ci il martın 1-dən onun tətbiqinə başlandı. Bu barədə hərbi nazirin əmri 1920-ci il martın 2-də imzalandı. Əmrə görə Azərbaycan ordusunun Ümumi qərargahı və Baş Ərkani-hərb bir qərargahda birləşdirildi və bu yeni struktur Azərbaycan ordusunun Ümumi qərargahı (Ümumordu qərargahı) adlandırıldı. General-mayor H.Səlimova Ümumordu qərargahının formalaşdırılması tapşırıldı. H.Səlimovun rəis təyin edildiyi

Ümumordu qərargahının strukturu belə idi: 1) Növbətçi generalın idarəsi- a) Ümumi böolmə, b) Təftiş bölməsi, v)Pensiya bölməsi, q)Qeyri-nizami bölük, ğ) Nəşriyyat; 2) General-kvartirmeyster idarəsi- a)Əməliyyat-kəşfiyyat bölməsi, b)Səfərbərlik bölməsi və məhəlli qoşunlar bölməsi, v) Hərbi daşınmalar bölməsi, q) Nizami və ümumi bölmə, ğ) Rabitə komandası ; 3) Hərbi topoqrafiya, 4) Hərbi ədliyyə hissəsi və 5) Hərbi Nazirliyin Dəftərxanası- a) Qanunvericilik-kadifikasiya bölməsi, b) Maliyyə bölməsi.

Ordunun təchizat rəisi vəzifəsinin təsis edilməsi və təchizat strukturlarının yenidən qurulması üçün yaradılmış komissiyanın son iclasında da komissiyanın sədri H.Səlimov çıxış etdi. O bildirdi ki, yeni struktur dəyişiklikləri aparılarkən işlək və çevik bir orqanın yaradılması üçün hərbi nazirin tövsiyyələri əsas tutulmuşdur. Əvvəlki strukturla müqayisədə müəyyən ixtisarlar aparılmış və yeni yaradılan vəzifələrə təcrübəli şəxslər təklif olunmuşdu. H.Səlimovun məruzəsindən sonra qərara alındı ki, diviziyaların qərargahlarında olan ləvazimat zabitlərinin ştatı ləğv edilsin. Çünki, bu ştatlara artıq ehtiyac qalmamışdı və onları tutan zabitlər də səmərəli fəaliyyətə malik deyildilər.

General H.Səlimovun təqdim etdiyi layihəyə görə təchizat strukturları birləşdirilərək Ordunun təchizat rəisinin idarəsi yaradılırdı. Ona tabe olan idarələr isə baş idarə olmaq səlahiyyətini itirirdilər. Ordunun təchizat rəisinin idarəsini aşağıdakı idarələr daxil olmalı idi: 1) Ləvazimat idarəsi, 2)Ordunun istehkam təchizatı idarəsi, 3) Ordunun topçu təchizatı idarəsi, 4)Ordunun Hərbi xəstə hissəsi idarəsi, 5) Ordunun hərbi baytar idarəsi. H.Səlimovun rəhbərliyi altında hazırlanan bu layihə hərbi nazir S.Mehmandarov tərəfindən bəyənildi və onun əmri ilə 1920-ci il martın 15-dən tətbiqinə başlandı.

1920-ci il mart ayının ortalarında Həbib bəy Səlimov bir-neçə gün ərzində müvəqqəti olaraq hərbi nazirin vəzifəsini icra etdi. Bu vəzifənin icraçısı kimi onun imzaladığı əmr və sərəncamlar arxivlərdə indi də saxlanmaqdadır.

əhayət H.Səlimovun Azərbaycan xalqı qarşısındakı son unudulmaz xidməti 1920-ci ilin Novruz bayramı ərəfəsində Qarabağda irimiqyaslı döyüşlərlə başlanan erməni təcavüzkarlığının susdurulmasına rəhbərlik etməsi olmuşdu. Milli bayramın qeyd edilməsi ilə azərbaycanlı əsgərlərin öz sayıqlığını itirəcəyini güman edən ermənilər qəfildən hücuma keçib bir-sıra mövqeləri tutsalar da H.Səlimovun komandirliyi və təşkilatçılığı altında aparılan döyüşlərdən sonra onların bütün arzuları puça çıxdı. Qarabağda erməni qüvvələri layiqli zərbə aldılar.

Erməni qüvvələrinin bütün cəbhə boyu hücuma keçməsi xəbəri alınan kimi hərbi nazir S.Mehmandarov ağır döyüşlərə rəhbərlik etmək üçün yenə də Həbib bəy Səlimovun bölgəyə göndərilməsini və oradakı qüvvələrin fəaliyyətinə rəhbərlik etməsini məqsədəuyğun bildi. Mart ayının 26-da H.Səlimovun rəhbərliyi altında yaradılmış olan qərargah Ağdama gəldi. Elə həmin gün də ermənilər tərəfində tutulmuş Əsgəran yolunun kəşfiyyatı aparıldı. Əldə olunmuş məlumatlar göstərirdi ki, Əsgəran ətrafındakı bütün yüksəkliklər erməni silahlılarının əlindədir. Ona görə də Həbib bəy hərbi nazirdən xahiş edirdi ki, orduda olan 3 ədəd zirehli avtomobildən biri Ağdama göndərilsin. Həbib bəy bu avtomobildən müdafiə işlərində geniş istifadə etmək fikrində idi. O yaxşı anlayırdı ki, ona hərbi nazir

tərəfindən çox məsuliyyətli bir vəzifə tapşırılmışdır. və qarşısındakı düşmən xeyli güclüdür. Bu əməliyyat Lənkəran əməliyyatından çox fərqli idi. Çünki qüvvələr nisbəti tamam başqa idi. Hərbi təşəbbüs də qəflətən ermənilərin əlinə keçmişdi. Onlar çox əlverişli məntəqələri ələ keçirmiş və orada möhkəmlənmişdilər. Strateji əhəmiyyəti baxımdan da bu bölgədə baş verən proseslər çox böyük əhəmiyyət kəsb edirdi. H.Səlimov ona tapşırılan vəzifəni yerinə yetirərək Cümhuriyyət ordusunun nəyə qadir olduğunu, Azərbaycan dövlətçiliyinin gücünü nümayiş etdirməli ya da məğlubiyyəti ilə Qarabağın ermənilərə verilməsinə zəmin yaratmalı idi. Səməd bəy də Qarabağ döyüşlərinin Azərbaycan xalqı üçün hansı əhəmiyyətə malik olduğunu yaxşı anlayırdı və ona görə də bu ağır vəzifəni H.Səlimova tapşırmışdı. Çünki o, Səlimovun bacarığına və təşkilatçılığına inanırdı. Həbib bəy də bu etimadı doğrultmağı qarşısına məqsəd qoymuşdu. Ona görə də o dərhal qətiyyətli fəaliyyətə başladı. Düşmən isə öz gücünü artırmaqda davam edirdi. Elə ilk döyüşün nəticəsi də düşmən kifayət qədər böyük potensiala malikdir.

Martın 29-da isə Azərbaycanın qoşun hissələrinin Əsgəran istiqamətində hücumu başladı. Əsgəranın möhkəmləndirilmiş mövqelərinin tutulması üçün hücum şose yolu boyu Xanabadadək aparılmalı idi. Döyüşə partizan dəstələri də cəlb edilmişdi. Onlar 3360 nömrəli hündürlük istiqamətində hərəkət etməli idilər. Xramort kəndi istiqamətində Parlament mühafizə dəstəsi, Daşbaşı kəndi istiqamətində isə Bakı piyada alayının bölmələri irəliləməli idi. General H. Səlimov bir piyada bölüyünü ehtiyatda saxlamışdı. Bunlardan başqa Naxçıvanik kəndi ətrafında partizanlardan bir dəstəsi nümayişkaranə hücuma qoşulub düşmənin diqqətini özünə cəlb etməli idi. Bakı alayı bölmələrinin sağ cinahının mühafizəsi üçün ora süvari partizan dəstəsi və Tatar süvari alayının bölüyünün yarısı göndərilmişdi. Süvarilərə Həşimbəyov rəhbərlik edirdi. Toplanmış kəşfiyyat mə'lumatlarına uyğun olaraq ermənilərin bütün atəş mövqelərinin zərərsizləşdirilməsi üçün belə bir döyüş planı hazırlanmışdı .

Döyüş səhər saat 7-də başladı. Saat 11-də artıq Xramort kəndi tutulmuşdu. Bu kəndə birinci olaraq Parlament mühafizə dəstəsinin süvarisi podpraporşik Mövsüm İbrahimov üç süvari ilə daxil olaraq düşmənin atəş mövqeyi yerləşmiş evlərə od vurdu. Saat 13-də Parlamentin mühafizə dəstəsi 3360 hündürlüyünə yaxınlaşdı. Partizanlar Xanabadın ətrafını artıq ələ keçirmişdilər. Bakı piyada alayının bölmələri isə hakim təpəliklərlə Daşbaşı yüksəkliyinə xeyli yaxınlaşdılar. Lakin podpolkovnik Nəbibəyovun səhlənkarlığa yol verməsi bu istiqamətdə uğurları genişləndirməyə imkan vermədi. Qarşısından qaçan düşməni tə'qib edərək qoşun bölmələri onlar üçün tə'yin edilmiş döyüş sahəsindən kənara çıxmış və bununla da topların himayəsindən məhrum olmuşdular.

Həşimbəyovun rəhbərliyi altında olan süvarilər də onlara verilən tapşırıqları yerinə yetirə bildilər. Onların igidliyi və sür’ətli hücumu nəticəsində Məşədəli məntəqəsi və Fərrux kəndi ələ keçirildi. Güclü hücumdan sonra qüvvələrini toplayıb irəliyə atılan düşmən dəstələri bə'zi istiqamətlərdə Azərbaycanın qoşun bölmələrinin hərəkətinin qarşısını aldı, bə'zi yerlərdə isə əvvəlki mövqelərin bərpa

olunmasına cəhd göstərdilər. Sol cinahda vuruşan erməni dəstələri Əsgərandan əlavə kömək və 2 ədəd pulemyot aldıqdan sonra əks-hücuma keçdi və Xanabaddan Azərbaycan qüvvələrini geri atdı. Buradan geri çəkilən qüvvələrin qarşısını Parlament mühafizə dəstəsinin bir süvari bölüyü ilə general H. Səlimov özü almaq məcburiyyətində qaldı. Günün sonunda Azərbaycan qoşun bölmələri erməni qüvvələrini 2-verst geri çəkilməyə məcbur etdi. General Səlimovun bildirdiyinə görə bə'zi istiqamətlərdə qoşun bölmələri ermənilərin əks-hücumu ilə geri çəkilsələr də döyüşçülərin əhval-ruhiyyəsi mübariz və döyüşkən idi. Topçuların fəaliyyətindən general Səlimov xüsusilə razılıq edirdi. Onların dəqiq atəşləri gün ərzində əldə edilən uğurun əsas tə'minatçılarından biri idi. Döyüşlərin gedişində Parlamentin mühafizə dəstəsindən 7 əsgər şəhid olmuş, 15 əsgər isə yaralanmışdı. 5-ci Bakı piyada alayından praporşik Nəcəfəliyev və daha 16 əsgər şəhid olmuş, podporuçik Dauşvili, praporşiklər Əsgərov və Ərəbov isə yaralanmışdılar. Düşmən tərəfdən itki isə daha çox idi. Təkcə Xramort kəndində ermənilər 60 meyid qoyub getmişdilər.

Hərbi nazir S.Mehmandarova göndərdiyi teleqramında H.Səlimov Əsgəranın alınmamasını partizanların zəif döyüşü ilə əlaqələndirirdi. Onun bildirdiyinə görə partizanlar ardıcıl deyildilər və daha çox lazımsız yerə patron məsrəf edirdilər. H. Səlimov hücumların gücləndirilməsi üçün nazirdən əlavə silahlı qüvvələrin göndərilməsini xahiş edirdi. Nazir isə bununla bağlı martın 30-da Gəncədən Ə.Şıxlinskiyə göstəriş vermişdi ki, Quba alayının Bakıya gələn taborları dərhal Ağdama göndərilsin. H.Səlimovun xahişinə müvafiq olaraq S.Mehmandarov bir dağ top batareyasının da Ağdama yola salınmasını lazım bilirdi .

Ancaq general H.Səlimovun əsas diqqəti Əsgəran istiqamətində düşmənə güclü zərbə vurulmasına, Əsgəranın azad edilməsinə yönəlmişdi. Bu məntəqənin azad edilməsi Xankəndi və Şuşaya gedən yolların açılması demək idi. Həm də Əsgəranda düşmənin daha güclü atəş mövqeləri var idi. Həmin mövqelərin məhv edilməsi Qarabağda gərginliyin xeyli səngiməsinə səbəb ola bilərdi.

Aprelin 2-də Ağdama Zaqatala piyada alayının, Şirvan alayının və Tərtər süvari alayının hissə və bölmələrinin bölgəyə gəlib çıxması Əsgəran üzərinə hücum hazırlığı daha da sürətləndirildi. Əlavə nizami qüvvələrlə möhkəmləndirilən Ağdam dəstəsi aprel ayının 3-də yenidən Əsgəran istiqamətində hücuma başladı. Erməni silahlı qüvvələri bütün imkanlarını səfərbərliyə alıb əvvəlki hücumda olduğu kimi Ağdam dəstəsinin qarşısını almağa çalışsalar da gərgin şəraitdə keçən döyüş Azərbaycanın qoşun bölmələrinin böyük uğuru ilə nəticələndi. Xeyli tələfat verən düşmən əvvəlcə Əsgəranı, sonra da Xocalını tərk etməli oldu. Bölgədə strateji əhəmiyyətə malik olan bu iki məntəqə Ağdam dəstəsi tərəfindən azad edildilər (295, 39) .

Ağdam dəstəsi gün ərzində təkcə Əsgəran və Xocalının təmizlənməsi ilə kifayətlənmədi. Uğurlu hücumu davam etdirən dəstə bir neçə kəndi də azad edərək günortadan sonra, saat 4-də Azərbaycanın qoşun bölmələri Ağdam-Əsgəran yolunun kənarında yerləşən Kətik, Aranzəmin və Naxçıvanik kimi möhkəmləndirilmiş məntəqələrini də erməni qüvvələrindən azad etdilər və Malıbəyli kəndinə yaxınlaşdılar .

Əsgəran ətrafında uğursuzluğa düçar olan düşmən qüvvələri geri çəkilərək Malıbəyli-Daşkənd yüksəklikləri və Şuşikənd arasında toplaşmışdılar. Ətraf kəndlərdə olan erməni silahlı dəstələri də bura axışaraq böyük bir zərbə qüvvəsi yaratmışdılar. Bu dəstənin sərəncamında 3 ədəd dağ topu və 2 ədəd pulemyot var idi. Dəstədə birləşən silahlıların sayı 2 min nəfərdən yuxarı idi. Onlar vaxtaşırı Şuşa-Xankənd şose yolunu gülləyə tutur və bu yolu nəzarət altında saxlamağa çalışırdılar. Şuşa və Xankəndi, eləcə də Şuşa-Xocalı-Əsgəran-Ağdam arasında əlaqələrin normal hala salınması bu yol üzərində mövcud olan təhlükənin aradan qaldırılmasını tələb edirdi. Bu məqsədlə də aprel ayının 5-də Ağdam dəstəsi Şuşikənd istiqamətindəki erməni mövqeləri üzərinə hücuma keçdi. Səhər saat 10-da başlayan hücum üç istiqamətdə həyata keçirilirdi. Cəbhənin mərkəzində 4-cü Quba piyada alayının bölmələri döyüşürdülər. Sağ cinahda Malıbəyli kəndini ötüb keçərək Şuşikəndin şərqindəki yüksəkliklərə doğru Tatar süvari alayının bölmələri irəliləyirdi. Sol cinahdan isə – Şuşikənd qəbristanlığı istiqamətindən kəsə yolla Bakı piyada alayının bir taboru hücum edirdi. General Səlimovun verdiyi mə'lumata görə qoşun bölmələri döyüşlərdə bərkiyib möhkəmlənmiş bölmələrə xas olan sonsuz bir igidliklə vuruşurdular. Cəbhənin mərkəzində qərar tutmasına baxmayaraq Quba alayının bölmələri bir göz qırpımında Daşkənd yüksəkliklərini ələ keçirdilər. Nəbibəyovun komandirliyi altında olan batareyanın topçuları isə düşmənə dinclik vermədilər, dəqiq atəşləri ilə onun bütün mövqelərini məhv etdilər. Saat 12-də cinahlarda vuruşan bölmələr düşməni mühasirəyə almağa başladılar. Ehtiyatda saxlanılan bölmələrlə hücumun gücləndirilməsi ermənilərin tamamilə nəfəsini kəsdi və onlar sür'ətlə Keşişkənd istiqamətinə qaçıb dağıldılar. Saat 20-də döyüşü uğurla başa vuran hissə və bölmələr Şuşaya gəlib çıxdılar .

Üç gün davam edən ağır döyüşlərdə yorulmuş olan bölmələrə istirahət verildi. Şuşikənd və Daşkənd ətrafına mühafizə postları qoyuldu. Aprelin 8-də erməni silahlı dəstələri Şuşikənd və Daşkənd üzərinə hücuma başladılar. Onlar güman edirdilər ki, azsaylı mühafizə postlarının müqavimətini qıraraq yenidən Şuşikəndi və Daşkəndi ələ keçirə biləcəklər. Düşmənin hücumu barədə xəbər alınan kimi Bakı piyada alayının bölmələri mühafizə postlarının köməyinə göndərildi. Xeyli çəkən döyüşdən sonra erməni qüvvələri növbəti ağır zərbəni alıb Keşişkəndə doğru qaçdılar. Şuşikənd ətrafındakı və Keşişkənd yaxınlığındakı bütün hakim yüksəkliklər Azərbaycanın qoşun bölmələrinin əlinə keçdi. Əlavə olaraq Daşaltı kəndi də ermənilərdən azad edildi.

Aprelin 9-dan 12-dək Şuşa yaxınlığındakı Keşişkənd ətrafında da gərgin döyüşlər baş verdi. Bu döyüşlər Qarabağdakı erməni qüvvələrinin ən ciddi və ən möhkəmləndirilmiş bazasını məhv etdi. Ən'ənəvi olaraq bura ermənilər üçün xüsusi əhəmiyyət kəsb edən bir məntəqə idi. Çünkü təbii şərait Keşişkənd ətrafında uzun müddət uğurlu müdafiə döyüşləri aparmağa imkan verirdi. Bütün əlverişli nöqtələr ermənilərin əlində idi. Əsgəran istiqamətindən geri çəkilən qüvvələr burada cəmləşmişdilər. Döyüşün uğurlu qurtarmasını tə'min etmək üçün Cəbrayıl və Zəngəzurdan da bura xeyli erməni qüvvəsi gətirilmişdi. Erməni silahlılarının ümumi sayı üç minə qədər idi. Onların tərkibində 2 ədəd topu və 8 ədəd pulemyotu olan 2 nizami tabor da var idi. Belə bir qüvvə ilə döyüşə girən

ermənilər uğur qazanacaqlarına, Şuşa-Xankənd yolunu yenidən nəzarət altına almaqla Azərbaycanın qoşun bölmələrini Şuşaya sıxışdıracaqlarına şübhə etmirdilər. 1918-ci ildə bu ərazidə türk qoşun bölmələrinin hücumunun qarşısının alınması da ermənilərdə Keşişkənd mövqelərinin məğlubedilməzliyi təsəvvürü yaratmışdı .

Aprelin 9-da Azərbaycanın qoşun bölmələri tərəfindən Şuşikənd ətrafındakı yüksəkliklərin əksəriyyəti ələ keçirildi. Burada yalnız bir yüksəklik tutulmamışdı. Həmin yüksəklikdən də Keşişkəndə gedən yol keçirdi. Bu yüksəklik tutulmadan Keşişkəndə doğru irəliləmək mümkün deyildi. Ona görə də ayın 10-da əsas diqqət məhz bu yüksəkliyin tutulmasına yönəldildi. Yüksəkliyin tutulması Quba piyada alayının taboruna tapşırıldı. Ayın 10-da həyata keçirilən hücumla Quba alayının döyüşçüləri qısa müddət ərzində Keşişkənd yolu keçən yüksəkliyi ələ keçirdilər. Lakin onlar yüksəklikdə dayanmayıb geri çəkilən düşmənin tə'qibinə başladılar. Nəticədə erməni qüvvələrinin güclü cinah atəşlərinin altına düşdülər. Bu da Quba alayının xeyli itki verməsinə gətirib çıxardı. Döyüş bölgəsinə gələn general Səlimov dərhal qubalıların geri çəkilməsi barədə əmr verdi və bölmələr ayın 10-da səhər dayandıqları ilkin mövqelərə qayıtdılar.

General-mayor Səlimovun qeydlərinə görə Keşişkənd ətrafında aprelin 12-də baş verən döyüş ən gərgin və ən qanlı döyüş idi. Ermənilər bütün qüvvələrini və imkanlarını sərf etmişdilər. Onlar nəyin bahasına olursa-olsun Keşişkəndi qorumağa çalışırdılar. Azərbaycanın qoşun hissələri isə Keşişkəndin strateji əhəmiyyətini anlayaraq bir addım da olsa geri çəkilmək fikrində deyildilər. Erməni qüvvələri əlverişli mövqelərdə qərar tutsalar da onların atəşləri Azərbaycan döyüşçülərinin əzmini və iradəsini qıra bilmədi. Ağdam dəstəsinin qərargah rəisi polkovnik Zeynalovun ön xətdə döyüşçüləri ruhlandırması, onları irəliyə səsləməsi qoşun bölmələrinin mübariz ruhunu daha da artırdı və saat 10-da Keşişkənd artıq təcavüzkar qüvvələrdən tamamilə təmizlənmişdi. Quba alayının kəşfiyyatçıları və 1-ci Cavanşir piyada alayının 9-cu bölüyü hamıdan qabaq Keşişkəndə daxil oldular. Dəstə komandiri bu böyük uğurun qazanılmasında Cavanşir alayının komandiri, polkovnik Levestamın və 7-ci Şirvan piyada alayının komandiri podpolkovnik Rəfibəyovun xidmətlərini xüsusi olaraq qiymətləndirirdi. Səlimovun yazdığına görə polkovnik Levestam onun bölmələrinə tapşırılan sahədə revolveri əlinə alıb hamıdan qabaqda gedirdi və öz döyüşçülərini də bu çətin döyüşə aparırdı. General Səlimov eyni zamanda topçuların fəaliyyətindən də razılıq edirdi. Onların dəqiq və səmərəli atəşləri piyadaların dönmədən irəliləməsinə zəmin yaradırdı.

Ermənilər böyük itki verərək Keşişkənddən qaçıb dağıldılar. Aprelin 13-də general Səlimov qoşun bölmələrini Şuşaya çəkərək onlara istirahət verdi.

Keşişkənd döyüşündən sonra bölgədə olan hissələri yenidən qruplaşdırdıqdan sonra H.Səlimov Zəngəzur istiqamətində hücumu davam etdirməyi planlaşdırırdı.Nizami qüvvələrin gücü ilə aparılması nəzərdə tutulan bu hücumun aprelin 20-si ərəfəsində başlanacağı güman edilirdi .

Ancaq Hərbi Nazirliyin rəhbərliyi Qarabağa nəinki canlı qüvvə göndərmək imkanına malik deyildi, əksinə Qırmızı ordunun şimal sərhədlərinə yaxınlaşması

ilə buranın möhkəmləndirilməsi üçün Qarabağdan qüvvə götirilməsinin mümkünlüyü öyrənilirdi. Aprelin 16-da hərbi nazirə göndərdiyi teleqramında general Səlimov bildirirdi ki, Şuşa və Xankəndi ətrafında xırda dəstələrdə birləşmiş olan erməni silahlıları sakitləşmək bilmirlər. Belə vəziyyətdə Qarabağdakı qüvvələrin zəiflədilməsi arzuolunmaz nəticələrə gətirib çıxara bilərdi. General Səlimov teleqramında daha sonra yazırdı: "Siyasi vəziyyət şübəhəsiz ki, Sizin üçün daha aydındır. Ancaq cəsarət edərək öz fikrimi bildirirəm ki, biz iki cəbhədə müharibə apara bilmərik və belə mübarizənin nəticələri bizim üçün çox pis ola bilər. Qəti hücuma keçmək üçün əlavə köməyin göndərilməsini xahiş etmək istərdim. Cəbrayıl dəstəsini möhkəmləndirmək üçün mənim indi heç nəyim yoxdur" .

Bolşevik qoşunları Azərbaycanın şimal sərhədlərinə yaxınlaşdıqca erməni silahlı dəstələrinin fəallığı da artırdı.Geniş cəbhədə Azərbaycanın qoşun bölmələrinin təzyiqinə davam gətirməyən erməni silahlıları ailələrini Zəngəzura köçürüb kiçik dəstələrlə Azərbaycan kəndlərinin üzərinə hücum edirdilər. Onların partizan taktikasının qarşısını almaq qoşun bölmələri üçün heç də həmişə mümkün olmadığı üçün yerli əhali arasında da bir qorxu və təlaş var idi. Aprelin 19-da Bakıya göndərdiyi teleqramında general Səlimov ermənilərin bu taktikasının qarşısının alınması üçün də canlı qüvvənin, silah və sursatın ayrılmasını xahiş edirdi .

Xüsusilə daha çox narahatçılıq və təşviş doğuran Cəbrayıl istiqamətində müdafiə qüvvələrinin möhkəmləndirilməsi üçün ən azı sayı min nəfərə çatan 2 piyada taborunun göndərilməsi tələb olunurdu . Canlı qüvvəyə olan ehtiyacın aradan qaldırılması üçün H.Səlimov aprelin 2-ci yarısında Şuşa qəzasında səfərbərliyin keçirilməsi barədə əmr verdi. Bu əmrə əsasən 30 yaşınadək olan yerli əhali xidmətə şamil olunurdu .

Bundan başqa general H.Səlimovun bölgədə olan türk generalı Nuru paşa ilə şəxsən görüşündə aydın olmuşdu ki, Bakıda, Ağdamda, Gəncədə vaxtilə Denikin ordusunda xidmət etmiş 400-dək azərbaycanlı və müsəlman yaşayır. H.Səlimov Hərbi Nazirliyin rəhbərliyindən xahiş edirdi ki, erməni təcavüzünə qarşı vuruşmağa hazır olan bu şəxslərin toplanıb Ağdama göndərilməsinə köməklik göstərilsin.

Azərbaycanın müdafiə qüvvələrinin Qarabağda sayca azalmasından erməni silahlı dəstələri hər vasitə ilə istifadə etməyə çalışırdılar. Keşişkənd döyüşündən sonra Azərbaycanın bolşevik işğalına qədər olan müddətdə Ağdam dəstəsinin fəaliyyəti də əsasən müxtəlif məntəqələrdə fəallaşan erməni silahlı dəstələrinin susdurulması ilə bağlı idi. Aprelin 18-dən 19-a keçən gecə erməni silahlı dəstələri Qaybalı kəndinə daxil olaraq onun bir hissəsini yandırdılar. Bu hadisənin baş verməsində kəndi qoruyan Nuxa partizanlarının da günahı var idi. Onlar intizamsızlıq göstərərək aprelin 18-də heç kimlə razılaşdırmadan kənddəki müdafiə mövqelərini tərk edib getmişdilər.Bundan ermənilər dərhal istifadə etmiş və gecə ikən kəndə soxulmuşdular. Ayın 19-da general Səlimov Ağdama gələrək Hərbi səhra məhkəməsi təşkil etmiş və özbaşına döyüş mövqelərini tərk edən partizanları bu məhkəməyə vermişdi. Hadisə ilə bağlı Hərbi Nazirliyə göndərdiyi mə'lumatdan aydın olur ki, ermənilər Gülablıya soxulanda Ağdamda 2 minədək könüllü silahlı

var idi. Onların heç biri gülablıların köməyinə yetmək barədə əməli addım atmamışdı. General Səlimovun yazdığına görə, bu silahlılar nəinki Gülablıya kömək göndərməmiş, əksinə özləri də 2-3 yüz erməninin hücumu xəbərindən təlaş və vahimə içində çaşıb qalmışdılar. Kəndin müdafiəsinin möhkəmləndirilməsi üçün qoşun bölmələri Gizir yüksəkliyini ələ keçirib erməni silahlılarını Abdala doğru qovmağa başladılar .

Aprelin 27-də Hərbi Nazirliyə göndərdiyi teleqramda H.Səlimov bildirirdi ki, onun dəstəsində qalan qüvvə yalnız Şuşa-Ağdam yolunu qorumağa çatır. Həmin gün Bakıya göndərdiyi digər bir teleqramında isə general H.Səlimov çətin vəziyyətdə olduğunu xatırladıb soruşurdu ki, ixtiyarında olan qüvvə ilə Zəngəzura doğru hərəkət etsin ya yox? 1919-cu il noyabrın 23-dək Zəngəzurda mövcud olan vəziyyətin bərpası üçün orada əməliyyat keçirilməsinin və ya yalnız sərhədlərin qorunmasının məqsədəuyğunluğu barədə H.Səlimov ona dəqiq göstəriş verilməsini xahiş edirdi .

Ancaq elə həmin gün də bolşevik qoşunları artıq Azərbaycan sərhədlərini keçib sürətlə Bakıya doğru irəliləyirdilər. Aprel ayının 28-də isə Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi.

Cümhuriyyət zabitlərinin bir-çoxu orduda qalaraq xidmətlərini davam etdirirdilər. Gəncə və Qarabağda baş verən üsyandan sonra isə onların kütləvi terroruna başlandı. H.Səlimov bolşevik çevrilişindən dərhal sonra raport yazaraq ordudan istefa verdi. Bununla belə o heç də Cümhuriyyət zabitləri üçün mövcud olan təhlükədən canını qurtara bilmədi. Tezliklə o da həbs edildi və yerli-yersiz ittihamlardan sonra güllələnməyə məhkum edildi.

H.Səlimovun bolşevik çevrilişindən sonra nə işlə məşğul olması barədə elə bir geniş məlumat yoxdur. Onunla bağlı Naxçıvan dövlət arxivində bəzi sənədlər mövcuddur. Bu sənədlər 1920-ci il avqustun 20-də Naxçıvanda hərbi komissar Starovun sədrliyi ilə Həbib bəyin məhkəməsi barəsindədir. Məhkəmənin protokolundan bir parça Ş.Nəzirlinin «Cümhuriyyət generalları» kitabında çap olunmuşdur. Həbib bəy Səlimova qarşı necə böyük haqsızlıq törədildiyini görmək üçün dindirilənlərin yalan ifadələrini olduğu kimi təkrar edirik:

«Birinci şəxs Şaxtaxtinski : General Səlimov zəhmətkeş xalqın satqınıdır, səbatsızdır. O, Bakıdan İrana qaçdı və oradan Naxçıvana gəlib camaatı dilə tutdu ki, əhali razılıq versin, onun polku 600 əsgər, 10 ədəd top və bir-neçə pulemyotla Naxçıvana gəlsin. O, sovet hökuməti əleyhinə təbliğat aparırdı. Lakin indiki hökumətə qarşı günahanı boynuna almır. Polkun silahlarını İranda satıb mənimsəmişdir.

İkinci şəxs Rüstəmov: Mən Şaxtaxtinskinin dediklərini təsdiq edirəm və əlavə olaraq bildirirəm ki, general yerli əhalini başa salırdı ki, onun başçılığı ilə Naxçıvana yeni polk toplansın və bolşeviklər əleyhinə vuruşsunlar... o həqiqətən sovet hökuməti əleyhinə təbliğat aparırdı.

Üçüecü şəxs Xəlil bəy: Daşnaklar Şuşaya hücum edəndə Azərbaycan hökuməti korpus təşkil edib Səlimovun başçılığı ilə cəbhəyə, daşnaklarla vuruşmağa göndərdi. Lakin Səlimovun təcrübəsizliyi və korpusa başçılıq edə bilmədiyindən xeyli yaradı və ölüm hadisələri olmuşdur. Lakin mən işə qarışandan

sonra döyüşmüvəffəqiyyətlə başa çatdı və daşnak hücumu darmadağın edildi... O vaxt Qırmızı ordu Bakıya yaxınlaşırdı. Mən ona təklif etdim ki, qırmızıları müdafiə etsin. O söz versə də sözünü yerinə yetirmədi, satqınlıq etdi. Sovet hökuməti əleyhinə təbliğat aparmağa başladı».

Açıq yalan ifadələri üzərində qurulmuş bu şahid ifadələri haqqında nə demək olar? Bu ifadələrin yaratdığı mənzərə 20-ci illərdə Azərbaycan xalqının başına gətirilmiş faciələrin ifadəsidir. Rus hərbçisinin sədr olduğu məhkəmədə Azərbaycan xalqı qarşısında böyük xidmətlər göstərmiş insan azərbaycanlıların əli ilə də ölümə məhkum edildi. Şahid azərbaycanlılar isə həmin planın yerinə yetirilməsi üçünağ yalan danışmağı özlərinə rəva bilirdilər. Bununla belə şahid ifadələrindən aydın olur ki, Həbib bəy bolşevik rejiminin əleyhinə olmuşdur və öz əqidəsindən dönərək o, sovet hökuməti xeyrinə təbliğat aparmağı qəbul etməmişdi. Sonra o da məlum olur ki, ordudan azad olunduqdan sonra Həbib bəy İranna getmişdir. Ancaq bir müddət sonra o yenidən Naxçıvana qayıtmış və burada sovet rejiminə qarşı mübarizə aparmağa cəhd göstərmişdir. Şahid ifadələri göstərir ki, o burada alay təşkil etmək və ona rəhbərlik etmək niyyətində imiş. Heç şübhəsiz ki, H.Səlimovun bu təşəbbüsü yerli əhali tərəfindən razılıqla qarşılanmışdı. Bolşevik-daşnak qüvvələri isə bu təşəbbüsün qarşısını almış və Həbib bəy Səlimovu həbs etmişdi.

Həbib bəy Səlimovun Qarabağ döyüşündəki təcrübəsizliyi, çoxlu itki verməsi barəsindəki şahid ifadəsi yalan və iftiradır. Sadəcə olaraq onun güllələnməsi üçün şahidlər tərəfindən nəyinsə söylənilməsi lazım idi. Şahidlər də bunun öhdəsindən məharətlə gəlmişdilər. Əgər heç onların ifadəsi olmasaydı da H.Səlimovun güllələnməsi üçün başqa ittihamlar tapılacaqdı.

Beləliklə Sovet hakimiyyətinin qurulması ilə Cümhuriyyyət ordusunun bir-çox işıqlı simaları kimi Həbib bəy Səlimovun da həyatına son qoyuldu.

## Süleyman bəy Əfəndiyev

Səməd bəy Mehmandarovun böyüu hörmət və ehtiramını qazanmış və vaxtsıx ölümü ilə də onun qəlbində ağır izlər qoymuş silahdaşlarından biri də Süleyman bəy Əfəndiyevdir. Bu insan milli mənafelərə sadiq, xidməti vəzifələrə məsuliyyətlə yanaşan, son dərəcə işgüzar və s. keyfiyyətləri ilə fərqlənən bir hərbçidir. Ömür yolu ilə bağlı olan məhdud məlumatları oxuyarkən onun göz qarşısında canlanan portretində bir-neçə cizgilər dərhal nəzər-diqqəti cəlb edir. Bu da Süleyman bəyin saflığı, kövrəkliyi, sonsuz insaniliyi, qəlbinin titrəkliyi və bir qədər də romantikliyidir. Bəzən də fikirləşirsən ki, bu qədər həssas və humanist olan insan ordunun sərt həyatını dey il, tamam başqa bir sahəni özü üçün həyat yolu seçməli idi. Ancaq tale ona belə bir həyatı qismət edibmiş və öz təmizliyi, saflığı ilə Süleyman bəy Cümhuriyyət ordusu zabitinin şərəfini, nüfuzunu, saflığını yüksəklərə qaldırmışdı. Bütün bu keyfiyyətləri ilə Süleyman bəy Əfəndiyev Cümhuriyyət ordusunun saflıq, paklıq və titrəklik simvolu idi və bunu onun bütün müasirləri, o cümlədən S.Mehmandarov da təsdiq edirdi. Təsadüfi deyil ki, onun ölümü də ümumxalq kədərinə səbəb olmuşdu və hətta Azərbaycan

parlamentinin 6 mart 1919-cu il tarixli iclasında xatirəsi sükutla yad edilmişdi.

Təəssüf ki, digər generallarımız kimi Süleyman bəy Əfəndiyevin həyatı haqqında da hələlik ətraflı məlumat söyləmək çətindir. Ş.Nəzirlinin «Cümhuriyyəi generalları» kitabında onun Cümhuriyyətə qədərki həyat yolu barədə maraqlı məlumatlar vardır. Həmin məlumata istinad edərək demək mümkündür ki, Süleyman Əlisüleyman oğlu Əfəndiyev 1864-cü il oktyabrın 5-də Ağdamda doğulmuşdu. Çox güman ki, onun atası elmə-təhsilə meylli bir insan olmuş və oğlunun təhsil almasına çalışmışdı. İlk təhsilini Gəncədə alan gənc Süleyman 1880-ci ildə Yelizovetqrad süvari məktəbinə daxil olmuş və 1885-ci ildə oranı uğurla başa vurmuşdu. Hərbi xidmətə Süleyman bəy Qafqazda başlamışdı. O,süvari qoşunlarının polis nəzarəti idarəsində xidmət həyatının ilk sınaqları ilə qarşılaşmışdı. 1899-cu ildə martın 15-də rotmistr rütbəsinə layiq görüləndə Süleyman bəy Əfəndiyev eskadron komandiri idi. 1912-ci ildən polkovnik rütbəsi alan Süleyman bəy elə həmin il Qafqaz ordusunda Zaqafqaziya polis-keşikçi dəstəsinin təftiş-yoxlama üzrə baş nəzarətçisi idi. Fevral inqilabı da onu bu vəzifədə haqlamışdı. Nümunəvi xidmətlərinə görə Süleyman bəy «Müqəddəs Anna » ordeninin 2-ci və 3-cü dərəcələri ilə, «Müqəddəs Stanislav» və «Müqəddəs Vladimir» ordenlərinin 3-cü dərəcələri ilə təltif edilmişdi.

Cüleyman bəy hərbçi olmaqdan əlavə həm də xalqının taleyinə ürəkdən acıyan bir ziyalı idi. Bütün xidmət yolu Qafqazda keçdiyindən bölgədə və Azərbaycanda gedən proseslərlə yaxından tanış idi və Azərbaycan milli-azadlıq hərəkatının fəalları kimi o da konkret tarixi şəraitdə milli hərbi qurumların yaradılmasını, milli müdaviə dəstələrinin təşkilini vacib sayırdı. Çünki yalnız bu qüvvələri yaratmaqla xalqı rus şovinizminin və erməni millətçiliyinin günü-gündən güclənməkdə olan təhlükəsindən xilas etmək olardı. Edilən müraciətlərə baxmayaraq Müvəqqəti hökumət azərbaycanlılardan ibarət milli tərkibli qoşun hissələrinin yaradılmasına icazə vermədikdə Süleyman bəy əməli fəaliyyətə keçməyi və imkanı daxilində xalqın övladlarına hərbi biliklərin verilməsinə başlanmasını qərara aldı. Onun bu təşəbbüsü Müsəlman Milli Şurasının fəalları tərəfindən də lazımınca müdafiə olundu.

1917-ci il iyul ayında Gəncə şəhərinə xidməti ezamiyyətə göndərilən polkovnik Süleyman bəy Əfəndiyev burada öz vəzifəsini yerinə yetirməklə bərabər Gəncə Müsəlman Milli komitəsinin köməyi ilə şəhərdə hərbi kurs təşkil etdi və orada 150 nəfərə hərbi işin ilkin vərdişlərinin öyrədilməsinə başladı. Süleyman bəy Əfəndiyevin ölümü ilə əlaqədar «Azərbaycan» qəzetinin çap etdirdiyi nekroloqda onun Gəncədəki fəaliyyəti ilə bağlı belə yazılmışdı: «O vaxt miralay (polkovnik-M.S.) rütbəsində olan Süleyman bəy 1917-ci sənənin iyul ayında Gəncə şəhərinə təşrif gətirdi. Müəyyən bir vəzifə ilə Mavərayi-Qafqaz hökuməti tərəfindən ezam edilmiş idi, vəzifəsi isə təşkil ediləcək süvari milis alayı üçün kiçik zabitlər yetişdirmək idi. Mərhum Gəncə şəhərinə varid olan kimi Gəncə Müsəlman Milli komitəsinə təşrif gətirərək bəyanat verdi və Azərbaycan türklərinin qəvayi-əsgəriyyəsi olması və buna əşədi-ehtiyac xüsusunda izahat verərək əlavə etdi ki, əsgəriyyə təşkili əsasına ibtidar etmək arzusunda bulunarsa, məal-məmnuniyyə ilə bu xüsusda heç bir fədakarlıqdan çəkinməyəcəkdir. Milli

komitə işə başladı. Yüz əlli nəfərlik gecə-gündüz olaraq bir məktəbi-hərbiyyə güşadına qərar verdi. Bu miqdarı Gəncə vilayət qəzaları arasında nüfuz etibarilə təqsim edərək namizədlər və onların məsrəflərini göndərmək xüsusunda cümlə qəzaların komitələrinə müraciət etdi».

Bu kurs quberniyaya daxil olan bütün qəzaları əhatə etməli idi. Gəncə Müsəlman Milli komitəsi qəzalardan göndəriləcək namizədlərin siyahısını müəyyənləşdirdikdən sonra bu barədə qəza müsəlman komitələrinə məlumat verdi. Qəza müsəlman komitələri isə kursda təhsil alacaq namizədləri müəyyənləşdirməklə onların təhsil xərcini ödəməli idi. Ancaq bu komitələr öz namizədlərini göndərsələr də təhsil xərcini ödəyə bilmirdilər. Bu isə kursun fəaliyyətində müəyyən çətinlik yaradırdı.

S.Əfəndiyev ortaya çıxan bu çətinliklərə baxmayaraq kursda öz işini davam etdirir və gənclərin hərbi biliklərə yiyələnməsində boynuna götürdüyü məsuliyyəti layiqincə yerinə yetirirdi. Onun rəhbərlik etdiyi bu kiçik kursun üzvləri hərb işinin ilkin vərdişlərini öyrənməklə bərabər Gəncədə qanun-qaydanın yaradılmasında, anarxiyanın və özbaşınalığın qarşısının alınmasında yaxından iştirak edirdilər. «Azərbaycan» qəzeti yazırdı:

«Bəzi qəzalardan mütəllimlər göndərildi, lakin məsarif üçün para gəlmədi. Bəzi komitələr tərəfindən para göndərildisə , nəhayət az miqdar. Mərhum Süleyman bəy çalışmaya başladı. Pulsuzluq, aclıq, əlbəsəsizlik onu məyus etmədi, qorxutmadı. Hətta özü 1917-ci sənə avqustun əvvəlindən vəzifəyə başladığı halda 1918-ci sənənin şəbat ayında keçmiş maaşlarını almaq üçün özü utanıb bəndəni vasitə etdi.

Bu qədər müddət öz hesabına xidmət etdikdən sonra yenə maaş istəməyi özünə bir müşkül əmr hesab edirdi. Gəncədə anarşi başlananda, cümlə mülki və hərbi məmurlar dəxi qərargahlara, talançılara iltihaq etdilər. Kimsə kimsəni tanımaq istəmədi, ikmsə kimsəyə itaət etmədi, şübhə etmək olur ki, düz, doğru, qeyrət və namuslu şəxslər tanınmayacağı bir dərəcəyə gəldi. Mərhum Əfəndiyev gündüzlər ac, gecələr uyğysuz öz cavan mütəllimləri ilə şəhərin hərəsatına, şəhərdə əmin-asayişi əmələ gətirmədə zərrə qədər qüsur gətirmədi. Şəhərdə, stasyonda, nərəyə gedilsə Süleyman bəy görünürdü. Özü namus və qeyrətli, mütəllilləri düz, doğru».

«Azərbaycan» qəzetində 1919-cu il martın 3-də çap olunmuş nekroloqun müəllifi Səidin yazdığı kimi Süleyman bəy namuslu və qeyrətli olmaqla bərabər, xalqının da namus və qeyrətini qorumağa çalışırdı. Qanunsuzluq və anarxiya dövründə Gəncədə o, yorulmaq bilmədən necə çalışırdısa, Cümhuriyyət ordusunda da o cür zəhmətkeşliklə və işgüzarlıqla xidmət edirdi.

Süleymanbəy Əfəndiyevin sonrakı xidmət yolu Müsəlman korpusu və Cümhuriyyət ordusu ilə bağlıdır. Müsəlman korpusunun təşkilinə 1918-ciilin sonunda başlanmışdı. Bu korpusun məlum olan çox məhdud arxiv sənədlərindən aydın olur ki, Süleyman bəy korpusun tərkibindəki 5-ci nişançı alayın komandiri təyin edilmişdi. Həmin alay da 2-ci nişançı diviziyanın tərkibinə daxil idi. Korpus komandiri Ə.Şıxlinskinin 2 mart 1918-ci il tarixli əmrilə Süleyman bəy bir müddət müvəqqəti olaraq 2-ci nişançı diviziya komandirinin vəzifəsini icra etmişdi.

Müsəlman korpusunun hissələri çox çətin bir şəraitdj formalaşırdı. Bu hissələrin nə təchizatı var idi, nə də silahları. Yeganə ümid yeri bölgədə yerləşmiş və ləğv olunduqdan sonra Rusiyaya qayıdan hərbi hissələrin öz silahlarını təhvil verəcəklərinə bağlanmışdı. Ancaq bolşeviklərin və daşnakların təbliğatına uyan rus hissələri silahlarını milli qüvvələrə təhvil vermədilər. Belə olanda 1918-ci il yanvar ayının əvvəllərində Şəmkir yaxınlığında bir-neçə hərbi eşelon dayandırılaraq tərksilah edildi. Bu tərksilah əməliyyatında Süleyman bəy Əfəndiyev də yaxından iştirak etmişdi.

Səid adlı müəllif «Azərbaycan» qəzetində çap etdirdiyi nekroloqunda Ə.Əfəndiyevin Şəmkir hadisələrində iştirakına toxunmuşdur. Ancaq onun yazdığına görə həmin hadisələr zamanı Süleyman bəy hələ 5-ci nişançı alayın komandiri deyildi. Yalnız bir müddət keçdikdən sonra o bu vəzifəyə təyin edilmişdi: «Şəmkir müharibəsi əsanasında isə mərhum Süleyman bəy heç bir fədakarlıqdan çəkinmədi. Əvvəldən axıradək ən təhlükəli, ən mühüm nöqtələrdə isbat vücud edənlərin birincisi oldu. Bundan sonra Süleyman bəyin məmuriyyəti Qarayazıya təbdil edildi. Bir müddət Gəncədən getdi. Bu halda müsəlman ordusu təşkilinə hökumət tərəfindən müsaidə edildi. General Ə.Şıxlinski baş komandan təyin edildi. Gəncədə qəvayi-əsgəriyyə təşkilinə başlandı.

Mərhum Süleyman bəy beşinci alay komandanlığına təyin edilərək yenidən Gəncəyə təşrif gətirdi. Yenə fəaliyətə, fədakarlığa başladı. Bu vəqt şəhərdə öylə bir anarşi hökm-fərma idi ki, heç bir qüvvə təmini-asayişə müqtədir deyildi. Nəhayət mövcud türk əsgərlərini müsəlləh edərək onların namus və qeyrətlərinə istinadən onların vasitəsiylə eadeyi-asayişə və Bakı tərəfdən Gəncə üzərinə tərtib edilməkdə olan hücuma qarşı müdafiə etməyə müqtədir ola bilmək lüzumu hiss edilərək buna təşəbbüs edildi. Süleyman bəy: «Mən bu vəzifəni qəbul edə bilərəm»-deyə bütün zəhmət və çətinliyi öz alayına qəbul və hər bir cəhətdən təmin etdi. Həqiqətən bunanla da Gəncədə əadeyi- asayiş əmələ gələrək nizam, intizam bərqərar etdilər. Böyləcə, mərhum general Süleyman bəy Əfəndiyev heç bir gün fədakarlıqdan çəkinməyərək fəaliyyətinə davam etdirməkdə idi».

Burada söhbət 1918-ci ilin iyununda Azərbaycana yardıma gəlmiş olan türk qoşun hissələri ilə birgə bolşevik-daşnak qoşunlarına qarşı aparılan mübarizədən gedir. Azərbaycan korpusunun hələlik üzə çıxarılmaması üzündən Azərbaycan korpusu hissələrinin, o cümlədən də Süleyman bəy Əfəndiyevin fəaliyyəti haqqında geniş fikir söyləmək çətindir.Ancaq bu məlumdur ki, Süleyman bəy Əfəndiyev Azərbaycan korpusunun tərkibinə daxil olan 1-ci piyada alayının komandiri idi. Bu alay Qazaxda yerləşirdi. Heç şübhəsiz ki, polkovnik Süleyman bəy Əfəndiyev bu vəzifədə də yüksək işgüzarlıq və təşkilatçılığa çalışmış, bütün bacarığını və gücünü Azərbaycanın ərazi bütövlüyünün qorunmasına sərf etmişdi. Qafqaz İslam Ordusunun komandanı Nuru paşanın 13 avqust 1918-ci il tarixli əmri ilə Azərbaycan korpusu yenidən qurulmağa başlayanda Süleyman bəy Əfəndiyev 1-ci alay komandiri vəzifəsindən azad edilərək Qafqaz İslam Ordusunun Mənzil müfəttişliyinə keçirilmişdi. Yenidən qurulan Azərbaycan korpusunda alay komandiri vəzivələri türk zabitlərinə tapşırılırdı. S.Əfəndiyev çox güman ki, böna görə alay komandirliyindən götürülərək Ordunun qərargahına

gətirilmişdi.

Səməd bəy Mehmandarov Hərbi Nazirliyə tjyin ediləndə Süleyman bəy Əfəndiyev 2-ci Qarabağ süvari alayının komandiri idi. Alayın qərargahı Tərtərdə yerləşirdi. Onun komandir kimi alay üzrə 1 nömrəli əmri 1918-ci il noyabr ayının 1-də imzalanmışdı. Buradan belə güman etmək olar ki, Süleyman bəy Əfəndiyev də Səməd bəy Mehmandarov kimi noyabrın 1-də yeni vəzifəyə təyin olunmuşdu. Səməd bəy vzifəsinə Nazirlər Şurasının qərarı ilə təyin olunmuşdu və bu barədə sənədlər arxivlərdə saxlanılmaqdadır. Süleyman bəyin alay komandiri vəzifəsinə təyin edilməsi çox güman ki, Azərbaycan korpusu komandirinin əmri ilə baş vermişdi.

Bu vəzifədə də Süleyman bəy çx fədakar fəaliyyət göstərdi. O, gecə-gündüz bilmədən alayın formalaşması, bölmələrdə xidmətin düzgün təşkil edilməsi ilə məşğul oldu. Süleyman bəy yaxşı anlayırdı ki, Azərbaycanın istiqlaliyyətinin, bütünlükdə xalqın taleyinin etibarlı şəkildə qorunması üçün ordunun möhkəmləndirilməsinə ciddi diqqət yetirilməlidir və bütün xidməti ilə çalışırdı ki, ətrafındakıları da bu müqəddəs işə səfərbər etsin.

Süleyman bəy şəxsi heyətin qayğısını çəkməyi özünün həm komandir, həm də insani borcu sayırdı. Bu məsələ onun imzalamış olduğu alaydaxili əmrlərdə də öz əksini tapmışdı. Komandirliyinin ilk günlərində alayın şəxsi heyətinin dayandığı postları gəzərkən aydın olmuşdu ki, əsgərlərə yalnız üç gündən bir ət yeməkləri verilir. Geri qayıdan kimi o, əmr imzalayaraq müvafiq şəxslər qarşısında əsgərlərə hər gün ət yeməyi verilməsi tələbi qoymuşdu. Onun fikrincə əsgərlərin sağlam olması, ağır döyüş tapşırıqlarını uğurla yerinə yetirə bilməsi üçün yaxşı qidalanmaları təşkil edilməli idi.

1918-ci il noyabr ayının 15-də imzaladığı əmrində Süleyman bəy hərbi qulluqçular arasında nizam və intizamın möhkəmləndirilməsini tələb edirdi. O bildirirdi ki, Tərtərdə tez-tez atışma səsləri eşidilir ki, buna yol vermək olmaz.Bu atəşlər ya hərbçilər tərəfindən, ya da mülkilər tərəfindən açıla bilərdi. S.Əfəndiyev bütün səviyyəli komandirlərdən tələb edirdi ki, öz əsgərlərini ciddi nəzarət altında saxlasınlar, onların əhalidə narahatlıq yaratmalarına imkan verməsinlər. Digər tərəfdən də o, şəhərdə nəzarəti gücləndirməyi, atəş açan mülki şəxslərin tutulub silahlarının əlindən alınmasını və nəzarət altında saxlanmasını tələb edirdi.

1918-ci il noyabr ayının 29-da Süleyman bəy alayın Marquşevan kəndində yerləşən 3-cü bölüyünün vəziyyəti ilə tanış oldu. Ancaq burada gördükləri onu çox mütəəssir etdi. Çünki bölükdə intizam tələb olunan səviyyədə deyildi, şəxsi heyətin geyimləri onu razı salmadı, qışlalar ən adi səliqədən uzaq idi, atlar yaxşı yedizdirilmirdi. Vəziyyətlə bağlı S.Əfəndiyev bölük və bölmə komandirləri, bölüyün zabitləri ilə ciddi söhbət etdi və onların da qarşısında başqa bölüklərin zabitləri kimi xidmət etmək tələbi qoydu. 3-cü bölüklə tanışlıq barədə bir gün sonra, noyabrın 30-da imzaladığı əmrində S.Əfəndiyev yazırdı : « Dünən tabeçiliyimdə olan alayın Marquşevanda yerləşən 3-cü bölüyünə baxış keçirdim. Sıraya 46 süvari çıxarılmışdı. Baxmayaraq ki, siyahıda onların sayı daha çoxdur. Adamlar səliqəsiz geyinmişdilər, duruşları düzgün deyildi. Zabit və unter zabit işi

tamamilə görünmürdü. Qışlalar çox çirklidir, atlar arıqdır. Bölük komandiri onların sayını bilmir. Nahar ümumi bir qazanda bişirilmir. Hər süvari öz qazançasında özünə yemək bişirir. Adamlar özləri üçün isti suyu da ayrılıqda qızdırırlar. Zabitlərdən daha fəal işləməyi tələb edirəm. Alayin formalaşdığı indiki çətin şəraitdə və unter-zabitlərin kifayət qədər olmadığı bir vaxtda zabitlər süvarilərin öyrədilməsi üçün bütün qüvvə və enerjilərini sərf etməlidirlər. Zabitlər yalnız dərslərdə iştirak etməklə kifayətlənməməli, mütləq dərslərə rəhbərlik etməli, öz şəxsi görkəmi və intizamları ilə tabeçilikdə olanlara nümunə göstərməli və gələcək belə nöqsanlara yol verməməlidirlər».

Alayın digər bölmələrində xidmətin necə təşkil edildiyini isə Səməd bəy Mehmandarovun 1918-ci il dekabr ayının 2-də keçirmiş olduğu baxışın nəticələrindən də təsəvvür etmək olar. S.Mehmandarovun alayda gördüklərini Süleyman bəy Əfəndiyevin yorulmaz və səmərəli fəaliyyətinin nəticəsi kimi də qiymətləndirmək olar və bununla bağlı imzaladığı 5 dekabr 1918-ci il tarixli əmrdə 2-ci Qarabağ süvari alayı haqqında yazılanlara diqqət yetirmək maraqlı olardı:

«Dekabrın 2-də mən 2-ci Qarabağ süvari alayının Tərtərdə yerləşən hissələrində yoxlama-baxış keçirdim. Baxışa piyada sırada 2-ci bölük, pulemyot və qeyri-nizami komandalar çıxarılmışdı. Alay komandiri polkovnik Əfəndiyevdir. Adamlar sırıqlı, pambıq şalvar və papaq geyinmişdilər. Alayın demək olar ki, hamısının yarımkürkü var idi. Şinel yoxdur. Çəkmə az adamda var idi, o da onların şəxsi malı idi. Qalanları alayın qayğısı ilə tikilmiş çarıq geyinmişdi. Alt paltarı kiyayət qədər mövcuddur. Adamlar hələ tam öyrədilməsə də artıq hərbi görkəm almışlar, gümrah görünürlər. Yorğun sifətlər çox az idi. Tüfənglər pis saxlanılır, bəzilərinin tüfəngi doldurulmuşdu.Əmr edirəm ki, buna diqqət yertirilsin. Patronlar yalnız çöl və qarovul xidmətində olanda verilməlidir. Qalan vaxtlarda isə onlar alınaraq bölük saxlanclarında saxlanmalıdır. Tüfənglərin pis saxlanması vazelin yarımsalo yağların olmaması ilə izah olunur. Alay komandiri sürtgü yağlarının əldə edilməsi üçün tədbirlər görməlidir. Pulemyotlar açıq havada saxlanılır, pis yağlanıb, paslayan yerləri var. Bunu alay komandirinin də nəzərinə çatdırıram. Silaha qayğı birinci yerdə olmalıdır.

Binalar. Binaların böyük bissəsi qənaətbəxş vəziyyətdədir. Onların səliqəli saxlanmasına diqqət yetirilməlidir. Alay komandiri yavaş-yavaş taxtların düzəldilməsinə çalışmalıdır. Yatacaq əşyaları yoxdur, ancaq alay bu istiqamətdə iş görür. Alay komandiri dərhal Yelizavetpoldan döşək və balış üzü almağa adam göndərməlidir. Otaqlarda silah söykəmək üçün taxtlar düzəldilməlidir.

Tövlələr. Bütün tövlələr qaranlıqdır və lazımi tələblərə cavab vermir. Həyət çirkli saxlanılır, çoxlu peyin toplanıb. Onu dərhal daşıyıb yandırmaq lazımdır. Yaxşı hava olanda atları açıq havada saxlamaq lazımdır. Qaranlıq tövlədənsə at bağlanılan yaxşı talvarlara üstünlük verilməlidir.

Atlar. Atların çoxu bədəncə çox zəifdirlər.Elə atlar var ki,bir dəri, bir sümükdür. Kök olanları da vardır. Atların nallanması pisdir. Alayın dəmirçisi yox idi. İndi isə alayda dörd dəmirçi hazırlanıb. Ümumən atlar yaxşı saxlanılır və komandirin göstərdiyi qayğı nəticəsində onlar yaxın gələcəkdə tamamilə yararlı

olacaqlar. Yemləndirmə düzgün aparılır, zabitlər yemləndirmədə iştirak edirlər. Qışda yonca verilməməli və ona bir qədər qənaət edilməlidir ki, bu qənaət hesabına yazda yemləmə gücləndirilsin.

Arabalar. Alayda kifayət qədər sanitar, ikiatlı patron və səfər üçün mətbəx arabaları vardır. Onlar hələlik qaydasında saxlanılmırlar. Ancaq alay komandiri tərəfindən bu işin qaydaya salınması üçün tədbirlər görülür. Əmr edirəm ki, hər bölüyə iki araba verilsin, qalan arabalar isə təmir edilsin və xüsusi olaraq müharibə dövrü üçün saxlanılsın

Tibb otağı. Alay komandirinin və alayda işləyən həkim Ləmbəranskinin qayğısı ilə alayın nəzdində 25 çarpayılıq tibb otağı yaradılmışdır. Otaq əladır, ancaq pis qızdırılır. Xəstələrin çoxu çarpayılarda yatır, döşəklər hamıya çatır. Alt paltarı yoxdur. Alayda isə onlardan çoxdur. Dəva-dərman azdır. Onun Yelizavetpoldan alınması üçün ora dərhal adam ezam olunsun. Xəstələr üçün yemək ümumi qazanda bişirilir. Odeyal və balışlar yerli əhali tərəfindən verilmişdir. Alaya kömək göstərdikləri üçün onlara ürəkdən təşəkkür edirəm. Ümumiyyətlə həkim Ləmbəranski xəstələrə böyük qayğı göstərir.

İaşə. Adamlar yaxşı qidalanırlar. Çörək əladır, sup yaxşı bişirilir və çox dadlıdır. Adamlara çay və şəkər verilir.

Ümumiyyətlə 2-ci süvari alayında gördüyüm hər şey məndə xoş təəssürat yaratdı. Dərhal görünür ki, alayda bir rəhbər əli işləyir. Doğrudur, çoxlu iradlar da var. Ancaq alay komandiri zabitlərlə bərabər onların aradan qaldırılması üçün hər şeyi edir. Komandirin köməkçiləri azdır. Təcrübəli kadr zabitlər yoxdur. Çoxu səbəbsiz yerə xidmətdə yox idilər. Əmr edirəm ki, onlar azad edilmək üçün təqdim olunsunlar. Alayı polkovnik Əfəndiyev cəmi üç həftə əvvəl qəbul edib və bu qısa müddət ərzində etdikləri mənə qəti əminlik verdi ki, ən qısa vavxtdan sonra bö alayı əla vəziyyətdə görəcəyəm. Polkovnik Əfəndiyevə və azsaylı zabitlərə yorulmaz xidmətlərinə görə təşəkkür edirəm.

Həmin gün yolda bu alayın poruçik Sadıxovun komandası altında Ağdamda yerləşən 3-cü bölüyünü gördüm. Bölük tam qaydası ilə gedirdi, zabitlər yerində idi, adamlar çevi cavab verirdilər. Atlar kifayət qədər qənaətbəxş vəziyyətdə idilər. Ümumiyyətlə bölük xoş təəssürat bağışlayırdı. Bölükdəki nizam üçün poruçiu Sadıxova təşəkkür edirəm».

Alayın 3-cü bölüyünə S.Əfəndiyevin özünün baxış keçirməsindən çox az müddət ötmüşdü. Lakin bu bir-neçə gün ərzində bölükdə xeyli müsbət dəyişikliklər baş vermişdi. Səməd bəy Mehmandarov kimi tələbkar bir hərbçi də bunu təsdiq edirdi. Qısa müddət ərzində üzərinə düşən işin icrasında ciddi dəyişikliyə nail olmaq bacarığı da Süleyman bəyi xidməti keyfiyyətlərindən biri idi. Yəni o bütün həyatı ilə xidmətə bağlı idi və bu həyatının mənasını da xalqıqa xidmət etməkdə görürdü. 1918-ci il dekabr ayının 4-də imzaladığı 35 nömrəli alay daxili əmrində onun Cümhuriyyət ordusunda xidmətlə bağlı maraqlı fikirləri vardır. Həmin əmr 2-ci bölükdə bir süvarinin təsadüfən açdığı atəşlə başqa bir süvarini öldürməsi ilə əlaqədar verilmişdi. Əmrdə deyilirdi: «Deyilənlər mənə güman etməyə əsas verir ki, bölüyün zabitləri öz tabeliyində olanlar arasında hörmət və etibara malik deyildirlər və onlar öz söhbətləri ilə əsgərlərdə hərbi

düşüncə və əsgər düzlüyü hisslərini oyada bilməmişlər. Yəni zabit və unter-zabit işi tamamilə yox dərəcəsindədir. Bizim atalarımızın, analarımızın, bacılarımızın və bizim bütün xalqımızın nəzərlərinin dikildiyi və mövcudluğunun bizim gənc vətənimizin daxili və xarici düşmənlərini dəhşətə gətirən formalaşmaqda olan cavan ordumuzda belə özünü məhvetmə yolverilməzdir. Həqiqətin gizlədilməsi və bununla da ləyaqətsiz adamlara bizimlə birlikdə Vətənin və xalqın şərəfinin qoruqçusu olan yüksək əsgər adını daşımağa imkan vermək daha böyük dəhşətdir. Belə adamlar döyüşçü adını daşımamalıdırlar və qoşunlarda onlara yer olmamalıdır.

İndiyə kimi süvarilərdə Vətənə, yoldaşlığa və doğruçuluğa qarşı döyüşçü hörməti və məhəbbəti oyada bilmədiyi üçün 2-ci bölüyün komandirinə ilkin olaraq töhmət elan edirəm».

Bu əmrdə rəsmilikdən daha çox bir insan qəlbinin çırpıntıları vardır. Buradakı bir-neçə cümlə sadəcə Süleyman bəyin şəxsi mövqeyini yox, həm də onun tabeliyində olanlara aşılamaq istədiyi yüksək dəyrləri qabarıq şəkildə əks etdirmişdir.

Səməd bəy Mehmandarovun alaydakı ümumi vəziyyətdən razı qalmasına baxmayaraq Süleyman bəy heç vaxt arxayınçılığa qapılmırdı, ən xırda nöqsanlara qarşı ciddi tələbkarlıqla yanaşırdı. Bölmələrdə gördüklərini ümumiləşdirərək alay daxili əmrlərdə rəsmiləşdirirdi. Bununla da Süleyman bəy həm nöqsan mövcud olan bölmənin qarşısında rəsmi tapşırıq qoyurdu, həm də digər bölmə komandirlərinin, habelə zabitlərin diqqətini oxşar nöqsanların aradan qaldırılmasına cəlb edirdi. Onun 16 dekabr 1918-ci il tarixdə imzaladığı 46 nömrəli alaydaxili əmrində deyilirdi: «Dünən mən alayın Boyəhmədli kəndində yerləşən bölüyünə baxış keçirdim. Sıraya 64 süvari çıxarılmışdı. Adamların saçları qırxılmamışdı, cəsarətsizdirlər, komandanlıqla danışmağa qorxurlar, bilmirlər kimə və nə üçün xidmət edirlər.Onlar indiyə kimi nişangahı və tüfənglərin nömrəsini bilmirlər. Nahar bölüyün ümumi qazanında bişirilir, tövlədə işıq yoxdur. Bölük komandiri atların nallandığı və onların dəyişdirildiyi günü birmir».

Bununla da Süleyman bəy Əfəndiyev zabitlərin nəzərinin hansı məsələlərə cəlb edilməsini onların diqqətinə çatdırırdı. Başqa bir əmrində o tələb edirdi ki, səhər erkən hamı qalxan kimi tələb olunan şəkildə yuyunmalı, sıraya heç zaman yararsız geyimdə çıxmamalıdırlar. Süleyman bəy alayın mollasından da tələb edirdi ki, namaz qılmağı süvarilərə öyrətsin və sonra da süvarilər vaxtlı-vaxtında namazlarını qılsınlar.

1918-ci il dekabr ayının ortalarında süvari diviziyasının komandiri general-mayor Feyzulla Mirzə Qacar və 1-ci Tatar süvaria alayının komandiri polkovnik Hacıbəylinski Hərbi Nazirliyin rəhbərliyinə raport təqdim etdilər. Səməd bəy Mehmandarov bu raportları qəbul etdi və onların xidmətdən azad olunması barədə əmr imzaladı. Elə həmin əmrlə boşalmış olan vəzifələrə yeni zabitlər təyin edildilər. S.Mehmandarov S.Əfəndiyevi süvari diviziyasının komandiri təyin etdi. Onun yerinə, 2-ci Qarabağ süvari alayının komandiri vəzifəsinə polkovnik Davud bəy Yadigarov, 1-ci Tatar süvari alayının komandiri vəzifəsinə isə polkovnik Ağalarov təyin edildilər. Dekabr ayının 23-də Süleyman bəy Əfəndiyev alay üzrə sonuncu əmrini imzaladı. 54 nömrəli həmin əmrdə deyilirdi : «Azərbaycan

Respublikası Hərbi Nazirliyi üzrə 24 nömrəli əmrə əsasən mən süvari diviziyasının komandiri təyin edilmişəm. Çox təəssüf edirəm ki, bütün varlığımla bağlı olduğum alayı formalaşdırmaq kimi müqəddəs arzum həyata keçmədi. Bu gün mən təəssüf və ürək ağrısı ilə qalan həyatımı həsr etdiyim alayla vidalaşıram. Təəssüf ki, rəhbərliyin iradəsi ilə mən sizdən ayrılmalıyam, cənab zabitlər. Sizdən ki, mənimlə birlikdə doğrudanda qorxuya görə deyil,vicdana görə qüvvənizi əsirgəmədən işləmisiniz. Sizdən, əziz bahadır süvarilər ki, əsgəri vəzifənizə şüurlu surətdə yanaşmısınız. Mən inanıram ki, siz gələcəkdə də məğrur olacaqsınız, nəzərləri möcüzə-badırlara dikilmiş bizim azad vətənin və millətin bayrağını daşıyacaqsınız. Bu isə sizdən haradan gözlənilməsinə baxmayaraq Vətənin düşmənlərdə müdafiəsi üçün şüurlu və birgə işi tələb edir. Vətənin gələcəyi sizin əlinizdədir. Onun abadlaşması , çiçəklənməsi və ya asılı olması bizim özümüzdən asılıdır.

2-ci süvari alayının bütün tərkibini, alay üzrə mənim bütün əməkdaşlarımı, zabitləri, dərəcəli məmurları, böyük və kiçik uryadnikləri, yefreytorları və sıraviləri üir daha salamlayır və təşəkkürümü bildirirəm. Ümid edirəm ki, gələcəkdə də onları belə qüvvətli, sağlam, millətin və vətənin naminə yorulmadan çalışan görəcəyəm.

Qoy Allah gələcəkdə də sizə kömək olsun!»

Süleyman bəy Əfəndiyev alay komandiri vəzifəsini təhvil verdiyi günlərdə süvari diviziyasının sabiq komandiri general-mayor Feyzulla Mirzə Qacar yenidən Hərbi Nazirliyin rəhbərliyinə müraciət edərək xidməti davam etdirmək

arzusunda olduğunu bildirdi. Səməd bəy bu xahişlə də razılaşdı və onu əvvəlki vəzifəsinə bərpa etdi. Süleyman bəy isə əvvəlki vəzifəsinə qaytarılmadı. S.Mehmandarov onu Hərbi Nazirliyə gətirdi və onu Nazirliyin tapşırıq generalı vəzifəsinə təyin etdi. Səməd bəy inanırdı ki, Süleyman Əfəndiyev Cümhuriyyət ordusunun formalaşmasına daha böyük fayda verə bilər və buna görə də onun alay çərçivəsində məhdudlaşıb qalmasını istəmirdi.

Elə həmin günlərdə Səməd bəy Mehmandarov S.Əfəndiyevə general-mayor rütbəsi verilməsi barədə Nazirlər Şurası qarşısında vəsatət qaldırdı. Bu vəsatət S.Mehmandarovun Hərbi Nazirliyə gəlməsindən sonra general rütbəsi verilməsi barədə Nazirlər Şurası qarşısında qaldırdığı ilk vəsatət idi və yüksək rütbəyə Səməd bəy ilkin olaraq S.Əfəndiyevi məsləhət bilmişdi.Bu cəhət özü də S.Mehmandarovun Süleyman bəyin xidmətinə necə böyük qiymət verdiyini nümayiş etdirir. Nazirlər Şurası hərbi nazirin bu vəsatətini müdafiə etdi və 1918-ci il dekabr ayının 29-da S.Əfəndiyevə general-mayor rütbəsi verildi.

1919-cu il yanvar ayının 1-də S.Mehmandarovun imzaladığı əmrlə general-mayor S.Əfəndiyev 1-ci piyada diviziyasının komandir müavini təyin edildi. Onun bu vəzifəyə təyin edilməsi 1-ci piyada diviziyasının hissələrində baş verən xoşagəlməz hallarla bağlı idi. Türk ordusundan Azərbaycanda qalmış olan bir-sıra zabitlər ordu quruculuğunda tutulmuş olan yola öz narazılıqlarını bildirərək zabitləri itaətsizliyə çağırırdılar. Onlar Qarabağda yerləşən hissələr içərisində belə təbliğat apararaq ətraflarına xeyli tərəfdar toplaya bilmişdilər. Bu hadisələrin təfsilatı barədə mövcud olan məlumatlar ziddiyyətli xarakterdədir. Məsələn,

A.Stekloa «Armiya musavatskoqo Azerbaydjana» kitabında türk zabitlərinin rəhbərliyi ilə üsyan cəhdinin 1918-ci il dekabrın 29-30-da olduğunu yazır. S.Mehmandarovun 1919-cu il fevral ayının 25-də parlamentdəki çıxışının Siyasi Partiyalar və İctimai Hərəkatlar arxivində saxlanılan surətinin əlyazmasında isə bu hadisənin noyabrın 29-30-da baş verdiyi və həmin vaxt Bakıda ezamiyyətdə olduğu göstərilir. Əgər nəzərə alsaq ki, S.Mehmandarov noyabrın sonunda deyil, dekabrın sonunda Bakıda ezamiyyətdə olmuşdu onda hadisənin dekabrın sonunda baş verdiyini güman etmək olar. Türk zabitləri ətrafına topladıqları şəxslərlə bərabər Qazax piyada alayının (sonradan Gəncə piyada alayı adlandırılıb) pulemyot komandasını, Qazax pyada alayının Ağdamda yerləşən 2-ci taborunu, Şuşada yerləşən 1-ci taborun şəxsi heyətini də itaətsizliyə sövn edə bilmişdilər. Türk zabitlərinin başlıca narazılığı türk qoşunlarının Azərbaycandan çıxarılması ilə bağlı idi. Onlar bu və digər şəkildə Azərbaycanın müstəqil siyasət yeritməsi əleyhinə çıxır və türk qüvvələrinin Azərbaycanda olduğu vaxt mövcud olan vəziyyəti bərpa etmək istəyirdilər. İtaətsizlik göstərən qüvvələr 1-ci piyada diviziyasının komandiri general Usubovu və diviziya qərargahını həbs edərək aşağıdakı şərtlərin qəbul olunmasını istədilər:

1.Azərbaycan ordusundan rus zabitləri dərhal xaric edilsin və onlar türk zabitləri ilə əvəz olunsun

2.İngilis qoşunları təcili olaraq Şuşadan və bütün Azərbaycandan çıxarılsın

3.Şuşaya doğru irəliləyən Andronikin dəstəsinin qarşısının alınması üçün qəti tədbirlər görülsün.

Genaral Usubov irəli sürülən tələblərlə razılaşdığı və onların mərkəzə ötürülməsinə hazır olduğunu bildirəndən sonra həbsdən azad olundu. Sonra o, yaranmış vəziyyət barədə Hərbi Nazirliyə məlumat verib bu özbaşınalığın aradan qaldırılması üçün kömək istədi. Bütün xidməti boyu ordunun siyasiləşməsinin qəti əleyhinə olan və tabeçilikdə olanların itaətsizliyinə heç bir şərtlə dözə bilməyən Səməd bəy Mehmandarov bu hadisə barədə xəbər alan kimi dərhal Bakıdan geri qayıtdı və Süleyman bəy Əəfndiyevə tapşırıq verərək onu bölgəyə göndərdi. Diviziya komandirinin müavini vəzifəsinə təyin edilməklə S.Əfəndiyev bölgədəki qüvvələrə həm də rəhbərlik etmək səlahiyyəti aldı. O dərhal Bərdəyə gəldi və buradakı qüvvələri səfərbər edərək Ağdamdakı özbaşınalığa son qoydu. S.Əfəndiyev də orada itaətsizlik halının baş verməsinə qarşı barışmaz mövqe tutdu və qətiyyətli hərəkəti ilə qısa zamanda bu hadisəyə son qoydu. Göndərilən qüvvəyə qarşı müqavimət göstərilməsinin mənasız olduğunu anlayan əsgər və zabitlər əmrə tabe oldular. Qazax alayının pulemyot komandası isə əmrə tabe olmadı və komandanın şəxsi heyəti haqlı cəza alacağından qorxaraq qaçıb dağılışdı. Onlar özləri ilə 18 pulemyot və 30 min patron apara bildilər.

S.Əfəndiyev orduda təxribata və özbaşınalığa rəvac vermiş zabitlərdən 9 nəfər fəalını həbs etdirdi. Səməd bəy Mehmandarov 1919-cu il yanvarın 8-də ona göndərdiyi teleqramında tələb edirdi ki, özbaşınalıqlara rəhbərlik etmiş şəxslər dərhal hərbi-səhra məhkəməsinə verilsin və məhkəmənin qərarı nazirin əlavə razılığı soruşulmadan həyata keçirilsin.

Hərbi nazir S.Mehmandarovun əmri ilə general Usubov 1919-cu il yanvarın

6-da  1-ci piyada diviziyasının komandiri vəzifəsini Süleyman bəy Əfəndiyevə təhvil verdi və o, Hərbi Nazirliyə çağırıldı. Yanvar ayının 7-dən isə Süleyman bəy Əfəndiyev müvəqqəti olaraq 1-ci diviziya komandiri vəzifəsinin icrasına başladı. o, diviziyada  oxşar özbaşınalıq hallarının olmaması üçün nizam-intizamı xeyli gücləndirdi, hissə və bölmələrin vəziyyəti ilə daha yaxından tanış olmağabaşladı. 1919-cu il 1 yanvar ayının 12-də isə o, 1-ci Qazax piyada alayının Şuşada olan 1-ci taboruna baxış keçirdi. Süleyman bəyin qənaətinə görə tabor tələb olunan şəkildə düzülmüşdü, şəxsi heyət Ağdamda olan qüvvələrə nisbətən daha sağlam görünürdü, onların addımlamağı da qənaətbəxş səviyyədə idi. Bununla belə S.Əfəndiyev bir-sıra nöqsanların da mövcudluğunu müşahidə etmişdi. Məsələn, əsgərlərin duruşu yaxşı deyildi, addımla hərəkəti zamanı ritmə riayət etmirdilər, əsgəri addım atmaq vərdişi hələ əldə edilməmişdi. Əsgərlər hansı alayda, nə üçün və nə məqsələ xidmət etdiklərini aydınlaşdıra bilmirdilər. Diviziya komandiri bunun səbəbini zabitlər tərəfindən aparılan izahetmə işlərinin zəif olması ilə əlaqələndirirdi. Bundan başqa Süleyman bəyin fikrincə əsgərlər nişanalmanı yaxşı öyrənməmiş və tüfənglə davranış vərdişini əldə etməmişdilər. Tüfənglərə yaxşı qulluq göstərilmirdi  və onlar çox pis vəziyyətdə idilər. Əsgərlə onlara nə verilməli olduğundan xəbərləri yox idi. Şəxsi heyət bölüklər arasında bərabər sayda bölüşdürülməmişdi. 1-ci bölükdə 42, 2-ci bölükdə 82 və üçüncü bölükdə isə cəmi 12 adam var idi. Əsgərlərə sabun paylanmamışdı, dəyişəcək üçün alt paltarı yox idi. Taborun atları həddən artıq arıq idi, onlar pis saxlanılır və pis yedizdirilirdi.

Hərbi nazir S.Mehmandarovun 14 yanvar 1919-cu il tarixli 22 nömrəli əmri ilə general-mayor Süleyman bəy Əfəndiyev 1-ci piyada diviziyasının komandiri təyin edildi. O, yanvar ayının 6-dan bu vəzifənin icrasına başlamış hesab edilirdi. Bu vəzifə onun sonuncu vəzifəsi idi. O, burada fədakarcasına və yorulmaq bilmədən göstərdiyi xidmətin qurbanı oldu. Azacıq məsuliyyətsizlik , vicdanlı və vətəndaşlıq hisslərinə laqeydlik göstərmiş olsaydı sağ da qalardı. Lakin o bu yolu tutmadı, şərəfli ölümü də əsgərlərini başsız qoymaqdan üstün tutdu.

1919-cu il yanvar ayının 30-da Süleyman bəy 1-ci Cavanşir piyada alayından Əsgəranda qoyulmuş postu yoxladı və burada rastlaşdığı acınacaqlı vəziyyətdən dəhşətə gəldi. Postda 10 günlük növbəyə gələn şəxsi heyətin isti paltarı yox idi, bina lazımi şəkildə təchiz edilməmişdi, lazım olunan qədər ərzaq ayrılmamışdı. S.Əfəndiyev burada gördükləri ilə bağlı imzaladığı müvafiq əmri xeyli məişət çatışmazlıqlarının olmasını üzə çıxardı və alay komandiri podpolkovnik İsrafilovdan tələb edilirdi ki, dərhal buradakı çatışmazlıqların aradan qaldırılması üçün zəruri tədbirlər görsün.

Ancaq  diviziyanın rastlaşdığı problemlər təkcə məişət qayğıları ilə məhdudlanmırdı. 1919-cu il yanvar ayının 2-ci yarısından etibarən Ağdam qanizonunda səpmə yatalaq xəstəliyi geniş yayılmışdı və onun qarşısını almaq mümkünsüz bir problemə çevrilmişdi. Qoşun hissələrinin şəxsi heyəti kütləvi surətdə bu xəstəliyə tutulur və məhv olurdu. 1-ci piyada diviziyasının komandiri general Süleyman bəy Əfəndiyev az qala hər gün  səpmə yatalağına yoluxma və bu xəstəliyin müalicəsi barədə hərbi nazirə məlumat göndərir, qəti tədbirlər

görülməsini ondan xahiş edirdi. Ancaq Hərbi Nazirlik tərəfindən bu yolxucu xəstəliyin qarşısının alınması üçün səmərəli ibr iş görmək mümkün deyildi. Nə ixtisaslı həkim var idi, nə də zəruri bir dərmanlar. S.Əfəndiyevin Nazirliyə göndərdiyi məlumatdan aydın olur ki, 1919-cu il yanvarın 21-də Ağdam qanizonunun əsgər xəstəxanasında 110 nəfər xəstə var idi. Onlardan 2-si səpmə yatalağı, 8-i qarın yatalağı, 8-i isə dizentiriyə kimi yoluxucu xəstəliyə tutulmuşdu. Gün ərzində xəstələrin biri ölmüşdü. Yanvarın 23-də xəstələrin sayı 204-ə çatmışdı. Onlardan 119-u əsgər xəstəxanasında , digərləri isə xüsusi otaqlarda yerləşdirilmişdi. Gün ərzində 4 xəstə ölmüşdü.Yanvarın 24-də isə xəstələrin sayı 215 nəfərə çatmış və gün ərzində yenə 4 xəstə ölmüşdü. Xəstəliyin belə təhlükəli miqyas almasında S.Əfəndiyev ilk növbədə həkim Sulakovu təqsirləndirirdi. Diviziya komandirinin fikrincə həkim Sulakov öz vəzifəsinə məsuliyyətsizcəsinə yanaşaraq epidemiyanın qarşısının alınması üçün ciddi bir iş görmür və dərman ayrılması barədə mərkəzi orqanlara sifariş göndərməklə işini bitmiş hesab edirdi. Hətta xəstələrlə görüşməyə ehtiyat edən bu həkimin biganəliyi və laqeydliyi isə xəstələrin sayının arthması ilə müşayət olunurdu. Ona görə də diviziya komandiri S.Əfəndiyev Hərbi Nazirliyə göndərdiyi raportunda Sulakovun vəzifəsindən azad edilməsi və yerinə milli kadrın təyin olunmasını xahiş edirdi.

S.Əfəndiyev özü isə xəstələrlə ünsiyyətinin təhlükəli olmasına baxmayaraq daim onların arasında idi və bütün fəaliyyəti ilə xəstələrin ağrılarını unutdurmağa çalışırdı. Çoxlu sayda hərbçinin ölümünün qarşısının alınması üçün özü də daxilən qovrulurdu, özünə rahat yer tapa bilmirdi. Hər gün xəstə əsgərlərin arasında olması nəhayədtə onun da səpmə yatalağına tutulması ilə nəticələndi. Təsirli müalicə olmadığı üçün tez bir zamanda da xəstəliyi ağırlaşdı. Fevral ayının 18-də Süleyman bəy artıq bütün hərəkət imkanını itirdi və onun vəzifəsinin icrası polkovnik Sokolova həvalə edildi. Fevralın 21-də isə Süleyman bəy vəfat etdi.

Süleyman bəy Əfəndiyevin vaxtsız vəfat etməsi onu tanıyanların hamısında kədərli bir ovqat yaratdı. «İstiqlal» qəzeti bu hadisə ilə bağlı aşağıdakı məzmunda nekroloq çap etmişdi:

«Azərbaycan, ümumiyyətlə Zaqafqaziyada namuspərvəranə və xalisanə bir surətdə islamlara xidmət edən möhtərəm bir zabit-Süleyman bəy Əfəndiyev cümləmizi mütəəssio və məyus buraxaraq həyatı tərk etdi.

Süleyman bəy Əəfndiyev Rusiya inqilabından sonra Zaqafqaziya islamlarının hərbi təşkilatında qiymətli bir üzv olaraq çalışmış və çalışdığı işlərdə böyük bir əzm və səbat göstərmişdi. Süleyman bəy Əfəndiyev Namiq Kamalın «Cahan titrər səbat pay ərbab-əzmü mətanətdən» beytinə məsdəl olmuş, səbatını mahiyyəti-şəxsiyyəyə qədər götürmüşdür. Süleyman bəy bir vaxtı Gəncədə ifayi-xidmət edirdi. Sovuq şiddətli bir surətdə idi. Kəndisini salamlamaq üzrə yanına getmişdim. Qısa bir cümlə ilə müqabilə etdi: « Camaatımız oyanır.Qoçaq əsgərlərimiz çoxalır»-dedi. Sonra ən zabitpərvər bir əsgər vəziyyətini alaraq : Vəzifə denilən şeyi əgər həqiqət bilinə hər işimiz yaxşı olar idi.

Mərhum siyasət ilə əsla əlaqədar olmaz idi. Onun nəzərində yalnız əsgərlik və əsgərliyə məxsus bir iman var idi. Gəncədən sonra tərtərə getmiş və orada islam təşkilatını müvəffəqiyyətlə ikmal etmişdi. Sonra Qarabağa- Ağdama da

gələrək ifayi-vəzifə xüsusunda böyük bir qabiliyyət və qeyrət göstərmişdi.

Süleyman bəy hiss və fikircə çox nəziə və təmiz adam idi. Heç kimsə bilməz ki, Süleyman bəydən bir pis iş sadir olmuşdur. Bir dostumuz bizə deyirdi ki, Azərbaycanda namus və iffətilə mücəssəm bir təmsil təşrik edən sima varsa o da Süleyman bəy Əfəndiyevdir.

Parlament əzasından Məmmədbağır ağa Şeyxzamanov cənabları mərhumun ən yaxşı tanıdığı və bir çox zamanlarda bərabər işlədikləri bir zat olması etibarilə də bizə deyirdi ki, genearl Süleyman bəy Əfəndiyev eyni zamanda bütün Azərbaycan zabitləri arasında çalışması ilə, təşkilatçılığı ilə də birinci tanınıb bilinmiş şəxs idi.

Əvət! Azərbaycan üçün bu zaye (itki-M.S.) böyük bir zayedir. Bu zay e qarşısında mütəəssir olmamaq qabil deyildir» ( Sitat Ş.Nəzirlinin «Cümhuriyyət generalları» kitabından götürülmüşdür).

İstiqlal qəzetinin 10 mart 1919-cu il tarixli nömrəsində çap olunmuş xatirə yazısında belə sətirlər də var idi : «Ey möhtərəm əsgər! Sən Azərbaycanın ən qəhrəman övladı idin. Sən öldün, fəqət, sənin qəhrəmanlığın səndən sonra yetişəcək zabitlərimiz arasında ölməyəcəkdir. Səni Azərbaycan hərb tarixində yad etmək Azərbaycan üçün böyük bir şərəfdir. Sənin ruhuna təzim və hörmətimizi ithaf edər ikən Vətən və millətmizə də bəyani-təziyyət eyləriz».

Burada haqlı olaraq qeyd edilmişdir ki, Süleyman bəy Əfəndiyevin yad edilməsi Azərbaycan üçün böyük bir şərəfdir. Çünki o , Azərbaycanın şərəfini yüksək vətəndaşlıq hissləri ilə, tükənməyən bir məhəbbətlə və ölçüyəgəlməz əməli fəaliyyətlə qoruyurdu. O öz Vətəni üçün həyatını da əsirgəmədi və özündən sonra gələnlər üçün Vətəni sevmək nümunəsini irs qoyub getdi.

«Azərbaycan» qəzetində Süleyman bəy Əfəndiyevin vəfatı ilə bağlı çap olunmuş xatirə yazısına yuxarıda toxunulmuşdu. Bu yazıda Süleyman bəyə dərin bir hörmət və ehtiram ifadə olunmuşdur. Yazının əvvəli belə başlayırdı : «Bu günlərdə Azərbaycan Cümhuriyyəti ordusu komandanlığından-ordunun böylə mühüm mühüm bir vəziyyətində mirliva (genearl-M.S.) Süleyman bəy Əfəndiyevin tif xəstəliyindən vəfat etməsi xəbəri gəldi...

Mirliva Əfəndiyevin vəfatı nəinki yalnız mirlivanın əqrəba və mütəlliqatını məhzun və dilgir edəcəkdir. Bəlkə onu tanıyan , onun həqqinə arif, onun vətən və millət uğrundakı xidmət və fədakarlıqlarını bilmiş olan cümlə azərbaycanlıları dilxun və dağdar edəcəkdir.

Süleyman bəy Əfəndiyev kim idi?

Bu suala hazırkı hərbiyyə nazirimiz general Səməd bəy Mehmandarov həzrətləri «genearl Süleyman bəy Əfəndiyev təmizlikdə, namusda, qeyrət və fədakarlıqda təhti-idarəmdəki cümlə zabitan arasında ən birinci mövqe tutanlardan idi»- deyə cavab vermişdir...»

General Süleyman bəy Əfəndiyev vəfat edəndə Səməd bəy Mehmandarov Bakıda ezamiyyətdə idi. Onun ezamiyyəti fevral ayının 17-dən başlayıb mart ayının 3-dək davam etmişdi. Bu xəbərdən Səməd bəy hədsiz mütəəssir olmuş və Süleyman bəyin dəfninin onun adına layiq şəkildə təşkil edilməsi barədə göstəriş vermişdi. 1919-cu il fevral ayının21-də Hərbi Nazirlik üzrə Süleyman bəyin ölümü

və onun dəfninin təşkili barədə xüsusi əmr imzalandı. S.Mehmandarov ezamiyyətdə olduğu üçün həmin əmri nazir vəzifəsini icra edən Ə.Şıxlinski imzaladı. Həmin əmr aşağıdakı məzmunda idi:

«1.Bu gün Ağdamdan kədərli bir teleqram alınmışdır ki, birinci Azərbaycan piyada diviziyasının rəisi, genaral-mayor Əfəndiyev səpmə yatalağı xəstəliyindən vəfat etmişdir. 1917-ci il fevral çevrilişindən sonra general-mayor Əfəndiyev ( o vaxt polkovnik) özünü tamamilə xalqına xidmətə həsr elədi, istər ictimai təşkilatlarda, istərsə də Vətənin mənafelərinin qorunması işində yorulmadan işlədi. Hətta mərhum tərəfindən Gəncədə gələcək Azərbaycan qoşunları üçün təlimatçılar hazırlayan tədris komandası da yaradılmışdı. Polkovnik Əfəndiyevin şəxsən rəhbərliyi altında olan bu komanda Vətənimizin mərkəzi olan Gəncənin anarxiyadan qorunmasında, eşelonların tərksilah edilməsində, adı çəkilən şəhərə cəm edilmiş milli mülkiyyətin qorunmasında mühüm rol oynamışdı.

Müsəlman korpusu formalaşdırılanda polkovnik Əfəndiyev Gəncədə yerləşmiş keçmiş 5-ci Müsəlman alayının komandiri təyin edildi. Tiflisdəki müxtəlif məsuliyyətsiz təşkilatların açıq əks-əməllərinə, rəsmi dairələrin Müsəlman korpusuna qarşı qeyri-səmimi münasibətinin ciddi-cəhdlə gizlədilməsinə, keçmiş Zaqafqaziya Respublikasının təchizat müəssisələrindən bir şey almağın hədsiz çətinliyinə baxmayaraq polkovnik Əfəndiyev doğma işə sərhəd bilməyən məhəbbəti və öz enerjisi hesabına Tiflisdəki ləvazimat hissələrindən Gəncəyə, onun alayına aid olan çox əşya alıb gətirmişdi.

Könüllülərlə komplektləşdirilən 5-ci nişançı alay hərbi təşkilata istər çağırış işində, istərsə də fərarilərin tutulmasında hər hansı bir kömək göstərə biləcək yerli hakimiyyət orqanlarının tamamilə olmadığı bir vaxtda çoxlu sayda geyindirilmiş, yedizdirilmişvə kifayət qədər öyrədilmiş əsgərlərə malik idi. Alay komandirinin qayğıkeşliyi əsgərlərlə məhdudlaşmırdı və zabitləri də əhatə edirdi. Polkovnik Əfəndiyev onlar üçün də əla təşkil edilmiş ucuz yeməkxana yaratdı.

Azərbaycan korpusunun piyada hissələrinin müvəqqəti ləğv edildiyi vaxt polkovnik Əfəndiyev qərargaha çoxsaylı təchizat və böyük ərzaq ehtiyatları təhvil verdi. Bundan sonra 2-ci Qarabağ süvari alayının komandiri təyin edilən polkovnik Əfəndiyev çoxlu çətinlikləri dəf edərək alaya hərbi görkəm verdi və onu əla vəziyyətdə hərbi nazirə təqdim etdi.

Başqa komandirlər arasında hərbi nazir tərəfindən fərqləndirilən polkovnik Əfəndiyev general-mayor rütbəsinə layiq görüldü, bu il yanvar ayının 6-dan 1-ci piyada diviziyasının komandiri təyin edildi.

General Əfəndiyev indiki şəraidə diviziyanın təşkil edilməsi kimi çətin işə başladı, istirahət bilmədən və rabatlıq görmədən indiki zamanda Azərbaycanın daha böyük vilayətində qanun-qaydanın yaradılması və hissələrin formalaşdırılması ilə məşğul oldu.

Öz diviziyasının sanitar vəziyyətinin qayğısına qalaraq general Əfəndiyev tibb otağının yaradılmasına şəxsən rəhbərlik edir, daim xəstələrə baş çəkərək və onların arasında fırlanaraq bəzi xeyirxah sözlərlə və bəzən də bir rəhbər kimi tələbləri ilə onların ağrılarını azaldırdı. Çoxlu qayğı içərisində özü barəsində düşünməyə macalı yox idi- səpmə yatalağa tutuldu və postda dayanan əsgər kimi

vəzifə başında keçindi. Qəbrin nurla dolsun, Vətənin əsil oğlu və yorulmaz döyüşçü!

2.Vəfat etmiş Əfəndiyevin Batumda yaşayan ailəsinə heç bir vəsait qalmamışdır. Böyük oğlunun vəfatı barədə xəbər alınsa da ona tapşırılan vəzifənin böyük əhəmiyyətini düzgün qiymətləndirərək postunu tərk etməmişdi.

Əmr edirəm ki, mərhumun dəfninin bütün xərcləri xəzinənin hesabına ödənilsin və onun ailəsinə 5 min rubl birdəfəlik vəsait verilsin. Eyni zamanda hazırda Bakıda olan hərbi nazir qarşısında vəsatət qaldırıram ki, onun ailəsinə ehtiyacsız yaşamağa bəs edən pensiya təyin edilsin».

S.Əfəndiyevin tabutunun Gəncədə qarşılanması üçün də xüsusi hazırlıq görülməli idi. Bunun üçün fəxri qarovul təyin edilmişdi. Fəxri qarovulun rəisi Praporşiklər məktəbinin rəisi polkovnik Kəsəmənski təyin edilmişdi. Fəxri qarovulun tərkibinə Praporşiklər məktəbinin tərkibinə bir bölüyü, 1-ci Tatar süvari alayının bir bölüyü, 1-ci yüngül topçu diviziyasının bir taqımı, Praporşiklər məktəbinin orkestri daxil idi.

S.Əfəndiyevin tabutu Gəncə vağzalına  fevral ayının 24-də gətirildi. Səhər saat 10-dan burada artıq fəxri qarovul düzülmüşdü Onun müşayəti ilə tabut şəhərə, Şah Abbas məscidinə aparıldı. Burada onun üçün namaz qılındı, dualar oxundu.

S.Əfəndiyevin Gəncə qəbristanlığında dəfn edilməsi nəzərdə tutulmuşdu. Ancaq Ə.Şıxlinskinin fevral ayının 26-da imzaladığı əmrdə, habelə sonradar hərbi nazirin adına gəlmiş olan məktublardan aydın olur ki, həyat yoldaşı Laləndar xanım  Süleyman bəyin Qazaxda dəfn olunmasını arzu etmişdi. Onun çox sevdiyi oğlunun da Qazaxda dəfn olunduğu güman edilir. Hərbi Nazirliyin rəhbərliyi ailəsini istəyən nəzərə alaraq Süleyman Qazaxda dəfn olunmasına razılıq verdi.

Ancaq Süleyman bəy Əfəndiyevlə bağlı olan tarix bununla bitmədi. Dəfn olunandan sonra  Ə.Şıxlinski 1919-cu il mart ayının 1-də Gəncə lazaretinin (hərbi xəstəxanasının) baş həkiminə göstəriş verdi ki, Süleyman bəyin şəxsi əşyalarını dezinfeksiya etsin və ailəsinə göndərmək üçün Qərargahın komendantına təhvil versin. Mövcud olan sənədləridən aydın olur ki, kimlərsə S.Əfəndiyevin şəxsi əşyalarına tamah salmış və beləliklə onların bir hissəsi yoxa çıxmışdı. Bu hadisə istər Süleman bəyin ailə üzvlərini, istərsə də Hərbi Nazirliyin rəhbərliyini mütəəssir etmişdi. Qazaxda dəfn edilərkən  onun taxta və sink tabutları da qohumları tərəfindən sındırılmışdı.Bu fakt da  hərbi nazirin narazılığına səbəb olmuşdu.

1919-cu ilin təxminən mart-aprel aylarında Süleyman bəy Əfəndiyevin ailə üzvləri  onun cənazəsini Qazaxdakı qəbirdən çıxararaq Batuma gətirmək qərarına gəlmişdilər. Süleyman bəyin həyat yoldaşı, kiçik övladları və qohumları Batumda yaşadığından görünür  onun qəbrinin də  yaxınlıqda olmağını arzulayırdılar. Bu məqsədlə də onlar Hərbi Nazirliyə müraciət etdilər. Hərbi Nazirliyin arxivində bu müraciətə cavab kimi yazılmış bir sənəd mövcuddur. Sənəd imzalanmayı. Ancaq onun hərbi nazirin blankında çap olunmasından, habelə məzmunundan belə qənaətə gəlmək olar ki, məktub Səməd bəy Mehmandarov tərəfindən yazılmışdır. Cavab Mahmud bəy adlı bir şəxsə ünvanlanmışdır. Onun kim olduğunu söyləmək də çətindir. Çox güman ki,Süleyman bəyin yaxın qohumlarından olmuşdur.

Məktubun məzmunu aşağıdakı kimidir:

«Mərhəmətli cənab Mahmud bəy!

Mərhum Süleyman bəyin cənazəsi indiki vaxtda heç yerə aparıla bilməz. Qohumunuz Məhəmməd bəy ona verilmiş tapşırığı yerinə yetirməyə çalışaraq mərhumun cənazəsinin çıxarılmasına və Batuma aparılmasına çox inadkarlıq göstərdi. Onun sakitləşdirilməsi üçün baş həkim ona meyidin qalıqlarına toxunulmasının, xüsusən də onun başqa yerə aparılmasının qeyri-mümkünlüyü barədə sənəd verdi.

Mən çox təəssüf edirəm ki, Laləndar xanımın qohumları mərhumun cənazəsini Qazax qəzasında torpağa tapşırılmasını istədi. Mən onun həyat yoldaşının arzusuna əməl etmək məcburiyyətində qaldım. Xüsusilə də ona görə ki, Süleyman bəyin hədsiz sevdiyi unudulmaz Həsənin yanında dəfn edilməsi güman edilirdi.

Mən hədsiz dərəcədə narahat oldum  və həyəcanlandım ki, həm taxta, həm də sink tabutlar sındırılmış və mərhumun qanlı bədəni heç bir qoruyucu örtük olmadan torpağa tapşırılmışdır.Bir həkim kimi bu, sizə də yaxşı aydındır. Ancaq güman edirəm ki, qışın düşməsi  ilə əziz mərhumun qalıqlarını çıxarmaq və təhlükəsiz şəkildə istədiyiniz yerə aparmaq mümkün olar.

Mənim əmrimlə mərhumun itmiş əşyalarının tapılması üçün aparılan təhqiqat bir nəticə vermədi. Bununla bağlı aparılan bütün yazışmalar yenidən təhqiqata verildi.

Mən poruçik Əhməd bəy Əfəndiyevi yanıma çağırdım ki, mərhumun son günləri, əşyaları barədə məruzə etsin. Ona xəbər çatmışdır ki, Laləndar xanım əşyaların bir hissəsinin yox olmasında ondan şübhələnir. o bundan çox kədərləndi və gözlərində yaş əsən əlləri ilə mənə raport yazdı ki, onu da sizə göndərirəm.

At və faytonçuları göndərərəm. Tiflislə də əlaqə saxladıq ki, Gürcüstan Respublikası ərazisində heç bir ləngimə baş verməsin. Atlar üçün yem göndərilməsinin çətinliyini nəzərə alaraq sizə arpa ehtiyatı göndərirəm.

Sizə olan sədaqətimi və böyük hörmətimi qəbul edin!»

Bu məktubda qaldırılan məsələnin sonrakı taleyi barədə də bir fikir söyləmək çətindir. Məlumatların qıtlığı üzündən aydın deyil ki, Süleyman bəy Əfəndiyevin qəbri sonradan Batuma köçürülmüşdür , ya yox. Ancaq onun hazırda Qazaxda da qəbrinin olub olmaması məlum deyil. Süleyman bəyin əşyaları isə onun faytonuna yığıldı, bu faytona Nazirliyə məxsus at qoşuldu və Teyyub Əsgər oğlu adlı bir əsgərlə Batuma göndərildi. Fayton Batuma çatandan sonra Teyyub Əsgər oğou tif xəstəliyinə tutuldu və orada o, Azərbaycan konsulluğunun köməyi ilə müalicə edildi.

1919-cu ilin iyul ayında Azərbaycanın Batumdakı konsulu hərbi nazir Səməd bəy Mehmandarova  Süleyman bəyin ailəsinin ağır vəziyyəti haqqında bir məktub yazdı. Konsul Batumdakı bahalığı nəzərə alaraq Süleyman bəy Əfəndiyevin yetim qalmış üç övladına kömək göstərilməsi üçün Nazirlər Şurasının qarşısında maddi yardımla əlaqədar vəsatət xahiş edirdi. Konsulun fikrincə Süleyman bəyin ailəsinə maddi yardım göstərilməsi özünü Vətən yolunda fəda etmiş bir insanın ailəsinə həm də mənəvi yardım olardı. Səməd bəy Mehmandarov

cavab məktubunda bildirirdi ki, Süleyman bəy Əfəndiyevin ailəsi üçün mümkün olan hər şeyi edilmişdir. Onun ailəsinə Azərbaycanda almadığı bir pensiya kəsilmişdir. Batuma göndərilən faytonun sürücüsü və atı hökumət hesabına yedizdirilmişdir. Səməd bəy bildirirdi ki, bundan artıq bir şey edilməsi onun səlahiyyətləri çərçivəsində deyil və ona görə də əlavə kömək göstərmək imkanı olmadığından təəssüfləndiyini qeyd edirdi.

Süleyman bəy Əfəndiyevin qəbrinin yeri məlum olmadığı kimi, hələlik onun fotoşəkli də aşkarlanıb üzə çıxarılmamışdır.

## Murad Gəray Tlexas

Səməd bəy Mehmandarovun əmrlərində adı dəfələrlə minnətdarlıqla xatırlanan Cümhuriyyət ordusunun və bütünlükdə milli tərkibli qoşun hissələrinin formalaşmasında son dərəcə səmərəli xidmət göstərmiş şəxslərdən biri də general-mayor Murad Gəray Tlexasdır.Onun adı ilə çox məsuliyyətli tapşırıqların həlli bağlıdır və hansı iş tapşırılmasından asılı olmayaraq M.G.Tlexasın təşkilatçılığı və iradəsi ilə əldə edilən nəticələr uğurlarına görə fərqlənirdi.

Murad Gəray Tlexas Cümhuriyyət ordusunda bir əzəmət və möhtəşəmlik timsalı idi. Onun görünüşündə təsiredici bir qüvvə var idi. Boylu-buxunlu,enlikürək, qtiyyət və dönməzlik əks etdirən sifəti hərbi libasda xüsusi bir ifadə alırdı. Sonralar Bakı general-qubernatoru olanda bolşevik fəalları onun haqqında yazırdılar : «Tlexasın xarici görkəmi çox təsiredicidir. Hündür, enlikürək, gözləri od saçır,çiyinlərində böyük epoletlər. Enli yazı stolu arxasında oturur. Stolun üstündə isə müxtəlif dəftərxana alətləri parıldayır. Bir sözlə yaşıl örtüyün üstü müxtəlif fiqurlarla doludur. Ən başlıcası isə sağ tərəfdə naqan, sol tərəfdə isə qamçı yerləşir».

Görkəmində olan bu əzəmət, bu qüdrət onun əməllərinə də keçmişdi və buna görə də o, böyük hörmət və nüfuz sahibi olmuşdu, Hərbi Nazirliyin rəhbərliyinin və o cümlədən də Səməd bəy Mehmandarovun səmimi ehtiramını qazanmışdı.

Murad Gəray Tlexasın Azərbaycanın milli hərbi qüvvələri ilə bağlılığı Müsəlman korpusunun mövcudluğu dövrünə gedib çıxır. O, 1874-cü ildə anadan olmuş, Mixaylovsk artilleriya məktəbini bitirmiş və Rusiyanın bir-sıra bölgələrində xidmət etmişdi. Müsəlman korpusunun təşkil edildiyi vaxt M.Tlexas çox güman ki, Qafqazda xidmət edirdi və Müsəlman korpusunun təşkilindən xəbər tutan kimi dərhal onun sıralarına keçmişdi. O, korpusun tərkibində olan 2-ci nişançı topçu briqadasının komandiri idi.

Cümhuriyyət ordusunun hərbi naziri Səməd bəy Mehmandarov Nazirlər Şurasına göndərdiyi vəsatətlərin birində M.Tlexasın Müsəlman korpusunda 1918-ci il yanvar ayının 1-dən xidmətə başladığı bildirilir.Səəmd bəyin həmin vəsatəti onun M.Tlexasın şəxsiyyətinə bəslədiyi ehtiram və məhəbbəti qiymətləndirmək baxımından da qiymətlidir. Bu vəsatət M.Tlexasa hansı kateqoriya üzrə pensiya müəyyənləşdirilməsi ilə bağlı idi. Cümhuriyyət ordusunun hərbi qulluqçularına sosial qayğının gücləndirilməsi üçün Səməd bəyin əmri ilə yeni pensiya

normativləri hazırlanmışdı. Bu normativə görə Cümhuriyyət ordusundan pensiyaya çıxan hərbi qulluqçular iki qrupa bölünürdülər. Birinci qrupa Azərbaycan və Zaqafqaziyadan olan müsəlmanlar, ikinci qrupa isə digər ərazilərdən olan müsəlmanlar və digər məzhəblərə məxsus olan hərbi qulluqçular daxil idilər. Birinci qrupa daxil olanların pensiyası daha yüksək olmalı idi. M.Tlexas Kubanda anadan olduğu üçün ikinci qrupa düşürdü. Ona görə də Səməd bəy Nazirlər Şurası qarşısında vəsatət qaldıraraq Tlexasın istisna kimi ikinci qrupa daxil edilməsini məqsədəuyğun bilirdi. Onun fikrincə genearl Tlexas bu hüququ Azərbaycan xalqı qarşısında göstərdiyi təmənnasız və sədaqətli xidmətləri ilə qazanmışdı.

Son illərdə Cümhuriyyət ordusu ilə bağlı işıq üzü görmüş bir-sıra yazılarda Süleyman bəy Əfəndiyev Cümhuriyyət dövründə general-mayor rütbəsinə layiq görülən ilk zabit kimi təqdim edilir. Yuxarıda da göstərilmişdi ki, sədaqətli və səmərəli xidmətlərinə görə o, Səməd bəy Mehmandarov tərəfindən general rütbəsinə təqdim edilmişdi. Süleyman bəy Əfəndievin Azərbaycan xalqı qarşısında böyük xidmətləri zərrəcə şübhə altına alınmadan mövcud bir-çox sənədlər əsasında ondan əvvl də Cümhuriyyətin generalı rütbəsinə layiq görüldüyünü söyləmək mümkündür. Bu mülahizəni birbaşa təsdiq edəcək sənədlər hazırda elmi dövrüyyədə olmasa da ayrı-ayrı faktların tutuşdurulması belə bir qənaətə gəlməyə imkan verir. Məsələn, Müsəlman korpusunun 1918-ci il iyun ayına olan sənədlərində M.G.Tlexas polkovnik rütbəsində təqdim edilir. Müsəlman korpusu Azərbaycan korpusuna çevriləndən sonra M.Tlexas onun sıralarında xidmətini davam etdirirdi. 1918-ci il avqust ayının 13-də Qafqaz İslam Ordusu komandanı Azərbaycan korpusunun ləğv edildiyi və onun yenidən qurulacağı barədə əmr verdi. Həmin əmrdə göstərilirdi ki, vəzifəsi ləğv olunmuş Murad Tlexas paşa( general) Qafqaz İslam Ordusunun Topçu müfəttişliyinə göndərilir.. Yəni avqust ayında Murad Gəray Tlexas artıq genearl idi və Səməd bəy Mehmandarovun rəhbərliyi altında təşkil edilən Hərbi Nazirliyə də o, general rütbəsində cəlb edilmişdi. 1918-ci il iyul ayının 8-də Nazirlər Şurası Hərbi təşkilatın çinlərinə rütbə və orden verilməsi barədə Azərbaycan korpusunun vəsatətini təsdiq etmişdi. Güman etmək olar ki, M.Tlexasın genearl rütbəsi alması da bu qərar ilə rəsmiləşdirilmişdi.

Ordunun qərargahının formalaşdırılması barədə Səməd bəy Mehmandarovun ilk əmri 1918-ci il noyabr ayının 15-də imzalandı. Həmin əmrlə Ümumi qərargahın tərkibində başqa şöbələrlə bərabər topçu idarəsi də yaradılır və general-mayor M.Tlexas bu şöbənin rəisi təyin edilirdi.

Bu şöbənin qarşısında da çox məsuliyyətli vəzifələr dururdu. Hər şeydən əvvəl M.Tlexas şöbənin özünü formalaşdırmalı, onun iş mexanizmini qurmalı və onun vasitəsiylə topçu qüvvələrinin qurumlanmasına rəhbərlik etməli idi. Piyada birləşmələrinin tərkibində ayrıca topçu hissəsi və ya bölməsi yox idi. Topçu hissələri ayrıca hissələr kimi təşkil edilir və hər hansı döyüş tapşırığının icrası zamanı onlar hissə və birləşmə komandirlərinin əməliyyat tabeliyinə verilirdi. Cümhuriyyət ordusunun mövcudluğu dövründə iki topçu briqadası və bir-neçə əlahiddə topçu taboru təşkil edilmişdi. Bundan başqa Bakı İstehkamat hissəsinin topçu bölməsi var idi. Qoşun hissələrinin silah, sursat və əsas texniki vasitələrlə

təchizi də Topçu idarəsinin üzərində idi. Bunun üçün Topçu idarəsinin Ləki stansiyasında topçu anbarı da var idi. sonradan bu anbarın Kürdəmirdə də şöbəsi açılmışdı.

M.Tlexasın təcrübəsindən ordunun formalaşmasının bütün sahələrində istifadə edilirdi.O, Nazirlik səviyyəsində təşkil edilmiş müxtəlif səviyyəli komissiyaların işində iştirak edirdi. Məsələn, Səməd bəy Mehmandarovun 3 yanvar 1919-cu il tarixli əmri ilə yaradılmış komissiya qoşun hissələrinin, hərbi idarə və müəssisələrinin ştat cədvəlini və maaş tabelini müəyənləşdirməli idi. Bu komissiyaya həm də Cümhuriyyət ordusunun yeni geyim layihəsini hazırlamaq həvalə olunmuşdu. M.Tlexas da bu komissiyanın üzvə idi.

S.Mehmandarovun Hərbi Nazirliyin rəhbərliyinə gətirilməsi ilə Cümhuriyyət ordusunun sürətli formalaşma prosesi başladı. Ona görə Nazirliyin ilkin strukturları da təkmilləşdirilir və yeni tələblərə uyğunlaşdırılırdı. Nazirliyin tərkibində olan strukturlardan Topçu şöbəsi ciddi keyfiyyət dəyişikliyinə məruz qalan ilk strukturlardan biri idi. M.G.Tlexasın rəis olduğu bu şöbə öz ilkin imkanları ilə Cümhuriyyət ordusunda genişlənməkdə olan fəaliyyət sahəsini əhatə etməyə qabil deyildi. Ona görə də Hərbi Nazirlik qarşısında Topçu şöbəsinin strukturunun genişləndirilməsi barədə vəsatət qaldırıldı. Hərbi nazir S.Mehmandarovun 31 dekabr 1918-ci il tarixli 40 nömrəli əmri ilə Ümumi Qərargahın tərkibində olan Topçu şöbəsinin bazasında Topçu idarəsi yaradıldı. Bu idarə Ümumi qərargahın tərkibində çıxarılaraq birbaşa hərbi nazirə tabe etdirildi. General-mayor M.Tlexas Topçu idarəsinin rəisi vəzifəsində saxlanıldı. Nazirin xatırlanan əmrində göstərilirdi ki, Topçu idarəsinin rəisi korpusun (Azərbaycan korpusu hələ ləğv edilməmişdi-M.S.) tərkibinə daxil olmayan bütün topçu hissələrinin rəisidir. Korpusun topçu hisələri üçün isə o, müfəttişdir. Bu hisələrdə təlim-tərbiyənin hansı vəziyyətdə olmasını nəzarət altında saxlamaqla Topçu idarəsinin rəisi vaxtaşırı hərbi nazirə bu barədə məlumat verməli idi. Topçu idarəsi iki bölmədən təşkil olunmuşdu. 1-ci bölmə-texniki bölmə, 2-ci bölmə isə müfəttiş bölməsi idi. Bu bölmələrn rəisləri Topçu idarəsi rəisinin müavinləri hesab edilirdi. Texniki bölmə Cümhuriyyət ordusunun bütün hissə və bölmələrinin topçu texnikası, silahı, sursatı və ləvazimatı ilə təchiz olunması , silah və sursatın, bütünlküdə topçu əmlakının mühafizəsi və qorunması ilə məşğul olmalı və bunun üçün lazımi metodiki göstərişləri də hazırlamalı idi.

Müfəttiş bölməsi isə topçu hissələrinin və bölmələrinin döyüş hazırlığı ilə məşğul olmalı və bunun üçün zəruri olan təlimatları, habelə metodiki sənədləri hazırlamalı idi.

M.G.Tlexasın rəhbərliyi altında topçu hissəsinin formalaşdırılması da sürətlə aparılırdı. 1919-cu ilin mart ayında, yəni Topçu şöbəsinin təşkilindən cəmi 4 ay sonra Cümhuriyyət ordusunun tərkibində 1-ci topçu briqadası, 1-ci yüngül topçu divizionu və 2-ci dağ topçu divizionu mövcud idi. Həmin ilin noyabr ayına aid olan məlumatlarda isə Topçu idarəsi yanında topçu emalatxanası yaradıldığı, adları çəkilən topçu hissə və bölmələrindən əlavə 2-ci topçu briqadasının, 2-ci dağ divizionunun, dağ-süvari batareyasının, əlahiddə qaubitsa batareyasının da yaradıldığı bildirilirdi.

M.G.Tlexas topçu hissələrinin yaradılması ilə bərabər onların təminat və təchizat məsələlərinin həllinə də diqqət yetirirdi. Obyektiv çətinliklərə baxmayaraq Cümhuriyyət ordusunun istər topçu hissələri, istərsə də digər hissələri silah və sursatla qənaətbəxş səviyyədə təchiz olunmuşdu. 1919-cu il iyun ayının 16-da Gürcüstanla Azərbaycan arasında imzalanmış hərbi müdafiə paktından sonra Cümhuriyyət ordusunun təchizatında müsbət dəyişikliklər oldu. Çünki iki dövlət arasında imzalanan sənədlər qarşılıqlı əlaqələrin güclənməsinə zəmin yaratdı.

Qarşılıqlı razılaşma əsasında Gürcüstandan alınması nəzərdə tutulan ərzağın, silah və sursatın qəbul edilməsi üçün hərbi nazirin əmri ilə xüsusi komissiya yaradıldı və Topçu idarəsinin rəisi, general-mayor M.G.Tlexas bu komissiyanın rəhbəri təyin edildi.

General Tlexasın rəhbərlik etdiyi komissiya 1919-cu il iyul ayında Tiflisdə səmərəli fəaliyyət göstərdi və Azərbaycan ordusunun təchizatı üçün böyük əhəmiyyət kəsb edən çoxlu miqdarda ərzaq və xeyli sayda texniki vasitə Azərbaycana göndərildi. Komissiyanın ilk günlərdə Gürcüstanda gördüyü işlər ərzaq əşyalarının Azərbaycana göndərilməsi ilə bağlı idi. Azərbaycana hər biri 2 min pud olmaqla iki partiyada 4 min pud şəkər yola salınmışdı. Əvvəlcə nəzərdə tutulmuşdu ki, şəkər doldurulmuş vaqonlar Qarayazı stansiyasında başqa vaqonlara boşaldılsın və sonra Azərbaycana göndərilsin. Ancaq M.G.Tlexas vaqonların Qarayazıda boşaldılmasını təhlükəli sayırdı. Onun fikrincə burada müəyyən qüvvələr şəkəri ələ keçirə bilərdilər. Ona görə də qərara alındı ki, Qarayazıda şəkər daşıyan vaqonlar lazımi texniki müayinədən sonra xüsusi paravozlara qoşulsun və Akstafaya yola salınsın. Vaqonların Akstafada boşaldılması daha təhlükəsiz sayılırdı. Orada həmin vaqonlar boşaldıldıqdan sonra şəkər Gəncəyə və Bakıya daşınmalı idi.

1919-cu il iyul ayının 11-də isə M.Tlexasın rəhbərliyi altında Tiflisdən ilk silah və sursat eşelonu yola salındı. Bu eşelonda 12 ədəd dağ topu, dağ topları üçün 10 yeşik partlayıcı madə, 1500 ədəd tüfəng, toplar və tüfənglər üçün böyük sayda detallar gətirildi. İyulun 19-da yola salınan ikinci eşelonda 8 ədəd yüngül top, toplar üçün 16 yeşik partladıcı maddə, 1500 ədəd tüfəng, toplar və tüfənglər üçün ehtiyat detallar, 12885 rubla alınmış dərman və tibb ləvazimatı və topoqrafiya əşyaları var idi. İyulun 17-də növbəti bir eşelon Tiflisdən yol düşməli idi. Bu eşelonda əsasən istehkam ləvazimatı toplanmışdı. Lakin yüklənən malların əvəzinin hansı yolla ödənəcəyinin aydınlaşdırılmaması üzündən bu eşelonun göndərilməsi bir qədər ləngidi və nəhayət iyulun 21-də bu eşelon da yola salındı.

General Tlexasın iyulun 25-də hərbi nazir S.Mehmandarovun adına göndərdiyi teleqramda bildirilirdi ki, iyulun 24-də növbəti eşelonun yola salınması planlaşdırılır. Həmin eşelonda qaubitsalar üçün 10 yeşik partladıcı maddə, qaubitsalar üçün ehtiyat detallar, xəncər, süngü, süvari təchizatı olmalı idi. Bu eşelona top, pulemyot və tüfənglər üçün də ehtiyat hissələrin toplanması nəzərdə tutulmuşdu. İyulun 18-dən etibarən komissiya çoxlu sayda mətbəx arabalarının, dördçarxlı arabaların qəbuluna başlamışdı.

Ayrı-ayrı adamlardan 20 min rubl həcmində çoxlu sayda top detalları alınıb toplanmışdı. Şəxsi adamlardan alınan əmlakın keyfiyyətinə komissiya tərəfindən

xüsusi fikir verilirdi. Alınan bütün əmlak üçün Gürcüstan tərəfinə 80 min rubl avans verilmişdi. Gələcəkdə alınacaq əmlakın məbləğinin üir hissəsinin Gürcüstan tərəfinə neftlə ödənilməsi razılığı əldə edilmişdi.

M.Tlexasın Cümhuriyyət ordusunun təchizatının yaxşılaşdırılması üçün Gürcüstanda gördüyü işlər hərbi nazir S.Mehmandarov tərəfindən də böyük razılıq hissləri ilə qarşılandı.

1919-cu il sentyabr ayının əvvəllərində Tlexasın rəhbərlik etdiyi Topçu idarəsinin strukturunda yenidən dəyişiklik edildi. Bu idarə Nazirliyin böyük idarələrindən biri idi və onun fəaliyyətinin təkmilləşdirilməsi qoşunların döyüş hazırlığının keyfiyyətcə yeni bir səhifəyə qaldırılmasına təsir göstərə bilərdi. Bu məsələ ilə bağlı Nazirlər Şurası qarşısında vəsatət qaldırıldı. Hərbi Nazirlik tərəfindən ora göndərilən müvafiq məktubda bildirilirdi ki, Hərbi Nazirliyin bir-çox idarələri, o cümlədən Topçu idarəsi ordunun təşkilinin ilkin dövründə mövcud olan işin həcminə uyğun olaraq yaradılmışdı. Son zamanlar isə bu işin həcmi xeyli genişlənmişdi və ona görə də idarələr, o cümlədən də Topçu idarəsi yalnız təcizat məsələləri ilə məşğul olmaq imkanı tapır. Halbuki bu idarə orduda olan topçu hissə və bölmələrinə bütün sahələrdə rəhbərlik etməli, həmin hissələrdə xidmətin, təlim və tərbiyənin təşkili, onların zəruri əmlakla təmin edilməsi sahəsində hərbi nazirin qarşısında birbaşa məsuliyyət daşımalı idi. Topçu hissələrində texniki-taktiki hazırlığı yaxşılaşdırmaq, nizami xidməti təkmilləşdirmək üçün Hərbi Nazirlik Topçu idarəsinin strukturunda qismən dəyişiklik etməyi və bu orqanın səlahiyyətlərini genişləndirərək onu Baş Topçu idarəsi adlandırmağı təklif edirdi.

Baş Topçu idarəsinin strukturu hazırlanarkən onun əlavə xərclər məsrəfinə yol verməməsi də nəzərə alınmışdı. Nazirlər Şurasına göndərilən məktubda göstərilirdi ki, yeni strukturun tətbiq ediləcəyi halda əvvəlki strukturla müqayisədə cəmi 1300 manat əlavə xərc lazım olacaqdır.

Baş Topçu idarəsinin yeni yazılmış Əsasnaməsində deyilirdi ki, bu orqan: 1) Topçu idarəsinin sərəncamında olan əmlakın, texniki vasitələrin bölüşdürülməsi ilə; 2) ordunun topçu əmlakı ilə ümumi təminatı ilə; 3) ordunun bütün topçu hissə və bölmələrinin texnikasının idarə edilməsi ilə; 4) rəhbər sənədlərin və xüsusi göstərişlərin hazırlanması ilə; 5) texniki heyətin ümumi qeydiyyatı, bölüşdürülməsi ilə; 6) hjərbi nazirin göstərişinə əsasən ordunun texniki təchizatının, topçu hissələrin isə həm nizami, həm də texniki planda təchizatının yaxşılaşması ilə məşğul olur. Baş Topçu idarəsinin rəisi topçu hissələrinin texniki hazırlığı və ordunun topçu əmlakı ilə təchiz edilməsi məsələlərinə məsuliyyət daşımalı idi. O yuxarıdan heç bir göstəriş gözləmədən hərbi hissələri və birləşmələri təsdiq olunmuş ştata uyğun olaraq bütün texniki vasitələrlə təchiz etməli və ya bu məsələnin həlli üçün yollar aramalı idi. Bütünlükdə topçu hissələrində xidmətin hərtərəfli təşkili həmin hissələrin daimi döyüş hazırlığı vəziyyətində olması məsuliyyəti Baş Topçu idarəsinin üzərində idi.

1919-cu il sentyabr ayının 13-də hərbi nazir S.Mehmandarov Baş Topçu idarəsinin yeni ştatını təsdiq etdi. Həmin ştata görə Baş Topçu idarəsinin strukturu aşağıdakı ştatlardan təşkil olunmalı idi: idarə rəisi, idarə rəisinin texniki hissə üzrə

müavini, qoşunlarda silahların hazırlıq vəziyyətini yoxlamağa məsul olan qərargah zabiti, nizami hissə üzrə baş yavər, tapşırıqlar üçün baş zabit, topçu detallarının təchizatı bölməsinin müdiri (mülkü), sursat, odlu və soyuq silahlarla təchizat üzrə məsul şəxs (mülki), təsərrüfat hissəsinin müdiri, silah texniki. Bunlardan başqa idarənin ştatında bir-neçə katib, çapar, mehtər və sürücü də var idi.

General-mayor Tlexas yeni yaradılan Baş Topçu idarəsinin də rəhbərliyində saxlanıldı. Ancaq elə həmin günlərdə ona daha məsuliyətli bir vəzifə də həvalə edildi. Bu vəzifə Bakı İstehkamat hissəsinin rəisi vəzifəsi idi. Məlumdur ki, 1919-cu ilin yayında şimaldan Azərbaycana Denikin qoşunlarının təcavüzü təhlükəsi yaranmışdı. Həmin təhlükənin qarşısının etibarlı şəkildə alınması üçün Azərbaycan hökuməti tərəfindənmüxtəlif vasitələrə əl atılırdı. Bakı İstehkamat hissəsinin təşkilində məqsəd də şimaldan, xüsusən də dənizdən gözlənilən Denikin təcavüzünün qarşısını almaq və bütünlükdə Bakının etibarlı müdafiəsini təşkil etmək idi. Azərbaycanda olan ingilis qoşunları 1919-cu ilin yayında Bakını tərk edərkən hərbi donanmanı da Denikin qoşunlarının sərəncamına verməsi ilə Bakı şəhəri tamamilə dənizdən müdafiəsiz qalmışdı. Hərbi nazir S.Mehmandarov 1919-cu il sentyabrın 13-də Dövlət Müdafiə Komitəsinin sədrinə yazdığı raportunda Bakı şəhərinin müdafiəsinin təşkili istiqamətində görülməkdə olan işlər barədə məlumat verməklə bərabər onu da əlavə edirdi ki, planlaşdırılan işləri əlaqələndirmək və Bakının müdafiəsi ilə bağlı bütün fəaliyyəti bir əldə məkrəzləşdirmək üçün Bakı İstehkamat hissəsinin rəisi vəzifəsini təsis etmək lazımdır.

Hərbi nazir S.Mehmandarovun əmri elə həmin gün də Dövlət Müdafiə Komitəsinin iclasında müdafiə edilmiş və nazirin qaldırdığı vəsatətin məqsədəuyğunluğu barədə qərar qəbul edilmişdi. Qərarda Bakı İstehkamat hissəsinin rəisi vəzifəsini təsis etmək, bu vəzifəni şəhərin hərbi general-qubernatoru vəzifəsi ilə birləşdirmək qərara alınmışdı.

Hərbi nazirin 13 sentyabr 1919-cu il tarixli 405 nömrəli əmrində göstərilirdi ki, Bakı İstehkamat hissəsinin rəisi hərbi nazirin təqdimatı əsasında Nazirlər Şurası sədrinin qərarı ilə təyin edilir. İstehkamat hissəsin öz strateji əhəmiyyətinə görə birinci dərəcəli qalaya bərabər tutulurdu. Onun hüdudları Qızıl Burundan Ələtə qədər müəyyənləşdirilmişdi. Bakı İstehkamat hissəsinin rəisinin səlahiyyətləri korpus komandirinin səlahiyyətləri səviyyəsində idi və Bakı qarnizonunun bir başa hərbi nazirin özünə tabe olan hissələrindən başqa digər bütün hissələri İstehkamat hissəsinin rəisinə tabe olmalı idi. Bakının hərbi limanı, orada mövcud olan üzən obyektlər, Nizovaya liman körpüsündən tutmuş Ələt stansiyasına qədər sahil boyunca yerləşdirilmiş toplar da İstehkamat hissəsinə tabe etdirilirdi. İstehkamat hissəsinin öz bayrağı olmalı idi. Həmin bayraq Bayıl burnunda qaldırılmalı və onun mühafizəsi təmin edilməli idi.

1919-cu il sentyabr ayının 9-da M.Tlexasa tapşırılmışdı ki, Baş Ərkani-hərblə birlikdə İstehkamat hissəsinin ştat layihəsini hazırlasın. Sentyabr ayının 13-də isə Dövlət Müdafiə Komitəsi S.Mehmandarovun təqdimatı əsasında M.G.Tlexası Bakı İstehkamat hissəsinin rəisi vəzifəsinə təsdiq etdi. M.Tlexas elə həmin gün də bu vəzifənin icrasına başladı və Bakının hərbi general-qubernatoru

kimi özünün 1 nömrəli əmrini imzaladı. Həmin əmrdə deyilirdi : «Dövlət Müdafiə Komitəsinin cari ilin 13 sentabr tarixli qərarına əsasən mən bu gün tabeçiliyində Bakı şəhər rəisliyi olan Bakı hərbi general-qubernator vəzifəsinin icrasına başladım. Belə məsul vəzifənimənə etibar etmiş hökumətin etimad və ümidlərini doğrultmaq üçün çalışacağam ki, bütün enerjimi, işə vicdanlı münasibətimi nümayiş etdirim və mənə tapşırılmış rayonun maraqlarının və asayişinin, onun əhalisinin əmin-əmanlığının sədaqətli keşikçisi olum. Bunun əldə edilməsi üçün:

1)Qarşıma belə bir vəzifə qoyuram ki, Bakı general-qubernatorluğunda cinayətkarlığı heçə endirim.

2) Hərbi general-qubernatorluqda şəxsi və ictimai maraqlara və dövlət əmin-əmanlığına meylli olan bütün əhalinin işlərinə ən geniş yardımlar göstərim.

3) Milliyətindən, məzhəbindən, ictimai vəziyyətindən asılı olmayaraq hər bir vətəndaş əmin ola bilər ki, mənim şəxsimdə öz maraqlarının vicdanlı və qətiyyətli müdafiəçisini tapacaqdır. Bir şərtlə ki, bu maraqlar ümumdövlət maraqlarının əleyhinə olmasın.

4) Əhalini özləri və cəmiyyət üçün faydalı olan sakit və səmərəli fəaliyyətə çağırıram.İş adamlarından və kommersantlardan xahiş edirəm ki, geniş fəaliyyətə başlasınlar və bilsinlər ki, mən onların şəxsi və əmlak təhlükəsizliyinin müdafiəsində dayanacağam.

5) Fəhlələrdən xahiş edirəm ki, öz işlərinə başlasınlar və əmin olsunlar ki, onların iqtisadi fəallığını və şəxsi toxunulmamazlığını mən bütün mümkün vasitələrlə qoruyacağam.

6) Asayişi və gənc Azərbaycan Respublikasının dövlət quruluşunu pozmağa çalışan şəxslərə qarşı qanunla mənə verilmiş bütün səlahiyyətlər çərçivəsində amansız müharibə elan edirəm.

7)Paytaxtda asayişi pozmağa və anarxiya yaratmağa çalışan gəlmə və məsuliyyətsiz şəxslərə təklif edirəm ki. dərhal Bakı general-qubernatorluğunu tərk etsinqlər və xəbərdarlıq edirəm ki, mən onlara aman verməyəcəyəm Azərbaycan Respublikasının müdafiəsi və qanun-qaydanın qorunması üçün isə hökumətin qüvəsi kifayət qədərdir.

Əhalidən xahiş edirəm yadda saxlasınlar ki. Azərbaycan Respublikasının əmin-əmanlığının qorunmasını mən həyati məqsədim hesab edirəm və onu pozanlara aman verməyəcəyəm».

Bakı İstehkamat hissəsinə rəhbərlik M.Tlexasın Cümhuriyyət dövrü fəaliyyətinin çox dəyərli səhifəsini təşkil edir. Onun zəhməti və təşkilatçılığı ilə çox qısa zaman ərzində Bakı ətrafında kifayət qədər güclü olan bir müdafiə sistemi yaradılmışdı. Bu istiqamətdə görülməli olan işlərin düzgün təşkil edilməsi, bu sahəyə təcrübəli mütəxəssislərin cəlb olunması qarşıya qoyulan vəzifələrin çevik şəkildə həllinə zəmin yaratmışdı.

1919-cu ilin payızından başlayaraq Bakı ətrafının müdafiə sisteminin yaradılması M.Tlexasın fəaliyyətinin əsas istiqamətini təşkil edirdi. Bunun üçün o, İstehkamat hissəsinin strukturan daxil olan idarələrin fəaliyyətini təşkil edir, onların mülahizə və qənaətlərini dinləyir və sonra da bu mülahizə və qənaətlərin icrasına rəhbərlik edirdi. Məsələn, nargin adasının mühəndis-istehkam baxımından

möhkəmləndirilməsi və onun qala-forta çevrilməsi üçün istehkam podpolkovniki Vəkilov məsələni hərtəfərli öyrənmiş və Tlexasın adına müfəssəl bir raport yazmışdı. Vəkilov M.Tlexasın nəzərinə hər şeydən əvvəl onu çatdırırdı ki, Şıx burnunda və Nargin adasında başlanmış işlər uğurla davam etdirilir. Bu məntəqələrdə istehkam xəndəkləri qazılmış, birbaşa hədəfə atəş açmaq üçün imkan yaradılmış, müşahidə postları və toplar üçün meydanlar düzəldilmişdi. Ən yaxın zamanlarda adları çəkilən məntəqələrdə başlanan işlərin sona çatdırılması gözlənilirdi.

Vəkilovun M.Tlexasa yazdığı raportda o da bildirilirdi ki, həmin məntəqələrdə qoşun bölmələrinin yerləşdirilməsi üçün orada müvafiq binalar tikilməli, bu bölmələrlə şəhər arasında rabitə yaradılmalı, onların silah-sursat və ərzaqla təchizi təşkil edilməli idi.

Hərbi Nazirliyin rəhbərliyi M.Tlexasın qarşısında təkcə Bakının deyil, onun ətrafının da topla müdafiəsinin təşkil edilməsi vəzifəsini qoymuşdu. M.Sulkeviç M.Tlexasa göndərdiyi 6 noyabr 1919-cu il tarixli məktubunda göstərirdi ki, hərbi nazir S.Mehmiandarov Qızıl Burunun, Nizovaya limanının və Ələtin artilleriya baxımından möhkəmləndirilməsinin sürətləndirilməsini tələb edir. Bakı ətrafının artilleriya baxımından möhkəmləndirilməsi üçün əvvəlcə 2-ci zirehli qatar, sonra da 1-ci zirehli qatar əməliyyat baxımından M.Tlexasa tabe etdirildi.

M.Tlexas Bakı şəhərinin təkcə dənizdən müdafiəsini deyil, həm də qurudan müdafiəsinə ciddi diqqət yetirirdi. Bu istiqamətdə müdafiə işlərinin müəyyənləşdirilməsi üçün M.Tlexas podpolkovnik Vəkilova müvafiq göstəriş vermişdi. M.Tlexasın fikrincə Denikin qoşunlarının Bakı üzərinə qurudan müdaxiləsi də istisna olunmurdu və həmin müdaxilənin qarşısının etibarlı şəkildə alınması üçün müdafiə-istehkam işlərinin aparılmasına ehtiyac var idi.

M.Tlexas Bakıda asayişin qorunmasına, sabitliyin möhkəmləndirilməsinə və hər cürə təxribatçı kütləvi tədbirlərin qarşısının alınmasına da çalışırdı. Çünki şəhər daxilində ictimai asyişin pozulmasını M.Tlexas Bakının müdafiəsinin təşkilinə mənfi təsir göstərən amil kimi qiymətləndirirdi. M.G.Tlexas onu da yaxşı bilirdi ki, Bakıda sabitliyin pozulmasına yalnız bunda maraqlı olan qüvvələr çalışa bilərdi və ona görə də istəyirdi ki, belə qüvvələrin fəallaşmasına imkan verməsin. Onun 1919-cu il noyabrın 24-də imzaladığı xüsusi əmrində deyilirdi:

« İstehkamat hissəsi daxilində mənim xüsusi icazəm olmadan hər hansı küçə toplantısı, mitinqləri, çıxışları və nümayişləri qadağan edilir. Bu məcburi qərarın pozulmasında günahkar bilinənlər inzibati qaydada 3 aya qədər həbsə məruz qalacaq və ya da 10 min rubl cərimə olunmaqla respublikanın hüdudlarından çıxarılacaqlar».

Bakı İstehkamat hissəsinin rəisi və hərbi-general qubernator vəzifələrinin icrası M.G.Tlexasdan həm çoxlu vaxt, həm də böyük enerji tələb edirdi. Buna görə də 1919-cu il dekabrın əvvəllərində Hərbi Nazirliyin rəhbərliyi general M.Tlexası Baş Topçu idarəsinin rəisi vəzifəsindən azad etməyi və bütün diqqətin Bakı İstehkamat hissəsinə cəmləşdirilməsini
məqssədəuyğun bilindi. Bununla bağlı hərbi nazir S.Mehmandarov 1919-cu il dekabr ayının 4-də imzaladığı 559 nömrəli əmrində Baş Topçu idarəsinin rəisi

general-mayor M.G.Tlexasın Azərbaycan ordusunun formalaşdırılmasında misilsiz xidmətlər göstərildiyini qeyd edir və həvalə olunmuş vəzifəni layiqincə yerinə yetirdiyi üçün ona öz təşəkkürünü bildirirdi. Həmin əmrdə deyilirdi: « Baş Topçu idarəsinin rəisi, general-mayor Tlexas vəzifəsinin icrasına Hərbi Nazirlik yenicə yarananda başlamışdı. Bu o vaxt idi ki, həm ordu, həm də onun mərkəzi idarəetmə orqanları heç bir baza olmadan yaradılırdı. Doğma ordunun təşkili üzrə mənim ən yaxın silahdaşlarımdan biri general-mayor Tlexas idi. Cəngavər insan və yorulmaz işçi kimi o, ordunun silahlandırılmasına, bütün Azərbaycana dağılmış topçu mülkiyyətinin toplanmsına, topçu anbarlarının və emalatxanasının təşkiinə çox böyük vicdanlı zəhmət çəkmişdir.

İndi onun üzərinə yeni, respublikanın müdafiəsi sahəsində yüksək dərəcədə mühüm vəzifələrn həvalə olunmasına görə ümumi işin xeyrinə onun Baş Topçu idarəsinin rəisi vəzifəsindən azad olunmasını faydalı sayıram. Bir il ərzində bu vəzifəni nümunəvi çalışqanlıqla və sonsuz müvəffəqiyyətlə icra etdiyinə görə möhtərəm Murad Gəraya xidmət adından səmimi təşəkür elan edirəm».

S.Mehmandarovun 10 dekabr 1919-cu il tarixli başqa bir əmri ilə M.Tlexas Bakı şəhəri İstehkamat hissəsinin rəisi vəzifəsindən azad edildi və Bakının hərbi general-qubernatoru vəzifəsində saxlanıldı. Bu da çox güman ki, 1919-cu ilin sonlarından balayaraq Bakıda bolşevizmin yenidən güclənməsi və ona qarşı daha səmərəli mübarizənin təşkil edilməsi zərurəti ilə bağlı idi. Azərbaycan Xalq Cümhuriyyəti süqut edənə kimi Tlexas bu vəzifəni icra etdi. Aprel çevrilişindən sonra o dərhal bolşeviklər tərəfindən həbs edildi. M.Tlexas bolşevik Əli Bayramovun qətlində günahkar bilinərək ittiham olundu və may ayının sonlarında bir-neçə gün ərzində davam edən məhkəmədə ölüm hökmünə məhköm edildi. Bu məhkəmə əsaslandırılmamış faktlar üzərində qurulmuş bir proses idi və M. Tlexasın bolşevizmə qarşı apardığı mübarizəni nəzərə alaraq onun həmin məhkəməsində salamat qurtaracağı da mümkünsüz idi. Cümhuriyyət ordusunun digər çoxsaylı generalları kimi kimi onun da məhv edilməsi üçün bolşeviklər hər hansı bir bəhanə tapacaqdılar.

1920-ci il may ayının 29-da olan məhkəmə iclasında M.G.Tlexas hakimlər tərəfindən dindirilmişdi. Bu məhkəmənin gedişi «Kommunist» qəzetinin səhifələrində çap edilmişdir. Bolşevizmin Azərbaycanda yenicə hakimiyyətə gəldiyi və əhali arasında özünə lazımi arxa tapa bilmədiyi bir vaxtda «Kommunist» qəzetinin ifrat bolşevik mövqeyindən təbliğat apardığını nəzərə alaraq Ə.Bayramovun qətli ilə bağlı məhkəmə haqqında məlumatların da birtərəfli ifadə olunduğunu qəbul etmək lazımdır. Qəzetdə verilən məlumat Tlexasın günahkar olduğunu sübut etməyə çalışsa da məlumdur ki, o, qürurunu sındırmamış və əsaslandırılmamış hökmü də böyük iradə ilə qarşılamışdı. Məhkəmə isə onu çox məntiqsiz bir ittihamla təqsirkar bilmişdi. Məhkəmənin qərarında deyilirdi ki, qəsdən və cinayətkar fəaliyyətsizliyi ilə Ə.Bayramovun qətlinin izlərinin itirilməsinə şərait yaratdığına görə M.G.Tlexas ölüm hökmünə məhkum edilsin. M.Tlexasdan başqa daha bir-neçə şəxs də ölüm hökmünə məhkum edildi. Bununla da S.Mehmandarovun özünə ən yaxın silahdaş saydığı generallardan birinin də həyatına son qoyuldu.

Hərb ulduzları

Cümhuriyyət ordusunun bu günə çatmış arxiv sənədlərinin öyrənilməsi göstərir ki,1918-1920-ci illər ərzində Azərbaycan ordusunun sıralarında müxtəlif vaxtlarda və vəzifələrdə 27 general xidmət etmişdi. Onlar aşağıdakılar idi: Tam artilleriya generalı Səməd bəy Mehmandarov, tam artilleriya generalı Əliağa Şıxlinski, general-leytenant M.Sulkeviç ( Baş Ərkani-hər rəisi), general-leytenant Tarxanov (İtehkamat hissəsinin rəisi) , general-mayor HəSəlimov (Ümumi qərargah rəisi), general-mayor S.Əfəndiyev ( 1-ci piyada diviziyasının komandiri) general-mayor M.Tlexas (Topçu idarəsinin rəisi, Bakının general-qubernatoru), general-mayor H.Qaytabaşı ( növbətçi general), general-mayor İ.Usubov( 2-ci piyada diviziyasının komandiri), general-mayor T.Novruzov (süvari diviziyasının komandiri), general-mayor C.Şıxlinski (1-ci piyada diviziyasının komandiri), general-mayor Vəkilov ( Topoqrafiya şöbəsinin rəisi), general-mayor D.Yadigarov (1-ci piyada diviziyası komandirinin müavini), general-mayor F.Vəzirov (Bakı şəhərinin komendantı), general-mayor Həşimbəyov (Ləvazimat idarəsinin rəisi), general-mayor Məmməd Mirzə Qacar (Hərbi Nazirliyin təchizat rəisi), general-mayor Amaşukeli (süvari diviziyası komandirinin müavini), general-mayor Dubrovski (Hərbi ədliyyə hissəsinin rəisi), general-mayor Sisianov (Ləvazimat idarəsinin rəisi), general-mayor Purseladze (tapşırıq generalı), general-mayor Xlebnikov (Hərbiyyə məktəbinin müəllimi), general-mayor Feyzulla Mirzə Qacar (Gəncə qanizonunun rəisi), genearl-mayor Əmənulla Mirzə Qacar (süvari diviziyası komandirinin müavini), general-mayor Əmir Mirzə Kazım Qacar (Gəncə şəhərinin hərbi komendantı), general-mayor K.D.Çxeidze (Hərbiyyə məktəbinin rəisi),general-mayor Karqaleteli (general-kvartirmeyster). Bu generalların hər ibri Səməd bəy Mehmandarovun silahdaşı, arxası və dayağı idi. Onlardan yalnız general Purseladze Cümhuriyyət ordusunun zabitinin adına yaraşmayan hərəkətlərə yol verdiyi, içkiyə və pullu oyunlara meyl göstərdiyi üçün Səməd bəy tərəfindən ordu sıralarından xaric edilmişdi. Yerdə qalan generallar isə xidməti vəzifələrinə sədaqətlə yanaşır, həvalə olunmuş işləri məsuliyyətlə yerinə yetirirdilər. Cümhuriyyət ordusunun qısa müdət ərzində formalaşmasında bu inçsanların hər birinin özünəməxsus rolu var idi və Səməd bəy Mehmandarov onların hər birinin fəaliyyətinə böyük hörmət və ehtiramla yanaşırdı. Başqa sözlə deyilsə adlaı çəkilən generallarının hər biri bilik səviyəsi, təcrübəsi, işgüzarlığı və təşəbbüskarlığı ilə Səməd bəy Mehmandarovun yüksək tələbkarlığına cavab verirdi. Səməd bəy isə bu keyfiyyətləri layiqincə qiymətləndirirdi. Ona görə də bu generalların hər birinin fəaliyyəti haqqında geniş danışmaq mümkündür və onların hər birinin Cümhuriyyət ordusundakı fəaliyyəti ayrıca tədqiqita mövzusuna çevrilməsinə layiqdir. Səməd bəy Mehmandarovun özü böyük hərbçi olduğu kimi onun ətrafına toplaşanların da hər biri hərb ulduzu idi. Cümhuriyyət ordusunun dəyərli tərəflərindən biri də bu idi ki, bu ordu güclü şəxsiyyətlər ordusu idi.

General İbrahim ağa Usubov da Səməd bəyin ətoafında sayrışan parlaq ulduzlardan biri idi. Son dərəcə işgüzar, böyük təşkilatçılıq qabiliyyətinə malik

zabit olan İ.Usubov Səməd bəy Mehmandarovun hörmət və ehtiramını qazanmış bir şəxs idi. Port-Artur döyüşlərində iştirak etdiyindən Səməd bəylə həmin illərdə görüşdüyü və tanış olduğu şübhəsizdir. Onun Azərbaycan ordusuna gəlişi türk qüvvələrinin Azərbaycanda olduğu dövrə təsadüf edir. Bəzi ədəbiyyatda İ.Usubovun 1919-cu ildə general rütbəsinə layiq görüldüyü yazılsa da Azərbaycan korpusunun tərkibində olarkən o artıq general idi. Nuru paşanın 1918-ci il avqustun 13-də Azərbaycan korpusunu ləğv etməsi və onun yenidən qurulması ilə bağlı bir-sıra zabitlər yeni vəzifələrə təyin edilmişdilər. Həmin zabitlərin arasında general İ.Usubovun da adı vardır. Güman etmək olar ki, İ.Usubov da general rütbəsinə istiqlaliyyətin elan edildiyi ilk aylarda Azərbaycan Cümhuriyyəti hökumətinin qərarı ilə layiq görülmüşdü.

Səməd bəy Mehmandarovun əmri ilə 1918-ci il noyabr ayının 15-də Ümumi qərargah təşkil ediləndə general Usubov da bu qərargaha daxil edilmişdi. O, Ümumi qərargahdakı hərbi-təhsil müəssisələri şöbəsinin rəisi olmaqla yanaşı həm də qoşunlarda atıcılıq işinin müfəttişi təyin edilmişdi. İ.Usubov sadəcə təftişlə məşğul olmalı deyildi. O bütün qoşun hissələrində döyüş hazırlığının tərkib hissəsi olan atıcılıq işinin təşkilini öz üzərinə götürməli idi. Hərbi-təhsil müəəssisələrinə gəlincə Səməd bəy bu sahəyə çox diqqət yetirirdi və adı çəkilən əmrdə o, Usubova tapşırırdı ki, yeni hərbi-təhsil müəssisələrinin açılması barədə öz mülahizə və təkliflərini Nazirliyin rəhbərlyinə təqdim etsin. Məlumdur ki, türk qoşunları Azərbaycanı tərk etdikdən sonra Gəncədə açılmış olan Milli hərbiyyə (Podpraporşiklər) məktəbinin statusu qaldırılaraq Praporşiklər məktəbinə çevrildi. Bu hərbi təhsil məktəbinin fəaliyyətinin yenidən qurulmasında heç şübhəsiz ki, İ.Usubov da yaxından iştirak etmişdi.

Ancaqİ.Usubov yuxarıda göstərilən vəzifələrdə çox qalmadı. Türk qoşunları Azərbaycanı tərk edəndə o, qərargahı Ağdamda olan 1-ci piyada diviziyasının komandiri təyin edildi. Onun bu vəzifəyə nə vaxt təyin edildiyini dəqiq söyləmək çətindir. Çox güman ki, bu noyabr ayının sonlarında olmuşdu. Çünki ingilis qüvvələri Bakıya 1918-ci il noyabr ayının 17-də daxil olmuşdular. Bakıda olan türk qüvvələri bir-neçə gün Bakı ətrafında dayandıqdan sonra tədricən Gəncəyə çəkildi. Sonra da Qarabağda olan türk qüvvələri 1-ci diviziyanın komandanlığını .Usubova təhvil verərək Gəncəyə çəkildilər. İ.Usubov bu vəzifədə çox qalmadı. Bu da diviziyada baş verən xoşagəlməz hadisə ilə bağlı idi. Həmin hadisə barədə mənbələrdə və tarixi ədəbiyyatda müfəssəl məlumat olmasa da onun mahiyyəti barədə fikir söyləmək olar. Məlumdur ki, ingilis qüvvələri Azərbaycana daxil olanda buradakı türk qüvvələrinin Azərbaycanı tərk etməsini tələb etdilər. Bəzi türk zabitləri Azərbaycan vətəndaşlığını qəbul edərək Azərbaycanda qalmaq və Cümhuriyyət ordusunda xidmətlərini davam etdirmək istəyirdilər. Ancaq ingilislər buna da razı olmadılar. Buna baxmayaraq bir-sıra türk zabitləri müəyyən yollarla Azərbaycanda qala bilmişdilər. Onlardan bir-neçəsi də 1-ci piyada diviziyasında xidmət edirdi. Bu zabitlər türk qoşunlarının Azərbaycanı tərk etməsinə, ingilis qüvvələrinin Azərbaycana gəlməsinə, müstəqil Cümhuriyyət ordusu quruculuğuna qeyri-azərbaycanlı zabitlərin cəlb edilməsinə narazılıq edirdilər və azərbaycanlılar arasında da özlərinə dayaq tapmışdılar. Onlar buna son qoyulmasını tələb edirdilər.

Ola bilsin ki,bu zabitlər belə yolla ingilislərin Azərbaycandan çıxarılacağına, türk qüvvələrinin yenidən Azərbaycana gətiriləcəyinə nail olacaqlarına inanırdılar. 1918-ci ilin sonunda türk zabitlərinin tarixi reallıqla heç cürə səsləşməyən bu fəaliyyətləri Ağdam qanizonunda itaətsizlik halının baş verməsinə gətirib çıxardı. Yuxarıdakı tələblərlə çıxış edən zabitlər hətta İ.Usubovu da həbs edərək onun qarşısında bu tələblərin yerinə yetirilməsi şərtlərini qoymuşdular. Aparılan danışıqların gedişində İ.Usubov itaətsizlik göstərənlərin tələblərini Hərbi Nazirliyə çatdıracağına söz verdikdən sonra həbsdən azad edildi. O doğrudan da yaranmış vəziyyətdə dərhal Hərbi Nazirliyə məlumat verdi və S.Mehmandarov da dərhal bu hadisənin qarşısının alınması üçün qətiyətli tədbirlər həyata keçirdi.

Bu hadisədən sonra Səməd bəy Mehmandarov İ.Usubovun 1-ci piyada diviziyasında qalmasını məqsədəuyğun bilmədi və onu yenidən Hərbi Nazirliyə gətirdi. İ.Usubov Hərbi Nazirlikdə tapşırıq generalı vəzifəsinə təyin edildi. Bu heç də İ.Usubova etimadsızlıq göstərilməsi demək deyildi. Zabit xidmətinə qarşı çox sərt tələblər irəli sürən S.Mehmandarov heç şübhəsiz ki, həmin itaətsizlik hadisəsinin baş verməsində İ.Usubovu təqsirkar bilmirdi. Yoxsa ona digər məsul vəzifələr də tapşırılmazdı.

Tapşırıq generalı kimi İ.Usubov qoşun hissələrinin formalaşmasında yaxından iştirak edir, hissələrdə mövcud olan vəziyyətin daha da yaxşılaşdırılması üçün tövsiyyə və təkliflərini irəli sürürdü. Nazirliyin rəhbərliyi tərəfindən o, müxtəlif hisələrə ezam olunurdu və sonra da o, müşahidə etdikləri barədə S.Mehmandarova müfəssəl raport təqdim edirdi. 1919-cu il mart ayının 16-da S.Mehmandarov İ.Usubovun 3-cü Gəncə piyada alyında gördüklərini ümumiləşdirərək əmr şəklində bütün qoşun hissələrinə çatdırdı. İ.Usubov Gəncə alayında təlim-tərbiyənin çox zəif təşkil olunduğunun şahidi olmuşdu. Dərslər sistemsiz keçirilirdi. Heç bir proqram yox idi, aparılan dərslər isə dövrün tələblərinə cavab vermirdi. Zabitlər türk nizamnamələrinin köhnəlmiş müddəalarından hələ də əl çəkməmişdilər. Yəni onlar sıra hazırlığı keçməklə öz vəzifələrini əsasən bitmiş hesab edirdilər. Bu zaman da yalnız addımlama, dönmə və əsgəri salam vermə hərəkətlərinə diqqət yetirilirdi. Sırada intizamın olmasına fikir verilmirdi.

Hissədə olan əsgərlərin bir-çoxu isə səhhətinə görə xidməti aparmaq qabiliyyətinə malik deyildi. Hərbi nazir S.Mehmandarov bunu çağırış işi ilə məşğul olan məsul şəxslərin günahı bilirdi və onları xəbərdar edirdi ki, belə hallar təkrar olunursa xəstə əsgərlər geriyə günahkar şəxslərin vəsaiti hesabına göndəriləcəkdir.

Gəncə alayında silah və sursat saxlanılması da qənaətbəxş səviyyədə deyildi. Bu hal İ.Usubovu xüsusilə təəccübləndirmişdi. Piyada alayının əsas silahı olan tüfənglərin çoxu, habelə xeyli sayda döyüş gülləsi paslanmışdı. Əsgərlərin atəş hazırlığı da aşağı səviyyədə idi. Bu da daha çox təlim patronlarının olmaması ilə bağlı idi. Ona görə atış üzrə təmrinlər də vaxtlı-vaxtında yerinə yetirilmirdi.

İ.Usubovun qənaətinə görə Gəncə alayında məişət şəraiti də xoşagəlməz vəziyyətdə idi. Əsgərlər üçün bişirilən çörək aşağı keyfiyyətdə idi. Çörəyin bişirilməsi üçün hissəyə gətirilən un da keyfiyyətcə xeyli aşağı idi. Onun

tərkibində qatışıqlar var idi və bu qatışıqlar 40 faizə çatırdı. Yeməyin bişirilməsi üçün alınan ət də orta tələblərə cavab vermirdi. Hissənin geyimlə təminatı da qənaətbəxş deyildi. Əsgərlərin çoxu öz şəxsi geyimlərində gəzirdilər.

Bu vəziyyəti öz əmri ilə hissə komandirlərinə çatdıran hərbi nazir S.Mehmandarov onlardan tələb edirdi ki, mövcud vəziyyətin yaxşılaşdırılması üçün çiyinlərinə düşən vəzifələr yerinə yetirsinlər.

1919-cu il iyul ayının 19-da İ.Usubov yenidən məsul bir vəzifəyə təyin edildi. Həmin vaxta qədər Azərbaycanda bir piyada diviziyası var idi. Təşkil edilən piyada alaylarının sayı çoxaldığı üçün Hərbi Nazirlik qərara aldı ki, 2-ci piyada diviziyası da təşkil edilsin və 4-cü Quba piyada alayı ilə 5-ci Bakı piyada alayları 2-ci piyada diviziyasının tərkibinə verilsin. Az sonra 6-cı Göyçay piyada alayı da 2-ci piyada diviziyasının tərkibinə verildi. O, Cümhuriyyət ordusunun süqutuna qədər bu vəzifənin icrasında qaldı.

2-ci piyada diviziyasının təşkili bir tərəfdən idarəetmənin təkmilləşdirilməsi ilə bağlı idisə, digər tərəfdən də şimal sərhədlərinin və Bakı ətrafının müdafiəsinin gücləndirilməsi ilə bağlı idi. Çünki bu istiqamətdə 2-ci diviziyanın hissələri yerləşmişdilər və müdafiə işlərinin əsas ağırlığı da onların üzərinə düşmüşdü. Qeyd etmək lazımdır ki, şimal sərhədlərinin müdafiəsi üçün yaradılmışolan Xaçmaz dəstəsinə də bir müddət İ.Usubov rəhbərlik etmişdi. Bu dəstənin thərkibinə Quba piyada alayı, 3-cü Gəncə piyada alayının bir taboru, 1-ci Tatar süvari alayı, 1-ci Topçu briqadasıınn 2-ci batareyası, istehkam məktəbinin şəxsi heyəti daxil idi.

İ.Usubov qərargahı Bakıda yerləşən 2-ci piyada diviziyasının komandirliyinə iyul ayının 19-da təyin edilsə də həmin vəzifənin icrasına bir də avqust ayının 9-da başladı. Görünür şimalda vəziyyətin mürəkkəb olması onun Bakıya dönməsinə mane olmuşdu. Hərbi nazir avqust ayının 3-də imzaladığı başqa bir əmrində göstərirdi ki, İ.Usubov Xaçmaz dəstəsinə rəhbərliyi Quba alayının komandiri polkovnik Ş.Kəsəmənliyə təhvil verməli və Bakıya qayıtmalıdır. İ.Usubov belə də etdi və avqustun 9-da diviziya daxili əmrdə özünün yeni vəzifəsinin icrasına başladığını elan etdi. İ.Usubovun yeni vəzifəyə təyin edilməsi ilə 1-ci Tatar süvari alayı Xaçmaz dəstəsinin tərkibindən çıxdı. Ona görə də şimal sərhəddinin və Bakı ətrafının möhkəmləndirilməsi üçün İ.Usubov həm 6-cı piyada alayının tezliklə formalaşmasını diqət altında saxlayır, həm də diviziyanın döyüş qüdrətinin artırılması üçün başqa imkanlardan istifadə etməyə çalışırdı. Məsələn, onun qaldırdığı vəsatət əsasında Səməd bəy Mehmandarov 1-ci opçu briqadasının 2-ci yüngül batareyasını 1919-cu il avqust ayının 20-dən 2-ci diviziyanın əməliyyat tabeliyinə verdi. Elə həmin günlərdə 2-ci Zaqatala piyada alayının 1-ci taboru da 640 nəfər şəxsi heyətlə 2-ci diviziyaya verildi.

İ.Usubov diviziyada nizam-intizamın saxlanılmasına, hissələrdə döyüş ruhunun formalaşmasına ciddi fikir verirdi. Bunun üçün bir tərəfdən o, əsgər və zabitlərin teatr və kinoya getməsin. şərait yaratmağa çalışırdı. Bu xüsusən Bakıda yerləşən hissə və bölmələrə aid idi. Qeyd etmək lazımdır ki, şəhərdə olan mədəniyyət obyektləri , xüsusən də Mayılov teatrının kollektivi milli ordunun əsgər və zabitlərinin teatr tamaşalarına gəlməsi üçün güzəştlərə də gedirdilər.

Bölmə və hissələrdə bəzən bundan sui istifadə də edirdilər və teatra gələn əsgərlə özlərini intizamlı aparmırdılar. Ona görə də İ.Usubov tələb edirdi ki, əvvəla əsgərlər teatr və kinoya tək-tək buraxılmasınlar. Onlar ən azı beş nəfərlik qrupla bu obyektlərə gedə bilərdilər. Əsgərlərn sayı beş nəfərdən çox olanda isə onlara bir zabit rəhbər təyin edilməli idi.

İ.Usubov onu da tələb edirdi ki, diviziyanın tərkibinə daxil olan hissələrn komandirlər diviziya rəhbərliyinin xəbəri olmadan Hərbi Nazirliyə müraciət etmə hallarına son qoysunlar və vəzifə subordinasiyasına riayət etsinlər. O, hissə komandirlərinə tapşırırdı ki, təlim-tərbiyə prosesi qoşun hissələrinin formalaşması ilə bağlı olan bütün suallar diviziya komandirliyi qarşısında qaldırılsın və diviziya komandirliyi həmin sualların həllinə gücü çatmadıqda özü onları Hərbi Nazirliyə çatdırsın. İ.Usubov bildirirdi ki, hissələrin formalaşması üzrə müəyyən edilmiş formada vaxtaşırı olaraq hazırlanan hesabatlar birbaşa Hərbi Nazirliyə göndərilə bilər. Bundan başqa diviziya komandirinin fikrincə hissə komandirləri yalnız xüsusi hallarda , həlli vaxt gözləməyən məsələlərlə bağlı Hərbi Nazirliyə təqdim etdikləri raportun bir nüsxəsini də diviziya komandanlığına təqdim etməli idilər.

Hissələrdə mövcud olan silah, sursat aə texnikanın daha yaxşı mühafizəsi üçün İ.Usubov göstəriş vermişdi ki,hər ayın 4-də bütün hissələrdə silah, sursat və texnikanın vəziyyətini öyrənəc komissiya təşkil edilsin və həmin komissiyanın apardığı yoxlamaların nəticələri aktlaşdırılaraq ayın 10-da diviziya komandirinə təqdim edilsin.

Şimal sərhədlərinin habelə Bakı ətrafının müdafiəsinin gücləndirilməsi Hərbi Nazirliyin rəhbərliyinin ciddi nəzarəti altında idi. Bu istiqamətdə xeyli işlər görülmüşdü. 2-ci diviziyanın komandiri kimi general-mayor İ.Usubov da Bakının şimaldan müdafiəsi sisteminin qurulması üçün öz mülahizə və təkliflərini hazırlayaraq Hərbi Nazirliyə təqdim etmişdi Bu mülahizələr şimaldan ehtimal olunan təhlükənin qarşısının alınması üçün ölkə ərazilərinin dərinliklərində müdafiə sisteminin təşkil edilməsi ilə bağlı idi.

Ölkənin şimalında möucud olan hərbi şəraiti təhlil etdikdən sonra general İ.Usubov belə bir qənaətə gəlmişdi ki, Denikinin rəhbərlik etdiyi könüllü ordu Bakıya doğru üz tutsaydı üç əməliyyat istiqamətində hərəkət edə bilərdi. Dərbənd-Quba şosse yolu ilə, Petrovsk-Bakı dəmir yolu xətti boyunca, bir də Xəzər sahili boyunca Dərbənddən Bakıya gələn yolla.

İ.Usubovun fikrincə Dərbənd-Quba şosse yolu Qubada qurtardığından Denikin qoşunları bu yolu seçməzdilər və kiçik bir şəhər olan Qubanın işğalına xüsusi bir əhəmiyyət verməzdilər. Yəni əsas məqsəd Bakının işğalı olduğu bir vaxtda denikinçilər təkcə Qubanın işğalı ilə kifayətlənməzdilər. Ancaq İ.Usubov onu da nəzərdən qaçırmırdı ki, təcavüzün başlandığı vaxt Quba müqavimət mərkəzinə çevrilə və burada yerli əhalinin partizan dəstələri yaradıla bilərdi. Ona görə Denikin qoşunlarının bu şəhəri işğal edəcəyini və bununla da özlərinin sağ cinahlarının təhlükəsizliyini təmin edəcəklərini də istisna etmək olmazdı.

İ.Usubovun qənaətinə görə ikinci istiqamət, yəni dəmir yolu xətti boyunca hərəkət daha real bir variant idi və Bakıya aparan ən qısa yol olduğu üçün Denikin qoşunlarının da məhz bu yolla hərəkət edəcəyini real saymaq olardı.

Üçüncü variantı da İ.Usubov real saymırdı. Çünki dənizqırağı qumluq sahələrlə böyük qüvvələrin hərəkət etməsi xeyli çətin idi. Özü də bu sahə ilə yalnız piyada qüvvələri hərəkt edə bilərdilər. Digər qüvvələrin bu yolla getməsi mümkünsüz idi.

General Usubov müdafiə sistemini dağ sıraları ilə Samur çayı arasında yerləşdirilməsini və müdafiə işində cinahların verdiyi təbii üstünlükləri də istifadə etməyi məqsədəuyğun bilirdi. Onun fikrincə ilk təbii müdafiə xətti Samur çayı idi. Ancaq bu çayın o biri sahilində düşmən yerləşdiyindən, digər kənarı isə bataqlıq olduğundan orada topların yerləşdirilməsi mümkün deyildi. General Usubov düşmənin qatarla hərəkət edəcəyi təqdirdə Samur çayı üzərindəki körpünün partladılmasını da vacib sayırdı. Ona görə o qed edirdi ki, həmin körpünün partladılması üçün vaxtında hazırlıq işləri aparılmalıdır.

Sonra Usubov Xəzri-Ləcət xətti üzrə müdafiə xəttinin qurulmasını təklif edirdi. Bu xətt üzrə aşağıdakı istiqaətlərdə müdafiə sistemlərinin yaradılması məqsədəuyğun sayılırdı: 1) Xəzri müdafiə mövqeləri- Seyidli kəndindən, Ləcət dəmir yolu stansiyasından, Xəzri kəndindən və Şirvanlı qəsəbəsindən keçib dənizə qədər uzanmalı idi. 2)Sarvanlı müdafiə mövqeləri- Meytablı, Bur-Bur, Kamallı kəndlərindən keçib Şirvanşali kəndinə qədər uzanmalı idi. 3) Hilhil müdafiə mövqeləri isə Kelanı kəndi, Hilhil dəmir yolu kəsişməsi və Əlixanlı kəndi boyunca uzanmalı idi. Dəmir yolu xəttinin özününü müdafiəsinə gəlincə isə İ.Usubov təklif edirdi ki, bu xəttin hər iki tərəfində səngərlər qazılsın, həmin səngərlərə piyadalar və istehkamçılar yerləşdirilsin, pulemyotlar qoyulsun. Zərurət yarananda istehkamçılar tərəfindən dəmir yolu partladılsın. Buna nail olunmadıqda isə istehkamçılar dəmir yolu xəttinin sökülməsinə hazır olmalı idilər.

Bunlardan başqa İ.Usubov dənizdən piyada qüvvələr çıxarılmasınınq təhlükəsini də istisna etmirdi. Onun fikrincə belə təhlükənin qarşısının alınması üçün çevik qrupların yaradılması yaxşı olardı. Zərurət yarandıqda dəmir yolu ilə bu qruplar istənilən məntəqəyə atıla bilərdi. Şimaldan təcavüz reallaşdıqda düşmənin qarşısının alınması üçün diviziyanın tərkibində aşağıdakı qüvvələr fəaliyyət göstərməli idilər; 4-cü Quba piyada alayı, 5-ci Bakı piyada alayı, 3-cü Gəncə piyad alayından bir yığma tabor, zirehli qatar, iki topçu batareyası, 5-6 minlik partizan dəstəsi. Həmin qüvvələrin qarşısına general Usubov aşağıdakı vəzifələrin qoyulacağını planlaşdırırdı; 1)Zaqataladan olan partizanların Dağıstan ərazisinə daxil olacağı və Axtı yaşayış məntəqəsinin nəzarət altına alınacağı nəzərdə tutulurdu. Bununla sərhəd xətti boyu təhlükəsizlik zonası genişləndirilir və həm də Könüllü ordunun arxasında təhlükə yaradılırdı. 2)Nuxa qəzasından köməyə gəlmiş partizanlar da Dağıstan ərazisinə keçməli idilər. Onlar da buradakı fəaliyyətləri ilə Könüllü orduya təsir göstərməli və onun arxa ilə əlaqələrinin kəsilməsinə çalışmalı idi. 3)Quba partizanları isə yerlişəraiə daha yaxşı bələd olan qüvvələr kimi həm kəşfiyyat işlərində iştirak etməli, cinahların təhlükəsizliyini təmin etməli, dəniz sahilini müşahidə etməli, Nizovaya limanı ilə Qızıl Burunu nəzarət altında saxlamalı idi.

Diviziyanın nizami qüvələrinə gəlincə isə 4-cü Quba piyada alayı ilə Gəncə

piyada alayının diviziyanın ehtiyat qüvvəsi kimi Xaçmasa və Xudata gətirilməsi nəzərdə tutulurdu. 1-ci Tatar süvari alayı düşmənin hücumu başlanana kimi yalnız kəşfiyyatla məşğul olmalı, hücum başlanandan sonra siə düşmənin cinahlarına və arxasına zərbə endirmək tapşırığı almalı idi. General İ.Usubov Bakı alayının partizanlarla, pulemyotlarla və topçu taqımı ilə möhkəmləndirilmiş bir bölüyünü çevik ehtiyat qüvvəsi kimi Xaçmaz və Qızıl Burun stansiyalarında saxlamağı planlaşdırırdı. Nəhayət zirehli qatar təcavüz başlanan anda Samur körpüsünə doğru irəliləyib düşmənin qarşısını saxlamağa çalışmalı idi.

General İ.Usubov hazırladığı müdafiə planının lazım olan anda əməli icrası üçün hissələrin döyüş hazırlığını, məntəqələrdə aparılan istehkam işlərini daim nəzarət altında saxlayırdı. Onun bu sahədəki fəaliyyəti Hərbi Nazirliyin şimal sərhəd xəttinin və Bakı həndəvərinin müdafiəsi üçün həyata keçirdiyi tədbirlərin tərkib hissəsi idi və bu işlərin kifayət qədər səmərəli aparılmasının nəticəsi idi ki, Könülü ordu qüvvələri Azərbaycan sərhədini pozmağa cəsarət etmədi.

1919-cu il sentyabr ayının 23-dən başlayaraq general-mayor İ.Usubova daha bir məsuliyyətli tapşırıq həvalə edildi. Cümhuriyyət ordusunun şəxsi heyətinin geyimlə təchizatının daha da yaxşılaşdırılması üçün Hərbi Nazirlik İtaliyaya nümayəndə heyəti göndərməyi qərara aldı. Bu nümayəndə heyəti İtaliyanın hökumət qurumları ilə, sənaye müəssisələri ilə danışıqlar apararaq Cümhuriyyət ordusunun şəxsi heyətinə pal-paltar əldə etməyə çalışmalı idi. Ölkə daxilində ordunun paltarla qısa müddət ərzində təmin etmək imkanı olmadığı üçün Hərbi Nazirlik hökumətin razılığı ilə kənar mənbələrdən də istifadə etməyi məqsədəuyğun bilirdi. Ancaq Hərbi Nazirliyin rəhbərliyi onu da yaxşı bilirdi ki, bu missiya ağır bir missiyadır və onun yerinə yetirilməsi heç də asan olmayacaqdır. İtaliyada aparılan danışıqların gedişi də bu gümanları təsdiq etdi. Ona görə də nümayəndə heyətinə savadlı, dünyagörüşlü bir hərbçinin təyin edilməsi lazım bilindi. İ.Usubov da məhz bu nümayəndə heyətinin rəhbəri təyin edilmişdi. Komissiyanın tərkibində Hərbi Nazirliyin Ləvazimat idarəsinin, habelə Yollar Nazirliyinin nümayəndələri də var idi. S.Mehmandarov İ.Usubovun qarşısına belə bir tapşırıq qoymuşdu ki, İtaliyanın Soloniki şəhərinə yollanıb Cümhuriyyət ordusu üçün zəruri olan topçu, istehkam, tibb, geyim və s. ləvazimatların əldə edilməsi üçün danışıqlar aparsın. Ancaq Səməd bəy Mehmandarov ilk növbədə ordu üçün pal-paltarın alınmasını və digər işlərin görülüb qurtarmasını gözləmədən həmin pal-paltarın dərhal Batuma yola salınmasını zəruri sayırdı. Ordu üçün alınması nəzərdə tutulan pal-paltarın 25 min komplekt miqdarında olması planlaşdırılırdı.

Genearl-mayor İ.Usubovun rəhbərlik etdiyi komissiya 1919-cu il oktyabr ayının əvvəllərində Batumdan gəmi ilə İtaliyanın Soloniki şəhərinə gəldi. O, ingilis qoşunlarının vaxtı ilə burada yerləşmiş böyük paltar anbarları ilə əlaqə saxladı və onlardan paltar almağın mümkünlüyü ilə maraqlandı. Məlum oldu ki, Antanta komandanlığı buradakı paltar ehtiyatlarını rumın, çex və polyak qüvvələrinə paylayıb. Həmin qüvvələrin əlində qalan paltar ehtiyatları isə az miqdarda olduğundan general Usubov və rəhbərlik etdiyi komissiya oktyabrın 20-də Romaya gəldi. O burada İtaliyanın hərbi nazirliyi ilə əlaqə saxladı və

Cümhuriyyət ordusu üçün zəruri olan əşyaların siyahısını Nazirliyə təqdim etdi. Bundan başqa İ.Usubov Genuya və Turin şəhərlərində olan paltar kompaniyaları ilə əlaqə saxladı. İtaliyanın Hərbi Nazirliyi İ.Usubovun müraciətinə baxdıqdan sonra rəsmi orqanlar səviyyəsində Azərbaycan tərəfi ilə əlaqə yaradılmasını mümkünsüz saydı. Belə olanda İ.Usubov və rəhbərlik etdiyi heyətin üzvləri şəxsi kompaniyalarla danışıqları davam etdirdilər. Noyabr ayının 10-dan sonra Genuya, Milan, Turin, Verona və Triento şəhərlərində olan tikiş müəssisələri ilə danışıqlar aparıldı. Ancaq nümayəndə heyəti bu şəhərlərdə də lazım olan əşyaları əldə edə bilmədi. Yalnız Kiono, Qella və Ko. yoldaşlığı ilə aparılan danışıqlar ümidedici nəticələr verdi. Bu kompaniyanın anbarlarında 25 min dəst münasib paltar var idi. Komissiya həmin paltardan 20 min dəst seçib götürdü. Kompaniyanın rəhbərliyi söz verdi ki, bir-neçə gün ərzində qalan 5 min dəst paltarı da tikib hazır edəcəkdir. Kompaniya eyni zamanda generallar və zabitlər üçün də 500 dəst paltar hazırlamağa söz verirdi. 1919-cu il noyabr ayının 23-də Azərbaycandan olan komissiya ilə İtaliya kompaniyası arasında müqavilə imzalandı. Müqavilədə Azərbaycan tərəfinə 25 min dəst paltarın satılması nəzərdə tutulmuşdu. Azərbaycan tərəfindən bu müqavilədəni general-mayor İ.Usubovla bərabər məmur Xanbudaqov imzaladı. Müqaviləyə görə kompaniya 1919-cu il dekabrın 20-də nəzərdə tutulan əşyaları gəmilərlə Turindən Batuma yola salmalı idi. Ancaq bu mümkün olmadı. Çünki adı çəkilən kompaniyada sosialistlər güclü təsirə malik idilər. Onlar keçmiş çar Rusiyasının bütün ərazisini Sovet Rusiyasının ərazisi kimi qəbul edir və müstəqilliyini elan etmiş respublikaları Sovet Rusiyasının düşməni hesab edirdilər. Sosialistlərin təsiri altında olan fəhlələr kompaniyanın rəhbərliyindən tələb edirdilər ki, Sovet Rusiyasının daxili işinə qarışmasın və Sovet Rusiyasına düşmən olan qüvvələrə, yeni müstəqilliyinielan etmiş Azərbaycan Cümhuriyyətinə kömək etməsin. Öz tələblərində kəskin mövqe tutan fəhlələr Azərbaycana göndərilməli olan yükləri həbs edərək onun yola salınmasını xeyli ləngitmişdilər.

Vəziyyət belə olanda İ.Usubov danışıqları dayandırıb vətənə yola düşdü və 1920-ci ilin fevral ayında Bakıya çatdı.

Bununla belə İ.Usubovun imzaladığı müqaviləyə əsasən nəzərdə tutulan əşyaların bir müddət sonra Azərbaycana göndərilməsinə başlandı. Ancaq həmin əşyalar Azərbaycana bolşevik çevrilişi ərəfəsində çatdığından onlar Qırmızı ordunun sərəncamına keçdi.

Hərbi nazir S.Mehmandarovun əmri ilə general İ.Usubov 1920-ci il fevral ayının 17-dən İtaliyaya ezamiyyətdən qayıtmış hesab olunurdu. O, 2-ci diviziyanın komandiri saxlanılmaqla bərabər həm də Bakı İstehkamat hissəsinin rəisi təyin edildi. Bununla da Bakının ətrafının müdafiəsinin təşkili də İ.Usubova həvalə olundu.

Elə fevral ayının 25-də Dövlət Müdafiə Komitəsi Bakı İstehkamat hissəsinə zəruri müdafiə işlərinin aparılması üçün 14 milyon rub vəsait ayırdı. Bu vəsait İ.Usubovun rəhbərliyi altında mühəndis-istehkam işlərinin aparılmasına sərf edilməli idi.

1920-ci ilin əvvəllərində Azərbaycanın ərazi bütövlüyünə qarşı daha real

təhlükə bolşevik Rusiyası tərəfindən gcülənməkdə idi. Bolşevik qoşunları Denikin qoşunlarına güclü zərbələr endirərək Azərbaycan sərhəddinə yaxınlaşdıqca ölkə daxilində də bolşevik qüvvələri fəallaşmaqda idilər. Bu təhlükənin qarşısının alınması, Bakı qarnizonu hissələrinin döyüş hazırlığının qaldırılması üçün general İ.Usubovun Bakı İstehkamat hissəsinin rəisi kimi xüsusi bir əmri var idi. 1920-ci il martın 12-də imzalanmış həmin məxfi əmrin mətni aşağıdakı kimi idi:

«Həyəcan yaranacağı və şəhərdə asayişin pozulap biləcəyi vəziyyətdə dərhal aşağıdakı tədbirlərin həyata keçirilməsini əmr edirəm:

1. «Rüstəm» zirehli avtomobili Hərbiyyə məktəbinin həyətində dayansın.

2.«Zöhrab» zirehli avtomobili İstehkamat hissəsinin (rayonunun-M.S.) qərargahının həyətində dayansın.

3.«Astrabad» və «Pirallahı» hərbi gəmiləri həmişə hərəkətə hazır olsun.

4.Ticarət limanının rəisi rabitə üçün Şıx və Zığa iki barkas təyin etsin.

5. 2-ci topçu briqadasının 1-ci yüngül batareyasının himayəsi üçün pulemyot məktəbindən bir taqım ayrılsın.

6.Hər alay və batareyadan Bakı İstehkamat hissəsinin qərargahına bir atlı çapar göndərilsin.

7.Qarovulu qəbul edən əsgərlərə 120 patron verilsin və onlar ciddi nəzarət altında sonrakı növbəyə təhvil verilsin.

8.Qərargah və idarələrin mühafizəsi üçün onların bütün komandaları silahlandırılsın və həmin komandalardan qarovul təyin edilsin.

9.Bir daha təkrar edirəm ki,hər bir hissədə 7 günlük ərzaq və ət ehtiyatı olmalıdır.

B. Şəhərdə həyəcan siqnalı veriləndə qarnizon hissələri aşağıdakı vəziyyətdə olmalıdırlar:

1. 6-cı Göyçay piyada alayı öz qışlalarında qalaraq tam döyüş hazırlığı vəziyyətində olmalı və mənim sərəncamlarımı gözləməlidir.

2.Hərbiyyə məktəbi 2 pulemyotla və «Rüstəm» zirehli avtomobili ilə məktəbin özündə tam döyüş hazırlığı vəziyyətində olmalıdır.

3.Çağırış olarsa İstehkam məktəbi dərhal bir bölük yarımla hökumət binasını mühafizə etməli, bir bölük yarım isə şəhər bağına gələrək bu ərazidə yerləşən hərbi nazirin, hərbi nazirin müavininin, baş nazirin və nazirliklərin mühafizəsini gücləndirməlidirlər.

4.«Perley» zirehli avtomobili hökumət binası qarşısında dayanmalıdır. İstehkam məktəbinin komandiri polkovnik Bekovu bu ərazinin rəisi təyin edirəm.

5Parlament mühafizə dəstəsi parlamentin binasını mühafizə etməli, qarnizon qauptvaxtının qarovuluna kömək verməli, parlament ətrafındakı ərazini patrul altına almalıdır. Podpolkovnik Əliyevi bu ərazinin rəisi təyin edirəm.

6. 2-ci Topçu briqadasının 1-ci yüngül batareyası öz parkı ilə birlikdə mənim təyin etdiyim əraziyə köçməlidir.Bayıl rayonuna rəis-polkovnik Sultanovu təyin edirəm.

7. Dağ-süvari batareyası pulemyot məktəbi ilə birlikdə mənim göstərdiyim məntəqəyə gəlməlidirlər. Bu rayonun rəisi podpolkovnik Dunin-Marsinkeviçi təyin edirəm.

8.Mövqe batareyaları tam döyüş hazırlığı vəziyyətində olmalı və mövqe rayonunun sektorlarını ciddi müşahidə altında saxlamalıdırlar.

9. «Astrabad» və «Pirallahı» hərbi gəmiləri 20-ci liman körpüsünə yan almalıdır. Hər iki gəmiyə ümumi rəhbərliyi «Astrabad» gəmisinin komandiri, baş leytenant Kitabçızadəyə həvalə edirəm.

10. 1-ci zirehli qatar Bakı və Kişlə arasında hərəkət etməlidir.

11.Qarnizon hissələrində silah və sursat anbarlarının mühafizəsi gücləndirilməli və hissələrin yerləşdiyi əraziyə sutkalıq patrullar təyin edilməlidir.

12.Hissə və sahə komandirləri texniki rabitədən başqa İstehkamat hissəsinin qərargahı ilə canlı əlaqə yaratmalı və ora bir süvari çapar göndərməlidir. Təcili məlumatlar bu əmr alındıqdan sonra iki saatdan bir, tək saatlarında göndərilməlidir.

13.Yalnız mənim tərəfimdən verilən əmrlər icra edilməlidir. Mən İstehkamat hissəsinin qərargahında olacağam.

14.Müavinlərim-general-mayor Makeyev, polkovnik Şıxlinski və polkovnik Sultanovdur».

1920-ci il aprel ayının əvvəllərində Səməd bəy Mehmandarov xəstəliyi ilə əlaqədar bir müddət xidmət başındap olmadı. Həmin vaxt həm nazir müavini Ə.Şıxlinski, həm də Ümumordu qərargahı rəisi H.Səlimov xidməti ezamiyyətdə olduqlarından nazir vəzifəsini bir-neçə gün İ.Usubov icra etdi. Nazir vəzifəsinin icraçısı kimi İ.Usubovun imzaladığı bir-sıra əmrlər günümüzə qədər gəlib çıxmışdır.

Bu istedadlı hərbçinin Cümhuriyyət ordusunun təşkilində böyük xidmətlər göstərməsi, onun milli mənafelərə dərindən bağlılığı aprel çevrilişindən sonra hakimiyyətə gələn bolşevik qüvvələrinin nəzərindən qaça bilməzdi və ona görə də bir-sıra generallarla bərabər o da yeni quruluşun ilk aylarında güllələnməyə məhkum edildi.

1919-cu ilin sentyabrında general İ.Usubov İtaliyaya ezamiyyətə yola düşəndən sonra 2-ci piyada diviziyasına komandanlıq müvəqqəti olaraq 1-ci piyada diviziyası komandirinin müavini general-mayor Makeyevə tapşırıldı. Bu insanın kimliyi və şəxsiyyəti barədə geniş fikir söyləmək çətindir. Heç şübhəsiz ki, Makeyev general rütbəsini çar Rusiyası ordusu sıralarında almışdı. İşgüzarlığı, hərbi təcrübəsi, həvalə olunan vəzifələrə sədaqəti nəzərə alınaraq o, Cümhuriyyət ordusunda yüksək vəzifələrə təyin olunmuşdu. Bir-neçə ay ərzində 2-ci diviziyaya, habelə Bakı həndəvərinin müdafiəsinə rəhbərlik etməsi də ona Mehmandarov tərəfindən böyük etimad göstərildiyini nümayiş etdirir. General Makeyevin imzası ilə Cümhuriyyət ordusu arxivlərində qalmış sənədlər də onun işgüzarlığından xəbər verir. Bu sənədlər göstərir ki, diviziyanın hissələrinin döyüş hazırlığının qaldırılması knyaz Makeyevin diqqət mərkəzində idi.

1919-cu il oktyabr ayının 15-də imzaladığı əmrində general Makeyev bildirirdi ki, bəzi hissələrdə qaroul xidmətinin təşkilində nöqsanlara yol verilir, qarovula təyin olunan şəxslər öz vəzifələrini bilmirlər, hətta qarovul rəisləri də Qarnizon xidməti nizamnaməsini dərindən bilmirlər. O, hissə komandirlərindən tələb edirdi ki, qarovula təyin olunan zabitlərin bilikləri yoxlanılsın,

nizamnamələrin öyrənilməsi təşkil edilsin və qarovula çıxan hər bir zabit yanında qarnizon xidməti nizamnaməsi gəzdirsin.

Bununla general Makeyev həm hissə komandirləri qarşısında, həm də hissələrin zabitləri qarşısında öz vəzifələrinə məsuliyyətlə yanaşmaq tələbi qoyurdu. Özü də o verdiyi əmrlərir icrasını təkidlə yoxlayır və bununla zabitlərin icraçılıq səviyyəsinin də yüksəyə qaldırılmasına çalışırdı. Başqa bir əmrində yazırdı ki, qarnizon qauptvaxtını yoxladıqdan sonra belə bir qənaətə gəldim ki, verilən şifahi və yazılı əmrlər 6-cı Göyçay piyada alayında yerinə yetirilmir. Qarovul rəisi və qarovula çıxarılan digər şəxslər hələ də öz vəzifələrinə kifayət qədər bələd deyillər. Bu hissədən olan zabit və əsgərlər Nazirlər Şurası sədrinin və hərbi nazirin kabinetlərinin yerləşdikləri binalarda qarovulda dayanırdılar. Ona görə Makeyev tələb edirdi ki, hissələrin şəxsi heyəti belə yerlərdə qarovul xidmətini nümunəvi şəkildə yerinə yetirməlidirlər. Halbuki alayın zabitləri Qarnizon nizamnaməsinin tələblərinə az bələd olduqları kimi əsgərlərin geyimi də çox səliqəsiz idi.

Əsgərlərin şgeyimlərinin səliqəsiz olmasını, döyüş hazırlığının geridə qalmasını general Makeyev əsgərlərin deyil, zabitlərin günahı sayırdı. Bunu onların fəaliyyətinin səmərəliliyinin, təşkilatçılıq səviyyəsinin aşağı olması ilə izah edirdi. Knyaz Makeyev bildirirdi ki, əsgərdən yaxşı xidmət tələb etməzdən əvvəl onun qarnı doyuzdurulmalı, ehtiyacları ödənməli idi. Bu baxımdan onun aşağıdakı bir əmri xarakterikdir: « Bütün vəzifəlilərdən tələb edirəm ki,cani-dildən və səmimanə fəaliyyət göstərsinlər. Sağlamlıq üçün ən zəruri şərt yeməkdir. O, rəhbər şəxslərin xüsusi qayğısı altında olmalıdır. Əsgər hökumət tərəfindən ona ayrılan hər şeyi almalıdır. Mə"dənin ziyanına heç nə qənaət edilməməlidir. Tələb edirəm ki, təsdiq edilmiş normalara əməl edilsin. Mətbəx üzrə növbətçi anbardan iaşə üçün ayrılan bütün əşyaları almalıdır... Yemək güclü, dadlı və rəngarəng olmalıdır.Rəhbər şəxslər tez-tez mətbəxi yoxlamalıdırlar. Əla hazırlanan yemək üçün ayın axırında aşpaza mükafat verilsin. Təkrar edirəm ki, işlər hamı tərəfindən yorulmadan davam etdirilməlidir.Bunun üçün də hər kəs öz işi ilə məşğul olmalı, başqasına tənqidi ilə yox, sözü və əməli ilə kömək etməlidir».

Bu sözləri elə knyaz Makeyevin özü üçün də bir meyar saymaq olar. Usubovun Azərbaycanda olmadığı vaxtda o çox işgüzar bir fəaliyyət göstərmişdi. Elə Makeyev 2-ci diviziyaya rəhbərlik edərkən hərbi nazirin əmri ilə bu diviziyanın qərargahı 1919-cu il noyabrın sonunda Qubaya köçürülmüş, dekabrın əvvəlində isə yenidən Bakıya gətirilmişdi. Bu qərar şimal sərhəddinin müdafiəsinin təşkilinə daha səmərəli rəhbərlik edilməsi ilə bağlı idi. 1919-cu il dekabr ayının 8-dən başlayaraq general Makeyev həm də şimal sərhəddinin müdafiəsi üçün təşkil edilmiş Quba dəstəsinin komandiri təyin edildi.

Diviziyanın döyüş hazırlığının qaldırılması üçün general Makeyevin rəhbərliyi dövründə 5-ci Bakı piyada alayının nəzdində təlim-pulemyot məktəbi açıldı. Burada diviziya komandirinin əmrinə əsasən hər alaydan bir zabit, 2 unter-zabit və 2 əsgər təhsil almalı idi. Sonradan həmin zabit və əsgərlər öz alaylarına qayıdaraq orada təlim-tərbiyənin təşkili ilə məşğul olmalı idi.

General Makeyevin sonrakı taleyi barədə əlavə məlumat vermək çətindir.

Hər halda o aydındır ki, qeyri-azərbaycanlı olmasına baxmayaraq o, müstəqil Azərbaycan ordusunun möhkəmlənməsinə ürəkdən çalışırdı və onun bu keyfiyyəti hərbi nazir S.Mehmandarov tərəfindən yüksək qiymətləndirilirdi. Qeyd etmək lazımdır ki, Cümhuriyyət ordusunda xidmət edən neçə-neçə qeyri-azərbaycanlı kadrlar insani və peşə keyfiyyətlərinə görə S.Mehmandarovun hörmət və ehtiramını qazanmışdılar. Məsələn, Səməd bəy öz əmrlərindən birində Xankəndi əsgər xəstəxanasının həkimi Kutsevin fədakar zəhmətini xüsusilə qeyd edirdi. Bu həkim qarnizonda yolxucu xəstəliklərin yayılmasının qarşısını almaq üçün bütün bacarığını sərf edir, yorulmadan çalışırdı. Hətta özü də səpmə yatalağı xəstəliyinə yoluxan zaman vəzifəsini tərk etməmiş, ondan kömək gözləyən xəstələri tək qoymamışdı. Elə vəzifə başında da yoluxduğu xəstəlikdən Kutsev vəfat etmişdi. Təmənnasız xidmətlərinə görə Səməd bəy Mehmandarov Kutsevin həmişə dərin hörmətlə xatırlanacağını bildirirdi.

1919-cu ilin yayında Şuşada hərbi vəziyyət mürəkəbləşəndə orada yerləşən qoşun bölmələri erməni silahlı dəstələrinə layiqli cavab verdilər. Səməd bəy Mehmandarov əmrlərindən birində qeyd edirdi ki, şəhərin mühafizəsində dayanan və qarovul xidmətini icra edən şəhər qarnizonu öz mövqeyini igidliklə qorudu və tapşırıldan vəzifənin öhdəsindən bacarıqla gəldi. Nazir bu uğurun qazanılmasında 1-ci Cavanşir piyada alayının buradakı birinci taborunun komandiri, ştabs-kapitan Ştollun və bölük komandiri poruçik Yan Kosinskinin fəaliyyətini vəzifə borcunun vicdanlı icrası kimi qiymətləndirir və qorxmazlığı ilə əsgərləri də ruhlandıran bu zabitlərin hər ikisinə səmimi təşəkkürünü çatdırırdı.

Cümhuriyyət ordusunda xidmət edən general-mayor Amaşukelinin ordunu tərk etmək istəməsini də S.Mehmandarov çox böyük təəssüflə qarşılamışdı. Bu generalın fəaliyyətinə Səməd bəy yüksək qiymət verirdi. 3 avqust 1919-cu il tarixli əmrində S.Mehmandarov general Amaşukelinin xidmətinə belə qiymət verirdi : «Təqdim olunmuş vəsatətə əsasən süvari diviziyasının müvəqqəti komandiri, diviziyanın qərargah rəisi general Amaşukeli öz xahişi ilə xidmətdən azad olunur və qoşunların siyahısından çıxarılır. 7 ay əvvəl orduda gərgin quruculuq işləri dövründə xidmətə daxil olmuş general Amaşukeli diviziyanın qərargah rəisi vəzifəsində olmaqla 5 aydan artıq diviziya komandirinin vəzifəsini icra etmişdir. Hərbi işi mahir bilən və onu sevən general Amaşukelinin enerjisi və hərbi xidmətin tələblərinin hissələrdə həyata keçirilməsində xüsusi inadkarlıq göstərən general Amaşukeli işə böyük fayda vermişdir. General Amaşukelidən təəssüflə ayrılarkən ona ordu sıralarında əla və məhsuldar fəaliyyətinə görə səmimi minnətdarlığımı bildirirəm».

General Amaşukeli adları çəkilən vəzifələrin icrasından əlavə bir müddət Gəncə qanizonunun rəisi də olmuşdu. Bu vəzifənin layiqincə yerinə yetirilməsi üçün o, bütün gücünü və bacarığını sərf edir, qarnizon xidmətinin düzgün təşkilini ciddi nəzarət altında saxlamağa çalışırdı.

Yuxarıda qeyd edildiyi kimi Cümhuriyyət ordusunda sonuncu dəfə general-mayor rütbəsinə layiq görülənlər də gürcü zabitləri Karqaleteli və Çxeidze idilər. Ölkədə çox mürəkkəb hərbi-siyasi şərait olduğu bir vaxtda bu zabitlərin general rütbəsinə təqdim edilməsi Səməd bəyin onların fəaliyyətinə verdiyi yüksək

qiymətin nəticəsi idi. Əslində bu zabitlər tutduqları yüksək vəzifələrin icrasında nümayiş etdirdikləri bilik və təşkilatçılıq qabiliyyəti ilə Cümhuriyyət generalı olmağa layiq olduqlarını sübut etmişdilər. Vasili Dimitriyeviç Karqaleteli 1919-cu ilin iyul ayından Baş Ərkani-hərbdə general-kvartirmeyster vəzifəsinə təyin edilmiş və bolşevik işğalına qədər bu vəzifəni icra etmişdi. Konstantin Davıdoviç Çxeidzenin xidmət yolu isə 4-cü Quba piyada alayı və Həbiyyə məktəbi ilə bağlıdır.Polkovnik Çxeidze bir müddət müvəqqəti olaraq Xaçmaz dəstəsinə rəhbərliyi də öz üzərinə götürmüşdü. Sonradan isə Hərbi Nazirliyin rəhbərliyi onun Hərbiyyə məktəbinə rəhbərlik etməsini məqsədəuyğun bilmişdi. Aprel çevrilişini də o bu vəzifədə qarşılamışdı.

Hərbiyyə məktəbini aprel çevrilişi ərəfəsində bitirmiş Əjdər Qurtulan adlı Cümhuriyyət zabiti sonralar Türkiyədə yazmış olduğu xatirələrində çevriliş günün K.Çxeidzenin özünü necə aparması barədə maraqlı qeydlər etmişdi. Həmin xatirələrdən məlum olur ki, general Çxeidze də bolşevik çevrilişini də çox böyük narahatçılıqla qarşılamış və yeni rejimlə barışmaq istəmədiyini bildirmişdi. Çevriliş xəbərini alan kimi dərhal Hərbiyyə məktəbinə gələn Ə.Qurtulan məktəbin rəisinin otağında general Çxeidze ilə görüşünü belə təsvir edirdi: «28 aprel 1920. General Çxeidze ilə onun otağındayıq. Nə qədər yorğun və üzgün olduğumu fərq etmişdi ki, mənə siqaret ikram etdi. Almaqdan çəkindimsə də israr etdi, aldım. Masasına doğru hərəkət edərkən mızıldanırcasına «təhlükəsiz bir işdeyil bu, bilirsənmi» dedi (Çxeidze burada hərbi nazir S.Mehmandarovla görüşmək niyyətini nəzərdə tuturdu- M.S.). Və 2-3 dəfə eyni cümləni təkrarlarkən düşündü: «Fəqət, əcəba, bu təhlükəli vəzifəni başqa birisinə versəydim...» dedi və əlavə etdi: «Siz yerlisiniz, tez tanınarsınız». Halbuki mənim halımdan bütün mövcudiyyətimlə onun əmrlərinə itaət edəcəyim bəlliydi. «Nə bahasına olursa -olsun hərbiyyə naziri, orgeneral Səməd bəy Mehmandarlı ilə təmasa keçmək gərəkdir. Ona hamımızın son damla qanımıza qədər düşmənə qarşı çarpışmağa hazır olduğumuzu ərz edəcək,zabitlərimizin paqonları haqqında əmrini gözlədiyimizi açıqlamalısan». Aldığın əmrləri olduğu kimi əsgəri üsula görə təkrarladım».

Xatirələrinin başqa bir yrində isə Ə.Qurtulan bolşeviklər tərəfindən saxlanılmış olan K.Çxeidze ilə görüşünü təsvir edirdi: « İkinci dəfə Baş qərargaha göndərir məni general Çxeidze. Bu dəfə yalnız gedirəm. Heç bir dəyişiklik olmadığından tez dönürəm məktəbə. Məktəbə gəlir-gəlməz minbaşı Heydər Vəzir mənimlə bərabər leytenant Məhərrəm Sultanoğlunu revkoma (parlament binasında yerləşən İftilal komitəsi) general Çxeidzeni arayıb arzularını öyrənmək üçün göndərdi. Yolda dərdləşə-dərdləşə parlamento binasına gəldik. Toplantı salonunda kiçik bir skamya üzərində başını ovucları içərisinə alıb həzin bir halda oturan məktəb müdirimiz general Çxeidzeni görüb salamlaşdıq. Ayağa qalxıb hər iki əli ilə çiyinlərimizi tutaraq bizi dinlədi və sonra nəsihətlərdə bulundu. Bakının Bayıl bölgəsində pulemyot bölüyü komandanı olan yüzbaşı oğlunun yaxalanmış olduğunu ərz etdik. Azərbaycandan sonra Gürcüstanı, Ermənistanı və bütün Qafqazı rusların təkrar istila edəcəklərini ürək acısıyla anlatdıqdan sonra minbaşı vəzirə «Azərbaycana ölüncəyə qədər sadiq qalacağımı təbliğ etmənizi sizdən rica edirəm»... Bir ata övladlarından necə ayrılarsa o da bizdən ayrıldı».

Qeyd etmək lazımdır ki, bolşevik çevrilişindən sonra general Çxeidze bir müddət Hərbiyyə məktəbinin rəisi vəzifəsini icra etdi. Sonra isə bolşeviklər tərəfindən həbs edilərək güllələndi.

Səməd bəy Mehmandarovun silahdaşlarından və Azərbaycan Xalq Cümhuriyyətinin hərb ulduzlarından biri də general-mayor Teymur bəy Novruzovdur. Hələ çar Rusiyası ordusunda igidliyi və qəhrəmanlığı ilə ən yüksək döyüş ordenlərinə layiq görülən Teymur bəy Cümhuriyyət ordusunda da belə bir şöhrətə və iftixara nail olmuşdu. Teymur bəyin adı nəzərlərdə Azərbaycan süvariliyinin simvolu kimi canlanır və Cümhuriyyət ordusunun tək-tək zabitlərindəndir ki, hələ sağlığında ikən adına əsgəri şərqilər qoşulmuşdu. Teymur bəy Novruzov 1919-cu il yanvar ayının 9-da hərbi nazirin əmri ilə hərbi nazirin yanında tapşırıqlar üzrə qərargah zabiti təyin edilmişdi. Bir müddətdən sonra isə ona 1-ci Tatar süvari alayının komandanlığı tapşırıldı. Bu barədə əmrin nə vaxt verildiyini söyləmək çətindir. Ancaq faktların tutuşdurulmasından güman etmək olar ki, bu, 1919-cu ilin yazında olmuşdu. Azərbaycanın hərb tarixində yaddaqalan izlər buraxmış Tatar süvari alayı T.Novruzovun komandirliyi altında daha da güclənərək döyüşgən bir hissəyə çevrildi. Bu alayın gücü və qüdrəti barədə hətta şərqi də qoşulmuşdu. Həmin şərqidə deyilirdi:

Qafqazın qəhrəman Tatar bölüyü
İntiqam almağı bəkliyor
Qılınc çəkib erməni eşidirkən
Düşmənin ürəyini dağlıyor

Qafqazda yatmadan əsgərimiz
Silahın hərbçilər bağlayır
Hərbçilərə əmrlər verilincə
Əsgərlə şadlığa başlayır

Qafqazı əlinə almaq üçün
Düşmənlər Bakıya gəldilər
Türklər ilə bizim alayımız
Düşməni Bakıda kəsdilər

Qafqaza ayağını basmaq üçün
Denikin Dərbəndə gəliyor
Denikinin adını eşidərkən
Alayımız sərhəddə gözləyir

1919-cu il avqust ayının 3-dən isə polkovnik Teymur bəy Novruzov süvari diviziyasının komandiri idi. Bu vəzifənin öhdəsindən bacarıqla gələn Teymur bəy Azərbaycan hökumətinin qərarı ilə general-mayor rütbəsinə də layiq görülmüşdü. Teymur bəy həm də tabeliyində olanların dərin hörmək və ehtiramını qazanmış,igidliyi ilə onların qoşduğu şərqilərin mövzusuna çevrilmişdi:

Xoş gəldin ey şövkətməab
Əsgərlər sənə eylər salam
Sən əsgərin göz nurusan
Minlər yaşa, Teymur paşa

Xoş gəldiniz, zəhmət çəkib

Alayımızı ucaltdınız
Əsgərlərin vürudu budur
Minlər yaşa, Teymur paşa
Paşalığın mənsəbinin
Vürudu sizə var olsun
Əvəzinizdə biz ölürüz
Minlər yaşa, Teymur paşa

Aprel çevrilişi zamanı cəbhədə olan Teymur paşa bolşeviklərin təqbindən canını qurtararaq ölkəni tərk etmişdi. Mövcud olan məlumatlar göstərir ki, Teymur bəy qürbətdə həmişə Vətən həsrəti ilə yaşamış və Vətəninə yardım göstərməyə daim hazır olmuşdu.

Səməd bəy Mehmandarovun general silahdaşları içərisində Həmid bəy Qaytabaşının, Cavad bəy Şıxlinskinin, Məmməd Mirzə Qacarın, İbrahim ağa Vəkilovun və başqalarının adlarını çəkməmək mümkün deyil. Ancaq nəzərə almaq lazımdır ki, Səməd bəyin bir nazir kimi izlədiyi xətti həyata keçirən yalnız Cümhuriyyət generalları deyildi. Bu işin ağırlığını öz üzərinə götürən və tapşırılan vəzifələrə sədaqətlə yanaşan, güc və bacarıqlarını əsirgəməyən zabitlərin hər biri Səməd bəyin hörmət və ehtiramını qazanmış insanlar idi. Cümhuriyyət ordusunun formalaşmasında və Azərbaycanın ərazi bütövlüyünün qorunmasında onların da özünəməxsus yeri və rolu var idi. Həmin zabitlərdən aşağıdakıların adlarını çəkmək mümkündür:

-Podpolkovnik Mehdi bəy Sultanov- Ləki topçu anbarının rəisi, 8-ci Ağdaş piyada alayının komandiri

-Podpolkovnik İsrafil İsrafilov- 1-ci Cavanşir piyada alayının, sonra isə 5-ci Bakı piyada alayının komandiri

-Podpolkovnik Əhməd bəy Dibirov- 2-ci Zaqatala piyada alayının komandiri

-Podpolkovnik Səməd bəy Rəfibəyov- 1-ci piyada diviziyası komandirinin baş adyutantı, Lənkəran ehtiyat taborunun , sonra isə 7-ci Şirvan pyada alayının və 1-ci Cavanşir piyada alaylarının komandiri

-Polkovnik Sofiyev- 1-ci Cavanşir piyada alyının, 1-ci Tatar süvari alayının komandiri

-Polkovnik Ağalarov- 1-ci Tatar süvari alayının komandiri, Bakı limanının komendantı

-Polkovnik Şirin bəy Kəsəmənli- Praporşiklər məktəbinin rəisi, 4-cü Quba piyada alayının komandiri, 2-ci piyada diviziyası komandirinin müavini

-Polkovnik Rüstəm bəy Şıxlinsi- 1-ci qaubitsa divizionunun komandir müavini, Hərbiyyə məktəbinin rəisi, 2-ci topçu briqadasının komandiri

-Polkovnik Xosrov Mirzə Qacar- 3-cü Şəki süvari alayının komandiri

-Polkovnik Tuqanov- 2-ci Qarabağ süvari alayının komandiri

-Polkovnik Əfəndiyev- 6-cı Göyçay piyada alayının komandiri

-Podpolkovnik Tonqiyev- 1-ci Tatar süvari alayının komandiri

-Podpolkovnik Hüseyn bəy Ququşov- 4-cü Quba piyada alayının komandiri

Adları çəkilən və eləcə də çəkilməyən onlarca, yüzlərcə digər zabitlər Cümhuriyyət ordusunun sütununu təşkil edirdilər. Səməd bəy Mehmandarovun

rəhbərliyi altında Azərbaycan hərbinin şərəfli tarixini yaradan bu insanların şəxsiyyəthi və misilsiz fəaliyyəti daha geniş öyrənilməyə və gələcək nəsillərə çatdırılmağa layiqdir. Bu insanların istək və əməllərinə tapınmaq Azərbaycanda ordu ənənələrinin bərpasında faydalı bir addım olardı.

## S.Mehmandarov və Azərbaycanın müstəqilliyi məsələsi

S.Mehmandarov bütün varlığı ilə Azərbaycanın müstəqilliyini alqışlayan və qorunmasına çalışan bir şəxs idi. Heç şübhəsiz ki, Səməd bəy hərbi nazir təyin ediləndə də bir tərəfdən onun peşəkarlığı, hərbi təcrübəsi və savadı nəzərə alınmışdısa, digər tərəfdən də onun Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyiə olan sədaqəti və bağlılığı nəzərə alınmışdı. Çünki Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi yaxşı bilirdi ki, mövcud tarixi şəraitdə əldə edilmiş müstəqilliyin qorunması üçün güclü ordunun yaradılmasına böyük ehtiyac vardır. Belə bir ordunun rəhbərliyində Azərbaycanın müstəqilliyinə sadiq olan şəxs dayanmasaydı Azərbaycana sədaqətli olan qoşun hissələrinin formalaşdırılmasına da nail olmaq mümkün olmazdı. S.Mehmandarovun Azərbaycanın müstəqilliyinə münasibətdə mövqeyi qəti və aydın olmasaydı hökumət rəhbərliyi tərəfindən tərəddüzsüz Hərbi Nazirliyin rəhbərliyinə təklif edilməzdi. Baxmayaraq ki, Səməd bəy bütün həyatını Azərbaycandan kənarda keçirmişdi və Azərbaycan xalqının milli mənafelərinə qənim kəsilən çar Rusiyası ordusunun sıralarına keçirmişdi. Bununla belə öz xalqını müstəqil görmək onu çox sevindirmişdi və ömrünün öz mənalı səhifələrini də bu müstəqilliyin qorunmasına həsr etmişdi.

S.Mehmandarov ordunun və hərbi qulluqçuların siyasətdən kənar olmasını xidmətin başlıca tələbi sayırdı. Onun özü də həmişə siyasətdən kənar olmağa çalışırdı. Bununla belə Səməd bəy bir-sıra əmrlərində, çıxış və bəyanatlarında Azərbaycanın müstəqilliyinə öz münasibətini bildirmişdi. Bunlar isə onun əqidəsinin bütövlüyünü və saflığını nümayiş etdirirdi. 1918-ci il dekabr ayının 25-də Azərbaycan ordusunun təşkili ilə bağlı xalqa ünvanladığı bəyanatının elə ilk cümlələrindən S.Mehmandarov Azərbaycanın öz müstəqilliyini əldə etdiyini və bu müstəqilliyin qorunması üçün ordu təşkilinə başlandığını bildirirdi. Yəni Səməd bəy belə bir əqidədə idi ki, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi üçün görülməli olan başlıca işlərdən biri ordunun təşkil edilməsidir: «Bu ilin yazından Azərbaycan öz müstəqilliyini əldə etmişdir. Həmin andan ölkəmizin hökumətinin başında dayanan insanların səyləri ölkədə anarxiyanın yol verilməməsinə və hər hansı bir yerdə pozulmuş olan qanunçuluğun bərpasına yönəldilmişdir. Bu məqsədlə digər hökumət tədbirləri ilə bərabər qərara alınmışdı ki, ölkənin silahlı qüvvələri də yaradılsın. Yəni, Azərbaycan qoşunları formalaşdırılsın».

Bəyanatının sonunu isə S.Mehmandarov belə tamamlayırdı: «Sonra əziz olan Vətənimizin adından ölkəmizin bütün əhalisinə Vətənə olan məhəbbətimiz naminə, yüksək vətənpərvərlik hissləri naminə bu xahişlə müraciət edirəm ki,

ölkədə qanunçuluğun qorunması üçün zəruri olan qoşunlarımızın formalaşdırılması işində mənə kömək etsinlər».

Bu cümlələrdə S.Mehmandarov Azərbaycanı -«Əziz olan Vətənimiz» deyə adlandırır. Bu sözlər adi sözlər deyildi və onlar Səməd bəyin bir vətəndaş kimi mənəvi keyfiyyətini dəqiqliklə əks etdirirdi. Onun Cümhuriyyət ordusundakı bütün fəaliyyəti də əziz olan Azərbaycan Vətəni naminə qurulmuşdu. Özü də Səməd bəy təkcə əziz olan Azərbaycana sədaqətlə xidmət etməklə öz işini bitmiş hesab etmirdi. O eyni zamanda tabeçiliyndə olan bütün hərbi qulluqçuların da bu əqidədə olmasına çalışırdı.

Hərbi nazir kimi imzaladığı sonuncu əmrində də Səməd bəy Azərbaycanı «əziz olan Vətənim» adlandırır və baş verən bolşevik çerilişindən sonra da əzizi olan Vətənin gələcdə əmin-əmanlıq içərisində olacağına ümidvar olduğunu bildirirdi.

1919-cu il may ayının 28-də Azərbaycanın müstəqilliyinin birinci ildönümü qeyd ediləndə Səməd bəy Mehmandarovun əmri ilə bütün qarnizonlarda hərbi parad keçirildi. Bununla Azərbaycanın müstəqillik günü ümumi ordu miqyasında böyük təntənə ilə bayram edildi. Nazirin əmri ilə bu bayram günündə əsgərlərə bayram süfrəsi açıldı, cəzalandırılmış olanların cəzası bağışlandı. Azərbaycanın müstəqilliyinin ildönümünə ümumordu ehtiramı və sədaqəti bildirildi. Bu vaxt Hərbi Nazirlik hələ də Gəncədə yerləşirdi. Ona görə əsas parad da burada keçirildi. S.Mehmandarovun əmri ilə Azərbaycanın müstəqillik günü şərəfinə keçirilən parad Gəncənin Topçu meydanında təşkil edildi. Parada Praporşiklər məktəbinin bir bölüyü, 1-ci topçu briqadasının iki batareyası, 3-cü Şəki süvari alayının 2-ci süvari bölüyü çıxarılmışdı Paraddan əvvəl Nazirliyin baş mollası tərəfindən dua mərasimi keçirildi. Nazirin əmri ilə növbədə olmayan bütün zabitlər Azərbacanın müstəqillik gününün qeyd edilməsində iştirak etdilər. Səməd bəy Mehmandarov Bakıda olduğu üçün parada komandanlığı 3-cü Şəki süvari alayının komandiri polkovnik Xosrov Mirzə Qacar edirdi. Həmin gününü axşamı Gəncə şəhər rəhbərliyi Azərbaycanın müstəqillik günü münasibətilə ziyafət təşkil etdi. Burada çıxış edən şəhər başçısı Azərbaycanın müstəqilliyinin qorunmasında, ölkə daxilindəki sabitliyin möhkəmləndirilməsində Cümhuriyyət ordusuna və Mehmandarova minnətdarlığını bildirəndə bütün ziyafət iştirakçıları ayağa qalxaraq Səməd bəyin şərəfinə sürəklə əl çaldılar.

Səməd bəyin özü isə Azərbaycanın müstəqilliyinin ilk ilini Bakıda qarşıladı. Onun əmri ilə ölkənin paytaxtında da burada olan azsaylı qoşun hissələrinin paradı keçirildi. Gündüz saat 1-də Azadlıq meydanında (keçmiş 26-lar bağı) təşkil edilmiş parada o özü komandanlıq edirdi.

1920-ci ilin yanvarında Azərbaycanın istiqlaliyyəti müttəfiq dövlətlər tərəfindən tanınanda da Səməd bəyin əmri ilə qoşun hissələrində xüsusi tədbirlər keçirildi. Bu hadisə münasibətilə bütün qarnizonlarda parad təşkil edildi, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi naminə dua mərasimləri keçirildi və hissələrdə bayram süfrələri açıldı.

Səməd bəy Mehmandarov Azərbaycanın müstəqilliyinə təhlükə törədə biləcək hər hansı qüvvəyə qarşı çox qətiyyətli və barışmaz mövqe tuturdu və belə

qüvvələrə qarşı ən sərt vasitələrə əl atmaqdan belə çəkinmirdi. Həmin tarixi şəraitdə Azərbaycanın müstəqilliyinə qənim kəsilən qüvələr həm ölkə daxilində, həm də ölkə xaricində mövcud idi və həmin qüvvələr qarşılarına qoyduqları məqsədə çatmaq üçün ən müxtəlif təxribatçı vasitələrə əl atırdılar. Onlardan biri haqqında artıq yuxarıda danışılmışdı. 1918-ci ilin sonlarında Azərbaycanda qalmış olan bir-sıra türk hərbçilərinin öz ətraflarına topladıqları azərbaycanlılarla birlikdə ordu rəhbərliyinə itaətsizlik göstərməsini Səməd bəy Mehmandarov ordunun siyasiləşməsi və bunun da Azərbaycanın müstəqilliyinə qarşı ciddi təhlükənin başlanğıcı kimi qəbul etdi. Elə ona görə də bu təhlükənin aradan qaldırılması üçün qətiyyət və dönməzlik nümayiş etdirdi.

S.Mehmandarov Azərbaycanın daxilində olan müəyyən qüvvələrin də müstəqil Azərbaycan dövlətçiliyinə qarşı düşmən mövqedə dayanmasını beləcə kəskinliklə qarşılayırdı. Burada daxili bolşevizm və digər siyasi qüvvələr deyil, ölkə daxilində anarxiya və qanunçuluğa itaətsizlik yaratmaq istəyən cinayətkar qüvvələr nəzərdə tutulurdu. S.Mehmandarov asayişin pozulmasını və anarxiyanın yaradılmasını da müstəqilliyə bir təhlükə sayırdı və ona görə belə qüvvələrin zərərsizləşdirilməsini vacib vəzifələrdən biri sayırdı. Məsələn, 1919-cu il yanvar ayının 10-da bir dəstə soyğunçu Dəllər stansiyasında özbaşınalıqlar törətməyə çalışanda həmin dəstəyə qarşı qoşun bölməsi göndərilmişdi. Baş verən atışmada qoşun bölməsindən bir əsgər şəhid olmuşdu. S.Mehmandarov ölkə daxilindəki anarxiyanın aradan qaldırılmasında şəhid olmuş əsgərin fəaliyyətini yüksək qiymətləndirmiş və bu münasibətlə xüsusi bir əmr də imzalamışdı.20 yanvar 1919-cu il tarixli həmin əmrdə deyilirdi:

«Bu ilin yanvarında Tatar süvari alayının 1-ci bölüyü soyğunçuların tutulması işində mülkü hakimiyyət orqanlarına kömək göstərilməsi üçün Dəllər stansiyasına göndərilmişdi. Soyğunçular səngərdə oturaraq atəş açırdılar.Yarım bölük tərəfindən onların atəşə tutulmasına baxmayaraq soyğunçular gecənin qaranlığından istifadə edərək gizlənə bilmişdilər. Atışma zamanı Marul kəndinin sakini olan bir süvari- Namaz Söyün oğlu öldürülmüşdür. Mərhum tərəfindən Vətən qarşısındakı borcunun şərəf və vicdanla yerinə yetirilməsinə görə onun ailəsinə 10 min rubl miqdarında birdəfəlik vəsait verilsin. Şərəflə həlak olmuş əsgərin şəxsində ailə yeganə himayədarını itirdiyindən yaşayış üçün tamamilə köməksiz qalmaması üçün mənim tərəfimdən Nazirlər Şurası qarşısında ailəyə həmişəlik olaraq ayda 1200 rubl pensiya verilməsi barədə vəsatət qaldırılmışdır. Bu əmr Azərbaycan Cümhuriyyətinin bütün bölük , batareya və komandalarında oxunsun».

Bununla S.Mehmandarov anarxiya və qanunsuzluq yaradanlara qarşı barışmaz olduğunu nümayiş etdirməklə bərabər ölkənin müstəqilliyi yolunda şəhid olanların ailəsinin qayğıya layiq olduqlarını və onlara daimi qayğı altında olacaqlarını bildirirdi. Eyni zamanda S.Mehmandarov qoşun hissələrindən cinayətkar elementlərin anarxiyaya qarşı geniş istifadə edilməsini də düzgün saymırdı. Çünki bu məsələ əsasən daxili orqanlar tərəfindən həll edilməli idi.

Ölkədə olan ingilis hərbi qüvvələrinin səlahiyyət həddlərini aşmasını və ingilis hərbçilərinin qoşun hissələrinin fəaliyətinə müdaxilə etməsini də Səməd

bəy Mehmandarov Azərbaycanın müstəqilliyi ilə bir araya sığışmayan əməllər kimi dəyərləndirirdi. Məlumdur ki, bu qüvvələr Azərbaycana gələn kimi Hərbi Nazirliyin və milli qoşun hissələrinin Bakıdan çıxarılmasına nail olmuşdular. Bütün nazirlərin Bakıda olduğu vaxt Hərbi Nazirliyin Gəncədə olması ordunun formalaşmasının bu və ya digər şəkildə çətinləşdirsə də S.Mehmandarov tarixi reallıqla razılaşaraq daha böyük səmərə ilə işləməyə çalışırdı. İngilislər Xəzər donanmasının bütün hərbi gəmilərini də öz əllərinə almışdılar. Bu da Hərbi Nazirliyin rəhbərliyinin ciddi narazılığına səbəb olmuşdu və göstərilən bütün səylərə baxmayaraq ingilislər hərbi gəmiləri Azərbaycanın Hərbi Nazirliyinin sərəncamına verməkdən imtina etdilər. Hərbi gəmilərin olmaması isə Xəzərdən ölkənin müstəqilliyinə ola biləcək təhlükəni daha da reallaşdırırdı.

Bundan əlavə ingilis hərbçiləri bəzən qoşun hissələrinə də yerli-yersiz müdaxilə edirdilər. Belə halların hər birinə qarşı Səməd bəy dərhal qətiyyətli mövqe tutur və öz münasibətini bildirirdi. Məsələn, 1919-cu il martın sonlarında Qarabağda fəallaşmağa çalışan erməni millətçi təcavüzkarlarına Xankəndi qanizonunun rəisi tərəfindən layiqli cavab verilmişdi. Hadisənin mahiyyətini erməni millətçiləri bölgədə olan ingilis hərbçilərinə tamam başqa şəkildə çatdıraraq onların yardımına arxalanmaq istəyirdilər. İngilis hərbçiləri də Xankəndi qarnizonunun rəisindən erməni millətçilərinə qarşı silahlı müqavimət göstərilməsini dayandırmağı tələb etmiş və S.Mehmandarov da bundan xəbər tutmuşdu. Səməd bəy ingilis hərbçilərinin belə özbaşınalağını yol verilməz sayırdı və bildirirdi ki, onların qoşun hissələri ilə hər hansı bir əlaqəsi yalnız Hərbi Nazirliyin vasitəsi ilə ola bilər.

Bu hadisədən bir müddət sonra, yəni 1919-cu il aprel ayının 1-də hindlilərdən ibarət olan 100 nəfərlik hərbçi dəstəsi Azərbaycan hökumətinin xəbəri olmadan Akstafa və Gəncə stansiyalarına daxil olmuş və bu stansiyaları nəzarət altına almışdılar. İngilis hərbçilərinin müstəqil Azərbaycan daxilində özlərini belə saymazyana aparmaları yenidən Səməd bəy Mehmandarovun ciddi narahatçılığına səbəb olmuşdu. O, Nazirlər Şurası sədrinin adına yazdığı məktubda ingilisləri tutduqları mövqedən sui-istifadə edərək xəbərsiz və icazəsiz Azərbaycan qoşun birləşmələrinin mövqelərini tutmasını açıq müdaxilə kimi qiymətləndirir və bu faktlarla bağlı ingilis komandanlığının qarşısında məsələ qaldırılmasını xahiş edirdi.

Elə həmin məktubda S.Mehmandarov ingilis hərbçilərinin Azərbaycanın müstəqilliyinə qarşı zidd mövqe tutan Denikin qoşunları ilə münasibətlərinə də işarə edərək bildirirdi ki, həmin münasibətlər ölkənin mənafelərinə cavab vermir və bu cəhət nəzərdən qaçırılmamalıdır.

İngilis kapitanı Dellinin Denikin ordusunun nümayəndəsi ilə heç kimdən icazə almadan Azərbaycanın şimal sərhəddinə getməsini, orada Denikin təhlükəsinə qarşı aparılan müdafiə işləri barədə kəşfiyyat xarakterli məlumatlar toplamasını da S.Mehmandarov çox böyük hiddətlə qarşıladı.Yəni əslində ingilis hərbçiləri Azərbaycanın müstəqilliyinin qorunması üçün həyata keçirilmiş hərbi tədbirlərin düşmən əlinə keçməsinə açıq vasitəçilik edirdilər. Bunu Səməd byə ilk növbədə elə ingilis hərbilərinin Azərbaycanın müstəqilliyinə qarşı tutmuş

olduqları  düşmən mövqe ilə izah edirdi. Həmin hadisə ilə bağlı Səməd bəyin gəldiyi qərar da çox sərt idi. Hadisə barədə məlumat alan kimi S.Mehmandarov Nazirlər Şurasının sədrinə məktub yazdı və ondan ingilis komandanlığına etiraz bildirilməsini xahiş etdi. İngilis hərbçilərinin Azərbaycanın müstəqilliyi əleyhinə yönəldilmiş olan hərəkəti Səməd bəy o dərəcədə qəzəbləndirmişdi ki, Nazirlər Şurasının sədrinə yazdığı məktubunda bu barədə qəti qərar qəbul edilməsini təkidlə irəli sürürdü. Müfəsəl yazılmış həmin məktubda Azərbaycanın müstəqilliyinin qorunması naminə şimal sərhədlərinin möhkəmləndirilməsi məsələlərinə toxunulsa da onun əsas məzmununu  ingilis hərbçilərinin heç bir çərçivəyə sığışmayan əməllərinə qarşı etiraz təşkil edirdi.  Azərbaycanın müstəqilliyinə qənim kəsilən qüvvələrə qarşı Səməd bəyin dönməz iradəsini və əqidəsini nümayiş etdirən bu məktubun məzmunu aşağıdakı kimi idi:

«Məxfi.

Şəxsən Nazirlər Şurasının sədrinə.

General-mayor Usubovun 6 iyun tarixli 38 nömrəli raportunu bu məktuba əlavə edirəm. Hesab edirəm ki, vəziyyət çox və çox ciddidir.

Dağıstanın tutulması Azərbaycan üçün açıq təhlükədir. Qızıl Burun- Zaqatala xəttində sərhəddə olan iddialar Könüllü ordunun Azərbaycana qarşı hansı münasibət bəslədiyənə heç bir şübhə yeri qoymur.

Əlbətdə, Könüllü ordu yaxşı bilir ki,Azərbaycan heç vaxt bu şərtlə razılaşmayacaqdır. Ancaq niyyətləri artıq yaxşı bəlli olan Könüllü ordunun əməlləri məni o qədər də təəccübləndirmir. Məni daha çox təəccübləndirən ingilis komandanlığının ikiüzlü siyasəti və bir də onun Azərbaycana xeyirxah münasibət bəsləməsi barədə verdiyi yalan vədlərdir. Özünüz fikir verin. Bir tərəfdən ingilis komandanlığı vəd verir ki, Samur çayı yaxınlığında sərhəddin pozulmasına imkan verməyəcək və onu pozan hər bir şəxs həbs ediləcəkdir. O biri tərəfdən isə ingilis kapitanı Delli Könüllü ordu zabitləri ilə, yəni Azərbaycanın düşmənləri ilə Xaçmaza yollanır və ingilis komandanlığının göstərişləri əsasında tələb edir ki, qoşunların və müdafiə mövqelərin nəzərdən keçirilməsi üçün onlara imkan yaradılsın. O, körpülərin minalanıb-minalanmaması  barədə sorğular aparır və bununla da könüllü ordunun fəaliyyəti üçün zəruri olan məlumatlar toplanılır.

Kapitan Dellinin bu eşidilməmiş tələbləri  həyasızlığın və ya hərbi sirrlərə riayət edilməsinin ən adi  tələblərini başa düşə bilməməsi kütbeyinliyin görünməmiş nümunəsidir. Onun general Usubova qoşunların yerləşməsi, mövqeləri, körpülərin minalanması, azərbaycanlı əhalinin əhval-ruhiyəsi barədə suallar verməsi də bunu göstərir.

İngilis komandanlığı vasitəsilə bu açıq və həyasız casusluq  üsulları bizim tərəfimizdən ciddi etiraz edilməsini tələb edir. Elə həmin ingilislər sizin bildiyiniz kimi Quba qəzasında çəkilişlər aparır, mövqeləri nəzərdən keçirir, əhalini sorğu-suala tuturdular. Bütün bu söylənilənlərdən mənə belə gəlir ki, Qafqazdan gedənə kimi ingilislər  Azərbaycan və Gürcüstanın işğalı üçün Könüllü orduya kömək göstərməyə tələsirlər.

Ona görə zəruri  bilirəm ki:

1.Azərbaycana və onun müstəqilliyinə qarşı şərəfsiz hərəkətlər etmiş ingilis

komandanlığına yazılı şəkildə qəti etiraz bildirilsin

2.Bu etirazın surəti İngiltərə, Amerika, Fransa və Ttaliya hökumətlərinə göndərilsin və belə bir inam ifadə olunsun ki, Qafqazdakı ingilis komandanlığının düşünülməmiş siyasəti heç də İngiltərənin siyasəti deyildir və yalnız yerli komandanlıq buradakı müsəlman və gürcü əhalisinin ingilislərə olan nüfuz və inamını birdəfəlik qırırlar.

3.Eyni zamanda bu etirazın bir surəti də Topçubaşova göndərilsin ki, o da şəxsən Antantaya etirazını bildirsin.

4.Mənə belə gəlir ki, yaranmış vəziyyət çox ehtiyatlı olmağı tələb edir. Əhalidə təşviş və həyəcan yaradılmadan bütün qiymətliəşyalar Bakıdan çıxarılmalıdır.

5. Bütün sərbəst pul kütləsi Gəncəyə aparılsın ki, bizim uğursuzluğumuz və Bakının işğalı baş verərsə həmin pullarla biz son imkana qədər mübarizəmizi davam etdirə bilək.

6. Heç bir rus və erməni zabiti, əgər onlar ingilis missiyasından olsalar belə Dağıstana və ya Dağıstandan bura buraxılmamalıdır.

7. Bütün rus və erməni zabitləri Azərbaycandan çıxarılaraq Gürcüstana göndərilməlidir.

8.Bakıda olan tabor Qusara göndərilsin, şəhərin müdafiəsi isə azərbaycanlılardan təşkil olunmuş drujinalara həvalə olunsun. Eyni zamanda 2-ci Qarabağ süvari alayının Dağıstan sərhəddinə göndərilməsi üçün Qarabağ general-qubernatoru ilə əlaqə yaradılsın.

9.3-cü Gəncə piyada alayının başqa bir taborunun da sərhədə göndərilməsi üçün hazırlıq əmri veriləcəkdir.

10.Əgər Gürcüstanla hərbi müqavilə baş tutarsa onda bir-iki gürcü alayının lazımi sayda batareya ilə birlikdə Dağıstan sərhəddinə göndərilməsini təkid edəcəyəm. Eyni zamanda Bakı həndəvərinin həm dənizdən, həm də qurudan möhkəmləndirilməsi üçün gürcü hərbi mühəndislərinin və topçularının göndərilməsini təkid edəcəyəm.

11.Dərhal, bir an belə itirmədən Dağıstana, Çeçenstana, İnquşetiyaya və şimali Qafqazın digər müsəlman xalqları içərisinə müsəlman təbliğatçılar göndərilməlidir. Onlarda yazılı təlimatlar olmamalıdr və bu təbliğatçılar xain general Xəlilovun, polkovniklər Musaliyev və Süleymanovun hərəkətlərini bütün dəhşətləri ilə açıb göstərməlidirlər.

12.Adminstrasiyadan tələb edilməlidir ki, sözdən işə keçsinlər, fərarilər və xidmətdən yayınanlarla bağlı məcburi qərarları bütün ciddiyyəti ilə həyata keçirsinlər. Çünki çağırış demək olar ki, dayanmışdır, fərarilik isə başa düşülmədiyi üçün arhmaqdadır. Bu isə Hərbi Nazirliyi çox pis vəziyyətdə qoyur. Çağırışçıların toplanmasında qənaətbəxş olan yeganə qəza Göyçaydır. Ancaq təəssüf ki, hərbi element kimi bu insanlar döyüşdə çox etibarsızdırlar.

13.Xaçmaz dəstəsində, habelə dövlət sərhəddinin müdafiəsi üçün xüsusi vəziyyətdə olan qoşunlarda fərarilərlə bağlı hərbi-səhra məhkəmələri yaradılmalıdır.

14.Siz bu söylənilənlərlə razılığını bildirərsinizsə onda teleqrafla mənə və

bizim tərəfdən gÜrcüstanla danışıqlarda iştirak edən digər şəxslərə məlumat verin ki, biz birlikdə general Kori və onun müavininə öz etirazımızı bildirək Əgər dəyişiklik edilməsini lazım bilsəniz də bizə məlumat verin.

Tiflisdən qayıdan kimi təltif edildiyim 1-ci və 2-ci dərəcəli «Müqəddəs Mixail və müqəddəs Georgi» ordenini Sizə göndərəcəyəm ( onun birinci dərəcəlisini bolşeviklər talan vaxtı məndən almışdılar). 2-ci dərəcəlisini isə xahiş edirəm ki, ingilislərə qaytarasınız və bildirəsiniz ki, bunu gəzdirmək istəmirəm, çünki mən onları Azərbaycanın düşməni sayıram.

Tam artilleriya generalı Mehmandarov».

Səməd bəy Mehmandarov ingilis hərbçilərinin pozuculuq fəaliyyətinə qarşı belə kəskin mövqe tutsa da Azərbaycanın müstəqilliyinə qarşı daha real təhlükəni ağqvardiyaçı rus qüvvələrinin,bolşevik qüvvələrinin və erməni millətçi qüvvələrinin simasında görürdü. Səməd bəy Mehmandarov yaxşı anlayırdı ki, şimaldan gözlənilən təhlükə daha ciddi təhlükədir və onun qarşısının alınması üçün ümumdövlət miqyasında daha ciddi işlər görülməlidir. Bu təhlükənin mənbəyi olan denikinçi qüvvələrlə bolşevik qüvvələri siyasi mahiyyəti etibarilə bir-birinə zidd mövqedə dayansalar da Azərbaycanın müstəqilliyinə olan münasibətdə onlar oxşar mövqelərdə dayanırdılar. Hər iki qüvvə Azərbaycanı müstəqil dövlət kimi deyil, Rusiyanın tərkib hissəsi kimi görürdü və Azərbaycanın yenidən Rusiyaının tərkibinə qatılması üçün bir an da olsa fəaliyyətlərini dayandırmırdılar. Hər iki qüvvə Bakıda geniş sosial bazaya malik idi və bu da Azərbaycanın dövlət müstəqilliyinə qarşı daha təsirli mübarizə aparmaq imkanı verirdi.

Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş olan denikinçi qüvvələrlə xüsusi əlaqələri olan ingilis komandanlığı milli qoşun hissələrinin Bakıdan çıxardılmasına nail olduqdan sonra burada Könüllü ordu tərəfdarlarının sərbəst hərəkətlərinə geniş meydan verildi. Bir tərəfdən Denikinlə sıx əlaqədə olan L.Biçeraxovun qoşun dəstəsi Bakıya gəldi. Digər tərəfdən də Könüllü ordunun nümayəndələri ingilis komandanlığının himayəsinə arxalanaraq Bakıda rus dilli əhali arasında könüllülər toplayır, silahlandırır və onlardan qoşun bölmələri təşkil edirdilər. Yalnız Azərbaycan hökumətinin qətiyyətli tələblərindən sonra ingilis komandanlığı həm Biçeraxovun dəstəsinin, həm də denikinçi qoşun bölmələrinin Bakıdan çıxarılması barədə müəyyən tədbirlər həyata keçirdi.

Könüllü qoşun dəstələri Bakıdan çıxarılsa da denikinçilərin Bakıda və Azərbaycanda fəaliyyətinə son qoyulmamışdı və bu elə bir asan məsələ deyildi. Bakıda çoxlu sayda keçmiş çar zabiti yaşayırdı. Onlar çar geyimlərini çıxarmadan şəhərdə gəzir, əyinlərindəki geyimlə bölünməz Rusiya tərəfdarları olduqlarını anlatmaqla bərabər gizlində də Denikinin xeyrinə fəaliyyətlərini dayandırmırdılar. Belə şəxslərin simasında Denikin Azərbaycanda güclü casus bazasına malik idi. Denikin tərəfdarları Bakıda gizli silah bazaları da yaradırdılar. Belə bazaların biri Balaxanı və Krasnavodsk küçələrinin tinindəki evin zirzəmisində tapılmışdı. Burada çoxlu sayda tüfəng, qumbara, patron tapılmışdı . Mə'lumdur ki, Azərbaycan Ordusunun sıralarında da xeyli sayda keçmiş çar ordusu zabiti xidmət edirdi. Bu zabitlərin çoxu zabit şərəfinə sədaqətlə yanaşsa da, onların arasında Denikinlə

əlaqə saxlayanları, Azərbaycan Ordusu daxilində casusluq edənləri də var idi.

Səməd bəy Mehmandarov 1919-cu ilin aprelində yazdığı raportlarının birində bildirirdi ki, Bakıda Könüllü ordunun gizli kəşfiyyat təşkilatı ifşa edilmişdir. Azərbaycan ordusunun Baş Ərkani-hərbində olmuş Könüllü ordunun kəşfiyyat bölməsinin rəisi kapitan Çernışovdan tapılmış sənədlər S.Mehmandarova hökumət orqanlarında xeyli casusun olduğunu güman etməyə əsas verirdi. Onun fikrincə vaxtilə Biçeraxovun, sonra da general Prjevalskinin yaratmağa çalışdığı dəstələrdən də şübhəsiz ki, Bakıda qalanı və Könüllü ordunun xeyrinə məlumat toplayanları da var idi.

Könüllü ordunun xeyrinə casusluq edən Çernışovdan axtarış zamanı Azərbaycanın ümumi ictimai-siyasi və iqtisadi vəziyyəti, habelə Azərbaycan ordusunun formalaşmasının gedişi barədə xeyli məlumat tapılmışdı. Əldə edilən sənədlər arasında «Vahid və bölünməz Rusiya»ya tərəfdar olmayan xalqlar arasında hansı məlumatların toplanmasına üstünlük verilməsi barədə Denikin kəşfiyyat orqanlarının təlimatı da var idi. Bu təlimata görə kapitan Çernışov və onun işləyən denikinçi casuslar Azərbaycanda aşağıdakı məlumatları toplamalı idilər.

1. Silahlı qüvvələr, onun tərkibi, dislokasiyası, silah və texnikası, geyimi, intizamı, komplektləşdirilməsi, təchizatı, döyüş və maddi ehtiyatları;

2.Hərbi xarakterli tədbirlər;

3.İctimai fikir, xalqın hökumətə münasibəti, «Vahid Rusiya» ideyasına rəğbət bəsləyən elementlər, onların dövlətə qarşı müxalifətdə birləşdirilməsi imkanları;

4.Hökumətin fəaliyyəti, öz nüfuzunu qorumaq üçün onun həyata keçirdiyi tədbirlər. Hökuməti gözdən salmağın mümkün vasitələri;

5.«Vahid Rusiya» vətəndaşlarının mənəvi və maddi maraqlarının qorunması sahəsində hökumətin və xalq kütlələrinin digər xalqlara münasibəti;

6.«Vahid Rusiya» ideyasının təbliğinin vasitələri və üsulları.

Qəribədir ki, kapitan Çernışov gördüyü işləri heç də cəsusluq kimi qiymətləndirmirdi. O bildirirdi ki, məe öz vətənimdə, Rusiya imperiyası ərazisində Rusiyanın xeyrinə məlumat toplamaqla məşğul olmuşam. Onun fikrincə Azərbaycanın Rusiyadan ayrılmasını heç bir dövlət tanımayacaqdı və ona görə də ölkə daxilində aparılan hərbi kəşfiyyəat hərbi casusluq kimi qiymətləndirilə bilməzdi.

Kapitan Çernışov həbs edilsə də sonradan ingilislərin təzyiqi ilə həbsdən azad olunmuş və Azərbaycanın hüdudlarından çıxarılmışdı. Ordu daxilində casus şəbəkəsinin mövcudluğundan narahatçılıq keçirən Səməd bəy Mehmandarovun əmri ilə dərhal qoşun hissələrində və digər hərbi strukturlarda mümkün təmizləmə işləri apardılar. Etibarlılığı şübhə doğuran bir-sıra keçmiş çar zabitləri və məmurları 1-ci Cavanşir piyada alayından, 2-ci Bakı piyada alayından, 1-ci Tatar süvari alayından, 3-cü Şəki süvari alayından, İstehkam məktəbindən, Ordu livası rəyasətindən, Praporşiklər məktəbindən ,zirehli qatardan və digər strukturlardan azad edildilər. S.Mehmandarov əmin idi ki,Könüllü ordunun Bakı şəhərində geniş casus şəbəkəsi vardır və həbs edilmiş şəxslər həmin şəbəkənin üzə çıxarılmasına

kömək edə bilər. Ona görə də o, hələ Hərbi Nazirlik Gəncədə olanda daxili işlər naziri X.Xasməmmədova teleqram göndərərək (29 mart 1919) Bakıdakı casus şəbəkəsini üzə çıxarılmasına diqqət verilməsini xahiş etdi. Həmin teleqramda S.Mehmandarov bildirirdi:

«Azərbaycan silahlı qüvvələri barəsində məlumatlar toplaması şübhə doğurmayan , Könüllü ordunun və Ermənistanın xeyrinə casusluqda ittiham olunan Smıslova Gəncədə həbs olunmuşdur. Gəncə qanizonunun bir-neçə zabitinin də onunla əlbir fəaliyyət göstərməsi aşkar edilmişdir. Bakıda isə onunla əlbir olan aşağıdakılardar vardır: Nelli Fyodorovna Çernışova-Armyanski küçəsi 8-də yaşayır. Erməni qoşunlarında xidmət etmiş, hazırda isə Bakıda yaşayan Baş Ərkani-hərb zabitinin arvadıdır: Stanislav Rudolfoviç Zuber- Rılskilərin Merkuri kontorundadır. ...Smıslova Gəncəyə Bakıdan Tiflis dəmir yolu jandarm idarəsinin keçmiş rəisi knyaz Şetinin məktubu ilə qoşunların daşınması idarəsinin rəisi polkovnik Mixaylovskinin yanına gəlmiş və ondan kömək istəmişdi. Güman edirəm ki, casus təşkilatının bütün kökləri Bakıya gedir və onun rəhbəri Şetinindir. Təcrübəli jandarm kimi onun dərhal yoxlanılması və həbs edilməsi vacibdir».

Səməd bəy Mehmandarovun Azərbaycanın müstəqilliyi əleyhinə casusluq edənlərə qarşı necə kəskin mübarizə aparması barədə Azərbaycan hökumətinin əks-kəşfiyyat idarəsinin rəisi olmuş Nağı Şeyxzamanlının xatirələrində də maraqlı qeydlər vardır. Nağı bəy yazırdı: «Mən bu vəzifəyə keçdiyim vaxt istiqlalımızın şimal sərhəddinə general Denikin təhdid edirdi. Bakıda yaşayan azlıqlardan ermənilər və ruslar «ağların» Bakını işğal etmələrini səbirsizliklə gözləyirdilər. Bir gün dostlarımdan biri iranlı bir baqqalın dükanında oturubmuş. O, içəri girən bir rusun dükanın arxa tərəfinə keçdiyini və əlindəki paketi ora qoyduğunu görmüş. Rus getdikdən sonra işçimiz baqqaldan rusun kim olduğunu soruşur. Baqqal müştərisinin sabiq rus olduğunu, tez-tez dükana gəldiyini, axşamlar vodka içdiklərini, məktublar yazdığını anladır və deyir : «Onun dükanın arxasında bir çantası vardır. İçi vərəq ilə dolu idi.Mən rusca bilmədiyimdən oxumadım, özündən soruşdum, komisyonçuluq etdiyini söylədi. Çantanı arxa tərəfə qoyub, istəsən bir bax». Məmur vərəqlərə baxaraq şübhəsinin doğru çıxdığını, bu adamın «ağların» agenti olduğunu anlayır. idarədən bir nəfər kömək üçün istəyir. Biri dükanda, digəri küçədə rusun gəldiyini gözləyirlər. Rus qayıdan zaman üç saaat əvvəl dükanda gördüyü adamın orada olmasından şübhələnir. Baqqala: «Bu axşam məni gözləmə, gəlməyəcəyəm» deyir və dükandan çıxır. Arxa tərəfdən çıxan məmur rusu saxladır və yoldaşına deyir : «Bu rusu idarəyə apar». Məmur çaşıb qalan rusa dükandan bütün əşyalarını özü ilə götürməsini söyləyir. Rus bir şeyi olmadığını iddia edən zaman baqqaldan bu barədə soruşurlar. O da çantanı verir. Çantadakı vərəqlər yoxlanılır. Rus general Denikin üçün çalışan kapitan Stapkovdur.Yarım ay ərzində çox mühüm və qiymətli sənədlər əldə edə bilmişdi. Sənəjlərdən bəziləri Azərbaycan ordu qərargahından alınmışdı. Sənədlər ilə hərbi nazirliyə getdik. Mərhum general Həmid bəy Qaytabaşıya əlimdə olan sənədləri göstərdim.Onların seyflərindəki sənədlərin surəti olduğunu söylədi. Starkov sənədlərlə birlikdə yazdığı raportunda Azərbaycan qərargahından hərbi nazir Mehmandarovun nəvəsinin tərbiyəçisinin ( çox güman ki, onun oğlunun tərbiyəçisi nəzərdə

tutulur.Çünki o vaxt S.Mehmandarovun yeganə övladının 11 yaşı var idi-M.S.) vasitəsiylə əldə etdiyini yazırdı. Raportu olduğu kimi Nazirlər Şurasına təqdim etdim. Təhqiqat davam etməkdə idi. Təhqiqatımda bu qənaətə gəldim ki, tərbiyəçi məsələsi uydurmadır, sənədlər başqa yolla əldəedilmişdir.Bu arada bunu da deyim ki, «ağların» hücum niyyətləri olduğu anlaşıldıqdan sonra baş nazirin yanında dörd nazirdən ibarət bir müdafiə komitəsi yaranmışdı. Mənim əlaqəa baş nazir Nəsib bəy Yusifbəylidən, hərbi nazir Səməd bəy Mehmandarlıdan, yollar naziri Xudadat bəy Məlikaslanovdan,xarici işlər naziri Məmməd bəy Cəfərovdan ibarət bir komitə iləydi. Verdiyim raport komitədə oxunarkən general Mehmandarlının avtomobilinin idarəmizin qapısının qarşısında dayandığını gördüm. Növbətçi general Mehmandarlının gəldiyini bildirdi. Mən onu qarşıladım. Çox əsəbi idi. «Nağı bəy, siz bu alçağın raportuna inandınızmı?«- deyə məndən soruşdu. «Paşam, sənədi verəni gizlətmək üçün tərbiyəçi məsələsini ortaya atır.İcazənizlə iki günə bu məsələni aydınladacağım. Ancaq qərargah zabitlərindən şübhələndiklərimi nəzrət altına götürmək üçün indidən sizin razılığınızı istəyirəm»- cavab verdim. General Mehmandarlı dedi : «Bu, milli və istiqlalımızla bağlı olan bir işdir. Kimi istəsəniz nəzarət altına alın, məndən icazə istəməyöin. Ancaq mən bu alçağı görmək istəyirəm».Rusun gətirilməsini əmr etdim. General əyləşmir, otaqda gəzirdi. Starkov içəri girdi və generalı görcək diz çökdü. General bu mənzərə qarşısında : «Alçaq, qorxaq, sənin cəzan ölümdür. Sənin kimi şərəfsiz və qorxaq bir kapitanı rus ordusunda ilk dəfə görürəm»- dedi və mənimlə xudahafizləşib getdi. Kapitan hələ də diz çökmüş vəziyətdə durmuşdu».

Yuxarıda deyilənlərdən göründüyü kimi Səməd bəy Mehmandarov Könülü ordu xeyrinə casusluğun Bakıda güclü olduğundan narahat idi. Ona görə də ingilis komandaanlığının razılığı ilə 1919-cu il aprel ayının 5-də Bakıya milli qoşun hissələri gətirilməzdən əvvəl burada casusluğa qarşı ciddi mübarizə təşkil edilməsi haqqında düşünürdü. Səməd bəy hərbi əks-kəşfiyyat işçiləri lə daxili orqanların əməkdaşlarının bu istiqamətdə səmərəli işlər görülməsini arzu edirdi. Bunun üçün yasovul Yusifov xüsusi tapşırıqla Bakıya göndərildi və Səməd bəyin tapşırığı ilə Baş Ərkani-hərb rəisi M. Sulkeviç daxili işlər nazirinin müavininə məktub yazaraq ondan bu istiqamətdəki səylərin birləşdirilməsini xahiş etdi. Daxili işlər nazirinin müavini general Ağabəyov da bu xahişlə razılaşaraq şəxsən Bakı qubernatoruna lazımi tapşırıqlar verdi.

Zabit kadrlarının çatmadığı bir vaxtda Cümhuriyyət ordusu tərkibində çoxou sayda rus zabitlrəi var idi. Onların arasında vəzifə borclarına məsuliyyətlə yanaşanlar az deyildilər və yuxarıda deyildiyi kimi Səməd bəy Mehmandarov belələrinin xidmətini lazımınca qiymətləndirirdi. Lakin Cümhuriyyət ordusundakı rus zabitləri həm də Denikin xeyrinə casusluq edənlərin sosial bazasını təşkil edirdi. Ona görə də bu zabitlərin fəaliyyətinin daha ciddi nəzarət altında saxlanılmasına, onların bütün hərəkətlərinin qanuni tələblər çərçivəsində olmasına diqqət yetirilirdi. Hətta rus zabitlərinin özlərinin şuralarının yaratmalarını və bu şuranın rus zabitlərindən hansının Cümhuriyyət ordusunda xidmətə yararlı olub-olmamasını müəyyənləşdirməyə çalışmasını da Səməd bəy səlahiyyət hədlərinin aşması kimi qiymətləndirirdi. O bununla baxğlı bildirirdi ki, zabit

kadrlarının xidmət üçün seçilməsi yalnız Hərbi Nazirliyin səlahiyyətindədir və burada hansı təəlblərin irəli sürülməsini də yalnız bu orqan müəyyənləşdirməlidir:

«Rus millətindən olan cənab zabitlər Gəncədə ümumi iclas keçirmişlər. Özü də birinci dəfə mənim icazəmlə, ikinci dəfə isə mənə məlumat vermədən toplaşıblarmış.İclasda onlar rus zabitlərinin mənəvi və xidməti keyfiyyətlərinə görə Azərbaycan Cümhuriyyətinin qoşun hissələrinə daxil olmaq üçün yararlılıq dərəcəsini müəyyənləşdirmək məqsədilə rus zabitləri şurasını seçmişlər. Əlbətdə ki, mənə kömək göstərmək qərarına görə onlara minnətdaram. Ancaq onlar nəzərdən çıxarıblar ki, xidmətə qəbul etmək hüququ yalnız hərbi nazirin səlahiyyətidir və yalnız o, bu və ya digər zabiti xidmətə qəbul edə bilər. Çünki son zamanlar baş vermiş kədərli hadisələrdən və bir-sıra zabitlərin qeyri-səmimi hərəkətlərindən sonra Hərbi Nazirlik zabitlərin məzhəbindən və milliyyətindən asılı olmayaraq çox ciddi yanaşır.

Zabitlərin hərəkətlərinə nəzarət etmək hüququna gəlincə isə bu hüquq tamamilə zabitlərin şərəf məhkəməsinə aiddir. Bütün millətlərdən olan cənab zabitlər birləşərək əla əxlaqa malik insanlardan şərəf məhkəməsi seçməlidirlər ki, o bu və ya digər zabitin əxlaqi keyfiyyətini ciddi şəkildə götür-qoy edə bilsin. Bu gün rus şurasının yaranmasına mcazə verməklə sabah müsəlman, sonra alman və s. şuraların yaranmasına qadağa qoya bilmərəm. Ona görə də hər hansı bir milli şuranın təşkilini qadağan edirəm və müvafiq rəislərin icazəsi olmadan heç bir iclasın keçirilməsinə icazə vermirəm. Bütün millətlərdən olan zabitlər üçün yalnız şərəf məhkəməsini tanıyıram... Bütün millətlərdən olan zabitlərə xatırladıram ki, onlar həqiqi dövlət xidmətindədirlər və mövcud qanunlar qarşısında eyni məsuliyyət daşıyırlar».

Ümumən rus zabitlərinin, xüsusən də Denikinlə daha sıx bağlı olan zabitlərin belə fəaliyyəti və casusluğa meylliliyi, Səməd bəy Mehmandarovu narahat etməyə bilməzdi. Bütün bu hərəkətlər mahiyyət etibarilə Azərbaycanın müstəqil bir dövlət kimi mövcudluğu əleyhinə yönəldilmişdi.

1919-cu il may ayının axırlarında Könüllü ordunun dəstələri Dərbəndə qədər gəlib çıxdılar və bu şəhəri işğal etdilər. Dərbəndin işğalı Denikin qoşunlarının Azərbaycana doğru irəlilədiyinə şübhə yeri qoymurdu. Bu isə istər dövlət orqanlarının, istərsə də ictimaiyyətin dərin narahatlığına səbəb olmuşdu. Azərbaycanın müstəqilliyinə qarşı şimaldan yönəldilmiş olan təhlükənin aradan qaldırılmasının əsas ağırlığı Cümhuriyyət ordusunun üzərinə düşürdü. Ona görə Səməd bəy Mehmandarovun rəhbərliyi altında şimal sərhədlərinin möhkəmləndirilməsi üçün çox ciddi tədbirlər həyata keçirildi. Baxmayaraq ki, Lənkəran bölgəsində və Qarabağda da Azərbaycanın müstəqilliyinə qarşı ciddi təhlükə var idi Hərbi Nazirliyin rəhbərliyi şimal sərhədlərinin möhkəmləndirilməsinə xüsusi diqqət yetirirdi. Bununla bağlı Səməd bəy Mehmandarov istər hökumət səviyyəsində, istərsə də hökumətlərarası səviyyədə mümkün olan hər işi görməyə, hərbi tədbirlərlə hökumət tədbirlərini əlaqələndirməyə çalışırdı. 2-ci Bakı piyada alayına (sonradan bu alayın adı və nömrəsi dəyişdirilərək 4-cü Quba alayı oldu) şimal sərhədlərinin qorunması tapşırıldı. Səməd bəy Mehmandarov bu alayın təlim-tərbiyəsini və döyüş

hazırlığının səviyyəsini lazımi nəzarət altında saxlayırdı. Bundan başqa SəMehmandarovun əmri ilə 3-cü Gəncə piyada alayının bir taboru, 1-ci Tatar süvari alayı, 1-ci Topçu briqadasının iki batareyası, İstehkam məktəbinin bölmələri şimal sərhəddinin müdafiəsinə göndərildi. Bir müddət sonra isə şimal sərhəddinin müdafiəsinə göndərilmiş hissələrin fəaliyyətinin əlaqələndirilməsi üçün Xaçmaz dəstəsi yaradıldı. Bu dəstə sonralar Quba dəstəsi adlandırıldı və 1920-ci ilin əvvəllərinə kimi mövcud oldu.

May ayının sonlarında S.Mehmandarov şimal sərhəddinin müdafiəsinə göndərmiş olduğu polkovnik Ş.Kəsəmənlidən və 1-ci Tatar süvari alayının komandiri polkovnik Ağalarovdan vəziyyətin mürəkkəbliyi və Könüllü ordunun ilkin olaraq Qızıl Buruna kimi Azərbaycan ərazilərini işğal etməyə hazırlaşdjıqları barədə teleqram aldı. Səməd bəy bu teleqramların məzmununu hökumətin sədri N.Yusifbəyliyə çatdırdı və eyni zamanda şimal sərhəddinin möhkəmləndirilməsi üçün general-mayor İ.Usubovu Xaçmaz dəstəsinin komandiri təyin etdi.

Könüllü ordunun Azərbaycan ərazisinə təcavüzününü reallaşması sərhəd boyu yaşayış məntəqələrinin əhalisini də ciddi təşvişə salmışdı. Ona görə də bu məntəqələrin əhalisi partizan dəstələri yaradaraq özlərini müdafiə etməyə çalışırdılar. Bu partizan dəstələri sərhəd xətti boyu nizamsız olaraq fəaliyyət göstərir və hərəkətlərini qoşun hissələri ilə əlaqələndirmirdilər. Belə hərəkətlər isə bəzən qoşun hissələrinin fəaliyyətinə də mane olurdu. Ona görə Səməd bəy Mehmandarov 1919-cu il may ayının 27-də hökumətin sədri N.Yusifbəyliyə teleqram göndərərək ona sərhəd bölgələrində partizan dəstələrinin yaradılması barədə məlumat verməklə bərabər həmin dəstələrin Xaçmaz dəstəsinə tabe etdirilməsini xahiş edirdi:

«Yazmış olduğum raporta əlavə olaraq bildirirəm ki, mənim tərəfimdən Bakı alayının komandirinə aşağıdakı teleqram göndərilmişdir: « Sizin 46 nömrəli məlumatınızdan görünür ki, qəza rəisinin göstərişi ilə silahlanmış əhali Samur çayı üzrə xətt boyu yerləşiblər. Nizamsız kütlənin bu cür sərhədə yaxınlaşması müəyyən sərhəd hadisəsi, könüllü ordu ilə arzu olunmaz toqquşma törədə bilər və Xaçmaz dəstəsi toplanana kimi bu vəziyyət Könüllü ordunun irəliləməsinə səbəb ola bilər. Quba qəzası partizanlarının təşkilinin nizamlanması, onların Samur çayı sahilindən uzaqlaşdırılması və heç olmasa Şollar su kəmərinin başlanğıcının qorunması üçün Xudat stansiyası yüksəkliyinə gətirilməsi üçün tədbirlər həyata keçirilməlidir. Eyni zamanda Nazirlər Şurasının sədrinə teleqraf göndərəcəyəm ki, Quba qəzası partizanlarını sizə tabe etsin.Siz onları sonradan şəraitə uyğun olaraq istifadə edə bilərsiniz. Tatar alayına əmr olunmuşdur ki, batareya ilə birlikdə Xaçmaz stansiyasından o yana hərəkt etsin. Ora həm də zirehli qatar göndərilmişdir. Bütün bu hissələr sizə tapşırılmış dəstənin tərkibinə daxil olur. Bu günlərdə mən Xaçmaz və Qusara gələcəyəm».

Sizdə xahiş edirəm ki, Quba qəzası tərəfindən toplanmış partizanların Bakı alayının komandirinə tabe etdirilməsi üçün göstəriş verəsiniz ki,vahid hərbi komandanlıq yaradılsın və Dağıstan sərhəddinə toplaşan silahlı qüvvələrin bütün növləri bir rəhbərlikdə birləşdirilsin. Nizamsız silahlı kütlənin toplanması ilə baş verə biləcək mümkün sərhəd hadisələrinin qarşısının alınması üçün bu tədbirin

həyata keçirilməsini zəruri sayıram. Həmin hadisələr isə bizi təcavüzkar fəaliyyətdə günahlandırmağa bəhanə verə bilər və Xaçmaz dəstəsi toplanana qədər könüllülərin irəli hərəkətinə haqq qazandıra bilər. Dəstənin formalaşdırılması və təchizatı ilə bağlı hazırlıq göstərişləri veriləndən sonra bu günlərdə Xaçmaz və Qusara yola düşəcəyəm».

Burada bir məqama da diqqət yetirmək lazımdır ki, o vaxt Hərbi Nazirlik hələ Gəncədə yenrləşirdi və Səməd bəy həm qoşunların formalaşamasına, həm də şimal sərhəddinin müdafiəsinə hələ də Gəncədən rəhbərlik edirdi. bu, sözsüz ki, onun fəaliyyətini xeyli çətinləşdirirdi. Bununla belə Səməd bəy bütün imkanlarını və gücünü Azərbaycanın müstəqilliyinin qorunması işinə sərf edirdi. Yuxarıdakı teleqramdan da görünür ki, S.Mehmandarov sadəcə göstərişlər verməklə kifayətlənməyib məntəqəyə gəlməyi və vəziyyətlə yerindəcə tanış olmağı planlaşdırırdı. Bir-neçə gündən sonra Səməd bəy Mehmandarov doğrudan da şimal bölgəsinə gəldi. Onun bu səfərinin hansı tarixdə baş verdiyini dəqiq olaraq söyləmək çətindir. Rəsmi sənədlərdə olan məlumatlara görə S.Mehmandarov 1919-cu il may ayının 28-də M.Sulkeviçlə Bakıya getmiş və iyun ayının 3-də geri qayıtmışdı. Çox güman ki, Səməd bəy Azərbaycanın müstəqilliyinin ildönümünü Bakıda qeyd etdikdən sonra şimal sərhədlərinin möhkəmləndirilməsinə rəhbərlik edən Sulkeviçlə bərabər şimal bölgəsində olmuşdu. Çünki iyun ayının 6-da Qubada izdihamlı mitinq keçirən bölgə əhalisinin qəbul etdiyi qərardan aydın olur ki, Mehmandarov artıq orada olubmuş. Mitinq iştirakçılarının Azərbaycan hökumətinin adına göndərdiyi teleqramın sonunda deyilirdi : «Biz əminik ki, hökumətimiz döyüş meydanında özünün son üzvünü itirənədək ona etibar etdiyimiz qadın və qızlarımızı qara generalların əlinə verməyəcəkdir. Nikolayın maraqlarını qoruyarkən Port-Artur civarında fərqlənmiş şücaətli hərbi nazirimiz Mehmandarov bizim mahalda olduğu vaxt gözləri yaşlı halda Vətən, qadın və qızlarımızın, ana və bacılarımızın namusunun müdafiəsi yolunda canından belə keçməyə hazır olduğunu bildirmişdi».

1919-cu il iyun ayının əvvəllərində şimal sərhədlərinə gözlənilər təhlükənin qarşısının alınması məsələsi ölkə parlamentində də müzakirələrin mövzusu oldu və iyun ayının 9-da keçirilən iclasda qərara alındı ki, ölkənin müstəqilliyinin müdafiəsi üçün xüsusi orqan olan Dövlət Müdafiə Komitəsi yaradılsın. Bu Komitənin beş daimi üzvü var idi ki, onlardan biri də hərbi nazir Səməd bəy Mehmandarov idi. Komitəyə Nazirlər Şurasının sədri rəhbərlik edirdi.1919-cu il iyun ayının 11-də bu Komitə Azərbaycan ərazisində hərbi vəziyyət elan etdi. Məcburi xarakter daşıyan həmin qərarda deyilirdi :

«1.Azərbaycan Cümhuriyətinin bütün ərazisi hərbi vəziyyətdə elan edilir.

11.Aşağıdakı cinayətkar əməllər ümum məhkəmədən çıxarılır, hərbi vəziyyətin tələblərinə görə hərbi-məhkəmə nizamnaməsinin qaydalarına əsasən mühakimə edilməsi üçün hərbi məhkəməyə verilir:

1.Azərbaycan Cümhuriyyətinin dövlət hakimiyyətinə qarşı üsyan

2.Cümhuriyyət əleyhinə dövlət xəyanəti

3.Azərbaycan parlamenti sədrinin, hökumət sədrinin və üzvlərinin həyatına sui-qəsd

4.Hərbi qarovula və hərbi hissələrə basqın

5.Hökumət orqanlarına silahlı müqavimət

6.Qətl, qətlə cəhd və vəzifəli şəxslərin vəzifəsinin icrası zamanı onlara ağır xəsarət yetirmə

7.Dəmir yolu, körpülər və bu kimi tikililərin, habelə su qurğularının və dövlət əhəmiyyətli digər qurğuların, teleqraf və telefonların xarab edilməsi

8.Yaşayış binalarının və taxıl məhsullarının yandırılması

9.Hərbi xidmətçilər tərəfindən qulluq vəzifələrinin icrasına mane olan kütləvi nitqlərin oxunması və söylənməsi və ya nitqlərin və yazıların yayılması

111.Aşağıda sayılan cinayətkar əməllər də Ümumi məhkəmədən alınır və günahkarlar inzibati qaydada məsuliyyət daşıyırlar:

1.Əhalinin ayrı-ayrı hissələri və təbəqələri arasında milli ədavətə səbəb ola biləcək məlumat və şayiələrin kütləvi yayılması və oxunması

2.Hökumətin göstərişi və fəaliyyəti, hərbi hissələrin əməliyyatları və milli fəlakətlər haqqında yalan məlumatların və şayiələrin hansı üsulla olursa olsun yaradılması və yayılması...»

Qərarda odlu silahların saxlanması və yayılması da qadağan edilirdi. Bu qərar Azərbaycanın müstəqilliyinə qarşı istiqamətlənmiş olan təhlükənin aradan qaldırılması üçün ölkə əhalisinin səfərbər edilməsi, mövcud olan bütün qüvvələrin birləşdirilməsi məqsədilə edilmişdi

Şimaldan reallaşmaqda olan təhlükənin aradan qaldırılması üçün

Azərbaycan hökumətinin və xalqının qətiyyətli tələblərindən sonra ingilis komandanlığının nümayəndələri də Denikinin Azərbaycana doğru irəliləməsinə öz münasibətini bildirdi. Qafqazdakı ingilis qoşunlarının komandanı vəzifəsində general Tomsonu əvəz edən genaral Kori, Londonun Denikinlə Zaqafqaziya arasında demarkasiya xəttinin müəyyənləşdirdiyini bildirdi. Denikin qoşunlarının bu demarkasiya xəttindən cənuba keçməyə haqqı yox idi. Həmin demarkasiya xətti Bzib çayının şimalı ilə Suxuminin sərhədlərinə, oradan da Kutaisi, Tiflis, Dağıstan vilayətlərinin şərqinə doğru uzanırdı. Dağıstanda bu xətt Petrovskdan, Dağıstan dəmir yolundan 5 mil cənuba oradan da 5 mil cənub-şərqə doğru uzanan xətt boyunca keçməli idi. Dəniz sahilində demarkasiya xətti Petrovskdan 5 mil cənubda yerləşirdi. Denikin qoşunları da bu xətdən o yana keçə bilməzdilər ·

Əslində isə Denikin qoşunları ingilislərin müəyyənləşdirmiş olduğu demarkasiya xəttini keçib Azərbaycan sərhədlərinə yaxınlaşmışdılar və mövcud olan yazışmalardan da aydın olur ki, onlar geri çəkilmək niyyətində deyildi. Çünki bu qoşunlar Azərbaycanın hüdudlarına soxulmaq planlarının reallaşdırılmasına çalışırdılar.

Azərbaycan hökuməti dövlət sərhədlərini kəsdirmiş olan təcavüzün qarşısının alınması üçün istər general Denikinlə, istərsə də ingilis qoşunları komandanlığı ilə əlaqələri kəsməməklə bərabər, səmərəli və əməli tədbirlərə də əl atırdı. Şimal sərhədlərinin möhkəmləndirilməsi üçün hərbi nazir S.Mehmandarovun əmri ilə Xaçmaz dəstəsi yaradılmışdı. Yaxınlaşmaqda olan ümumi təhlükənin qarşısının alınması üçün Azərbaycanla-Gürcüstan arasında hərbi əməkdaşlıq da gücləndirildi və bu əməkdaşlığı nizamlayan hüquqi baza kimi iki

respublika arasında 1919-cu il iyunun 16-da hərbi saziş imzalandı. Sazişi Azərbaycan hökuməti tərəfindən xarici işlər naziri M.Cəfərov, hərbi nazir S. Mehmandarov və Ərkani-hərbin rəisi M.Sulkeviç imzalamışdılar. Tiflisdə üç il müddətinə imzalanmış həmin sazişin əsas mahiyyəti bundan ibarət idi ki, respublikaların hər hansı biri xarici müdaxiləyə mə'ruz qalacağı təqdirdə digər respublika ona mümkün köməyi göstərməlidir. İkitərəfli hərbi saziş konkret olaraq aşağıdakı məsələləri özündə əks etdirirdi:

1. Razılığa gələn dövlətlər bütün silahlı qüvvələri və hərbi vasitələri ilə razılığa gələn respublikalardan birinin və ya hər ikisinin müstəqilliyini və ya ərazi bütövlüyünü təhdid edən hər hansı hücuma qarşı birgə çıxış etməyi öhdələrinə götürürlər;

Qeyd: Bu bənd Zaqafqaziya respublikaları arasında ərazi bölgüsünün hələlik başa çatmaması səbəbindən yarana biləcək sərhəd konfliktlərinə şamil edilmir.

2. Əgər hər hansı qonşu dövlət birinci bəndə əsasən hərbi əməliyyat başlanan zaman bir və ya hər iki müttəfiqə sərhəd mübahisələrinin silah gücünə həll edilməsi məqsədilə hücum edərsə, onda bu dövlət vuruşan tərəf kimi qəbul edilir;

3. Bu saziş ciddi müdafiə xarakteri daşıyır və əgər tərəflərdən biri öz təşəbbüsü ilə razılıq olmadan müharibə e'lan edər və ya hərbi əməliyyatlara başlayarsa, onda digər sazişə gələn tərəf bu hərbi əməliyyatda iştirak etməyə bilər;

4. Razılığa gələn tərəflər onlar arasında meydana çıxa biləcək sərhədlər haqqında mübahisələri saziş və ya arbitraj yolu ilə həll etməyi öhdələrinə götürürlər. Bu halda qərar son nəticə hesab olunur və hər iki tərəf üçün məcburidir;

5. Bu saziş üç il müddətinə bağlanılır. Bu müddətin qurtarmasına bir il qalmış razılığa gələn tərəflərdən biri sazişi yeni müddətə uzatmaq və ya sazişdən imtina etmələri haqqında öz arzusunu bildirir: sonuncu halda saziş öz gücünü ancaq müəyyənləşdirilmiş müddət başa çatdıqdan sonra itirir;

6. Razılığa gələn tərəflər həm'rəy olaraq hər iki dövlətin müstəqilliyini və suveren hüquqların qorunmasına yönəldilən diplomatik danışıqlar aparmağı öhdələrinə götürürlər;

7. Birinci və ikinci bəndlərdə göstərilən şərait ortaya çıxdığı zaman razılığa gələn dövlətlər separat sülh bağlamamağı öhdələrinə götürürlər;

8. Razılığa gələn tərəflər qarşılıqlı razılaşma olmadan digər dövlətlərlə hərbi konvensiya bağlamamağı öhdələrinə götürürlər;

9. Əgər 5-ci maddədə göstərilən müddət bitənə qədər onun tərkibinə daxil olan bütün dövlətlərin sərhəd toxunulmazlığına tə'minat verən Xalq-lar Liqası yaranarsa, onda razılığa gələn respublikalar Xalqlar Liqasına girən andan bu saziş öz gücünü itirir;

10. Müqavilə haqqında rəsmi mə'lumat verildikdən sonra 2 həftə ərzində Ermənistana da bu sazişə qoşulmaq hüququ verilir.

Yuxarıda qeyd edildiyi kimi bu sazişdən əlavə iki dövlət arasında hərbi texniki əməkdaşlıq haqqında da sənəd imzalandı və həmin sənədə müvafiq olaraq Gürcüstan həm hərbi texnika və sursat baxımından, həm də kadrların hazırlanması baxımından Azərbaycana dəyərli kömək göstərdi. Bu respublikadan gətirilmiş olan

silah, sursat və təchizat Azərbaycanın qoşun hissələrini, o cümlədən şimal sərhəddini qoruyan qoşun bölmələrinin maddi-texniki imkanlarını xeyli yaxşılaşdırdı. Qeyd etmək lazımdır ki, Səməd bəy Mehmandarov Gürcüstanla hərbi əməkdaşlığın gücləndirilməsinə böyük əhəmiyət verirdi və o, istər Azərbaycanın şimal sərhədlərinin, istərsə də Azərbaycan ordusunun möhkəmləndirildməsi üçün Gürcüstanla hərbi əməkdaşlıqdan maksimum istifadə etməyə çalışırdı

Gürcüstanla bağlanan sazişin reallaşdırılması, respublikanın şimal sərhədlərinin qorunması istiqamətində Hərbi Nazirliyin rəhbərliyi də konkret və məqsədyönlü tədbirlər hazırlayıb həyata keçirirdi. Səməd bəy Mehmandarov 1919-cu il iyunun 26-da Dövlət Müdafiə Komitəsi sədrinin adına yazdığı raportunda bu istiqamətdə konkret olaraq nələr edildiyini və planlaşdırıldığını görmək mümkündür.

Səməd bəyin fikrincə Qarabağda və Lənkəranda iğtişaşların güclənməsi də Könüllü ordunun Dağıstan ərazisindən Azərbaycana doğru irəliləməsi ilə birbaşa bağlı idi. Yaxınlaşan təhlükənin aradan qaldırılması üçün o, Dağıstanda demarkasiya xəttindən cənubda qalmış ərazinin nəzarət altına alınmasını da təklif edirdi. Burada belə bir müdafiə zolağının yaradılması hətta Bakının hüdudlarının da qorunmasını asanlaşdıra bilərdi. Ancaq S.Mehmandarov bu işin çox ehtiyatla və tədbirlə həyata keçirilməsini lazım bilirdi. Çünki əsaslandırılmamış addım Dağıstandakı daxili qüvvələrin narazılığının güclənməsi, Könüllü ordu ilə Azərbaycan arasındakı münasibətlərin gərginləşməsi ilə nəticələnərdi. Buna yol verilməməsi üçün hərbi nazir Könüllü ordu ilə danışıqların aparılmasını, demarkasiya xəttindən əcnubda olan əraziyə qoşun çıxarılması üçün qarşılıqlı razılığın əldə edilməsini də istisna etmirdi.

Raportda Dağıstana qoşun bölmələri yeridilməsindən əvvəl orada vəziyətin hərtərəfli öyrənilməsinin, mövcud anarxiyanın aradan qaldırılması üçün lazımi tədbirlərin görülməsinin, orada mülki idarəçiliyin qaydaya salınmasının, müsəlmanlar arasında qan tökblməsi təhlükəsinin aradan qaldırılmasının zəruriliyi vurğulanırdı. Raportda daha sonra deyilirdi:

«Gürcüstanla hərbi saziş bağlandıqdan sonra döyüş hazırlığımızı gücləndirmək üçün aşağıdakı tədbirlər görülmüşdür:

1.Hərbi konvensiyanın şərtlərinə əsasən buraxılan əmlakın qəbul edilməsi üçün Tlexasın sədrliyi ilə Tiflisə yola düşəcək komissiya yaradılmışdır;

2.Bakının və onun ətrafının qurudan və dənizdən qorunması üçün mövqelərin kəşfiyyatı, onların möhkəmləndirilməsi layihələrinin hazırlanması məqsədilə Xaçmaz-Bakı-Ələt rayonuna Ərkani-hərbin zabitləri, hərbi mühəndislər və topçular çöl səfərinə göndərilmişdir. Bu məqsədlə gürcülər bizə özlərinin baş qərargah zabitini, hərbi mühəndisini və 4 istehkam zabitini vermişlər;

3. Tiflis şəhərinə aviasiya kursuna 6 zabit, radioteleqraf kursuna 4 zabit və 10 əsgər ezam edilir. Kurslar iyulun 1-də başlanır.

4.Taborların, batareyaların təsərrüfat vəzifələrini, bölük komandiri və piyada hissələrində kiçik zabit vəzifələrini tutmaq istəyən gürcü zabitləri dəvət olunmuşdur...».

Daha sonra qoşun hissələrinin formalaşdırılması prosesi, yaxın gələcəkdə

hansı hissələrin yaradılmasının planlaşdırıldığı, Gürcüstandan alınan hərbi silahların və texnikanın necə bölüşdürüləcəyi, hansı hissələrin möhkəmləndiriləcəyi barədə məlumat verilirdi. Raportda yazılanlardan aydın olur ki, şimal sərhəddində və Bakı ətrafında istehkamçı kadrlara ehtiyac duyulduğu üçün İstehkam məktəbinin istehkam bölüyünə çevriləcəyi nəzərdə tutulur. Dağıstana qoşun bölmələri yeridiləcəyi təqdirdə həmin qüvvələrin aşağıdakı şəkildə yerləşdiriləcəyi planlaşdırılırdı: Teymur Xan Şurada-iki piyada taboru, bir topçu batareyası və bir süvari alayı ( 4 bölük), Dərbəndə isə bir piyada taboru və bir topçu batareyası. Bunlardan başqa Dağıstana qüvvə göndərmək imkanı yox idi. Hərbi nazirin fikrincə Qarabağda vəziyyətin mürəkkəbləşməsi üzündən oradan və Ermənistan sərhəddindən qoşun çəkib gətirilməsi məqsədəuyğun deyildi. Eyni zamanda Lənkəranda qanunçuluğun bərpası üçün xüsusi dəstənin formalaşdırılması da artıq günün tələbinə çevrilməkdə idi. Ona görə də hələlik Dağıstana yalnız yuxarıda göstərilən miqdarda qoşun göndərilə bilərdi.

S.Mehmandarovun Dövlət Müdafiə Komitəsinin sədrinə verdiyi məlumatdan aydın olurdu ki, Hərbi Nazirliyin yaxın vaxtlarda səfərbərlik cədvəlinin, səfərbərlik planının və dəmir yolu üzrə səfərbərlik qrfikinin hazırlanmasına da başlamalı idi.

İstiqlal mübarizlərindən olan N.Şeyxzamandının xatirələrində Səməd bəy Mehmandarov və Denikin təhlükəsi ilə bağlı maraqlı qeydlər vardır. Orada deyilir: «Ağların generalı Denikin 1919-cu ildə sərhədlərimizə yaxınlaşaraq Cümhuriyyətimizə hədə-qorxu gəlirdi. Dövlətimiz və xalqımız onların təhdidlərinə əhəmiyyət vermirdilər. Bir ziyafət vaxtı Denikin təhdidlərindən söz açılmışdı. Dövlətimizin, xalqımızın və ordumuzun fikirləri eyni idi. Gələcəkləri varsa görəcəkləri də var. Ziyafətdə onların hamısı müdafiə naziri general Mehmandarlıya qulaq asırdılarü. Möhkəm iradəli 75 yaşlı ( 1919-cu ildə S.Mehmandarovun 63 yaşı var idi.M.S.) qoca aslan ayağa qalxır. Ətrafına baxaraq deyirdi: «Əziz övladlarım, general Denikinin nə mənası var , nə də qiyməti. Denikin məni rus millətindən, çardan və ordusundan yaxşı tanıyır. Və çox yaxşı bilir ki, mənim rəhbərlik etdiyim rus orduları daima digər rus ordularından üstün olmuşdur. Övladlarım, mən bütün gəncliyimi, gücümü rus ordusuna sərf etdim. Nə xoşbəxt insanam ki, ixtiyar yaşımda millətimin ordusunu yaratmaq mənə nəsib oldu. Qurduğumuz orduya komandanlıq edirəm. Mənim komandanlıq etdiyim orduya qarşı Denikin cəsarət edib vuruşmaz. Narahat olmayın və işinizlə məşğul olun».

Bir qədər irəli gedərək qeyd etmək lazımdır ki, Denikin doğrudan da Azərbaycan ərazisinə təcavüz etmədi. Heç şübhəsiz ki, O,Azərbaycan ordusunun döyüş qüdrəti, şimal sərhəddində aparılan müdafiə işləri barədə lazımi məlumata malik idi. Azərbaycan ordusundan layiqli cavab zərbəsi alacağına əmin olduğundan Denikin dövlət sərhəddini pozmağa cəsarət etmədi. Ancaq bu o demək deyildi ki, Denikin Azərbaycan ərazisinə qəsd etməkdən də əl çəkmişdi. Bu məqsədinə nail olmaq üçün Denikin Cümhuriyyət ordusunun gücünü zəiflətmək, Azərbaycan xalqının qüvvələrini parçalamaq məqsədiylə həm Lənkərandan ağqvardiyaçı qüvvələrdən, erməni təcavüzkarlarından istifadə etməyə çalışırdı.

Yuxarıda S.Mehmandarovun da qeyd etdiyi kimi Denikinin bu qüvvələrlə sıx əlaqəsi var idi və onların fəallaşması Denikinin təcavüzkarlıq planları ilə birbaşa bağlı idi. Azərbaycanın müstəqilliyinə son qoymaq bu qüvvələri bir-birinə yaxınlaşdırırdı və onların fəaliyətinin əsas istiqamətini təşkil edirdi.

Erməni təcavüzkar qüvvələrinin fəaliyyəti isə daha kəskin və təhlükəli xarakterə malik idi. Andronik və onun kimi bir-sıra qaniçənlərin rəhbərliyi altında olan soyğunçu dəstələr, çoxlu sayda erməni qurumları, Ermənistan hökuməti birlikdə Azərbaycan xalqına qarşı geniş təcavüzkarlıq fəaliyyəti həyata keçirirdilər. 1919-cu ilin yazında artıq bu təcavüzkarlıq böyük miqyas almışdı. Kəskinləşməkdə olan bu təcavüzün qarşısının alınması üçün Qarabağın mühüm strateji əhəmiyyətli nöqtələrində- Xankəndində, Şuşada, Ağdamda Cümhuriyyət ordusunun qoşun hissələri yerləşdirilmişdi. Əsgəranda mühafiə postları qoyulmuşdu. S.Mehmandarov bu hissələrin və onlara həvalə edilmiş postların möhkəmləndirilməsinə xüsusi diqqət yetirirdi. Onun göstərişi ilə bölgəyə gəlmiş yüksək vəzifəli zabitlər bu qüvvələrin döyüş hazırlığını yoxlayır və mövcud olan nöqsanların aradan qaldırılması üçün zəruri tövsiyələr verirdilər.

Qarabağda hərbi vəziyyətin xeyli mürəkkəbləşməsi ilə əlaqədar olaraq bu bölgənin general-qubernatoru X.Sultanov 1919-cu il parel ayının ortalarında Nazirlər Şurasının sədri N.Yusifbəyli qarşısında bir-sıra tədbirlərin həyata keçirilməsini, o cümlədən Qarabağda olan qoşun hissələrinin ona tabe etdirilməsini xahiş etdi. Bunu X.Sultanov onunla əlaqələndirirdi ki, teleqrafın və digər rabitə vasitələrinin yararsız işləməsi üzündən Hərbi Nazirliklə çevik şəkildə əlaqə saxlamaq mümkün deyildi. Qarabağda vəziyyətin tez-tez dəyişilməsi isə gözlənilməz qərarlar qəbul edilməsini, operativ hərəkətlərlə təcavüz ocaqlarının dərhal aradan qaldırılmasını tələb edirdi. İngilis komandanlığının Şuşada olan missiyası da Qarabağda olan hərbi qüvvələrin general-qubernatorun rəhbərliyi altına verilməsini məqsədəuyğun bilirdi. Nazirlər Şurasının sədri N.Yusifbəyli Qarabağ general-qubernatorunun irəli sürdüyü dəlillərlə razılaşaraq bölgədəki hərbi qüvvələrin onun rəhbərliyi altına verilməsini məqsədəuyğun saydı və bununla bağlı 1919-cu il aprel ayının 19-da hərbi nazir S.Mehmandarova məktub göndərdi. Qarabağdakı qoşun hissələrinin general-qubernatorun tabeçiliyinə verilməsi məsələsi Azərbaycan hökumətinin iclasında da müzakirə edildi. Burada da qoşun hissələrinin general-qubernatora tabe etdirilməsi və qoşun hissələrə birbaşa rəhbərlik üçün general-qubernatorun hərbi məsələlər üzrə müavininin təyin edilməsini düzgün hesab edirdi. Aprelin 20-də N.Yusifbəyli hökumətin qərarı ilə bağlı S.Mehmandarova teleqram göndərdi və ondan xahiş etdi ki, general-qubernatorun hərbi məsələlər üzrə müavini vəzifəsinə bir hərbçinin seçilməsi məsələsinə baxsın.

Səməd bəy Mehmandarov məsələnin belə qoyuluşu ilə razılaşmadı. Qarabağda erməni təcavüzkarlığının aradan qaldırılması üçün təsirli tədbirlərin görülməsi zərurətini təsdiq edərək Səməd bəy Qarabağda yeprləşən qoşun hissələrinin mülki şəxsə tabe etdirilməsini düzgün saymırdı. Onun fikrincə mülki şəxs lazımi hərbi təcrübəyə malik deyildi. və döybüşlərin aparılmasının ona tapşırılması ağır nəticələrə gətirib çıxara bilərdi. Mövcud şəraitdə mülki şəxslərin

hərbi qüvvələrə rəhbərlik etməsini Səməd bəy təqdir etmirdi. O bildirirdi ki, mülki və ya məsul şəxslər zərurət yarananda hökumət qarşısında vəsatət qaldırmalı və həmin vəsatət əsasında qoşun hissələrinin istifadəsi haqqında qərar qəbul edilməlidir.

Azərbaycan hökumətinin rəhbərliyi Səməd bəy Mehmandarovun bu qənaətləri lə razılaşdı və qoşunların idarəetmə strukturunun dəyişidirilməsini lazım bilmədi. Ancaq Səməd bəy heç də Qarabağdakı erməni təcavüzkarlığının qarşısının alınması üçün qoşun hissələrinin istifadəsinin əleyhinə deyildi. Əksinə, erməni millətçilərinə layiqli cavab verilməsi üçün buradakı qoşun hissələrinin gücünün daha da artırılmasını vacib sayır və bu istiqamətdə görülən işlər barədə o, 1919-cu il aprel ayının 21-də N.Yusifbəylinin adına göndərdiyi raportunda da məlumat verirdi. Səməd bəy yazırdı:

«Çox hörmətli Nəsib bəy!

Hazırda Xankəndi qarnizonu xəstələr istisna olmaqla 1500 nəfərdir və orada kifayət qədər döyüş sursatı vardır. Ora ardıcıl olaraq yeni çağırışçılar göndərilir və təsdiq olunmuş ştat tərkibi tamamlandıqdan sonra yalnız Cavanşir piyada alayında əsgərlərin sayı 3 minə çatacaq. Bu alay Qarabağ süvari alayı və dağ divizionu ilə birlikdə Qarabağ üçün kafi qüvvəni təşkil edəcəkdir.

Ancaq məlumat verməliyəm ki, çağırış məntəqələrinin qeyri-qənaətbəxş işi çağırış yaşına çatmamış (14-15 yaş) və ya çağırış yaşını keçmiş ( 35 1aşına qədər) habelə fiziki cəhətdən zəif olan çoxlu adamların yığıma cəlb edilməsini şərtləndirən çağırış siyahılarının onlar tərəfindən ifrat dərəcədə başdansovdu tərtib edilməsi çağırışın gedişinə xeyli maneçilik törədir. Nəticədə çağırışçıların çoxu çıxdaş edilir.

Xahiş edirəm Sizə olan sonsuz hörmətimi və sədaqətimi qəbul edəsiniz. S.Mehmandarov».

Ermənilər isə öz niyyətlərindən əl çəkmək fikrində deyidilər və nəticədə iş o yerə gəlib çıxmışdı ki, Qarabağın digər əraziləri bir yana qalsın Şuşa şəhəri özü də tam şəkildə general-qubernatorun nəzarəti altında deyildi. Ermənilər Şuşa-Yevlax yolu boyu bir-sıra yüksəkliklərdə mövqe tutub yoldan keçəkləri gülləyə basırdılar. May ayının əvvəllərində bu yolla hərəkət edən 9 azərbaycanlı tutulub naməlum istiqamətə aparılmışdı.

May ayının ortalarında bu yolla hərəkət edən daha 7 azərbaycanlı yoxa çıxmışdı. Şuşa-Qaryagin yolu günü-gündən genişlənməkdə olan erməni silahlı qüvvələrinin tam nəzarəti altına düşmüşdü.

May ayının sonlarında sürülərin dağ otlaqlarına aparılması kampaniyasına başlanmalı idi. Ermənilərin təcavüzlərinin genişləndiyi bir vaxtda sürülərin və onların sahiblərinin üzərinə ermənilər tərəfindən basqınlar ediləcəyi təhlükəsi real xarakter alırdı. Bu təhlükəni sovuşdurmaq üçün Şuşadakı Britaniya missiyasının nümayəndələri şəhərdə e'lanlar yayıb əhalini köçlərə ziyan yetirməməyə çağırırdı .

Qarşılıqlı münasibətlərin kəskinləşdirilməsi üçün hər cürə hərəkətə əl atmaqdan çəkinməyən erməni millətçilərinin Britaniya missiyası nümayəndələrinin çağırışlarına qulaq asmayacağı Qarabağ general-qubernatorluğunda şübhə

doğurmurdu. Təcavüzkar planların reallaşdırılması üçün Ermənistan hökumətindən böyük miqdarda vəsait alan Qarabağ millətçiləri havadarlarının onlarla bağladıqları ümidlərin əbəs olmadığını sübut etmək üçün münasib vaxt gözləyirdilər. Yaxın günlər üçün planlaşdırılan belə əməllərin qarşısının alınması və bütünlükdə hökumət orqanı kimi general-qubernatorluğun möhkəmləndirilməsi üçün X.Sultanov bir sıra tədbirləri həyata keçirməyi qərara aldı. 1919-cu il may ayının sonlarında Şuşanın erməni hissəsində olan əsgər qışlalarına qoşun bölmələrinin yerləşdirilməsi məqsədəuyğun bilindi. Bu qışlalar istifadəsiz qalmışdı və Azərbaycanın qoşun bölmələrinin orada yerləşdirilməsi həmin bölmələrin məişət şəraitini yaxşılaşdırmaqla bərabər erməni millətçilərini azğınlığının məhdudlaşdırılmasına da kömək edə bilərdi. Ancaq bunun qarşıdurmanı xeyli kəskinləşdirəcəyindən ehtiyatlanan general-qubernator müəyyən qədər gözləməyi lazım bildi. Şəhərin erməni hissəsində yerləşən xəzinədarlığın və poçtun Azərbaycan hissəsinə köçürülməsi isə dərhal həyata keçirildi.

Xəzinədarlığın və poçtun köçürülməsi də erməni millətçiləri tərəfindən vəziyyətin qızışdırılmasında məharətlə istifadə edildi. 1919-cu il iyulun 3-də millətçi qüvvələr Şuşanın erməni hissəsindən keçən iki azərbaycanlı əsgər üzərinə hücum edib, onların atını, tüfəngini və patronlarını əllərindən aldılar. Əsgərlər özləri isə güclə qaçıb canlarını qurtardılar. Erməni millətçiləri tərəfindən Azərbaycan hökuməti əleyhinə təbliğatların genişləndirilməsi, iyunun əvvəllərində Qarabağa Ermənistandan silahlı dəstələrin gələcəyi xəbərinin yayılması və nəhayət, iyunun 3-də Azərbaycan əsgərlərinə qarşı həyata keçirilən zorakılıq göstərirdi ki, daha irimiqyaslı təcavüzlərin baş verəcəyi heç də uzaqda deyil. Gözlənilən təhlükəni sovuşdurmaq və köç kampaniyasını sakitcə başa çatmasını tə'min etmək üçün iyunun 4-də Xosrov bəy Sultanov tərəfindən daha qətiyyətli tədbirlər həyata keçirildi. Bu tədbirlər Şuşa-Yevlax yolunun təhlükəsizliyinin tə'min edilməsi ilə bağlı idi.

İyunun 6-da X.Sultanov 1-ci piyada diviziyasının komandiri polkovnik Cavad Şıxlinski ilə əlaqə yaratdı və ondan Şuşadakı hərbi qüvvələrin möhkəmləndirilməsini xahiş etdi. C.Şıxlinski Şuşaya əlavə olaraq bir süvari bölüyü və iki ədəd pulemyot göndərdi. Bu barədə o, hərbi nazir SəMehmandarova da məlumat verdi. Bir süvari bölüyü və Şuşadakı piyada bölmələri şəhərin erməni hissəsindəki qışlaları daxil oldular və bununla da ermənilərin fəallaşmasına güclü bir zərbə vuruldu. Xüsusən hərbi qüvvələrin çevik və qətiyyətli hərəkətləri erməni təcavüzkarlarının əl-qol açmasının qarşısını aldı. S.Mehmandarov , eləcə də Hərbi Nazirliyin digər rəhbərləri bu hadisələri diqqətlə izləyirdilər. 1-ci piyada diviziyasının komandirindən başqa Qarabağ general-qubernatoru da Hərbi Nazirliklə lazımi əlaqə saxlayırdı. 1919-cu il iyul ayının 13-də Səməd bəyə göndərdiyi teleqramında isə Şuşada baş verən iğtişaşların yatırılmasında qoşun bölmələrinin fəaliyyətindən razılıq edirdi.

1919-cu ilin iyul ayında Qarabağdakı vəziyyəti sabitləşdirməklə bərabər ölkənin cənubunda, Lənkəran bölgəsində baş verən separatçılıq hərəkatının aradan qaldırılması zərurəti də ortaya çıxdı. Formalaşmaqda olan Cümhuriyyət ordusunun əsasən şimal sərhədi boyunca və Qarabağda yerləşməsindən istifadə edərək həm

bolşevik, həm də ağqvardiyaçı qüvvələr burada möhkəmlənməyə çalışırdılar.

Bütün bunlar Azərbaycan hökumətindən qətiyyətli tədbirlər görməyi, respublikanın cənubunda birdəfəlik sabit vəziyyətin yaradılmasını tələb edirdi. Belə qətiyyətli tədbirlər Azərbaycan ordusunun qoşun hissələrinin bölgəyə göndərilməsi ilə yerinə yetirilə bilərdi. Hərbi Nazirliyin rəhbərliyi bölgəyə qoşun dəstəsi göndərilməsi barədə hələ 1919-cu ilin iyulunda göstəriş almışdı. Azərbaycan hökuməti bölgədə vəziyyətin sabitləşdirilməsi və qanuni hakimiyyətin bərqərar edilməsi üçün ingilis komandanlığı ilə məsləhətləşmələr aparmağı, Azərbaycan hökumətinin nümayəndəsi olan fövqəl'adə müvəkkilin bölgəyə göndərilməsi üçün yollar aramaqla bərabər problemin hərbi yolla həlli məsələsini də mümkün sayırdı və buna hazırlıq görülməsi üçün Hərbi Nazirliyə tapşırıq vermişdi.

1919-cu il iyulun 7-də hərbi nazir S. Mehmandarov Nazirlər Şurasının sədrinə məktub yazaraq ona aldığı tapşırığın icrası ilə bağlı bir sıra mülahizələrini çatdırdı. Nazir yazırdı ki, yaranmış şəraitdə hələlik Lənkərana xüsusi qoşun dəstəsi göndərmək imkanı yoxdur. Çünki Qarabağda ermənilərin təcavüzünün fəallaşması nəticəsində vəziyyət xeyli mürəkkəbləşmişdi. Oradan heç bir qüvvəni çıxarıb Lənkərana göndərmək düzgün olmazdı. Respublikanın şimalında olan Xaçmaz dəstəsinin hissələrinin gətirilməsi və onun zəiflədilməsi də xoşagəlməz nəticələr verə bilərdi. Nazirin qənaətinə görə, Gəncədə olan qüvvələri Lənkərana göndərməklə Gəncənin özünü müdafiəsiz qoymaq da məqsədəuyğun olmazdı. Çünki quberniyanın bir sıra məntəqələrində hökumət əleyhinə həyəcanlar baş verirdi və hökumət əleyhinə olan qüvvələr Gəncənin müdafiəsinin zəifliyindən istifadə etməyə çalışa bilərdilər .

S.Mehmandarov məktubunda hökumət miqyasında görülməsi vacib olan məsələlərə də toxunurdu. Bu, birinci növbədə hissələrin komplektləşdirilməsi sahəsində yerli inzibati orqanların qarşısında dayanan vəzifələrlə bağlı idi. S.Mehmandarova görə döyüş bölgələrində olan hissələrin heç də hamısının tam şəkildə komplektləşdirilməməsi müəyyən gərginliklər ortaya çıxarmışdı. Səməd bəy onu da əlavə edirdi ki, Lənkəran məsələsi ilə bağlı artıq Hərbi Nazirlikdə müşavirə keçirilmiş və alınan tapşırığın yerinə yetirilməsi üçün lazımi tədbirlərin həyata keçirilməsinə başlanmışdır. Nazirin fikrincə Lənkəran istiqamətinə qoşun dəstəsini yaxşı halda bir aydan sonra, yəni avqust ayında göndərmək mümkün olardı. Çünki ora göndəriləcək hissələrin kəm-kəsirləri düzəldilməsi, komplektləşdirilməsi üçün müəyyən işlər görülməli və dəstə tam şəkildə hazırlanmalı idi. Buna da vaxt lazım idi. Dəstənin tərkibinə daxil olan hissələrin qarşılıqlı fəaliyyət anlaşması qazanmaları üçün müəyyən təmrinlr də icra etməli idilər. Lənkərana göndəriləcək dəstənin tərkibi isə aşağıdakı kimi planlaşdırılırdı: bir piyada alayı, bir süvari alayı, bir yüngül batareya, bir qaubitsa batareyası, bir süvari-dağ və ya dağ batareyası, iki zirehli avtomobil və iki aeroplan .

Səməd bəy Mehmandarov Nazirlər Şurası sədrinin adına göndərdiyi məktubunda yazırdı : «Son zamanların siyasi hadisələri Qarabağ və Lənkəran hadisələrini xeyli dərəcədə kəskinləşdirmişdir. Bizim silahlı qüvvələrin indiki vəziyyətində onların eyni vaxtda və dərhal həlli mümkün deyildir. Çünki Xaçmaz

istiqamətindən hər hansı bir hissəni götürmək olmaz. Quberniyada həyəcanların sakitləşmədiyi bir vaxtda Gəncənin boşaldılması isə təhlükəlidir. Buna baxmayaraq mənim tərəfimdən aşağıdakı hazırlıq göstərişləri verilir və onların uğuru büsbütün rəhbərliyin bu işə lazımi münasibətindən asılıdır:

1. Xankəndində yerləşən 1-ci Cavanşir piyada  və 2-ci Qarabağ süvari alaylarını təyin edilmiş ştata çatdırmaq. Bunun üçün çağırış orqanları və polis bütün gücünü səfərbər etməlidir ki, təkcə Şuşa qəzası üzrə bir ayda cəmi dörd çağırışçı verilməsi ilə nəticələnən tam uğursuz fəaliyyət əvəzinə daha çox çağırışçı cəlb edilməsi, at və yəhərlər cəlb edilməsi lazımi enerji ilə həyata keçirilsin.

2.Gürcülərdən alınmış toplardan 26 iyun tarixli 3154 nömrəli raportda məlumat verildiyi kimi batareyalar yaradılacaq. Ancaq çağırışçılar və atlar tapılmasa bu batareyaları da biz görə bilməyəcəyik.

3.Qarabağda mümkün ola biləcək hadisələrə qarşı Xankəndi qarnizonunun gücləndirilməsi üçün Zaqataladan 800 nəfərlik birinci taboru gətirmək Əgər 4-cü Zaqatala piyada alayının (sonradan 2-ci Zaqatala piyada alayı olmuşdur-M.S.) 3-cü taborunun formalaşması uğurla getsə onda 2-ci taboru da əlavə edərəm. 1-ci Cavanşir piyada və 2-ci Qarabağ süvari alayları ştat sayına çatdırılarsa onların gücü hər cürə hadisənin qarşısını almağa kifayət edər.

4.Lənkəran qəzasına ekspedisiya üçün aşağıdakı tərkibdə olan dəstəni nəzərdə tuturam: 1-ci süvari alayı, 1-ci yüngül, 1-ci qaubitsa və 1-ci dağ-süvari və ya dağ batareyaları, 2 zirehli avtomobil və 2 aeroplan.

Bu qoşunlar bir aydan tez hərəkət edə bilməzlər. Çünki onlar həm adamlar, həm də atlar sarıdan ştata sayına çatdırılmamışdır.Bundan başqa bu hissələri yetişdirmək və heç olmasa bir-neçə atış keçirmək lazımdır.

Həmin müddət ərzində  isə əməliyyat rayonunun (Muğan və Lənkəran) zəruri kəşfiyyatı aparılacaq və toplanmış məlumatlar əsasında əməliyyat planı hazırlanacaqdır. Lənkəran məsələsi ilə bağlı ilkin iclas artıq keçirilmişdir.

Təkrar edirəm ki, Hərbi Nazirlik tərəfindən bütün tədbirlər həyata keçirilir, ancaq formalaşmanın uğuru tamamilə rəhbərlərin fəaliyyətindən asılıdır».

Mövcud olan arxiv sənədlərindən aydın olur ki, Səməd bəy Mehmandarov Lənkəran məsələsi ilə bağlı keçirilən müşavirəyə parlamentin üzvü M.Ə.Rəsulzadəni də dəvət etmişdi. Həmin müşavirə 1919-cu il iyul ayının 5-də Parlament binasının yaxınlığında yerləşən Realnı məktəbin binasında keçirilmişdi.

Lənkərana qoşun dəstəsi göndərilməsinə hazırlıq tədbirləri çərçivəsində Lənkəranın və ətrafının kəşfiyyatı aparıldı. Bolşeviklərin ağalığı dövründə aparılmış bu kəşfiyyatla onların qüvvələrinin və hərbi texnikasının sayı, yerləşdikləri məntəqələr, hərbi imkanları, ərazinin xüsusiyyətləri, hərəkət marşrutu üzərində olan kəndlərin demoqrafik tərkibi, hakim yüksəkliklər və s. məsələlər barədə ətraflı mə'lumat toplandı.  İyulun 23-də, yəni bölgəyə hərbi qüvvə gzöndərilməzdən xeyli əvvəl hərbi nazir C.Mehmandarov Lənkəran qəzasının sakinlərinə müraciətnamə imzaladı. Bu müraciətnamə aşağıdakı məzmunda idi:

"Vətəndaşlar!

Azərbaycan Respublikası hökumətinin iradəsi ilə mən Lənkəran qəzasına dəstə göndərirəm. Vətəndaş müharibəsinə birdəfəlik son qoymaq, qayda-qanun

yaratmaq, sizi dinc əhaliyə əzab verən zorakı dəstələrdən və qatillərdən azad etmək işi bu dəstəyə tapşırılıb.

Azərbaycan qoşunları sizin yanınıza Azərbaycanın ayrılmaz bir hissəsi olan bu qəzada məskunlaşmış dinindən və milliyyətindən asılı olmayaraq bütün xalqlara qarşı münasibətdə ədalətin və qanunçuluğun daşıyıcısı kimi gəlirlər.

Silahlı qüvvələrin himayəsi ilə ölkənin bütün sahələrinin idarə olunmasında harada ki yoxdur tə'cili mülki idarəetmə orqanları bərpa ediləcək. Mən əminəm ki, siz özünüz də Azərbaycan Respublikasının gələcək tamhüquqlu vətəndaşları kimi sülh şəraitində birgə yaşamağın möhkəm əsasının qoyulması marağındasınız və bütün vasitələrlə hakimiyyət orqanlarının bütün qanuni göstərişlərini könüllü yerinə yetirməklə və Azərbaycan Cümhuriyyətinin nümayəndələrinə xeyirxah münasibətinizlə ölkədə tam qanun-qaydanın bərqərar edilməsinə köməklik göstərəcəksiniz.

Bununla bərabər mə'lum edirəm ki, sovetlər, komitələr və ya "Muğan respublikası" adı altında hər hansı özbaşına təşkilatın yaradılmasına yol verilməyəcəkdir.

Lənkəran qəzasında yalnız bircə Azərbaycan Respublikasının hakimiyyəti tanınmalıdır və onun göstərişlərinə itaət etməyənlər müharibə dövrünün qanunlarına əsasən qiyamçı kimi mə'suliyyətə cəlb olunacaqlar.

1. Bolşevik hərəkatında iştirak edənlərin, habelə bir tərəfdən digər tərəfə keçərək sabitlik göstərməyənlərin hamısından silahlar alınacaqdır.

Diyarda sabitlik və qanunçuluğun qorunmasına həmişə çalışmış şəxslər dəstə rəisindən silahın saxlanması barədə icazə almalıdırlar.

Xəbərdar edirəm ki, rus əhalisinə qarşı hər hansı bir zoorakılığa və soyğunçuluğa yol verməyəcəyəm, çünki onları da qəzada yaşayan başqa millətlərin nümayəndəsi kimi Azərbaycan Cümhuriyyətinin vətəndaşı sayıram.

2.Rus kəndlilərinin indi malik olduğu və onların atalarının sahib olduğu torpaqlar saxlanılacaq və onlardan alınmayacaqdır.

Amma Rus əhalisinin şəxsiyyət və mülkiyyət toxunulmazlığına tə'minat verərkən mən onlardan da hakimiyyətorqanlarına və qanunlara tam şəkildə tabe olmağı tələb edirəm.

Hər bir silahlı müqavimət ölüm cəzası ilə cəzalandırılacaq və belə hallarda qoşunlara amansız olmaları barədə əmr olunub.

Bu və ya digər bəhanələrlə əhalini qoşunlar və hakimiyyət əleyhinə qaldırmaq istəyənləri də bununla bağlı xəbərdar edirəm.

Mən də öz növbəmdə dəstə komandirinə əmr etmişəm ki, qoşunun əhaliyə heç bir xətər toxundurmaması haqda ölçü götürsün və dinc əhaliyə qarşı hər hansı zorakılıq göstərənlər ciddi cəzalandırılsınlar.Əhalidən alınan hər şeyin dəyəri pulla ədalətli qiymətlərə görə ödəniləcəkdir ".

Bu müraciətin mətni rus dilində hazırlanmışdı. Ərkani-hərbin rəisi Sulkeviçin əmri ilə mətn Azərbaycan dilinə tərcümə edilərək çoxaldılmış və xüsusi Lənkəran dəstəsinin komandiri H.Səlimova verilmişdi ki, bölgəyə gələndə əhali arasında yayılsın.

Lənkəran dəstəsinin formalaşdırılması və fəaliyyəti barədə yuxarıda kifayət

qədər məlumat verilmişdi. Təkrarçılığa yol vermədən qeyd edilməlidir ki, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsini S.Mehmandarov özünün vətəndaşlıq borcu sayırdı və ona görə də dəstənin bütün fəaliyyətini nəzarət altında saxlayırdı.

Avqust ayının 14-də Lənkəran dəstəsi Hacıqabuldan hərəkətə başlayan günü Səməd bəy Mehmandarov Səlimova teleqram göndərdi.O tələb edirdi ki, dəstənin tərkibinə daxil olan yüngül batareya dərhal Hacıqabula və oradan da Bakıya göndərilsin. Elə həmin gün göndərilmiş başqa bir teleqramda isə Səməd bəy bildirirdi ki, yaranmış olan vəziyyət qoşunların tezliklə Bakıya qaytarılmasını tələb edir. Ona görə də nazir bildirirdi ki, dəstə Lənkərana çatan kimi ona bir günlük istirahət verilsin və sonra geri dönsün. Lənkəranda isə 600 nəfərlik bir tabor saxlanılmalı idi. Gələcəkdə Lənkəran köməkçi taboru təşkil edildikdən sonra orada qalan tabor da geri qayıtmalı idi.

Heç şübhəsiz ki, S.Mehmandarov səlimovdan sadəcə olaraq Lənkərana çatıb geri qayıtmağı tələb etmirdi. O, dəstədən qarşıya qoyulan bütün vəzifələrin operativ və sürətlə yerinə yetirilməsini tələb edirdi. Çünki yaranan vəziyyət vaxt itirmədən qoşunların geri qaytarılmasını, respublikanın dövlət müstəqilliyi üçün meydana gələn təhlükənin sovuşdurulmasına cəlb edilməsini zəruri edirdi. Qarabağda və ölkənin şimalında hərbi vəziyyətin mürəkkəb olması ilə bərabər Şamaxı qəzasının malakan əhalisi Azərbaycan hökumətinə qarşı itaətsizlik göstərir, yerli idarəetmə orqanlarının iradəsi əksinə gedirdilər. Burada hökumət əleyhinə çıxışlar elə bir miqyas almışdı ki, qəza rəisi malakanların tərk-silah edilməsi üçün hərbi qüvvə göndərilməsini xahiş etmişdi. S.Mehmandarov da ora Şəki süvari alayının göndərilməsini qərara almışdı.

General Səlimova göndərdiyi teleqramında S.Mehmandarov daha sonra tələb edirdi ki, əhalidən alınmış olan toplar və odlu silahlar Hacıqabula, oradan da Gəncəyə nəql edilsin. Əhalidə olan silah , sursat və hərbi texnikanın toplanıb yığılması barədə vaxtaşırı məlumat verilməsini də Səməd bəy genarl Səlimovdan tələb edirdi.

Azərbaycan hökumətinin ölkənin ərazi bütövlüyünün təmin edilməsi üçün çox qətiyyətli addımlar atmağa başladığını görən separatçı qüvvələr dövlət orqanlarına tabe olduğunu bildirdilər. Ancaq onlar bu məqsədlə aparılmalı olan danışıqları hər vasitə ilə uzatmağa çalışırdılar. Separatçı qüvvələrin belə ikiüzlü mövqeyinə S.Mehmandarov dərhal əməli cavab verdi və avqustun 14-də Səlimova göndərdiyi başqa bir teleqramındı əhalidə olan həm odlu silahların, həm də soyuq silahların yığılmasını tələb etdi. Nazir H.Səlimova çatdırırdı ki, əhali arasında izahat işləri aparılsın və onlar silahlarının gizlədəcəyi təqdirdə hərbi səhra məhkəməsinə veriləcəkləri barədə xəbərdar olunsunlar. Belə sərt tədbirlər hərbi qulluqçulara qarşı da irəli sürülürdü. Əhalidən alınmış silahları gizlətməyə cəhd göstərən hər bir hərbi qulluqçu ciddi məsuliyyətə cəlb olunmalı idi : « Muğanın rus əhalisinin ikibaşlı davranışı, onların etibarsızlığı və danışıqları daimi uzatması silahlı toqquşma ehtimalının istisna edilməsi məqsədiylə əmr edirəm: həmin əhalidən bütün tüfənglər, revolverlər, pulemyotlar, toplar, patronlar, soyuq silahlar-süngülər, qılınclar, xəncərlər yığılsın, bunun üçün komissiya təşkil edin,ona bütün

yığılmış tüfəng, pulemyot, top və süngülərin nömrələrinin protokollaşdırılmasını tapşırın. Əhalini xəbərdar edin ki, sadalanan bu silahların gizlədilməsində günahkar olanlar hərbi-səhra məhkəməsinə veriləcəklər. Əgər sizdə bütün silahların təhvil verilməsi barədə əminlik olmasa onda geri qayıdanda rus əhalisindən bütün silahların yığılması barədə yenidən yoxlama aparın. Kimdə silah tapılsa onu hərbi-səhra məhkəməsinə verin. Zabit və əsgərləri xəbərdar edin ki, yığılmış silahların mənimsənilməsinə cəhd göstərilərsə onlar ciddi məsuliyyətə cəlb olunacaqlar. Yığılmış silahı və döyüş sursatlarını topçu idarəsinin rəisinə göndərin. Bu teleqramı alan kimi mənə teleqraf göndərin».

Lənkəran əməliyyatı Hərbi Nazirliyin rəhbərliyi ilə qoşun hissələri arasında fikir və əməl birliyinin bariz nümunəsi idi. Ölkənin müstəqilliyinin qorunması üçün hərbi nazir tərəfindən ordunun tətbiqi ilə qəbul etdiyi qərar əsgər və zabitlər tərəfindən daxilən müdafiə olunmaqla bərabər çox fəal və səmərəli şəkildə yerinə yetirilirdi. Yəni öölkənin müstəqilliyi ideyası əsgər və zabitlərin şüurunda özünə yer taparaq əməli bir fəaliyyətə çevrilmişdi.

Lənkəran dəstəsinin uğurlu fəaliyyəti , çox çevik və qətiyyətli hərəkətləri həm də Səməd bəy Mehmandarovun rəhbərlik qətiyyətinin əyani nümayişi idi. Bakıdan yüzlərlə kilometr uzaqlarda olan bu dəstənin bütün hərəkəti Səməd bəy tərəfindən izlənilir və həmin dəstənin fəaliyyəti istiqamətləndirilirdi.

Kifayət qədər etibarlı şəkildə qurulmuş rabitə vasitəsiylə H.Səlimov avqustun 15-də S.Mehmandarovun bütün teleqramlarını aldı və elə gün də ona cavab teleqramı göndərildi. S.Mehmandarovun yuxarıda toxunulan teleqramında irəli sürdüyü tələblər onun Lənkəran qəzası əhalisinə müraciətində irəli sürdüyü tələblərlə müqayisədə daha qətiyyətli idi və burada bütün silahların toplanması zəruri bilinirdi. Yerli əhali isə bəhanə edirdi ki, ingilis komandanlığının iştirakı ilə Muğandakı ağqvardiyaçı qüvvələrin rəhbəri polkovnik İlyaşeviçin və Azərbaycan hökuməti nümayəndəsinin əldə etiyi razılaşmada ümumiyyətlə tərksilah məsələsindən söhbət getmirdi. Rusdilli əhali silahların hamısını təhvil verəcəyi təqdirdə bölgədə mövcud olan silahlı dəstələrin basqınları qarşısında müdafiəsiz qalacaqlarını iddia edirdilər. Onlar bütün silahların təhvil verilməsi tələbini xoş iradə ilə qarşılamırdılar. Bütün bunlarla bağlı H.Səlimov avqustun 15-də S.Mehmandarova göndərdiyi teleqramında ona verilən tapşırıqları bir daha dəqiqləşdirməyə çalışırdı: «3631, 3632, 3634 nömrəli teleqramları ayın 15-də aldım. Ayın 16-da batareyanı yola salıram. Sizin müraciətnamənizi yaymışam və ingilis nümayəndəsinə məlumat vermişəm ki, itaətkarlıq edənlərdən silah alınmayacaqdır. Aldığım məlumatlara görə muğanlılar yerli hakimiyyət vasitəsiylə pudemyot və qılıncları təhvil verməyə hazırdırlar və deyəsən dəstəni dostcasına qarşılamağa hazırlaşırlar. Onlar yalnız müvəqqəti olaraq silahlarının saxlanmasını xahiş edirlər. Çünki müsəlman əhalisinin, xüsusən də şahsevənlərin onlara düşmən münasibətindən qorxurlar.

Məruzə edirəm ki, Sizin müraciətnamənizdən sonra 3631 nömrəli teleqramda ( məzmunu yuxarıda verilmiş 14 avqust tarixli teleqram-M.S.) verilən sərəncamın yerinə yetirilməsi mənim üçün çətin olacaqdır. Çünki heç kəs mənə inanmayacaqdır. Bu isə Sizin və hökumətin hakimiyyətini gözdən salacaqdır.

Qalan hər şey isə Sizin sərəncamınıza uyğun olaraq dərhal yerinə yetiriləcəkdir. Məruzə edirəm ki, Kür çayını və qollarını keçmək üçün üç gün vaxt lazımdır. Bu gün axşama kimi Kürü keçməyi başa çatdıracağam Ayın 16-da dəstəyə istirahət verəcəyəm. 17-də yenidən hərəkətə başlayacağam. Dəstənin vəziyyəti hələlik çox gözəldir, tam qanun-qayda var. Salyanın və yolüstü kəndlərin əhalisi qoşunları sevinclə qarşılayırlar».

Bölgə əhalisində olan silahların bütünlüklə toplanıb-toplanmaması ildə bağlı çətinlik ortaya çıxsa da Səməd bəy qətiyyətli mövqeyində dayanmağı davam etdirirdi. O yaxşı anlayırdı ki, yerli əhalidə silahın qalması Azərbaycanın müstəqilliyi üçün bir təhlükədir və ona görə də nəyin bahasına olursa olsun əhalinin bütünlüklə tərksilah edilməsini vacib sayırdı. Avqust ayının 17-də Baş Ərkani-hərb rəisi, general-leytenant M.Sulkeviç də H.Səlimova teleqram göndərdi və S.Mehmandarovun sonuncu əmrinin yerinə yetirilməsi tələbinin zəruriliyini açıqlamağa çalışdı. O bildirirdi ki, muğanlıların Azərbaycan hökumətinə qarşı ikibaşlı mövqe tutduqları və avqustun 11-də keçirdikləri qurultayda qərəzli və hədələyici bir qərar qəbul etdikləri üçün onların bütün silahları toplanmalıdır. S.Mehmandarovun müraciətnaməsində irəli sürülən tələblərə dəyişiklik edilməsi bununla bağlı idi. Rus əhalisinin ehtimal edilən təhlükədən qorunmasına gəlincə isə genearl Sulkeviç əlavə edirdi ki, bu, yerli hakimiyyət orqanlarının işidir və bu istiqamətdə onlar lazım olan tədbirləri həyata keçirəcəklər.

Avqustun 19-da S.Mehmandarov H.Səlimova göndərdiyi teleqramında yalnız tüfənglərin yerli əhalidə saxlanmasını mümkün sayırdı. Onun fikrincə Azərbaycan hökuməti itaətkarlığını bildirənlərə soyğunçu dəstələrdən qorunmaq üçün tüfənglərin saxlanmasına icazə verə bilərdi: «Hökumət tərəfindən qəbul edilmiş heç bir öhdəlik yoxdur, heç bir məhdudiyyət qoyulmadan tam itaətkarlıq tələb olunur. Bütün toplar, puleymotlar, zirehli avtomobillər yığılmalıdır, itaətkarlıq bildirənlərə isə soyğunçu dəstələrdən özünümüdafiə üçün tüfənglər saxlanıla bilər. Onların hər birinə tüfəng nömrəsi göstərilməklə Sizin tərəfinizdən möhürlə təsdiq olunmuş silah daşımağa icazə verilməlidir. Qıcıqlandırıcı hərəkətlərinə görə polkovnik İlyaşeviç və onun oğlu saxlanılmalı və Bakıya göndərilməlidir».

Elə həmin gün Səməd bəy Mehmandarov H.Səlimova başqa bir teleqram da göndərdi. Səməd bəy bu teleqramda tələb edirdi ki, Azərbaycan hökumətinin və ordusunun nüfuzunun aşağı düşməsinə yol verməmək üçün daha qətiyyətli hərəkət edilsin və dəstənin daha tez Bakıya qaytarılmasını təmin etsin.

Avqustun 22-də göndərdiyi teleqramında isə Səməd bəy H.Səlimovdan tələb edirdi ki, Hərbi Nazirlik vaxtaşırı əlaqə saxlasın və görülən işlər barədə müfəssəl məlumat versin : «Gəncədə toplar, pulemyotlar və silahlar haqqında göndərdiyiniz raportlarda onların yararlılığı barədə məlumat versin. Onların hansı sistemi və hansı vəziyyətdə qəbul olunub. Sizin raportunuzda bu barədə heç nə deyilmir, görünür tüfənglər heç yığılmayıb. Sizə deyildiyi kimi vəziyyətə uyğun olaraq hərəkət edin, lakin bildirirəm ki, tüfəng sarıdan böyük çatışmazlığımız vardır. Təkrar edirəm ki, raportlarla bağlı səliqəli olun. Üç gündür ki, sizdən heç bir məlumat almamışam. Məlumat verin görək, dəstə Lənkərana təxminən nə vaxt çata bilər. Çünki həmin vaxt Nazirlər Şurasının sədri və mən də Lənkərana

gələcəyik».

Məlumdur ki, 1919-cu il avqust ayının 23-də Səlimovun dəstəsi Lənkərana daxil oldu və sentyabr ayının əvvəllərində Səməd bəy Mehmandarov da buraya gəldi. Onun bölgəyə gəlişi yerli əhali tərəfindən çox böyük sevinclə qarşılandı «Azerbaydjan» qəzeti özünün 17 sentyabr 1919-cu il tarixli nömrəsində S.Mehmandarovun sonsuz ehtiramla qarşılanmasından yazaraq bildirirdi ki, onun iştirakı ilə Lənkəranda Əxzi-əsgər idarəsi də açıldı. Yeli gənclər kütləvi şəkildə ordu sıralarına yazılmağı arzulayırdılar. Cümhuriyyət ordusunun qəhrəmanlığından qürur keçirən gənclər bu ordunun sıralarında xidmət keçməyə hazır olduqlarını bildirirdilər. Hətta xidmətdən möhlət hüququ olanlar da könüllü surətdə xidmətə çağırılmaq barədə müraciət edirdilər.

Azərbaycan ordusunun formalaşdırılmasında və Cənub bölgəsinin yad qüvvələrdən təmizlənməsində göstərdiyi xidmətlərinə görə 1919-cu il oktyabr ayının 15-də Lənkəran şəhər dumasının qərarı ilə S.Mehmandarov Lənkəran bölgəsindən Azərbaycan parlamentinə üzv seçildi.

Respublikanın cənubunda aparılan təmizləmə əməliyyatından sonra burada vəziyyətin birdəfəlik sabitləşdirilməsi üçün Səməd bəy Mehmandarov Nazirlər Şurası qarşısında qondarma Muğan hökumətinin bütün çinovniklərinin və onun silahlı dəstəsinin bütün zabitlərinin Azərbaycanın hüdudlarından çıxarılması barədə məsələ qaldırdı.

Lənkəran hadisələrindən təxminən iki ay sonra, 1919-cu il oktyabr ayının sonlarında hərbi nazir S.Mehmandarovla Cənubi Rusiya Silahlı Qüvvələri Baş komandanının Azərbaycandakı nümayəndəsi arasında aparılmış yazışmalardan aydın olur ki, Lənkəran bölgəsində silahlı Muğan qüvvələrində olan rus zabitlərindən heç biri qalmamışdır və rus dilli zabitlərin hər hansı birinin, hər hansı bir məqsədlə bu bölgəyə səfəri Azərbaycan hökumət orqanlarının icazəsi ilə ola bilərdi. Özü də həmin səfər dövlət orqanlarının ciddi nəzarəti altında saxlanılırdı.

Lənkəran dəstəsinin nə döyüş əmrlərində, nə də dəstə komandirinin Hərbi Nazirliyiə göndərdiyi teleqramlarında Cümhuriyyət ordusundan həmin əməliyyat zamanı neçə nəfərin şəhid olması barədə məlumat yoxdur. Ancaq müəyyən faktların tutuşdurulması göstərir ki, bu əməliyyatda şəhidlər də verilmişdi. Parlamentdə Lənkəran əməliyyatı ilə bağlı çıxışında Qara bəy Qarabəyov göstərirdi ki, 8 nəfər Azərbaycan döyüşçüsü şəhid olmuşdur. İngilis jurnalisti Skotland Liddel isə öz yazılarından birində 9 nəfərin şəhid olduğunu yazırdı. İngilis jurnalisti həmin şəhidlərin Bakıda dəfninin ümumxalq kədərinə çevrildiyini xüsusi olaraq vurğulayırdı: «Ötən bazar ertəsi mən Bakıda tamamilə fərqli dəfn mərasiminin şahidi oldum. Lənkəran ətrafında 9 Azərbaycan əsgəri öldürülmüşdü. Bolşeviklər əley hinə hərbi əməliyyat gənc Azərbaycan ordusunun ilk döyüş fəaliyyəti idi. 9 əsgərin cənazəsi dəniz yolu ilə Bakıya gətirilmiş və burada onlara möhtəşəm bir dəfn mərasimi təşkil edilmişdi. Nadir hallarda belə kütləvi hadisənin şahidi olmuşdum. Tabutların arxasınca gedənlərin uzun sırasında Azərbaycanın bütün nazirliklərinin və ictimai təşkilatlarının nümayəndələri var idi. Görkəmli adamlar və tüfənglərinin lüləsini aşağı çevirmiş bir-neçə min əsgər

azərbaycanlıların çiyinlərində apardıqları 9 tabutun arxasınca düzülmüşdülər. Küçələr adamlarla və əsgərlərlə əhatə olunmuşdu».

Lənkəran istiqamətində planlaşdırılan əməliyyatın uğurla başa çatdırılması yenidən bütün diqqətin şimala və Ermənistanla sərhəddə cəmləşdirilməsinə imkan verdi. Çünki bu istiqamətlərdə mövcud olan vəziyyət Azərbaycanın müstəqilliyinə qarşı real təhlükə kimi qalmaqda davam edirdi. Xüsusilə Zəngəzurda baş verən qırğın və talanlar Azərbaycan ictimaiyyətini və hökumət rəhbərliyini ciddi narahat edirdi. Bu qanunsuzluqların qarşısının dinc yolla alınması aparılan danışıqlar, göndərilən teleqram və notalar isə heç bir nəticə vermirdi. Ermənistan hökuməti Zəngəzur məsələsini birdəfəlik həll etmək və bu qəzanın bütün ərazisini azərbaycanlılardan təmizləyib ora şəriksiz sahib çıxmaq üçün öz qanunsuz əməllərindən əl çəkmirdi. Oktyabr ayında Ermənistan hökuməti Zəngəzur ərazisinə xüsusi təxribatçılar qrupu göndərdi ki, bu qrup Zəngəzurun erməni əhalisini azərbaycanlılara və Azərbaycan hökumətinə qarşı qaldırsın. Onların ardınca isə Zəngəzura Ermənistanın nizami qoşun hissələrinin göndərilməsi planlaşdırılırdı. Zəngəzurun ərazisində Ermənistan hökumətinin silahlı qüvvələrinin iştirakı ilə hazırlanmış üsyanın qarşısını almaq, ərazi bütövlüyünü tə'min etmək və əhalini özbaşınalıqlardan qorumaq üçün Azərbaycan hökuməti bu qəzaya qoşun dəstəsinin göndərilməsini qərara aldı .

Bunun üçün hərbi nazir S.Mehmandarovun əmri ilə 1919-cu il oktyabrın 30-da xüsusi bir Zəngəzur dəstəsi yaradıldı. Zəngəzur dəstəsinin rəhbəri 1-ci piyada diviziyasının komandiri, general-mayor Cavad bəy Şıxlinski idi. Dəstə noyabr ayının əvvəllərində bir-neçə günlük gərgin keçən döyüşlərdə iştirak etdi. Təəssüf ki, bu döyüşlər barədə məlumatlar xeyli az və müxtəsərdir. Bu da ondan irəli gəlirdi ki, Lənkəran əməliyyatından fərqli olaraq Zəngəzur dəstəsi ilə Hərbi Nazirliyin rəhbərliyi arasında çevik rabitə əlaqəsi yox idi və Səməd bəy bu dəstənin fəaliyyətini izləmək imkanına malik deyildi. Yalnız çaparlar vasitəsilə dəstədən məlumat alan C.Şıxlinski Xankəndindən S.Mehmandarova bəzi raportlar göndərə bilmişdi ki, bunlar da çox gecikmiş raportlar idi. Hərbi nazirin Zəngəzur dəstəsinin fəaliyyətini izləmək və istiqamətləndirmək imkanından məhrum olması isə bütünlükdə dəstənin nəticələrinə öz təsirini göstərdi. Mövcud olan kəsad məlumatlara əsasən Azərbaycan ordusu hissələrinin çətin hava şəratinidə keçirilən irimiqyaslı döyüşlərinin müfəssəl mənzərəsini yaratmaq olmur. Ancaq əldə edilən təsəvvür döyüşlərin gərgin keçdiyindən, qoşun bölmələrinin ilk dəfə ciddi itkilərlə qarşılaşdığından xəbər verir· Dəstənin tərkibində iki qrup var idi. Birinci qrup-Birinci kolonna adlanırdı və ona general-mayor Davud bəy Yadigarov komandirlik edirdi. İkinci qrupa isə polkovnik Levestam komandirlik edirdi və bu qrup Sağ və Sol kolonnalardan ibarət idi.

Birinci kolonna tərkibinə görə daha böyük idi və heç şübhəsiz ki, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün başlıca ümid də əsas zərbə qüvvəsi kimi bu kolonnaya bağlanmışdı. Kolonnanın tərkibinə 2-ci Zaqatala piyada alayının bir taboru və 8 pulemyotu, 2-ci Qarabağ süvari alayının 4 bölüyü və 4 ədəd pulemyotu, 3-cü Şəki süvari alayından 2,5 bölük və 2 ədəd pulemyot, 2-ci dağ-topçu divizionunun tərkibindən iki ədəd topu olan 4-cü batareyası daxil idi.

Bütünlükdə kolonnada 1 tabor, 6,5 bölük süvari, 14 pulemyot və 2 ədəd top var idi. Oktyabr ayının 30-da kolonna Xankəndindən Zəngəzura doğru hərəkətə başladı .

Müxtəlif istiqamətlərlə hərəkət edən həm Birinci kolona, həm də Sağ və Sol kolonnalar Dığ yaşayış məntəqəsinə doğru irəliləməli idilər. Dığın erməni silahlı qüvvələrindən təmizlənməsi həm Qarabağa aparan strateji yolu, həm də bölgəni nəzarət altında saxlamaq üçün böyük əhəmiyyətə malik idi. Birinci kolonna Dığa doğru onun şimalından irəliləməli idi.

Noyabrın 1-də Zəngəzur dəstəsinin rəisi general-mayor C. Şıxlinski Birinci kolonnanın yerləşdiyi düşərgəyə gəldi, şəxsi hey'ətin vəziyyəti, hücuma hazırlıq işləri ilə tanış oldu. Onun əmrinə əsasən kolonna hücuma noyabrın 3-də başlamalı idi. Noyabrın 2-də kolonnanın rəhbərliyi alınan tapşırıqların öyrənilməsi və hücuma hazırlıq işləri ilə məşğul oldu. Noyabrın 3-də kolonnanın piyada bölmələri 2 ədəd topla bərabər Sultankəndə doğru irəliləməli, süvari bölmələri isə Sadınlar kəndi istiqamətində irəliləməli və orada döyüşqabağı mövqe tutmalı idi. Sonra piyada bölmələrinin qarşısında Xanazax kəndini tutmaq, süvari bölmələrin qarşısında isə Dat-Melik yüksəkliyini və Xaznavar kəndini tutmaq vəzifəsi dayanırdı. (Məntəqələrin adı döyüş hesabatlarında olduğu kimi verilir-M. S). Həmin məntəqələrdən də bütün qoşun hissələri və bölmələri Gorusa doğru hücumu eyni vaxtda başlamalı idilər.

Hücum zamanı kolonnanın sağ cinahının mühafizəsi Sultan bəy Sultanovun rəhbərliyi altında olan kürd partizanlarına tapşırılmışdı.

Noyabrın 4-nə keçən gecə kürd partizanları Keçəldağ strateji yüksəkliyini tutub orada möhkəmlənməli idilər. Bu dəstə ilə kolonnanın komandanlığı arasında daimi rabitə yaradılması üçün kürd partizanlarından bir neçə nəfər xüsusi tapşırıq almışdı. Dəstə bütünlükdə kolonnanın əməliyyat tabeçiliyində idi və kolonnanın verdiyi bütün tapşırıqları yerinə yetirməli idi.

Dığ istiqamətində planlaşdırılan döyüşlər Azərbaycanın qoşun hissələrinin uğurlu hücumu ilə başlasa da sonradan təşəbbüsü inkişaf etdirə bilməməsi, taktiki səhvlərə yol verilməsi və ardıcıllıq göstərilməməsi əldə olunan nəticələrin tamamilə itirilməsinə gətirib çıxardı. Noyabrın 3-dən 7-dək həmin istiqamətdə aparılan döyüşlərdə Azərbaycan Ordusunun qoşun bölmələri qarşıya qoyulan vəzifələrin icrasına nail olmadan ilkin vəziyyətə qayıtmalı oldular. Bu istiqamətdə aparılan döyüşlərin gedişi barədə general-mayor C.Şıxlinski S.Mehmandarova yazdığı raportunda bildirirdi ki, Dığ və Gorus ətrafında düşmənin 6 minədək canlı qüvvəsi yerləşmişdi. Onların sərəncamında 4 qaubitsa və 2 ədəd top var idi. Düşmən toplarına təcrübəli zabitlər rəhbərlik edirdilər. Atəşlərin dəqiq və dağıdıcı olması da bundan xəbər verirdi. Süvari qoşunları nizami bölmələr idi və onun sayı 3 bölükdən az deyildi. Döyüş aparılan ərazi çox çətin ərazi idi. Tə'minat məsələlərinin həll edilməsi bir sıra problemlərlə qarşılaşırdı. İrəli hərəkət etmək üçün ərazidə münasib yollar yox idi. Onların çoxu Andronikin dəstəsi tərəfindən dağıdılmışdı.

General C.Şıxlinski S.Mehmandarova göndərdiyi raportunda daha sonra Zəngəzur dəstəsinin şəxsi hey'ətinin də belə ağır döyüşlərin aparılmasına hazır

olmadığını bildirirdi. O xüsusilə zabit hey'ətinin zəifliyindən şikayət edirdi. Əsgərlər döyüşün ağırlığını öz üzərinə götürüb heç bir çətinlikdən qorxmadığı halda onları təşkil edib irəliyə apara biləcək zabitlər xeyli az idi. Piyada qüvvələrin komandir tərkibi, təcrübəsi və nəzəri səviyyəsi çox aşağı olan gənc praporşiklərdən ibarət idi. Təcrübi və nəzəri səviyyələrinin aşağı olması isə onlara qoşunları yaxşı idarə etmək imkanı vermirdi: « Dəstə öz tərkibi etibarilə verilmiş vəzifənin icrası üçün çox zəifdir, təşkilatlanma və döyüş hazırlığı baxımından çox nöqsanlar vardır. Xüsusilə piyadaların komanda heyətinin zəifliyi duyulmaqdadır. Bölük komandirlərinin təxminən hamısı gənc praporşiklərdir, onların isə döyüş təcrübəsi və zəruri bilikləri yoxdur, bunlar olmadan onlar döyüşdə öz bölüklərini idarə edə bilməzlər. Hətta bəzi tabor komandirləri zəifdirlər,əvəz olunması üçün isə heç kim yoxdur.Əsgərlər hərbi baxımdan valehedicidirlər, ancaq onlar döyüşə az hazırlaşmışlar və yetişməmişlər. Buna görə də tez yorulurlar və şayiəyə tez inanırlar. Süvarilərin atları, xüsusilə arabalara qoşulmuş atlar yolların mürəkkəbliyi üzündən çox zəif görünürlər».

General C.Şıxlinski öz mə'ruzəsinin sonunda bildirirdi ki, Dığı və Gorusu tutmaq üçün bir də cəhd göstərmək olar. Lakin orada möhkəmlənmək üçün Zəngəzur dəstəsinə üç taborlu bir piyada alayı verilməlidir .

Dığ istiqamətində aparılan döyüşün gedişini diqqətlə öyrənən hərbi nazir S.Mehmandarov da dəstənin fəaliyyətinə öz münasibətini bildirirdi. Noyabrın 11-də C.Şıxlinskiyə göndərdiyi teleqramında hərbi nazir aldığı mə'lumatlar əsasında general Yadigarovun fəaliyyətinə və döyüşün gedişində onun taktiki səriştəsizliyinə çox kəskin qiymət verdi. "Bunun təfərrüatı mənə mə'lum deyil. Ancaq döyüşlərin ümumi gedişinə və itkilərin miqdarına görə səhvsiz mühakimə yürütmək olar ki, bütün uğursuzluq başlıca olaraq general Yadigarovun fərasətsizliyi üzündən baş vermişdir. Mən şəxsən heç vaxt general Yadigarovu məs'ul vəzifələri tutmağa qadir şəxs saymamışam" ·

Qeyd etmək lazımdır ki, Davud bəy Yadigarov 1919-cu il avqustun 1-dən Süvari diviziyasının komandirinin müavini idi və 1919-cu il oktyabrın 8-də Nazirlər Şurasının qərarı ilə ona general-mayor rütbəsi verilmişdi. 1919-cu il dekabrın 7-də S.Mehmandarovun əmri ilə Süvari diviziyası komandirinin müavini vəzifəsindən azad edilib hərbi nazirin yanında tapşırıq üzrə qərargah zabiti təyin edilməsi onun fəaliyyəti ilə bağlı Səməd bəyin verdiyi qiymətin doğruluğunu göstərir. Çünki D.Yadigarov rütbə kateqoriyası general olan bir vəzifədən azad edilərək daha aşağı vəzifəyə, rütbə kateqoriyası zabit olan vəzifəyə təyin edilmişdi.

Cümhuriyyətin qoşun hissələri Zəngəzurdakı döyüşdə iştirak etdiyi vaxt Azərbaycana qarşı münasibətdə erməni-daşnak hökuməti ilə möhkəm müttəfiqlik əlaqələri olan Denikin hər vasitə ilə Azərbaycana təzyiq göstərməyə və erməni qoşunları ilə aparılan döyüşlərdə onu zəiflətməyə çalışırdı. Noyabr ayının 9-da imzaladığı əmrlə general Denikin Azərbaycanın qoşun bölmələrinin guya Ermənistan ərazisinə soxulması ilə əlaqədar olaraq Azərbaycan ordusu sıralarında xidmət edən bütün rus zabitlərini istefa verməyə çağırırdı.

Bundan başqa Azərbaycanın qoşun bölmələri Zəngəzurda olduğu vaxt

Denikin qoşunlarının hissə və bölmələri Dağıstan ərazisində öz fəallıqlarını xeyli artırmışdılar. Bununla da Denikin və onun ətrafındakılar istəyirdilər ki, şimal sərhədlərinin müdafiəsində dayanmış Azərbaycan ordusunun qoşun bölmələrini daim gərginlik içərisində saxlasınlar və buradan Zəngəzur dəstəsinə hər hansı bir yardımın göndərilməsi mümkün olmasın.

1919-cu ilin noyabrında Rusiya ərazisində qazandığı bəzi hərbi uğurlardan sonra Könüllü ordunun mövqeləri yenə möhkəmlənmiş və Azərbaycan üzərinə təcavüz reallığı yenidən artmışdı. Səməd bəy Mehmandarov noyabr ayının 17-də Xaçmaz dəstəsinin rəisi polkovnik Ş.Kəsəmənliyə göndərdiyi teleqramında ondan daimi təcavüzün dəf edilməsinə hazır olmasını tələb edirdi. Səməd bəy Könüllü ordunun yaxın gələcək üçün planları barədə məlumatlar toplanması məqsədilə kəşfiyyatın gücləndirilməsini zəruri saymaqla bərabər həm də casusluğa qarşı ciddi mübarizə aparılmasının vacibliyini vurğulayırdı: « Dağıstanla sərhəddə vəziyyət ciddidir, buna görə də dəstə ilk işarədən sonra gecikmədən mövqelərə çığmağa hazır olmalıdır. Könüllülər tərəfindən hər hansı bir təhlükə olduqda Sizin sərəncamınıza mövcud qüvvələrdən başqa 2-3 batareya ilə birlikdə bir və ya iki alay veriləcəkdir. Könüllülərin niyyətləri və hərəkətləri barədə dəqiq məlumatlar toplamaq üçün vəsait əsrgəməyin. Etibarlı agentlər tapın. Çalışın ki, Petrovskda olan qoşunların sayı , onların çoxalıb-azalması, çoxalarsa hara hərəkət edəcəkləri barədə məlumatlar əldə edəsiniz. Elə bu cür də dağıstanlıların əhval-ruhiyyəsi, onların vəziyyəti barədə məlumatlar toplayın. Əldə edilmiş məlumatlara görə casus kişi və qadınlar Xaçmaz rayonunda gəzib dolaşırlar. Diqqətinizi ciddi şəkildə bu məsələyə cəlb edirəm. Quba qəzası rəisi ilə birlikdə qəzanın partizan dəstələrinin formalaşdırılması üzrə fəal hazırlıq işlərinə başlayın».

1919-cu ilin sonu və 1920-ci ilin əvvəllərində Könüllü qoşunların vəziyyətinin mürəkkəbləşməsi üzündən Azərbaycanın müstəqilliyinə qarşı istiqamətlənmiş Denikin təhlükəsi də zəifləməyə başladı. Ancaq zəifləməkdə olan bu təhlükə daha real və qorxulu bir təhlükə ilə əvəz olundu. Bu da Denikin qoşunlarına zərbələr vurub cənuba doğru irəliləməkdə olan bolşevizm təhlükəsi idi.

Əslində Azərbaycan öz müstəqilliyini əldə etdiyi vaxtdan ölkədə bolşevizmin kökü kəsilməmişdi və Cümhuriyyətin mövcud olduğu bütün dövrlər ərzində bu qüvvə Azərbaycanın müstəqilliyinə qarşı fəaliyyətini davam etdirmişdi. Xüsusən denikinçi və digər yad qüvvələrdən fərqli olaraq bolşevik qüvvələrinin əhali arasındakı təbliğatı daha geniş idi və Cümhuriyyət ordusu da bu təbliğatdan heç də kənarda qalmamışdı. Ona görə hərbi nazir təyin edildikdən sonra S.Mehmandarovun diqqət yetirdiyi əsas məsələlərdən biri də qoşun hissələrinin bolşevik təbliğatından qorunması məsələsi idi.

Bolşevik təbliğatı sırf ordunun şəxsi heyəti arasında aparılmırdı. Mövcud reallıqlardan məharətlə istifadə edən bolşevik təbliğatçıları ilk növbədə savadsız kütlələrin şüuruna təsir göstərməyə, onları öz övladlarını Azərbaycan ordusu sıralarında xidmət göstərməkdən çəkindirməyə çalışırdılar. Çağırış-səfərbərlik işində mövcud olan çətinliklərin bir səbəbi də məhz bu cəhətlə bağlı idi. 1919-cu il martın 8-də Nazirlər Şurası sədrinin adına göndərdiyi məktubunda hərbi nazir

S.Mehmandarov bildirirdi ki, Qazax qəzasının kəndləri demək olar ki, bütünlüklə çağırışçı verməkdən imtina edirlər. Bu da həmin zonada aparılan bolşevik təbliğatının nəticəsi idi. Bolşevik ünsürləri bölgədəki həm hərbi qüvvələrin, həm də əhalinin arasında ciddi təbliğat aparırdılar ki, bu da ordu quruculuğu prosesini xeyli çətinləşdirirdi. S.Mehmandarov vəziyyətin ciddiliyini belə təsvir edirdi : « Hazırda vəziyyət çox ciddidir. Əgər hökumət, xüsusilə də Daxili İşlər Nazirliyi və yerli inzibati orqanlar bu təbliğatın qarşısının alınması üçün fəal tədbirlər həyata keçirməsələr mənə həvalə olunan vəzifənin uğuruna zəmanət verə bilmərəm... Təbliğat mənbələrinin ləğvi üçün əsaslı işlər görülməlidir və nə qədər ki, gec deyil hökumətin qərarlarının həyata keçirilməməsinə zəmin yaradan bütün səbəblər kökündən qoparılmalıdr».

1919-cu il aprelin 7-dən 15-dək Bakıda keçirilmiş olan Zaqafqaziya, Dağıstan və Zakaspi Həmkarlar İttifaqının qurultayında bir-sıra məsələlərlə yanaşı Azərbaycanda bolşevik təbliğatının genişləndirilməsinə də toxunulmuşdu. Qurultay qarşıda dayanan başlıca vəzifənin Zaqafqaziya hüdudlarında sovet hakimiyyətinin qurulması uğrunda mübarizə aparılmasından ibarət olduğunu vurğulayırdı. S.Mehmandarov şübhə etmirdi ki, belə vəzifəni qraşıya qoyan bolşeviklərin məqsədi Azərbaycanın müstəqilliyini məhv etmək və yenidən sovet Rusiyasına birləşməkdir. 1919-cu il aprelin 21-də daxili işlər nazirinin adına ünvanladığı raportunda S.Mehmandarov Azərbaycanın istiqlaliyyətinin qorunması, respublika hökumətinin fəaliyətinin əsasını təşkil etdiyi üçün bolşeviklərin dağıdıcı əməllərinə qarşı hökumət səviyyəsində lazımi addımlar atılacağına ümid edirdi.

Səməd bəyin fikrincə Zaqafqaziyada bolşevizmin mərkəzi olan Bakıda bu qüvvələr fəaliyyətini genişləndirdikcə orduya göstərilən təsir də güclənəcəkdi. Ona görə də S.Mehmandarov daxili işlər nazirindən xahiş edirdi ki, polis orqanları Bakı qarnizonuna daxil olan hissələrə qarşı təbliğat işinin aparılmasını nəzarət altına götürsünlər və bununla hissələrin komandanlığına yardım etsinlər. Daxili İşlər Nazirliyi tərəfindən bolşevik təbliğatının qarşısının alınmasına qarşı yönəldilmiş tədbirləri S.Mehmandarov ordunun vahidliyinin və bütövlükdə Azərbaycanın istiqlaliyyətinin qorunması uğrunda aparılan mübarizə kimi qiymətləndirirdi və bu iki orqan arasında qarşılıqlı-faydalı əməkdaşlığın yaxşı əsaslar üzərində qurulacağına ümid etdiyini bildirirdi .

Bununla belə boşşevik təbliğatı gündən-günə genişlənir və onun orduya nüfuz etmək ehtimalı real xarakter alırdı. Xüsusilə azərbaycanlılardan olan bolşeviklər nəyin bahasına olsursa-olsun Bakı qoşun bölmələrinin qışlalarına yol taparaq azərbaycanlı əsgərlər arasında öz təbliğatlarını aparmağa və bununla da daxili nizam və intizamı pozmağa cəhd göstərirdilər. Səməd bəy Mehmandarov qeyd edirdi ki, Bakıda olan hərbi qüvvələr, xüsusən piyada hissələri kifayət qədər formalaşmamışdı və buna görə də bolşeviklərin apardığı təbliğatın bu qüvvələrə daha tez təsir göstərəcəyi ehtimalı var idi. S.Mehmandarov 1919-cu iil may ayının 11-də daxili işlər nazirinə göndərdiyi məktubunda hələ tam formalaşmamış qoşun bölmələrinin bolşeviklərin dağıdıcı təbliğatından qorunması üçün hərbi şəhərciklərə polis nəzarətinin gücləndirilməsini və kənar adamların şəhərciklərə girməsinə yol verilməməsini xahiş edirdi.

Sovet tarixşünaslığında bolşevik təbliğatından sonra Azərbaycan Ordusunun şəxsi hey'əti arasında intizamsızlığın artması, xidməti borclara məs'uliyyət hissinin xeyli aşağı düşməsi barədə yazılsa da əslində vəziyyət təsvir edildiyi qədər də böhranlı deyildi. Xüsusilə piyada və süvari hissələrində yad təsirlərə qarşı ciddi şəkildə müqavimət göstərilirdi. Həmin hissələrdə vəziyyət komandanlıqların nəzarəti altında idi. Burada bolşevik elementləri mövcud olsa da onların ümumi çəkisi ordunu böhran qarşısında qoymaq dərəcəsində deyildi. Bütün ordu daxilində cəmi 35-40 kommunist var idi . 1919-cu ilin payızında Moskvada verdiyi mə'lumatında N.Nərimanov orduda mövcud olan real nöqsan və çatışmazlıqlara toxunmaqla bərabər, qoşunların şəxsi hey'əti arasında intizamın möhkəm olduğunu qeyd edirdi. O eyni zamanda əlavə edirdi ki, Azərbaycan əsgərləri kifayət qədər çalışqan və itaətkardırlar . Yə'ni bolşevik təbliğatı nə qədər gücləndirilsə də, hissə daxilində aparılan işlər nəticəsində Azərbaycan əsgərləri ümumən öz mə'nəvi-döyüş keyfiyyətlərini qoruyub saxlaya bilmişdilər.

Bu da Azərbaycanın istiqlaliyyətinə, Azərbaycan höku- mətinin həyata keçirdiyi siyasi xəttə sədaqətli qalan Hərbi Nazirliyin rəhbərliyinin məqsədyönlü fəaliyyətinin nəticəsi idi.

Aparılan təbliğat işləri ilə Cümhuriyyət ordusunu iflic vəziyyətinə sala bilməyəndə bolşevik qurumları Azərbaycanın işğalının asanlaşdırılması üçün başqa vasitələrə də əl atdılar. Bu vasitələrdən biri cənuba doğru irəliləyən qoşunların gücləndirilməsi ilə bərabər erməni-daşnak qüvvələrinin Azərbaycanın müstəqilliyi əleyhinə istiqamətlənmiş olan təcavüzkarlıq fəaliyyətindən istifadə edilməsi idi. Erməni təcavüzkarları öz niyyətlərinə nail olmaq üçün istər Denikinçi qüvvələrin, istərsə də bolşevik qüvvələrinin əlində oyuncaq olmaqdan, fəaliyyətlərini qarşılıqlı şəkildə əlaqələndirməkdən heç də çəkinmirdilər. Nəticədə bolşevik qoşunları Azərbaycanın şimal sərhədlərinə yaxınlaşdıqca erməni təcavüzkar qüvvələri də Qarabağda fəallıqlarını artırırdılar. Mövcud olan məlumatlara görə daşnak xislətindən əl çəkməyən bolşevik A.Mikoyan sovet Rusiyası qoşunları ilə erməni millətçi qüvvələrinin arasında fəaliyyət əlaqəsi yaradılmasında xüsusilə böyük işlər görürdü. Mikoyan və onun silahdaşları çox dəqiqliklə müəyyənləşdirmişdilər ki, Qarabağda və Ermənistanla sərhəd məntəqələrində erməni qoşunlarının kütləvi fəaliyyətə başlaması Cümhuriyyət ordusunun əsas qüvvəsinin bura cəlb edilməsi və şimal sərhəddinin müdafiəsinin zəiflədilməsi ilə nəticələnə bilər.

Hələ 1920-ci il fevral ayının 13-də Qarabağ general-qubernatoru X.Sultanov Səməd bəy Mehmandarova göndərdiyi teleqramında vəziyyətin yenidən mürəkkəbləşdiyini bildirirdi. Onun yazdığına görə həm Ermənistandan erməni qoşun hissələrinin Qarabağa doğru irəliləməsi, həm də Qarabağın özündə ermənilərin fəallaşması müşahidə olunmuşdu. Bu məlumatı verməklə Qarabağ general-qubernatoru S.Mehmandarovdan bölgədəki qüvvələrin daha da gücləndirilməsini xahiş edirdi.

Mart ayının əvvəllərində əldə edilmiş kəşfiyyat məlumatlarına görə ermənilər Dığda artıq 3 minədək silahlı erməni toplamışlar. Onlara zabit rəhbərlik edir. Dəstənin sərəncamında 2 ədəd top və pulemyot vardır. Bir ədəd top da Xanazakda var idi. 7-10 gündən sonra Mamzak istiqamətindən erməni silahlı

dəstələrinin hücumu başlamalı idi. Hücumun başlanmasında məqsəd Qarabağdakı silahlı dəstələrlə birləşmək və burada Azərbaycan hökumət orqanlarını devirmək idi. Hücumun başlanması ilə bütün Qarabağ erməniləri də ayağa qalxmalı və Azərbaycan hökuməti əleyhinə üsyana qoşulmalı idilər. Zəngəzurda ermənilər hücuma başlayan kimi Gəncə qəzasının ermənilərdən təşkil olunmuş silahlı dəstələr Əsgəran üzərinə hərəkət edib oranı işğal etməli idilər. Mart ayının əvvəlində oradan Qarabağ ərazisinə 1000 nəfərlik dəstə göndərilmişdi. Ancaq Gəncə qəzasında 5 min nəfərlik dəstənin təşkili planlaşdırılırdı. Kütləvi üsyan üçün Qarabağ ərazisində ciddi hazırlıq işləri aparılırdı .

Ermənilərin Qarabağda və Zəngəzurda böyük qüvvələri cəmləşmişdi. Ancaq qarşıya qoyulan məqsədə çatmaq üçün onlar bu bölgəyə yeni-yeni qüvvələrin gətirilməsini planlaşdırırdılar. Martın ortalarında Dilicandan Zəngəzura 7 min erməni silahlısı gətirilmişdi. İrəvan quberniyasının Yenibəyazid qəzasından Qarabağa doğru çoxsaylı erməni silahlı dəstələri yola düşmüşdü.

Çaykənddə 2500-3000-ə qədər erməni silahlısı toplanmışdı. Bu silahlıların çoxu vaxtilə rus ordusunda xidmət etmiş keçmiş şəxslər idi. Onların xeyli əl qumbarası və çoxlu patronları var idi. İrəvandan gəlmiş olan millətçilər burada geniş təbliğat işi aparır, əhalini Azərbaycan hökuməti əleyhinə qızışdırırdılar. Burada təşkil edilən silahlı dəstələri təchiz etmək üçün patron, bomba hazırlayan e'malatxana açılmışdı. Çaykənddə yaradılan silahlı dəstələr Əsgəran ətrafına yola salınırdılar.

1920-ci il mart ayının ortalarında Hərbi Nazirliyə daxil olan mə'lumatlarda bildirilirdi ki, Qarabağda ermənilər bütün cəbhə boyu güclü hazırlıq işlərini davam etdirirlər. 60 nəfərlik qruplarla ermənilər Mamzak-Xocaqan və Zəngilan istiqamətində kəşfiyyat işləri aparırlar. Cəbrayıl ətrafında da onların xeyli fəallaşması müşahidə olunmuşdu. İran ərazisində erməni silahlıları tə'lim keçirdilər. Cəbrayılda olan qoşun bölmələrinin rəhbərliyi ehtiyat edirdi ki, erməni silahlı qüvvələri qəfil hücuma başlasaydılar onların qarşısını almaq çox çətin olardı. Mart ayının 15-də S.Mehmandarovun üzvü olduğu Dövlət Müdafiə Komitəsinin Qarabağda mürəkkəbləşməkdə olan vəziyyət müzakirə edildi. Burada qərara alındı ki, Qarabağda strateji əhəmiyyət kəsb edən məntəqələr qoşun hissələri tərəfindən nəzarət altına alınsın və bununla da Ermənistanın qoşun hissələrinin Qarabağ ermənilərinin silahlı dəstələri ilə birləşməsinə imkan verilməsin. Dövlət Müdafiə Komitəsi belə bir şəraitdə Cümhuriyyət ordusu hissələrinin zəruri silah və təchizatla təmin edilməsi, silah çatışmazlığının aradan qaldırılması üçün əhalidən müəyyən qədər silah toplanması məqsədilə təcili tədbirlərin həyata keçirilməsini vacib sayırdı.

Qarabağda vəziyyətin doğrudan da mürəkəbləşdiyini müşahidə edən Səməd bəy Mehmandarov bölgədə olan hərbi qüvvələrin gücləndirilməsi üçün ora gimal sərhəddində yerləşdirilmiş hissə və bölmələri göndərmək qərarına gəldi. Şimal sərhədlərinin müdafiəsinin zəiflədilməsi buradan gözlənilən təhlükəyə qarşı müqavimət gücünün xeyli azalda bilərdi. Lakin Qarabağda artıq reallaşmaqda olan təcavüzün qarşısını başqa yolla almaq da mümkün deyildi. S.Mehmandarovun əmri ilə mart ayının 19-da 1-ci Tatar süvari alayı və 4-cü Quba piyada alayının bir

taboru Qarabağa yola salındı. Ancaq bu hissə və bölmələr heç Qarabağa çatmamış erməni millətçi dairələrinin Azərbaycanın müstəqilliyi əleyhinə hazırladıqları irimiqyaslı təcavüzü başlandı. Martın 19-da erməni silahlıları hücum edərək 2 nəfər azərbaycanlı əsgəri qətlə yetirdilər . Martın 20-də yerli hökumət orqanlarında işləyən 2 erməni çinovnikinin vasitəsilə 25 nəfər erməni silahlısı gizlicə Şuşaya gətirildi. Martın 22-də onların sayı Şuşada 200 nəfərə çatdırılmışdı .

Kütləvi üsyana erməni millətçi qüvvələri çoxdan hazır olsalar da onun başlanması üçün münasib vaxt martın 22-si müəyyənləşdirildi. Bu tarixin seçilməsi təsadüfi deyildi. Çünki həmin gün bütün Azərbaycan xalqı kimi Azərbaycan əsgərləri də Novruz bayramının gəlişini qeyd edəcəkdilər. Qoşun bölmələrinin milli bayramının qarşılanması ilə məşğul olması erməni silahllılarının qəfil hücumu üçün əlverişli şərait yaradırdı. Erməni millətçi dairələri bu irimiqyası hücumun başlanmasına geniş hazırlıq işləri aparmışdılar. Hücumun bir-neçə məntəqədə aparılması üçün öz qüvvələrini vaxtında qruplaşdırmış, onları lazımi silah və sursatla təmin etmişdilər. Hücum ərəfəsində hərbi hissələr və müdafiə postları arasında olan bütün teleqraf və telefon xətləri kəsilmişdi.

Erməni qüvvələrinin hücumu martın 22-də gecə saat 3-də eyni vaxtda Şuşa, Xankəndi, Əsgəran, Xocalı və Tərtərdə yerləşən qoşun bölmələrinin üzərinə basqınla başladı. Əsgəranda Azərbaycan Ordusunun 50 nəfərlik kiçik bir dəstəsi var idi. Bu dəstə erməni silahlılarına bütün gücləri ilə müqavimət göstərsələr də qüvvələr nisbəti bərabər deyildi. Ona görə ermənilər Əsgəran postunu ələ keçirib buradakı əsgərlərin hamısını qırdılar .

Ancaq mövcud olan məlumatlardan belə qənaətə gəlmək olar ki, Əsgəranı da erməni silahlıları birdən-birə tuta bilməmişdilər və burada gərgin döyüşlər aparılmışdı. Məsələn Gəncə qubernatoru X.Rəfibəyov martın 23-də Daxili İşlər Nazirliyinə göndərdiyi teleqramında yazırdı ki, ermənilər Əsgərəna hücum ediblər. Şuşaya gedən yolu kəsiblər və burada güclü döyüşlər gedir.

1-ci piyada diviziyasının komandiri C.Şıxlinski isə həmin gün Nazirlər Şurasının sədri N.Yusifbəyliyə göndərdiyi teleqramlardan birində Əsgəran qalasının bir hissəsinin ermənilər tərəfindən tutulduğunu qeyd edirdi. Digər bir teleqramında isə C.Şıxlinski yazırdı : «Əsgərlə qalanın bir hissəsini hələ də saxlayırlar...Ya başımızı verəcəyik, ya da Əsgəranı qoruyacağıq». Elə həmin tarixdə göndərdiyi başqa bir teleqramında isə C.Şıxlinski Əsgəranın artıq ermənilər tərəfindən tamamilə tutulduğunu qeyd edirdi.

Yerlərdən alınmış digər məlumatlardan aydın olur ki, erməni silahlılarının kütləvi üsyanı Novruz bayramının axşamına təyin etmələri onların gözlədikləri müəyyən nəticəni vermişdi. Əsgəran tutulmaqla bərabər bölgə əhalisi ciddi təşviş və vahimə içinə salınmışdı. Başlıcası isə ermənilər tərəfindən mövcud olan təhlükənin qarşısının alınması üçün lazımi hazırlıq işləri aparılmamışdı. Məsələn, parlament üzvü Qarabəy Əliverdiyevin , Cavanşir qəzası rəisi Qalabəyovun və Qarabağ general-qubernatoru X.Sultanovun martın 23-də müxtəlif dövlət orqanlarına göndərdiyi teleqramlardan görünür ki, təcavüzün qarşısının alınmasında yerli hakimiyyət orqanları ilə qoşun hissələrinin fəaliyyəti nizamlanmamışdı, bir panika mövcud idi, silah və sursat çatışmırdı, yaşayış

məntəqələri arasında rabitə kəsilmişdi.

Martın 25-də daxili işlər naziri M.Vəkilov Zəngəzur qəza rəisindən aldığı məlumata əsasən Azərbaycan ordusunun Ümumi qərargahına göndərdiyi teleqramında orada da ciddi döyüşlər getdiyini və bölgəyə əlavə qoşun hissələrinin,artilleriyanın gətirilməsinin sürətləndirilməsini xahiş edirdi. Süvari diviziyasının komandiri general-mayor T.Novruzov da Hərbi Nazirliyə göndərdiyi teleqramında bölgəyə əlavə qüvvələrin, silah və sursatın göndərilməsi zərurətini vurğulayırdı.

Bir sözlə erməni silahlı hissələrinin Qarabağda irimiqyaslı hücumları bu bölgədə onsuz da ağır hərbi şəraiti daha da mürəkkəbləşdirdi. Ona görə də bu təcavüzün qarşısının alınması üçün yerlərdə də müəyyən tədbirlərin həyata keçirilməsinə başlandı. Qarabağ general-qubernatoru ermənilərin hücum xəbərini eşidən kimi yerli partizanları döyüşə səfərbər etdi. Ağdamla-Əsgəran arasında olan bir sıra mövqelər Azərbaycanın partizanları tərəfindən tutuldu. Əhali ermənilərin növbəti həyasızlığını qəzəblə qarşılayırdı. General-qubernatorun verdiyi mə'lumata görə, qəzəblənmiş olan əhalini ermənilərə qarşı özbaşına əməllərdən çəkindirmək çətinləşirdi. Ermənilərin hücum xəbəri alınan kimi Tərtər ətrafında da könüllü partizanlar toplaşmağa başlamışdılar .

Martın 24-də səhər saat 6-da erməni silahlı qüvvələri Tərtər üzərinə böyük hücuma keçirdilər. 3-cü Şəki alayının komandiri podpolkovnik Tonqiyevin verdiyi mə'lumata görə, onlar Tərtəri tutmağa sə'y göstərirdilər. Ancaq mövcud olan qüvvələrin səfərbər edilməsi bu erməni hücumunun da qarşısını aldı .

Şuşada, Xankəndində və Tərtərdə Azərbaycan qoşun bölmələrinin qışlalarını, silah və sursat anbarını tutmaq üçün erməni silahlı döstələrinin göstərdiyi ilk cəhd uğursuzluğa düçar olsa da aydın idi ki, mövcud qüvvələrlə güclənməkdə olan erməni dəstələrinin növbəti basqınlarının qarşısını almaq heç də asan olmayacaqdır.

Bütün bunlar isə ölkə miqyasında həm hökumət tərəfindən, həm də Hərbi Nazirliyin rəhbərliyi tərəfindən zəruri tədbirlərin həyata keçirilməsini tələb edirdi. Erməni millətçi dairələrinin bu üsyanı açıq təcavüz xarakteri daşıdığından onun qarşısının alınması üçün başlıca ümid Cümhuriyyət ordusuna idi. Səməd bəy Mehmandarov və onun silahdaşları yaxşı anlayırdılar ki, Qarabağda Cümhuriyyətin taleyi həll olunur və mövcud olan qoşun hissələrinin bütün gücü və imkanları səfərbərliyə alınmasa Azərbaycan öz müstəqilliyi ilə vidalaşmalı olacaqdır.

Qarabağ müharibəsi Cümhuriyyət ordusunun və onun komandanı Səməd bəy Mehmandarovun müstəqillik dövründə rastlaşdıqları ən ağır və həm də ən şərəfli sınaq idi. Səməd bəyin sərkərdəliyi, əsgər və zabitlərin qəhrəmanlığı nəticəsində Cümhuriyyət ordusu bu sınaqdan uğurla çıxdı və öz tarixinin ən şərəfli səhifəsini yazdı.

Hər şeydən əvvəl S.Mehmandarov Qarabağda güclü bir əməliyyat dəstəsi yaratdı, Cümhuriyyət ordusunun bütün potensialını Qarabağa səfərbər edilməsinə nail oldu, zərurət yarandıqca bu və ya digər hissələrin Qarabağa göndərilməsini təşkil etdi. Digər tərəfdən Səməd bəy Qarabağda formalaşdırılan əməliyyat

dəstəsinə Həbib bəy Səlimov kimi hazırlıqlı və təcrübəli bir generalı rəhbər təyin etdi. Bölgədə olan digər generalların və yüksək rütbəli zabitlərin vicdanlı fəaliyyətini şübhə altına almadan qeyd etmək lazımdır ki, H.Səlimovun əməliyyat dəstəsinin rəhbəri təyin edilməsi Qarabağ müharibəsinin uğurla başa çatdırılmasında xüsusi rola malik idi.

Qarabağda gedən döyüşlərə çevik rəhbərliyin yaradılması isə Səməd bəy Mehmandarovun uğurlu təşkilatçılıq fəaliyyətinin başqa bir tərəfi idi. Səməd bəy dəqiqliklə müəyyənləşdirə bilmişdi ki, erməni təcavüzkar qüvvələri öz planlarının həyata keçirilməsinə nail olmaq üçün Qazax-Şamxor bölgəsində də Azərbaycan ərazilərinə hücum edə bilərlər. Bu bölgə ilə Qarabağda aparılan müdafiə tədbirlərinin əlaqələndirilməsi üçün Səməd bəy martın 25-də Gəncəyə gəldi. Bununla da Gəncə-Ağdam-Bakı arasında bir idarəetmə üçbucağı yaradıldı. Səməd bəy həm Gəncə bölgəsində, həm də Qarabağja gedən döyüşləri idarə edir, həm də təchizat və təminat məsələləri ilə bağlı Bakıya, Ə.Şıxlinskiyə zəruri göstərişlər verirdi. Qarabağ döyüşləri ilə eyni vaxtda Qazax bölgəsində erməni qoşun hissələrinin fəallaşması göstərdi ki, Səməd bəy doğrudan da onların planlarını düzgün duya bilmişdi. S.Mehmandarov hətta onu da nəzərdən qaçırmırdı ki, Qarabağdan və qərbdən hücuma keçən erməni qüvvələri Gəcnənin özü üçün də təhlükə yarada bilərlər və ona görə də Gəncənin müdafiəsinin təşkilinə S.Mehmandarov strateji əhəmiyyət verirdi.

S. Mehmandarovun Gəncədən Ə.Şıxlinskiyə göndərdiyi ilk teleqramlar Tərtər ətrafındakı hərbi vəziyyətlə bağlı idi. Çünki martın 24-26-da burada xüsusi bir gərginlik yaranmışdı. Ayın 24-də erməni qüvvələri bir-neçə dəfə Tərtər üzərinə hücuma keçmişdi. Bu hücumların hamısı dəf edilmişdi.

Martın 25-də səhər saat 6-da erməni qüvvələri Tərtər üzərinə yeni hücuma başladılar. Onların məqsədi Tərtəri ələ keçirib burada möhkəmlənmək idi. Hücum uğursuzluğa düçar oldu. Azərbaycanın qoşun hissələri və partizanları əvvəlcə Marağalı kəndini ermənilərdən azad etdilər, sonra isə Marquşevan kəndində Yüz-başovun malikanəsi ələ keçirildi. Qoşun hissələri Marquşevan yaxınlığında olan Çaylı kəndini də atəşə tutdu.Martın 26-da Tərtər ətrafında Azərbaycanın qoşun bölmələrinin və partizanların uğurlu hücumları davam etdirildi. Gündüz saat 12-də Çaylı və Bruc erməni kəndləri də ələ keçirildi. Erməni qüvvələri Çaylının qərbində olan dağlara səpələndilər.

Martın 26-da Tərtər ətrafında Azərbaycanın qoşun bölmələrinin və partizanların uğurlu hücumları davam etdirildi. Gündüz saat 12-də Çaylı və Bruc erməni kəndləri də ələ keçirildi. Erməni qüvvələri Çaylının qərbində olan dağlara səpələndilər.

Martın 26-da 3-cü Gəncə piyada alayından podpolkovnik Qasımbəyovun komandirliyi altında göndərilmiş olan dəstə də bölgəyə gəlib çıxdı. Həmin dəstə Tərtərlə Goranboy arasında mövqe tutdu və bu istiqamətdən müstəqil şəkildə erməni silahlı dəstələrinin mövqələri üzərinə hücum çəkməli idi.

Bölgədəki vəziyyətlə bağlı olaraq martın 27-də S.Mehmandarov Ə.Şıxlinskiyə növbəti teleqram göndərdi. Bu teleqramında Səməd bəy Cəbrayıl bölgəsində olan 3-cü Şəki süvari alayının komandiri Xosrov Mirzə Qacardan aldığı

teleqramın məzmununu da Ə.Şıxlinskiyə çatdırırdı. Polkovnik Qacar yazırdı : «Düşmən hücumdadır, onun bir topu var. Bütün cəbhə boyu atışma gedir. Birinci hücumu biz dəf etmişik. Partizanlar çox patron məsrəf edirlər və heç də təpərli deyilidirlər... Xahiş edirəm şimaldan hücuma başlayın ki, düşmən Qarabağ erməniləri ilə birləşə bilməsin. Cəbrayıl təhlükədədir».

S.Mehmandarov Ə.Şıxlinskidən dərhal Qaryaginlə əlaqə saxlamağı, vəziyyətin nə yerdə olduğunu aydınlaşdırmağı tələb edirdi. Səməd bəy təəccüb edirdi ki, bölgədə beş piyada bölüyü, iki batareya və iki süvari bölüyü olduğu halda nəyə görə Cəbrayılın təhlükəsizliyi təmin edilmir. Bunlardan başqa yerli partizan dəstələri də artıq təşkil edilmişdi. S.Mehmandarov belə mürəkkəb şəraitdə Qaryagin dəstəsinin belə kəsərsiz fəaliyyəti ilə barışa bilmirdi. Onun fikrincə, polkovnik Xosrov Mirzə Qacar təşəbbüskarlıq göstərib qətiyyətli hərəkət etməkdənsə başqalarına göstəriş verməklə məşğul idi. Hərbi nazir patronların mənasız yerə məsrəf edilməsini də yolverilməz sayırdı : «Nəyin bahasına olursa-olsun təcili şəkildə şəhzadə Qacarla əlaqə yaradılması üçün tədbirlər görün. Anlaya bilmirəm o, Cəbrayıl üçün necə qorxa bilər. Bir halda ki, onun 5 bölüyü, iki batareyası və iki süvari bölüyü var. Bundan başqa Xəlil bəyin inadkarlığına görə orada 5 tabor da formalaşdırılmışdır. Görünür, dəstə heç bir işlə məşğul deyil və yalnız nə etmək barədə başqalarına göstəriş verir. Tədbir tökün ki, dəstələr boş yerə patronları məsrəf etməsinlər. Yoxsa biz çox pis vəziyyətdə qalacağıq».

Martın 27-də 1-ci Tatar süvari alayının komandiri podpolkovnik Sofiyev şəxsi heyətlə Yevlaxdan Qarabağa yola düşməzdən əvvəl Gəncəyə gəlib hərbi nazir S.Mehmandarovla görüşdü və icra edəcəyi tapşırıqları bir daha dəqiqləşdirdi. Martın 28-də isə S.Mehmandarov artıq Qazaxda idi və bu bölgənin müdafiəsinin təşkili ilə məşğul idi. Ə.Şıxlinskiyə göndərdiyi məktubunda Səməd bəy bildirirdi ki, Gəncədə yalnız şəhərin müdafiəsinin təşkilinə kifayət edəcək qədər qüvvə saxlanılmışdır. Qalanlar isə döyüş tapşırıqlarının icrasına göndərilmişdir. Səməd bəy narahat idi ki, 1-ci piyada diviziyasının komandiri general-mayor C.Şıxlinski xəstə olduğu üçün bölgədə başqa təcrübəli kadr yox idi. Ona görə də S.Mehmandarov Ə.Şıxlinskidən Gəncə, Qazax və Şamxor qəzalarının İstehkamat hissəsinin rəisi təyin edilmiş general-mayor Makeyevi təcili tapıb Gəncəyə göndərməyi tələb edirdi. Səməd bəy elə həmin gün Ağstafaya yollanmış və orada müdafiə işlərinin təşkili ilə tanış olduqdan sonra yenidən Gəncəyə qayıtmışdı. S.Mehmandarov Ə.Şıxlinskiyə bildirirdi ki, bu günlərdə Quba alayının iki taboru da yəqin ki, cəbhə bölgəsinə çağırılmalı olacaqdır. Ona görə də bu barədə hazırlıq işləri aparılmasını və Tatar süvari alayının da Gəncəyə göndərilməsinin sürətləndirilməsini xahiş edirdi.

Bütünlükdə S.Mehmandarov qərb bölgəsində sərhədlərin müdafiəsinin təşkilindən tam razı deyildi. Sonradan o, Ə.Şıxlinskiyə göndərdiyi teleqramında Tovuza digər bir zirehli qatarın göndərilməsi barədə göstəriş verdi. Bununla da bölgədə iki zirehli qatar olmalı idi. Biri tovuzda, o biri isə Ağstafada. S.Mehmandarov eyni zamanda bütün hissələri müharibə dövrünün ştatlarına uyğun yenidən qurulmasını, onların tərkibinin artırılmasını məqsədəuyğun bilirdi.

Martın 28-də podpolkovnik Qasımbəyovun dəstəsi yerləşdiyi istiqamətdə

düşmənə yeni bir zərbə vurdu. Azərbaycan döyüşçülərinin güclü hücumunun qarşısını ala bilməyən erməni silahlıları günorta saat 2-də Xarxaput kəndini də tərk etmək məcburiyyətində qaldılar. Böyük qüvvələr çəkib gətirmiş olan ermənilər müqavimət göstərməyə çalışsalar da podpolkovnik Qasımbəyovun zərbələrinin qarşısını almağa qadir deyildi. Tezliklə döyüş erməni Borisi kəndi ətrafına keçirilmişdi.

Mart ayının 29-da H.Səlimovun rəhbərliyi altında qoşun hissələrinin Əsgəran üzərinə təşkil edilmiş ilk hücumu uğursuzluğa düçar olduqdan sonra o, hərbi nazir Səməd bəy Mehmandarov qarşısında təkidlə əlavə qüvvələr göndərilməsi məsələsini qoydu. Mart ayının 30-da Səməd bəy H.Səlimova belə bir teleqram göndərdi: « Dünən axşam simli xətlə Sizinlə birbaşa danışığı çox pis ötürürdülər. Heç nə başa düşmək mümkün deyildi. Sizin dediklərinizdən mən yalnız onu anladım ki, indiki mövcud qüvvələrlə böyük itkilərdən sonra, düşmənin qüvvə üstünlüyünə malik olduğu, Bakı alayının etibarsızlığı, partizan dəstəsinin tam yararsızlığı şəraitində əlavə qüvvələr olmadan Əsgəranı almaq mümkün deyildir. Dünən söylədiklərimə əlavə olaraq bildirirəm ki, Şuşa və Xankəndində vəziyyət böhran şəklindədir və əgər Əsgəranın alınması üçün azacıq ümid varsa onda onu nəyin bahasına olursa-olsun almaq lazımdır. Əgər heç bir ümid yeri yoxdursa və Siz dəstəni itirməyə qorxursunuzsa onda əlavə qüvvələri gözləyin. Əlavə qüvvələr barədə təcili sərəncam verəcəyəm və bu barədə Sixi xəbərdar edəcəyəm».

Bu teleqramın özü Qarabağda hərbi şəraitin necə ağır olduğunu nümayiş etdirir. Ölkənin qərbində erməni təcavüzü təhlükəsinin reallaşması isə ordunu daha çətin vəziyyətə salırdı. Yəni əslində Səməd bəy həm Qarabağda, həm Qazax-Tovuz bölgəsində, həm də şimalda gözlənilən təhlükənin qarşısının alınması üçün qoşun hissələrinin daha səmərəli istifadəsinə nail olunması idi. Mövcud olan qoşun hissələri ilə bu üç istiqamətin üçünü də etibarlı şəkildə qorumaq mümkün olmadığı üçün S.Mehmandarov döyüşlərin gur vaxtında yeni hissələrin formalaşdırılmasını da diqqət mərkəzində saxlayırdı. Onun əmri ilə elə həmin günlərdə Qazaxa gəlmiş Nuxa piyada taborunun müharibə dövrünün ştatına çatdırmaq, yəni bir taborun bazasında iki tabor formalaşdırmaq barədə əmr verdi. Onun başqa bir əmri isə Lənkəran taborundan Tovuza gəlmiş iki bölüyün bazasında üç tabor formalaşdırılması üzərində iş gedirdi. Həmin taborların Ağdaş piyada alayına verilməsi planlaşdırılırdı. Bu hissələrin normal formalaşdırılmasına nail olunması üçün Səməd bəy Gəncədən göndərdiyi teleqramında Ə.Şıxlinskidən xahiş edirdi ki, çağırışın təşkili ilə bağlı Nazirlər Şurası qarşısında məsələ qaldırsın.

H.səlimovun dəstəsinin gücləndirilməsi üçün S.Mehmandarov Ə.Şıxlinskiyə göstəriş verdi ki, Quba alayının Bakıya gələn taboru dərhal Qarabağa yola salınsın. Martın 30-da göndərmiş olduğu teleqramla Səməd bəy dağ-topçu batareyasının bir taqımının da təcrübəli zabitlə birlikdə Quba alayının taboru ilə yola salınmasını tələb edirdi. S.Mehmandarov tapşırırdı ki, bu taqım döyüş komplektinə malik olmalıdır və əgər kifayət qədər mərmiyə malik deyilsə Ləki stansiyasında zəruri olan mərmi və əl qumbaralarını da topçu anbarından alsın.

Səməd bəy Mehmandarov döyüşdə vaxt itkisinə yol verilməsinin daha ağır nəticələrə gətirib çıxara biləcəyini yaxşı anlayırdı. Ona görə də o, qoşun hissələrinin komandirlərindən operativ və çevik olmalarını tələb edirdi. Çünki qoşun hissələrinin vaxtında Qarabağa çatmaması və ya onların vaxtında təchiz edilməməsi yeni-yeni mövqelərin itirilməsinə səbəb ola bilərdi. Mar ayının 30-da S.Mehmandarov Ə.Şıxlinskiyə göndərdiyi digər bir teleqramında Zaqatala piyada alayının və Quba alayının taborlarının kifayət qədərləngliyindən narahat olduğunu qeyd edirdi. Səməd bə həmin teleqramında bildirirdi ki, respublikada mürəkkəb vəziyyət yarandığından onlar da verilən bütün göstərişlər vaxtında yerinxə yetirilməlidir. O, Ə.Şıxlinskidən də Nazirliyin əməkdaşlarında belə məsuliyyət hisslərinin aşılanmasını tələb edirdi. S.Mehmandarovu narahat edən o idi ki, xeyli əvvəl göstəriş verilməsinə baxmayaraq Quba alayının taborları hələ də Qarabağa gəlib çıxmamışdı. Həmin taborlardan ehtiyat qüvvə yaradılması və Tərtər dəstəsinin gücləndirilməsi nəzərdə tutulurdu. Səməd bəy təkidlə tələb edirdi ki, bu taborların cəbhəyə göndərilməsi sürətləndirilməli və zərurət yaranardasa şəxsi heyət isti paltarla təmin edilməli idi: « Hələ bura gəlməzdən qabaq əmr vermişdim ki, polkovnik Dibirova alaydan min nəfərlik bir taborun Nuxaya yola salınması barədə teleqram göndərilsin. Bununla bağlı Səlimova da teleqramla məlumat vermişdim. Ancaq indiyə kimi taborun hərəkəti barədə bir məlumat yoxdur. Əgər tabor ora gəlibsə onu Ağdama göndərin, bu tabor orada lazımi tapşırıq alacaqdır.

Vəziyyət ciddidir və belə bir zamanda hər bir göstəriş vaxtında yerinə yetirilməlidir. Bunu Nazirliyin bütün işçilərinə anladın. Quba alayının Yevlaxa yola salın ki, oradan Ağdama hərəkət etsin və əlimovun ehtiyatını təşkil etsin. Onun vaistəsilə Tərtər dəstəsini də gücləndirmək olar. Əgər qubalılara ehtiyac olmasa general Səlimov bu barədə mənə xəbər versin. Quba taboru yarımkürklərlə təmin edilməlidir. Əgər yarımkürklər azdırsa, Gəncədən 200 ədəd göndərmək olar».

Elə həmin gün göndərdiyi başqa bir teleqramında da Səməd bəy Mehmandarov Qarabağ dəstəsini tezliklə gücləndirməyin vacibliyini vurğulayır və Quba alayının taborlarının göndərilməsinin sürətləndirilməsini tələb edirdi.

Mövcud olan sənədlərdən aydın olur ki, Quba alayının taborları Qarabağa martın 31-də çatmışdı. Ancaq bu taborların tərkibi, şəxsi heyətinin sayı və hazırlıq səviyyəsi barədə verilən məlumatlar hərbi nazirin daha bir narahatçılığına səbəb oldu. 2 tabor əvəzinə Qarabağa cəmi 375 nəfər gəlib çıxmışdı. Göndərilənlərdən 300 nəfəri isə səhhətlərinin lazımi tələblərə cavab vermədiyi üçün Bakıda saxlanmışdı. Qarabağda hər bir döyüşçünün böyük rola malik olduğu vaxtda alayın bu cür döyüşə hazır olmaması Səməd bəy hədsiz dərəcədə qəzəbləndirdi. Bununla bağlı Ə.Şıxlinskiyə 1920-i ilin aprel ayının 1-də göndərdiyi teelqramında Səməd bəy bildirirdi ki, Quba alayının komandiri polkovnik Ququşevin xidmətə münasibəti onu heç vaxt təmin etməmişdi. Lalyın formalaşması üçün xeyli maliyyə vəsaiti xərclənirdi. Ancaq döyüş tapşırığını yerinə yetirmək lazım gələndə aydın olmuşdu ki, alay ancaq kağız üzərində mövcuddur. Nazirin aldığı məlumata görə polkovnik Ququşev həmin vaxt Bakıda məzuniyyətdə idi. O, Ə.Şıxlinskidən tələb edirdi ki, əgər Ququşev doğrudan da məzuniyyətdədirsə dərhal tapılsın və alayın belə vəziyyətdə olması barədə ondan izahat alınsın. Sonra da yenidən Qusara,

vəzifəsinin icrasına göndərilsin. Ququşev Qusarın mühafizəsi üçün yalnız bir bölük saxlamalı  və qalan qüvvələri Qarabağa göndərməli idi. Teleqramın sonunda S.Mehmandarov bildirirdi ki, Yevlaxdan yenicə qayıtmışdır. Səməd bəy şəxsən ora gələrək qoşun hissələrinin Qarabağa yola salınması ilə məşğul olurdu. Zəruri işləri gördükdən sonra isə o yenidən Gəncəyə qayıtmışdı. Teleqramdan o da görünürdü ki, S.Mehmandarov xəstələnmişdi. Ancaq buna baxmayaraq qoşun hissələrinin Azərbaycanın ərazi bütövlüyü uğrunda apardığı mübarizəsinə rəhbərlik edirdi: «Quba alayının iki taborunun  yerinə cəmi 375 nəfər aldıq. Bu da dəstəni ( Qarabağ dəstəsi nəzərdə tutulur-M.S.) ağır vəziyyətə qoyur. 300 nəfər zəiflər isə Bakıda saxlanılıb. Nə üçün Qusardan zəiflər göndərilmişlər. Bir halda ki, onların iş üçün çağırıldığı məlum idi. Mən podpolkovnik Ququşev haqqında həmişə pis fikirdə olmuşam. Alayın saxlanmasına milyonlar xərclənir, döyüş əməliyyatları başlayanda isə məlum oldu ki, alay yalnız kağız üzərində mövcuddur. Mənə bildirmişlər ki, o, Bakıda məzuniyyətdədir. Əgər belədirsə onu tapın, sonra da Qusara göndərin. Orada mühafizə üçün bir bölük saxlayın. Döyüşə yararlı qalan adamları isə onun rəhbərliyi altında cəbhəyə yola salın. Dağ taqımı Quba alayının ikinci eşelonu ilə Yevlaxa gəlmişdir. Ancaq sursatları yoxdur. Yevlaxdan Ləkiyə paravoz yola salınmışdır ki, elə bu gün sursat gətirsin.

Yenicə Yevlaxdan qayıtmışam, xəstəyəm, göndəriş üçün bütün sərəncamları verdikdən sonra Bakıya qayıdacağam. Bu barədə vaxtında məlumat verəcəyəm».

Elə həmin gün S.Mehmandarov Ə.Şıxlinskiyə  daha iki teleqram göndərdi. Bu teleqramlarda yuxarıda  toxunulan məlumatların bəzi təkrarına yol verilsə də onlar  Səməd bəyin gərgin fəaliyyətini, şimaldan və digər ərazilərdən nə qədər qüvvənin alınıb Qarabağa səfərbər edilməsini, mövcud vəziyyətin ağırlığını və həmin vəziyyətdən çıxmaq üçün aparılan işlərin miqyasını təsəvvür etmək baxımından maraqlıdır. Bu teleqramlardan biri belə idi: « Yevlaxdan yenicə qayıtmışam. Dünən qubalıların birinci eşelonu yola düşdü. Bu gün isə Zaqatala taborundan, Quba alayının bir bölüyündən, süvari diviziyasının təlim komandasından və Tatar alayının pulemyot komandasından ibarət ikinci eşelon hərəkətə başladı. Tatar alayının digər bölükləri və  Şirvan alayının bölüyü elə bu gün Yevlaxa çatacaqdır. Bütün bu hissələr  Yevlaxa aprelin 2-də gələcəklər. Onların sayı- piyada 1035, süvari-570. Qeyri-nizamilər və dağ süvari taqımı bura daxil deyil.Dağ-süvari taqımı olmadan cəmi 1605 nəfər. Əgər bunlardan 155 mehtər və piyadalardakı qeyri-nizamilər çıxılsa, onda 1450 döyüşçü qalar.

Sizi məcbur etmirəm, ancaq məsləhət bilirəm ki, piyadalardan  2 tabor, süvarilərdən bir tabor saxlayasınız. Çalışın ki, qeyri-nizamilərin sayını minimuma çatdırasınız. Qalanları isə sıraya alın. Yaralılardan qalmış  tüfənglərlə onları silahlandırın. Sursat üçün mənim tərəfimdən  Yevlaxdan Ləkiyə paravoz göndərilmişdir. Sursat elə bu gün  Yevlaxa, Yevlaxdan da yük maşınlarında Ağdama çatdırılacaqdır. Əmr olunmuşdur ki, 200 ədəd əl qumbarası da gətirilsin. Ancaq təəssüf ki, adamlar onun quruluşu və istifadəsinə bələd deyillər. Onların istifadə edilməsi Sizdən asılıdır.  Ancaq məsləhət bilirəm ki, əvvəlcədən adamları onların iş mexanizmi ilə tanış edəsiniz və ehtiyat tədbirlərini görəsiniz».

Bu teleqramında da Səməd bəy Mehmandarov Quba alayının komandiri

Ququşevin göstərilən etimadı doğrultmadığına görə narazılıq və təəccübünü gizlətmirdi. Onun bildirdiyinə görə Quba layında 1700 nəfər olduğu halda cəbhəyə cəmi 1000 nəcər gətirilmişdi ki, bu da alaydakı vəziyyətin qeyri-qənaətbəxş olduğunu nümayiş etdirirdi. Səməd bəy bir daha hazırlıq işlərini başa çatdıran kimi Bakıya dönəcəyini bildirirdi. Görünür onun xəstəliyi doğrudan da ciddiləşirdi. Ancaq bir qədər irəliyə gedərək qeyd etmək lazımdır ki, Səməd bəy yalnız Əsgəran azad edildikdən və Azərbaycan qoşunlarının uğurlarına şübhə yeri qalmadıqdan sonra Bakıya döndü.

S.Mehmandarovun 1920-ci il parelin 1-də göndərdiyi başqa bir teleqramının məzmunu isə belə idi: « Hissələrin, sursatın göndərilməsi ilə əlaqədar bütün sərəncamları vermişəm, onların icrasfına da özüm nəzarət edirəm. Tatar alayının 3-cü eşelonu və Şirvan alayının bölüyü istisna olmaqla bütün hissələr Yevlaxdan yola düşürlər. Tatar alayının və Şirvan alayı bölüyünün eşelonu isə Yevlaxa təxminən saat 22-23-də çatacaqdır. Özü də Şirvan alayının bölüyünə əmr edilmişdir ki, arabalarda Yevlaxdan yola düşsün və bütün hissələr aprelin 2-də mütləq Ağdamda olsunlar. Vəziyyətin çətinliyini Siz əla bilirsiniz və mən Sizin qətiyətinizə və vəziyyətlə hesablaşmaq bacarığınıza arxalanıram. Bu gün sürət qatarı ilə yenidən Yevlaxa gedirəm və əgər oradan Bakıya yola düşsəm telefonla Sizə xəbər edəcəyəm».

Vəziyyətin ciddiliyini Səməd bəy də yaxşı anlayırdı və elə bunun üçün də rahatlıq bilmədən fəaliyyət göstərirdi. Bunun nəticəsində də Qarabağda erməni qoşun qüvvələrinin müqavimətini aradan qaldıra biləcək dəstə təşkil edildi və elə aprelin 2-də də Əsgəran azad edildi. Bununla da Qarabağda hərbi təşəbbüs Cümhuriyyət ordusunun əlinə keçdi.

Həmin günlərdə Səməd bəy Mehmandarov Bakıya qayıtdı. Onun Bakıya qayıtması tarixini dəqiq söyləmək çətindir. Ancaq o məlumdur ki, 1920-ci il aprel ayının 6-da Səməd bəy Mehmandarov istefa haqqında raport yazdı. Aprel ayının 8-də imzaladığı 197 nömrəli əmrində belə deyilirdi: «Aprelin 6-da səhhətimiz pozulması ilə əlaqədar mənim istefaya buraxılmağım haqqında raport təqdim etmişəm. Bunu Hərbi Nazirlik üzrə elan edərək hərbi nazirin müavini, topçu generalı Şıxlinskiyə təklif edirəm ki, qanuni əsasda Hərbi Nazirliyin müvəqqəti idarəçiliyinə başlasın. Yeni hərbi nazir təyin edilənədək məni xəstə hesab etsinlər».

Səməd bəy Mehmandarovu istefasının ölkədə siyasi vəziyyətin mürəkəbləşməsi ilə bağlanması barədə fikirlər mövcud olsa da onun səhhətinin pozulması da həqiqətdən uzaq deyildi. Yuxarıda da göründüyü kimi Səməd bəy Gəncədən göndərdiyi teleqramlarında səhhətinin korlanmasından şikayət edirdi. Ola bilsin ki, onun səhhətinin korlanması ciddi hal almışdı və nəticədə belə bir qərar qəbul etməli olmuşdu. Ancaq o da qeyd edilməlidir ki, Səməd bəy istefa raportunu yazanda təkcə Əsgəran deyil, Şuşa da Azərbaycan qüvvələrinin tam nəzarəti altına keçmişdi.

Bununla belə ölkədə hərbi-siyasi şərait mürəkkəb olaraq qalmaqda davam edirdi. Erməni silahlı qüvvələrinin müqaviməti tamamilə qırılmamışdı. Şimaldan isə bolşevik qoşunları Azərbaycan sərhəddinə yaxınlaşmaqda idi və günlər ötdükcə

bu qoşunların Azərbaycanın sərhədlərinə təcaavüz edəcəyinə şübhə yeri qalmırdı. Cümhuriyət ordusu isə əsasən Qarabağa səfərbər edildiyindən şimalda azacıq qüvvə qalmışdı. Yaxınlaşmaqda olan təhlükənin qarşısının alınması üçün həmin qüvvələr də daim hazır vəziyyətdə idilər. Aprel ayının 15-də podpolkovnik Əhmədbəyov Qubadan göndərdiyi teleqramında Hərbi Nazirliyin rəhbərliyindən xahiş edirdi ki, zəruri olan bir-sıra təchizat və təminat əşyaları bölgəyə göndərilsin. Elə həmin gün polkovnik Tumanov bildirirdi ki, Quba alayının iki bölüyü aprelin 16-da Xaçmazda olacaqdır. Quba alayının komandiri vəzifəsini icra edən polkovnik Tumanovun yazdığına görə aprelin 17-nə kimi Quba piyada alayının 4 bölüyü, 3 nömrəli zirehli qatar, 70 nəfərlik dəmir yolu mühafizə dəstəsi Xaçmaza gəlmişdi. Aprel ayının 20-də isə polkovnik Tumanov 2-ci yüngül batareyanın da Xaçmaza gəldiyini yazırdı. Həmin batareya Ləcət və Şirvanovka yaşayış məntəqələrində yerləşdirilmişdi ki, Samur çayı üzərindəki körpünü və dəmir yolu xəttini atəşə tuta bilsin.

Qırmızı ordunun kəşfiyyat orqanlarının verdiyi məlumatlara görə aprel ayının sonlarına yaxın şimal sərhəddində Azərbaycanın 3 min nəfərlik qüvvəsi var idi. Əgər həmin məlumatın doğruluğu əsas götürülsə belə nəzərə alınmalıdır ki, bu qüvvələrin heç də hamısı nizami qüvvələr deyildi. Ordu qüvvələrinin azlığı üzündən şimal sərhəddinə jandarm bölmələri və Maliyyə Nazirliyinə tabe olan sərhəd bölmələri gətirilmişdi. Onların döyüş hazırlığı səviyyəsi isə xeyli aşağı idi.

Aprel ayının 25-də Azərbaycan sərhəddinə toplaşmış X1 ordu komandanı Azərbaycan üzərinə hücuma keçmək barədə əmr imzaladı. Həmin əmrə görə bolşevik qüvvələrinin Samur körpüsündən Bakıya qədər olan ərazini işğal etmək üçün 5 gün vaxt ayrılmışdı. Azərbaycan sərhədində azsaylı bölmələrin dayandığını bilsələr də, görünür, bolşeviklər bu qüvvələrin müqavimətinin qırılmasının heç də asan olmayacağını güman edirdilər. Lakin 70 minlik yaxşı hazırlıqlı qoşunun qarşısını 2-3 minlik dəstə ilə saxlamaq heç də asan deyildi. O da nəzərə alınmalı idi ki, hücumda bolşeviklərin 5 ədəd zirehli qatarı da iştirak etməli idi.

Azərbaycanın müstəqilliyi üçün ciddi təhlükə yarandığı bir vaxtda Səməd bəy Mehmandarov yenidən hərbi nazir vəzifəsinin icrasına qayıtdı. Bununla bağlı 1920-ci il aprelin 24-də imzaladığı 222 nömrəli əmrində yazırdı: « Bu gün mən öz vəzifəmin icrasına başladım. Hərbi nazirin müavini, topçu generalı Şıxlinskiyə təklif edirəm ki, vəzifəsinin icrasına qayıtsın».

Yəni, Vətəninin ağır günündə Səməd bəy kənarda qalmağı öz şəxsiyyətinə sığışdıra bilmədi. Ancaq şimaldan gələn təhlükə o qədər güclü idi ki, onun qarşısını almaq üçün real qüvvə yox idi. Sərhəd boyunca yerləşdirilmiş qüvvələrin səfərbər edliməsi də qırmızı ordunun qarşısının kəsilməsinə bəs etmirdi.

Aprelin 26-da axşam "III İnternasional" və digər 4 zirehli qatar hərəkətə hazırlıq komandası aldılar. Azərbaycan sərhədini birinci olaraq "III İnternasional" zirehli qatarı keçməli idi. Gecə saat 12-də "III İnternasional" qatarı işıqlarını keçirərək, sakitcə Samur körpüsünə yaxınlaşdı. Körpüdə dayanan jandarmlar qatarın yaxınlaşmasını görüb atəş açdılar. Lakin bolşevik silahlıları onları tərksilah etdilər. Jandarmlarla bərabər çayın sahilində mövqe tutmuş olan süvarilər də zirehli qatarı atəşə tutdular. Süvarilərlə bolşevik silahlıları arasında atışma xeyli

çəkdi. Ancaq qüvvələr nisbəti bərabər deyildi və azsaylı süvarilər zirehli qatarın qarşısını saxlaya bilmədilər .

Bolşevik qüvvələrinə qarşı növbəti müqavimət Yalama stansiyasında göstərildi. "III İnternasional" zirehli qatarının ardınca digər üç zirehli qatar da hərəkət edirdi. Bolşeviklər belə güclü bir zərbə qüvvəsi ilə irəliyə yolu açmağa çalışsalar da Yalamada ciddi müqavimətə rast gəldilər. Burada Azərbaycan Ordusunun iki piyada bölüyü, pulemyot komandası, sərhəd jandarm dəstəsi var idi. Bölmələrin yerləşdiyi bina stansiyadan elə də uzaqda deyildi. Qatar stansiyada dayanan kimi bolşevik qüvvələri atıcı silahlarla binanı mühasirəyə aldılar. Arxadan gələn zirehli qatarlar Azərbaycan qoşunlarının yerləşdiyi binanı top atəşinə tutdular. Dörd zirehli qatarın aramsız top atəşlərinə, qatardan düşənlərin pulemyot atəşlərinə baxmayaraq azərbaycanlı döyüşçülər təslim olmaq təklifinə güclü müqavimətlə cavab verdilər. Stansiyada olan dəmiryolu işçiləri orada dayanmış sərnişin qatarının lokomotivini açıb zirehli qatarların qarşısına gətirdilər və bununla qatarın hərəkətini ləngitməyə çalışdılar. Ancaq bolşevik toplarının atəşləri ilə bu lokomativ partladıldı və yol təmizləndi. Uzun çəkən döyüşdən sonra qoşun bölmələri də müqaviməti dayandırdılar və bolşeviklər irəliyə doğru hərəkəti davam etdirdilər.

Ləcət stansiyası yaxınlığında Azərbaycan Ordusunun 2 ədəd top və 14 ədəd pulemyotla silahlanmış zirehli qatarı bolşevik zirehli qatarına müqavimət göstərdi. Lakin bu çox çəkmədi. Bolşeviklərin 4 zirehli qatarının qarşısının alınması elə də asan olmadığı üçün Azərbayan Ordusunun zirehli qatarı geri çəkildi. Xudat ətrafında mövqe tutmuş olan piyada və topçu bölmələrinin müqaviməti də uzun sürmədi. Bolşevik qüvvələri 10 ədəd top ələ keçirdilər·

Bə'zi xırda maneələrə baxmayaraq bolşevik qüvvələri axşama yaxın Sumqayıta çatdılar. Xırdalan-Biləcəri arasında Azərbaycan qüvvələrinin möhkəmləndirilmiş müdafiə mövqelərinin olacağı güman edildiyindən bolşevik qüvvələri zirehli qatarı tərk etdilər. Ətraf təpəliklərlə irəliləyərək qatarların hərəkətini də himayə etdilər. Zirehli qatarlar isə baş verə biləcək hücumların əvvəldən qarşısının alınması üçün ətraf ərazini güclü top atəşinə tutdular. Məftil maneələr və müdafiə mövqeləri bu atəşlərlə dağıdıldı. Biləcəri yol ayrıcında zirehli qatarların ikisi Heybət-Puta yarımstansiyasına göndərildi ki, Gəncəyə doğru hərəkəti nəzarət altına alsın.

Beləliklə, bolşevik qüvvələri özləri də gözləmədən gün ərzində Bakıyadək irəliləyə bildilər. Mövcud olan mə'lumatlara görə aprelin 27-də hökumətin iclasında bolşevik qüvvələrin sərhədi keçmək xəbəri müzakirə edilərkən respublikanın müdafiə imkanları barədə sorğuya hərbi nazir S.Mehmandarov bildirdi ki, Ermənistan silahlı qüvvələrinə müqavimət göstərmək imkanımız olsa da, bolşevik qüvvələrinin hücumunun qarşısını saxlamaq mümkün deyildir.

S.Mehmandarov bu fikrini şimal sərhədlərində XI Qırmızı ordunun say tərkibi ilə müqayisədə Azərbaycan qoşunlarının həddən artıq az olması ilə bağlı söyləmişdi. Hərbi Nazirliyin rəhbərliyi Dağıstan ərazisində toplaşan bolşevik qüvvələrinin potensialı barədə mə'lumat əldə etmişdi və heç şübhəsiz ki, təcrübəli hərbçilər kimi S.Mehmandarov da, onun ətrafındakılar da hərbi qarşıdurmanın heç

də Azərbaycanın xeyrinə olmayacağını yaxşı görürdülər.

Bolşevik qüvvələrinin Azərbaycana hücumunun qarşısının alınması üçün Qarabağdan qoşun hissələrinin şimal sərhədinə atılması ilə bağlı hökumət daxilində bə'zi fikirlər də mövcud olmuşdur. Ancaq 1920-ci il aprelin 16-da F.Xoyski bildirirdi ki, Qarabağdan qoşunları heç bir vəchlə çıxarmaq olmaz, çünki bu, erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarına qarşı təcavüzkarlığının yenidən alovlanmasına gətirib çıxara bilərdi·

1920-ci il aprelin 27-də bolşevik qüvvələrinin Azərbaycan sərhədlərini pozması xəbəri alınan kimi hərbi nazir S.Mehmandarov 1-ci piyada diviziyasının komandiri, general- mayor C.Şıxlinskiyə teleqram göndərib şimal sərhədinin müdafiəsinə hərbi qüvvə ayırması barədə əmr verdi: "Bolşeviklər Yalama stansiyasına hücum etdilər. Onlar dayanmadan irəliləyirdilər. Xudatı ələ keçiriblər. Çıxılmaz vəziyyətdəyik. Günü bu gün Qızılburuna Qazaxdan bir tabor və Gəncədən bir tabor göndərməyinizi əmr edirəm. Hər bir taborda ən azı 500 süngü və pulemyot olmalıdır. Yük qatarını artıq göndərmişik. Həmin hissələrin gəlməsi vaxtını teleqrafla bildirin. Biz taborları sabaha gözləyirik" .

S.Mehmandarov bu əmri ilə də şimalın müdafiəsi üçün köməyi Qarabağdan deyil, Gəncə və Qazaxdan göndərməyi əmr edirdi. Vəziyyətin reallıqla qiymətləndirilməsi göstərir ki, Qarabağda olan qüvvələrin şimala gətirilməsi ilə belə çox böyük zərbə qüvvəsinə malik olan XI ordunun qarşısını almaq elə də asan olmazdı. Yuxarıda erməni qüvvələri ilə gərgin döyüşlərdən sonra Qarabağdakı qoşun hissələrinin say tərkibi göstərilmişdi. Erməni millətçi qüvvələrinə qarşı aparılan gərgin mübarizə Azərbaycan Ordusuna xeyli canlı və maddi itkilər yetirmişdi. Respublikanın ərazi bütövlüyünün qorunması üçün hətta şimal sərhədlərinin müdafiəsində dayanan hissələr də Qarabağa aparılmışdı. Bütünlükdə 1920-ci ilin aprelində Azərbaycanda mövcud olan hərbi şərait sür'ətlə cənuba doğru irəliləyən sovet qüvvələrinin işğalçılıq niyyətlərindən qorunmaq üçün respublikanın xeyrinə deyildi. Bolşeviklər də bundan dərhal istifadə etdilər. İşğalçı qüvvələrin əsas zərbə qüvvəsini təşkil edən zirehli qatarların Bakıya girməsi, şəhərin giriş-çıxış nöqtələrinin tutulması Azərbaycanın müstəqilliyinə son qoydu. Aprelin 28-də respublika hökuməti, Hərbi Nazirliyin rəhbərliyi iste'fa verdi. Bununla da Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi.

## HƏYATIN YENİ SINAQLARI

Aprel çevrilişi Səməd bəy Mehmandarovun coşub-daşan mənalı ömrünün, səmərəli xidmət yolunun ən məhsuldar səhifəsinin son nöqtəsini qoydu. Həmin anlarda Səməd bəyin hansı hisslərlə yaşadığını təsəvvür etmək çox çətindir. Xalqına vicdanlı xidmətinin bəhrəsi olan Cümhuriyyət ordusunun, bu ordunun keşiyində durduğu müstəqilliyinin süqutu ağır bir yük kimi Səməd bəyin başı üzərini kəsdirsə də ən ağrılı dəqiqələrdə belə o öz qürurunu itirmədi, onu gözləyən yeni sınaqları mətanətlə, dəmir iradə ilə qarşıladı.

Bir-sıra tarixi ədəbiyyatda Səməd bəyin aproel çevrilişi günlərində bolşeviklərə loyal münasibət bəsləməsi ifadə olunsa da faktlar sübut edir ki, o, son

ana kimi Azərbaycan Xalq Cümhuriyyətinə sədaqətli qalmışdı. Ancaq tale onu acı bir sınaqla üzbəüz qoydu. Çoxları dövlət müstəqilliyinin qorunması üçün yeganə ümidlərni Cümhuriyyət ordusuna, onun komandanı Səməd paşaya bağlasalar da tale ona bu ümidləri doğruldacaq qədər macal vermədi. Cəmi il yarım ərzində yaradılmış ordu sonsuz qəhrəmanlıqlar göstərərək Qarabağı qorudu, Azərbaycanı didib parçalamaq istəyən qüvvələrə layiqli cavab verdi. Lakin bu ordunun da öz imknları var idi. Təşkilinə başlanan gündən ağır döyüşlərə qatılan Cümhuriyyət ordusu özündən təsəvvüredilməz dərəcədə fərqli potensiala malik olan bolşevik qüvvələrinin qarşısını almaq iqtidarında deyildi.. Çünki qatılmış olduğu ağır döyüşlər onun qüvvəsinə təsir göstərməklə bərabər qoşunların şimala gətirilməsinə də imkan qalmamışdı. Əslində Azərbaycan və Cümhuriyyət ordusu Ermənistandan və şimaldan istiqamətlənmiş olan iki güclü qüvvənin məngənəsində qalmışdı. Ermənistandan istiqamətləndirilmiş olan qüvvənin təhlükəsi büsbütün sovuşdurulmamış ölkənin başı üzərini şimaldan şığıyan daha ciddi təhlükə kəsdirdi.

Səməd bəy istefa raportunu yazanda da ümidini kəsmirdi ki, onun yetirməsi olan Cümhuriyyət ordusu dağılmayacaq və yeni rejimdə də bu ordu Azərbaycan xalqına xidmət edəcəkdir.Hərbiyyə məktəbinin sonuncu məzunlarından olan Əjdər Qurtulan öz xatirələrində aprel ayının 28-də hərbçilərin, Hərbi Nazirliyin rəhbərliyinin, o cümlədən də Səməd bəy Mehmandarovun hansı ovqatla yaşadığı barədə maraqlı qeydlər etmişdi. Məktəbin rəisi general-mayor K.D.Çxeidzedən nəyin bahasına olursa-olsun hərbi nazir S.Mehmandarovla görüşmən və ondan gələcək fəaliyyət üçün tapşırıq almaq barədə göstəriş alan Ə.Qurtulan sonra başınatgələnləri və Səməd bəy Mehmandarovla görüşməyini belə təsvir edirdi: « Hərbiyyə məktəbi binasıyla Hərbiyə Nəzarəti və Genel Kurmay ( Baş Ərkani-hərb-M.S.) araçı yaxın deyildi. Açıq-aydın yüyürməli idim. Bütün yol boyunca silahlı qələbəlik içindən keçib getməliydik. Bu qələbəliyi zorluyaraq bir an əvvəl Genel Kurmay binasına yanaşmaq istəyiriz. Bir-neçə dəfə bizi tərslədilər. Fəqət, biz bütün bu hərəkətlərə göz yummaq məcburiyyətindəy idik... Genel Kurmay binasının önündə silahlı və həp kökslərinə bolşevik iarəti olan qırmızı rozetlər taxmış rus və ermənilər qaynaşmaqda idilər. Genel Kurmayın giriş qapısında cüt növbətçi əsgərlələ yan-yana rus-erməni bolşevik tüfəngçiləri dayanırdı. Hadisəsiz içəri girmək imkanı yox kimi idi. Fəqət nə olursa olsun girəcəkdim.

...Xızır kimi yardımımıza yetişən yaxşı tanıdığımız çavuş Axundzadə Nəsrullah Genel Kurmayın dəmir qapısından çıxarkən bizə yaxınlaşdı. Çavuş Axundzadənin növbətçi amiri, dəyişdirici yardımıyla bizi içəri almaq imkanını saxlamış oldu. İçəri daldıqdan sonra rahat bir nəfəs aldıq. Üst qata çıxar-çıxmaz zabitlər bizi yabançı sanaraq çevirdilər. Kimi tapança, kimi qısa topçu tüfəngiylə silahlıydı.

Yabançı olmadığımızı isbat üçün Genel Kurmay Topoqraf şöbəsinə getməmiz icab etdi. Minbaşı Nəsrullah Rzabəyli bizi bu əcayib qiyafədə görüncə bir an içində şaşırdı, sonra yekdigərimizə sarıldıq.

İndi genel kurmay zabitləri dışarı çıxmış, odada (otaqda-M.S.) general İbrahim ağa Vəkiloğlu ilə baş-başayıq. General Çxeidze tərəfindən

vəzifələndirilmiş olduğumuz haqqında İbrahim paşaya məlumat verdim.

Nəsrullah bəy bizi növbətçi generalın odasına götürü. Genearl Həmid bəy Qaytabaşını bulmayınca yavərilə görüşdüm. Kim olluğumuzu və gəlişimizin səbəbini öyrənəndən sonra Seyid Rzazadə Mirbağırı çağırtdırdı və təlimat verdi.Bir az sonra Mustafa ilə bərabər telefon odasındayıq.

General Çxeidzə tərəfindən gəlmiş olduğumuzu söylərkən möhtərəm orgeneral Səməd paşa Mehmandarlı bizim kim olduğumuzu sordular. Hər ikimizin yeni məzun-mülazimi əvvəl olduğumuzu, ad və soyadlarımızı ərz etdikdən sonra-Konstantin Davıdoviçə mənim salamımı və hərbiyyə naziri qaldığım müddətdə Azərbaycan milli ordusunda heç bir dəyişiklik olmayacaqdır, söyləyin-dedilər. Bu əmri üsuluna görə eynən təkrar etdim. «Yarım saata qədər gəlirəm, gözləyin məni»-deyə əlavə etdi».

Ə.Qurtulan onu da yazırdı ki, çevriliş günü bolşeviklər tərəfindən S.Mehmandarovun evinə iki ədəd bomba da atılmışdı. Həmin bombalardan Səməd bəyə və ailəsinə xətər yetməmiş, ancaq evini qoruyan iki əsgər ağır şəkildə yaralanmışdı.

Bu qeydlərdən görünür ki, çevriliş günlərində bolşevik qüvvələri Hərbi Nazirliyi dərhal ciddi nəzarət altına alaraq Cümhuriyyət ordusuna rəhbərlik etmək imkanını aradan qaldırmışdılar. Mühasirədə qalmasına baxmayaraq Səməd bəy xidmət başında olsa da yaxşı anlayırdı ki, yeni rejimin tələbləri ilə hesablaşmalı olacaqdır. Buna görə aprel ayının 28-də o da öz vəzifəsindən istefa verdi. Həmin gün Səməd bəy iki əmr imzaladı. 237 nömrəli əmrində Səməd bəy yazırdı :

« Azərbaycan parlamanının qərarı ilə sovet hakimiyyəti tanınmışdır. Bunu elan etmələ əmr edirəm:

1.Bütün hissələrdə, qərargahlarda, idarələrdə, təşkilat və müəssisələrdə işlər yeni hakimiyyətə qədərki kimi davam etdirilməlidir.

2.Hərbi Nazirliyin sərəncamında olan yüz milyonlarla qiymətində əmlakın, ərzaq ehtiyatının, pulun, silahın, sursatın israfına, yanlış və qanunsuz məsrəfinə görə təkcə buna yol verənlər deyil, həm də Hərbi Nazirliyin hissələrində, idarələrində, təşkilat və müəssisələrində qanun-qaydaya və təsərrüfat fəaliyyətinin düzgün aparılmasına cavabdeh olanlar məsuliyyət daşıyırlar».

238 nömrəli əmr isə Səməd bəy Mehmandarovun Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri kimi imzaladığı sonuncu əmri idi. Bu əmrdə Səməd bəy öz əli ilə qurduğu ordunu, bu ordunun zabit və əsgərlərini necə böyük məhəbbətlə sevdiyini, onların qayğısına qaldığını görmək çətin deyildir. Səməd bəyin bu son əmri onun Cümhuriyyət ordusunun bütün şəxsi heyəti ilə salamatlaşması və halallaşması idi:

« Bu gün mən öz vəzifəmi sovet hakimiyyəti tərəfindən yenicə təyin edilmiş hərbi və dəniz komissarı Çingiz İldrıma təhvil verdim. Bunu elan edib salamatlaşan zaman mən bütün əziz xidmət yoldaşlarıma sədaqətli və cəsur xidmətlərinə görə öz səmimi minnətdarlığımı bildirirəm. Şübhə etmirəm ki, onlar yeni hakimiyyət dövründə də hamımız üçün əziz olan Azərbaycan naminə vicdan və sədaqətlə xidmət edəcəklər.

Salamat qalın, böyükdən tutmuş kiçik əsgərə qədər sizin hamınıza ürəkdən,

bütün səmimiyyətimlə həm işdə, həm də ailə həyatında hər cürə əmin-əmanlıq, müvəffəqiyyət və xoşbəxtlik arzu edirəm.

Amin Allah!

Hərbi nazir, tam artilleriya generalı S.Mehmandarov».

Çevriliş günlərində S.Mehmandarova ölkəni tərk etmək təklifləri olmuşdu. Azərbaycanı tərk etmək məcburiyyətində qalmış istiqlal mücahidlərinin başı üzərini kəsdirmiş real təhlükənin miqyasını azaltmadan qeyd etmək lazımdır ki, Səməd bəy doğma Vətənində qalmağı üstün tutdu. İxtiyar çağında o, mövcud olan hər cürə çətinlik və təhlükəni də elə Vətən torpağında qarşılamağı lazım bildi. Mərhum polkovnik Ə.Abbasov öz kitabında Səməd bəyin oğlu İqor Mehmandarova istinadən belə bir hadisəni təsvir edirdi: « S.Mehmandarovun oğlu İqor Səməd oğlu Mehmandarovun danışdığına görə onun atası 1920-ci il parelin 27-də parlamentin iclasında iştirak etmişdi. Parlament tələsik olaraq toplaşmışdı. Musavat hökumətinin başçısı, xarici işlər naizi və dövlət çinovniklərindən bəziləri bankın qızıl ehtiyatlarını ( bu məlumat dəqiqlik tələb edir -M.S.) ələ keçirib Bakı stansiyasında hərbi naziri gözləyirdilər ki, respublikanı tərk etsinlər. Mehmandarov stansiyaya gəlmədi, parlamentin iclasından sonra öz evinə qayıtdı».

Ancaq S.Mehmandarov sadəcə evinə dönmədi. Yəni öz silahdaşlarını buraxıb sakitliyə çəkilmədi. Səhərisi gün o yenidən öz vəzifsnin icrasına yollandı və elə həmin gün də istefa verdi.

Aprel çevrilişindən sonra Ə.Şıxlinski bir müddət Hərbiyyə və Bəhriyyə komissarının müavini, daha sonra isə Komissarlığın hərbi rəhbəri oldu. Səməd bəy Mehmandarovun bolşevik rejiminin ilk aylarında nə ilə məşğul olduğunu söyləmək çətindir. Çox güman ki, bu dövrdə S.Mehmandarova hər hansı bir vəzifə tapşırılmamışdı. Bolşeviklər ümumən Cümhuriyyət zabitlərinə etibar etmədikləri kimi Səməd bəy Mehmandarova da etibar etmirdilər. Ancaq onu nəzarətdən kənarda da qoymamışdılar. 1920-ci il may ayının sonlarında Gəncədə başlayan antisovet üsyanı yatırılan kimi çoxlu sayda Cümhuriyyət zabitləri ilə birlikdə S.Mehmandarov və Ə.Şıxlinski də bolşeviklər tərəfindən həbs edildilər. Mövcud olan fatlardan aydın olur ki, S.Mehmandarovun həbs edilməsində yeni rejimin ilk hərbiyyə və bəhriyyə komisarı olan Çingiz İldrımın da özünəməxsus rolu olmuşdu. Məsələn, onun X1 ordunun xüsusi şöbəsinin rəisi olan Pankratovun adına yazdığı raportda deyilirdi:

«Fövqəladə Komissiya yol. Pankratova!

Mənim keçmiş hərbi nazir Mehmandarov və Bakı komendantı köməkçisi Azad Vəzirov haqqında teleqram və məlumatlarıma baxmayaraq hələ də azadlıqdadırlar. Yuxarıda göstərilən şəxslərin təcili həbs olunmaları barədə sərəncam verin...

Xalq Hərbi Dəniz komissarı İldrım» ( Sitat E.Qocanın « Cəllad etirafı» kitabından götürülmüşdür. Bakı, 1999, s.89). Göründüyü kimi Səməd bəyin azadlıqda olması Ç.İldrımı çox narahat edirdi və o heç bir səbəb göstərmədən S.Mehmandarovun təcili həbsini tələb edirdi. Məhz belə əsassız tələblərin nəticəsində Səməd bəy 1920-ci il iyun ayının 4-də Fövqəladə Komissiya tərəfindən həbs edildi və evində axtarış keçirildi.

Heç şübhəsiz ki, Azərbaycan Respublikası İnqilab komitəsinin sədri Nəriman Nərimanov qətiyyətli şəkildə onların taleyi ilə maraqlanmasaydı həm S.Mehmandarov, həm də Ə.Şıxlinski çoxsaylı digər Cümhuriyyət zabitləri kimi qətlə yetiriləcəkdilər. N.Nərimanov şəxsiyyətlərinə böyük hörmək bəslədiyi bu iki generalı Moskvaya, V.Leninin sərəncamına göndərməklə onları Azərbaycanda mövcud olan təhlükədən də uzaqlaşdıra bildi. Bunun üçün o, V.Leninə xüsusi bir məktub da göndərdi. Həmin məktubda deyilirdi :

«Əziz Vladimir İliç !

Gəncə üsyanı zamanı köhnə Azərbaycan ordusunun bütün zabitləri həbs edilmişdi. Onların arasında tanınmış generallar Mehmandarov və Şıxlinski də vardır.

Müfəssəl araşdırmadan sonra aydın olmuşdur ki, bu generalların günahı yoxdur. Lakin hər halda vəziyyətimiz möhkəmlənənə qədər və bizim ümumi işimizə kömək göstərmək məqsədiylə qərara almışıq ki, onları qərargahda işləmək üçün Sizin sərəncamınıza göndərək. Çünki onlar hərbi mütəxəssis kimi əvəzolunmazdır. Onlardan biri- Şıxlinski Nikolay ordusunda artilleriyanın allahı sayılırdı. Polşa cəbhəsinin sonuna kimi qoy onlar Moskvada işləsinlər. Sonra isə xahiş edirəm onları bizə , qoşun hissələrimizin formalaşdırılmasına göndərəsiniz. Lazımdır ki, bu vaxt ərzində onlara qayğı göstərilsin. Onların siyasi əqidəsi- müsavatçılara nifrət edirlər və əmindirlər ki, Azərbaycan Sovet Rusiyasız mövcud ola bilməz. İngilislərin düşmənidirlər, Rusiyanı sevirlər.

Kommunist salamı ilə N.Nərimanov. 10 avqust 1920».

Səməd bəy qalan bütün ömrü boyu çox böyüu sınaqlarla rastlaşsa da əqidəcə heç vaxt kommunist olmamış və kommunist ideyalarına da mey göstərməmişdi. Zabit bütövlüyü, insani prinsipiallığı onun ən başlıca əqidəsi idi. Gəncə üsyanı ilə olan hər hansı bir əlaqəsinə gəlincə isə qeyd etmək lazımdır ki, bu barədə məlumat mövcud deyil. Bolşevik qüvvələri o vaxtlar Bakını daha ciddi nəzarət altına almışdılar və Cümhuriyyət tərəfdarlarının buradakı hər bir hərəkəti təqib olunurdu. Elə bu təqib üzündən S.Mehmandarovun və Ə.Şıxlinskinin bölgələrlə bütün əlaqələri də kəsilmişdi. Bu qənaətlərə görə doğrudan da ola bilsin ki, S.Mehmandarovla Ə.Şıxlinskinin Gəncə üsyanı ilə müəyyən bir əlaqəsi olmamışdı. Bununla belə S.Mehmandarovun Gəncə üsyanı ilə hər hansı bir əlaqəsinin olmamasını onun yeni rejimə loyallığı ilə də əlaqələndirmək düzgün olmazdı.

N.Nərimanovun məktubu ilə Moskvaya yollanan S.Mehmandarovu və Ə.Şıxlinskini burada yeni sınaqlar gözləyirdi. Moskvaya çatan kimi onlar yenidən həbs edildilər və Butır həbsxanasına atıldılar. Bu hadisə ilə bağlı jurnalist Lətif Şüküroğlunun «Azərbaycan Ordusu» qəzetinin 6 iyun 2000-ci il tarixli nömrəsində çap olunmuş «Azərbaycanın ilk tam artilleriya generalı» adlı məqaləsində maraqlı məlumatlar mövcuddur. Təhlükəsizlik Nazirliyinin arxivinin materiallarına istinad edən bu məqalədən aydın olur ki, 1920-ci il avqust ayının 18-də Moskvada həbsə alınmış və noyabr ayının əvvəllərinə kimi həbsdə saxlanmışdı. Onun və eləcə də Ə.Şıxlinskinin Moskvada həbsxanadan azad edilməsi yenə də N.Nərimanovun ciddi şəkildə bu məsələyə müdaxilə etməsi nəticəsində mükün olmuşdu. O, Dəfələrlə Ümumrusiya orqanlarına müraciət etmiş

və son nəticədə hər iki generalın həbsdən azad olunmasına nail olmuşdu. Ə.Şıxlinski öz xatirələrində Moskvada həbs olunmaları barədə heç nə yazmamışdır. Həmin xatirələrin hansı dövrdə yazıldığı nəzərə alınarsa bunun səbəbini anlamaq mükündür.

Nərimanov tərəfindən Moskvaya göndərilmələrini Ə.Şıxlinski öz xatirələrində belə təsvir edirdi:

«Bu hadisələrdən sonra ( Gəncə və Qarabağda baş verən antisovet üsyanları nəzərdə tutulur-M.S.) Bakıda olan bütün zabitləri, o cümlədən Mehmandarovu və məni Moskvaya göndərmək qərarına gəldilər. O zaman inqilab komitəsinin sədri Leninin adına mənə bir məktub verdi. Bu məktubunda o, faydalı ola biləcək iki məşhur generalı onun sərəncamına göndərdiyini yazırdı. Bizə ailəmizi də aparmağa icazə verilmişdi. Mən tək gedirdim. Mehmandarov isə arvadını və oğlunu aparırdı. Biz toplanış məntəqəsinə gələndə xəbər verdilər ki, ailələrimiz ancaq bizdən ayrı gedə bilər. Onda Mehmandarov öz ailəsini geri qaytardı.

Bizə böyük bir vaqon hazırlayıb qızıl əsgərlərdən ibarət keşikçi dəstəsi təyin etdilər. Moskvaya çatanda bizi Moskva hərbi dairə qərargahının sərəncamına göndərdilər. Dairə qərargahı bizi Ümumrusiya Baş Qərargahına göndərdi. Orada məni çox şadlıqla qəbul etdilər, çünki qərargahın başçısı keçmişdə mənim rəhbərliyim altında işləmiş bir adam idi. O həmin saat telefonla Hərbi İnqilab Sovetinin səhra qərargah rəisi mərhum Pavel Pavloviç Lebedyevə xəbər verdi ki, Əliağa bu saat onun otağındadır. O cavabında dedi:

-Onu mənim əvəzimdən öpün və deyin ki, tez mənim yanıma gəlsin ki, mən də onu öpüm.

Mən elə o günü onun yanına getdim. Mehmandarov da, mən də - hər ikimiz onun sərəncamına verildik. O məni dərhal işə başlamaq üçün Qızıl Ordu Topçu Müfəttişliyi idarəsinə göndərdi. Bundan bir az sonra mən də, Mehmandarov da Topçu Nizamnaməsi Komissiyası heyətinə təyin edildik».

Müvafiq arxiv sənədlərinin dövrüyyədə olmaması üzündən Səməd bəy Mehmandarovun fəaliyyəti barədə geniş məlumat söyləmək çətindir. Ömrünün müdrik çağlarında zəngin təcrübəsi ilə təyin olunduğu vəzifədə Səməd bəy yəqin ki, yenidən işgüzarlıq nümayiş etdirmişdi. Yeni bolşevik rejimi də güclü ordu qurmaq üçün təcrübəli hərbçilərə ehtiyac duyurdu. Bu baxımdan onlar S.Mehmandarovun təcrübəsindən də bəhrələnə bilərdilər.

1921-ci ilin yayında S.Mehmandarovla Ə.Şıxlinski yenidən Azərbaycana dəvət olundular. Bu barədə Ə.Şıxlinski xatirələrində belə yazırdı: «Yayda Serqo Orconikidze yoldaşdan bir teleqram gəldi ki, Azərbaycan Sovet Sosialist Respublikası hökumətinin xahişinə görə Mehmandarov və Şıxlinski Azərbaycan SSR Hərbiyyə və Bəhriyyə Komissarlığının ixtiyarına ezam edilməlidirlər. İyulun 18-də biz ikimiz də Bakıya yola dişib, iyulun 22-də gəlib çatdıq. Bakıda hər ikimiz Azərbaycan sovet qoşunları qərargahına daxil edildik. Bundan başqa biz hər ikimiz Azərbaycan komanda məktəbində topçuluqdan, Mehmandarov rus, mən isə Azərbaycan dilində dərs deməyə başladıq. Qarnizon sədarəti altında olaraq Bakı Qarnizonu Hərbi-Elmi cəmiyyətinin təşkili haqqında əmr verdi. Mən sədr müavini təyin edildim. Qarnizon rəisi özü sədrlik etmirdi, adətən iclasları mən aparırdım.

Mehmandarov isə bu cəmiyyətin üzvlüyünə təyin edilmişdi».

Səməd bəy Mehmandarov Moskvadan qayıdan kimi Azərbaycanın hərbiyyə və bəhriyyə komissarının xüsusi tapşırıqlar üzrə köməkçisi təyin edildi. Mövcud olan kəsad məlumatdan aydın olur ki, o, kifayət qədər nüfuz və etibara malik idi. Məsələn, 1921-ci ilin oktyabrında S.Mehmandarov Hərbiyyə və bəhriyyə komissarı Ə.Qarayevin əmri ilə ordu üçün ayrılmış pul kütləsinin bölüşdürülməsi üzrə komissiyanın üzvü təyin edilmişdi. Həmin vaxtlar nəğd pul kütləsi çatışmadığından hərbi qulluqçuların maaşlarının verilməsində də bir çətinlik yaranmışdı. Ayrılan pul kütləsinin bölüşdürülməsində sui-istifadəyə yol verilməməsi üçün isə Ə.Qarayev tərəfindən yuxarıda adı çəkilən komissiya təşkil edilmişdi.

1922-ci il oktyabrın 18-də Azərbaycan Xalq Komissarları Sovetinin iclasında Səməd bəy Mehmandarova, Ə.Şıxlinskiyə və bir neçə zabitə maaaşdan əlavə hər ay 50 qızıl manat verilməsi qərara alındı. Bu əlavə vəsait hərbi xidmətlərinə görə onlar üçün ömürlük kəsilmişdi və onların həyat şəraitlərinin yaxşılaşdırılması üçün nəzərdə tutulmuşdu.

1924-cü ildə 1928-ci ilə qədər isə S.Mehmandarov Azərbaycan Birləşmiş Komandirlər məktəbinin müəllimi oldu. Qeyd etmək lazımdır ki, həmin məktəb bir vaxtlar türk zabitlərinin yardımı ilə Gəncədə açılmış və sonradan Səməd bəy tərəfindən Bakıya köçürülmüş və daha da təkmilləşdirilmiş hərbi məktəbin bazasında yaradılmış. Səməd bəy burada da böyük məsuliyyət və səmərə ilə xidmət edirdi. O şübhə etmirdi ki, burada təhsil alan azərbaycanlı zabitlər hansı rejimə xidmət etməyindən asılı olmayaraq Azərbaycanın hərbi ənənələrini uğurla davam etdirəcəklər. Qafqaz ordusunun komandanı olmuş İ. Yakirin Səməd bəy haqqında etmiş olduğu qeydlərində də onun öz zabit qürurunu yüksək tutduğunu, özünə qarşı tələbkarlığı heç vaxt azaltmadığını nümayiş etdirir: « Bütün sahələrdə qüsursuz olan bir insan kimi sonsuz dərəcədə ədalətli və səliqəli pedaqoqdur, öz vəzifəsinə çox vicdanla yanaşır. Bütün müddət ərzində bir dəfə də dərs buraxmamışdır. Üzürlü səbəblərə görə buraxılan dərsləri isə o, kursantlarla razılaşaraq dərsdən sonrakı saatlarda keçirdi ki, kurs bütünlüklə başa çatdırılsın. Böyük döyüş təcrübəsi var və yüksək komandir vəzifələrində çalışmışdır. Əla pedaqoqdur, zəngin biliyə malikdir, dərsi bütün sifnin fəal iştirakı ilə aparır, kursantlar ona böyük ehtiram və məhəbbət bəsləyirlər. Mehmandarov yoldaş nadir topçu olduğundan öz vəzifəsinə tamamilə uyğun gəlir».

Qırmızı komandir Yakirin bu qeydləri də göstərir ki, Səməd bəy öz zabit qürurunu və bütövlüyünü qoruyub saxlamışdı, vəzifə məsuliyyətini heç vaxt itirməmişdi. Azərbaycan komandirlər məktəbində Səməd bəyin tələbəsi olmuş mərhum general Akim Abbasov Ə.Abbasovun kitabına yazdığı ön sözdə öz müəllimini belə xatırlayırdı : « Mənə xoşbəxtlik nəsib olmuşdu. Mən üç il rus-yapon və Birinci dünya müharibəsinin bu tanınmış qəhrəmanının rəhbərliyi altında oxumuşam. Onun leksiyaları elə maraqlı idi ki, onları elə məharətlə oxuyurdu ki, hər bir sözü dinləyicilərin ürəyində özünə yer tapırdı. Bu insanın hərbi işi geniş və dərindən bilməsi insanı heyrətə salırdı. Artilleriya və riyaziyyat biz kursantlar üçün ən sevimli dərslər idilər.Nə üçün ? Əlbətdə, ona görə ki, bizim müəllimimiz

general S.S.Mehmandarov idi. Onun duyumu, hərbişinin, xüsusilə artilleriyanın nəzəriyyə və praktikasının ən mürəkkəb suallarının aydın və anlaşıqlı şəkildə başa salmaq qabiliyyəti təəccüb və heyrətə salırdı. Elə bir kursant yox idi ki, həmişə döyüşlərdə dəqiq komandir yanaşması və igidliyi ilə fərqlənən və əsgər və zabitlərdə qürur doğuran şanlı hərbçi komandan Səməd bəy Sadıq bəy oğlu Mehmandarovun həyat və fəaliyyətini bilməmiş olsun. Qoca general qeyri-adi dərəcədə əməksevər idi. Özünün çətin peşəsini ürəkdən sevirdi, ona sadiq idi və heyranedici bir çalışqanlıqla bu hissləri bizə aşılayırdı».

1928-ci il iyun ayının 1-də Səməd bəy Mehmandarov səhhətilə əlaqədar olaraq təqaüdə çıxdı və hərbi xidmətlərinə ehtiram əlaməti olaraq ona fərdi dövlət təqaüdü kəsildi.

Burada Səməd bəyin həyatı ilə bağlı bir məqama da aydınlıq gətirmək yaxşı olardı. Bu da Səməd bəy Mehmandarovun sovet rejimi dövründə küçələri süpürməyə məcbur edilməsi barədə söylənilən söz-söhbətlərdir. N.Davıdov «Molodyoj Azerbaydjana» qəzetinin 18 fevral 1989-cu il tarixli nömrəsində çap olunmuş «General Mehmandarovun anketi» adlı yazısında belə qeydlər vardır: « Deyirlər ki, 1923-cü ildə ağsaqqal generalı əlində süpürgə Bakıda görüblər. Altmış yeddi yaşlı general, müsavat hökumətinin hərbi naziri kimi iki il keçdiyi həmin küçəni süpürüb adamlardan utanaraq Azərbaycan Fövqəladə Komissiyasına qeyd olunmağa tələsirdi. Özü də hər gün. Qoy görsünlər ki, o, yerindədir, heç yerə getməyib, heç yana qaçmayıb» ( Sitat Ş.Nəzirlinin «Cümhuriyyət generalları» kitabından götürülüb, s.131).

Müəllif fikrini söylərkən nəyə istinad etdiyini göstərmir. Şayiələri əsas tutaraq Səməd bəyin Bakının küçələrində əlində süpürgə təmizlik işlərinə məcbur edildiyini iddia etmək isə heç də düzgün deyildir.Bu fakt kor-koranə digər müəlliflər tərəfindən də təkrar edilmiş və yenə də edilməkdədir. Söhbət heç də Səməd bəyin bolşevik rejimi tərəfindən hər hansı bir hörmətsizliklə rastlaşdığını inkar etməkdən getmir. Məsələn, Cümhuriyyət dövründə Gürcüstandakı hərbi attaşeliyin zabiti olmuş Əsgər Əsgərov sonralar yazdığı xatirələrində 1920-ci il may-iyun aylarında olmuş Gəncə-Qarabağ antisovet üsyanlarından sonra həbsxanada çoxsaylı zabitlərlə, o cümlədən S.Mehmandarovla qarşılaşdığını qeyd edirdi. Məlumdur ki, həmin üsyanlardan sonra milli zabitlər kütləvi şəkildə həbs və qətl ediliblər. Ə.Əsgərovun yazdığına görə qısa müddət ərzində 266 zabit güllələndi ki, onların arasında 12 general, 27 polkovnik və podpolkovnik var idi. Səməd bəy Mehmandarov həbs ediləndə əslində güllələnmək üçün həbs edilmişdi. İnsani sifətlərini itirmiş olan ifrat bolşeviklərin milli zabitlərə, o cümlədən Səməd bəyə qarşı hər hansı hörmətsizlik göstərməsi, həbsxana daxilində onun təmizlik işlərinə cəlb edilməsi mümkündür. Məhbəs həyatının öz tələbləri vardır. Ancaq N.Nərimanovun səyləri ilə o tezliklə həbsxanadan azad edildi və Moskvaya göndərildi.

1923-cü ildə və ya da sonrakı illərdə isə Səməd bəyin Bakının küçələrinin süpürdülməsinə məcbur edilməsi, xüsusilə də N.Davıdovun yuxarıda təsvir etdiyi heçbir halda mümkün ola bilməzdi. Əvvəla, 1921-ci ildən başlayaraq Səməd bəyin kifayət qədər nüfuzlu bir vəzifəsi var idi. O, yuxarıda qeyd edildiyi kimi hərbiyyə

və bəhriyyə komissarının xüsusi tapşırıqlar üzrə müşaviri idi. Bundan başqa ona bir-sıra məsul vəzifələr tapşırılmış və 1922-ci ildə hərbi xidmətlərinə görə xüsusi hal kimi maaşına əlavə vəsait artırılmışdı. Bu fakt N.Davıdovun məqaləsində də təsdiq olunur. Yəni, Səməd bəy kifayət qədər məsuliyyətli vəzifələrdə işgüzar fəaliyyət göstərirdi. Ona etibar edilirdi və həmişə göz qabağında idi. Ona görə də onun həmin vaxtlar küçə süpürülməsinə göndərilməsi və ya ÇK-ya qeydiyyata tələsməsi mümkün olan iş deyildi. Təqaüdə çıxanda da ona fərdi pensiya kəsilmişdi və ömrünün son illərində də onun belə işlərə məcbur ediləbiləcəyi inandırıcı deyil. Ona görə də Səməd bəyin Bakının küçələrini süpürdüyünü iddia etmək elə bu şəxsiyyəti sevməyənlərin dəyirmanına su tökməkdir. Sadəcə olaraq azadlıqda olduğu vaxt onu bu işə məcbur etmək olmazdı və yəqin ki, kimsə buna cürət etməzdi. Səməd bəy Mehmandarovun şəxsiyyətinə və fəaliyyətinə ən böyük haqsızlıq isə onun ölümündən sonra edilmişdi. 1931-ci ilin fevralında vəfat edən Səməd bəy Çəmbərəkənd qəbristanlığının yuxarısında dəfn edilmişdi. Ancaq 30-cu illərin sonlarında burada park salınanda və M.S.Kirovun abidəsi üçün meydan hazırlananda 37-ci ilin qorzu və təqibləri altında kimsə müsavatın hərbi naziri olmuş Səməd bəyin qəbrinin yerinin dəyişdirilməsinə cürət etmədi. Bununla da əqli, zəkası, duyumu, istedadı, təşkilatçılıq və sərkərdəlik qabiliyyəti ilə dünya sərkərdələri sırasında dayanan Səməd bəy Mehmandarovun xalqa miras qalmış qəbri də bolşevizm kabusunun hakim olduğu ümumxalq biganəliyinin, haqsızlığının, övlad naşükürlüyünün qurbanı oldu. Bu haqsızlıq və ədalətsizlik indi də davam etməkdədir.